

DİL VƏ ƏDƏBİYYAT

LANGUACE AND LITERATURE

ЯЗЫК И ЛИТЕРАТУРА

İSSN 2218-7588
E-ISSN 2219-5513
İASJ 0000 0001

BEYNƏLXALQ ELMİ-NƏZƏRİ JURNAL

2(128) 2025

DİL VƏ ƏDƏBİYYAT
LANGUACE AND LITERATURE
ЯЗЫК И ЛИТЕРАТУРА

BEYNƏLXALQ ELMİ-NƏZƏRİ JURNAL

2(128)

İSSN 2218-7588
E- ISSN 2219-5513
İASJ 0000 0001

DİL VƏ ƏDƏBİYYAT

LANGUAGE AND LİTERATURE ЯЗЫК И ЛИТЕРАТУРА

Beynəlxalq elmi – nəzəri jurnal

Elektron versiyası Электронная версия

2(128)

Jurnal
1993-cü ildən 2 aydan bir çıxır

BAKI - 2025

REDAKSİYA HEYƏTİ - РЕДАКЦИОННАЯ КОЛЛЕГИЯ

==========

UMUMİ DİLÇİLİK ОБЩЕЕ ЯЗЫКОЗНАНИЕ:	**Akademik N.Cəfərov** **Prof.N.Məmmədli**
ŞƏRQŞÜNASLIQ VƏ İLAHİYYAT **ВОСТОКОВЕДЕНИЕ И ТЕОЛОГИЯ:**	**Prof.R.Rüstəmov–məsulredaktor** **Prof. M.Kazımov** **Dos.A.Məmədova**
AZƏRBAYCAN DİLÇİLİYİ: **АЗЕРБАЙДЖАНСКОЕ ЯЗЫКОЗНАНИЕ:**	**Prof.E.Əzizov** **Prof. T.Hacıyev** **Prof.S.Abdullayeva** **Dos. Ə.Agakişiyev** **Dos. M. Əlizadə**
AZƏRBAYCAN ƏDƏBİYYATI: **АЗЕРБАЙДЖАНСКАЯ ЛИТЕРАТУРА**	**Dos.E.Məmmədov-məsulredaktor** **Dos.Ə.Nəcəfzadə**
ƏDƏBİYYAT NƏZƏRİYYƏSİ: **ТЕОРИЯ ЛИТЕРАТУРЫ:**	**Akad. N.Paşayeva-məsul redaktor** **AMEAmüx.üzvü,prof.T.Mütəllimov**
TÜRKOLOGİYA: **ТЮРКОЛОГИЯ:**	**Akad.N.Cəfərov–məsulredaktor** **Fil.f.dok., dos. N.Hüseynova** **Fil.f.dok. R.Bayramov**
JURNALİSTİKA: **ЖУРНАЛИСТИКА:**	**Prof.Q.Məhərrəmli–məsulredaktor**
RUS FİLOLOGİYASI: **РУССКАЯ ФИЛОЛОГИЯ:**	**Prof. Ə.Paşayeva** **Prof.L.Əhmədova** **Prof.M.Cəfərov** **Prof.L.Quliyeva-məsulredaktor**
QƏRB FİLOLOGİYASI: **ЗАПАДНАЯ ФИЛОЛОГИЯ:**	**Prof.N.Vəliyeva-məsulredaktor** **Prof. C.Nağıyev** **Prof.B.İsmayılov** **Dos.E.Fərəcullayeva-məsulredaktor Dos. R.Xəlilov**
PEDAQOGİKA VƏ PSİXOLOGİYA:	**Prof.S.Mirzəyev** **Prof. R.Hüseynzadə** **Dos.S.Abbasova-məsulredaktor** **Dos. L.Ələkbərova**
İNSANŞÜNASLIQ **ЧЕЛОВЕКОВЕДЕНИЕ:**	**RTAmüx.üzvü.,prof.C.M.Mallaev** **Prof. P.Omarova** **Prof.M.Seyidova**
KİTABŞÜNASLIQ **КНИГОВЕДЕНИЕ:**	**Prof.X.İsmayılov-məsulredaktor** **Dos.M.Məmmədov** **Dos.K.Aslan**

Baş redaktor: dos. T.Cəfərli. Baş redaktorun müavinləri: dos. L.Ələkbərova, fil.f.dok. R.Bayramov
Xarici əlaqələr üzrə müavin: dos. N.Əfəndiyeva. Məsul redaktor: dos. F.Əlizadə
Məsul katib: Pərvin Eyvazov. Administrator: C.T.Əliyev
Redaksiyanın ünvanı: Bakı AZ1073, Z.Xəlilov23. BDU, Filologiya fakültəsi. Tel. 050 287 10 14
Jurnalın elektron ünvanı: http://philology.bsu.edu.az/az/content/dil_v_dbiyyat_beynlxalq_elminzri_jurnal

DİLÇİLİK – ЯЗЫКОЗНАНИЕ.....5-146
A. BAYRAMOVA. Qərbi Azərbaycan şivələrində işlənən bəzi sözlərin dervitalogiyası.....5
T. ƏLİYEVA. Müasir ədəbi dildə işlənən bağlayıcıların ilkin arxetipləri.....9
G. ABBASOVA. İngilis və Naxçıvan nağıllarının leksik xüsusiyyətləri.....13
G. ASADOVA. The role of pronouns in social contexts: how formality, age, education, and social status influence.....16
P. CƏFƏROVA. İngilis dilində cümlənin kommunikativ tiplərində nüvə tonlarının funksiyalarına dair.....19
A. QULİYEVA. C.Moyesin "Səndən sonra" əsərində metaforlar.....24
S. SEYİDOVA. Azərbaycan dilində rəsmi–əməli üslub.....29
Ü. PƏNƏHOVA. Ecolinguistics and language purity: preserving the linguistic environment in the age of globalization..34
G. MÜRSƏLOVA. Yeni nəsil və dil: ingilis dilinin Azərbaycan gənclərinin nitqinə təsiri.....38
R. HÜSEYNOVA. İngilis dilinin standartlaşma prosesi.....41
R. AĞAYEVA. İngilis dilində nitq etiketinin sosiolinqvistik inkişafı.....44
M. TƏHMƏZOVA. İngilis dilinin variantlarının əsas xüsusiyyətləri.....48
A. ƏHMƏDOVA. "Dastani- Əhməd Hərami"də arxaik sifətlər.....55
A. RƏCƏBOVA. Müasir ingilis dilində "Vətənpərvərlik" konseptinin semantik xüsusiyyətləri.....59
S. TAHİROVA. İngilis dilində intonasiya modellərinin rabitəli nitqdə işlənmə mexanizminə dair.....64
S. ABDULLAYEVA. Azərbaycan dilində danışıq dilinin ümumi probemləri və normaları.....68
S. VƏLİYEVA. Xəbərin mübtəda ilə şəxsə görə uzlaşmasə şifahi və yazılı elektron media vasitələrinin.....71
B. QƏDİMOVA, S.SADIQOVA. Klassik ədəbiyyatda istifadə olunmuş arxaik sözlərin leksik-semantik funksiyaları 74
X. БАБАШОВА. Предложение как компонент текстовой целостности.....78
K. MƏLİKLİ. Dil strukturunda sintaktik transpozisiva və onun mahiyvəti.....81
S. QULİYEVA. XX əsrin 80-90-ci illərində texniki terminologiyanın inkişaf xüsusiyyətləri.....85
S. ƏLİYEVA. "Divanü lüğat-it-türk"əsərində ismin quruluş modellərinin əksi.....88
S. CƏLİLOVA. Məhəmməd Füzulinin dilində işlənmiş frazeoloji vahidlərin milli tərkibi.....91
K. MƏHYƏDDİNOVA. Türk və Azərbaycan dillərində sadə cümlələr və onların bölgüsünə münasibət.....95
V. PƏNAHOVA. İngilis dilində dilin lüğət tərkibinin zənginləşdirilməsi yolları.....98
S. SƏFƏROVA. Ingilis və Azərbaycan dillərində frazeoloji birləşmələr və onların müqayisəli təhlili.....101
L. MƏMMƏDOVA. Fars dilində rəng adlarının morfoloji quruluş modelləri.....104
D. KHANBABAYEVA. Jargon words in the english language.....109
A.BAHRUZ NURI. Müasir ingilis dilinin lüğətin üslubi differensiasiyası sistemində kulturonimlərin yeri.....112
M.HACIZADƏ.21-ci əsrdə tibbdə varanan terminlərin leksik xüsusivvətləri.....116
Н.ЗЕЙНАЛОВА. Лексико-семантические особенности дефективных глаголов в русском языке.....120
A.HÜSEYNOVA.Sosial şəbəkə mətnlərində qrammatik normaların pozulması.....123
A. MEYBƏLiYEVA. Dildə bilinqvizm hadisəsi və onun mahiyyəti.....128
Л. МАМЕДОВА.Методика работы с текстом для формирования коммуникативной компетенции учащихся..130
S.ƏHMƏDOVA, N. QURBANOVA, L .XALMAMATOVA. Азербайджано-Узбекистанские культурно-языковые отношения на фоне политики Гейдара Алиева: вчера и сегодня.....133
Z. MƏMMƏDOVA,T. NƏSİROVA.Mətnin linqvistikası, semantikası, mətnin yaranmasında kommunikativ, emotiv amillər.....135
Z. NOVRUZOVA, İ. TAHİROVA. Kommunikativ baxımdan dörd dil bacarıqlarının tədrisi.....140
З.АСКЕРОВА.Топонимические компоненты в кулинарной терминологии.....144

ƏDƏBİYYATŞUNSLIQ-ЛИТЕРАТУРОВЕДЕНИЕ.....147-207
A. CƏFƏROVA. Folklor simvollarının semantikası: yaxşı-pis, xeyir-şər, qaranliq-işıqlı, isti-soyuq, acı-şirin.....147
G, ŞÜKÜROVA. İsa Həbibbəyli: Çingiz aytmatov "Dühası".....151
Ə.. ƏLİYEVA. Culian Barns yaradlcılığında psixologizm.....155
N. ƏLİYEVA, İ. ƏLİYEVA. İsmayil Şxlının romanlarında qadin surətləri.....160
O. İSMAYILOVA. Dünya ədəbiyyatı və komparativistika şöbəsinin böyük elmi işçisi.....163
T. MƏMMƏDOVA. Şair Ağacanın dastanları.....167
T.BAĞIROVA. Sərraf Qasımın qoşmaları və gəraylilari.....170
S. MƏMMƏDOVA. Mirzə Bilalın poetik irsi.....174
H. YUSİFOV, Z. ADIGÖZƏLOVA. C.Cabbarlının dramaturgiyasında qadın obrazları.....177
N. İSAYEVA. Məhərrəm Cəfərlinin ömür yolu.....180
G. XIDIRLI. Xəstə Həsənin Axısqanın ustad aşiqları ilə deyişmələri.....183
C. ZEYNALOV. Kamal Abdulla hekayələrində mifoloji zaman və məkanın xarakteristikası.....189
V. ALLAHVERDİYEV. Rəsul Rza yaradıcılığında novator axtarışları.....192
O. ИСМАИЛОВА. Сходство сюжетов в произведениях Ф.М.Достоевского и Гусейна Джавида.....196
A.XƏLILQIZI, M.İSMAYILOVA. Ədəbiyyatin fəlsəfəsi və fəlsəfənin ədəbiyyati.....200
S. İSMAYILOVA. Şamil Slmanovun yaradıcılığında ənəvə və novatorluq problemi.....205

PEDAQOGİKA-PSİXOLOGİYA, ПЕДАГОГИКА-ПСИХОЛОГИЯ 208-330
T. MEHTİYEVA. Teaching american culture in the english classes.....208
Г. САНАНИ. Формы речевого общения.....214
İ. CƏFƏROVA. Personal development: a holistic approach to self-improvement.....217
N. MİRBABAYEVA. О приемах организации самостоятельной работы студентов.....220

D. QULİYEVA. Xarici dil kimi ingilis dilinin tədrisində innovativ metodlar.....223
A. QASIMOVA. Using of Article in English.....226
Д. КАЗИ-ЗАДЕ. Мотивация обучения турецких студентов русскому языку за короткий срок.....230
A. MƏMMƏDOVA. The use of mind mapping technique in teaching vocabulary. 233
Р. ТАХМАЗОВА, Н. ШИРАЛИЗАДЕ. О некоторых типах коннотаций и их коммуникативной роли.....236
G. HÜSEYNOVA.Ali məktəblərin aşağı kurslarında Alman dilinin tədrisində kommunikativ fəaliyyətlərdən istifadə-239
N. CƏFƏROVA. Oxu dərslərində nağıllar üzrə işin təşkili texnologiyası.....244
N. BƏHRİ. ünsiyyətin açar sözləri: dil, nitq və təfəkkür.....248
S. ZEYNALOV.“Mürəkkəb cümlə”İ.Həsənov və A.Şərifovun “Qramer”və Z.Tağizadənin “Müasir Azərbaycan dili..251
S. ABBASOVA. Təlim prosesində innovasiyaların əhəmiyyəti.....255
Г. ГАРАБАГЛЫ. Приемы работы над развитием связной речи.....258
K. FƏRƏCBƏYLİ. İngilis dilinin tədrisində bədii ədəbiyyatın istifadə yolları.....261
S. HACIYEVA. Tənqidi düşünmənin təhsildə rolu.....264
G. GURBANOVA. The importance of learning english nautical slang in sociolinguistic context.....267
M. İSMAYILOVA. Dialoqlar zamanı köməkçi feillərin rolu.....270
M. ASLANLI HUNTÜRK. Nəsiminin fiziki mədəniyyət dünyası.....273
S. ALLAHVERDIYEVA. Kitabi-Dədə Qorqud dastanlarında tərbiyə məsələləri.....277
N. VALIYEVA Artificial Intelligence: from Theory to Practice.....279
Л. ГУЛИЕВА М. Развитие устной и письменной речи в работе с иностранными магистрами 286
Д. МУСТАФАЕВА. К вопросу об обучении орфографии учащихся.....291
X. SƏFƏROVA. Emotional Intelligence and its Impact on Academic Success in Higher Education.....294
L.MƏMMƏDOVA, N.İSMAYILOVA. Xarici dilin tədrisində leksik materiallardan istifadə metodları.....297
G.NAĞIYEVA, İ.TAHİROVA. Ingilis dili dərslərində effektiv metod və yanaşmalardan istifadə.....301
T. ƏLİYEVA. Dədə Qorqud dastanında valideyin- övlad münasibətlərinin müasir dövrlə əlaqələndirilməsi.....305
B. КЕРИМОВА. Методика преподавания русского языка в азербайджанском секторе вуз-ов.....310
M. QƏHRƏMANOVA. İngilis dili tədrisində süni intellekt alətlərinin inteqrasiyası: imkanlar və çətinliklər.....313
G. ŞƏRİFOVA. Gənclərin milli-mənəvi ruhda tərbiyəsi məsələləri.....316
Ə. İSRAFİLOVA. Xarici dilin tədrisində internet resurslarından istifadə üsullarə.....320
M. MUSAYEVA. Multikulturalizmin Azərbaycan modeli: çoxkonfessiyalı və polietnik cəmiyyət.....324
G. SƏLIMOVA. Xüsusi qayğıya ehtiyacı olan şagirdlərlə iş: pedaqoji yanaşmalar və təcrübələr.....327

KİTABŞÜNASLIQ-КНИГОВЕДЕНИЕ*.....*331-333
S. ƏLİYEVA. Elmi kitabxanalarda kitabxana-informasiya xidmətləri.....331

==========

Yığılmağa verilmişdir: 12.03.2025 Çapa imzalanmışdır: 26.03.25 Şəadətnamə № 27
Lisenziya: Seriya AB № 022471. Tiraji 1000. Qiyməti pulsuz.

Arzu Astan qızı Bayramova[1]

QƏRBİ AZƏRBAYCAN ŞİVƏLƏRİNDƏ İŞLƏNƏN BƏZİ SÖZLƏRİN DERVİTALOGİYASI

Azərbaycan dilinin dialekt və şivələrinin regionlar üzrə öyrənilməsi və tədqiqata cəlb edilməsi müasir dilçiliyin əsas problemlərindən biri olaraq qalmaqdadır. Qonşu ölkələrdə 3-4 cildlik dialekttoloji lüğətlər hazırlansa da, bizdə bu hələlik yoxdur. Halbuki azərbaycanlıların yaşadığı ərazilərin coğrafiyası daha genişdir və dil faktorları da çoxdur. Demək lazımdır ki, bununla bağlı olaraq 9 may 2013-cü ildə dilçiliyin inkişafına dair Azərbaycan Respublikası Prezidentinin xüsusi Sərəncamı vardır. Bununla bağlı olaraq AMEA-nın Dilçilik İnstitutunda Naxçıvan, Qarabağ və Şərqi Zəngəzur ərazilərinin dialektoloji atlasları hazırlanmışdır.Qərbi Azərbaycanın dialektoloji atlası da hazırlanmaqdadır. Yenə də dialekt və şivələrin işlənən söz və ifadələrin fonetik, leksik-semantik və qrammatik xüsusiyyətlərinin, yeni rakursda öyrənilməsinə ehtiyac vardır. Qərbi Azərbaycan regionları üzrə dialekt və şivə sözlərinin toplanıb nəsr olunması da dilçilik elminin, eləcə də dialektoloqların qarşısında duran məsələlərdəndir [6, s. 8, 10]

Təqdim etdiyimiz məqalə də bu istiqamətdə aparılan işlərdən biri kimi qiymətləndirmək olar. Burada əsasən Qərbi Azərbaycanın Vedi, Lori-Pənbək, Ağbaba- Şörəyel, Göyçə, Qaraqoyunlu və digər bölgələrində işlənən sözlərin morfoloji və sintaktik quruluşu təqdim edilir (4, s. 30, 32; 5, s. 116; 8, s. 211-214). Məlumdur ki, həm müasir türk dillərində, həm də onun dialekt və şivələrində dervitaloji sistem bir-birinə oxşardır. Yəni, yeni sözlər həm sözdüzəldici şəkilçilər vasitəsilə(morfoloji yolla) həm də sintaktik yolla əmələ gəlir. Sintaktik yolla əmələ gələn mürəkkəb sözlərin tərkibindəki sözlər arasında yanaşma, idarə, uzlaşma əlaqəsi olur və bir vurğu ilə deyilir. Bunlara ayrılıqda nəzər salaq

1. Morfoloji yolla söz yaradıcılığı

Morfoloji yolla söz yaradıcılığında müxtəlif sözdüzəldici şəkilçilər iştirak edir. Ədəbi dildə olduğu kimi bu şəkilçilərin bəzisi məhsuldar, bir qismi qeyri-məhsuldardır, həm də çox variantlıdır. Dialekt və şivələrdə əsasən iki sistemdə adlardan (bura bütün nitq hissələri daxildir) isim düzəldən şəkilçilər, adlardan və feillərdən feil düzəldən şəkilçilər vardır [9, s. 130-131]. Bunlara ayrılıqda diqqət yetirək.

a) Adlardan isim düzəldən şəkilçilər

-çı, -çi,-çu,-çü şəkilçisi ilə: bu şəkilçilər əsasən müxtəlif sözlərdən peşə,sənət və məşğuliyyət bildirən isimlər düzəldir.Məsələn: yançı (qoyunların dölü vaxtı çobana kömək edən işçi), başaqçı (30-cu illərdə taxılın yerə tökülən sünbüllərini toplayan işçi), mənsilçi (kolxorun südündən məhsul hazırlayan işçi), bərəçi (qoyunları sağıcılara tərəf səsləyib yönləndirən işçi), dirgancı (araba və ya maşına ot yükləyən işçi), həfçi (adın işlərinə qarışan kişi), təndirçi (sarı gil torpaqdan təndir hazırlayan sənətkar), xəfçi (fərdi təsərrüfatlarda biri-birinə borc olaraq süd alıb verən qonşular), buruxçu (erkək qoyun və malı axtalayan sənətkar), dırmıxçı (kərənti ilə biçilən otu dırmıqla toplayan işçi), toxumçu (əl ilə toxum səpən işçi), kirşəçi (at kirşəsini idarə edən), qaltaxçı (at yəhər-yüyəni və qoşqu aləti hazırlayan) və s.

-dıx[4],-rıx[4], -nıx[4],-lıq[4] şəkilşiləri ilə: məsələn: dizdik (tuman), yağarrıx, qaxarrıx (kasıblıq), böyüncəlik (birgünlük), dasdıx (quşun mədəsi), sulux (mal-qaraya suladıqdan sonra verilən ot), kobuxlux, mədiklik,yarpızdıx, (qımılıx (yer adları), ləjdik (dəcəl), dunuxlux (fərsiz), loşdux (tənbəl), əllik (əlcək), bambılılıx (yüngül), ağırdıx (qıf), çiyinnik (alət), arılıx (qışda arı saxlayan yer), qıraşdıx (sututmayan gilli yer), cannıx (alt paltarı), çimbizdik (torflu torpaq), yardarrıx (ortaxlıq), sennik (camaat), nəmərrik (hədiyyə) və s.

-a[2] şəkilçisi ilə: gözə (su mənbəyi), xamra (xəmir mayası), əcələ (cəld), metrə (metr), örənə (otlaq sahəsi), öynə(dəfə), cənbərə (dərinin ağzı) və s.

-sala,-cıl şəkilçiləri ilə: adamcıl (adamtanıyan it), heyvancıl (heyvansevən), karsala (kar), korsala (kor)

-dirik[2],-daş,-biz şəkilçiləri ilə: çıxdaş (lazımsız), ciyindirik (alət), boyundurux (qoşqu aləti), bulandırıx (bulanıq), cımbız (kəsilən çimli torf) və s.

-bey, -sız[4] şəkilçiləri ilə:

irsiz/arsız (utanmaz), qıldıxsız (namaz qılmayan), loyunsuz (gobud), beyinsiz (ağılsız) və s.. Belə bir ata sözü də var: "Löyünsüzə nə öynə"

-at şəkilçisi ilə: Bu şəkilçi həm feildən, həm də isimdən yer mənalı isim düzəldir. Məsələn: yuat (sürünü çimizdirmək üçün düzəldilən yer), suat (mal-qoyunu suvarmaq üçün çayqırağı yer), beyinsaf, beynamış, beyqeyrət, beyşüyür, beytərəf və s.

-ca[2],-ça[2], cana[2] şəkilçiləri ilə: Bu şəkilçilər əsasən kiçiltmə məzmunlu isimlər düzəldir. Məsələn: cəkməcə (təndirin içində bulqur və yarma ilə bişirilən yemək növü), dəlicə (bitki), mıxça (divara və ya yerə calınan itiuclu sivri dəmir), taxca (divarda məqsədli şəkildə qab-qacaq yığmaq üçün düzəldilmiş yer), xırca (balacaboy), aynaça (çirkin), eycə(yaxşıca), yaxşıcana (lap yaxşı), eləcənə,beləcənə,şapılca (qulpu olan qab), yadıca, iticə (kötücədən sonra gələn uşaqlar), götürcə (arenda) və s. [1-36,41]

-dax[2],-tax,-lək[2],-cax[2],rax[2] şəkilçiləri ilə: duzdax (mal-qoyuna duz verilən yer), buruntax (buzovun və ya atın burnuna keçirilən ilgək), döllək (cins mal), avırtdax//ovurtdax (ovurdu domba olan adam), şaqqıldax (qoyunun quyruq hissəsində qurumuş yumru peyin), toxdax (arxayın), qolcax (qola geyilən geyim), yancax (yan tərəf), batdax (bataqlıq), qarrax (qoyun komunun üstünə yığılan qar topası), yırğancax,yellənçək//yelləmçək və s.

[1]Sumqayıt Dövlət Universiteti, filologiya üzrə fəlsəfə doktoru. bayramova.arzu2@gmail.com

10.24412/2218-7588-2025-2-5-8

-nı[4] -rı[4],-lı[4],-dı[4] şəkilçisi ilə: qulaxlı (papaq), quluflu (qazan), sırıxlı (qış pencəyi), cinni (dəlisov), dızmıraxlı (bəzəkli), tumarrı (səliqəli), hoylu //havlı (koridor), üzdü (utanmaz) və s.

b) Feildən isim düzəldən şəkilçilər:

-ğı[4],-ğa[2],-ki[2],-sı şəkilçiləri ilə: basqı (araba və ya maşına yüklənmiş otun üstünə iplə bərkidilən ağac), şəritdəmək (bağlamaq), çalğı (iri süpürgə), kəski (alət), alanqı (zəif yanan çör-çöp), gəzərgi (gəzən adam), gedərgi (gedən adam), dinsimək (diqqətlə qulaq asmaq), qaytarğa (atın yüyəni), yorğa(at yerişi), yanakı (yan-yana), qorğa (qovurğa) və s.

-ası[2], -ax[2], şəkilçiləri ilə: çapax (alət,balığın bir növü), üfürək (qoyunun sidik kisəsi), sülək (avara), dölək(cins), yatax (qoyun sürüsünün çöldə gecə qaldığı yer), dirək (evin tirini saxlayan ağac). Əslindəburada sözün kökü tirdir.Yalax(daşdan yonulmuş yal qabı), çalası (qatıq mayası), çanax (piti qabı), təkərək (təkər şini), çəngələk (araba oxuna taxılan dəmir), püşkək (peyin yığılan yer), çalası (qatıq mayası), geyesi (paltar) və s.

-ağan, anax[2], şəkilçiləri ilə: əkənək,eşənək (allerqik qaşıntı), görənək (qeyri-adi), qapağan (dişləyən), doğanax (arabanın kəndir keçən halqası). Tərkibində -anaq şəkilçisi olan sözlər hərəkətin vəziyyətini və nəticə bildirir. Bu şəkilçini elmi ədəbiyyatda qovuşuq (an+ax//ənək) şəkilçi hesab edirlər [2, s. 180; 11, s. 37].

-ı[2]-ıx[4] şəkilçiləri ilə: basırıx (odu saxlamaq üçün təndirin külünə basdırılmış təzək), alışıx (ocağı yandırmaq üçün çör-çöp), domuşux(bürüşük), yetik (xəbərdar), sovurux (taxılın zir-zibili), sıyırıx (ipin yununu sıyıran alət), qalıx (ərə getməyən qız), yüyürük (beşik), gənəşik (məsləhət), sovurux (sovrulan taxıldan çıxan zir-zibil), pişi (yağda qızardılmış çörək), pazı (çuğundur), yaxı (məlhəm), səvi (körpə) [10, s. 40] və s.

-qal, -qul şəkilçisi ilə: tutqal (yapışdırıcı), buruşqal (əyri), tuşqul (nişançı) və s.

-manc[2], -ənc, -nc şəkilçisi ilə: eşənc (ocaq qurdalamaq üçün alət), saxlanc (əmanət), döymənc (yemək növü), addamac (keçid), tutmanc (yemək), sıyırtmaş//sıyırtmac (düyü növü)

-ım[4] şəkilçisi ilə: taxım (bəzək əşyası), alım (cavab), batırım (numerativ söz), yayılım (otlaq sahəsi), durum (vəziyyət) və s.

-ma[2] və onun variantları olan -ba[2]//-pa[2] şəkilçiləri ilə: dələmə (mayalanmış süd), alışma (tərəzidə çəkmədən vərabər miqdarda bölünən ət), bulama (qoyun və ya inəyin bala verdikdən 1 gün sonra sağılıb bişirilən süd), kərmə (qoyunun bərkimiş peyinindən kəsilib qurudulmuş yanacaq), qıncıtma (qoparma), yapba (mal peyinindən divara və ya yerə yapılıb hazırlanmış təzək), yolma (əl ilə yolunan ot), örtmə (evin qabağında tikilən balaca talvar), çirtmə (əyilən bir şeyə vurulan dayaq), alıv-atma (taxılın zibili), çatma (evin üstünə atılan atmaları birləşdirən ağac), alıv-atma (heç bir şey) və s.. Həm ədəbi dildə, həm də dialekt və şivələrdə yuxarıda göstərilən şəkilçilər daha məhsuldardır [10, s. 181].

c) Feildən və isimdən feil düzəldən şəkilçilər. Adlardan və feillərdən feil düzəldən şəkilçilər şivələri----müxtəlifdir [2, s. 17, 176].

-la[2], -na[2],-ra[2],-da[2] şəkilçiləri ilə: hasıllamax (gönü emal etmək), qımcırramax (nəyisə əl ilə tullamaq), qıfcınnamax (nəyi isə səliqəyə salmaq), annamax (başa salmaq), qığılamax (qoyun-quzunun quru ifrazı), dağarcıxlanmax (özünü öymək), hırramax (lağa qoymaq), şinəmək (araba təkərin şinə çəkmək), qarınnamax (əyilmək), bizdəmək (itələmək), döşürmək (qəsb etmək, toplamaq), avarramax (evin üstünə döşənən taxtanın üstünü ot və ya küləşlə örtmək), alıvlamax (heyvanın belinə cul döşəmək), alazdamax (ütmək), harınnamax (heç kəsi saymamaq), arıtdamax (təmizləmək).

-lan[2], -tələn, -nan[2],-dır[4] şəkilçiləri ilə: ütələnmək (tələsmək), ansırtmax (tanımax), arıtmax (aydınlaşdırmaq), tennənmək (su çəkmək, nəm çəkmək) andırmaq (başa salmaq), dadandırmax (vərdiş etdirmək), papaxlanmax (böyümək), üşürgələnmək (şübhələnmək) və s.

-ə,-ırğa, -əş[2], -t şəkilçiləri ilə: yadırğamax (unutmaq), öcəşmək// icəşmək (kiməsə sataşmaq), küməşmək (toplaşmaq), qırtdatmaq (özünü öymək), qıvırtmax (yalan danışmaq), qonqutmax (dizüstə oturmaq), gözəmək(tikmək), çözəmək (sökmək) və s.

-dar[2], -da[2], -ələ[2] şəkilçiləri ilə: durulamaq (təmizləmək), çatılamaq(bağlamaq), üzdəmək (üz çəkmək) bükdərmək // puhdərmək (bir ipi birləşdirib eşmək), çöndərmək (döndərmək), əndərmək (yerə tökmək), qaralamax (gözaltı etmək), poralamax (pis üz göstərmək), cızdamax (qaz lələyinin tükünü çıxarmaq) və s.

Bəzi təqlidlərdən söz düzəldən -xı,-nə,-qır,-ır,-l,-dax şəkilçiləri: kişnə (at səsi), cınqır (vedrə), qurna (su karanı), məəl (qoyun-quzunun çay qırağında sərinlədiyi yer), zurna (musiqi aləti), cızdax (ərinmiş quyruq), xırxı (mişar) və s..

2. Sintaktik yolla söz yaradıcıllığı

Müasir Azərbaycan ədəbi dilində olduğu kimi, dialekt və şivələrdə də tərkibi bir neçə sözdən ibarət olan mürəkkəb sözlər mövcuddur. Qərbi Azərbaycan dialekt və şivələrində də əsasən qərb qrupuna, bir az qismi də cənub qrupunda işlənən mürəkkəb sözlər çoxdur. Bu mürəkkəb sözlərin tərkibindəki sözlər bir-birinə yanaşma (əyrisufat, qarakərə, ağcamaya və s.) idarə əlaqələri və uzlaşma – idarə əlaqəsi ilə bağlanıb bütövləşir [5, s. 73]. Əmələgəlmə üsuluna və söz sırasına görə mürəkkəb sözlərin aşağıda qeyd olunan növləri vardır.

a) Birinci tərəfi əlamət, keyfiyyət və titul səciyyəli sözlərdən, ikinci tərəfi adlıq, halda olan isimlərlə ifadə edilən mürəkkəb sözlər. Məsələn:acıqıcı (bitki), ağcamaya (ağbəniz, kök qadın), ətbala (tüksüz quş), acıxəmrə (xəmir mayası), ağbağın (qorxaq), darqursax (kəmhövsələ), cinsufat (arıqüzlü), ağanənə//ağənnə (nənə), ağamirzə (qayın), xanımana//xanımbacı (elti) və s. Təqdim olunan bu sözlər arasında yanaşma əlaqəsi vardır. Birinci növ ismi birləşmə modelindədirlər.

b) Birinci tərəfi zoonim mənşəli sözlərdən, ikinci tərəfi müxtəlif leksik vahidlərdən ibarət mürəkkəb sözlər. Məsələn: keçiməməsi (yeməli yabanı bitki), quşəppəyi (yeməli bitki), quşüzümü (giləmeyvə), atalması (yoncanın növü), düyədabanı (kökü və özəyi yeyilən yabanı bitki), gəlinbarmağı (bitki), qoyungözü (itburnunun bir növü),atyemliyi (əkində bitən enli yarpaq yemlik), eşşəkgöbələyi (zəhərli göbələk), buğatikanı (tikan növü), qazotum (yumuşaq çayır otu) [7; 8; 11].

c) Birinci tərəfi müxtəlif sözlərdən ikinci tərəfi mənsubiyyət şəkilçili sözlərdən ibarət olan mürəkkəb sözlər: Məsələn baş-altı (atmaları birləşdirən ağac), ayranası (dovğa), dirəkaltı (dirəyin altına qoyulan daş), gecəquşu (yarasa), icraəmri (kolxozçuları işəçağıran adam), eşikqapısı (həyətdən çölə açılan qapı), çənəyoldaşı (yolyoldaşı), sajayağı (əkin üsulu), əpbəkaşı (yemək növü),qarğadili (qapı cəftəsi) və s. Göstərilən mürəkkəb sözlərin tərkibindəki sözlər arasında idarə əlaqəsi vardır. Bu sözlər ikinci növ ismi birləşmə modelinə uyğundur.

d) Birinci tərəfi yönlük , çıxışlıq, təsirlik hallarda , ikinci tərəfi adlıq halda olan mürəkkəb sözlər. Məsələn: gözəyarı (təqribən), başdanxarab (dəlisov), dildəniti (həyasız), əldənəyri (oğru), əliqalın (varlı),əliyuxa (kasıb), gönüqalın (bivec), bağrıbadaş (birlik) və s. Bu sözlərin bəzisi ləqəb kimi də işlənir.

e) Birinci tərəfi müxtəlif sözlərdən, ikinci tərəfi feillərdən ibarət cümlə modelində olan mürəkkəb sözlər. Məsələn qapıpusdu, xınayaxdı, qapıkəsdi, paltarbiçdi, qazanaçdı, yolkəsdi və s. Nümunə üçün verilən bu sözlər əsasən toy mərasimi ilə bağlı etnoqrafik məzmunlu sözlərdəndir. Onların arasında uzlaşma-idarə əlaqəsi vardır. Feil+feil moldelində parça adlarını bildirən mürəkkəb isimlər də vardır. Məsələn: alışdım-yandım, yanar-dönər, göztökən və s. [2, s. 138-139]

f) Elə sözlər də vardır ki, əsli mürəkkəb söz olsa da, sadə söz kimi deyilir: oyun (o gün), beycə (bu gecə), böün (bugün), oyunnərim (o günlərim), böyünnərim (bugünlərim), qarğın (qar yığını) və s.

g) Eyni sözlərin təkrarı ilə yaranan mürəkkəb sözlər. Məsələn: xım-xım (çoxbilən), mıy-mıy (ölüvay), hələm-hələm (hər vaxt), yalaf-yalav (qızarmaq), gorun-gorun (az-az), cin-cin (qat-qat), hüt-hüt (pəltək), mız-mız (burnunda danışan), motmotu (giləmeyvə), sipsilə (dopdolu) və s.

h) Feili sifət tərkibi modelində olan mürəkkəb sözlər. Bu tipdə olan mürəkkəb sözlərin birinci tərəfində qeyri-müəyyən halda işlənən adlar, ikinci tərəfdə isə əsasən indiki zaman bildirən -an, -ən şəkilçili feili sifətlər işlənir. Bu sözlər arasında da idarə əlaqəsi vardır. Bir vurğu ilə deyilir Məsələn: anaəmçəyikəsən (qəddar), danaqıran (qargülü), ilangəzdirən (xətalı adam), motalcıran (oğru), balıqudan (qağayı), dəmirdöyən (asan biçilən ot), qarqovan (həyət evinin qabağında tikilən talvar), çələkəsən (dələduz), divlərdəqalan (ərə getməyən qız), daşqıran (iri çəkic), damagirən (qaynata evində yaşayan), oymadərən (bitki), ciysüdəmən (mərifətsiz), otkəsən(alət) və s. Bu tip substantivləşən mürəkkəb quruluşlu sözlərin çox qismi ləqəb, digər qismi isə alət adlarında əks olunur .

Nəticə olaraq deməliyik ki, nümunə üçün verdiyimiz sözlər fərqli və ya eyni fonetik formada qərb qrupu dialekt və şivələrində də işlənməkdədir. Keçid şivələrində də fərqli fonetik variantlarda göstərilən sözlər nəzərə çarpır. Bununla belə, tarixi-bədii əsərlərdə də göstərlən sözlərə rast gəlinir [2, s. 124, 126].

İstifadə edilmiş ədəbiyyat

1. Azərbaycan dilinin dialektoloji lüğəti. Bakı: Şərq-Qərb. 2007, 554 s.
2. Bayramov A., Bayramova A. Qərbi Azərbaycanın Ağbaba şivəsi. Bakı: Elm və təhsil, 2020, 628 s.
3. Bayramov İ.M. Azərbaycan dilinin dialekt leksikası. Bakı: Elm və təhsil, 2011, 120 s.
4. Ələkbərli Ə. Qərbi Azərbaycanın dialektoloji lüğəti (İrəvan Zəngibasar, Vedibasar, Gəngibasar). Bakı: Ağrıdağ, 2000, 102 s.
5. Kərimov Ş.N. Azərbaycan dilinin Çənbərək və Karvansara şivəsi. Bakı: Nurlan, 2004, 362 s.
6. Qarabağ və Şərqi Zəngəzurun dialektoloji atlası. Bakı: 2022: Elm və təhsil, 355 s.
7. Qursalı kəndi, Bakı, 2022, 560 s.
8. Mehtiyev Ə., Əhmədov A., Nəbiyev F. Oğuz yurdu, Haqqıxlı kəndi. Bakı: Adiloğlu, 2016, 542 s.
9. Mirzəyev H. Dərə Ələyəz mahalının toponimləri və şivə sözləri. Bakı: Ağrıdağ, 2006, 517 s.
10. Məmmədov M. Azərbaycan dialektologiyası. Bakı: Zərdabi, 2022, 364 s.
11. Süleymalı M. Söz içində söz. Bakı: Ağrıdağ, 2006, 888 s.

Açar sözlər: dialekt, Ağbaba, Zəngəzur, dervitalogiya
Ключевые слова: диалект, Агбаба, Зангезур, Дервиталогия
Key words: dialect, Agbaba, Zangezur, Dervitalogy

Дервиталогия некоторых слов, используемых в западноазербайджанских диалектах

Резюме

В статье исследована структура диалектных и слоговых слов, сложившихся на территории Западного Азербайджана, которая считается одной из основ азербайджанского языка, а также используется сегодня. Здесь анализируются словокорректирующие суффиксы, их фонетические оттенки, смысловые особенности и показаны морфологические особенности. Однако представлены грамматические особенности слов, используемых в сложных словах, образованных синтаксически, а также синтаксические отношения между ними. Учитывая, что в Западном Азербайджане не проживает ни один азербайджанец, статью можно оценить как этнокультурную и лингвистически важную статью.

Dervitology of some words used in West Azerbaijani dialects

Summary

The article examines the structure of dialect and syllabic words that have developed in the territory of Western Azerbaijan, which is considered one of the foundations of the Azerbaijani language and is also used today. Here, word-correcting suffixes, their phonetic shades, semantic features are analyzed and morphological features are shown. However, grammatical features of words used in compound words formed syntactically, as well as syntactic relations between them, are presented. Considering that no Azerbaijanis live in Western Azerbaijan, the article can be assessed as an ethnocultural and linguistically important article.

RƏYÇİ: dos. L.Ələkbərova

Əliyeva Tərlan Əliş qızı[2]

MÜASİR ƏDƏBİ DİLDƏ İŞLƏNƏN BAĞLAYICILARIN İLKİN ARXETİPLƏRİ

Cümlə üzvləri və cümlələr arasında qrammatik, eləcə də məntiqi əlaqə yaradan bağlayıcılar təkcə müasir yox, həm də XVIII əsrə qədərki ədəbi dilimiz baxımından səciyyəvidir. Bu mənada sintaktik vəzifəsinə görə tabesizlik və tabelilik olmaqla iki yerə bölünən bağlayıcıların mənaca növlərini yazılı abidələrimizin dili müstəvisində nəzərdən keçirək:

Tabesizlik bağlayıcıları. Cümlənin həmcis üzvlərini, eyni zamanda tabesiz mürəkkəb cümlələrin tərəflərini əlaqələndirən tabesizlik bağlayıcılarının aşağdakıları məna növləri vardır:

Birləşdirmə-bitişdirmə bildirənlər.

"Və"-Ərəb mənşəlidir,Orxon-Yenisey abidələri və M.Kaşğarinin "Divan"ında işlənmişdir. Azərbaycan yazılı abidələrinin dilində isə və, vü,-u-ü şəkilində müşahidə edilir.

Qılıc və sügü və çomaq və sair cəng alətin geydürüb tonatdılar
("Kitabi Dədə Qorqud")

Üzünü gördü vü irdi bu gün firdövsi-əlaya...
Vəqti səadət istəyən tacu kəmər tələb qılur
(Nəsimi).

Gül bitdivü lalәzər gəldi.
(Xətai).

Mən kimәm?-bir bikəsü bixaniman...
Əqlü əbrü dilü tən getdi bihəmdillah
(Füzuli).

Yazılı abidələrin dilində "və" bağlayıcısının işlənmə məqamlarında bəhs edən H.Mirzazadə yazır: "XIX əsrin ortalarına qədər işlənmiş həmcins üzvlü cümlələrdə bir qayda olaraq həmcinsin sayı qədər "və" bağlayıcısı işlənmişdir... Orta əsərlərin yazı dilində, demək olar ki, ərəb dili qaydalarına əsasən işlənmişdir (6.94).

Azərbaycan dilinin inkişafı prosesində "və"bağlayıcısı dilimizin daxili imkanları hesabına formalaşmış və sabitləşmişdir.

"İlə"- (-la,-lə). Türk mənşəli bu morfemin yazılı abidələrimizin dilində qoşma kimi işlənməsində, eyni zamanda ilk formalarından fərqli variantlarda işlənmişdir.Araşdırmalar "ilə"morfeminin yazılı abidələrimizin dilində həm də bağlayıcı kimi işləndiyini söyləməyə imkan verir:

Qutusundan dünü günü qənd ilə həlva tökülür
(Nəsimi);
Məşqul ilə aşiqə rəsuldur,
Hə yerdəki, var sözü qəbuldur
(Xətai)...

Yazılı abidələrimizin dilində işlənən bağlayıcılardan biri də "həm-həm" bağlayıcısıdır.

Həm yetirən, həm yetən, həm bitirən, həm bitən,
Bay ilə yoxsul bənəm, yolçu ilə yol bənəm
(Nəsimi);
Həm dersən sən ki: "Məktəbə var!"
Həm dersən sən ki: "Getmə zinhar!"...
Həm özü fani olur, həm ləşgəri, həm kişvəri
(Füzuli).

İnkarlıq bildirənlər:

"Nə"-nə. İnkarlıq bildirən bu bağlayıcı dilimizin bütün dövrləri üçün səciyyəvi olmuşdur:

Bəkil nə yay qurardı, nə ox atırdı
("Kitabi Dədə Qorqud)"
Bu sirri bilməyən bil kim, nə xaric oldu, nə daxil
(Nəsimi)
Bir bağıbanına söylədim söz
Nə qaldı ağız,nə üz və nə göz
(Xətai)..
Nə göz görsün nə ürək bulansın.
(məsələ).

Müasir ədəbi dilimizdə nə-nə bağlayıcısı bir neçə variantda işlənir: nə-nə,nə-nə də,və nə də, nə də ki, və nə də ki

Qarşılaşdırma bildirənlər.

[2]**ADPU-nun Ağcabədi filialıb/m.tarlanaliyeva65@gmail.com. 0009-0009-1484-1031**
10.24412/2218-7588-2025-2-9-12

Əmma(amma).Zidiyyət və qarşılaşdırma bildirən ərəb mənşəli əmma bağlayıcısı yazılı abidələrin dilində bir neçə formada işlənmişdir.əmma,əmma ki,amma –

Əmma qızın dərdindən bənizi sarardı
(Kitabi Dədə Qorqud)
Əmma nə deyim ikən yünülsən!
(Füzuli)
Eşqini tərk etmək istər könlüm,amma çin degil
(Nəsimi)
Nazik bədən ilə bərgi-gülsən
Əmma nə deyim ikən yünqülsən!
(Füzuli)
Əmma ki anın ol afəti – zəmanə,
Qoyduqda ol qədəm cəhanə
(Məsihi)

Əmma bağlayıcısı müasir ədəbi dilimizdə amma şəklində sabitləşmişdir.Qərb şivələrində əmbə,əmə,şəklində işlənir.

Və lakin.Ərəb mənşəli bu bağlayıcının Nəsimi və Fədainin dilində işləndiyi müəyyənləşdirilmişdir;

Səyi əbəsdir anın sevdası cümlə xüsran və lakin çün vəxti səhərgah
(Fədai).

"Vəlakin"müasir ədəbi dilimizdə sabitlşə bilməyən bağlayıcılardandır.

"Leyk".Ərəb mənşəli bu bağlayıcı yazılı abidələrimizin dilində müxtəlif formalarda müşahidə edilir: leyk və leyk,liykən –

Leyk etmədilər küdurət izhar...Liylək buna bir əlacımız var
(Məsihi)
Bolaymasdım ol vəqt hazır və leyk.
(Əmani);
İstərəm ölməyi mən, leyk qaçır məndən əcəl.
(M.Ə.Sabir).

Müasir ədəbi dilimizdə üçün aixaikləşmiş"leyk" bağlayıcısı tarixən lakin, ancaq bağlayıcılarının sinonimi kimi işlənmişdir.

"Vəli".Ərəb mənşəli bu bağlayıcı müasir ədəbi dilimizdə sabitləşmişdir. Yazılı abidələrin dilində"ancaq" bağlayıcısının sinonimi kimi çıxış edir:

Aşiqi-sadiqin qanı yarə həlal imiş,
vəli Girsə əgər rəva dəgül
dilbər anun vəbalinə
(Nəsimi)
Qlur hərçənd can şirin,vəli cahan yerini tutmaz
(Q.Təbrizi).

Bölüşdürmə bildidrənlər.

"Ya"-ya.Bu bağlayıcı müasir ədəbi dilimizdə bir neçə formada müşahidə olunur:tək işlənir(y),təkrar olunur (ya-ya), bir sıra tərkibi bağlayıcıların düzəklməsində iştirak edir(və ya, ya da, ya da ki, və ya da ki, ya ki), Yazılı abidələrimizin dilində isə təkrar olunan"ya"(ya-ya), formasında daha çox rast gəlinir:

Ya varam,ya varmıyam,Ya gələm,ya gəlmiyəm
("Kitabi Dədə Qorqud")

Bir cəhəti də qeyd edək ki, "və ya" bağlaycısına "Kitab"ın, tək işlənən "ya" formasına isə Nəsiminin dilində təsadüf edilir;

Xah. Fars mənşəli bu morfem müasir ədəbi dilimizdə sabitləşmişdir. Yazılı abidələrimizin dilində isə "istər"mənasını ifadə edən bağlayıcı kimi xah, xahi şəkilində işlənmişdir:

Məkanın xahi gülxən,xah səhr, xah bağ olsun
(Q.Təbrizi)
Xah sultan, xah dərvişü gəda bilittifqa,
Özlərin qılmış giriftari-qəmü dərdü fəraq.
(Vaqif).

Gah-gah. Fars mənşəli bu bağlayıcı müasir ədəbi dilimizdə "gah-gah" şəkilində, eləcə də tərkibi bağlayıcıların daxilində işlənir(gah da gah da ki).Yazılı abidələrimizin dilində isə gah,gahi,gəh,gəhi şəkilində müşahidə olunur:

...Gördü kim, bir dərnin toz gah dərilür, gah tağılur
("Kitabi Dədə Qorqud")
Bulandı vü daşdı, çayə döndü,
Suya vü gəh həvayə döndü
(Xətai)

Aydınlaşdırma bildirənlər.

Yazılı abidələrimizin dilində "yəni ki"bağlayıcısı aktiv vəziyyətdə görünür:

Yusifi – Misri canü dil,yəni ki, Fəzlizül cəlal,
Gəldi səfavü zövq ilə şəhri – bədən sarayinə
(Nəsimi)

Az eyləmə inayətini əhli-dərrdən,
Yəni ki,çox bəlalərə qıl mübtəla məni!
(Füzuli).

Müasir ədəbi dilimizdə yəni,yəni ki,məslən sözləri aydınlaşdırma bildirən bağlayıcılar kimi sabitləşmişdir.

Təqdim etdiyimiz tabesizlik bağlayıcılarının əksəriyyəti ərəb və fars mənşəli olsa da,demək olar ki,mətnin bədii təsir gücünü,ifadəliliyini artıran detallar kimi çıxış edir.Daha dəqiqi,həmin mətnlərdə poetiklik polisindeton üslla(həmcins üzvlərdən hər birinin yanında tabesizlik bağlayıcısı işlətməkdən ibarət üslubi qayda qüvvətləndirilmişdir.(4.106)

Tarixən ədəbi dildə işlənən bağlayıcılar tabelilik xüsusiyyətinə görədə təsnif edilmişdir.Tabeli mürəkkəb cümlələrin tərkib hissələri arasında qrammatik əlaqə yaradan tabelilik bağlayıcılarını məna növlərinə görə aşağıdakı kimi qruplaşdırmaq olar:

Aydınlaşdırma bağlayıcıları.Ki//kim.Müasir ədəbi dilimizdə ki şəklində sabitləşmişdir,qərb şivələrində isə ilkin formasına yaxın,daha dəqiqi, "kim" şəklində mühafizə olunur:der kim,yazer kim...XVIII əsrə qədərki dilimizdə ki//kim paralelliyinə təsadüf edilsə də,kim formasının aktivliyi qabarıq şəkildə görünür.

Baş və budaq cümlələri bir – birinə bağlayan ki//kim bağlayıcısına mətn daxilində diqqət yetirək:

Ozan,evin tayağı oldur ki,yazıdan – yabandan evə bir qonaq
gəlsə,ər adam evdə olmasa,ol anı yedirər,içirər,ağırlar - əzizlər,
göndərər...Bu yana yigit bəglər gördülər kim,av bözulmuş
(Kitabi Dədə Qorqud);

Səbəb bağlayıcıları.Yazılı abidələrimizin dilində çün//çünki//çünkim,anunçun kim,zira zira ki,ol səbəbdən vəs.kimi səbəb bağlayıcılarına rast gəlinir:(3.97)

Çün sən Qazana düşmən oldu, biz də düşməniz...Yaranlar,çünki
Məni göndərirsiniz, bilürsünüz kim, Dəlü Qarçar qız qardaşını
Diləyəni öldürərlər...

H.Mirzəzadə məqsəd, zaman, nəticə, kəmiyyət, eləcə də səbəb budaq cümləsini baş cümləyə bağlayan vasitələrdən bəhs edərək fars mənşəli "ta" morfemini bağlayıcı kimi təqdim edir.(6.79) Məsələn, səbəb budaq cümləsində:

Gül niqabın tərifini gülgün yanağından götür.
Ta gülüstan gəlməsün ayrıq güli-xəndanına.
(Nəsimi).

Y.Seyidov isə "ta"morfeminin ədat olduğunu, həm də "ki"bağlayıcısı ilə işlədikdə bağlayıcılıq xüsusiyyəti yarandığını əsaslandırır: "ta" Nəsimi dilində çox işlənən köməkçi sözlərdəndir.(1.89)

Şərt bağlayıcıları. Müasir ədəbi dilimizdə şərt budaq cümləsini baş cümləyə bağlayan əgər, hərgah, indi ki, madam, madam ki, bağlayıcıları sabitləşmişdir. Yazılı abidələrimizin dilində isə fars mənşəli əgər//gər bağlayıcısı aktiv vəziyyətdə görünür.

Əgər çobanla varacaq olursam, Qalın Oğuz bəgləri bənim
Başıma qaqınc qaxarlar
("Kitabi Dədə Qorqud")

Mana səbr Eyləmək sənsiz, nigara,
Əgər müşkil, əgər asan gərəkməz...
Başı top olsun anın,gər özgə çövkan istəyə
(Nəsimi)

Gər İstəyə hicr ya vüsali
(Əmani).

Güzəşt bağlayıcıları. Yazılı abidələrimizin dilində güzəşt bildirən, qarşılıq-güzəşt budaq cümləli tabeli mürəkkəb cümlələrin tərkibində işlənən əgərçi, gərçi, hərçənd və s. kimi bağlayılcılara rast gəlinir:

Xoşdur, əgərçi cümləsi bir yerdə cəm ola..,
Gərçi ayi üzünə Bənzədərəm,Qaşların şəkilində hilal ilməz
(Nəsimi)

Yazılı abidələrin dilində aktiv şəkilində işlənən əgərçi, gərçi bağlayıcısı müasir ədəbi dilimiz üçün arixaikləşmişdir. Abidələrin dilində az təsadüf olunan "hərçənd" bağlayıcısı isə müasir ədəbi dilimizdə iki formada işlənir:hərçənd, hətrçənd ki.Yazılı mənbələrin dilinə istinadən qeyd edə bilərik ki,istər tarixi aspektdə,istərsədə müasir aspektdə işlənən bağlayıcılar ədəbi dilin formalaşmasında müəyyən əhəmiyyət kəsb etmişdi.

İstifadə olunan ədəbiyyat

1. Dəmirçizadə Ə.Azərbaycan dilinin tarixi qrammatikası. Bakı, 1967.
2. Dəmirçizadə Ə. "Kitabi-Dədə Qorqud" dastanlarının dili. Bakı, 2002.

3. Hacıyev T. Vəliyev K.Azərbaycan dili tarixi. Bakı, 1983.
4. Kazımov Q.Azərbaycan dilinin tarixi. Bakı, 2003.
5. Tanrıverdi Ə.Azərbaycan dilinin tarixi qrammatikası. Bakı, 2010.
6. Mirzəzadə H.Azərbaycan dilinin tarixi qrammatikası.Bakı,1968.

Xülasə:

Hər bir dil vahidi kimi bağlayıcıların da dildə işlənmə tarixi çox qədimdir.Qədim türk kitabələrində çox az sayda bağlayıcıların işlənməsinə təsadüf edilməsinə baxmayaraq dilin inkişafı prosesində bağlayıcıların sırası da xeyli genişlənmişdir.İstər tarixən,istərsə də müasir dövrdə işlənən bağlayıcıların ilkin arxetipləri çoxvariatlığı ilə diqqətimizi cəlb edir.Dilimizdə işlənən bağlayıcılar mənşə baxımından da dəfələrlə tədqiq edilib öyrənilmişdir.Bir çox dil vahidləri kimi bağlayıcılarda dildə bir çox funksiyalar diqqəti cəlb edir.

Açar sözlər: Ədəbi dil, bağlayıcılar, arxetiplər, yazılı mənbələr, variantlar

Summary:

Like every language unit, the history of the use of conjunctions in the language is very ancient. Although very few conjunctions are used in ancient Turkic inscriptions, the range of conjunctions has expanded significantly in the process of language development. The initial archetypes of conjunctions used both historically and in modern times attract our attention with their multivariate nature. The conjunctions used in our language have been studied and studied many times in terms of origin. Like many language units, conjunctions have many functions in the language.

Keywords: Literary language, conjunctions, archetypes, written sources, variants

Аннотация:

Как и каждая языковая единица, история использования союзов в языке очень древняя. Хотя в древнетюркских надписях использовалось очень мало союзов, в процессе развития языка их спектр значительно расширился. Основные архетипы союзов, используемые как в исторической перспективе, так и в современности, привлекают наше внимание своей многообразностью. Союзы, используемые в нашем языке, многократно исследовались и изучались с точки зрения их происхождения. Как и многие языковые единицы, союзы выполняют в языке множество функций, привлекающих внимание.

Ключевые слова: Литературный язык, связки, архетипы, письменные источники, варианты.

Rəyçi: dos.S.Abbasova

Gülvira Abbasova[3]

İNGİLİS VƏ NAXÇIVAN NAĞILLARININ LEKSİK XÜSUSIYYƏTLƏRİ

Nağıllar xalqın təcrübəsi, həyat tərzi, inancları, adət-ənənələri və dünyagörüşünü özündə əks etdirən epik janrlardan biridir. Elə buna görə də xalq nağıllarının tədqiqi dil və mədəniyyətin qarşılıqlı təsirini izləməyə imkan verir. Məlum olduğu kimi, mif müəyyən dərəcədə epik növün müxtəlif janrlarını – nağıl, əfsanə və rəvayətləri özündə əks etdirir. Bu nöqteyi-nəzərdən, nağıllarda bir çox mifoloji görüşlərin olduğunu görürük. Çünki, nağıllarda kökü mif dünyası ilə sıx bağlı olan motivlər və obrazların əks olunduğu mifonimlərlə zəngindir."Mifonim" dedikdə adətən əsatir, əfsanə, nağıllarda, qədim miflərdə işlədilən və hər hansı bir onomastik sahəyə daxil olan uydurma obyekt adı nəzərdə tutulur. Mifonimlərin əhatə dairəsi olduqca genişdir. Mifonimlərə mifoantroponimlər, mifotoponimlər, mifozoonimlər, mifofitonimlər, mifopersonimlər, habelə teonimlər də aiddir [4, s. 70]. Naxçıvan və ingilis folkloruna aid nağıllar da mifonimlərlə zəngindir. Aşağıda bu haqda ətraflı nümunələr və izahlar verməyə çalışmışıq.

Mifoloji leksikanın araşdırılması linqvokulturoloji baxımdan da dəyərlidir. Nağıllarda, rəvayətlərdə, əfsanələrdə adı çəkilən mifonimlər mətnə gözəllik qatır, spesifik keyfiyyətlər verir. Dil sistemində mifonimlər dilin incəliklərini özündə yaşadan dil vahidləri kimi əhəmiyyətli rola malikdir. Mifoloji leksika ilə bağlı aparılan tədqiqatların əsas məqsədi budur ki, dilin tarixi inkişaf yolu və lüğət tərkibi tədqiq edilsin. Mifonimlərin linqvistik cəhətdən araşdırılması leksemlərin səciyyəvi xüsusiyyətini öyrənilməsi, müxtəlif folklor mətnlərinin leksikasını araşdırmağa geniş şərait yaradır. Naxçıvan folklor nümunələrinin əsasını təşkil edən nağıllarda mifonimlərin bir sıra formalarına rast gəlmək olar. Buna misal olaraq peyğəmbər və əfsanəvi şəxsiyyət adları, cin, dərviş adları, qeyri-real məkan, yer adları, qeyri–real şəraitdə doğulan qəhrəman adları, əfsanəvi quş və heyvan adlarıdır ki, bunlar mifonimlərə aid nəzərəçarpan nümunələrdir. Aşağıda qeyd etdiyimiz Naxçıvan nağıllarının dilində mifonimlərə nəzər yetirək:

Mifoloji leksikanın əsasını təşkil edən mifonimlər sırasında teonim və demonimlər mühüm yer tutur. Naxçıvan və ingilis nağıllarında mifonimlərin əsas hissəsini təşkil edən teonim və demonimlərin işlədilməsinə təsadüf edirik. İngilis folklorundan olan "Child Rowland", "Mr Fox" kimi bir sıra sehirli nağıllarda *"God forbid", "God knows", "God pity you", "God rue on thee"* kimi Allah teoniminin işləndiyinin şahidi oluruq. Ümumiyyətlə, din motivi ingilis nağıllarında mühüm yer tutur. Belə ki, *"Jack and his golden snuff-box"* - *"Cek və onun qızıl külqabısı"* nağılında anası evdən çıxmazdan əvvəl ona dua edir və inanır ki, bu onun üçün yaxşı təsir edəcək: *"Well, well, my poor boy, if you want to go, it's better for you to go, and God be with you"* [5, s. 52], *"Nix Nough Nothing"* nağılında kraliça əri gəlməmiş öz oğluna ad qoymaq və onu xaç suyuna salmaq istəmir: *"We will just call him Nix Nought Nothing until his father comes home"* [5, s. 26].

İngilislərin sehirli nağıllarında xüsusilə də "devil", "spirit", "lucifer" demonimlərinə daha çox rast gəlirik. Buna misal olaraq ingilislərin məşhur sehirli nağılı "Jack the Giant Killer" [25] nağılında qeyd olunan *"At midnight she went as before, and was angry with old Lucifer for letting the handkerchief go"* Lucifer demonimi iblisin, şeytanın törəmə nominativ vahidi kimi istifadə olunmuşdur.

Naxçıvan nağıllarının dilində demonimlərlə yanaşı, Allah teonimi və onun evfemizmləri daha çox istifadə olunur. Naxçıvan nağıllarında "Allah", "Allata-tala", "tanrı" teonimlərinə, "şeytan", "ifritə", "əzrayıl" demonimlərinə aid bir çox nümunələr tapmaq mümkündür: *"Qarı nənə, bilmirəm, göydə allah, yerdə sən …"* [1, s. 129], *"Qızın da ki, yekəlip, gəl onu allahın buyruğuynan, peyğəmbərin şəriətiynən ver ma"* [1, s. 192], *"Hambal Əhməd dəli şeytan deyir ki, tut bu hambalı apar padşahın yanına"* [1, s. 168], *"Çoban əzrayıl çobanıdı. Bir qoyunu şişə taxır"* [3, s. 130]. Hətta bəzi nağılların başlanğıc formulunda belə teonim və demonimlərə rast gəlinir. *"Bəli, biri varımış, biri yoxumuş, allahdan başqa heç kəs yoxumuş"* [1, s. 122], *"Biri varıdı, biri yoxudu, şeytannar, yerdə çoxudu" [3, s. 161].*

Antiteza strukturlu teonim və demonimlərə rast gəlinir: *"Allah şeytana lə'nət eləsin"* [3, s. 258], *"Allah – tala həmişə sizi şər işdən uzaq eləsin"* [3, s. 259], "*Allahın yazısı, fələyin qəzasıynan gəzirəm"* [3, s. 224].

Folklorun əsasını təşkil edən miflərdə dünya, təbiət,həyat haqqında xalqın düşüncəsi əks olunmuşdur. Mifonimlərin linqvistik cəhətdən dərindən öyrənilməsində xüsusi tip semantik adlar toplusu olan mifoloji leksika əhəmiyyətli rol oynayır. Leksikanın digər laylarına nisbətən mifoloji leksika daha sabitdir və çox geniş anlayışı ifadə etməyə qadirdir.

Mifozoonimlər, yəni real həyatda mövcud olmayan varlıqların adlarına həm Naxçıvan, həm də ingilis nağıllarında görmək olur. Naxçıvan nağıllarında sözügedən mifozoonimlər arasında div obrazı daha geniş səciyyə daşıyır. Məsələn: "İsgəndərin dirilməsi" [1, s. 231] nağılında qara div, "Üçayaq at" [2, s. 181] nağılında ağ div, qara div, sarı div, bundan başqa, "Qızıl xoruz" [1, s. 198] nağılındakı qızıl xoruz və divlər, "Şahzadə Bəndalı" [1, s. 223], "Beçə dərviş" [3, s. 182], "Hambal Əhməd" [1, s. 168] nağılındakı əjdaha, "Gül Sənavərə neylədi, Sənavər Gülə neylədi" [1, s. 136] zümrüd quşu mifozoonimlərə nümunə ola bilər.

İngilis folkloruna aid nağıllarda Naxçıvan nağılları kimi geniş istifadə olunan mifozoonimlərdən biri də divlərdir. Əksər hallarda div mənfi surətdir. İngilis folkloruna aid "Molly Whuppie" və div "Jack and the Beanstalk" – "Cek və lobya tağı" nağılında div mifozooniminə rast gəlirik. *"The giant came home, and ate up a great supper, and went to bed"* [5, s. 81]. Əlavə olaraq "The Cauld Lad of Hilton" – "Hilton şeytanı" nağılında, *"Brownie" – "damdabaca, şeytan", "Bogle" – "qarabasma", "Redcap" – "qırmızıpapaq"* mifozoonimləri də mövcuddur [5, s. 127].

[3]NDU
10.24412/2218-7588-2025-2-13-15

Azərbaycan nağıllarında coxlu mifotoponimlərə təsadüf olunur. Mifotoponim –adətən, qədim miflərdə, əfsanələrdə, əsatir və nağıllarda işlənən toponimlərdir. Ümumiyyətlə, qeyd etmək lazımdır ki, toponimik nağıllarda əhvalatlar müəyyən (dəqiq coğrafi yer adlar) və qeyri-müəyyən məkanda – hansısa bir padşahlıqda, şəhərdə, vilayətdə, yaxud bir kənddə baş verdiyi göstərilir. "Hansısa bir padşahlıqda" mifotoponimi Naxçıvan və ingilis nağıllarının ortaq cəhəti sayılır. "Molly Whuppie" [26. s, 82] nağılında *"Bridge of One Hair" – "saç körpüsü"* adlanan yer mifotoponimlərə misal ola bilər. "The Cauld Lad of Hilton" – "Hilton şeytanı" nağılında "Hilton Hall" da mifotoponimlərə aiddir, "At Hilton long years ago, there lived a Brownie that was the contrariest Brownie you ever knew" [5, s. 127]. "The story of the three little pigs" – "Üç donuz balasının nağılı"-da "Merry Garden" – "Meri bağı" mifotoponimdir.

Naxçıvan nağıllarının əksəriyyətində işlənən mifotoponimlərin ingilis nağıllarında olduğu kimi müəyyən padşahlıqda və ya hansısa şəhər və kənddə baş verdiyi qeyd olunur. "Daşbəyin nağılında" *"Qarasan məmləkəti"*nin adı çəkilir: *"Belə bir vaxtda bir də bir Qarasan məmləkəti varıdı ki, bırda adamlar çox zülüm çəkərdilər"* [30, s. 161], həmçinin "Gül Sənavərə neylədi, Sənavər Gülə neylədi nağılında"padşahlıqda baş verən hadisədən söz açılır: *"Götür məni Sənavər padşahın vilayətinə!"* [1, s. 151]*, "Lətif şah" nağılında isə bir vilayətdən bəhs edilir: "Məni bu qərib vilayətdə niyə bu günə qoydun. Sənin itginliyin, qəribliyh məni beləcə qocatdı, belimi büküb, gözdərimi nurdan saldı"* [2, s. 171].

Tədqiqatımızda ingilis və Naxçıvan folklorunun əsasını təşkil edən nağıl janrının leksik xüsusiyyətlərini araşdırmağa çalışmışıq. Leksik xüsusiyyətlər arasında nağıllarda istifadə olunan məişət leksikasına aid nümunələri taparaq qruplaşdırmağa çalışmışıq.

Naxçıvan və ingilis nağılları arasında məişət leksikasına aid olan qab-qacaq, mətbəx və ev avadanlıqları, kənd təsərrüfatı malları, qida adlarını nəzərdən qaçırmaq olmaz. Bununla bağlı, Naxçıvan və ingilis nağılları arasında bu qəbildən olanlara qısa şəkildə nəzər salaq:

"The Wee Bannock" [7] nağılının personajları *"a thatched house" – samandan düzəldilmiş evdə* yaşayır, toxuculuqla və heyvandarlıqla məşğul olurlar. Nağılda *"loom" – toxucu dəzgahı, "a clue of yarn" – iplik,* kənd təsərrüfatı ilə bağlı məişət leksikasına aid ifadələrdir. "Tom Tit Tot" nağılında [5, s. 9] *"spinning-wheel" – cəhrə* - ip əyirmək üçün xalqın istifadə etdiyi ən önəmli alətdir. "How Jack went to seek his fortune" nağılında [5, s. 21] *"a rocking chair"- yelləncək* mütləq hər bir ingilis ailəsinin evində olan əşyadır. "Jack Hannaford" nağılında [5, s. 30] "a chimney" – *buxarı* əsas ev əşyası olmaqla bərabər, həm də onun ingilis xalqının evində ən təhlükəsiz yer olduğu diqqət mərkəzinə çəkilmişdir.

Naxçıvan nağıllarında da məişət leksikasına aid bir çox sözlər işləndiyinə şahid oluruq: "Fərasətli keçəl" nağılında *"Keçəl qız paltarı geyib cəhrəni qabağına qoydu, başladı ip əyirməyə"* [1, s. 220], "Aftabın nağılı"nda [1, s. 251] bir çox qab-qacaq, təsərrüfat aləti adlarını görürük. Aftabın anası Pəri xanımı *qayça, balta, toy dəstərxanı və toy tavası* gətirməyi tapşırır. "Məlik Məmməd və Məlik Əhməd" nağılında həm qab-qacaq, həm təsərrüfat alətlərinin adlarının çəkildiyini görürük: *"Mənim bacımın bir taxtası var, onu gərək elə axıdasan ki, nə taxta suya, nə su taxtaya dəyə. Bir də qazan var, yeddi dəmirçi hərəsi bir küncündə çəkic döyür, onların səsi bir–birinə getmir"* [1, s. 198], "*Səhər gəlib zərgərdən teştnən məcmeyini alıb apardılar*"[1, s. 182].

İngilis nağıllarında qida adlarına aid məişət leksikasına dair bir çox nümunələr vardır. Məsələn, "*Titty Mouse and Tatty Mouse*"- *"Ağca siçan və qaraca siçan"* [5, s. 50], "T*he history of Tom Thumb" – "*Barmaq boyda olan Tomun həyatı*"* [5, s. 90] nağılında *"pudding" – piroq*, "Tom Tit Tot" nağılında "pie" – piroq, "The fish and ring" – "Balıq və üzük" [5, s. 122) nağılında *"boiled fish" –bişmiş balıq*. "*The Wee Bannock*" [7] nağılında "*oatmeal" - yulaf yarması*, "*The cat and the mouse*" nağılında: *"milk" – süd, "meat" -ət, "bread" – çörək* [5, s. 119], "*Lazy Jack*" [5, s. 97] nağılında *"a jar of milk" – bir banka süd, "a cream cheese" – üzlü pendir, "mutton" – qoyun əti*, "*The ass, the table, and the stick*" – "*Uzunqulaq, masa və çubuq*" [5, s. 129] nağılında *"turkey" – "hinduşka", "sausages" – "kolbasa", "roast mutton" – "qızardılmış qoyun əti", "potatoes" – kartof, "greens" – "göyərti"* kimi qida adları mövcuddur.

Rəyçi: Qocayeva .X.Ə. İngilis dilinin fonetikası kafedrasının dosenti, f.f.d.

Aynur Əfsər Quliyeva[6]

C. MOYESİN "SƏNDƏN SONRA" ƏSƏRİNDƏ METAFORLAR

Dilin metaforik sistemi bütövlükdə dilin leksik-semantik sistemi daxilində mürəkkəb və ziddiyyətli hadisədir. Bədii mətnlərdə dil təkcə informasiya ötürmək və estetik problemi həll etmək vasitəsi deyil, həm də mədəniyyət haqqında məlumat mənbəyidir.

Metaforizasiya prosesinin qanunauyğunluqlarının tədqiqi uzun illər dilçilərin diqqət mərkəzində olmuşdur. Metafor insanın idrak fəaliyyəti və reallığın təsnifatı ilə bilavasitə əlaqəsində dilin antroposentrizm kimi dərin xüsusiyyətində özünü göstərir. Bu baxımdan metaforik sahələrin müxtəlif dillərdə sistemli təsviri müxtəlif xalqlar tərəfindən reallığın assosiativ-obrazlı qavranılmasında ümumi və milli səciyyəviliyi müəyyən etməyə və onların müəyyən fraqmentlərinin dünya şəkillərini yenidən qurmağa imkan verir. Hal-hazırda dilçilikdə dünyanın milli mənzərəsini təşkil edən metaforik vahidlərin tədqiq olunması haqqında çoxlu əsərlər olmasına baxmayaraq, bu sahəni tam öyrənilmiş hesab etmək olmaz.

Metafor çox vaxt özlüyündə estetik məqsədə çevrilir, sözün ilkin mənasını sıxışdırır, yeni məna yaradır və bədii ifadə vasitəsinə çevrilir. Metafor sadəcə mənanın ötürülməsi, məcaz, müqayisə mətn obrazının yaradılması vasitəsi deyil, insan təcrübəsinin konseptuallaşdırılması və təsnifatında iştirak edən, dil və düşüncə prosesləri arasında əlaqə quran zehni əməliyyat kimi başa düşülür.Bu dil fenomeni həm də məna və mətn yaradan mexanizm kimi qəbul edilir. Bundan əlavə, metafor universal idrak mexanizmi və dünyanı dərk etmək vasitəsi kimi şərh edilə bilir, çünki onun köməyi ilə dünya haqqında təsəvvürlər insanın idrak sferasında möhkəmlənir. Metafor formasında konseptuallaşdırılan dünya müxtəlif dillərdə müxtəlif formalarda əks olunur ki, bu da milli dəyərlər sistemi ilə bağlıdır.

Metaforik ifadələr çox vaxt yeniliyi və təravəti, linqvistik vahidlərin və əlaqələrin gözlənilmədən işlədilməsi ilə oxucunun diqqətini cəlb edir. Bədii ədəbiyyatda yazıçılar tərəfindən istifadə olunan metaphor tez-tez canlı təsvirlər yaradır, oxuculara anlayışları vizuallaşdırmağa kömək edir, duyğuları maddi obyektlər və ya təcrübələrlə müqayisə edərək,güclü hisslər oyadır, çox vaxt mədəni dəyərləri əks etdirir, məna qatları əlavə edir və dərin şüurlu, heç bir mülahizə olmadan həqiqət kimi hiss olunan xarakter xüsusiyyətlərini aşkar edə bilir. Bir sözlə, metaforlar dərinlik əlavə etməklə və oxucuları müxtəlif anlayışlar arasındakı əlaqələr haqqında tənqidi düşünməyə sövq etməklə ədəbiyyatı zənginləşdirir.

Bu üsullar vasitəsilə yazıçılar öz hekayələrini zənginləşdirmək, xarakter inkişafını dərinləşdirmək və oxucuları müxtəlif səviyyələrdə cəlb etmək üçün metaforlardan səmərəli istifadə edirlər.Metaforlar hekayənin zənginliyini artırır və daha cəlbedici təcrübə yarada bildikləri üçün oxucular mətnlə daha dərindən məşğul olmağa dəvət edilir.

J. Moyes də, təlqinedici romanları və metaforlardan zəngin istifadəsi ilə tanınır. Onun romanları tez-tez sevgi, itki, şəxsi formada və ya görünüşdə hərtərəfli və ya dramatik dəyişiklik mövzularını araşdırır.Yazıçı əsərində istifadə etdiyi metaforlar vasitəsilə emosional əlaqələri dərinləşdirməyi, itkinin dərinliyini və onun personajlara necə təsir etdiyini çatdırır, çox vaxt sevilən birinin yoxluğunun uzunmüddətli təsirini göstərir.J.Moyes üçün metafor mürəkkəb duyğuları və mövzuları əhatə edən güclü bir ədəbi vasitə kimi göründüyünə görə o, yazdığı əsərləri gücləndirmək və oxucularla rezonans yaratmaq üçün bu metaforları məharətlə birləşdirir.

"After you" ("Səndən sonra") əsərində metaforalar kədər, şəfa və şəxsi inkişaf mövzularını çatdırmaqda mühüm rol oynayır. "Səndən sonra" J. Moyesin ən çox oxunaqlı sayılan "Səndən əvvəl mən" romanının davamıdır. Bu əsər, Luiza Klarkın hekayəsini davam etdirir, o, birinci kitabdakı hadisələrdən sonra çətin vəziyyətdə mübarizə aparır, həyatını davam etdirir. J.Moyes kədərin mürəkkəbliklərini və əhəmiyyətli itkidən sonra həyatını bərpa etmək çətinliyini təsvir edir.

Roman cəmiyyətin və dəstəyin vacibliyini vurğulayır, çünki Luiza qurduğu dostluqlarda təsəlli və həvəs tapır, ona mübarizələrində tək olmadığını xatırladır. Hekayə ən qaranlıq anlardan yeni başlanğıcların yarana biləcəyi fikrini vurğulayır, oxucuları öz həyatlarında ümid və imkan tapmağa həvəsləndirir.

Luiza Uill Treynorun itkisi ilə mübarizə apararkən dünyada öz yerini tapmağa çalışarkən davamlı kədər, sevgi və şəxsi inkişaf mövzularını araşdırır.O, bir mərhələdən digərinə keçərək irəliləməsində kömək istəməyin yaxşı olduğunu öyrənir.Burada yazıçı emosional dözümlülük anlayışını da metaforlar vasitəsilə gözəl təsvir edir.

Romanda istifadə edilən metaforlar obrazların mübarizəsini və həyatlarını yenidən qurmaq ehtiyacını simvollaşdırır. Məsələn, Luizanın Uillə bağlı xatirələrinin olması,bu xatirələrdənayrılmaq istəməməsi və insanın necə mübariz olması, Uillin dediyi kimi arzularının arxasınca getrməsi keyfiyyətini yazıçımetaforlar vasitəsilə göstərir. Bu metaforalar əsəri zənginləşdirir, oxuculara Luizanın həyatı ilə dərindən əlaqə saxlamağa imkan verir. Onlar onun səyahətinin emosional rezonansını gücləndirən, mübarizələrini və zəfərlərini daha əlaqəli edən məna qatlarını təmin edir.

Bu cumləyə diqqət yetirək: "*The lights flicker off at gates three, five, eleven, the last of the day's travellers winking their way into the night sky"[ch.1,p.9].* "The lights flicker off" ("işıqların sönməsi") təkcə işıqların hərfi şəkildə sönməsini nəzərdə tutmur, həm də günün sonunu və səyahətçilərin yola düşməsini simvollaşdırır, "winking" zərif, şən vidalaşmanı nəzərdə tutur, sanki səyahətçilər gecə səmasında yoxa çıxan ulduzlara bənzəyən yeni mərhələyə keçirlər.

[6]**Azərbaycan Dillər Universiteti Fil.f.d.,dosent.** aynurmurad@yahoo.comhttps://orcid.org/0000-0003-1078-8535
10.24412/2218-7588-2025-2-24-28

Bu, həm səyahətlərin sonunun, həm də yenilərinin başlanğıcının təsirli görüntüsünü yaradır, zamanın və təcrübələrin keçici təbiətini vurğulayır. Bu metafor onların çıxışını dükanların bağlanması və gecənin sakit atmosferi ilə ziddiyyət təşkil edir

*"Oops! Here we go. Come on, Dor.' Alerted by a screen, they gather up their belongings, and perhaps it's only me who notices a slight stagger as they brace themselves for the walk towards security"[ch.1,p.8].*Bu cümlədə metaforu"brace themselves" ifadəsində görmək olar.O deməkdir ki, təhlükəsizliyə doğru addımlamaq təkcə fiziki bir hərəkət deyil, həm də emosional və ya əqli cəhətdən çətin bir təcrübəyə hazırlıqdır. Bu metafor təhlükəsizlik prosesi ilə bağlı narahatlıq və ya gözləmə hissini ifadə edir, anın gərginliyini vurğulayır.

"*On the mantelpiece there are two cards. One is from my parents, wishing me a happy birthday. That 'best wishes' from Mum is as piercing as any stab wound*" [ch.1,p.11].Bu cümlədəki metafor anadan gələn "best wishes"in "any stab wound" ilə müqayisəsidir. Bu, mehriban hisslərin dərin emosional ağrı və ya inciklik daşıdığını göstərir, doğum günü arzusunun istiliyi ilə natiqin hiss etdiyi emosional qarışıqlıq arasındakı ziddiyyəti vurğulayır. Məcaz onların hisslərinin şiddətini güclü şəkildə çatdırır, ürəkdən gələn mesajı iztirab mənbəyinə bənzədir.

"It has become a secret habit, me, the city skyline, the comfort of the dark, the anonymity, and the knowledge that up here nobody knows who I am. I lift my head, feeling the night breezes, hearing laughter below, the muffled smash of a bottle breaking, the traffic snaking up towards the city, seeing the endless red stream of tail-lights, an automotive blood supply. Only the hours between three and five a.m. are relatively peaceful, the drunks having collapsed into bed, the restaurant chefs having peeled off their whites, the pubs having barred their doors. The silence of those hours is interrupted only sporadically, by the night tankers, the opening up of the Jewish bakery along the street, the soft thump of the newspaper delivery vans dropping their paper bales.I know the subtlest movements of the city because I no longer sleep..[ch.1,p.11]

Əsərdən götürülmüş bu parçada verilmiş metaforik ifadələri təhlil edək.Ən qabarıq, gözəçarpan metaforalardan biri "the comfort of the dark" ifadəsidir."Dark" sözün əsl mənasında rahatlıq təklif etmir, lakin burada təhlükəsizliyi, qaranlığı təsəlli verən bir şey kimi təcəssüm etdirir, sülhü və ya bəlkə də emosional sığınmağı simvollaşdırır.

İkinci cümlədə istifadə edilən "an automotive blood supply" metaforik ifadəsi, "endless red stream of tail-lights" avtomobilin arxa işıqlarının qırmızı axınını canlı bədəndə olduğu kimi damarlar və ya arteriyalardan axan qanla müqayisə edilir. Bu metafora şəhər varlığının enerjisini və nəbzini vurğulayaraq, nəqliyyatın şəhər həyatı üçün həyati əhəmiyyət daşıdığını göstərir. Bu metaforlar natiqin şəhərdəki təcrübəsinin təsvirini və emosional dərinliyini artırır. Şəhəri canlı, nəfəs alan bir şey kimi təsvir edir - enerji və hərəkətlə dolu, burada hətta nəqliyyat onun həyatının vacib hissəsinə çevrilir. Bu, həm qorxu hissi, həm də bəlkə də bir gərginlik işarəsi verir - şəhər canlıdır, amma həm də böyük və ya mexaniki ola bilər.

Bu hissənin sonuncu cümləsində "the subtlest movements of the city" ifadəsində metafora rast gəlirik. Yazıçı "movements" ifadəsi ilə təkcə fiziki hərəkətləri deyil, həm də qəhrəmanın yüksək şüurlu vəziyyətdə qavradığı şəhər həyatının ritmlərini və nüanslarını nəzərdə tutur. Bu metafora danışanın yuxusuzluğunun onlara şəhər həyatını dərindən dərk etməyə və hiss etməyə imkan verdiyi, sanki onun mahiyyətinə uyğunlaşdığı fikrini çatdırır. Bəzi metaforalardan daha incə olsa da, qəhrəmanın mövcud vəziyyəti ilə şəhər mühitini qavrayışı arasındakı əlaqəni təsirli şəkildə göstərilir

"Neon slides across the interior of the ambulance, hiccups and repeats, illuminating the unexpectedly packed interior, the man in the green uniform, who is tapping something into his phone, before turning to adjust the drip above my head. The pain has lessened – morphine? – but with consciousness comes growing terror. A giant airbag is inflating slowly inside me, steadily blocking out everything else. Oh, no. Oh, no..."[ch.2, p.15]

Bu hissədə diqqətəlayiq metafor var:"hiccups" metaforik ifadəsi qəhrəmanın xaotik vəziyyətini əks etdirən qeyri-sabit hərəkəti nəzərdə tutur. Bu metaforlar səhnənin emosional intensivliyini artırır, qəhrəmanın təcili yardım maşınındakı təcrübəsini ifadə edir.Digər ifadə isə"a giant airbag is inflating slowly inside me" danışanın yaşadığı emosional və ya fiziki təzyiq hissini ifadə edir. Hava yastığının açılması ideyası həddən artıq sıxılma və ya tələyə düşmə hissini ifadə edir, başqa hər şeyin qarşısını alır ki, bu da onların artan çaxnaşmalarını güclü şəkildə nümayiş etdirir, emosional boğulma, yardımın zərərə çevrilmə paradoksu və fiziki böhrandan sonra baş verən qaçılmaz travma selini əks etdirir. Sakit, klinik səthin altında daxili çökmə hissini dərinləşdirir.

"The cheerful streets of my hometown feel foreign to me now. I look at them with a distant,analytical eye, noting how small everything looks, how tired, how twee. I realize this is how Will must have seen it when he first came home after his accident, and push the thought away. As we drive down our street, I find myself sinking slightly in my seat. I don't want to make polite conversation with neighbours, to explain myself. I don't want to be judged for what I did". [ch.2,p.20]

Verilmiş bu hissədə "sinking slightly in my seat" metaforik ifadəsinə rast gəlinir. Bu metafor danışanın fiziki hərəkətindən çox emosional ağırlığını və ya narahatlığını ifadə edir. Əsərin qəhrəmanının doğma şəhəri və başqalarının gözləntiləri ilə üzləşdiyi zaman üzləşdiyi daxili mübarizəni vurğulayaraq, narahatlıq hisslərini və sosial qarşılıqlı əlaqədən uzaqlaşmaq istəyini təklif edir. Bundan əlavə, bu hissədə küçələri " cheerful"," foreign" kimi təsvir etmək həm də qəhrəmanın qavrayışında metaforik dəyişikliyə işarə edir, onların emosional vəziyyətinin tanış yerlərə baxışlarını necə dəyişdirdiyini göstərir. Bu kontrast natiqin ətrafdakılarla əlaqəsinin kəsilməsini vurğulayır.

"*My mother, still aghast at what I had been part of, had told me that while she loved me, she could not reconcile this Louisa with the daughter she had raised, so with the loss of my family, as well as the man I had loved,every thread*

that had linked me to who I was had been cut. I felt as if I had simply floated off, untethered, to some unknown universe" [ch.3,p.23].

"Every thread that had linked me to who I was had been cut."Bu metaforik ifadə ilə yazıçı danışanın şəxsiyyətinin və keçmişi ilə əlaqələrinin kəsildiyini, hiss etdikləri emosional əlaqəni və itkini vurğulayır."I had simply floated off, untethered, to some unknown universe" .Burada verilən metafor qəhrəmanın emosional vəziyyətini kosmosda üzənlə müqayisə edərək, itkin və məqsədsiz olmaq hissini çatdırır ki, bu da təcrid və oriyentasiyanın pozulması hisslərini vurğulayır.Bu metaforlar natiqin həyatındakı dəyişikliklərdən sonra kədərini və şəxsiyyətini itirmə hissini güclü şəkildə göstərir.

Metaforlar gözəgörünməz duyğuları (like grief, guilt, detachment) yaşanılan, hiss olunan təcrübələrə çevirir. Həm sevilən bir insanı, həm də mənsubluq hissini itirdikdən sonra dərin bir kədər hissi, yoxluq və uzaqlaşma hissini çəkir, yaşayır. Onlar oxucuya nəinki kimisə, nəticədə özünüzü itirməyin nə olduğunu görüb hiss etməyə imkan verir.

"I'd thought she meant the guilt I would have to learn to get over, the grief, the insomnia, the weird, inappropriate bursts of anger, the endless internal dialogue with someone who wasn't even there. But now I saw it wasn't just me: in a digital age, I would be that person for ever. My name would be tied to his for as long as there were pixels and a screen. People would form judgements about me, based on the most cursory knowledge – or sometimes no knowledge at all – and there was nothing I could do about it."[ch.3, p.30]

Verilmiş bu hissədə bir neçə metaforik element var: "endless internal dialogue with someone who wasn't even there." Bu metaforik ifadə vasitəsiləLuizanın Uill ilə məcazi söhbəti nəzərdə tutulur, natiqin onun yoxluğunda belə onun haqqında keçirdiyi davamlı düşüncələri və duyğuları təmsil edilir. "My name would be tied to his for as long as there were pixels and a screen." Bu cümlədə istifadə olunan metafor isə onu göstərir ki, qəhrəmanın şəxsiyyəti və irsi Uillin rəqəmsal aləmdə ölümü ilə daimi olaraq bağlıdır. İstifadə olunan"tied" ifadəsi obrazın onun yaddaşı ilə qaçılmazlıq və dolaşıqlıq hissini çatdırır. Bu elementlər birlikdə yaddaşın, şəxsiyyətin mürəkkəbliklərini və rəqəmsal dövrdə itkilərin davamlı təsirini vurğulayır.

"I'm meant to be overseeing the new fencing at the castle tomorrow. I have contractors coming. How the hell am I meant to deal with contractors if I'm blue?Dad spat on his hand and started to rub at his face. The faintest smudging appeared, but mostly seemed to spread onto his palm. It's not coming off. Josie, it's not coming off!"[ch.3,p.32]

"If I'm blue"-Luizanın atasının kədərini təmsil etmək üçün metaforik olaraq "blue" sözündən istifadə edərək özünü aşağı hiss etdiyini və ya depressiyaya düşdüyünü göstərir. Bu, onun emosional vəziyyətinin podratçıları idarə etmək qabiliyyətinə mane olacağını nəzərdə tutur.

Əsərdən götürdüyümüz bu hissədə Luizanın atasının ifadə etdiyi "it's not coming off"ifadəsi hərfi mənada alınsa da, metaforik xarakter də daşıyır. O, müəyyən hisslərin, təcrübələrin və ya yüklərin asanlıqla aradan qaldırıla bilməyəcəyi və ya silinə bilməyəcəyi fikrini təmsil edə bilər, davamlı olaraq yapışan duyğularla mübarizəni əks etdirir. Bu elementlər atanın məyusluğunun və emosional vəziyyətinin canlı şəkildə təsvirinə töhfə verir.

"There was a peculiar scent to grief. It smelt of damp, imperfectly ventilated church halls and poor quality teabags. It smelt of meals for one and stale cigarettes, smoked hunched against the cold. It smelt of spritzed hair and armpits, little practical victories against a morass of despair. That smell alone told me I did not belong there, whatever I had promised Dad."[ch.4,p.35]. Verilmiş bu hissədəolan metaforları təhlil edək:*"There was a peculiar scent to grief."*Bu metafor, kədərin fərqli, demək olar ki, hiss edilə bilən bir keyfiyyətə sahib olduğunu göstərir və onu itki ilə əlaqəli bir sıra duyğuları və təcrübələri əhatə edən bir qoxuya bənzədir."A morass of despair""morass" məcazi mənada bataqlığı təmsil edir, əsl mənada olan bir bataqlıq deyil, tələyə düşmək və ya emosional olaraq ağırlaşmaq hissidir, ümidsizliyin qalın, hədsiz və çətin getdiyini bildirir, kədərin tələsini və ağırlığını çatdırır.Bu metaforlar natiqin emosional mənzərəsini və onların kədərlə olan mürəkkəb assosiasiyalarını parlaq şəkildə əks etdirir.

*"The door opened, letting in a blast of warm air, and the empty chair was taken by a mop-headed teenager, who folded his limbs into place as if they were always somehow too long for the space they were in".[ch.4,p.35]*Bəli, bu parçada bir metafor var:"the empty chair was taken by a mop-headed teenager".Oxucuya yeniyetməni daha qabarıq şəkildə təsvir etməyə kömək edir,öz xarici görünüşü ilə çox maraqlanmayan biri haqqında təəssürat yaradır.Yeniyetmənin saçınıdağınıq, qalın, səliqəsiz və ya pırtlaşıq bir süpürgə ilə müqayisə edir. Gələn şəxs xüsusi, yabanı, coşğun və ya dağınıq saçları nəzərdə tutan "mop-headed" metaforası ilə bir qədər yumoristik və ya qeyri-rəsmi bir şəkildə təsvir edilir.

*"And the City had begun to alter me. I had come to know my little corner of it, its rhythms and its danger points".[ch.5,p.43]*Bu cümlədəistifadə olunan bir neçə metafor bu hissənin dərinliyinə kömək edir: "The City had begun to alter me" cümləsindəki metaforik ifadə onu göstərir ki, ətraf mühitin qəhrəmanın şəxsiyyətini və ya perspektivini fəal şəkildə dəyişdirir, şəhər mənzərəsi ilə transformativ əlaqəni nəzərdə tutur. Bu cümlədə rast gəldiyimiz ikinci metaforik ifadə isə "Rhythms and its danger points" ifadəsidir ki, burada "rhythms" şəhər daxilində həyat və hərəkət hissini nəzərdə tutur, "danger points" isə şəhərin nəbzini onun riskləri ilə birləşdirərək potensial təhlükələr xəritəsini oyadır.Bu metaforlar birlikdə təhlükəsizlik, transformasiya və anonimliyin ağırlığını vurğulayaraq, qəhrəman ilə şəhər arasındakı mürəkkəb əlaqəni təsvir edir.

"I'd love to give you advice. But I don't have a clue.' He stepped forward and enveloped Jake in a hug, which the boy tolerated glumly.'You all right, young man?'"[ch.6,p.54]. Əsərdən götürdüyümüz bu nümunəyə nəzər yetirsək, "enveloped Jake in a hug" cümlə-sində "enveloped" sözü metafordur, adətən bir şeyin digərini necə tamamilə əhatə etdiyini təsvir etmək üçün istifadə olunur.Bu cümlədə,sadəcə "gave Jake a hug" deməkdənsə, tam, bəlkə də

təsəlliverici və ya daxildən gələn bir istəklə qucaqlaşmanı təsvir etmək üçün məcazi mənada istifadə olunur.O, emosional ton qatı əlavə edir - istilik, qorunma və ya hətta kiminsə fiziki jestdən daha böyük bir şeyə çəkilmək hissini təklif edir.

*"The rest of the day was a blur"[ch.7,p.65].*Bu cümlədə istifadə olunan metaforik ifadə hadisələrin tez, qeyri-müəyyən şəkildə emosional və ya fiziki məşğulluq dumanında keçdiyini ifadə etmək üçün istifadə olunur. Bu, oriyentasiya və ya emosional həddən artıq yüklənmə hissini çatdırır.Luiza gün ərzində dayanmadan iş görür, lakin gördüyü işi tam təqdim etmir və ya hər şeyi aydın şəkildə dəyişdirməklə yerinə yetirildiyini göstərməyə çalışır.

"I could hear the television in the living room, and pictured Granddad there, watching the racing, his mouth working silently along with the horses' legs. The sights and sounds of home. I thought of the months I had kept away, no longer sure I was even welcome, of how I had refused to allow myself to think of how it felt to walk up this path, the fabric-conditioned scent of my mother's embrace, my father's distant bellow of laughter"[ch.8,p.68].

"His mouth working silently along with the horses' legs"-Luiza babasınınyarışa necə diqqətlə baxdığını təsvir edir, sanki o, ağlında onlarla yarışır, o yarışda səssizcə iştirak edir; "The sights and sounds of home.""home" sadəcə fiziki məkan deyil - o, emosional əsaslandırma və şəxsiyyəti təmsil etmək üçün simvolik olaraq istifadə olunur. Bu söz hərfi mənada qəbul edilsə də, həm də rahatlıq, tanışlıq və mənsubiyyəti ifadə etmək üçünolan metafordur."The fabric-conditioned scent of my mother's embrace."Bu, ananın istiliyini, təhlükəsizliyini və nostaljisini təmsil edir.həm duyğusal, həm də simvolik edir.

"After you" ("Səndən sonra") əsərində Jojo Moyes kədərin emosional nəticələrini və şəfaya doğru yavaş, qeyri-müəyyən yolu araşdırmaq üçün metaforlardan istifadə edir. Bu metaforlar mürəkkəb hissləri – boşluq, əlaqəni kəsmək və ümid kimi – əlaqələndirilə bilən və emosional rezonans doğuran şəkildə ifadə etməyə kömək edir.Duyğuları açıq şəkildə ifadə etmək əvəzinə, Moyes tez-tez simvolik dil və təsvirlərdən istifadə edərək əsas personaj olan Luizanın daxili dünyasını necə hiss etdiyini göstərir. Metafor vasitəsilə o, kədərin vaxtı, şəxsiyyəti və hətta insanın həyatda istiqamət hissini necə təhrif edə biləcəyini göstərir.

Romandakı metaforlar həm də keçmişlə indiki arasında körpü rolunu oynayır, Luizanın itki ilə necə formalaşdığını, eyni zamanda böyüməyə doğru itələdiyini göstərir. Onlar oxuculara Luizanın nələr yaşadığını hiss etməyə kömək edir, tez-tez mücərrəd emosional vəziyyətləri emosional yükü daşıyan canlı, konkret obrazlara çevirir.

J.Moyesin metaforları adətən yumşaq, əsaslı və əlçatandır - onun emosional cəhətdən dürüst və xarakterə əsaslanan hekayə anlatma tərzinə uyğun gəlir. Əslində, J.Moyes üçün metaforlar sadəcə üslub seçimləri deyil; onlar onun personajlarının emosional mənzərəsini və araşdırdığı mövzuları çatdırmaq üçün ayrılmaz hissələrdir. Onun əsərləri emosional dərinliyi, insan münasibətləri və itki, sevgi, şəxsiyyətin inkişafı kimi mövzuları ələ alır — və bütün bunları daha güclü ifadə etmək üçün metaforlardan incə və təsirli şəkildə istifadə edir.Bəzi ədəbi və ya yüksək konsepsiyalı yazıçılarla müqayisədə o, metaforlarını əsaslı və real həyata yaxın saxlayır, bu da onları oxşar emosional səyahətlərdən keçən oxucular üçün xüsusilə güclü edir.

İstifadə olunmuş ədəbiyyat:

J.Moyes. After you. Penguin Random House UK, 2015, 279 p.

Açar sözlər: metafor, həqiqi məna, məcazi məna, emosional, nitq forması
Ключевыеслова:метафор,прямоезначение,переносное значение,фигура речи, эмоция
Key words: metaphor, primary (nominative) meaning, figurative meaning, emotion, figure of speech

XÜLASƏ

Bir-birinə bənzəməyən iki şey arasında birbaşa müqayisə aparan metaforlar məna qatları əlavə etməklə və mürəkkəb fikir və ya duyğuları ifadə etməyə kömək etməklə,istər yazılı, istər şifahi dili zənginləşdirir.Metaforlar münasibətləri, mübarizələri və güc dinamikasını təsvir edə bilir, sosial qarşılıqlı əlaqə haqqında fikir verir.Onlar çox vaxt bir insanın və ya mədəniyyətin həyata, təbiətə olan münasibətlərinə baxışını əhatə edir,insanların idrak nümunələrini əks etdirərək mürəkkəb ideyaları və duyğuları necə konseptuallaşdırdığını göstərir.Metaforlar mürəkkəb fikirləri sadələşdirir, onları daha əlçatan edir,əhval-ruhiyyəni nüanslı şəkildə ifadə edə, asanlıqla ifadə edilə bilməyən əsas duyğuları vurğulaya bilərlər. Bədiiədəbiyyatda istifadə olunan metaforlar əsərləri daha oxunaqlı edir və zənginləşdirir, mövzuları və xarakter inkişafını artırır və daha dərin mənalar verir.Ümumiyyətlə, metaforalar insan düşüncəsinə, dilinə və mədəniyyətinə pəncərə kimi xidmət edir, ünsiyyət və ifadə anlayışımızı zənginləşdirir.

SUMMARY

Metaphors, which make direct comparisons between two dissimilar things enrich both spoken and written language by adding layers of meaning and helping to express complex thoughts or emotion,feelings. They can describe relationships, struggles, and power dynamics, offering insight into social interaction. Metaphors often reflect a person's or culture's perspective on life and nature, revealing how people conceptualize complex ideas and emotions through patterns of perception. They simplify intricate concepts, making them more accessible, and can convey mood with subtlety, highlighting core emotions that might be difficult to express otherwise. In literature, metaphors enhance readability and depth, enriching the text, supporting thematic development, and deepening character portrayal. Overall, metaphors serve as a window into human thought, language, and culture, broadening our understanding of communication and expression.

РЕЗЮМЕ

Метафоры создают образы и ассоциации в умах читателей или слушателей, делая текст более выразительным и образным. Они используются в литературе, поэзии и обыденной речи, чтобы усилить смысловое содержание и вызвать эмоциональную реакцию. Метафоры, проводящие прямое сравнение между двумя несхожими вещами, обогащают как письменную, так и устную речь, добавляя смысловые слои и помогая выражать сложные мысли и чувства. Метафоры способны описывать отношения, конфликты и динамику власти, давая представление о социальном взаимодействии. Часто они отражают взгляд человека или культуры на жизнь и природу, демонстрируя, как люди концептуализируют сложные идеи и эмоции через особенности восприятия. Метафоры упрощают сложные понятия, делают их более доступными, позволяют тонко передавать настроение и подчёркивать ключевые чувства, которые трудно выразить напрямую. Используемые в художественной литературе, метафоры делают произведения более выразительными и насыщенными, усиливают раскрытие тем и развитие персонажей, придавая более глубокие смыслы. В целом, метафоры служат окном в человеческое мышление, язык и культуру, расширяя наше понимание общения и самовыражения.

Rəyçi: fil.f.d. M.Zohrab-Mecid

S.M.Seyidova [7]

AZƏRBAYCAN DİLİNDƏ RƏSMİ–ƏMƏLİ ÜSLUB

«Üslub» sözü çoxmənalı söz kimi sosial həyatımızın bir çox sahələrində geniş şəkildə işlənir. Bu sözə ədəbiyyatşünaslıqda, incəsənətin bir çox növlərində – memarlıqda, rəssamlıqda, o cümlədən də dilçilikdə tez-tez rast gəlirik. Məlumdur ki, üslub-hərfi mənada üsul, tərz deməkdir. İncəsənətdə tarixən formalaşmış, sabitləşmiş obrazlar, ideyalar sistemidir, incəsənətin ayrı-ayrı xarakter fərqlərinin məcmusudur. Ədəbiyyatşünaslıqda ya ədəbi məktəb, ya ədəbi cərəyanların, yaxud yazıçıların yaradıcılığına xas olan fərdi xüsusiyyətlərin məcmusu, ictimai həyatda fərdi ifadə tərzləri və s. mənaları ifadə edir.

Ə.Dəmirçizadə Azərbaycan dilçiliyində üslubiyyat məsələlərini geniş tədqiq etmiş və onun bu sahədəki tədqiqatları üslubiyyat sahəsində uğurlu addımlar idi: Ə.Dəmirçizadənin fikrincə, «Üslubiyyat dilin ifadəlilik vasitələrinin məqsədəuyğun surətdə istifadə edilmə qayda və qanunlarından, xüsusiyyət və əlamətlərindən, ifadə vasitələrinin sistem təşkil etməsi xüsusiyyətlərinə görə formalaşan müxtəlif üslubların əlamətdar cəhətlərindən bəhs edən bir elmdir»[1] (Dəmirçizadə, 1962: 24). Bir çox dünya və rus dilçilərinin üslubiyyat haqqında maraqlı mülahizələri diqqəti cəlb edir: «Üslubiyyat nitq üslublarını, üslubi priyomları və dilin ifadəlilik vasitələrini və onların ifadə olunan məzmuna münasibətini tədqiq edən dilçilik şöbəsidir»[2] (Тальперин, 1958: 7).

B.M.Şerbatskiy yazırdı: «Üslubiyyat bizim fikir və hisslərimizi ifadə etmək üçün dilin ixtiyarında olan vasitələri öyrənən dil haqqındakı elmin bölməsidir»[3] (Щербатский, 1951: 11). Görkəmli rus dilçi alimləri V.V.Vinoqradov, D.E. Rozental, Q.O.Vinokir və s. üslubiyyat haqqında elmi fikirlər söyləmişlər. Fransız dilinin üslubiyyatını tədqiq edən M.Moren və N.Teterevnikovanın üslubiyyat haqqında fikirləri daha dolğun və düzgündür. Müəlliflər belə hesab edirlər ki, «Üslubiyyat – ünsiyyətin müxtəlif şəraitində müəyyən məzmun ifadə etmək üçün dil vasitələrinin seçilməsi və istifadə edilməsi prinsiplərini öyrənən müstəqil filoloji elmdir»[4] (Морен, Тетеревникова, 1960: 10).

Üslubiyyat dilçiliyin müstəqil bir sahəsidir, çünki onun da özünəməxsus spesifik cəhətləri vardır. Lakin dilçiliyin digər sahələri kimi, üslubiyyatın tədqiq obyekti, kateqoriyaları, əhatə dairəsi hələ tam dəqiqləşdirilməmişdir. Əgər fonetika dilin səs sistemini, leksika lüğət tərkibini, morfologiya qrammatik formaları, sintaksis cümlənin quruluşunu və növlərini öyrənirsə, üslubiyyat bu sahələrin hamısı ilə bilavasitə bağlıdır, hər birinin üslubi imkanlarını tədqiq edir.

Rus dilçiləri, Qərb alimləri də üslubiyyatın bu xüsusiyyəti haqqında fikirlər söyləmişlər. Onlar hesab edirlər ki, üslubiyyatın əsas əlamətlərindən biri odur ki, o, dili bütün struktur boyu öyrənir. Yəni həm səsləri, həm formaları, onların ayrı-ayrı hissələrini öyrənir. Yekun olaraq dilçilər belə bir qənaətə gəlirlər ki, üslubiyyat dilçiliyin ayrıca sahəsi deyil, lakin dilçiliyin tədqiq etdiyi problemləri tamamilə başqa bir baxımdan öyrənən paralel bir elmdir. Deməli üslubiyyat dil materiallarını xüsusi bir istiqamətdə təhlil edir. Üslubiyyata materialı fonetika, leksikologiya, qrammatika verir. Ona görə də «fonetik üslubiyyat», «leksik üslubiyyat», «qrammatik üslubiyyat» dedikdə fonetik, leksik, qrammatik vasitələrin üslubi xüsusiyyətləri nəzərdə tutulur, yəni həmin vasitələrin emosional-ekspressiv xüsusiyyətləri, sinonimliyi obrazlı ifadə tərzi və s. cəhətləri onların üslubi xüsusiyyətləri hesab olunur. Sadə bir dillə desək, hər hansı bir dilin üsullarını, üslubi imkanlarını öyrənən elmə üslubiyyat deyilir. «Üslub» nədir? Üslub dil vasitələrindən – səsdən, sözdən, morfoloji və sintaktik vahidlərdən məqsədyönlü istifadə formasıdır – üsuludur. Dil vahidlərindən məqsədyönlü istifadə iki formada özünü göstərir: ümumi formada, xüsusi, yaxud şəxsi formada. Beləliklə, dildə üslublar sistemi meydana çıxır. 1. Ümumi-ictimai formada. 2. Xüsusi formada. Ümumi-ictimai və xüsusi baxımdan üslublar aşağıdakı kimi qruplaşdırılır: 1. Ümumi, yaxud ictimai baxımdan: funksional üslublar; 2. Xüsusi, yaxud şəxsi baxımdan: fərdi üslub[5] (Hacıyev, Cəfərov, Xudiyev, 2005: 74).

Funksional üslublar nədir? Funksional üslublar milli təfəkkürün müxtəlif sahələrini əks etdirir, dil vahidləri də həmin sahələrin tələbi ilə seçilib sistemləşdirilir. Beləliklə, bədii təfəkkürün tələbi ilə-bədii üslub, elmi təfəkkürün tələbi ilə – elmi üslub, publisistik təfəkkürün tələbi ilə – publisistik üslub və s. üslublar meydana çıxır. Elə bu üslublar da ədəbi dili təşkil edir. Bu üslubların hər birinin cəmiyyətdə özünə məxsus funksiyası var, hər üslub dildən özünəməxsus şəkildə istifadə edir, nitq prosesində üslublar öz xarakterik xüsusiyyətlərinə görə fərqlənir. Fərdi üslub isə funksional üslublardan fərqli olaraq xüsusi səciyyə daşıyır, yəni bir şəxsə, bir müəllifə aid olur. Məsələn: Füzulinin üslubu, Vaqifin üslubu, S.Vurğunun üslubu və s.

«Rəsmi–əməli üslub» termini «rəsmi–işgüzar üslub» termini ilə sinonim termin kimi, müvazi şəkildə işlənir. Rəsmi–əməli üslubun işlənmə tarixi qədimdir. Lakin Azərbaycan dilinin digər funksional üslublarına nisbətən rəsmi–əməli üslub nisbətən az inkişaf etmişdi. Rəsmi–əməli üslub, əsasən, dövlətçilik, idarəçilik təcrübəsi inkişaf etmiş ölkələrdə daha geniş miqyasda formalaşır. Azərbaycan müstəqillik əldə etdikdən sonra idarə və müəssisələrdə Azərbaycan dilinin nüfuzunun artması, Azərbaycan dilinin rəsmi dövlət dili statusu qazanması rəsmi – əməli üslubun funksional imkanlarının genişlənməsinə şərait yaratdı. VII əsrdən sonra ərəb və fars dillərinin, sonralar isə rus dilinin Azərbaycanda hegemonluğu rəsmi-işgüzar üslubun işlənməsinə maneə törətdiyi üçün digər funksional üslublara

[7] **BDU .Filologiya üzrə fəlsəfə doktoru, dosentsultan@seyidli.com**

10.24412/2218-7588-2025-2-29-33

nisbətən rəsmi – əməli üslub çox inkişaf edə bilməmişdi.

Hər hansı bir dilin dövlət dili olmasının əsas şərtlərindən biri həmin dilin rəsmi – işgüzar (əməli) üslubunun fəaliyyəti, inkişafı, işlənmə dairəsi ilə ölçülür.

Rəsmi – əməli üslub nədir?

Rəsmi – əməli üslub rəsmi və işgüzar sənədlərin dilinin təzahürünə deyilir.

Rəsmi – əməli üslub dövlət təşkilatlarında, idarə və müəssisələrdə, siyasi partiyalarda, beynəlxalq münasibətlərin tənzimlənməsində və s. yerlərdə istifadə edilən üslubdur. Yüksək kürsülərdə, beynəlxalq əlaqələrdə işlənən bu üslubun dili dövlət dilidir.

Rəsmi–əməli üslub – sənədlərin, beynəlxalq müqavilələrin, qanunların, dövlət aktlarının, işgüzər sənədlərin üslubudur – dilidir. Bu üslub saydığımız sənədlərin məzmun və məqsədləri ilə müəyyənləşir: 1. Göstəriş və təlimatların verilməsi; 2. praktik əhəmiyyətə malik məlumatların verilməsi[6] (Şiriyev, 2014: 64).

Rəsmi–əməli (işgüzar) üslubun özünəməxsus xarakterik xüsusiyyətləri vardır. Bu xüsusiyyətləri F.Şiriyev geniş şəkildə əks etdirmişdir. Bu xüsusiyyətləri əks etdirməyi məqsədə uyğun hesab edirik:

- Şərhin yığcamlığı, dil vasitələrindən qənaətli istifadə;
- Materialın standart yerləşdirilməsi, formanın mütləqliyi;
- Mülahizələrin konkretliyi, bitərəfliyi, rəsmiliyi;
- Terminlərdən geniş istifadə;
- Xüsusi frazeologiyanın, həmçinin çoxsaylı nitq standartlarının – qəliblərin mövcudluğu;
- Feildən yaranmış isimlərdən (əsasında, ona münasibətdə, ona görə və s.) istifadə;
- Sadalama xarakterli adlıq cümlələrdən istifadə;
- Mürəkkəb sintaktik quruluşlar;
- Emasional – ekspressiv nitq vahidlərinin olmaması.

Müəllif rəsmi–işgüzar üslubun xarakterik xüsusiyyətlərini lazımınca, düzgün şəkildə əks etdirmişdir. Lakin 6-cı bənddə söylədiyi mülahizəyə mötərizə daxilində verdiyi nümunələr, zənnimizcə, düzgün deyildir. Rəsmi–işgüzar üslubda istifadə edilən feildən yaranmış isimlər aşağıdakılardır: arayış, bildiriş, çağırış, göndəriş və s.

Rəsmi–əməli üslubda ümdə cəhətlər bundan ibarətdir ki, bu üslubda obrazlı ifadələr işlədilmir, fərdi, artıq nitq ünsürlərinə yer verilmir, hər hansı bir informasiya, fikir müəyyən qəlib çərçivəsində, standart formalarda verilir. Müəyyən tarixi şəraitdə standartlaşmış formalar qəbul edilmişdir ki, bu üslub ondan kənara çıxa bilmir. Bu üslubda normalılıq çox möhkəmdir, qoyulan normalardan kənara çıxmaq düzgün deyil. Rəsmi–əməli üslubun lüğət tərkibi çox yığcam, sintaksisi məhduddur. Standartlaşmış formalar o qədər sabit olur ki, uzun müddət bu üslubda qalır, mühafizə olunur, arxaik leksika da bu üslubda işlənə bilir. Rəsmi–əməli (işgüzar) üslubun iki növü vardır: Bu, üslubun adından da bəllidir: 1. Rəsmi sənədlərin üslubu – rəsmi sənədlərin dilini, 2. Əməli (işgüzar) üslub– işgüzar (əməli) sənədlərin dilini əhatə edir.

- Rəsmi sənədlərin dili.

Rəsmi sənədlərin dili dedikdə, dövlət, hökumət təşkilatlarının tərtib etdiyi və xüsusi qaydada (rəsmi, məsul şəxsin imzası, möhür və s. ilə) təsdiq olunan sənədlər nəzərdə tutulur. Hər bir dövlətin rəsmi sənədləri onun Konstitusiyası (əsas qanunu), müxtəlif sahələrə aid qanunları, qərarları, hökumətin sərəncamları, nazirlərin əmrləri və digər sənədlərdən ibarətdir. Bəs belə sənədlər necə yaranır? Yuxarıda sadaladığımız sənədləri mütəxəssislər hazırlayır, bu sənədlər müxtəlif səviyyələrdə müzakirə edilir və qəbul olunur.

Belə sənədlər mühüm hüquqi məzmuna malik olur və tarixi əhəmiyyət daşıyır. Ölkə üçün ən mühüm işlər – Dövlətlər arası, Dövlətdaxili münasibətlər bu cür rəsmi sənədlərlə tənzimlənir. Məsələn: Azərbaycan Respublikasının vətəndaşları və xarici vətəndaşlar respublikanın bütün ərazisində əmək fəaliyyəti prosesində əməyin mühafizəsi, həyatın və sağlamlığın qorunması hüququna malikdirlər. (Əməyin mühafizəsi haqqında Azərbaycan Respublikasının Qanunu).

Rəsmi sənədlərin dilinin də özünəməxsus xüsusiyyətləri vardır:

1. Rəsmi sənədlərdə birmənalılığa, hüquqi əsaslara xüsusi diqqət yetirilməlidir. Müxtəlif mənalar ifadə edən sənədlər, müxtəlif məzmunda anlaşılan sözlərə, cümlələrə yer verilərsə, belə sənədlər nöqsanlı hesab olunur.
2. Rəsmi sənədlərdə dilin maksimum mükəmməlliyi, əhatəliliyi gözlənilməlidir.
3. Dilin aydınlığına, dəqiqliyinə, lakonikliyinə əməl edilməlidir.
4. Müəyyən diplomatik məqsədlərlə tərtib edilmiş sənədlərin düzgünlüyünə xüsusi diqqət yetirmək lazımdır.

Bundan başqa rəsmi sənədlər həcminə görə də müxtəlif olur: mikro mətnli; makro mətnli. Yəni rəsmi sənədlər bir neçə sətirdən ibarət yığcam şəkildə, yaxud onlarla səhifədən ibarət geniş həcmdə olur. Belə sənədlərin quruluşu da müxtəlif olur. Bəzi rəsmi sənədlər bir neçə bölmələrə, maddələrə, bəndlərə bölünür. Rəsmi informasiyaların çatdırılmasında bunun böyük əhəmiyyəti vardır. Amma rəsmi sənədin həcmcə böyük və ya kiçik olmasına baxmayaraq, dilin lakonikliyi əsas şərtdir.

Hər bir millətin rəsmi təfəkkürü, dövlətçilik mədəniyyəti, milli xarakteri, mədəniyyəti rəsmi sənədlərdə öz əksini tapır. Ona görə də rəsmi sənədlərin mükəmməl tərtib edilməsi vacib məsələlərdən biridir.

2. Əməli (işgüzar) sənədlərin dili.

Əməli (işgüzar) sənədlərin dili özünəməxsus xüsusiyyətləri ilə rəsmi sənədlərin dilindən fərqlənir. Belə ki, rəsmi sənədlərdən fərqli olaraq, əməli sənədlər xüsusi dövlət əhəmiyyəti daşımır. Əməli sənədlər bu və ya digər konkret məsələ ilə bağlı tərtib edilir. Buraya ərizə, tərcümeyi-hal, bildiriş, arayış, izahat, protokol, etiketlər, reklamlar və s.

daxildir. Əməli (işgüzar) sənədlər formasına görə də rəsmi sənədlərdən fərqlənir. Əməli sənədlər həcmcə rəsmi sənədlərə nisbətən kiçik olur. Bundan başqa əməli sənədlər aşağıdakı xüsusiyyətlərə malikdir.

1. Əməli sənədlər mükəmməl və effektli olmalıdır.
2. Əməli sənədlərdə bəhs olunan məsələ haqqında konkret, aydın məlumat verilməlidir.
3. Əməli sənədlərin dilində imla səhvlərinə, üslubi xətalara yol verilməməlidir.

Əməli işgüzar üslubu rəsmi üslubdan fərqləndirən ən ümdə cəhətlərdən biri də ondan ibarətdir ki, rəsmi üslubda yazılan sənədlər bir qayda olaraq mütəxəssislər tərəfindən hazırlanır. İşgüzar –əməli sənədlərin isə əksəriyyət hissəsini (ərizə, tərcümeyi-hal, izahat, təqdimat, reklam və s.) hər bir şəxs özü tərtib etməyi bacarmalıdır. Bunun üçün müəyyən standartları, forma və qaydaları orta və ali məktəblərdə öyrətmək, mənimsətmək tələb olunur. Müasir dövrdə əksəriyyət hallarda əlavə vaxt itirmək, əlavə iş görməmək, həmçinin səhvlərə yol verməmək üçün əməli sənədlərin hazır formaları tərtib olunur, müəyyən məsələlərlə əlaqədar göstəricilər həmin hazır formalarda yazılır. Bu xüsusiyyət məqsədəuyğundur və bir də ona görə lazımdır ki, 1. Sənədlərdə artıq sözlər, yersiz ifadələr işlədilməsin, yəni yığcamlığa riayət edilsin. 2. Cümlələrdə orfoqrafik səhvlərə, digər imla xətalarına yol verilməsin. Qeyd etmək lazımdır ki, belə sənədlər savadlı və savadsız şəxslər tərəfindən tərtib edilir. Savadsız şəxslərin səhv etmələrinin qarşısını almaq üçün belə standart formalardan istifadə etmək faydalıdır. Çünki sənədlərin savadlı tərtib edilməsi bütöv bir xalqın, cəmiyyətin mədəni inkişaf səviyyəsinin göstəricisidir.

Rəsmi və əməli sənədlərin dilində şablonlar – ifadə qəlibləri əsas yer tutur. Lakin burada istisnalar da ola bilər. Bəzən rəsmi sənədlərdə – bəyanatlarda, manifestlərdə obrazlılıq da ola bilər. Cümlələr rəsmi üslubda ciddi qrammatik qaydalara, sintaktik ölçülərə uyğun olmalıdır. Lakin bu üslubda da bəzən inversiyaya – söz sırasının pozulması hallarına da rast gəlmək olur.

Rəsmi üslubda əsasən nəqli cümlələrdən istifadə edilir. Bu üslubda bəzən məzmuna müvafiq olaraq sual və nida cümlələrinə də yer verilir. Çünki yüksək intonasiya və məntiqi vurğularla deyilən belə cümlələr dinləyicinin, oxucunun diqqətini cəlb etməyə xidmət edir.

Publisistik üsluba daxil olan sənədlər və onların növləri və dili məsələlərindən danışarkən məktubların rəsmi üsluba aid olması mütləqdir. Məktublar da rəsmi sənəd nümunələrdir, yəni məktubların da dili sənəd dili nümunəsi sayılır. Lakin məktubların rəsmi sənəd dili, yoxsa əməli (işgüzar) sənəd dili nümunəsi olması mübahisə doğurur. Fikrimizcə, məktublar məzmunlarına görə fərqləndiyi üçün onların bir qisminin dili rəsmi sənəd dilinə, bir qisminin dili isə əməli (işgüzar) sənəd dilinə aid edilməlidir.

Yuxarıda qeyd etdiyimiz kimi, məktublar məzmunca fərli olduğu üçün onlar üç növə bölünür:

1. Siyasi xadimlərin, dövlət nümayəndələrinin biri-birinə ünvanladığı məktublar;
2. Rəsmi dövlət - idarə müəssisələrinin, şirkətlərin birinə ünvanladığı məktublar;
3. Qeyri-rəsmi şəxslərin, qohumların, ailə üzvlərinin, dostların biri-birinə yazdığı məktublar.

Birinci və ikinci bənddə göstərdiyimiz məktub növlərində sənəd dili qəlibi, ölçüsü tam gözlənilməlidir. Üçüncü qisim məktublarda başlanğıc və sonluqda rəsmi üsluba məxsus olan qəliblərdən, standart ifadələrdən istifadə etmək olar. Bir şablon olaraq, bütün məktublar «salamlaşma» ilə başlayır «xudahafizləşmə» ilə qurtarır. Bu, əlbəttə, şablon deməkdir. Ancaq məktubun mətni bütövlükdə məişət dilinə məxsus söz, ifadə və sintaktik vahidlər burada geniş şəkildə işlənir. Fərdi xarakter daşıyan məktublarda həcm məhdudluğu da yoxdur. Beləliklə, məktub formaları rəsmi üslubun ən sərbəst formalarıdır. Burada eyni məlumatın müxtəlif üslublara məxsus ifadələrlə verilməsi mümkündür.

Əməli üsluba aid edilən tərcümeyi – halların da dili sırf rəsmi sənəd dilidir, yoxsa əməli (işgüzar) sənədlərin dilinə daxildir? Bu məsələyə belə aydınlıq gətirmək olar. Tərcümeyi-hallar da iki qismə ayrılır:

1. Hər hansı rəsmi orqanlara, idarə, müəssisə, təşkilatlara təqdim etmək üçün konkret bir fərd tərəfindən yazılan şəxsi tərcümeyi-hal. Məsələn: «Mən – Rüstəm Həsən oğlu Əliyev 1965-ci ildə Bakıda anadan olmuşam və s.» - Bu rəsmi üslubda yazılan tərcümeyi – haldır.

2. Hər hansı bir dövlət xadiminin, yazıçının, alimin başqa bir şəxs – tədqiqatçı tərəfindən yazılan tərcümeyi – hal. Məsələn: «Əbdürrəhim bəy Haqverdiyev Azərbaycanın ən gözəl, səfalı qədim diyarı Şuşada anadan olmuşdur və s.». Belə tərcümeyi –hallar elmi və publisistik üslublarda yazıla bilər. Bu tipdə yazılan tərcümeyi-hallar elmi tərcümeyi-hal adlanır. Belə tərcümeyi-hallarda təsvirçiliyə, tarixi-mədəni şəraitə, hətta obrazlılığa yer verilir, haqqında danışılan şəxsin nəsli, keçdiyi həyat yolu, xarakterik cəhətləri və s. məsələlər geniş əks etdirilə bilər. Əlbəttə, burada da müəyyən ölçülər, kriteriyalar gözlənilməlidir. Belə bir üslubda standart, qəlib formanın içərisinə yol tapan, başqa üslublara məxsus söz və ifadələr bu üslubun mahiyyətini pozmamalıdır.

İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

1. Abdullayev N.Ə. Nitq mədəniyyətinin əsasları. Bakı, "Elm və təhsil", 2014.
2. Azərbaycan bədii dilinin üslubiyyatı. Bakı, 1970.
3. Babayev A.M. Azərbaycan dili və nitq mədəniyyəti. Bakı, "Təhsil", 2014.
4. Bağırov Ə.A. Azərbaycan dilinin üslubiyyatı. Bakı, "ADU nəşriyyatı", 1985.
5. Balıyev A. Azərbaycan dilinin tədrisi metodikası. Bakı, 2014.
6. Dəmirçizadə Ə. Azərbaycan dilinin üslubiyyatı. Bakı, 1962.
7. Əfəndiyeva T.Ə. Azərbaycan dilinin leksik üslubiyyatı. Bakı, "Elm", 1980.
8. Hacıyev T., Cəfərov N., Xudiyev N. Azərbaycan dili. XI sinif üçün dərslik. Bakı, 2005.
9. Hacıyeva İ.H. Nitq mədəniyyəti. Bakı, "Politex" MMC-nin mətbəəsi, 2014.
10. Морен М.К., Тетеревникова Н.Н. Стилистика современного французского языка. М., 1960.
11. Seyidova S., Abbasova S., Məmmədova N., Cavadov Ə. Azərbaycan dili və nitq mədəniyyəti. Bakı, 1916.
12. Şiriyev F. Azərbaycan dilinin nitq mədəniyyəti və ritorika. Bakı, 2014.
13. Щербатский Б.М.. Занятия по стилистике в старших классах средней школы. М., 1951.

14. Тальперин И.Р. Очерки по стилистике английского языка. М., 1958.

Açar sözlər: *üslub anlayışı, üslubiyyat, funksional üslublar, rəsmi-əməli üslub, onun xarakterik xüsusiyyətləri, bu üslubun geniş miqyasda formalaşması. Rəsmi üslubla əməli-işgüzar üslubun fərqi*

Ключевые слова:*понятие стиля, стили, функциональные стили, стиль формального действия, его характерные черты, широкомасштабная форма этого стиля. Разницамеждуделовымстилемиделовымстилем*

Keywords: *concept of style, styles, functional styles, style of formal action, its characteristic features, large-scale form of this style. The difference between business style and business style*

Azərbaycan dilində rəsmi–əməli üslub

Xülasə

Üslubiyyat dilçiliyin müstəqil bir sahəsi olduğuna görə onun da özünəməxsus spesifik cəhətləri vardır. Lakin dilçiliyin digər sahəsi kimi, üslubiyyatın tədqiq obyekti, kateqoriyaları, əhatə dairəsi hələ tam dəqiqləşdirilməmişdir. Əgər fonetika dilin səs sistemini, leksika lüğət tərkibini, morfologiya qrammatik formaları,sintaksis cümlənin quruluşunu və növlərini öyrənirsə, üslubiyyat isə bu sahələrin hamısı ilə bilavasitə bağlıdır, hər birinin üslubi imkanlarını tədqiq edir.

«Azərbaycan dilində rəsmi-əməli üslub» adlanan məqalədə üslub anlayışı, üslubiyyat, üslub növləri məsələlərinə qısa şəkildə aydınlıq gətirilmişdir, üslubiyyatın tədqiqi məsələrinə ekskurs edilmişdir. Burada Qərb alimlərinin, rus və Azərbaycan dilçilərinin üslubiyyatın əsas xüsusiyyətləri haqqında fikirlərinə istinad edilmişdir: «Üslubiyyat dili bütün struktur boyu öyrənir».

Burada konkret olaraq rəsmi-əməli üslub, onun xarakterik xüsusiyyətlərindən, bu üslubun, əsasən dövlətçilik, idarəçilik təcrübəsinin inkişaf etdiyi ölkəmizdə geniş miqyasda formalaşmasından bəhs edilmiş, rəsmi-əməli üslubun beynəlxalq müqavimətlərin, qanunların, işgüzar sənədlərin dilinin üslubu olduğu göstərilmişdir.

Azərbaycan dilində rəsmi-əməli üslub

Xülasə

Üslubiyyat dilçiliyin müstəqil bir sahəsi olduğuna görə onun da özünəməxsus spesifik cəhətləri vardır. Lakin dilçiliyin digər sahəsi kimi, üslubiyyatın tədqiq obyekti, kateqoriyaları, əhatə dairəsi hələ tam dəqiqləşdirilməmişdir. Əgər fonetika dilin səs sistemini, leksika lüğət tərkibini, morfologiya qrammatik formaları,sintaksis cümlənin quruluşunu və növlərini öyrənirsə, üslubiyyat isə bu sahələrin hamısı ilə bilavasitə bağlıdır, hər birinin üslubi imkanlarını tədqiq edir.

«Azərbaycan dilində rəsmi-əməli üslub» adlanan məqalədə üslub anlayışı, üslubiyyat, üslub növləri məsələlərinə qısa şəkildə aydınlıq gətirilmişdir, üslubiyyatın tədqiqi məsələrinə ekskurs edilmişdir. Burada Qərb alimlərinin, rus və Azərbaycan dilçilərinin üslubiyyatın əsas xüsusiyyətləri haqqında fikirlərinə istinad edilmişdir: «Üslubiyyat dili bütün struktur boyu öyrənir».

Burada konkret olaraq rəsmi-əməli üslub, onun xarakterik xüsusiyyətlərindən, bu üslubun, əsasən dövlətçilik, idarəçilik təcrübəsinin inkişaf etdiyi ölkəmizdə geniş miqyasda formalaşmasından bəhs edilmiş, rəsmi-əməli üslubun beynəlxalq müqavimətlərin, qanunların, işgüzar sənədlərin dilinin üslubu olduğu göstərilmişdir.

Официально-деловой стиль в азербайджанском языке

Резюме

Поскольку лингвистика является самостоятельной областью лингвистики, она имеет свои особенности. Однако, как и другие области лингвистики, предмет, категории и область применения стилистики еще не полностью изучены. Если фонетика изучает звуковую систему языка, лексика – словарный уровень языка, морфология – грамматические формы, синтаксис – структуру и типы предложений, то стиль напрямую связан со всеми этими областями и исследует стилистические возможности каждой из них.

В статье под названием «Официально-деловой стиль вазербайджанском языке» вкратце уточняются значения таких понятий, как стиль, стилистика, виды стилей, а также сделан экскурс в историю изучения стилей. Здесь автор ссылается на взгляды западных, русских и азербайджанских лингвистиов на основные особенности стилистики.

Кроме того, в статье прокомментированы цель и задачи, место в системе языка, характерные особенности, язык официально-делового стиля, его основные отличия от других стилей языка. Также указывается на существование таких его разновидностей, как язык медиа, радио, телевидения и т.д.

В частности, здесь говорится об официально-деловом стиле, его характерных особенностях. Наряду с этим указывается, что формирование этого стиля в значительной степени связано в нашей стране с успешным развитием государственности и управленческой практики, показал, что официально-деловой стиль – это стиль языка международных соглашений, законов, деловых документов.

Official style in the Azerbaijani language

Summary

Linguistics is an independent field of linguistics, and it has its own characteristics. However, like other areas of linguistics, the subject, category, and field of application of stylistics have not yet been fully studied. If phonetics studies the sound system of a language, vocabulary – the vocabulary level of the language, morphology – grammatical forms,

syntax – the structure and types of sentences, the style is directly related to all these areas and explores the stylistic possibilities of each of them.

The article titled "Official style of the Azerbaijani language" is briefly clarifies the meanings of such concepts as style, style, types of styles, and also made an excursion into the history of the study of styles. Here the author refers to the views of Western, Russian and Azerbaijani linguists on the main features of the style.

Particularly, it refers to the official style, its characteristic features. Along with this, it is indicated that the formation of this style is largely associated in our country with the successful development of statehood and management practice, showed that the official style is the language of international agreements, laws, and business documents.

RƏYÇİ: dos. S.Abbasova

Pənəhova Ülviyyə Rüfət[8]

ECOLINGUISTICS AND LANGUAGE PURITY: PRESERVING THE LINGUISTIC ENVIRONMENT IN THE AGE OF GLOBALIZATION

Standart İngilis dili, ingilis dilində danışılan ölkədə və ya bütün ingilisdilli dünyada qəbul edilən və başa düşülən dildir. Onun variantları ədəbi normaya malik regional növlərdir. Birləşmiş Krallıq ərazisində mövcud olan variantlar, Britaniya İngilis dili, Şotlandiya İngilis dili, İrlandiya İngilis dili və Britaniya Adalarından kənarda mövcud olan variantlar, Amerika İngilis dili, Kanada İngilis dili, Yeni Zelandiya İngilis dili, Cənubi Afrika İngilis dili, Hindistan İngilis dilidir. Onlar eyni dilin variantlarıdır, çünki şifahi ünsiyyətin bütün sahələrinə xidmət edir. Struktur xüsusiyyətləri, xüsusən də morfologiyası, sintaksisi və söz yaradıcılığı, söz fondu və fonetik sistemi mahiyyətcə eynidir. Bu dil yazılı Standart İngilis dilinə və Received Pronunciation (RP) kimi tanınan tələffüzə istinad edilir. Yerli dialektlər bəzi rayonlara xas olan, kiçik yerlərdə şifahi ünsiyyət vasitəsi kimi istifadə olunan, ədəbi formaya malik olmayan növlərdir. Məqalədə bütün bu variantlar və dialektlər geniş şəkildə təhlil olunmuşdur.

Summary

Main features of the variants of the English language

Standard English is the language accepted and understood in an English-speaking country or throughout the English-speaking world. Its variants are regional varieties with a literary norm. The variants existing in the United Kingdom are British English, Scottish English, Irish English, and the variants existing outside the British Isles are American English, Canadian English, New Zealand English, South African English, and Indian English. They are variants of the same language because they serve all areas of oral communication. Their structural features, especially morphology, syntax and word formation, vocabulary and phonetic system, are essentially the same. This language refers to written Standard English and the pronunciation known as Received Pronunciation (RP). Regional dialects are varieties specific to some regions, used as a means of oral communication in small places, and do not have a literary form. All these variants and dialects are extensively analyzed in the article.

Резюме

Основные особенности вариантов английского языка

Стандартный английский язык — это язык, принятый и понятный в англоязычной стране или во всем англоязычном мире. Его варианты представляют собой региональные разновидности с литературной нормой. В Соединенном Королевстве доступны следующие варианты английского языка: британский английский, шотландский английский, ирландский английский, а за пределами Британских островов — американский английский, канадский английский, новозеландский английский, южноафриканский английский и индийский английский. Они являются вариантами одного и того же языка, поскольку обслуживают все сферы вербального общения. Структурные особенности, особенно морфология, синтаксис и словообразование, словарный запас и фонетическая система по сути одинаковы. Этот язык относится к письменному стандартному английскому языку и произношению, известному как принятое произношение (RP). Местные диалекты — это разновидности, характерные для определенных регионов, используемые как средство устного общения в небольших населенных пунктах и не имеющие литературной формы. В статье подробно анализируются все эти варианты и диалекты.

Rəyçi: ADU. İngilis dilinin leksikologiyası kafedrası, dos. Əsədova Lalə Şahin qızı

Aytən Arzulla qızı Əhmədova[13]

"DASTANİ- ƏHMƏD HƏRAMİ"DƏ ARXAİK SİFƏTLƏR

Giriş. XIII əsr poeziyamızın mükəmməl abidələrindən olan "Hərami Dastan"ı ana dilində yazılmış ilk poema nümunəsidir. İdeya-fəlsəfi məzmununa, dil və üslubuna görə xalq ruhuna yaxın olan əsər XX əsrin əvvəllərində türk alimi tərəfindən aşkar edilərək çap etdirilmişdir. Bu əsər anadilli poeziyamızın ilkin təşəkkülü, onun mövzu mənbələrini, milli, bədii-poetik xüsusiyyətlərini araşdırmaq baxımından çox qiymətlidir. Müəllif özündən qabaq yaşayıb-yaradan dahilərdən bəhrələnsə də, onların ənənələrinə sadiq qalmamışdır. Əsəri bir qədər fərqli aspektdə yazmışdır. Əsərdən məlum olur ki, müəllif tarixi-əfsanələrdən deyil, insan haqqında əsər yazmağı qarşısına məqsəd qoymuşdur.

Əsərin çox zəngin dilini müşahidə etmək olur. Əliyar Səfərlinin təbirincə desək "poema ədəbi dilimizin ən qiymətli abidələrindəndir. Onun dil baxımından öyrənilməsi, həm də ümumtürk abidələri ilə müqayisəli şəkildə tədqiqi gözəl nəticələrə gətirib çıxara bilər. Ümumiyyətlə, əsərdə qədim türk sözləri işlədilmiş, o cümlədən sifətin dərəcələrini bildirmək üçün onların sonuna -raq, -rək şəkilçiləri qoşulmuşdur" [DƏH, s. 15].

Azərbaycan dilçiliyində sifət ya əşyanın əlamət və keyfiyyətini bildirən, ya da ümumən əlamət və keyfiyyət bildirən nitq hissəsi kimi təqdim edilir [7, s. 267]. Hər iki halda əlamət və keyfiyyət sözlərindən istifadə olunur. Sifətlər digər nitq hissələrindən şəkli əlamətlərinə görə deyil, vəzifəsi və daxili məzmunu ilə fərqlənir. Məsələn, *Qara bağrum benim qərq oldu qanə (*Təxmini izahı: Mənim qara bağrım qana qərq oldu) [DƏH, s. 65]. Məsnəvidən götürülmüş bu nümunədə *qara* sözünü sifət adlandırmaq üçün heç bir xüsusi əlamətə ehtiyac yoxdur. Heç bir xarici morfoloji əlamət olmadan da *qara* sözü rəng bildirən sadə sifət hesab olunur. Deməli, Azərbaycan, eləcə də bütün türk dillərində sifətlər üçün xüsusi morfoloji əlamət (şəkilçi) səciyyəvi deyildir. Qeyd olunan nümunədə sözün lüğəvi mənası, birləşmə daxilindəki tutduğu vəziyyət əsas rol oynayır.

Azərbaycan dilində sifət məzmunu bildirən sözlərin mühüm qismi bir lüğət vahidi kimi həmin dilin lüğət tərkibində əsas lüğət fonduna daxildir [6, s. 73].Belə sözlərin sabitliyini, mənşəyini və inkişafını nəzərə alaraq lüğət fondunun ayrılmaz hissəsi hesab edirik. Dilin lüğət fonduna, əsasən, *sadə* sifətlər daxildir. Bu sifətlər keyfiyyət, rəng, həcm və s. mənaları bildirir. Sifətlər dilimizin bütün inkişaf mərhələlərində fəal şəkildə istifadə edilmiş əsas nitq hissəsi kimi əhəmiyyətini qoruyub saxlamışdır.

Sifətlərin təhlili. Azərbaycan dilində işlənən sifətlərin hamısı yalnız rəng bildirmir. Eyni zamanda onun keyfiyyətini, əlamətini, xasiyyətini və s. bildirir. Dastandan alınmış nümunələrə diqqət yetirək:

Yüzüm ***qara,*** *sözüm* ***qısa,*** *suçum* ***bol,***

Belim ***əgri****, yolum* ***doğru****, boynum sol* [DƏH, s. 20];

Göründüyü kimibeytdə bir neçə sifət eyni anda işlədilmişdir:*qara, qısa, bol, əgri, doğru***.**

Əgri- qədim türkcədə *əy- mək*dən yaradılmışdır. Lüğəvi mənasına görə əyilmiş, bükülmüş, düzlüyü doğruluğu getmiş deməkdir [4, s. 222]. Azərbaycan dilinin izahlı lüğətində də əyri sözünün anlamı *düz olmayan, çox yerdən əyilmiş mənalarındadır.* Müəllif leksik səviyyədə obrazlılıq yaradaraq antonim sözləri bir misra daxilində vermişdir: əyri-doğru, düz.

Müasir ədəbi dildən fərqli olaraq qədim abidələrin dilində g > y əvəzlənməsi sözlərin tərkibində formalaşmışdır. Dastandan götürülmüş nümunədə *əyri- əgri* şəklində verilmişdir. Məsnəvidə raslanılan başqa bir beytdə də g > y əvəzlənməsi görünür. Məsələn, *Cavabını anın çün aldı bunlar, Genə sultan qatına gəldi bunlar.* Nümunədə *yenə- genə* şəklində işlədilmişdir. Orta əsr üçün xarakterik olan g > y əvəzlənməsini biz dahi Füzulidə də müşahidə edirik: *Degildir böylə, dəmində bir əhli- işrət idi, Bu qanlar içməgə mötad gördügün könlüm* (Füzuli). *Yolun əgrisinə getmə, Doğru yola nəzər eylə* (Xətayi).

Dialekt və şivələrimizə gəldikdə isə y>g əvəzlənməsi, əsasən, şərq və qərb qrupu dialekt və şivələrində rast gəlinir. Bu hadisə daha çox iki sait və ya bir sait və sonor səslər arasında müşahidə olunur. Məsələn, igirmi, igdə, sögüd, gögərçin və s. Səslərin bu cür əvəzlənməsinə Füzuli, Qazax, Şəmkir, Tovuz və s. dialekt və şivələrdə də rast gəlirik. Məsələn, Malımız, qoynumuz genə yaylaxda qalardı (Qazax**)** [1, s. 178].

Əski Qıpçaq türkcəsində söz ortasında "g" səsinə dağınıq və sistemsiz şəkildə rast gəlinmişdir: degül, tügme (qazaxca), egir, ögret (tatar, başqırd, qazaxca) və s. Söz sonunda da əski Qıpçaq türkcəsində "g" samiti sistemsiz şəkildə görülür: teg (dəy) (qazax, qırğız, tatar, başqırdca), tög (döy),ög (öy), küg (küy), eg (əy), beg (bəy) və s. Əksi Qıpçaq türkcəsində də söz ortasında "g" samiti iki sait arasında və ya bir sonor samit və sait arasında görülür [8, s. 509].

Beytdəki sadə sifətlərdən biri də *qısa* – kəlməsidir. Bu sifətin lüğəvi mənası *gödək, alçaq* mənalarındadır. *Bol* sifəti isə çoxlu, son dərəcə çox, həddən artıq anlamını verir.

"Hərami Dastan"ında işlədilmiş sadə sifətlərdən biri də *gökçək*kəlməsidir. Əsərdə yazılır: *Gedərkən irdilər bir xoş araya, İkəngökçək yapılmış bir saraya* [DƏH, s. 26]; *Gökçək* – qədim türk sözü olub mənası gözəl, yaxşı, sevimli, qəşəng deməkdir. Bu söz qədim abidələrin dilində aktiv şəkildə işlənsə də zaman keçdikcə mənaca daralaraq, məhdudlaşmış daha çox şifahi nitqdə işlək olmuşdur. Orta əsr ədəbi dilində bu söz daha geniş anlamda işlənmişdir: Gör nə *gökçək* adıla aləmdə məzkur olmuşam (Nəsimi).

*Əsən.*Bəşir Əhmədova görə*əsən (əsəngü)*arxaik sifəti monqol dilindən götürülmüşdür, mənası *sağlamlıq*

[13]Dosent (at-sız), filologiya üzrə fəlsəfə doktoru, Gəncə Dövlət Universiteti, Gəncə, Azərbaycan. 83-aytan@mail.ru, UOT 81, ORCİD 0009 0002 7244 6231 10.24412/2218-7588-2025-2-55-58

deməkdir. Bəzən də "*əsəni kəsilmək"* kimi mənalandırılmışdır. Müasir dövürdə "*əsəni kəsilmək"kökü kəsilmək* kimi başa düşülür. Qərb rayonlarında *Allah əsənini üzsün* cümləsi qarğış kimi başa düşülür.

"Dastani- Əhməd Hərami"də və digər klassik şeir nümunələrində isə bu söz *sağ, salamat* mənasında verilmişdir. Şahənşah der: ey bəylər bəyi, sən, Cahan içində daim olgil *əsən* [DƏH, s. 57] (Şahlar şahı dedi ki, ey bəylər bəyi sən, Dünyada daim sağ salamat ol). Verdi xələt çün anı gördi əsən (Y.Məddah).

Xub "Dastani-Əhməd Hərami"nin dilində maraq doğuran arxaik sifətlərdən biridir. Mənşə etibarilə fars dilinə mənsub olan *xub* sifəti *yaxşı, gözəl, göyçək, qəribə və s.* mənalarını verir. *Xub* morfoloji cəhətdən həm sifət, həm də zərfdir. Dastandan götürülmüş beytlərə diqqət edək:

1. Eşitdik kim anın bir *xub* sülalə, Var idi oğlu irişmiş kəmalə [DƏH, s. 79]. 2. Aytdı: şahi- Bağdadun qızını, Alıbdurur sevibdir *xub* yüzünü [DƏH, s 95]. 3. Bəğayət*xub* idi ol şahi-şəngül [DƏH, s. 26]; Dastandan seçdiyimiz birinci nümunədə *xub-yaxşı,* ikincidə və üçüncüdə isə *gözəl, göyçək* mənasında işlənmişdir. Birinci nümunədə *yaxşı sülalə,* ikincidə *gözəl üz* mənasında işlədilmişdir. Üçüncüdə isə *olduqca gözəl idi* anlamında işlədilmişdir ki, burda da sifət çoxaltma mənasındadır. Hər üçündə *xub* kəliməsi sifətdir.

Xub arxaik sifətinə M. Füzulinin, Q.Zakirin və M.P.Vaqifin dilində də rast gəlinir. *Zakirin* əhvalın *xublar* şahına,Ağlaya-ağlaya dedin, nə dedi? *Xub* saldı nizama ölkəni qoçaq (Q. Zakir) Qul olasan belə *xublar* şahinə, Durasan hər axşam, dan qabağında (Vaqif). Dil kişvərini qarət edərlərdi xublər, Mən etməsəydi şəhneyi- şövqün himayəti (Füzuli).

*Xoryad – çirkin, kifir.*Müəllif əsərdə bu şəkildə istifadə etmişdir.*Cahanda yoxmudur bir şahzadə,Ki, verirlər bəni bir xoryadə* (Təxmini mənası: Dünyada başqa şahzadə yoxdurmu ki, məni bu çirkin kifirə verirlər) [DƏH, s. 47]. Xoryad arxaik sifəti müasir ədəbi dilində işlək olmasa da, müxtəlif rayon və kəndlərimizdə öz işləkliyini saxlamışdır. Dialekt və şivələrdə həm *satqın* (Ağdam), həm də *kifir, çirkin* (Balakən) mənalarında işlədilir.

Xoryad sözü XI- XVI əsrlərdə Türk ədəbi dilində *horyad* (ərəb+ yunan sözü) vəhşi, tərbiyəsiz, kobud, hərəkətini bilməyən mənalarında işlənmişdir [DƏH, s. 191].

Pünhan- fars mənşəlidir, mənası gizli, xəlvəti, gözə görünməz, qaib və s. deməkdir. *Pünhan* arxaik sifəti əsərdə belə işlədilmişdir: Nə yerdə isə od *pünhan* degildir, Bular gizlənməgə imkan degildir [DƏH, s. 27]; Orta əsrlərə aid ədəbi-bədii əsərlərin dilində başqa xalqların dillərindən alınmış bu cür sifətlər işlədilmişdir. *Pünhani odum aləmə faş oldu, Füzuli, Ya rəb ki, mənim şəm kimi yanə zəbanım (Füzuli).* Sirrimi *pünhan* edərdim xəlqə, çün gördüm səni (Xətai). Sirri- ənəlhəq söylərəm aləmdə, pünhan gəlmişəm (Nəsimi).

Arı qədimtürk sözü olub mənası*təmiz* deməkdir. *Yedi oğlan gətirdim aydan arı, Yüzü güldür, şəkərdir ağzı yarı* [DƏH, s. 40]. Məsnəvinin dilində işlədilmiş *arı* kəlməsi də təxmini bu mənadadır. Türk dillərinin ensiklopediyası sayılan „Divani lüğət-it-türk"ündə də *arı* (təmiz mənasında) arxaik sadə sifətinə rast gəlinir. Bu kəlimə "Divan"da *"arı//aruğ"* fonetik variantlarındadır. Həmçinin burada "aruğ" sifətindən yaranan "aruğlık" ismi də işlənmişdir. *Təmiz* anlamında işlədilən *arı* kəlməsi həm klassik ədəbiyyatda, həm dialekt və şivələrdə, həm də xalq deyimlərində işlədilməkdədir. Bilməzüz, ey müddəi, əql ilə *ari* nədür, Tərki-xirəd qılubən eşq olalı varımuz (Gülşəni Bərdəi). Azərbaycan dilinin dialektoloji lüğətində bu söz Bakı və Xaçmazda *ari*, Ağdam, Füzuli, Tovuz, Qazax, Şəmkir dialektlərində isə *arı*(təmiz anlamında) kimi işlədilmişdir. *Arı*kəlməsi xalq deyimlərində də müşahidə olunur: *Aydan arı, sudan duru.*

Xoş (fars)gözəl, yaxşı, şirin. Tutub Bağdad yolunu getdilər*xoş* [DƏH, s. 25]. İstər klassik ədəbiyyatda, istərsə də müasir ədəbi dildə *xoş* sözünün fəal işləkliyi olmuşdur. Apardı könlümü bir *xoş* qəmər üz, canfəza dilbər (İ. Həsənoğlu). Nə *xoşdur* arizin dövründə zülfi- ənbərəfşanın, Bu dövranda nə *xoş* cəmiyyəti var ol pərişanın (Füzuli). Mərhaba, xoş gəldin, ey dildar, *xoş* gördük səni, *Xoş*musan, ey bərgüzidə yar, *xoş* gördük səni (Nəsimi). *Xoş* ol zaman ki, yetim yoldun, ayağın öpəm, Sana deyəm, necəsən, *xoş*musan, səfa cəmisən? (Kişvəri). Çoluq-çocuq sana ithaf edər də *xoş* nəğəmat, O dəm gözündə cihan pərdə-pərdə cilvələnir (H.Cavid). *Xoşdur* xilqətdəki hər gözəlliyi, yürəkdən duyaraq anlaya bilmək! (M.Müşfiq).

Xoş sözünə nitq etiketlərinin tərkibində də görmək olur. Məsələn, *xoş* gəlmişsiniz, xoş gördük (görüşmə etiketi), *xoş* getdiniz(ayrılma etiketi) və s.

Pürğəm(fars+ərəb) qəmli, dərdli, çox tutqun. Bu söz iki sözün birləşməsindən fars mənşəli *pür* (dolğun, çox) və ərəb sözü *ğəm*dən(qəm) yaranmışdır. Məlul gördü atasın oldu *pürğəm* (Qəmgin gördü atasını qəmli oldu...) (DƏH, 51). *Pür* sözü həm "*Divani lüğət- it- türk*"də, həm də *Orta Türkcə Sözlükdə (XI- XVI əsrlər)* müxtəlif sözlərin tərkibində işlədilmişdir: pür-atəş (atəş dolu), pür-dil (cəsur), pür-eşq (gözyaşı dolu), pür-fitnə (fitnə dolu), pürkür (buludlanmaq, bürünmək), pür- neğam (yaş dolu) və s. Gözü üzünüzdə zəngulə tək, *Pür*lərzə vücudi mərculə tək (Xətai).

Bəzən adi danışıqda *pürğəm* sözünün ilk elementi istifadə edilir: Gəlin p*ür*rəngi çay dəmləmişdir.

Divanə (fars) dəli. Qaqıdı xişm ilə oldu *divanə* (Hirsindən qəzəblənərək dəli oldu) [DƏH, s. 29].

Divanə oldu dəli könlüm, saçın zəncirinə bağlı, Mənim könlüm dəlisinə sənin zülfün teli zəncir (Nəsimi). Məgər *divanədir* sevdayi-əbrusilə zahid kim, Baxıb mehrabə daim, öz-özilə göftgu eylər (Füzuli).

Tazə **(**fars)- yeni.Gümüşdür *tazə* boyun billurə bənzər [DƏH, s. 27]; Bahar oldu, *tazə* güllər açıldı, Sərvinazım, sallanubən seyr elə (Əmani). Baharım, *tazə* gülüzarım, pərinəykər güləndamım, Səmənbər, *tazə* nəsrinim mənim, sərvi-xuramanım (Kişvəri). Ey güli- *tazə,* rəva görmədim azar sana!(Füzuli).

Pünhan (fars)– gizli, xəlvəti, qaib. Nə yerdə isə od *pünhan* degildir, Bular gizlənməgə imkan degildir [DƏH, 27]. Səba, əğyardan *pünhan,* qəmim dildarə izah et! (Füzuli).

Müşkil(ərəb) çətin. Ki, hərgiz həll olunmadı bu *müşkil* (Heç vaxt bu çətin vəziyyət həll oluna bilmədi) [DƏH, s.

36]. Aşiqə şövqünlə can vermək ikən *müşkül* degil, Çün Məsihi- vəqtsən, can vermək asandır sana (Füzuli).

*Qafil (ərəb)*ehtiyatsız. Əlimdən qafilin çıxdı nedəyin. (Ehtiyatsızlıqdan əlimdən çıxdı nə edim) [DƏH, s. 37]. Olma *qafil,* ər kimi tərpən, işin mərdanə tut! (Füzuli).

Lətif (ərəb) yumşaq, mülayim**.** *Möhkəm (ərəb)*davamlı, bərk**.** *Yuca, möhkəm, lətif*key xoş yapılmış [DƏH, s. 26].;

Məlul(ərəb)kədərli, qüssəli**.** *Məlul*, qəmgin qalıban ol nigarım (Qəmgin, qəmli qalıb o gözəl) [DƏH, s. 53].; *Əlvan*(ərəb)-rəngbərəng, rəngarəng, alabəzək**.** Qumaş düzdü Krımda dürlü, *əlvan* (Kırımda rəngbərəng, al-əlvan ipək, yun, kətan parçalar düzdü...) [DƏH, s. 38].

Azərbaycan ədəbi dilində işlədilən düzəltmə sifətlər müxtəlif yollarla yaranır. Onlar həm milli, həm də başqa dillərdən keçən sözlərin üzərinə leksik şəkilçi artırmaqla düzəlir. Bəzi müstəsnalar nəzərə alınmasa, düzəltmə sifətlər, başlıca olaraq, isim və feillərdən əmələ gəlir [DƏH, s. 67].

Azərbaycan dilinin qədim yazılı abidələrinin dilindən görünür ki, düzəltmə sifətlərə məxsus şəkilçilər bütün dövrlər üçün məhsuldar olmuşdur. Qeyri- məhsuldar şəkilçilərə gəldikdə isə bunların miqdarı çox deyildir.

Düzəltmə sifətlər adların və feillərin üzərinə leksik şəkilçilər əlavə olunmaqla düzəlir. Sifət düzəldən şəkilçilərdən biri də -lı[4]-dır. Bu şəkilçi adların üzərinə əlavə olunaraq düzəltmə sifətlər əmələ gətirmişdir. Məsələn, İllər var ki, çarpar sinən! *Vəfalıdır* gəldi, gedən (Ə.Cavad). -Lı[4] şəkilçisinin qədim şəkli -lıq, -luq olmuş və abidələrin dilində bu variantda işlədilmişdir. Ancaq Azərbaycan dilində şəkilçinin sonunda ***q*** səsinin zəifləyib düşməsi nəticəsində müasir variantı əmələ gəlmişdir. Poemada da bu forma izlənilir: *ürəkli* [DƏH, s. 67], *yaraqlu* [DƏH, s. 67], *əbalı* [DƏH, s. 76], *evli* [DƏH, s. 95], *sözlü, üzlu* [DƏH, s. 40], *sifətli* [DƏH, s. 38], *əlvanlı* [DƏH, s. 30], *imanlı* [DƏH, s. 73], *dərdli* [DƏH, s. 52], *dadlu* [DƏH, s. 60], *suçlu* [DƏH, s. 62], *dürlü* [DƏH, s. 52] və s.

Dərdli kəliməsi qrammatik mənasına görə düzəltmə sifətdir (*dərd* ismi ilə *-lı*[4]leksik şəkilçi), *dərdi, kədəri* olan deməkdir. Bu söz həm klassik ədəbiyyatımızda, həm də müasir ədəbi dildə fəal şəkildə işləkdir.Nə deyim, ata, fərman sənindir, Əgər *dərdli* isəm dərman sənindir [DƏH, s. 52]. Can bəslənür etidali-həvadin, *Dərdlü* olan çəkməz minət dəvadin (Əmani).

Dadlu quruluşca düzəltmə sifətdir. Həm *dadlu*, həm də *dadlı* şəkildə işlənmişdir. Leksik mənasına görə *ləzzətli, yaxşı dadı olan* deməkdir. Fars dilində *dad* kəliməsinə rast gəlinir. Mənası tamam fərqlidir: *ədalət, insaf, cəza, haray* və s. deməkdir. Azərbaycan dilində *dad* omonim sözdür. 1. Xarici duyğuların növlərindən biri, tam. 2. Fəryad, fəğan, imdad, kömək. Poemada birinci mənanın üzərinə leksik şəkilçi artırılaraq düzəltmə sifət əmələ gətirmişdir. O *dadlu* sözlərə gönlü qapıldı, Yürəgi tazələndi, su səpildi [DƏH, s. 60]. *Dadlı* kəliməsi klassik ədəbiyyatı dilində, o cümlədən Nəsimidə, Kişvəridə müşahidə edilir. Arısı yalandır, saqın, *dadlısına* aldanma kim, Acıdır anın şəkkəri, ağı qatılmış balına (Nəsimi). *Dadlu* sözün kim eşitsə, yoxdurur ölmək ona (Kişvəri).

*Suçlu (suç)*qədim türk sözü olub, mənası günah,günahkar, bir şeyin sapmasıdeməkdir. "Suç" sözü barədə C. Qəhrəmanov qeyd edir ki, Azərbaycan və Türkiyə türkcəsindəki materiallarda müşahidə etdiyimiz bu sözə başqa türk sistemli dillərdə rast gəlməmişik. "Suçlu" sözü müasir ədəbi dildə müəyyən dərəcədə işləklik qazanmış, eyni zamanda, Türk ədəbi dilində *günah* mənasında işlənməkdədir. Qədim yazılı mənbələrdə quruluşca düzəltmə olan *suçlu* sifəti çox işlənmişdir. Güləndam aydır: ey şöhrəti- afaq, Əgər *suçlu* isəm sən tanrıya bax [DƏH, s. 62]. Odur şeytan ki, özün suçlu bilməz (Gülşəni). Başəd ki, suçundan keçə, lütf eylə rəzzaq (Nəsimi).

*Dürlü*sözü qədim türk sözüdür, mənası növbənöv, çeşidli deməkdir. Həzaran *dürlü* ana alqış etdi, Əsənlədi qızını durdu, getdi [DƏH, s. 52].

"Dürlü" sözü başqa yazılı mənbələrimizdə də işlənmişdir: Qayibdən *dürlü* xəbər söylərdi *(KDQ)*. "Dürlü" sifəti müxtəlif fonetik variantlarda bir çox türk dillərində işlənməkdədir. Məsələn, Türkiyə, Qazax, Qaqauz türkcəsində "türlü", Tatar türkcəsində "törli", Türkmən türkcəsində isə "dürli" şəklində rastlanılır.

Azərbaycan dilində sifətlər quruluşca üç yerə bölünür ki, bunlardan biri də mürəkkəb sifətlərdir. Mürəkkəb sifətlər iki sözün birləşməsindən əmələ gəlir. Lakin bu birləşmə tərkim şəklində olmur. Buradakı iki ayrı- ayrı söz əvvəlki məzmunların əsasında yeni məzmun ifadə edən bir söz kimi işlənir, hətta bunlar iki müxtəlif nitq hissəsindən əmələ gəldikdə belə, bir vurğu altında işlənir [5, s. 75].

Bu əsas nitq hissəsinin müasir ədəbi dildə yetəri dərəcədə işlək olmasına baxmayaraq, XVIII əsrə qədərki qədim yazılı abidələrin dilində *mürəkkəb sifətlərə* az rast gəlinir.

Ana dilli məsnəvidə aşağıdakı sifətləri müşahidə etdik. Bu sifətlər defislə yazılıb və eyni sözün təkrarı ilə yaranmışdır.

Dürlü- dürlü- cürbəcür, çeşid- çeşid. Əcayib *dürlü- dürlü* nemətü xun, Yedilər qurtü quş qalmadı məğbun (54). Bu mürəkkəb sifəti Vidadinin yaradıcılığında da görə bilirik. *Dürlü- dürlü* Fələk saldı *dürlü- dürlü* odlara, Şan- şan olmuş paralanmış könlümü (M.V.Vidadi).

Əsərdə istifadə olunan sifətlərdən*ləvn- ləvn***(**rəngbərəng, cürbəcür) və *dolu- dolu*nu göstərmək olar. Həzaran *ləvn- ləvn* əlvanlı daşlar (Minlərlə, yüzlərlə rəngbərəng al- əlvan daşlar), Hesabsız dəxi altutü gümüşlər (30).Gümüş, altundu təpsilə çanaqlar, *Dolu- dolu* içi nemət tabaqlar(İçi nemət dolu qablar) (54).

Nəticə. Azərbaycan dilində sifət məzmunu bildirən sözlərin mühüm qismi dilin lüğət fonduna daxildir. Əsas lüğət fondunda olan sifətlər dilimizin bütün inkişaf dövrlərində geniş istifadə edilmiş əsas nitq hissəsi kimi öz əhəmiyyətini qoruyub saxlamışdır. Əsasən keyfiyyət, əlamət, rəng, həcm və s. bildirən sifətlər quruluşca sadə, düzəltmə və mürəkkəb olmaqla həm müasir ədəbi dildə, həm də qədim abidələrdə fəal şəkildə işlənmişdir.

İstifadə edilmiş ədəbiyyat

1. Azərbaycan dilinin dialektoloji lüğəti. Bakı: Şərq-Qərb, 2007, 568 s.
2. Bayat F. Orta Türkçe Sözlük. 11-16. Yüzyıl. ÖTÜKEN Neşriyat, İstanbul, 2020, 544 s.
3. Dastani- Əhməd Hərami, Bakı: Şərq- Qərb, 2004, 119 s.
4. Eyuboğlu İ.Z. Türk Dilinin Etimoloji Sözlüyü. SAY yayınları, İstanbul, 2020, 866 s.
5. Hüseynzadə M. Müasir Azərbaycan dili. Morfologiya. Bakı: Şərq-Qərb, 2007, 278 s.
6. Mirzəzadə H. Azərbaycan dilinin tarixi qrammatikası. Bakı: Azərbaycan Universiteti, 1990, 376 s.
7. Seyidov Y. Azərbaycan dilinin qrammatikası. Morfologiya. Bskı: Bakı Univesiteti, 2011, 368 s.
8. Şirin H. Türkçenin ses bilgisi tarihi üzerine bir deneme. Dis. İzmir, 2003, 534 s.

Açar sözlər: Anadilli məsnəvi, arxaik sifətlər, sözlərin semantikası, təhlil
Keywords: native-language masnavi, archaic adjectives, semantics of words, analysis
Ключевые слова:Нативный язык маснави, архаичные прилагательные, семантика слов, анализ

Simple adjectives used in the work "Dastani-Ahmad Harami"

Summary

The "Harami Dastan", one of the finest monuments of our 13th-century poetry, is the first example of a poem written in the native language. The work, which is close to the people's spirit in its ideological and philosophical content, language and style, was discovered and published by a Turkish scientist at the beginning of the 20th century. The work's rich language can be clearly observed. In the words of Aliyar Safarli, "the poem is one of the most valuable monuments of our literary language". Its study from a linguistic perspective, along with a comparative analysis with common Turkic monuments, can yield valuable results.

In the article, the semantics and structural types of adjectives such as *əgri, bol, qısa, doğru, qısa, gökçək, genə, əsən, xub,* etc., have been analyzed and examined.

Простые прилагательные, использованные в произведении «Дастани-Ахмед Харами»

Резюме

«Харами Дастан», одно из величайших произведений нашей поэзии XIII века, является первым примером поэмы, написанной на родном языке. Произведение, близкое народному духу по своему идейно-философскому содержанию, языку и стилю, было обнаружено и опубликовано турецким ученым в начале XX века. В этом произведении отчетливо прослеживается богатый язык. По словам Алияра Сафарли, «поэма является одним из ценнейших памятников нашего литературного языка». Его изучение с лингвистической точки зрения, наряду со сравнительным анализом с общетюркскими памятниками, может дать ценные результаты.

В статье были проанализированы и исследованы семантика и структурные типы прилагательных, таких как *əgri, bol, qısa, doğru, qısa, gökçək, genə, əsən, xub.*

Rəyçi: prof. Mübariz İmran oğlu Yusifov

Aytən Arif qızı Rəcəbova [14]

MÜASİR İNGİLİS DİLİNDƏ "VƏTƏNPƏRVƏRLİK" KONSEPTİNİN SEMANTİK XÜSUSİYYƏTLƏRİ

Elm inkişaf etdikcə onun anlayışlar sistemində də zənginləşmə prosesi genişləndirilir və bu anlayışların adlandırılmasına ehtiyac yaranır.

Dilçilik elminin son dövrdəki tədqiqatlarına nəzər salsaq, onlardan biri də diskurs anlayışı hesab edilir.

Diskurs anlayışı aşağıdakı amillərlə bilavasitə bağlıdır ki, onları aşağıda təqdim edirik.

1. ekstralinqvistik,
2. sosio-mədəni,
3. psixoloji,
4. praqmatik,
5. intonasiya və digər faktorlarla şərtlənir.
6. O, ünsiyyətdə iştirak edənlərin:
7. interaktiv fəaliyyətini,
8. onların münasibətlərinin qurulması
9. davam etməsi,
10. emosional və informasiya,
11. verbal
12. qeyri-verbal səviyyələrdə təsirini şərtləndirir.
13. Diskursda müvafiq epoxanın nümayəndələrində aşağıdakı məsələlər aktualdır.
14. Qeyd olunanlar bunlardır:
15. ideologiya,
16. fikirlər,
17. kommunikativ strategiyalar.

Bu mənada, diskurs mətnlərin müəyyən bir mövzuda uzlaşmasıdır və bu hal-hazırda mədəniyyətin fraqmenti kimi dəyərləndirilir.

Digər tərəfdən, mətnlərin bu cür uyğunluq təşkil etməsi istənilən mövzu üzrə danışığın müəyyən edilmiş təcrübəsini təqdim edir. Belə olduqda, dünya siyasətində də danışığın bu geniş həcmi müasirliyin siyasi diskursunu ehtiva edir. Diskursa bu cür yanaşma sinxron və diaxron aspektlərin yaranmasını şərtləndirir.

Yuxarıda qeyd edildiyi kimi, mədəniyyət haqqında olan mətnlərin uyğunluğu elə mədəniyyətin özü kimi qiymətləndirilməkdədir.

İstənilən diskurs mədəni formada düşünülür və mədəniyyətdən kənarda olma ehtimalı möcud deyildir.

Buradan belə bir nəticə hasil olunur ki, əgər diskurs diaxronik münasibətlərdə nəzərdən keçirilirsə, onda nə haqqında danışıq olursa olsun, milli-kulturoloji, struktur genişlik müstəvisi qazanır.

Məsələn: ingilis siyasi diskursu və onun tarixi, müasirliyinə nəzər salsaq görərik ki, bu təkcə baza konseptlərinin tarixi deyil, həmçinin söz və ideyaların, üslubların, sintaksis və frazeologiyanın tarixidir. Yalnız bu halda, vaxtında formalaşdırılmış təcrübə haqqında danışmaq olar.

Məlumdur ki, istənilən konseptin semantika ilə əlaqəsi vardır.

Beləliklə, "vətənpərvərlik" konsepti də özündə bir çox semantik məqamları ehtiva etməkdədir və diskursiv baxımdan maraq doğurur.

Onlardan biri də şüarlardır.

Şüarlar andiçmə nitqlərinin müxtəlif mərhələlərində mühüm rol oynayırlar. Belə ki, mətndə mənalılıq, qısa və lakoniklik burada vacib şərtlərdən hesab olunur.

Bundan əlavə, səslənmənin effektivliyi də burada əsas amillər sırasındadır. Bu mənada "vətənpərvərlik" konseptinin məcaz dili ilə ifadəsində də şüarlar böyük rola malikdirlər. Burada qısa sözlər vasitəsilə təntənənin gücü nəzərə çarpdırılır. Bəzən şüarlar deklorativ prinsiplərlə qarışdırılır.

Şüardan fərqli olaraq, deklarativ prinsiplər nə müntəzəm, nə də fəaliyyətə çağırış xarakteri daşımış olur. Bu prinsip yalnız düşünmək üçün təqdim edilir. Tədbirin bayram əhval-ruhiyyəli olmasına baxmayaraq, bütün cəmiyyəti narahat edən problemlər dərk edilərək onlara qayğı ilə yanaşıldığı nümayiş etdirilir.

Bununla da xalqın həmrəyliyi göstərilmiş olur. Bu zaman nitqlərdə əsasən aşağıdakı sözlərə rast gəlirik.

Onları təqdim edirik.

1. səy,
2. islahatlar,
3. əzm, səbr
4. yeni müqavilələr,
5. hədəflər,

[14] **Filologiya üzrə fəlsəfə doktoru. ADU. Rəşid Behbudov 13. e-mail: aytan.rajabova@gmail.com**

10.24412/2218-7588-2025-2-59-63

6. məqsədlər,
7. vəzifələr,
8. iqtisadi irəliləyişlər,
9. inkişaf perspektivləri
10. çoxşaxəli iqtisadi münasibətlər.

Bu kimi söz və ifadələrə "vətənpərvərlik" konseptinin semantikasını özündə ehtiva edən mətnlərdə tez-tez rast gəlmək olar.

Praqmatik aspektdə dil üslubunun kommunikativ məqsədlərə çatmaq üçün markerlənməmiş dil vasitələrindən istifadə edilməsinə, həmçinin üslubi təhlilə daha geniş kontekstual amillər spektrinin cəlb edilməsinə, xüsusi dil qurumlarının öyrənilməsinə ən ümumi şəkildə burada aidiyyət vardır.

Əminliklə demək olar ki, mətnin təhlilində üslubi çalar hesab edilən hər şey eyni zamanda dildə istifadə praqmatikasına da aiddir[3, s.67].

Bu proses içərisində koqnitiv məna ümumi mənadan metaforik mənanın motivləşməsi xarakterini əxz edir ki, bu da obraz-assosiasiya səviyyəsində gerçəkləşdirilir.

Qeyd edək ki, mənanın motivləşməsi, daha doğrusu, onun metaforik cəhətdən dərki yeni strukturu - freym, prototopiksituasiya və ssenarini ifadə edir.

Koqnitiv sistemdə metaforaların modelləşməsi yüksək izahedici güc ehtiva etməklə dil hadisəsi olaraq metaforanın əlaqədar olduğu linqvistik fenomenləri əhatə edir. Metaforiklik insan təfəkkürünün ayrılmaz tərkib hissəsidir.

Hər bir mədəniyyət daşıyıcısında etnik xüsusiyyətləri özündə təcəssüm etdirən metaforalara rast gəlinir.

Məsələn, türk xalqları içərisində yuxu-ölüm assosasiyası kimi- yuxu ölüm deyil, yuxu təkrarlanan prosesdir, ölüm isə bununla müqayisədə bir dəfə baş verir.

Görünən odur ki, türk xalqları içərisində yatmaqla dünya unudulursa, hər şeydən bixəbər olursa, bununla da o, ölümə yaxınlaşır. Yuxu ilə ölüm arasındakı assosiasiyanın mənbəyində də məhz bu dayanır. Bu düşüncə tərzi həm insanların kulturoloji duyumu, həm də əvvəlki həyat təcrübəsi ilə səsləşir.

Vətənpərvərlik anlayışının semantikası da belədir. Vətənin evdən başlaması ifadəsi də görünür, bununla bağlıdır.

Buradan belə nəticə çıxartmaq olur ki, hər bir xalqda mədəni freymlər fərqlilik göstərə bilər. Bu həmin xalqın etnopsixoloji xüsusiyyətlərindən, yaşadığı sosial mühitdən çox asılıdır.

Bədii diskursda da bu istiqamətdə tədqiqatların aparılması freymlər, onların linqvokoqnitiv xüsusiyyətləri barədəki fikirləri xeyli zənginləşdirərək, konseptual metafora və metonimiyaların, habelə hiperbolanın etnokulturoloji mahiyyətini açmağa imkan verir. Dil şəxsiyyətini səciyyələndirmək xüsusiyyətinə malik olan diskurs bir neçə səviyyədə müəyyənləşir.

Qeyd edək ki, mətnə daxil edilən cümlələr arasında əlaqəni yaratmaq üçün bir sıra vasitələrdən istifadə edilir. Onlar informasiyanın ötürülməsində mühüm rola malik olub konseptuallaşmanı həyata keçirirlər. Bu vasitələr arasında əsas nitq hissələri mühüm yer tutur.

Doğrudur, mətnin qurulmasında əsas nitq hissələrindən bəziləri daha çox rol oynayır. Bu zaman müxtəlif morfoloji göstəricilərdən, həmçinin sintaktik elementlərdən istifadə olunur.

Morfoloji vasitələr mətnin hüdudlarının müəyyənləşdirilməsində əhəmiyyətli funksiya yerinə yetirirlər. Bu məsələ ilə əlaqədar Ə. Xəlilov yazır ki, sintaktik bütövə daxil olan plan cümlələr ya bu vahidin daxilindəki morfoloji elementlərin ya da sintaktik vahidlərin (söz birləşmələrinin, cümlənin) mənasını, orada ifadə olunmuş fikrin tam açılmasına xidmət edir. Ona görə də sintaktik bütövün sərhədləri həmin vəzifəni ödəmək üçün mətnin lazım olan hissəsinin haradan başlayıb harada qurtarması ilə müəyyənləşir[4, s. 165].

Yeri gəlmişkən qeyd edək ki, mətn elə bir çoxluqdur ki, onun elementləri müəyyən şəkildə qarşılıqlı olaraq əlaqəlidirlər. Məsələyə bu prizmadan nəzər saldıqda özündə vətənpərvərlik motivlərini ehtiva edən mətn qarşılıqlı əlaqədə olan aspektlərin, elementlərin, komponentlərin, seqmentlərin nəticəsidir.

Mətnin komponentləri kimi ayrı-ayrı bitkin cümlələr özünü göstərir. Eyni zamanda mətnin tərkibində onun ayrı-ayrı tərkib hissələrinin, yəni komponentlərin bitkinliyi nisbi xarakter daşıyır.

Buradan təbii olaraq belə çıxır ki, eyni cümlə modelinə mətn tərkibində və tərkibdən kənarda müxtəlif cür yanaşmaq lazımdır. Belə ki, hətta eyni cümlə modeli öz assosiativ semantik xüsusiyyətlərinə görə müxtəlif mətnlərin tərkibində özünü müxtəlif cür aparır.

Başqa sözlə desək, mətn daha yüksək təklif olunmuş sintaktik vahid olmaq etibarilə öz tərkibində olan cümlənin semantik və assosiativ strukturunu istədiyi kimi dəyişdirmə gücünə malikdir.

Başqa yöndən yanaşsaq, mətnin işləm məqamının mövcudluğu o zaman mümkün olur ki, onun tərkib komponentləri müəyyən dəyişikliyə məruz qalsınlar, çünki dəyişilmədən, öz assosiativ və yaxud semantik sərhədlərinə "əl gəzdirmədən" heç bir cümlə mətnin tərkibinə daxil olan komponentə çevrilə bilməz[1,s. 224].

Mətnin yaradılması prosesində fərdin həm psixi, həm də kommunikativ fəaliyyəti öz əksini tapır.

Deməli, mətnin, eləcə də özündə vətənpərvərliyi əks etdirən mətnlərin semantikasında idraki-kooperativ və kommunikativ aspektlər dayanır.

Mətn kommunikativ vahid kimi müəyyən koqnitiv məlumatları özündə ehtiva etməkdədir. Həmin informasiyanın mətni qəbul edənə ötürülməsi mətnin funksiyasına aiddir.

Hər hansı davranış norması yalnız adresat və adresant olmasını nəzərdə tutur. Bu davranış qaydasına əməl edən şəxs adresant hesab olunur, adresat isə tək-tək şəxslər və ya bütövlükdə cəmiyyət ola bilər.

Nitq ünsiyyətinin işlənmə məqamına malik mətnin müəyyənləşdirilməsində əsas aspekt onun daha geniş əhatənin içərisindəki mövcudluğu meyarlarıdır.

Bizə belə gəlir ki, mətnin sərhədlərini müəyyənləşdirməyin ən əlaqəli üsulu mətnlə cümlə arasındakı izomorfizmi müəyyənləşdirib ondan çıxış etməklə əldə edilə bilər.

Cümlə kimi mətn də müəyyən çərçivəli struktura malikdir və strukturda son mərhələ əslində başlanğıc mərhələnin təkrarından başqa bir şey deyil. Əgər qədim yazılı abidələrdə biz daha tez-tez bu məqamda tam formal təkrara rast gəliriksə, müasir dildə adətən, həmin qədim cümlənin sintaktik dərinliyində gizlənmiş təkrar əlamətləri üzə çıxarmaq üçün müəyyən məntiqi-semantik əməliyyatlardan istifadə etmək lazım gəlir[1, s. 267].

"Vətənpərvərlik" konseptinin semantikasına nəzər salarkən məlumatı ötürən və qəbul edən arasında tam qarşılıqlı anlaşmanı yaratmaq üçün məlumatın linqvistik tərtibatından başqa, ilkin məlumatı əhatə edən, qəbul edənin şüurunda olan, məlumat xaricində mövcud olan, lakin eyni zamanda onun doğru və əsaslı anlayışına zəmanət verən məna vahidi olan presupozisiya kimi ekstralinqvistik fakt zəruridir.

Mətnin informativ potensialının genişləndirilməsi onun təməlində dayanan informasiyadan və kommunikantlardan savayı, həm də mətnin izahı üçün zəruri olan tamamlayıcı informasiyanın bütün kompleksini ehtiva edən informasiya bölgüsü prosesində də baş verir.

Dil vahidinin assosiativ və konnotativ mənası verilən daxili səbəblərdən törəyən bacarığına görə, üstüörtülü, gizli informasiya oxucuları ələ alır. Bu implikativ məna İ.R.Qalperinin mətndə informasiyanın bölünməsinin praqmastilistika aspekti olan "maraqlı mətnaltı daxili məna informasiyası" konsepsiyasında birləşdirilir[5, s. 60].

A.Məmmədov, M. Məmmədov yazırlar: "Diskurs insanın koqnitiv mexanizminin ümumi aspektlərini izah edərək, universal və mədəni konseptlər arasında əlaqə yaradır. Eyni universal konsept və onun linqvistik və ritorik reprezentasiyalarının inferensiyası, başa düşülməsi və şərhi həm bir mədəniyyətə aid diskursda, həm də çoxmədəniyyətli diskursda fərqli ola bilər. Buna görə də hər iki növ konsept diskursda kommunikativ dinamizmin ən əsas mənbəyidir. Bu fərqlərin səbəbi dil ilə mədəniyyət arasında münasibətlərin hər bir dil faktında çox spesifik olmasıdır"[3, s.99].

Buradan belə bir nəticəyə gələ bilərik ki, sözügedən konseptdə də şəxsiyyətin koqnitiv mexanizminin aspektlərinin izahı linqvistik, o cümlədən, semanitik baxımdan əhəmiyyət kəsb edir.

Bu münasibətlə, C. Fokonye fərziyyəsində iddia edir ki, bir kəs mətn daxilində quruluş elementinin birindən digərinə keçirsə, bu keçid cümlə və cümlə kompleksinin inteqrasiyasında qeyd olunur. O həmçinin, bir neçə empirik işdən sitat gətirərək, qeyd edir ki, sonra gələn cümlələrin ilkin yerləşdirilməsi sahə qeydetmə funksiyasına malik ola bilər[7, s.338].

O cümlənin empirik məzmununun, yaxud input sahələrinin mövcudluğunun sərhəd xəttinin müəyyənləşdirilməsində kafi göstərici olmasının aydınlaşmadığını və bu fərziyyəni araşdırmağa ehtiyac duyulduğunu vurğulayır. Burada mental sahələrin təbiəti və işlənmə tezliyinə dair empirik tədqiqat bu fərziyyəni izah etməkdə köməyimizə gəlir. [6, s.133]

Bu tədqiqat sualları, məna və vəziyyət anlayışları, xüsusi olaraq, budaq cümlələri və vəziyyət birləşdiricilərinin diskursdakı semantik sahə variasiyalarına dair müddəalarla əlaqəli olur.

Beləliklə, mətni göndərən şəxs diskursda universal konseptləri və onların müəyyənləşdirici parametlərini reprezentasiya etmək üçün aşağıdakıları diqqətdə saxlayır.

1. linqvistik (isimlər, felin zaman formaları, məkan və zaman zərfləri, işarə, şəxs və mənsubiyyət əvəzlikləri, artikllər, şəkilçilər və s.)
2. ritorik (metafor, metonimiya və s.) vasitələrdən istifadə edir.
3. Bu linqvistik və ritorik vasitələri əslində konseptuallaşma alətləri kimi nəzərdən keçirmək olar.

Konseptuallaşma prosesinin, ilk növbədə, müxtəlif dillərə və mədəniyyətlərə mənsub diskurslarda reallaşması maraq doğurur[3, s.72].

Semantika subyektiv danışanın mənasını deyil, ümumi mənanı (public) nəzərdə tutur.

Qeyd edək ki, linqvistik məna keyfiyyətləri müxtəlif aspektlərdən tədqiqata cəlb edilə bilər.

Sözlərin mənaları leksik semantika tərəfindən öyrənilir. Hər bir sözün denotasiyası araşdırılır[8].

Semantikanın üç əsas tipi nəzərdən keçirilir.

Onlar aşağıdakılardır:

1. formal,
2. leksik,
3. konseptual [9].

Bununla bərabər, linqvistik məna yeddi növə ayrılır:

1. konseptual
2. konnotativ
3. kollokativ
4. sosial
5. affektiv
6. reflektiv
7. tematik
8. Bunlardan ən əsası da iki növü geniş aspektdə götürülür.

9. Bunlar aşağıdakılardır:
10. konseptual
11. assosiativ

Onu da xüsusilə vurğulayaq ki, sosial aspektdə vətənpərvərlik anlayışı üç yerə ayrılır.
Onları təqdim edirik.

1. maintenance
2. achivable
3. civic

Birincidə əsas məsələ olaraq, xalqın rifah halını inkişaf etdirmək, vətəni sevmək, ikincidə cəmiyyət üzvlərinin də qəbul etdiyi normalara riayət etmək və bu qəbildən olan məsələlərə tələb edilən qaydada fokuslanmaq sözügedən hissəyə aiddir.
Üçüncüdə isə demokratiya və qanunlara riayət etməyin vacibliyi ön plandadır.
Eyni zamanda burada əsas olanlar bunlardır:

1. iqtisadi hüquqlar,
2. sosial ədalət,
3. rifah halı

Bütün bunlar adıgedən konseptin araşdırılmasında mühüm hesab edilir. Əlbəttə, burada motivlərin dərki əsas məsələlərdəndir.

Motiv mətn yaranması prosesini doğuran ilkin faktordur. Lakin motiv özü hələ müəyyən məzmuna malik deyildir.

Növbəti mərhələ deyilişin məqsədidir. Bəzi dilçilər bunu "ilkin semantik yazı" adlandırırlar.

Məqsədin yaranması mətnin məzmununu müəyyənləşdirən mərhələdir. Gələcək deyilişin əsas sxemi onun üzərində qurulur ki, bu da deyilişin mövzusunun (mətnin məzmunudur) remasından (mətnə daxil olacaq yeni informasiya) birinci dəfə ayrıldığı zaman baş verir.

Koqnitiv olaraq, bu mərhələni mətnin ümumi subyektiv mənasının formalaşdırılması mərhələsi kimi xarakterizə etmək olar. Bu mərhələ üçün belə bir fakt səciyyəvidir: subyekt subyekti mənası anlaşıqlı və hamıya aydın mətn anlayışlarına çevirməyin yollarını dərk etməyə başlayır.

Dilçi alim Ə. Abdullayev yazır:" Baxmayaraq ki, semantikada olan hər bir şey eyni zamanda koqnitivdir, koqnitiv təhlil koqnitiv mənanın elə aspektlərində cəmləşir ki, həmin aspektlər koqnitiv ifadəni şərtləndirir.

Bu isə o deməkdir ki, biz klassik linqvistik semantikada olduğu kimi söz və cümlələrin mənasına yox, yalnız koqnitiv terminlərlə ifadə oluna bilən mətn və nitqin koqnitiv xüsusiyyətlərinə daha çox diqqət yetirməliyik[2, s. 244].

İngilisdilli mətnləri proses və nəticə kimi nəzərdən keçirərkən həyati münasibətlər burada vacib rola malik olur.

Qeyd edilməlidir ki, nitq ünsiyyətinin müasir dinamik modeli bir sıra hissələrdən ibarətdir ki, onlarda nəinki dilin səsli forması, həmçinin dilin məzmunlu tərəfini nəzərə almağa imkan verir. Bu isə nitq ünsiyyətinin semantikasına daha da artan marağı əks etdirir. Bu iki tərəfin dialektik birliyi fikrin, danışanın modal münasibətlərin səs ilə ifadə olunmasının geniş variativliyinə səbəb olur.

Araşdırma apardığımız müstəvidə də söyləmin tanınması onun semantikasına, o cümlədən modal-emosional mənalarına əsaslanır.

Məhz bu baxımdan "vətənpərvərlik" konseptinin tədqiqində də adıgedən məqamlar diqqət mərkəzindədir.

Söyləmin semantikasının, münasibət mənalarının qavranılması isə söyləmin tərkibində olan seqment və supraseqment vahidlərin tanınması ilə xarakterizə olunur. Bu da qarşılıqlı əlaqəli və bir-birindən asılı əlamətlər sistemini təşkil edir.

Beləliklə, müəyyən mətnin, o cümlədən "vətənpərvərlik" mövzusunda olan mətnin variantlarının şərhini məzmun planı səviyyəsində əlamətlərini üzə çıxarmağa və bu aspektdə şərh edilən mətnin ümumiləşdirilmiş modelini qurmağa imkan verir.

Beləliklə, haqqında bəhs etdiyimiz "vətənpərvərlik" konseptinin semantik xüsusiyyətlərinin araşdırılması dilçilik elmində hər zaman maraqlı, aktual tədqiqat obyekti olaraq, dəyərləndirilir və yeni- yeni araşdırmalar fonunda daha çox aktuallıq kəsb etməyə başlayır.

ƏDƏBİYYAT

Azərbaycan dilində

1. Abdullayev K. Azərbaycan dili sintaksisinin nəzəri problemləri. Bakı: Maarif, 1999, 281 s.
2. Abdullayev Ə.Ə. Aktual üzvlənmə, mətn və diskurs. Bakı: Zərdabi LTD MMC, 2011, 272 s.
3. Məmmədov A., Məmmədov M. Diskurs Tədqiqi. Bakı: 2016, 111s.
4. Xəlilov Ə. Əvəzliklərin müstəqil cümlələr arasında əlaqələr yaratmaqda rolu // EA-nın xəbərləri, Ədəbiyyat, Dil və İncəsənət Seriyası, 1969, № 1, s.165-169.
5. rus dilində
6. Гальперин И.Р. О понятии «текст // материалы научной конференции, « Лингвистика текста», Т-1, М., 1974, № 6, с. 60-67

İngilis dilində

7. Fauconnier G., Turner M. Conceptual Integration Networks. Cognitive Science, 1998, 22, p.133-147.
8. Fauconnier G., Turner M. The way we think. Conceptual blending and the mind hidden complexities. NY. Basic Books, 2002, 347p.
9. internet resursları
10. https://en.wikipedia.org
11. https://study.com

Açar sözlər: *vətənpərvərlik, diskurs, konsept, dil, semantika*
Key words: patriotism, discourse, concept, language, semantics
Ключевые слова: патриотизм, дискурс, концепт, язык, семантика

The Semantic Characteristics of the Concept of "Patriotism" in Modern Englis

Summary

This article explores the semantic characteristics of the concept of "patriotism" in modern English. It examines the key aspects and components of this concept, particularly within a discursive context.

Furthermore, the article discusses various semantic types and the linguistic meanings associated with the concept. Special attention is given to insights drawn from scientific and theoretical literature, which provide a deeper understanding of how "patriotism" functions as a linguistic and cultural construct.

Семантические характеристики концепта «патриотизм» в современном английском языке

Резюме

В данной статье рассматриваются семантические характеристики концепта «патриотизм» в современном английском языке. Анализируются ключевые аспекты и составляющие этого концепта, особенно в дискурсивном контексте.Кроме того, обсуждаются различные семантические типы и языковые значения, связанные с данным понятием.

Особое внимание уделяется материалам, заимствованным из научной и теоретической литературы, которые позволяют глубже понять функционирование концепта «патриотизм» как языкового и культурного явления.

Rəyçi: f.f.d,. dosentVəfaVaqifqızı Pənahova

Səbinə Əmiraslan qızı Tahirova[15]

İNGİLİS DİLİNDƏ İNTONASİYA MODELLƏRİNİN RABİTƏLİ NİTQDƏ İŞLƏNMƏ MEXANİZMİNƏ DAİR

Ədəbi dilin fonetik qaydaları bu dilin fonetik strukturunun bütün daxili hissələri, həmçinin, sözləri əmələ gətirən səslər, ayrı-ayrı sözlər, cümlə vurğusu, nitq melodiyası, pauza, tonlar, templər, səs diapazonu və s. bir çox prosodik komponentlərdən ibarətdir.

Onu da vurğulamağı zəruri bilirik ki, istənilən bir dilin qrammatik quruluşu dilin başqa səviyyələrinin araşdırılması yolu ilə öyrənilirsə, bu dilin fonetik strukturunun tərkibinə daxil olan prosodik amilləri, melodik və ritmik nüansları, seqment elementləri bu dilin intonasiya amilləri və xüsusiyyətlərinin köməyi ilə araşdırılaraq öyrənilir. Nitq vahidlərinin əmələ gəlməsi, bu vahidlərin ünsiyyət nöqteyi-nəzərdən tədqiqi məhz intonasiyanın köməyi ilə həyata keçirilir. Eyni zamanda, onu da nəzərə almaq lazımdır ki, cümlənin əmələ gəlməsi üçün onu əmələ gətirən dil vahidlərinin qrammatik əsasa da sahib olması olduqca mühümdür, odur ki, istənilən bir dilin intonasiyası əmələ gətirdiyi dil vahidinin qrammatik xüsusiyyətləri ilə də sıx bağlıdır.

A.Axundov, S.Babayev və S.Zeynalov, intonasiya ilə bağlı birgə yazdıqları kitablarında qeyd edirlər ki, yazı yazarkən, eləcə də səssiz vəziyyətdə kitab oxuyarkən sözləri və cümlələrin səslənməsi, həmçinin intonasiyası bu şəxsin beynində olur. Lakin ünsiyyət və həmçinin, səsli oxu müddətində cümlələrin tələffüzü açıq-aydın eşidilir(1,s.48).

Seqment elementləri öz-özlüyündə qismən məlumat formalaşdırmaq, əmələ gətirmək xüsusiyyətinə sahibdir. Yəni, onlar istənilən bir obyekt, yaxud anlayışı semantik aspektdən bildirə bilər. Bununla belə, seqment elementləri hesab edilən söz və şəkilçi öz-özlüyündə ünsiyyət əmələ gətirmək bacarığına sahib deyillər.

Ünsiyyətin əmələ gəlməsi üçün seqment elementləri olan söz və şəkilçilərin supraseqment elementləri olan ritm, ton, temp, melodiya və s. arasında əlaqə olması mühümdür. Supraseqment elementlərinin birləşməsi nəticəsində yaranan intonasiya ünsiyyət elementi kimi, cümlələri semantik cəhətdən ayırır, danışanın fikri daha aydın çatdırmasına yardımçı olur və cümlələri kiçik semantik elementlər olan sintaqmlara ayırır. İntonasiya danışıq zamanı nitqdə məna çaları yaradaraq, onun düzgün formada dərk edilməsinə şərait yaradır, söylənilən cümlələrdəki məqsədi, onun sual, nəqli, yoxsa nida cümləsi olmasını müəyyən edir.

Ünsiyyət prosesində intonasiyasız heç bir fikir, cümlə əmələ gələ bilməz. Bu xüsusiyyətə diqqət yetirən xarici fonetistlər vurğulayırlar ki, istənilən xarici dildə sözlərin səslənməsi qaydalarını öyrənərkən intonasiya və onun elementləri fonemlərdən daha vacibdir. Ona görə ki, dil öyrənən bir şəxsin bu dildəki danışıq qabiliyyətinin yaxşı formalaşmasında və ifadə etdiyi fikrinin daha yaxşı dərk edilməsində melodiya və cümlə vurğusu mühüm rol oynayır. Ədəbi dilin fonetik qaydaları yalnız sözlərin doğru tələffüz edilməsindən ibarət deyildir. Bu qaydalara vurğu, fasilə, tonlar, qısaca intonasiya və onun elementləri aid edilir. P. Rouç "English phonetics and phonology" kitabında yazır: "İngilis dilində intonasiyanın münasibət funksiyasından əlavə, tələffüz funksiyası ilə diskurs funksiyası da mövcuddur" (7, s.183). İntonasiyanın tələffüz funksiyası, sözlərin hecalarının daha qabarıq ifadə edilməsi və beləliklə də bu hecaların vurğusuz heca olaraq qəbul edilməsi üçün şərait yaradır. Eyni zamanda, spesifik sözlərin üzərində tonik vurğunun qeyd edilməsi ilə intonasiya, cümlədəki ən mühüm sözü təyin edir. İntonasiyanın bu funksiyası onun tələffüz funksiyası hesab edilir. Məsələn:

Charles is **go**ing
Charles is **go**ing / for his **father**
Charles is **go**ing / for his **father** / at the **hos**pital

Bir dil məfhumu kimi intonasiyanın, dilçilik elmində həm dar, həmçinin də geniş mənada izahı verilir. Digər dillərin, əsasən də ingilis dilçilik elmində bir çox dilçilər intonasiyanı səs tonunun danışıq zamanı qalxması və enməsi kimi təyin edirlər (2, s.13).

Amerikan alim dilçilərindən olan D.Bolinger, amerikan ingilis dilində intonasiyanın tam qrammatikləşmiş, natamam qrammatikləşmiş, qismən qrammatikləşməmiş və qrammatikləşməmiş olmaqla dörd səviyyəsinin olduğunu qeyd edir. Cümlə vurğusu, səviyyə, terminal tonlar və üzvlənmə intonasiyanın tam qrammatikləşmiş səviyyəsinə aid edilir. Məntiqi məlumatla emosional məlumatının birliyi ikinci səviyyə olan natamam qrammatikləşmiş intonasiyanı ehtiva edir. İkinci səviyyə üçün danışanın idarə edə bildiyi "emosional mənalar" xarakterikdir. İntonasiya ilə bağlı aparılan araşdırmalarda vurğulu sözlərdə melodiyanın tədqiqinin vacibliyi vurğulanır. Qismən qrammatikləşməmiş intonasiya səviyyəsi üçün danışanın idarə edə bilmədiyi "emosional mənalar" xarakterikdir və burada vurğusuz hecalarda melodik variativliyin tədqiqinin vacibliyi vurğulanır. Sonuncu səviyyə olan qrammatikləşməmiş səviyyədə emosiyalar, hiss və duyğular əsas hesab edilir. Burada səs tonları və diapozonlarının tədqiqi mühümdür. D.Bolinger, bu səviyyələri təklif etməklə nitqin emosionallığının sərhədlərini müəyyənləşdirməyə çalışır (3, s.17).

İntonasiyanın əsas elementi olan melodiya danışıq zamanı səs tonunun dəyişməsi ilə yaranır. Ona görə ki, insan ünsiyyət qurarkən onun danışığı monoton ola bilməz, onun səsinin tonu cümlənin məzmunundan, növündən, danışarkən keçirdiyi hiss və həyəcanından və s. asılı olaraq düşüb qalxa bilər.

[15]**ADU. tahirovasabina89@gmail.com**
10.24412/2218-7588-2025-2-64-67

Dilçilik elmi ədəbiyyatlarında ton və intonasiya anlayışları çox vaxt bir-biri ilə qarışdırılır. Dilin tərkibində, fonetika və semantikada söz həcmi və söz vurğusu kimi digər bir çox məfhumlar mövcud olduğuna görə bu qarışıqlıq əmələ gələ bilər. Amma intonasiya ilə səsin qarışdırılmasında əsas səbəb odur ki, intonasiya zamanı da səsin dəyişməsi halına rast gəlinir. Belə ki, tələffüz zamanı səsin aşağı enməsi, yaxud yuxarı qalxması müşahidə edilir (6, s.78).

İntonasiyanı səs tonunun qalxıb enməsi kimi izah edən alimlərdən biri də A.Qimsondur. O, danışıq zamanı vurğunun müxtəlif növlərinin intonasiyanın köməyi ilə müəyyən edildiyini xüsusi olaraq vurğulayır (5, s.27).

Bir çox alimlər intonasiyanı səs tonunun qalxıb enməsi kimi təsvir etdiyi üçün, düşünürük ki, bu anlayışlar haqqında da məlumat verməyə ehtiyac var. İngilis dilində yüksələn səs səviyyəsinin dəyişməsi iki struktur növə malikdir:

1. səs tonunun qalxması vurğulu hecada baş verir;
2. səs tonunun qalxması, vurğulu bir hecadan sonra sonuncunun sabit bir səslə tələffüz edilməsi zamanı baş verir.
3. Qalxan səs tonunun 1) səsin ortadan yüksək səviyyəyə qalxması, 2) səsin orta səviyyədən səs aralığının üstünə qalxması, 3) səsin aşağıdan orta yüksək səs səviyyəsinə qalxması, səsin altdan qalxaraq, 4) orta aşağı zonada bitməsi ilə müşahidə olunan dörd növü ayırd edilir. Məsələn,
4. Is it ok? / Did you take my papers, Wendy? / Was that in April or `May? / They won't `come, will they?
5. ´Jack? / ´Pardon? / 1) A: I'm taking up Taxidermy this autumn. - B: Taking up ′what? (clarification). 2) A: She passed her driving test. – B: She ′passed?
6. ‚June,| July, | ‚August… / I got 'calls from ‚Jason, ‚Mary, ‚Neil, and `Joe.
7. I don't ‚mind. / Nobody's ‚happy / Of ‚course. I'll `do it | if you don't ‚mind.
8. Enən səs tonunun da qalxan səs tonu kimi dörd növü müəyyən edilir:
9. Orta yüksək səs zonasında başlayaraq, səs diapazonunun alt hissəsində bitir. Bu, ən geniş yayılmış növüdür. Məsələn, I saw him. / I'll report you to the headmaster. / What's the 'reason of that?
10. Səs yüksək səs zonasından düşür və orta aşağı zonada bitir. Məsələn, I `did it! / `Good! / What gorgeous `flowers! / It was fan`tastic! / A: You didn't listen. – B: I `did. / A: I can't stand Jane. - B: But you were so `pleased with her!
11. Səs orta-aşağı səs səviyyəsindən səs diapazonunun altına enir. Məsələn, Nobody. It's out of the question. / `Helen, | 'come here. /`Nice. / The `giant| had 'grown rich …
12. Səs yüksək səs zonasından düşür və orta yüksək zonada bitir. Məsələn, `Sue! `Certainly! / A: Will you give him a ring? – B: Yes. A: Why didn't you inter`fere? – B: I was a way (4,s.10).

İngilis dilində sadə melodiya və mürəkkəb melodiya anlayışları mövcuddur. Onlar ayrı-ayrılıqda müxtəlif münasibətlərin semantikasını ifadə edirlər. İngilis dilində intonasiya ilə bağlı təklif edilən modellərdən ən işlək 15 intonasiya modeli mövcuddur ki, bu dili öyrənən şəxslərə görə onlar mühüm hesab edilir.

Enən şkalalı və enən qalxan nüvə tonlu intonasiya modeli nəqli cümlələrdə düzəliş, inciklik, ziddiyyət, bəzən sakitləşdirmə ifadə etdiyi halda, əmr cümlələrində xəbərdarlıq, təcililik bildirir. Məsələn,

Do you smoke- I ˈdo ˏsome‚times.
Can they smoke here- It is ˈnot for ˏbid‚den.
She is a pretty girl, isn't she- She has a ˏlovely ‚face.
It is time to go- be ˈcareful to ˏcross the ‚road.

Səs tonunun alçaq səviyyəli şkala ilə başlayıb alçaqdan enən tonla bitməsi ilə olan səkkizinci intonasiya modeli bitkinlik, sakitlik, təmkinlilik ifadə edən nəqli cümlələrdə, düşmənçilik, rəğbət bəslənməyən, təmkinlilik, soyuqqanlılıq ifadə edən xüsusi sual cümlələrində, sakitlik, təmkinlilik,emosiyanallıq olmayan əmr cümlələrində,sakitlik, təmkinlilik, təccüblük ifadə etməyən nida cümlələrində işlənir.Məsələn,

When will it be finished- As ˈsoon as I can ˏmanage it.
I shall ring you up as soon as I can – ˈWhen ˏwill it ˏbe.
I can not see to sew here- ˈPut the ˈother ˈlight ˏon.
I have got a leading part- ˈGood for ˏyou.

Alçaq səvlyyəli şkala ilə alçaqdan səs tonun qalxması ilə olan intonasiya modeli söhbətə zəmin yaradan, məzəmmətedici tənqid, ehtiyatlılıq, təmkinli cavab,dinləyiciyə fikrini hər hansı bir mövzuda dəyişməyə çağırış ifadə edən nəqli cümlələrdə, sakitlik, narazılıq,bəyənməmək ifadə edən xüsusi sual cümlələrində, narazılıq,şübhə ifadə edən ümumi sual cümlələrində, məzəmmətedici tənqid və qəzəblilik ifadə edən əmr cümlələrində, sakitlik, təmkinli cavab və təsadüfi tanışlıq ifadə edən nida cümlələrində işlənir. Məsələn,

How long have you been there- ˈnot ˈvery ‚long.
I should like another hat- ˈWho is ˈgoing to ‚pay for it.
I am really sorry mummy- ˈAre you ˈreally ‚sorry.
He will let me have it by Monday- ˈDon't be ˈtoo, sure.
You can have it if you like- ˈThank you ˈvery‚much.

Səs tonunun yüksəkdən enən tonla tələffüz olunması ilə olan onuncu intonasiya modelində nəzərə çarpdırılmanın ‚qabarıqlığın dərəcəsi səs tonunun nə qədər yüksəkdən deyilməsindən asılı olur.Bu intonasiya modeli şəxsi maraq,canlı səslənən,maraq ifadə edən nəqli cümlələrdə, canlılıq və maraq ifadə edən xüsusi sual cümlələrində,mülayim formada təəccüb və dinləyicinin şərtini qəbul etək kimi emosiyaları ifadə edən ümumi sual

cümlələrində,mülayimlik ifadə edən əmr cümlələrində və hədsiz emosionallıq ifadə edən nida cümlələrində istifadə olunur.Məsələn,

Where is my copy- ` Peter took it for you.
I am late-` How late.
I like it here- ` Do you.
What is the matter-` Look.
I shall give it to you-How ` lovely.

Qalxan səviyyəli şkala ilə yüksəkdən səs tonunun enməsi on birinci intonasiya modelində istifadə olunur.

Bu intonasiya modeli şəxsi maraq ifadə edən,mızıldanaraq etiraz bildirən nəqli cümlələrdə, xoşagəlməz təəccüb və ya narazılıq ,etiraz bildirən xüsusi sual cümlələrində, səbirsizlik və etiraz bildirən ümumi sual cümlələrində,canlılıq və tənqidi təəəccüb ifadə edən əmr cümlələrində, etiraz, qəzəbli təəccüb ifadə edən nida cümlələrində istifadə olunur.Məsələn,

Havent you brought the car- You ˈdidn't ` ask me to.
Send them at once- ˈWhere ` to.
Tuesday is a hopeless day for me.- ˈCant we ˈmake it on ` Friday then.
What shall we do- ˈTry it a ` gain.
You are a bit grumpy today- ˈNot in the ` least.

Enən şkalanın yüksəkdən səs tonunun enməsini izləməsi ilə baş verən intonasiya modeli cümlənin müxtəlif kommunikativ növlərində işlənir.Bu intonasiya modeli şəxsi maraq,mülayimlik ifadə edən nəqli cümlələrdə, maraqlılıq, işgüzar xarakterli xüsusi sual cümləsində,şübhə, dinləyicinin şərtini mülayim halda qəbul etmək kimi emosiyaları ifadə edir.Bu intonasiya modelinə canlı səslənən, dinləyiciyə hər hansı bir hərəkəti təklif edən əmr cümlələrində,səmimi təəccüb ifadə edən nida cümlələrində rast gəlmək olar. Məsələn,

Why don't you work in the evening-Some of them ` do I believe.
I have just seen that new musical- ˈWhat is it ` called.
Shall we try again- Well, ˈwould it be ˈany ` use.
The tea is too hot-ˈPut some ` milk in it.
Look it is snowing- ˈOh, ` yes.

Yüksək səviyyəli şkala və səs tonunun yüˈksəkdən qalxması ilə müşayət olunan onüçüncü intonasiya modeli sual xarakterli bir modeldir.Nəqli cümlələrdə bu intonasiya modeli narazılıq, bəzən diqqətsizlik və ya qəzəb ifadə edir. Təkrar və ya əlavə məlumat üçün çağırış ifadə edən xüsusi sual cümlələrində, söhbətin davam etəsini təmin edən qısa şərhlərdə, hər hansı bir əmrin yerinə yetirilməsinindən imtina edən əmr bildirən əmr cümlələrində, danışanın fikir və emosiyaları ilə razılaşmamaq üçün təkrar edilən sual xarakterli nida cümlələrində bu intonasiya modelinə rast gəlinir. Məsələn,

I have listened to every word you said-ˊEvery word.
What is your opinion-ˈ What is my o'pinion.
I have just met Ann-ˊHave you.
Go there at once-ˈGo there at 'once.
How cold today-ˊCold today.

Yüksək şkaladan sonra səs tonunun qalxıb sonra enməsi ilə müşayiət olunan on dördüncü intonasiya modeli əsasən daha çox mənfi emosiyalar ifadə edən cümlənin müxtəlif kommunikativ tiplərində işlənir.Bu intonasiya modeli təsirlilik, özündən razılıq, çağırış,məsuliyyətdən boyun qaçırmaq kimi emosiyaları nəqli cümlələrdə, xüsusi sual cümlələrində çağırış, məsuliyyətdən boyun qaçırma, antoqnist, ümumi sual cümlələrində təsirlilik, antoqonist, çağırış, əmr cümlələrində məsuliyyətdən boyun qaçırma, düşmənçilik, nida cümlələrində isə təsirlilik kimi emosiyaları ifadə edir.Məsələn,

Shall we be in time- We shall be a ˈ head of ^time.
I have had this pain for days- ˈWhy ˈdon't you ˈdo ^something about it.
Larry will be terrible as Hamlet- ˈCan you ^imagine him.
May I borrow this book for a while- ˈKeep it as ˈlong as you ^like.
Did you pass your exam- Of ^course.

Qalxan səviyyəli şkala ilə səs tonunun yüksəkdən qlxması ilə yaranan on beşinci və ya sonuncu intonasiya modeli nəqli cümlələrdə rəsmi nitqlərdə, mühazirələrdə, radioda son xəbərlər proqramında eşidilən , danışıq nitqində dinləyicinin diqqətini cəlb etmək üçün istifadə edilən danışıq modelidir.

Bu intonasiya modeli israrlılıq, şübhə altında və ya lağ etmə tərzində maraq billdirən xüsusi sual cümlələrində, çox maraq, vaciblik,müzakirə üçün arzu bildirən, bəzən də səbirsizlik və ya inamsızlıq bildirən ümumi sual cümlələrində, rəsmi elanlar kimi istifadə olunan əmr cümlələrində işlənir.Məsələn,

ˈEnglish ˈleather ˈgoods are ˈalso ˈgreat de'mand in other countries.
And ˈwhat have you been ˈdoing hither 'to.
ˈHave you ˈlived here' long.
ˈHave your ˈpassports 'ready please.

Araşdırmamız zamanı müəyyən etdik ki, cümlə intonasiyası məfhumu iki mənada – dar və geniş mənada dərk edilə bilər. İngilis və amerikan dilçi alimlərinin bir çoxu intonasiya məfhumunu nitq prosesi zamanı səs tonunun enib,

qalxması kimi izah edir. İstənilən dildə mütləq surətdə bir-birindən fərqlənən və ya oxşar olan leksik, qrammatik, sintaktik aspektlər özünü biruzə verir. Ümumiyyətlə, sözlərsiz heç bir insan ünsiyyət yarada, düşündüklərini ifadə edə bilməz. Cümlələr daşıdığı məqsəd və intonasiyası baxımından nəqli, nida, əmr, sual cümləsi növlərinə ayrılır. Bunların hər birinin öz istifadə forması, intonasiya xüsusiyyətləri mövcuddur. Ən geniş yayılmış cümlə növü nəqli cümlələrdir. Sual cümlələrindən istifadə etməklə insanlar bir-birindən informasiyanı əldə edə, təsdiq edə, dəqiqləşdirə bilirlər.

Yuxarıda araşdırılan mövzudan belə bir nəticəyə gəlmək olar ki, rabitəli nitqdə intonasiya modellərinin işlənməsi danışan və dinləyənin bir birini başa düşməsində , fikrin düzgün çatdırılmasında son dərəcədə əhəmiyyət daşıyır.

Məqalədə yalnız intonasiyanın komponentləri və funksiyalarının izahından deyil, həmçinin intonasiya modellərinin nitq prosesində cümlənin kommunikativ növlərində eşidib anlamada və fikrin dügün çatdırılmasında əhəmiyyəti də nəzərdən keçirilmişdir.

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

1.Axundov A., Babayev S., Zeynalov. F. İngilis və Azərbaycan dillərində vurğunun ritmik-melodik xüsusiyyətləri. Bakı, 1996, 252 s.
2.Antipova E. Ya. and others. English intonation. M, 1974, 244 p.
3.Bolinger D.L. Contrastive Accent and Contrastive Stress, Language, 1961, v.37, №1.
4.Crystal.D. Prosodic Systems and İntonation in English. Cambridge, 1969, 395 p.
5.Gimson A.C. A İntroduction to the Pronounciation of English. London, 1970, 341 p.
6.Kingdon R. The Groundwork of English Intonation. London, 1958, 272 p.
7.Roach P. English Phonetics and Phonology. Cambridge, 1983, 183 p.

İNGİLİS DİLİNDƏ İNTONASİYA MODELLƏRİNİN RABİTƏLİ NİTQDƏ İŞLƏNMƏ MEXANİZMİNƏ DAİR

XÜLASƏ

Elmi məqalə ingilis dilində intonasiya modellərinin danışıq prosesində istifadəsi zamanı cümlənin kommunikativ növlərində işlənməsindən və əhəmiyyətindən bəhs edir.İngilis dilində intonasiyanın struktur bölgüsünə aid olan müxtəlif formalı şkalalardan istifadə etməklə fikrin düzgün çatdırılmasında fərqli tonların işlənməsi zərurətini izah etməyə cəhd edilir və bu izah yetərli sayda nümunələrlə əsaslandırılır. İngilis dilində on beş intonasiya modeli daha işlək model olaraq hesab edilir və ingilis dilini öyrənmək istəyənlər üçün bu modellər vacib sayılır. Bir cümlə müxtəlif tonlarla deyilə bilər.Bu zaman fərqli fikirlər ifadə edilir.İntonasiyanın komponentlərindən biri kimi melodiyanın danışıq nitqi üçün,fikrin düzgün çatdırılması üçün nə qədər əhəmiyyətli olduğu qeyd edilir.

Açar sözlər: seqment elementlər,fonetik qaydalar,cümlə vurğusu , ritm, tembr

ON THE PROCESSING MECHANISM OF INTONATION MODELS IN CONNECTED SPEECH

SUMMARY

The scientific article talks about the use of intonation models in the conversational process and their importance in communicative types of sentences. By using scales of different forms related to the structural division of intonation in the English language, an attempt is made to explain the necessity of using different tones in the correct delivery of an idea, and this explanation is justified by a sufficient number of examples. Fifteen intonation patterns in English are considered to be more functional patterns and these patterns are considered important for those who want to learn English. A sentence can be said in different tones. In this case, different ideas are expressed. As one of the components of intonation, it is noted how important the melody is for the spoken speech, for the correct delivery of the idea.

Key words: segmental elements, phonetic rules, sentence stress, rhythm, timbre

О МЕХАНИЗМЕ ОБРАБОТКИ ИНТОНАЦИОННЫХ МОДЕЛЕЙ В СВЯЗНОЙ РЕЧИ

Резюме

В научной статье говорится об использовании интонационных моделей в разговорном процессе и их значении в коммуникативных типах предложений. С помощью гамм разных форм, связанных со структурным делением интонации в английском языке, делается попытка объяснить необходимость использования разных тонов при правильной передаче мысли, и это объяснение подтверждается достаточным количеством примеров.

Пятнадцать моделей интонации в английском языке считаются более функциональными моделями, и эти модели считаются важными для тех, кто хочет выучить английский язык. Предложение можно произносить разными тонами. При этом высказываются разные идеи. Как один из компонентов интонации отмечается, насколько важна мелодия для устной речи, для правильной передачи мысли.

Ключевые слова: сегментные элементы, фонетические правила, ударение в предложении, ритм, тембр.

RƏYÇİ: f.f.d.dos. Qocayeva X.Ə

Abdullayeva Səminə Sabir qızı[16]

AZƏRBAYCAN DİLİNDƏ DANIŞIQ DİLİNİNÜMUMİ PROBEMLƏRİ VƏ NORMALARI

Dilçilik tədqiqatlarında yazılı dil, şifahi dil, yazılı (ədəbi) dil, şifahi (ədəbi) dil, xalq dili, ümumxalq dili, ümumxalq danışıq dili haqqında bəhs olunur. Etiraf etmək lazımdır ki, bunların bir qismi haqqında təsəvvür yaradılmış olsa da bəziləri norma baxımından tam şəkildə öz həllini tapmamışdır. Ancaq bununla belə son tədqiqat işlərində yazılı ədəbi dil və onun normaları barədə daha aydın təsəvvür yaradılması ilə bağlı bir çox işlər görülmüşdür. Bu tamamilə təbiidir və məqsədəuyğundur. Çünki yazılı (ədəbi) dil normaları orfoqrafiya qaydalarına əsaslanır və həmin qaydalar hökumət tərəfindən rəsmi qərarla təsbit olunur. Şifahi dil, şifahi (ədəbi) dil normaları bir qayda olaraq orfoepiya ilə bağlı olduğundan burada vahid tələffüz-deyiliş vahidlərinə riayət edilməsi müəyyən çətinliklər yaradır. Hərçənd, son vaxtlar orfoepiya qaydalarının rəsmi təsdiq edilməsi ilə bağlı hökumət qərarı da təsdiq olunmuşdur. Qərarda göstərilir: "*Azərbaycan Respublikasında dövlət dili haqqında Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə*" *Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 2 yanvar tarixli 835 nömrəli Fərmanının 24-cü bəndinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır*:

1. "*Azərbaycan dilinin orfoepiya normaları" təsdiq edilsin (əlavə olunur).*

*2. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəi Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ huquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə"nin 2.6-1-ci bəndinə uyğun edilə bilər. (*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 18 iyun tarixli 175 nömrəli Qərarı ilə təsdiq edilmişdir.)

Şifahi (ədəbi) dilin vahid qaydada tabe edilməsi ilə bağlı hökumət qərarının olmasına baxmayaraq orfoepiya lüğətlərində pərakəndəlik və variant müxtəlifllikləri mövcudluğu müşahidə edilir. Azərbaycan dilçiliyində orfoepiya problemi, onun metodologiyası, tələffüz qaydaları və prinsipi məsələləri demək olar ki, Ə.Dəmirçizadədən başlanır. Ə.Dəmirçizadə ədəbi dil haqqında bəhs edərkən onu yazılı və şifahi deyə iki qismə ayırır.

Yazılı ədəbi dil "*yazıda ümumiləşdirilmiş halda sabitləşdirilən orfoqrafik normalarla təzahür edən dil*" kimi xarakterizə edilir. Şifahi dil haqqında bəhs edildikdə həmçinin, *ümumxalq dili, şifahi nitq və şifahi ədəbi dil, ədəbi dilin şifahi qolu ifadələri işlədilir* [5, s.4-5]. Orfoepiya haqqında bəhs edildikdə isə göstərilir ki, "*Orfoepiya-ədəbi dilin şifahi qolunu ümumi normalar əsasında formalaşdıran, yəni sovti cəhətdən ümumiləşdirici normaları təzahür etdirən tələffüz qayda-qanunlarının sistemli məcmusudur*" [5, s.5]. Burada həmçinin tələffüz üslubları haqqında da bəhs edilir ki, bu da *kitab üslubu* (poetik, akademik, natiqlik), *danışıq üslubu* (ciddi, sərbəst, ixtiyari üslub), *sadə nitq üslubu* (loru danışığı) kimi təqdim olunur [5, s.8].

Göründüyü kimi, burada yazılı (ədəbi) dil haqqında verilən proqnozlar orfoqrafiya qaydaları ilə təsbit olunur ki, bu barədə ümumiyyətlə, fikir müxtəlifliyi yoxdur. Yazılı (ədəbi) dilin verbal variantı kimi səciyyələnən şifahi (ədəbi) dil, danışıq dili problemləri isə demək olar ki, açılmamış bir vəziyyətdə qalır. Çünki həmin vaxtlarda orfoepiya prinsipinin özü də bütövlükdə həll olunmamış və rəsmiləşdirilməmişdi. Ona görə də danışıq dili deyildikdə bütövlükdə bu anlayış xalq dili, ümumxalq dili və ya sadəcə şifahi dil kimi səciyyələndirilirdi. Ə.Dəmirçizadənin "Orfoepiya" təlimində isə tələffüz-nitq xüsusiyyətləri, demək olar ki, daha çox Qərb regionu tələffüzünün səciyyəvi əlamətlərini əks etdirirdi. Məsələn, söz sonunda *q* samitinin tələffüzü ilə bağlı verilən nümunələrdə bunu müşahidə etmək olur: «Burada belə bir qayda verilir ki, "*çoxhecalı əsil Azərbaycan sözlərinin, eləcə də çoxdan Azərbaycan dilinə uyğunlaşmış bir sıra alınma sözlərin sonundakı(q) səsi (x) çalarlığında tələffüz olunmalıdır: qabax* (qabaq), *uzax* (uzaq), *papax* (papaq), *otax* (otaq), *torpax* (torpaq), *çırax* (çıraq), *çanax* (çanaq), *aşıx* (aşıq), *çaxmax* (çaxmaq)" [5,s.41]. Məlumdur ki, Azərbaycan dilinin təkhecalı söz sonunda *q* samiti işlənmir. İki və çox hecalı söz sonunda isə *q* samiti Qərb regionları nitq arealında *x*, Şərq regionu nitq arealında isə *ğ* kimi *torpağ* (torpaq), *çanağ* (çanaq), *papağ* (papaq), *ayağ* (ayaq), *sarımsağ* (sarımsaq), *çarpanağ* (çarpanaq), *qayqanağ* (qayqanaq) və s. Bu halda hansı düzgün sayılar? sualı ortaya çıxır. Ona görə də bir variantı əsas tutub onun barəsində hökm vermək prinsipcə özünü doğrulda bilmir. Çünki istər-istəməz q samitinin iki və çox hecalı söz sonundakı mövcud tələffüz forması kimi variantda müşahidə edilir. M.Şirəliyev və M.Məmmədovun redaktorluğu ilə çap olunmuş orfoepiya lüğətində də oxşar fikir təkrar olunur: "Sonundakı *q* samiti *x* çalarlığında tələffüz olunan sözlərə samitlə başlanan şəkilçi bitişdirildikdə və ya söz qoşulduqda *q* səsi yenə *x* çalarlığında tələffüz olunur: *papaq-papax-papaxçı, papax satan*" [3].

Bununla yanaşı lüğətdə bir paradoks da müşahidə edilir. Burada verilən bəzi sonu *k* ilə bitən nümunələr Qərb regionu nitq arealında *x*̌ (ph) kimi deyildiyi halda təklif olunan variant Şərq regionu nitq arealındakı *y* tələffüzünə malikdir: *inək-inəy, inəydə, gəlmə-gəlməy.* Burada belə bir qeyd də verilir ki, sonu "*K səsi ilə bitənlərin axırında isə ya "x*̌*" ya da "y" şəklində tələffüz müşahidə edilir. Bu variantların hər ikisini doğru hesab etmək olar"* [3].

Orfoepiya düzgün tələffüzə dair qaydalar sistemi hesab olunduğu halda burada variantlıq üzrə kompromis irəli sürmək əslində norma baxımından özünü doğrultmur. Çünki norma pərakəndəlik və variantlıq sevmir. Norma vahidliyi dilin başlıca etalonu sayılır. Qətiyyətlə demək lazımdır ki, hansı dildə norma sabitliyi yüksəkdirsə o dildə informasiya mübadiləsi daha intensivdir. Norma həm də dilin nüfuzu və obrazlı desək, onun "reytinqidir". Burada tədqiqatçı N.Quliyevanın bir fikrini xatırlatmaq da yerinə düşər ki, "*…yazı qaydalarının tələffüz normalarına uyğun olması yalnız metodiki baxımdan deyil, həm də fizioloji-akustik və psixoloji baxımdan əhəmiyyətlidir. Sosial amillərdən asılı olaraq baş verən belə dəyişmələr də o zaman möhkəmlənir ki, dilin öz başlıca funksiyasını yerinə yetirməsinə əngəl yaranmasın"* [11]. Yazılı (ədəbi) dildə normaların mükəmməl olması informasiyaların yayılması, saxlanılması

[16] 10.24412/2218-7588-2025-2-68-70

və gələcək zamanlara maneəsiz ötürülməsi baxımından əhəmiyyətli olduğu kimi, sabit orfoepiya normaları ilə tənzim olunan şifahi (ədəbi) dil normalarının sabitliyi və mükəmməl olması qarşılıqlı ünsiyyətin və nitq kommunikasiyasının effektivliyinin təminatçısıdır. Müasir dövrdə informasiya məkanının hüdudlarının genişlənməsini, beynəlxalq ictimai-siyasi, iqtisadi, mədəni eyni zamanda, akademik və işgüzar kommunikasiya şəbəkəsinin qlobal xarakter daşıdığını nəzərə alsaq şifahi (ədəbi) dil normalarını mükəmməl və sabit olmasının böyük əhəmiyyət daşıdığını təsəvvür etmək mümkündür. Bu mənada, yeni orfoepiya normalarının dillərarası qarşılıqlı mübadilə zəminindəki rolu və əhəmiyyəti ilə bağlı prof. N.Məmmədli və K.İmamquliyevanın bir yazısında deyildiyi kimi, "*…düzgün, dəqiq, ifadəli və zəngin nitq insanı cəmiyyətdə tanıdan əsas amildir. Artıq yalnız məişətdə deyil, şifahi nitqə ehtiyacı olan hər bir məkanda müxtəlif üslub nümayəndələrinin tələffüz normaları ilə maraqlandığı müşahidə olunur. Demək, sözün düzgün tələffüzü, vurğu, intonasiya, səs tonu, ixtisar, qısaltma və obreviaturların tələffüzü, ağız aparatından düzgün istifadə və s. məsələləri özündə ehtiva edən, sistemli bir şəkildə tərtib olunan orfoepiya lüğətinin hazırlanmasına ehtiyac vardır*" [13].

Azərbaycan dilinin şifahi (ədəbi) dil kommunikasiyaları artdıqca, özünün istifadə məkanını genişləndirdikcə orfoepiya qaydaları da demək olar ki, addım-addım inkişaf edir və təkmilləşir. Əlbəttə ki, lüğət tərtib etmək hələ şifahi (ədəbi) dilə tam sahib olmaq prosesi ilə birdən-birə üst-üstə düşmür. Buna kommunikasiya, qarşılıqlı mübadilə, o cümlədən, geniş inteqrasiya mühitinin genişlənməsinə təsir edən amillərin təsiri də tələb olunur ki, bu da birdən-birə yox, zaman-zaman yetişir. Odur ki, tərtib edilən orfoepiya qaydalarında təkrarların, yanaşma müxtəlifliyinin, həmçinin regional nitq fərqlərinin mövcudluğu da istisna sayılmamalıdır. Bu tipli stereotiplər ta Ə.Dəmirçizadədən tutmuş son dövrlərə qədər ortaya çıxan orfoepiya lüğətlərində və hətta Nazirlər Kabineti tərəfindən təsdiq olunmuş Orfoqrafiya qaydalarında da müşahidə edilir. Belə ki, Ə.Dəmirçizadənin hələ 1972-ci ildə işıq üzü görmüş "Müasir Azərbaycan dili" kitabında, eləcə də həmin kitabın 2007-ci ildəki nəşrində də 1969-cu ildə nəşr etdirdiyi Orfoepiyaya həsr olunan kitabında oxşar fikir və nümunələr öz yerində qalır. Ə.Dəmirçizadənin 1972-ci ildə çap olunmuş "Müasir Azərbaycan dili" kitabında aşağıdakı cümlə orfoepiya qaydalarına aid 1969-cu ildə nəşr edilmiş kitabda olduğu kimidir: "*Çoxhecalı əsil Azərbaycan sözlərinin, eləcə də çoxdan azərbaycancalaşmış bir sıra alınma sözlərin sonundakı q səsi x çalarlığında tələffüz olunmalıdır*: *qabax* (qabaq), *uzax* (uzaq), *torpax* (torpaq), *çırax* (çıraq), *çapax* (çapaq), *aşıx* (aşıq), *çomax* (çomaq)" [6, s.211].

2007-ci ildə çap olunmuş kitabda da eyni ilə yazılı: "*Çoxhecalı əsil Azərbaycan sözlərinin, eləcə də çoxdan azərbaycancalaşmış bir sıra alınma sözlərin sonundakı q səsi q çalarlığında tələffüz olunmalıdır:qabax* (qabaq), *uzax* (uzaq), *papax* (papaq), *otax* (otaq), *torpax* (torpaq), *çırax* (çıraq), *çanax* (çanaq), *aşıx* (aşıq), *çomax* (çomaq)" [7, s.176]. Əziz Əfəndizadənin tərtib etdiyi "Orfoqrafiya-orfoepiya lüğəti"ndə sonu *q* samiti ilə bitən sözlərin tələffüzünə dair göstərilən, təklif edilən qayda M.Şirəliyev və M.Məmmədovun redaktorluğu ilə nəşr olunan qayda ilə birbaşa səsləşir. Yəni burada da sonu *q* ilə bitə sözlərin tələffüzü ilə bağlı, əslində yeni bir fikir irəli sürülmür. Qeyd olunan ikili variant prinsip etibarı ilə regional xarakter daşısa da mənbə dialekt səciyyəli olaraq qalır. Odur ki, vahid ədəbi tələffüz qaydalarına yiyələnmək baxımından Ə.Əfəndizadəyə məxsus versiya norma sabitliyinə aparan üsul kimi qəbul etmək olmur. Ə.Əfəndizadə sonu *q* samiti ilə bitən sözlərdə *x* samitinin tələffüz qaydası ilə əlaqədar aşağıdakı kimi nümunələrə istinad edir: *otaq - ota*[x], *otaqda-ota*[xda], *otaq tutdumota*[x] *tutdum*; *arıq arı*[x], *arı*[x] *arıqdır - arı*[x]*dır*, *arıq quzu- arı*[x] *quzu; qatıq-qatı*[x]- *qatıqdan -qatı*[x]*dan* və s. [9, s.137]. Burada həmçinin sözsonundakı *q* samitinin *x* tələffüz variantı Azərbaycan dilinin Şərq qrupu dialekt və şivələrinə (Bakı, Şamaxı, Quba, salyan və s.) mənsub olan variantla qarşılaşdırılır. Göstərilən dialekt və şivələrdə *q* samitinin *ğ* tələffüzünə dair aşağıdakı kimi nümunələr verilir: *ota*[ğ], *arı*[ğ], *qatı*[ğ] və s. Burada həmçinin qeyd olunur ki, "*Bu tələffüz variantına ədəbi dildə danışanlar arasında tez-tez təsadüf olunur, lakin əvvəlinci variant daha geniş yayılmışdır; statistik baxımdan üstünlüyə görə fərqlənir. Buna baxmayaraq hələlik hər iki variant ədəbi tələffüz üçün düzgün sayılır*" [9, s.138].

Göründüyü kimi burada birincisi, variant tələffüzü təqdir olunur, bu da norma sabitliyi ilə bir araya sığmır; ikincisi, tələffüz variantlılığının təsbit olunmasında statistik ölçüyə meyillilik müşahidə edilir ki, bu da məsələnin dil-nitq prosesləri baxımından həllinə təminat yaratmır. Əslində yazı qaydalarında vahid normalılıq əsas prinsip olduğu kimi orfoepiyada da sabitlik yaradılması dilin informasiya nüfuzu baxımından xüsusi bir əhəmiyyət kəsb edir. N.Abdullayevin tərtib etdiyi "Azərbaycan dilinin müxtəsər orfoepiya lüğəti"ndə sonu *q* ilə bitən sözlərin tələffüz qaydası *x* variantı üzrə təsbit olunur: *yıxıq-yıxıx, yumruq-yumrux, yumşaq-yumşax, yamaq-yamax* və s. [1, s.118-119].

R.Heydərovun orfoepiya prinsipləri ilə əlaqədar olan bir yazısında orfoepiya məsələlərinin heç də asan olmayan və ağır zəhmət tələb edən bir iş kimi hələlik öz qəti həllini tapmadığı fikri tamamilə doğru hesab edilməlidir [10]. Çünki nə qədər orfoepiya lüğəti tərtib edilmişsə onların hamısında demək olar ki, müəlliflər bu və ya digər variantlarla qarşılaşmalı olurlar. Bəzən isə hətta orfoepiya terminin özünün də tələffüz normasını öyrənən bir elm sahəsi kimi düzgün işlədilməməsi fikri ilə rastlaşmaq olur. Məsələn, F.Veysəlli yazır ki, "*tələffüz normasını öyrənən elm sahəsi orfofoniya adlanır. Azərbaycan dilçiliyində səhv olaraq tələffüz normasını öyrənən elmi orfoepiya adlandırırlar. Orfofoniya dildəki fonem qarşılaşmalarının xüsusiyyətlərini öyrənir. Orfoepiya isə dildəki sözlərin fonem tərkibini müəyyən edir"* [16, s.16]. Bu fikir F.Veysəllinin hələ 1993-cü ildə nəşr olunan "Fonetika və fonologiya məsələləri" kitabında [15, s.85]; həmçinin redaktoru olduğu "Azərbaycan dilinin orfofoniya lüğəti"ndə də ifadə olunur [2, s.6-7]. *Orfofoniya* termini dildəki fonoloji qarşılaşmaların danışıqda reallaşması ilə bağlı ortaya çıxan tələffüz xüsusiyyətlərini sistemləşdirib öyrənməklə məşğul olan bir dilçilik sahəsi anlayışını bildirmək üçün işlədilir [8]. *Orfoepiya* termini isə sözlərin düzgün tələffüz qaydalarından bəhs edən praktik dilçilik sahəsinə aid anlayış bildirmə məqamında ənənəvi olaraq işlədilir. Odur ki, şifahi dil normaları və sözlərin düzgün deyilişi problemləri ilə əlaqədar orfoepiya terminin işlədilməsi daha artıq populyarlıq qazanmışdır. Orfoepiya məsələlərindən bəhs edən İ.Salahova da məhz bunu nəzərə

alaraq qeyd edir ki, "*…bu baxımdan, fikrimizcə,* "*Orfofoniya səhv olaraq orfoepiya adlandırılır" fikri gerçəkliyi dəqiq əks etdirmir. Düşünürük ki, orfofoniyaya orfoepiyanın tərkib hissəsi kimi yanaşılmalıdır*" [14, s.500]. Sözlərin düzgün deyilişinə və vahid tələffüz qaydalarına riayət edilməsində orfoepik normaların sabitliyi mühüm şərtdir. Bu sahədə, İ.Məmmədovun qeyd etdiyi kimi "*şifahi ədəbi dil üçün məqbul sayıla bilən fonetik hadisələrin hamısını diqqət mərkəzində saxlamaq lazımdır*" [12, s.544].

Orfoepiya elə bir dərin, elə bir ciddi problemdir ki, onun vahid qayda üzrə təsbit edilməsi üçün ayrı-ayrı tədqiqatçıların və müəlliflərin araşdırmaları məsələnin həlli üçün son sözü deməyə imkan vermir. Bu sahədə kollektiv rəyin bir araya gəlməsi və hamını qane edəcək bir fikir üzərində dayanmaq vacibdir. Daha sonra yekun qərarın rəsmiləşdirilməsi və bu rəsmiyyətə hər kəsin riayət etməsi tələbləri yerinə yetirilməlidir. Doğrudur, Azərbaycan dilinin orfoepiya qaydaları rəsmən təsdiq edilmişdir. Lakin həmin qaydaların özündə də mübahisə törədəcək məqamlara rast gəlmək olur. Məs., *q* samitinin tələffüzü ilə əlaqədar normalar aşağıdakı kimi təsbit olunur: *balıq* [balıx], *bucaq* [bucax], *buruq* [burux], *qonaq* [qonax], *otaq* [otax], *yanacaq* [yanacax]; *qonaq sözü* [qonax sözü], *qonaq-qara* [qonax-qara] və s. *K* saitinin tələffüzündə isə norma aşağıdakı kimi təyin edilir: *dirrik* [dirrux/], *ərik* [ərux/], *köpük* [köpüx/], *ərik mürəkkəsi* [ərix/ mürəbbəsi], *köpük basmaq* [köpüx/ basmax] və s. [4].

Azərbaycan dilçiliyində yazılı ədəbi dilin icbari qaydalarla təsbit olunan normaları mövcuddur. Hər kəs bu normalardan istifadə edir və onu heç kəs poza bilməz. Vahid və sabit normalar təkcə sinxron informasiyaları tənzim etməklə məhdudlaşmır. Bu normalar dilin informasiya təminatçısı olmayıb xalqın mənəvi sərvətlərinin qoruyucusu, davam etdiricisidir. Norma sabitliyi ona görə qorunmalıdır ki, keçmişin, bu günün varisliyi gələcək nəsillərə maneəsiz çatdırıla bilsin.

İstifadə edilmiş ədəbiyyat

1. Abdullayev N. Azərbaycan dilinin müxtəsər orfoepiya lüğəti. Bakı,ADPU nəşr., 2013, 147 s.
2. Azərbaycan dilinin orfofoniya lüğəti. Bakı, Mütərcim, 2016, 1052 s.
3. Azərbaycan dilinin orfoepiya sözlüyü (lüğəti) red: M.Ş.Şirəliyev; M.B.Məmmədov: kayzen, az/blog/Mustafa-Adnan/16130/orfoepiya-lüğəti-azərbaycan dili-orfoepiyasının-əsas-prinsipləri.html.
4. "Azərbaycan dilinin orfoepiya normaları" Azərbaycan dilinin orfoepiya normaları: e-qanun.az/frame work/47674.
5. Dəmirçizadə Ə. Azərbaycan dili orfoepiyasının əsasları. Bakı, V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutu nəşr., 1969, 84 s.
6. Dəmirçizadə Ə. Müasir Azərbaycan dili. Bakı, Maarif, 1972, s.211.
7. Dəmirçizadə Ə. Müasir Azərbaycan dili. Bakı, Şərq-Qərb, 2007, 256 s.
8. Elm.info.az/yeni-neshrler/2888-azerbaycan-dilinin-orfofoni ya-lt.html.
9. Əfəndizadə Ə. Orfoqrafiya-orfoepiya lüğəti. Bakı, Azərnəşr, 1996, 144 s.
10. Heydərov R. Müasir Azərbaycan dili orfoepiyasının prinsiplərinin müəyyənləşdirilməsinə dair: kriteri. az /articlos/muasir-azerbaycan-dili-orfoepiyasının
11. Qazıyeva N. Tələffüzdən yazıya doğru. (Orfoepiya normalarını müəyyən edən meyarlar haqqında):525.az/news/206449-teleffuzden-yazıya-doğru-orfoepiya-n
12. Məmmədli İ. Orfoepiya normaları. // Müasir Azərbaycan dili. Üç cilddə, I c., Bakı, Elm, 2019, 735 s.
13. Məmmədli N., İmamquliyeva K. Azərbaycan dilinin yeni orfoepiya normaları haqqında. 08 aprel, 2022-ci il. old.muallim.edu.az/news.php?id=19918.
14. Salehova İ. Orfoepiya.//Müasir Azərbaycan dili. Üç cilddə, I c., Bakı, Elm, 2019, 735 s.
15. Veysəlli F. Fonetika və fonologiya məsələləri. Bakı, Maarif, 1993, 192 s.
16. Veysəlli F. Müasir Azərbaycan dilinin fonetikası. Bakı, mütərcim, 2018,160 s.

Разговорный язык в Азербайджани общие пробы и норму

Резюме

В статье говорится, что наши стабильные нормы не были полностью идентифицированы в словесном разговоре и не являются обязательными. Это очень важная проблема в наше время. Потому что информация Азербайджана имеет только потенциал для входа в международное информационное пространство не только на письменном языке, но и в международном информационном пространстве. Есть много причин отсутствия устных языковых стандартов. Самое главное, что словесный язык, устный язык, национальный язык, национальный язык, язык разговоров, язык разговоров, язык разговоров, язык разговоров, язык разговоров, устный язык, устный язык, устный язык, устный язык, не указаны. Во многих случаях существует словесный литературный язык, устный язык, устный разговорной язык, национальный язык, национальный язык, концепции народного языка, так что это использование концепций народного языка, и использование равномерного, стабильного, совершенного устного языка является практичным для создания практической трудности. Таким образом, ликвидация этого отдела следует считать одним из общих вопросов, стоящих перед лингвистикой.

Ключевые слова: устная речь, письменная литературная речь, принцип орфоэпии, правила произношения

Talking language in Azerbaijani general probems and norma

Summary

The article states that our stable norms have not been completely identified in the verbal conversation and are not compulsory. It is a very important issue in modern times. Because Azerbaijan's information has only a potential to enter the international information space, not only in written language, but also in the international information space. There are many reasons for the lack of oral language standards. The most important thing is that the verbal language, oral language language, national language, national language, talk language, talk language, talk language, talk language, talk language, oral language, oral language, oral language, oral language, are not specified. In many cases, there is a verbal literary language, oral language, oral spoken language, national language, national language, folk language concepts, so that these are the use of folk language concepts, and the use of uniform, stable, perfect oral language is practical to create a practical difficulty. Therefore, the elimination of this department should be considered one of the general issues facing the linguistics.

Key words: oral language, written literary language, orthoepy principle, pronunciation rules

Səma Elxan qızı Vəliyeva[17]

XƏBƏRİN MÜBTƏDA İLƏ ŞƏXSƏ GÖRƏ UZLAŞMASI ŞİFAHİ VƏ YAZILI ELEKTRON MEDİA VASİTƏLƏRİNİN LİNQVİSTİK MÜQAYİSƏSİ KONTEKSTİNDƏ

Giriş. Dildə gedən proseslərin tam və qabarıq ifadə edilməsi baxımından televiziyanın imkanları veb-saytlarla müqayisədə daha çoxdur. Veb-saytlar isə baş vermiş müxtəlif hadisələrlə bağlı yenilənən və son məlumatları əldə etmək, xəbərlərlə operativ bir şəkildə tanış olmaq imkanı verən onlayn mediadır. Bu gün medianın dil mühitində nəzərə çarpan bütün meyillər müasir Azərbaycan dilinin tərkib hissəsidir.Elektron media diskursunu qrammatik əsasın qorunub saxlanması, təbliği və inkişaf etdirilməsi istiqamətində vacib istinad olan qrammatik normadan kənarda təsəvvür etmək çətindir. Bu norma ilə tənzimlənmiş məsələlər içərisində predikativ və qeyri-predikativ birləşmələrin komponentləri arasında qurulan uzlaşma əlaqəsi mühüm yer tutur. Burada tabe (asılı) tərəf tabe edən (əsas) tərəflə həm şəxsə, həm də kəmiyyətə görə uyğunlaşdırılır.

Əsas hissə. Predikativ tərkiblərdə şəxsə görə uzlaşma dedikdə mübtəda və xəbər arasındakı münasibət nəzərdə tutulur və onun cümlədə əsas göstəriciləri xəbərlik və şəxs şəkilçiləridir. *"Bu əlaqədə əsas tərəf mübtədadır. Mübtəda hansı şəxsdə olsa, xəbər də həmin şəxsdə olur və həmin şəxsin şəkilçisini qəbul edərək onunla uzlaşır. Mübtəda tək olduqda xəbər də tək, cəm olduqda xəbər də cəm olur"* [2, s. 23]. Sadə dillə desək, mübtədası I şəxsin təki ilə ifadə edilən bir cümlədə xəbər də ona uyğun müəyyənləşdirilir, yaxud əsas tərəfi "sən" şəxs əvəzliyi ilə ifadə olunan cümlənin asılı tərəfi II şəxs sonluğunu qəbul edir:

*""Dikdaban" –26.05.2021 – 11:02:55 – aparıcı – **Mən** hər zaman Botanikabağına **yollanıram**..."*[5, s. 77].

*""Evimizdə" – 30.05.2021 – 10:33:16 – aparıcı – **Mən** də burada **dayanacağam**"* [5, s. 47].

*""Həmin Zaur" – 30.04.2021 – 21:02:55 – aparıcı – ...**mən** ali **təhsilliyəm**, mənim musiqi təhsilim var"* [5, s. 207].

Nümunələrdə fərqləndirilmiş bütün xəbərlərin (yollanıram, dayanacağam, təhsilliyəm) mübtəda ilə tam uzlaşdığını görürük. Belə ki, cümlələrin istər feil zamanlarına müvafiq şəxs şəkilçiləri ilə düzələn feili xəbərləri (yollanıram, dayanacağam), istərsə də xəbərlik kateqoriyasının göstəricisi ilə formalaşan ismi xəbəri (təhsilliyəm) "mən" şəxs əvəzliyi ilə ifadə olunan mübtədanın uzlaşma tələblərinə tam uyğundur.

Televiziya və veb-saytların dilindən topladığımız digər nümunələrə də nəzər salaq:

*""Şəxsən siz" – 29.05.2021 – 22:33:34 – aparıcı – **Sən** aktyorlarla işə daha çox **üstünlük verirsən**..."* [5, s. 47].

*""Yeraltı" – 08.05.2021 – 23:34:50 – aparıcı – **Sən** bu ideyanı **düşündün**..."* [5, s.89].

*""Bizimləsən" – 25.05.2021 – 16:38:34 – ekspert – ... **sən** başqa cür **hərəkət etməlisən**"* [5, s. 266].

*""**Sən** məndən **yaxşısan**...", – deyə o bildirib"* [3, s. 224].

Bu cümlələrdə də II şəxsin təki ilə ifadə olunan əsas tərəflərin asılı tərəflərin şəkilçi seçimində əsaslı rol oynadığını görürük. İstər keçmiş zamanda (düşündün), istər indiki zamanda (üstünlük verirsən), istər vacib şəklində (hərəkət etməlisən) olan, istərsə də sifətlə ifadə edilən (yaxşısan) xəbərlərin hər biri II şəxs təkinin şəxs şəkilçisini qəbul edib.

Mübtəda I və II şəxslərin cəmi ("biz" və ya "siz" əvəzliyi) ilə ifadə olunduqda da xəbərlə tam – yəni həm şəxsə, həm də kəmiyyətə görə uzlaşır:

*""Favorit" – 15.05.2021 – 21:33:30 – qonaq – **Biz** də primyer liqada **qaldıq**"* [5, s. 116].

*""Ana-bala" – 01.05.2021 – 12:04:14 – aparıcı – ... ona görə **biz** uşaqlarımıza paylaşmağı **öyrətməliyik**"* [5, s. 467].

*""Səhərçağı" – 26.05.2021 – 09:18:10 – qonaq – ... **siz** bir **menecersiniz**"* [5, s. 160].

*""Səhər-səhər" – 08.05.2021 – 09:44:16 – aparıcı – Düzdür, **mən bilmirdim**, **sizharadasınız**..."* [5, s. 189].

Göründüyü kimi, bu nümunələrdə də uzlaşma tamdır, xəbərlər (qaldıq, öyrətməliyik, menecersiniz, bilmirdim, haradasınız) müxtəlif zamanlarda (bilmirdim, qaldıq), müxtəlif şəkillərdə (qaldıq, öyrətməliyik) olan feillərlə, eləcə də xəbərlik şəkilçisi ilə düzəlmiş adlarla (menecersiniz, haradasınız) ifadə olunsa belə, mübtədalarla (biz, siz) həm şəxsə, həm də kəmiyyətə görə uzlaşmışdır. Sonuncu cümlədə diqqətçəkən məqamlardan biri mürəkkəb cümlə tərkibindəki iki xəbərin iki müxtəlif mübtədanın tələbi ilə fərqli şəkilçilər qəbul etməsidir (mən bilmirdim; siz haradasınız).

Mübtəda III şəxsin təkində olduğu zaman da uzlaşma əlaqəsi gözlənilir. Bu həm "o" şəxs əvəzliyi ilə, həm də III şəxs məzmunu daşıyan sözlərlə ifadə olunan mübtədalar üçün keçərlidir:

*"**O**, elm sahəsində xüsusi fərqləndiyinə görə bu mükafatla **təltif olunub**"* [4, s. 553].

*"Bundan başqa, **o**, BAFTA və "Qızıl qlobus" mükafatlarının da **sahibidir**"* [3, s. 185].

Qeyd edək ki, nümunələrdə digər səviyyələr üzrə aşkarlanmış norma pozuntuları redaktə olunmuş şəkildə təqdim edilmişdir. Göründüyü kimi, "təltif olunub", "sahibidir" sözləri əsas tərəf olan mübtəda ilə, yəni III şəxsin təkində olan "o" əvəzliyi ilə uzlaşmışdır.

*"**Babası** ... sevinc dolu təəssüratını **bölüşüb**"* [4, s. 370].

*""Gündəm" –29.04.2021 – 13:33:10 – aparıcı – Bir neçə sualımızı da **Fərid bəy cavablandırsın**..."* [5, s. 449].

*"... **Rəhim** özü hamıya **köməklik edirdi**"* [3, s. 104].

[17] AMEA Nəsimi adına Dilçilik İnstitutunun doktorantı **ORCID:** 0009-0006-3973-7773 semaveliyeva95@mail.ru

10.24412/2218-7588-2025-2-71-73

Yuxarıdakı cümlələrdə III şəxs məzmunu daşıyan "babası", "Fərid bəy" və "Rəhim" mübtədaları da müvafiq xəbərlərlə (bölüşüb, cavablandırsın, köməklik edirdi) işlədilmişdir. Bu tipli nümunələrdə uzlaşma yenə daimi xarakter daşıyır.

Eləcə də mübtəda üçüncü şəxsin cəmi ilə – "onlar" şəxs əvəzliyi və ya eyni məzmunu daşıyan müxtəlif sözlərlə (tələbələr, həkimlər, xilasedicilər və s.) ifadə olunarkən xəbərlə şəxsə görə uzlaşdığını, başqa sözlə, xəbərin də III şəxsdə olduğunu müsahidə edirik:

*"... **onlar** Nişantaşı Universitetində tam pulsuz **təhsil alacaqlar**"* [4, s. 307].

*"**Onlar** səviyyəni qaldırmalı, xəbərdarlıqdan sonra yüksək nəticə əldə etmək üçün **çalışmalıdır**"* [3, s. 284].

Göründüyü kimi, bu kontekstdə kəmiyyətə görə uzlaşma sabit deyil. Belə ki, xəbər III şəxsin həm cəmində, həm təkində işlədilə bilir. Təkdə olan xəbər kəmiyyətə görə uzlaşmanı pozur, yalnız şəxsə görə olan uzlaşma isə yarımçıq xarakter daşıyır. Məsələn, yuxarıdakı birinci nümunədə xəbər mübtəda ilə tam (Onlar təhsil alacaqlar), ikinci nümunədə isə yarımçıq (Onlar çalışmalıdır) uzlaşmışdır.

III şəxsin cəmində kəmiyyətcə uzlaşmanın bir neçə prinsipi və həmin prinsiplərdən irəli gələn müxtəlif formaları olduğundan bu haqda başqa məqalədə geniş bəhs etmişik.

Şəkilçilərin ümumi təhlilindən aydın olur ki, adlara artırılan xəbərlik şəkilçiləri ilə feilin şəxs şəkilçiləri formal və fonetik tərkibcə, demək olar ki, eynidir. Belə ki, yuxarıdakı cümlələrdə rast gəldiyimiz "dayanacağam", "bilməyəcəyik", "üstünlük verirsən" feillərinin -am, -ik, -sən şəxs şəkilçiləri ilə "hazıram", "müəllimik", "səliqəlisən" sözlərindəki -am, -ik, -sən şəkilçiləri quruluş baxımından fərqlənmir. Semantik olaraq isə birinci qrupdakılar hərəkətin, ikinci qrupdakılar əşyanın şəxslərlə əlaqəli münasibətinə uyğundur. Məsələn, aşağıdakı cümlədə quruluşca eyni olsa da, məna cəhətdən fərqlənən iki şəkilçi (-sınız) bir nümunədə işlədilib:

"Sən hələ çox cavansan, ona görə belə bir hal yaşamamısan" [danışıq dilində].

Göründüyü kimi, "cavansan" sözündə işlənən şəkilçi (-san) əlamətin, "yaşamamısan" feilindəki sonluq (-san) isə hal və hərəkətin müvafiq şəxslə (sən) bağlı əlaqəsini müəyyənləşdirir.

Müxtəlif şəxslər üzrə sabit göstəricilərə malik olan bu münasibət yazılı elektron media vasitəsi sayılan veb-saytların dilində əsasən qorunur: mübtədası I və II şəxslərin təki və cəmi, eləcə də III şəxsin təki ilə bağlı olan cümlələrin xəbərləri müvafiq şəxs şəkilçiləri qəbul edərək onlarla uzlaşır. *"Tabe edən tərəf hansı şəxsə aiddirsə, tabe tərəf də həmin şəxsə məxsus qrammatik əlamətlər qəbul edir, tabe edən tərəfin tək və cəmliyi də tabe tərəfdə əks olunur"* [1, s. 24]. Bununla belə, medianın yazılı qolu olan veb-saytların dilində mübtəda ilə xəbəri şəxsə görə uzlaşmayan nümunələrə (az da olsa) rast gəldik. Seçilmiş cümlələrdə qalın şriftlə fərqləndirilən xəbərlərdən birincisi qrammatik qüsur, ikincisi isə onun düzgün variantıdır:

*"... turistlər ölkəyə vizasız gedə biləcəklər və artıq turizm agentliyinə müraciət etməyə ehtiyac **qalmayacaqlar (qalmayacaq)**"* [3, s. 242].

*"Bizim şən və mehriban kollektivimizə, həmçinin dolğun korporativ həyatımıza qoşulmaq istəyirsinizsə, linkə daxil olaraq vakansiyaya müraciət edə **bilərlər (bilərsiniz)**"*[4, s. 309].

*"Ətrafdan, doğmalardan diqqət tələb edin, arzularınızı bildirin, ya da heç olmasa sizi narahat **etməsin (etməsinlər)**"* [4, s. 381].

Görünür, qısa vaxt ərzində hazırlanılıb, redaktə edilmədən paylaşılan bu nümunələrin hər birində bir neçə fikrin ifadə olunması yazı müəlliflərinə müvafiq xəbəri seçməkdə çətinlik yaradıb, bununla da cümlələrin mübtəda – xəbər rabitəsi itib.

Şifahi və yazılı elektron media vasitələrinin linqvistik təhlili kontekstində televiziyanın dili üçün eyni fikri (şəxsə görə uzlaşma münasibətlərinin, demək olar ki, tam qorunması) söyləyə bilmirik. Monitorinq nəticələri göstərir ki, bəzi televiziya aparıcıları nitqimizdə tam sabitləşmiş və artıq qanun halını almış bu sintaktik əlaqənin şərtlərini pozur, cümlədə uzlaşmanın əsas morfoloji göstəricisi sayılan şəxs şəkilçilərini qarışdırırlar:

*""Səni axtarıram" – 26.05.2021 – 17:35:28 – aparıcı – İndi **mən** də sizin həyat yoldaşınızla bağlı bir araşdırmaya **başladıq**"* [5, s. 317].

*""İTV xəbər" – 13.05.2021 – 21:13:19 – aparıcı – **Biz** də Ramazan bayramınızı təbrik edir, daim sülh içində yaşamağınızı **diləyirəm**"* [5, s. 100].

*""İzzət şou" – 14.05.2021 – 21:09:28 – aparıcı – **Biz** ikinci qonağımızı **dəvəteləyim**"* [5, s. 385].

*""Hər səhər" – 26.04.2021 – 08:41:43 – aparıcı – **Siz** də arxivinizi **açaq**, biz də arxivimizi açaq"* [5, s. 459].

Cümlələrdə bariz gözə çarpan "mən başladıq", "biz diləyirəm", "biz dəvət eləyim", "siz açaq" kimi formalar kobud nitq qüsurları olmaqla yanaşı, qrammatik normanın müasir tətbiq vəziyyəti üçün də ciddi təhdiddir.Bu nümunələrin canlı danışıq, şifahi nitq faktı olması onların belə kobud qüsurlarla işlədilməsinə haqq qazandıra bilməz. Unutmaq olmaz ki, qrammatik normanın tələblərini qorumaq, xüsusilə televiziya kimi geniş auditoriyası olan bir məkanda düzgün təbliğ etmək olduqca vacibdir.

Nəticə. Beləliklə, xəbərin mübtəda ilə şəxsə görə uzlaşmasının şifahi və yazılı elektron media vasitələrinin linqvistik müqayisəsi kontekstində təhlilindən əldə etdiyimiz nəticələri aşağıdakı kimi ümumiləşdirə bilərik:

1. Mübtəda – xəbər uzlaşması qrammatik normanın əsas prinsiplərindən biri olmaqla yanaşı, sintaktik əlaqələrin şifahi və yazılı nitq formalarındakı fəaliyyətini də əks etdirir.

2. Xəbərin mübtəda ilə şəxsə görə uzlaşması təkcə tabelilik əlaqəsinin tələblərinə yox, eləcə də dil – təfəkkür vəhdətinin ayrılmazlığına əsaslanır.

3. Televiziya şifahi, onlayn media yazılı elekron media vasitəsi olduğundan birinci dilin qrammatik

xüsusiyyətlərini şifahi, sonuncu isə yazılı nitq prosesində nümayiş etdirir.

4. Televiziyanın dilində mübtəda və xəbər uzlaşması istiqamətində aşkarlanan qüsurların sayı veb-saytların dilində eyni istiqamətdə aşkarlanmış qüsurların sayından xeyli çoxdur.

5. Qrammatik normanın təbliği, həmçinin müasir nitq problemlərinin effektiv həllində hər iki media vasitəsinin xidməti danılmazdır.

İstifadə edilmiş ədəbiyyat

1. Abdullayev Ə., Seyidov Y., Həsənov A. Müasir Azərbaycan dili. IV hissə. Sintaksis. Bakı: Şərq - Qərb, 2007, 424 s.
2. Kazımov Q. Müasir Azərbaycan dili. Sintaksis. Bakı: Elm və təhsil, 2010, 500 s.
3. Saytlarımız monitorinq aynasında.Bakı: Təhsil,2023, 456 s.
4. Saytların monitorinqi ilə bağlı hesabat: (daxili istifadə üçün).Bakı: Elm və təhsil, 2021,600 s.
5. Televiziyaların dili monitorinq aynasında. Bakı: Elm və təhsil, 2022, 512 s.

Açar sözlər: qrammatik norma, mübtəda, xəbər, şəxsə görə uzlaşma, televizivanın dili, veb-savtların dili.

Keywords: grammatical norm, subject, predicate, agreement in terms of person,the language of television, the language of websites.

Ключевые слова: грамматическая норма, подлежащее, сказуемое, согласование в лице, язык телевидения, язык веб-сайтов.

Agreement of the predicate with the subject in the context of linguistic comparison of oral and written electronic media

Summary

Electronic media, which have gone through a certain path of development in the media environment and have become an integral part of our lives, demonstrate the current state of the use of the Azerbaijani state language. It can also be considered an important platform for determining the extent to which the established norms and principles of our literary language are preserved today.

The article examines the agreement of the predicate with the subject in person as one of the conditions of the grammatical norm. Factors affecting the agreement – the means of expression of the subject, the personal endings of predicate, as well as factors that disrupt the agreement – the incorrect and inappropriate use of suffixes, and the failure to select the appropriate predicate – were interpreted in a paradigmatic manner. Selected examples from television broadcasts and websites were analyzed in the context of a linguistic comparison of oral and written electronic media.

Согласование сказуемого с подлежащим в контексте лингвистического сопоставления устных и письменных электронных сми

Резюме

Электронные СМИ, прошедшие определенный путь развития в медиасреде и ставшие неотъемлемой частью нашей жизни, демонстрирует современное состояние применение азербайджанского государственного языка. Его также можно считать важной платформой в сегодняшние дни для определения сохранения устоявшихся норм и принципов нашего литературного языка.

В статье исследуются согласование сказуемого с подлежащим по лицу как одним из условий грамматической нормы. Факторы, влияющие на согласование – способы выражения подлежащих, окончания личных сказуемых, а также факторы, нарушающие согласование – неправильное и неподходящее использование суффиксов, отсутствие выбора подходящего сказуемого – были интерпретированы в парадигматическим образом. Отдельные примеры из телепередач и веб-сайтов были проанализированы в контексте лингвистического сравнения устных и письменных электронных СМИ.

Rəyçi: filologiya üzrə fəlsəfə doktoru, dosent Güntəkin Binnətova

Balabəyim Həsənəli qızı Qədimova[18]. Səfayə Sadıq qızı Sadıqova[19]

KLASSİK ƏDƏBİYYATDA İSTİFADƏ OLUNMUŞ ARXAİK SÖZLƏRİN LEKSİK-SEMANTİK FUNKSİYALARI VƏ ÜSLUBİ ÇALARLARI

Arxaizmlər dilin inkişafı prosesində daha əvvəl istifadə olunan, lakin artıq gündəlik danışıqda yerini müasir ifadələrə və terminlərə vermiş sözlərdir. Bu sözlər dilin tarixi keçmişinin bir hissəsini təşkil edir və onların analizi dilin dəyişmə proseslərini başa düşmək üçün əhəmiyyətlidir. Arxaizmlər dilin inkişafını izləməkdə, dilin fonetik, qrammatik və leksik cəhətlərini anlamaqda mühüm rol oynayır. Klassik ədəbiyyatda arxaizmlər istifadə edilərkən, bu sözlər adətən müəyyən dövrün atmosferini yaratmaq, dövrün sosial-iqtisadi və mədəni həyatını əks etdirmək, həmçinin bədii təxəyyülün yaratdığı təsirləri gücləndirmək məqsədini daşıyır. Arxaizm, eyni zamanda dilin tarixi təbəqələrinin müxtəlifliyi ilə bağlı dərin mənalar və çağırışlar təqdim edir [1, s. 89].

Klassik ədəbiyyatda arxaizmlər dövrün mədəniyyətini və sosial strukturunu əks etdirən bir vasitə kimi çıxış edir. Məsələn, XVIII əsrin klassik ədəbiyyatında və ya mədəni elitanın həyatını təqdim edərkən istifadə edilən müəyyən arxaik ifadələr, həmin dövrün dili ilə bağlı bir fikir verə bilər. Bu sözlər ədəbi əsərlərdəki zamanın kontekstini anlamağa imkan yaradır və oxucuya həmin dövrün həyat tərzini daha canlı bir şəkildə göstərir. Füzulinin "Su" qəsidəsi əsərində "padişah" və ya "xan" kimi arxaik sözlər müvafiq dövrün yüksək və təntənəli dilini əks etdirir və oxucuya bu zamanın sosiomədəni reallıqlarını əks etdirir.

Arxaizmlər, həmçinin bədii əsərlərin poetik və estetik funksiyasını gücləndirir. Arxaik sözlərin istifadəsi, klassik ədəbiyyatda yüksək ton yaratmağa və ədəbi üslubun qətiyyətini formalaşdırmağa kömək edir. Bu cür sözlər, əsərin bir hissəsi kimi, yalnız dövrün deyil, həm də onun mədəni-estetik nəzəriyyəsini ortaya qoyur. Bu da poetik və estetik təbəqələrə birbaşa təsir göstərir. Məsələn, Xəyyamın "Rubaiyyat" əsərində arxaik "xəzinə", "ağrı", "bağ" və digər sözlər onun əsərlərindəki böyük bir poetik ruhu və təsəvvürün dərinliyini ortaya qoyur. Burada arxaizm yalnız dilin tarixi ilə deyil, həm də poetik ifadə tərzinin, duyğuların ifadə olunma formasının nümayiş etdirilməsinə xidmət edir. Arxaizmlər bəzən bir sözün gündəlik mənasından daha dərin bir simvolik məna daşır. Məsələn, "xəlq" və ya "dünya" kimi sözlər, müəyyən dövrün ideologiyasına görə yalnız bir məna deyil, daha geniş və fəlsəfi mənalar kəsb edir. Klassik ədəbiyyatın müəllifləri arxaizmə müraciət edərək, dilin gündəlik istifadəsindən kənara çıxaraq, çox qatlı mənalar yaratmış və bu yolla oxucunun mətnə daxil olmasını təmin etmişdir. Məsələn, Nizami Gəncəvi "*Xosrov və Şirin*" əsərində "şərq" və "qərb" anlayışlarını arxaik şəkildə işlədərək, yalnız coğrafi deyil, həm də ideoloji və mədəni qarşıdurmanı simvollaşdırır. Bu sözlər, mətnin daha geniş fəlsəfi və məntiqi mənasını oxucuya çatdırır.

Arxaizmlər yalnız dilin tarixi keçmişini əks etdirmir, həm də müxtəlif sosial və mədəni təbəqələrin dilini tanımağa kömək edir. Klassik ədəbiyyatda aristokratik və kəndli təbəqələrinin dillərində istifadə olunan arxaik sözlər onların sosial mövqeyini və həyat tərzini daha yaxşı anlamağa imkan verir. Burada arxaizm, həm də müəllifin öz mövqeyini və dövrün ideoloji təsirini ifadə etmək üçün istifadə etdiyi bir vasitədir. Məsələn, "Divanü Lüğat-it-türk" əsərindəki arxaik türk sözləri dilin keçmişini göstərməklə yanaşı, həm də türk xalqlarının mədəni kimliyini, sosial quruluşunu və gündəlik həyatlarını əks etdirir. Bu sözlər bir çox anlamlı metaforalara və simvollara bürünərək oxucunun düşüncə sistemini formalaşdırır.

Klassik ədəbiyyatda arxaizm bəzən təntənəli və rəsmi üslub yaratmaq məqsədilə istifadə edilir. Bu zaman arxaik sözlər, əsərin daha əzəmətli və möhtəşəm bir üslubda təqdim olunmasına imkan verir. Belə sözlər əsərin başlıca ideyasını vurğulamaq və oxucunun nəzərində müvafiq dövrün ağırlığını və əzəmətini yaratmaq üçün işlədilir. Süleyman Çelebinin "*Vəsilet-ün-Necat*" əsərindəki arxaik "həmd", "məhəbbət", "nəfəs" və digər sözlər onun dini və əxlaqi təlimlərini təntənəli və yüksək bir dildə ifadə etməyə xidmət edir.

Əsərlərdə arxaik sözlərin istifadə edilməsi, onları mətnin ümumi ruhuna uyğunlaşdıraraq, müəyyən bir təntənə və əzəmət yaratmağa kömək edir. Dövrün ideologiyasını əks etdirən sözlər bədii əsərlərdə yalnız tarixi təsvirdən daha çox, mövzuya uyğun olaraq ideoloji təsir də göstərir. Bəzi hallarda, klassik ədəbiyyatda arxaizmin istifadəsi ironik və ya satirik bir təsir yaratmaq üçün də istifadə edilir. Arxaik sözlər əsərdəki müxtəlif obrazların xarakterlərini və mövqelərini oxucunun diqqətinə çatdırmaqla yanaşı, bəzən həm də tənqid və ironiya məqsədini güdür. Məsələn, oxucuya satirik məzmun təqdim etmək məqsədilə, artıq dövrlə əlaqəli olan və müasir oxucu üçün qəribə görünən arxaik ifadələrdən istifadə olunur. Bu, oxucuda müəyyən bir məsxərə və ya ikili mənaya səbəb olur.

Klassik ədəbiyyatın bəzi əsərlərində arxaizm, yalnız bir üslub texnikası olmaqdan çıxaraq, həm də əsərin mədəni və tarixi hissiyatını gücləndirmək üçün istifadə olunur. Arxaik sözlərin işlədilməsi, əsərin keçmiş dövrə aid olduğunu və həmin dövrün dəyərlərini qoruduğunu nümayiş etdirir. Arxaik sözlərin istifadəsi, oxucuda müxtəlif duyğuların və təsəvvürlərin yaranmasına səbəb olur. Belə sözlər vasitəsilə yazılmış əsərlər, bir tərəfdən müasir oxucu üçün zamandan uzaqda qalan bir keçmişi və mədəniyyəti təqdim edir, digər tərəfdən isə həmin dövrün estetik təsirlərini və üslubunu əks etdirir. Arxaik sözlər, oxucunun daha qədim zamanlara səyahət etməsini təmin edir, həmçinin həmin dövrün estetik gözləntiləri ilə üzləşməsinə səbəb olur.

Beləliklə, aydın olur ki, klassik ədəbiyyatda işlənmiş arxaik sözlərin leksik-semantik funksiyaları və üslubi çalarları dilin tarixi inkişafını göstərməklə yanaşı, ədəbi əsərlərin müasir oxucular üzərində yaratdığı estetik təsiri də

[18]BDU-nun Qazax filialının Dil, ədəbiyyat və onların tədrisi metodikası kafedrasının baş müəllimi. beyim.qedimova@mail.ru
[19] BDU-nun Qazax filialının Dil, ədəbiyyat və onların tədrisi metodikası kafedrasının baş müəllimi. sefayesadiqova@gmail.com
10.24412/2218-7588-2025-2-74-77

ortaya qoyur. Arxaizm, bədii əsərlərdə yalnız dilin tarixi təbəqələrini əks etdirmək deyil, həm də müəllifin ideyalarını, mövzularını və emosional vurğularını çatdırmaq üçün mühüm bir vasitədir. Bu cür sözlərin istifadəsi, həm dövrün sosial və mədəni həyatını anlamağa, həm də əsərin sənətkarlığını daha yaxşı dərk etməyə kömək edir. Arxaizm həmçinin üslubun zənginliyini artırır və oxucunun əsərlə olan əlaqəsini daha dərinləşdirir.

Klassik dövrdə arxaizmlərin rast gəlindiyi ən zəngin nümunələr Nəsimi və Füzulinin yaradıcılığıdır. Nəsimi şeirində arxaizm, yalnız bir dil vasitəsi deyil, həm də poetik və fəlsəfi təsiri gücləndirən bir vasitədir. Onun şeirlərində istifadə edilən arxaik sözlər çox vaxt mistik və simvolik mənalar daşır, həmçinin poetik ifadənin dərinliyini artırır. Bu sözlər Nəsimi poeziyasının tarixi və fəlsəfi kontekstini daha aydın göstərmək məqsədini daşıyır. Nəsimi şeirlərindəki arxaizm, həm də onun dövrün ənənəvi dilini yaşatmaq, Sufi fəlsəfəsinin dərdlərini, ilahi eşqin ifadəsini və insanın məhəbbətə olan sonsuz arzusunu təsvir etmək məqsədini güdür.

Nəsimi şeirlərindəki arxaik sözlər bir çox leksik-semantik funksiyanı yerinə yetirir. Bu funksiyalar, həm şeirə dərin məna qatları əlavə edir, həm də dövrün ideoloji və mədəni reallıqlarını əks etdirir. Arxaik sözlər Nəsimi şeirlərində zamanın sosial və mədəni mühitini əks etdirir. Nəsimi dövrünün ideoloji baxışlarını, Sufi mədəniyyətini və dini təfəkküründü dil vasitəsilə öz şeirlərində təsvir edir. Bu zamanın dərinliyini anlamağa kömək edən arxaik sözlər, həm də dövrün sosial əlaqələrini, təfəkkür və mənəviyyatını yansıdan bir vasitə olur. Məsələn,

Səni *səndən başqa* görüb, könlüm fələkdən *xar* olub,

Ona bir baxış yetirən gözlər, dünya malından sorub [2, s. 142].

Bu beytin əsas məğzi "eşqin ilahi təbiətini" vurğulamaqdır, yəni insanın məhəbbətə olan münasibəti Allahın gözəl yaradılışına duyduğu aşiqcə bir sevgi kimi göstərilir. Nəsimi həm hürufilik ideyalarını, həm də ilahi eşqi bədii şəkildə ifadə edir.

Nəsimi şeirlərində istifadə edilən arxaik sözlər çox vaxt sadə mənadan daha dərin və simvolik məna kəsb edir. Belə sözlər, şairin fəlsəfi və mistik baxışlarını çatdırmağa, onun özünü tanıma və ilahi eşqə olan təsəvvürlərini əks etdirməyə xidmət edir. Burada sözlərin semantik yükü, yalnız gündəlik istifadə məqsədini aşaraq, poetik və fəlsəfi bir anlam qazanır. Məsələn, "nur", "işıq", "həqiqət", "ruh" kimi sözlər, Nəsimi poeziyasının əsas fəlsəfi və ideoloji sütunlarını təşkil edir. Bu sözlər, Nəsiminin şeirlərində təkcə ilahi və insanı birləşdirən ali məna daşıyır, həm də simvolik olaraq insanın yüksək məqsədlərə çatmaq üçün üzləşdiyi mənəvi mübarizəni təmsil edir.

Arxaizmlər Nəsimi şeirində yalnız mənalı deyil, həm də poetik bir funksiyanı yerinə yetirir. Onun şeirlərindəki arxaik sözlər, dilin poetik təfəkküründü yaratmaq və oxucuya xüsusi bir əhval-ruhiyyə vermək məqsədini güdür. Bu sözlər, həm də şeirə müəyyən bir ölçü və melodik struktur qazandırır. Məsələn, Nəsiminin məşhur "Ey qədrin gözəlliyi" misrasında "qədr" və "gözəllik" kimi arxaik sözlər, həm poetik, həm də fəlsəfi bir dərinlik yaradır. Bu cür sözlər şeirin tonunu və estetik təsirini gücləndirir.

Arxaik sözlər Nəsimi şeirlərində dini məna daşımaqla yanaşı, Sufi fəlsəfəsinin əsas anlayışlarını da təmsil edir. Sufizm, ilahi eşqin, insanın öz iç dünyasını kəşf etməsinin və Allahla birləşməsinin təbliğidir. Arxaizmlər bu məqamlarda fikrin fəlsəfi ifadəsini artırır, məsələn:

Həqiqət- Nəsimi qəzəllərində "həqiqət" sözü yalnız faktiki və ya real mənada deyil, həm də mistik və dini mənada istifadə edilir. Bu, insanın Tanrı ilə birləşməsi, əsl gerçəklik və insanın daxili aləmi ilə əlaqədar dərin bir anlayışdır.

Sirri-həqiqət- Bu ifadə, ilahi sırların və həqiqətin dərinliklərinə nüfuz etməyi simvolizə edir.

Nur- İlahi işıq və Tanrının işığı ilə əlaqəli olaraq istifadə edilən bu söz, həm də insan ruhunun saflaşmasını və ilahi yolda irəliləməsini təmsil edir.

Nəsimi yaradıcılığında arxaizm yalnız leksik olaraq istifadə edilmir, həm də şeirinin üslubunun əsasını təşkil edir. Bu sözlər Nəsimi poeziyasının rəsmi və fəlsəfi üslubunu gücləndirir və oxucuda dərin düşüncələr oyadır.

İncitmə, məni canımdan başqa bir dərdə salma,

Sözün nədir ki, mənə ölümlə nəyi təklif edəsən? [2, s. 197].

Burada "söz" ifadən, dediklərin mənasında işlənib. Arxaik sözlər şeirlərin müxtəlif təbəqələrində çox vaxt simvolik və fəlsəfi məna daşımaqla yanaşı, həm də əsərin estetik təsirini artırır. Onlar Nəsiminin şeirinə həm şairin öz zamanına olan bağlılığını, həm də onun ideoloji baxışlarını təqdim edir. Məsələn:

Şəms- **"**Şəms" sözü Nəsimi üçün yalnız bir günəş, bir ulduz deyil, ilahi eşqin simvoludur. Arxaik anlamda, bu, həm də bir mənəvi rəhbərin (məsələn, Şəms Təbriz) təsiri ilə insanın ruhani yolunun işıqlandırılması deməkdir.

Qəm - Eşq və məhəbbət ilə əlaqədar olaraq istifadə edilən bu söz, həm də kədər və sevginin sanki əzab gətirən tərəfini simvolizə edir.

Nəsimi insanın Tanrı ilə birləşməsini ruhani bir təcrübə olaraq təsvir edir. Onun şeirlərində istifadə olunan arxaik sözlər, bu birləşmə yolunda qarşılaşılan maneələri və ruhun Tanrıya yaxınlaşma yolundakı mübarizəsini göstərir. Məsələn:

Can - Nəsimi poeziyasında "can" sözü, təkcə bədənin həyat enerjisi deyil, həm də ruhun və əzəli mövcudluğun simvoludur. "Can" burada insanın Allah ilə birləşmək arzusunun, Tanrıya qovuşma istəyinin bir ifadəsi olaraq işlənir.

Ruh - "Ruh" sözü Nəsimi şeirində yalnız bioloji anlamda deyil, həm də ilahi mənada, insanın əbədi olan hissəsinin simvoludur.

Arxaik sözlər Nəsimi qəzəllərində poetik funksiyanı yerinə yetirir, yəni ritm və musiqilik yaradır, şeirin estetik gözəlliyini artırır. Həm də bu sözlər, şeirə xüsusi bir aura və mənəvi dərinlik verir. Nəsimi bu sözləri oxucunun şeirə daha dərindən nüfuz etməsini təmin edəcək şəkildə yerləşdirir. Məsələn:

Mey - Bu, həm məcaz mənada şərab, həm də ilahi sevgiyə batmış bir vəziyyəti təsvir edir. Şairin içkiyə olan ehtirası burada, bədənin deyil, ruhun şərabından bəhs edir. "Mey" sözü həm də şeirə xüsusi bir simvolizm qatır.

Sübh - Bu söz həm zaman anlayışını, həm də işıq və aydınlıqla bağlı bir məcaz anlamı daşıyır. Nəsimi bu sözü şeirində ilahi gerçəkliklərin ortaya çıxmasını simvolizə etmək üçün istifadə edir.

Nəsimi yaradıcılığında arxaik sözlərin istifadəsi, yalnız dilin tarixi və mədəniyyətinin izahını vermir, həm də onun fəlsəfi və poetik düşüncələrini açıq şəkildə təqdim edir. Bu sözlər, həmçinin Nəsiminin Sufi təlimlərinə olan bağlılığını və ilahi eşqi izah etməsini təmin edir. Arxaizmlər Nəsimi şeirində həm dilin inkişafını izləmək, həm də poetik atmosfer yaratmaq baxımından böyük əhəmiyyət kəsb edir.

Səni *səndən başqa* görüb, könlümfələkdən *xar* olub,
Ona bir baxış yetirən gözlər, dünya malından sorub [2, s. 131].

Füzulinin əsərlərində işlənən arxaik sözlərin leksik-semantik funksiyaları müxtəlif istiqamətlərdə özünü göstərir. Bu funksiyalar yalnız poetik ifadənin zənginləşdirilməsi ilə bağlı deyil, həm də şairin fəlsəfi və ideoloji baxışlarını izah etməklə əlaqədardır. Füzulinin şeirlərində işlənən arxaik sözlər, dövrün sosial, mədəni və dini strukturunu əks etdirir. Füzuli dil vasitəsilə yalnız özünün təfəkkürünü deyil, həm də zamanın ideoloji vəziyyətini və mədəniyyətini öz əsərlərində yaşadır.

*Bənd*imə *təriqət* həmişə aydın olub,
Sənin lə hər bir işim, əslində yaram olub.

Füzulinin yaradıcılığında arxaik sözlər yalnız dilin tarixi və mədəniyyətini əks etdirmək üçün deyil, həm də poetik, fəlsəfi və estetik məqsədləri yerinə yetirmək üçün istifadə edilir. Bu sözlər şairin təfəkkürünü, fəlsəfi baxışlarını və dünyagörüşünü daha dərindən ifadə etməyə imkan verir. Arxaizmlər Füzuli şeirinin dili və üslubu ilə əlaqəli mühüm bir komponentdir. Onun əsərlərindəki arxaik sözlər, təkcə dilin tarixi qatlarını deyil, həm də Sufi təlimlərinin, mistik anlayışların və insanın Allahla birləşmə yolunun poetik ifadəsini əks etdirir. Bu məqalə, Füzuli yaradıcılığında arxaik sözlərin leksik-semantik funksiyalarını və onların şeir dilindəki mühüm yerini təhlil etməklə, şairin ədəbi irsinin dərinliyinə daha yaxından nəzər salmağa imkan yaradır.

Mən mübtəlayı eşqəm, *eləmmə* məni, *eləmmə*!
Alovlara bürünmüşəm, *sönəmmə* məni, *sönəmmə*! [3, s. 138].

Bu beytdə həm leksik, həm də morfoloji (*eləmmə, sönəmmə*) arxaizmlər var.

Füzuli qəzəllərində işlənən arxaizmlər bir neçə mühüm funksiyanı yerinə yetirir. Bu sözlər həm şeirə musiqiliyi və ritmik dərinlik əlavə edir, həm də şairin metafizik və mistik düşüncələrini daha təsirli şəkildə ifadə etməyə imkan verir. Arxaizmlər həm də şairin dövrünə və ədəbiyyatına olan bağlılığını, öz dövrü ilə əlaqəli bir poetik dilin qorunmasını göstərir.

Füzuli qəzəllərinin mərkəzində eşq və məcnun mövzusu durur. Arxaik sözlər bu mövzuların daha təsirli şəkildə ifadə olunmasına kömək edir. Eşq, həm Tanrıya olan eşq, həm də insanın gözəgörünməz dünyasına, ruhani birləşməyə doğru olan arzusudur. Füzuli bu mövzuları işləməklə, arxaik sözlərdən istifadə etməklə, şeirə daha çox mifik və simvolik dərinlik qatır.

Füzuli qəzəllərində arxaik sözlər, insanın ruhani yüksəlişinə və Tanrı ilə birliyə doğru olan səyahətini təsvir edir. Ruhani işıq və əbədi sevgiyə çatmaq, Füzuli poeziyasının əsas mövzularındandır. Füzuli qəzəllərində arxaik sözlər, həm də bir növ simvolik funksiyanı yerinə yetirir. Şairin dilində hər bir sözün özünəməxsus mənası var və bu sözlər, həm konkret mənada, həm də metaforik və simvolik şəkildə işlədilir. Məsələn, *Divan*- Füzuli şeirində, "divan" sözü yalnız məclis və ya yığıncaq mənasında deyil, həm də məcnun olan insanın dərdini çəkdiyi, Tanrıya olan sevgisini dərinləşdirdiyi bir məkan kimi istifadə edilir. *Zəhər*sözü də arxaik bir mənada işləndikdə, şairin eşqinin ağrılı, sızlayan, bəzən ölümə qədər gedən təsirini simvollaşdırır. Füzulinin şeirlərində eşq, həm həyatda, həm də ölümə doğru gedən yolda bir "zəhər" kimi təsvir edilir.

Füzuli qəzəllərində işlənən arxaizm, yalnız dilin tarixi xüsusiyyətlərini deyil, həm də şairin poetik məqsədini güdür. Bu sözlər şeirə xüsusi bir ritm və musiqilik gətirir, şeirə əhəmiyyətli bir emosional yüklənmə əlavə edir. Arxaizmlər Füzulinin əsərlərində həm də bir növ "təkrarlanan dərinlik" yaradır, yəni eyni məna bir neçə fərqli səviyyədə, müxtəlif simvollar və təsvirlər vasitəsilə oxucuya çatdırılır.

İstifadə edilmiş ədəbiyyat

1. Əfəndiyeva T. Azərbaycan dilinin leksik üslubiyyatı. Bakı: Elm, 1980, 249 s.
2. İmadəddin Nəsimi. Seçilmiş əsərləri. İki cilddə. II c. Bakı: Lider, 2004, 376 s.
3. Məhəmməd Füzuli. Əsərləri. Altı cilddə. I c. Bakı: Şərq-Qərb, 2005, 400 s.

Açar sözlər: arxaik sözlər, klassik ədəbiyyat, Nəsimi, Füzuli.
Ключевые слова: архаизмы, классическая литература, Насими, Физули.
Key words: archaic words, classical literature, Nasimi, Fizuli.

Xülasə

Klassik ədəbiyyat bədii və poetik xüsusiyyətləri ilə zəngin bir dövrü əhatə edir və dilin inkişafında əhəmiyyətli izlər buraxmışdır. Klassik ədəbiyyatın əsərlərində işlənmiş arxaik sözlər dövrün dil və üslub xüsusiyyətlərini, həmçinin cəmiyyətin və ədəbi mühitin dilə necə təsir etdiyini araşdırmağa imkan verir. Klassik ədəbiyyat əsərlərində bu cür sözlər yalnız dilin tarixi inkişafını əks etdirmir, həm də xüsusi leksik-semantik funksiyalar və üslubi çalarlar daşıyır. Bu

məqalədə klassik ədəbiyyatdakı arxaik sözlərin leksik-semantik funksiyaları, bu sözlərin üslubi çalarları və onların ədəbi əsərlərdə necə istifadə edildiyi məsələləri araşdırılacaqdır.

Лексико-семантические функции и стилистические оттенки архаизмов, используемых в классической литературе

Резюме

Классическая литература охватывает период, богатый художественными и поэтическими особенностями, и оставила значительный след в развитии языка. Архаичные слова, используемые в произведениях классической литературы, позволяют нам изучить лингвистические и стилистические особенности того периода, а также то, как общество и литературная среда влияли на язык. В произведениях классической литературы такие слова не только отражают историческое развитие языка, но и несут в себе особые лексико-семантические функции и стилистические оттенки. В статье будут рассмотрены лексико-семантические функции архаичных слов в классической литературе, стилистические оттенки этих слов и особенности их использования в литературных произведениях.

Lexical-semantic functions and stylistic shades of archaisms used in classical literature

Summary

Classical literature covers a period rich in artistic and poetic features and has left a significant mark on the development of the language. Archaic words used in classical literature allow us to study the linguistic and stylistic features of that period, as well as how society and the literary environment influenced the language. In classical literature, such words not only reflect the historical development of the language, but also carry special lexical-semantic functions and stylistic nuances. The article will consider the lexical-semantic functions of archaic words in classical literature, the stylistic nuances of these words and the features of their use in literary works.

RƏYÇİ:dos. E.Vəliyeva

Бабашова Халида Алаббас кызы[20]

ПРЕДЛОЖЕНИЕ КАК КОМПОНЕНТ ТЕКСТОВОЙ ЦЕЛОСТНОСТИ (материале русского и азербайджанского языков)

Введение. Современная лингвистика придаёт тексту статус высшей коммуникативной единицы языка, в которой наиболее ярко проявляются как системные, так и функциональные особенности речевой деятельности. Текст представляет собой сложное структурное образование, в котором отражаются прагматические установки говорящего, национальные особенности мышления, коммуникативные интенции, а также культурно-языковые традиции. В этом контексте предложение выступает не только как синтаксическая единица, но и как функциональный компонент, обеспечивающий логическую, смысловую и интонационную завершённость фрагмента речи.

Предложение выполняет в тексте роль конструктивного элемента, который не только передаёт информацию, но и реализует различные виды связей — тематических, логических, структурных. Оно может инициировать новый смысловой сегмент текста или завершать ранее начатую мысль, тем самым способствуя формированию когерентного дискурса. Исследование соотношения предложения и текста на материале двух типологически различных языков – русского и азербайджанского – позволяет выявить как универсальные, так и уникальные механизмы текстообразования, формируемые в пределах каждой языковой системы.

Особый интерес представляет сопоставительный аспект, позволяющий проследить, каким образом одни и те же коммуникативные задачи решаются средствами разных грамматических систем. В русском языке, как флективном, большую роль играют согласование, порядок слов и интонация. В агглютинативном азербайджанском языке преобладают морфологическая маркация, последовательное выражение отношений между членами предложения с помощью послелогов, а также использование постпозиционных структур.

Понятие предложения и текста является центральным в лингвистике, особенно в теории синтаксиса и текстоведения. Предложение рассматривается как минимальная единица синтаксической организации речи, способная выражать законченную мысль. Оно обладает грамматической оформленностью, коммуникативной направленностью и интонационной завершённостью. В отличие от предложения, текст – это сложная речевая единица, формируемая из совокупности предложений, связанных семантически, грамматически и композиционно.

Согласно И.Р.Гальперину, текст – это «произведение речи, обладающее завершённостью, объективированное в виде письменного документа, состоящее из названных единиц и имеющее определённую структуру». В азербайджанской лингвистической традиции З.М.Хасанов подчёркивает, что текст формируется через тематическое, логическое и интонационное единство, а его основными средствами являются внутриязыковые механизмы сцепления и повторяемости ключевых элементов.

Таким образом, предложение и текст соотносятся как элемент и целое: первое обеспечивает структурный и смысловой фундамент второго, служа ядром организации любой речевой продукции.

Развитие текстовой лингвистики началось с расширения границ традиционного синтаксического анализа. В первой половине XX века текст не выделялся как особый уровень языковой системы. Однако в 1960-1970-х годах в лингвистике возник интерес к сверхфразовым единствам. Работы Г.А.Золотовой, И.Р.Гальперина, М.Н.Кожиной стали основой текстоведения как самостоятельной научной дисциплины.

В Азербайджане значительный вклад внесли учёные З.М.Хасанов, А.А.Маммадлы, которые изучали тематическую связанность и структурную организованность текста. Позднее развитие когнитивной и прагматической лингвистики способствовало осмыслению текста как когнитивного феномена - результата и средства речевого мышления.

Так, текст стал рассматриваться как иерархически организованное целое, соотносящееся с внешними факторами коммуникации и культурной средой.

Связность и когерентность – это основные характеристики текста как целостной единицы. Под связностью (когезией) понимаются формальные средства, обеспечивающие грамматическую сцепку между предложениями: повтор, синонимия, союзные конструкции, местоимения. Когерентность – это логическая и семантическая согласованность элементов текста. Например, в рассказе И.А.Бунина «Лёгкое дыхание»: «Весна. На кладбище. У свежей могилы стоит гимназистка. Это Оля Мещерская...» – связность обеспечивается сменой планов и логическим нарастанием, а когерентность создаёт образ целостной сцены. В азербайджанской прозе – у Анара: «O, günorta gəlmişdi. Hava istiydi. Yuxarı qalxıb otağa keçdi» – сцепка осуществляется через хронотоп и временную линейность. Эти два типа связей взаимодействуют, формируя текстовую целостность.

Русский и азербайджанский языки представляют собой разные типы языковых систем: флективный и агглютинативный соответственно. Это отражается на синтаксической организации предложений. В русском языке грамматические отношения выражаются посредством флексий и порядка слов, а в азербайджанском – через послелоги, аффиксы и более свободный порядок компонентов.

[20] **Доцент кафедры общего языкознания Бакинского славянского университета. xalide21@rambler.ru**

10.24412/2218-7588-2025-2-78-79

Например: в русском языке – «Мальчик, который сидел у окна, читал книгу». В азербайджанском – «Pəncərənin yanında oturan oğlan kitab oxuyurdu». Сложноподчинённое предложение в русском соответствует относительному причастному обороту в азербайджанском. Такие различия особенно важны при передаче информации и при построении текста.

Кроме того, в азербайджанском языке характерно использование именного сказуемого, часто с опущенным глаголом-связкой, чего нет в русском: «Bu kitab maraqlıdır» – «Эта книга интересна». Такие структурные различия формируют различные модели текстовой связности.

Межфразовая валентность – это свойство предложения инициировать ожидания относительно следующей синтаксической единицы, формируя таким образом цепочку логически и тематически связанных высказываний. Это проявляется через анафору, катафору, эллипсис, контекстуальную обусловленность.

Пример у Распутина: «Она вышла. Он не пошёл за ней. Но смотрел вслед.» — каждая реплика продолжает предшествующую не только тематически, но и интонационно. В азербайджанском – аналог у Исмаила Шыхлы: «Qapı açıldı. Heç kim gəlmədi. Amma səssizlik danışırdı.» Эта сцепка основана на контрасте ожидания и молчания.

Лексико-семантические поля объединяют слова, связанные общей тематикой. Например, поле «дом» в «Прощании с Матёрой» В.Распутина: изба, печь, угол, полати – создаёт образ традиционного крестьянского быта. У Ч.Гусейнова в «Фатальном Фатали» подобное поле включает: ata ocağı, torpaq, soy, millət. Это помогает строить связный текст, акцентируя внимание на повторяющихся мотивах и темах.

При переводе важно сохранить не только грамматическую структуру, но и прагматическое значение. В примере: «Он улыбнулся ей – в том была вся его боль», – перевод на азербайджанский: «O, ona gülümsədi – bu, onun bütün ağrısı idi» – передаёт интенцию автора через сохранение текстовой сцепки и интонационной логики.Проведённый анализ подтверждает, что предложение в тексте – ключевой элемент для реализации когезии и когерентности. Русский язык допускает больше синтаксических вариаций, азербайджанский – более строг в структуре, но оба обеспечивают связность через систему семантико-синтаксических связей. Перспективы: развитие текстовых корпусов, межъязыковое обучение, автоматическая генерация связных текстов.

Таким образом, сопоставительный анализ предложения как текстовой единицы в русском и азербайджанском языках выявил не только общие закономерности, обеспечивающие связность и целостность текста, но и специфические особенности каждого языка. Русский язык характеризуется разнообразием синтаксических конструкций и высокой степенью вариативности, в то время как азербайджанский демонстрирует устойчивость грамматических форм и логическую последовательность. Оба языка стремятся к эффективной передаче информации, что особенно ярко проявляется в художественных и научных текстах. Полученные результаты могут быть использованы в практике преподавания, перевода и автоматической обработки текстов.

Список литературы

1. Гальперин И. Р. Текст как объект лингвистического исследования. М.: Наука, 1981.
2. Ван Дейк Т. Язык. Познание. Коммуникация. – М.: Прогресс, 1989.
3. Хасанов З.М. Текст и его структура в азербайджанском языке. – Баку: Элм, 2002.
4. Кожина М.Н. Очерки по стилистике русского языка. М., 1993.
5. Mammadli A. Azərbaycan dilində mətnin leksik və sintaktik xüsusiyyətləri. Bakı: Maarif, 2000.
6. Булгаков М.А. Мастер и Маргарита. М.: Художественная литература, 1988.
7. Самедоглы Ю. День казни. – Баку: Азернешр, 1991.
8. Анар. Beşmərtəbəli evin altıncı mərtəbəsi. – Баку: Язычы, 1984.
9. Айтматов Ч. Прощай, Гульсары! – Бишкек: Ала-Тоо, 1972.
10. Бунин И. А. Лёгкое дыхание. – М.: Правда, 1987.

Ключевые слова: текст, предложение, текстовая целостность, синтаксис, азербайджанский язык, русский язык, типологический анализ.
Keywords: text, sentence, textual integrity, syntax, Azerbaijani language, Russian language, typological analysis.
Açar sözlər: mətn, cümlə, mətn bütövlüyü, sintaksis, azərbaycan dili, rus dili, tipoloji analiz.

SENTENCE AS A COMPONENT OF THE TEXT
(Materials of Russian and Azerbaijani languages)
Summary

This article examines the functioning of the sentence as a component of text integrity in Russian and Azerbaijani. A typological approach is applied to reveal both universal and language-specific features of textual cohesion. Special attention is paid to syntactic and semantic-pragmatic devices that ensure intra-textual connectivity. The study provides a comparative analysis of cohesive structures contributing to text completeness and coherence, shedding light on the mechanisms of text formation in the two linguistic systems.

Cümlə mətnin tərkib hissəsi kimi
(materiallar rus və Azərbaycan dillərində)
Xülasə

Məqalədə rus və Azərbaycan dillərində cümlənin mətnin tərkib hissəsi kimi funksiyaları araşdırılır. Tipoloji yanaşma əsasında mətn bütövlüyünü təmin edən universal və spesifik xüsusiyyətlər üzə çıxarılır. Xüsusilə cümlələrarası əlaqəni yaradan sintaktik və semantik-praqmatik vasitələrə diqqət yetirilir. Müqayisəli analiz mətndüzüm prosesini

və iki dil sistemində bağlılığın formalaşma mexanizmini dərinləşdirir.

Rəyçi: prof. T.H.Məmmədova

Məlikli Kəmalə İzzət qızı[21]

DİL STRUKTURUNDA SİNTAKTİK TRANSPOZİSİYA VƏ ONUN MAHİYYƏTİ

Transpozisiya dil hadisəsi kimi yalnız morfoji səviyyədə deyil, həm də sintaktik səviyyədə özünü göstərir. Bunu onunla izah etmək olar ki, transpozisiya termini geniş mənada istənilən dil işarəsinin keçidi, yerdəyişməsi kimi başa düşülür. Belə ki, transpozisiya hadisəsinə bir nitq hissəsindən başqa nitq hissəsinə şəkilçili (affiksasiya) və ya şəkilçisiz keçid (konversiya) hallarını, eyni bir qrammatik kateqoriya daxilində olan keçidi (məsələn, felin zaman kateqoriyasında baş verən transpozisiya), habelə cümlənin komunikativ və ya struktur tipləri arasındakı keçidləri aid etmək olar. Sonda qeyd edilən keçidləri dilçilikdə sintaktik transpozisiya da adlandırırlar. Bu zaman köçürülmüş dil vahidinin forma və kommunikativ funksiyasında fərqlilik ortaya çıxır. Belə bir nəticəyə gələ bilərik ki, sintaktik səviyyədə transpozisiya məzmun və mahiyyətcə əsas cümlə funksiyalarının «yenidən bölgüsü» olub, cümlə paradiqması daxilində qarşılaşan tərəflərin fərqləndirici əlamətlərinin neytralaşmasından başqa bir şey deyildir.

Bildiyimiz kimi, digər ictimai hadisələrdən fərqli olaraq cəmiyyətlə sıx əlaqədə olub onu əks etdirən, müstəqil ictimai hadisə adlandırılan dil insanlar arasında ünsiyyətə xidmət edən əsas vasitələrdəndir.

Kommunikantlar arasındakı ünsiyyətin qurulmasında sözlərlə yanaşı, cümlələr və onların birləşməsindən yaranan mikro və makromətnlərin böyük əhəmiyyəti var. Ənənəvi dilçilikdə söz qədər cümlə də ən əsas dil yaruslarından hesab edilir. Hər hansı bir cümləni qurmaq üçün sözlərin hansı sırayla əlaqəyə girməsini öyrənmək məhz elə sintaksisin əsas vəzifəsi kimi qeyd olunur. Dilçilər sadədən mürəkkəbə sintaktik vahidləri söz birləşməsi - müxtəsər cümlə - geniş cümlə - həmcins üzvlü cümlələr – mürəkkəb cümlə - mətn olmaqla sıralayır [1, s.16].

Göründüyü kimi qeyd olunan bu ardıcıllıqda həm həcm, həm də quruluş nöqteyi nəzərdən cümlə söz birləşməsi ilə mətn arasında mərkəzi mövqeyə malikdir. "Cümlə bitmiş fikir bildirir" tərifinin əksinə onun linqvistik quruluşunu nəzərə alan F.Veysəlli cümləni müəyyən sözlərin qrammatik qayda əsasında düzülüşü hesab edir [4, s.248].

Danışıq aktında özünəməxsus funksiyaları olan əsas cümlə qruplarına nəqli, sual, əmr və nida cümlələrini aid etmək olar. Sadə cümlənin məqsəd və intonasiyasına görə qeyd olunan tipləri içərisində nəqli cümlə aparıcı mövqeyə malik olması ilə digərlərindən seçilir. Bunun da əsas səbəbi danışıq aktında heç bir qrammatik göstərici olmadan sadəcə intonasiya vasitəsilə nəqli cümlədən digər cümlə tiplərinə (sual, əmr və nida cümlələrinə) keçidin baş verə bilməsidir. Başqa sözlə, baş vermiş sintaktik transpozisiya üçün nəqli cümlə çıxış nöqtəsi rolunu oynayır.

Ə.M.Cavadov qeyd edir ki, nitq fəaliyyəti anında dinamikləşən və aktivləşən nəqli cümlə cümlənin məqsəd və intonasiyasına görə digər tiplərini törədir [2, s.45].

Sintaktik transpozisiya nüvə cümləsinin modifikasiyasının implikativ formalarına aid edilir. Y.M.Skrebnev qeyd edir ki, implikasiya özü ona xas olmayan məzmunun istifadə olunan linqvistik vahidə aid edilməsi, nəticə etibarı ilə də linqvistik vahidin məzmun planının funksional zənginləşməsidir [12].

Transpozisiya hadisəsinin mahiyyətinin başa düşülməsi funksiya anlayışı ilə üzvü surətdə əlaqədardır. Dilçilər transpozisiya anlayışını təsvir etmək üçün ənənəvi olaraq "birinci dərəcəli funksiya" və "ikinci dərəcəli funksiya" terminlərindən istifadə edirlər [3].

O.S.Axmanovanın "Dilçilik terminləri lüğəti"-də sintaksisdəki ikinci dərəcəli funksiya müəyyən şəraitdə, yəni müəyyən qrup dil elementləri ilə birləşmədə və müəyyən ünsiyyət şəraitində verilmiş sintaktik vahidin qazandığı sintaktik xüsusiyyətlər kimi başa düşülür [7, s.506].

A.V.Bandarko transpozisiya olunmuş vahidləri təsvir etmək üçün "potensial aspektdəki funksiyalar" və "effektiv aspektdəki funksiyalar" arasında olan fərqdən istifadə olunmasını məqsədəuyğun hesab edir. "Potensial aspektdəki funksiya" dil sistemində olan linqvistik vahidə xas müəyyən bir məqsədi yerinə yetirmək qabiliyyəti kimi başa düşülür. "Effektiv aspektdə funksiya" isə müəyyən bir dil vahidinin ətraf mühidlə qarşılıqlı əlaqədə işlənməsinin nəticəsi, nitqdə əldə edilən məqsəddir [11, s. 116].

A.V.Bandarkoya görə ikinci dərəcəli funksiyanı O.S.Axmanovanın tərifinə zidd olaraq "potensial aspektdəki funksiya" ilə əlaqəli şəkildə götürmək daha düzgündür. Nəticə etibarı ilə transpozisiyaya uğramış strukturlara münasibətdə 3 əsas funksiyanı fərqləndirmək olar:

1) İlk olaraq bu və ya digər struktur-kommunikativ tipli cümlələrin birinci dərəcəli funksiyasını qeyd etmək olar, məsələn:

"Am I that transparent?" she laughed and hid her face with a napkin. ("Mən bu qədər görünməzəm?"güldü və üzünü dəsmalla gizlətdi.) [15, s. 232]

Nataşa da mənim sözümə qüvvət verdi:

... Sən heç adam aldada bilirsən? Hətta Marva da bilirdi. Marva, bilirdinmi? [14, s. 141]

İngilis və Azərbaycan dilindən gətirilmiş nümunələrdə cümlələrin əsas funksiyası sual funksiyasıdır, yəni qarşı tərəfin cavabını tələb edir.

2) Digər funksiya isə bu və ya digər struktur-kommunikativ cümlə növünün "potensial aspektdəki funksiyası" olan ikinci dərəcəli funksiyadır. Buna misal olaraq sual cümlələrinin implisit inkar funksiyasını göstərmək olar. Məsələn, evimizə gələn qonaq getmək istədikdə onun getməməsi üçün *"Hara gedirsiniz?"* sual cümləsini işlədə

[21] **Azərbaycan Turizm və Menecment Universiteti**

10.24412/2218-7588-2025-2-80-83

bilərik. Cümlə sintaktik cəhətdən sual cümləsi olsa da, semantik cəhətdən inkar cümləsidir. Yəni, qeyd etdiyimiz cümlədə kontekstdən çıxış edərək anladığımız semantik məna *"Getməyin"*–dir. Gördüyümüz kimi burada sual cümləsi - inkar bildirən cümlə transpozisiyası baş verir, nəticədə də sual cümlələrinin bu funksiyasını ikici dərəcəli funksiya adlandıra bilərik.

3) Sonuncu funksiya isə "effektiv aspektdəki funksiya" adlanır, hansı ki, o da nitqdə realizə olunur. Praqmatik nöqteyi-nəzərdən götürülmüş dil vahidinin müəyyən kontekst daxilində məcazi mənada işlədilməsi zamanı onun ifadə etdiyi hərfi məna praqmatik məna ilə əvəz edilir. Məsələn, *"O qız varlıdırmı?"* sual cümləsinə nəzər salaq. Bu sual cümləsi məlumat almaq məqsədi ilə işlənərsə bu onun sadəcə hərfi mənası olacaq. Ancaq müəyyən bir kontekst daxilində praqmatik məna qəbul edərək ritorik inkar cümləsi kimi işlənə bilər. Yenidən qeyd etdiyimiz sual cümləsinə müraciət edək. Əgər biz dəqiq o qızın maddi vəziyyətinin olmadığını biliriksə, demək verilən bu sual ritorik sual olacaqdır, yəni struktur cəhətdən sorğu intonasiyasına malik sual cümləsi istifadə olunsa da məna cəhətdən *"O qız varlı deyil"* implisit inkar cümləsini verilən kontekstdən anlaya bilərik.

A.V.Bandarko öz tədqiqatlarında qeyd edilən praqmatik mənanın "effektiv aspektdə funksiya" anlayışına uyğun olduğunu qeyd edir.Vasitəli danışıq aktı ilə transpozisiya anlayışlarını fərqləndirmək lazımdır. Danışıq aktı nəzəriyyəsinə görə sadə cümlənin kommunikativ tipləri üç əsas kommunikativ funksiyaya uyğun gəlir ki, bunlar da nəqli, sual, əmr və ya istək funksiyalarıdır.

C.Yul nitqin bir növünün fərqli funksiyada istifadə edilməsini praqmatikada vasitəli danışıq aktı adlandırır. Danışıq aktının özü isə dilin fəaliyyətdə götürülməsini nəzərdə tutur. Müxtəlif tip nitq hərəkətləri danışanın nitq yaradan zamandakı kommunikativ niyyətinə əsaslanır. Danışıq aktında danışan onun kommunikativ niyyətinin dinləyici tərəfindən anlaşılacağını gözləyir. Kommunikantlara bu prosesdə adətən nitqlə bağlı şərait (kontekst) kömək edir. Bu cür hallar isə C.Yul tərəfindən nitq hadisələri (speech events) adlandırılır [6, s. 47-49].

Danışıq aktının lokutiv, illokutiv və perlokutiv tiplərini fərqləndirmək üçün belə bir kontekstə nəzər yetirək, məsələn, ana qızından isti havada pəncərəni açmasını istəyir. Ananın danışıq aktında istifadə etdiyi *"Qızım, pəncərəni aça bilərsən?"* cümlə dinləyənin başa düşüb icra edə biləcəyi, anlaşılan sözlərdən ibarət mənalı dil vahididir. Biz bu cümləni lokutiv akta aid edə bilərik. Həmin situasiyada illokutiv akt isə odur ki, ana qızından pəncərəni açmasını istəyəndə qızı buna cavab olaraq hərəkəti icra edir. Dinləyici belə nitqdən sonra hərəkəti icra edirsə, demək danışanın nitqi dinləyici tərəfindən xahiş kimi başa düşülən izahedici qüvvəyə malikdir. Sonra isə nəticə olaraq perlokutiv aktın icrası baş verir, ananın istək ifadə edən *"Qızım, pəncərəni aça bilərsən?"* sual cümləsini deməsi ilə ana qızı tərəfindən pəncərənin açılmasına nail olur.

Kommunikativ-sintaktik strukturların əsas funksional funksiyada istifadə edilməsi, yəni qeyd etdiyimiz "potensial aspektdəki funksiya" ilə "effektiv aspektdəki funksiya"-nın üst-üstə düşməsi birbaşa danışıq aktları üçün xarakterikdir. Lakin nitq aktları heç bir halda kommunikativ-sintaktik strukturların dolayı istifadəsi ilə məhdudlaşmır [9, s. 194].

Qeyd olunan məsələləri ümumiləşdirərək belə bir nəticəyə gəlmək olar ki, transpozisiya və vasitəli danışıq aktı anlayışlarının ayrılıqda qeyd edilməsi məqsədə uyğun deyil. İlk öncə bunun səbəbini belə izah etmək olar ki, transpozisiyaya uğramış formanın istifadə olunması fikirləri dolayı yolla ifadə etməyin yollarından biridir. Belə ki, vasitəli danışıq aktı transpozisiya hadisəsindən daha genişdir. Digər bir səbəb də odur ki, transpozisiyaya məruz qalan strukturların bəzisi dolayı təzahür kimi şərh edilə bilmir. Buna insanın özü-özünə ünvanladığı ritorik sualları misal göstərmək olar. Məsələn:

Gör heç məndə ağıl var? Elə ancaq onu fikirləşirəm.

Who wouldn't want to be a millionaire? (Kim milyoner olmaq istəməzdi ki?)

Azərbaycan və ingilis dilindən gətirilmiş nümunələrdən göründüyü kimi qarşı tərəfin cavabını tələb etməyən, cümlələrdə emosional çalarlılıq yaradan belə ritorik suallar sintaktik transpozisiyaya aid olsa da vasitəli danışıq aktı kimi qiymətləndirilmir. Bu cümlələrin istifadəsi zamanı lokutiv akt özünü göstərdiyi halda illokutiv təsir və ondan törəyən perlokutiv nəticə reallaşmır.

Dilçilikdə əsası C.Ostin tərəfindən qoyulan, dili fəaliyyət forması kimi əks etdirən danışıq aktı nəzəriyyəsinin zəif məqamalrının olduğunu qeyd edən C.Syörl alternativ nəzəriyyə irəli sürür. O özünün "İfadə və məna" kitabında illokutiv aktların bir-birindən fərqləndiyi ən azı 12 əhəmiyyətli variativ formanı qeyd edir. Dilçinin danışıq aktı nəzəriyyəsi sözlər (söyləmlər) və onları əhatə edən real aləm (fakt) arasındakı uyğunluq istiqamətinə əsaslanır. O öz təsnifatında deklarativlər (adlandırma), komisivlər (hədə-qorxu, vəd), representativlər (hesabat, təqdimat), direktivlər (xahiş, göstəriş) və ekspresivlərin (ifadənin) adlarını çəkir [13].

Danışıq aktında danışanın istifadə etdiyi söyləmlərin illokutiv gücü kontekstdən asılı olaraq dinləyən tərəfindən fərqli mənalarda başa düşülə bilər, məsələn:

I will be there. (Mən orda olacağam)

İngilis dilində biz belə bir cümlə işlədiriksə bu, dinləyici tərəfindən situasiyadan asılı olaraq söz vermə, hədə-qorxu və ya xəbərdarlıq kimi anlaşıla bilər. Başqa bir nümunəyə nəzər salaq:

Sən niyə bu dərmanı içmirsən?

Qeyd olunan sual cümləsi də işlənmə məqamından asılı olaraq məsləhət, tövsiyyə və ya təkid bildirə bilər.

L.Xanbutayeva qeyd edir ki, semantik yükə sahib olan cümlələr tez-tez illokutiv aktı həyata keçirir. Bu cür cümlələr vasitəli şəkildə digər tip illokutiv aktı həyata keçirə bilir [5, s. 36]. Söylənilən məqamla bağlı nümunələrə nəzər yetirək:

(1) O düşünür ki, biz dərhal şəhəri tərk etməliyik.

(2) Mənə de görüm sənə kim nə deyib.

(3) Başqa nəsə istəyirsənmi?

Azərbaycan dilindən gətirilmiş nümunələrdəki cümlələr vasitəli danışıq aktına aiddirlər və hər birində bilavasitə başqa illokutiv akt icra olunur. Belə ki, birinci nümunədə cümlə təsdiqdə olduğu halda məsləhət bildirir. İkinci cümlədə əmr cümləsi vasitəli sorğu, sonuncuda isə sual cümləsi vasitəli təklif mənası ifadə edir.

Sintaktik transpozisiyanın növlərinin təsnifatı zamanı nitq formalarının üç səviyyəli təsnifatı mühüm rol oynayır. Nitq prosesinə təsir edən müxtəlif amillər vardır ki, bunlar da öz növbəsində transpozisiya olunmuş strukturların təsnifatında özünü göstərir. Kommunikasiya prosesində danışanın (adresantın) nitqinə onun mövzu ilə bağlı fon bilikləri, ümumi dünyagörüşü, danışıq anındakı psixoloji vəziyyəti, xarakteri, hətta bəzən onun cinsi, sosial rütbəsi, yaşı, ona kənardan olan ekstralinqvistik təsirlər və başqa digər amillər təsir edir. Bu da öz növbəsində natiqin dilin müxtəlif transpozisiyaya uğramış strukturlarından istifadə etməsinə səbəb olur. Kommunikasiya prosesində adresant ilk öncə verilən informasiyanın məzmun planını və onun illokutiv təsirini müəyyənləşdirir.

Dinləyənin danışıq fəaliyyətinə təsir edən digər amil eksplisit və ya implisit şəkildə özünü büruzə verən adresant haqqındakı məlumatlardır. Danışıq aktında adresantın söylədiyi və ya yazdığı məlumatı qəbul edən adresat (dinləyən) isə ona olan tələbə görə fəaliyyət göstərir. Bu prosesdə dinləyənin ətraf aləm haqqındakı bilikləri, məqsədi, cəmiyyətdə tutduğu sosial statusu və s. mühüm rol oynayır.

Qeyd edilən təsir faktorlarına görə sintaktik transpozisiya növlərinin təsnifatının dəqiqləşdirilməsinə və yenidən təşkilinə ehtiyac yaranır. Belə ki, təsnifatın dördüncü səviyyəsinin yaradılması, transpozisiyaya uğramış strukturların əsas növləri ilə paralel yeni informasiya yükünə malik struktur-semantik əlamətlərin ayrılması vacib amilə çevrilir.

Dildə işlənən cümlələrin kommunikativ tiplərinin obrazlı istifadəsini öyrənmək üçün ilk növbədə cümlələrin məqsədə görə təsnifatı məsələsini işıqlandırmaq lazımdır.Ənənəvi dilçilikdə cümlələrin məqsədə görə üç əsas kommunikativ növü fərqləndirilir. Burada söhbət nəqli, sual və əmr cümlələrindən gedir. Hər bir kommunikativ tip özünəməxsus struktura və mənaya malikdir. Bu cümlə tiplərində mövcud olan fərqlilikləri, xüsusilə də cümlənin məntiqi predikatını ifadə edən remanın fərqli xüsusiyyətləri ilə müəyyən edilir. Nəqli, sual və əmr cümlələri cümlənin kommunikativ tipləri kimi qeyd olunsa da nida cümlələri ilə bağlı dilçilik ədəbiyyatında yekdil bir görüş yoxdur.

Dilçi alim M.Blox nida cümlələrin kommunikasiyaya xidmət etmədiyi üçün onları qeyri-kommunikativ söyləmlər adlandırır [8]. Nida cümlələrində cümlənin aktual üzvlənməsinə görə remanın özünəxas məzmunu olmadığı üçün onlar cümlənin kommunikativ tiplərinə aid edilmir. Belə ki, təkcə nida cümlələri deyil, həm də ara cümlələr, lənət və tərif bildirən cümlələr də kommunikativ paradiqmadan kənar hesab olunur.

A.İ.Smirnitski də M.Blox kimi nida cümlələri ilə bağlı məsələyə qeyd edilən məqamdan yanaşaraq bu cümlələri nəqli, sual və əmr cümlələrinin emosional variantı hesab edir. Onu qeyd etmək yerinə düşərdi ki, digər kommunikativ cümlə tiplərinin xüsusi hiss, həyəcanla deyilməsindən yaranan nida cümlələri transpozisiyaya uğrayan cümlələrin ümumi cəhətlərini özündə saxlayır.

Bəzi dilçilər nida cümlələrinin ancaq *"how", "what"* eyni zamanda *"such"* və *"so"* sözləri ilə başlayan cümlələrlə məhdudlaşdığını qeyd edir. *"How", "what","such"* və *"so"* sözləri ilə başlayan nida cümlələrinə aşağıdakı cümlələri misal göstərmək olar:

"What a good memory you have!" I tried to keep my voice innocently enthusiastic. ("Nə yaxşı yaddaşın var!" məsumcasına səsimdəki həvəsi biruzə verməyə çalışırdım.)[16, s. 30]

How fast we went! (Necə sürətlə getdik!) [15, s. 59]

Such work is hard to find these days! (Belə iş tapmaq bu günlərdə çətindir!)

So much to do! (O qədər edəcək iş var ki!)

İ.V.Arnold ingilis dilində duyğuları ifadə etməyə xidmət edən *"what, how, such, so"* sözləri ilə təqdim olunan, xüsusi struktur, funksiya və intonasiya yükünə malik cümlələrin nida cümlələri kimi təsnif olunduğunu qeyd edir. Dilçinin bu yanaşması bizə nida intonasiyası ilə realizə olan və insan hislərinin ifadəsi funksiyasını həyata keçirən ancaq nəqli, sual və əmr cümlələrini sintaktik transpozisiya baxımından nəzərdən keçirtməyə imkan verir. A.İ.Smirnitski qeyd edir ki, əmr cümlələri nida intonasiyası ilə işlənə bilsə də, belə konstruksiyaları küçürülmüş konstruksiya hesab etmək məqsədəuyğun deyil. Dilçi göstərir ki, *"Take your bag"* və *"Take your bag!"* tipli qarşılaşdırmalarda istək ifadə edən əmr cümləsi işlənmə yerindən asılı olaraq xüsusi intonasiya ilə işlənən nida cümləsindən emosionallıq dərəcəsi ilə deyil, kateqoriyaya görə fərqlənir. O, bu tip cümlələrin fərqləndirilməsindən belə nəticəyə gəlir ki, burada intonasiya əmr cümləsinin mənasını dəyişir.

Qeyd etmək lazımdır ki, bir çox hallarda nida intonasiyası cümlə tiplərini fərqləndirməyə də kömək edə bilər. Məsələn, nida intonasiyası sayəsində əmr cümlələrini fərqləndirmək mümkündür. Buna nümunə olaraq "Coffee" və "Coffee!" cümlələrini göstərmək olar. Belə ki, bu cümlələrin müqayisəsindən görmək olar ki, birinci cümlə nə subyektə, nə də predikata malik olmayan nominal (adlıq) cümlədir. Xüsusi intonasiya ilə işləndikdə isə "Bring me coffee!" (Mənə kofe gətir!) – mənasını ifadə edən cümləyə çevrilir. Deməli, burada intonasiya imperativliyin əsas ifadə vasitəsi hesab oluna bilər.

Zənnimizcə, cümlənin qeyd edilən məqsəd və intonasiyaya görə növlərinin əksəriyyəti transpozisiya imkanlarına malikdir. Morfoloji transpozisiyada olduğu kimi sintaktik transpozisiya zamanı da bu keçiddə iştirak edən konstruksiyalardan biri əsas, digəri isə ondan törəmə olur. Belə ki, yuxarıda haqqında danışdığımız dilçi A.İ.Smirnitskinin əmr cümlələrinin nida cümlələrinə transpozisiya imkanının olmaması fikri ilə razilaşa bilmirik. Buna

səbəb isə odur ki, əgər biz nida cümlələrinin varlığını qəbul edir, onların insanların hiss və duyğularını ifadə edən cümlə növü kimi qeyd ediriksə, demək ki, ingilis dilindəki "Take it" (Bunu götür) və "Take it!" cümlələri və yaxud Azərbaycan dilindəki "Gəl bura" və "Gəl bura!" cümlələri də mütləq şəkildə fərqləndirilməlidir. Göründüyü kimi hər iki dildə də qarşılaşdırılmış cümlələrin hər ikisi əmr ifadə edir. Ancaq "Take it" və "Gəl bura" cümlələrinin funksiyaları "Take it!" və "Gəl bura!" cümlələrinin funksiyalarından seçilir. Danışan qarşıdakı insana "Take it", "Gəl bura" deyirsə bu əmr, xahiş, istək mənası, "Take it!" və "Gəl bura!" deyirsə işlənmə yerindən asılı olaraq təkid, təhdid, qəzəb və s. mənalar ifadə edə bilər. Eyni zamanda qeyd olunan bu qarşılaşmalarda keçidə uğrayan cümlələrin emosional məna yükü birinci qarşılaşdırmadakı cümlələrdən daha çoxdur. Sadəcə olaraq konversiya cütlərində olduğu kimi əmr cümləsi əsas, sintaktik transpozisiyanın nəticəsi olan nida cümləsi isə keçidə uğrayan, birinci tərəfin xüsusiyyətləri üzərində sonradan yaranmış tərəf olacaqdır.

Belə bir nəticəyə gəlirik ki, törəmə cümlədə semantik cəhətdən əmr cümləsinin xüsusiyyətləri basqın olsa da, istər funksional, istərsə də koqnitiv aspektdən əmr cümləsi – nida cümləsi keçidi mümkündür.

Ədəbiyyat

1. Abdullayev Ə. Aktual üzvlənmə, mətn və diskurs. "Zərdabi LTD" MMC, Bakı, 2011. – 272 s.
2. Cavadov Ə.M. Müasir Azərbaycan ədəbi dilində sintaktik vahidlərin sırası. Bakı: Elm, 1977, - 111 s.
3. J.C.Richards, R.Schmidt, Longman Dictionary of Language Teaching and Applied Linguistics.- Third Edition.-Pearson Education, Longman, 2002. – 595 p.
4. Veysəlli F.Y. Dilçiliyə giriş. -Bakı:Mütərcim, 2023. – 448 s.
5. Xanbutayeva L.M. Danışıq aktı nəzəriyyəsində sintaktik vahidlərin yeri. Bakı, 2018, - 200 s.
6. Yule G. Pragmatics. Oxford University Press, 1996, - 137 p.
7. Ахманова О.С. Словарь лингвистических терминов. - М.: Советская Энциклопедия, 1969. - 608 с.
8. Блох М.Я. Теоретическая грамматика английского языка. «Высшая школа», Москва, 1983. – 383 с.
9. Гак, В.Г. Теоретическая грамматика французского языка. Синтаксис/ В.Г. Гак. - 2-е изд., испр. и доп. - М.: Высшая школа, 1986. -220 с.
10. Никитин, М.В. Основы лингвистической теории значения: Учеб. пособие / М.В. Пикитин. - М.: Высшая школа, 1988. - 168 с.
11. Пиотровская Л.А., Эмотивные высказывания как объект лингвистического исследования (на материале русского и чешского языков): Монография. — СПб.: Изд-во С.-Петерб. ун-та, 1994. — 146 с.
12. Скребнев Ю.М. Введение в коллоквиалистику/Ю.М. Скребнев. - Саратовский Гос. университет, 1985. - 210 с.
13. https://altexploit.wordpress.com/wp-content/uploads/2019/10/john-r.-searle-expression-and-meaning-_-studies-in-the-theory-of-speech-acts-1979.pdf
14. Dostoyevski F. Alçaldılmış və təhqir edilmiş insanlar. Bakı: Qanun, 2019, - 544 s.
15. Hosseini K. And the Mountains Echoed. London: Bloomsbury Publishing, 2013, - 466 p.
16. Miller S. The World Below. London: Bloomsbury Publishing, 2002, - 275 p.

Açar sözlər: sintaktik transpozisiya, cümlənin kommunikativ tipləri, danışıq aktı, lokutiv akt, illokutiv akt, perlokutiv akt

Ключевые слова: синтаксическая транспозиция, коммуникативные типы предложений, речевой акт, локутивный акт, иллокутивный акт, перлокутивный акт

Key words: syntactic transposition, communicative types of sentences, speech act, locutionary act, illocutionary act, perlocutionary act

Xülasə

DİL STRUKTURUNDA SİNTAKTİK TRANSPOZİSİYA VƏ ONUN MAHİYYƏTİ

Dildə baş verən müxtəlif hadisələr dilin strukturuna təsir edərək onun inkişaf etməsinə və dilin bir çox təbəqələrində dəyişikliklərin olmasına səbəb olur. Dilin istər morfoloji, istərsə də sintaktik səviyyəsində baş verən transpozisiya halları da öz növbəsində ünsiyyətin daha rahat və əlverişli olmasına təsir edir. Dildə müşahidə olunan dil hadisələrindən biri də məqalənin əsas tədqiqat obyekti olan sintaktik keçidlərdir. Məqalədə sintaktik transpozisiyanın mahiyyəti izah edilir, eyni zamanda vasitəli danışıq aktı ilə transpozisiya anlayışları fərqləndirilir. İngilis və Azərbaycan dillərindən gətirilmiş nümunələrin vasitəsilə transpozisiyaya uğramış strukturlara münasibətdə üç əsas funksiya şərh edilir.

Резюме

СИНТАКСИЧЕСКАЯ ТРАНСПОЗИЦИЯ В СТРУКТУРЕ ЯЗЫКА И ЕЕ СУТЬ

Различные события, происходящие в языке, влияют на структуру языка, вызывая ее развитие и изменения во многих слоях языка. Транспозиционные события, происходящие как на морфологическом, так и на синтаксическом уровнях языка, в свою очередь, влияют на легкость и удобство общения. Одним из языковых явлений, наблюдаемых в языке, являются синтаксические переходы, которые являются основным объектом исследования статьи. В статье объясняется сущность синтаксической транспозиции, и в то же время различаются понятия речевого акта и транспозиции. Три основные функции интерпретируются по отношению к транспонированным структурам на примерах из английского и азербайджанского языков.

Summary

SYNTACTIC TRANSPOSITION IN LANGUAGE STRUCTURE AND ITS ESSENCE

Various events occurring in the language affect the structure of the language, causing its development and changes in many layers of the language. Transposition occurring at both the morphological and syntactic levels of the language, in turn, affect the ease and convenience of communication. One of the linguistic events observed in the language is syntactic transitions, which is the main object of the article. The article explains the essence of syntactic transposition, and at the same time distinguishes the concepts of speech act and transposition. Three main functions are interpreted in relation to transposed structures through examples from English and Azerbaijani languages.

Rəyçi: f.f.d., dos. R.Q.Abdurrahmanova

Səma Ouliveva[22]

XX ƏSRİN 80-90-CI İLLƏRİNDƏ TEXNİKİ TERMİNOLOGİYANIN İNKİŞAF XÜSUSİYYƏTLƏRİ

Giriş. XX əsrin son onillikləri dünya miqyasında texnoloji inqilabların baş verdiyi və informasiya əsrinin əsasının qoyulduğu mərhələ kimi səciyyələnir. Xüsusilə 1980-1990-cı illərdə elektronika, kompüter texnologiyaları, avtomatlaşdırılmış idarəetmə sistemləri, rabitə və energetika sahələrində baş verən sürətli inkişaflar texniki terminologiyanın da keyfiyyətcə yenilənməsini zəruri etdi. Azərbaycan dili də bu qlobal proseslərdən kənarda qalmamış, texnoloji yenilikləri ifadə etmək üçün yeni anlayışlara və terminlərə ehtiyac yaranmışdır.

1980-ci illərin sonu və 1990-cı illər Azərbaycanın ictimai-siyasi həyatında mühüm dəyişikliklərlə yadda qalmışdır. Sovet İttifaqının dağılması və ölkənin müstəqillik əldə etməsi ilə texniki biliklərin müstəqil şəkildə mənimsənməsi və milli dillə ifadəsi əsas prioritetə çevrildi. Bu dövrdə texniki avadanlıqların, informasiya sistemlərinin və elektronika məhsullarının ölkəyə daxil olması ilə paralel olaraq bu sahələri əhatə edən terminlərə də ehtiyac artmışdır.

Bu dövrdə texniki terminologiyanın inkişafı bir neçə istiqamətdə baş verirdi:

1) Texnologiyaların əsasən Qərbdən idxal olunması nəticəsində bir çox terminlər dilə transliterasiya yolu ilə daxil olmuşdur: *kompüter (computer), monitor, printer, modem, skaner*. Bu terminlər dilə olduğu kimi keçmiş, sonradan müəyyən orfoqrafik və fonetik dəyişikliklərə məruz qalmışdır.

2) Milli söz bazası əsasında yeni terminlərin yaradılması – Milli dilin leksik imkanları nəzərə alınaraq yeni anlayışlar üçün dilin daxili imkanları ilə ifadə edilən terminlər formalaşmışdır: *verilənlər bazası* (database), *şəbəkə bağlantısı* (network connection), *mətn redaktoru* (text editor) və s.

3) Tərcümə yolu ilə terminologiyanın formalaşması – Terminlərin bir hissəsi tərcümə olunaraq dilə daxil edilmişdir. Bu, həm məna uyğunluğunu qorumaq, həm də milli üslubda ifadə etmək məqsədi daşıyırdı: software → *proqram təminatı*, hardware → *avadanlıq*, input device → *giriş qurğusu* və s.

1980-1990-cı illərdə texniki terminlərin istifadəsində müşahidə olunan əsas problemlərdən biri terminoloji qeyri-sabitlik idi. Eyni anlayış üçün fərqli tərcümələr təklif olunur, bəzən rus dilindən birbaşa tərcümə ilə ingilis dilindən transliterasiya yanaşı işlədilirdi. Bu baxımdan Azərbaycan SSR Elmlər Akademiyası nəzdində fəaliyyət göstərən Terminologiya Komissiyasının və lüğət redaksiyalarının rolu vacib idi. Onlar terminoloji mühitin stabilləşdirilməsi, vahid standartların tətbiqi və tədris resurslarının hazırlanması üçün mühüm layihələr həyata keçirmişdilər.

Bu dövrdə texniki sahələr üzrə nəşr edilən lüğətlər mühüm mənbə rolunu oynadı. Mühəndislik, avtomatika, elektrotexnika və kompüter texnologiyaları sahəsində terminoloji lüğətlər hazırlanaraq mütəxəssislərin istifadəsinə verilmişdir. Məsələn: 1981-ci ildə "*Sənaye elektronikası terminləri lüğəti*" (S.M.Həsənova, A.Ə.Əfəndizadə, M.Ş.Qasımov), 1986-cı ildə "*Fizika terminləri lüğəti*" (H.B.Abdullayev, Q.B.Abdullayev), 1984-cü ildə İ.Şəfiyev tərəfindən "*Rusca-türkcə geodeziya terminləri*" (Bakı, SSRİ EA Zaqafqaziya filialı. Azərb.şöbəsi nəşriyyatı), 1987-ci ildə "*Kənd təsərrüfatı texnikası terminləri lüğəti*" (İ.M.Hüseynov, B.N.Hüseynov, Bakı, Azərbaycan Dövlət nəşriyyatı, 248 s.) və üçdilli "*İngiliscə-rusca-azərbaycanca elektrotexnika terminləri lüğəti*" tərtib olunmuşdur. Bu lüğətlərdə terminlər izahlarla verilir, bəzən diaqram və şəkillərlə də dəstəklənirdi. S.Sadıqova qeyd edir ki, "80-90-cı illərdə elmi-texniki tərəqqi ilə bağlı terminoloji lüğətlərdə bir sıra yeni terminlər işlənmişdir: bioqlizm, lazer, lazer qayçısı, biokütlə, elektromobil, fotorəqəmyazan, hidrovelosiped, vakuum sobası, videogücləndirici və s." [2, s. 396].

Texniki terminologiyanın inkişafı təkcə ümumi dil leksikasında deyil, ayrı-ayrı sahələrdə də özünü göstərmişdir. Belə ki, bu illərdə Azərbaycan dilində texniki fənlərin tədrisinə keçid prosesi baş verdi. Nəticədə tədris materiallarının hazırlanması, dərsliklərin milli terminlərlə zənginləşdirilməsi mühüm rol oynadı. Belə dərsliklərdə terminlərin düzgün işlədilməsi tələbələrdə texniki anlayışların mənimsəməsini asanlaşdırdı və elmi dilin formalaşmasına təkan verdi. Texniki peşə məktəbləri, universitetlər və kurs proqramlarında Azərbaycan dilində dərslik və proqramlar tərtib olunmağa başlamışdır. Mühəndislik, informasiya texnologiyaları, avtomatika kimi ixtisaslarda yeni terminlər dərs prosesinə daxil edilirdi.

1980-1990-cı illərdə xüsusilə aşağıdakı texniki sahələrdə terminoloji canlanma müşahidə olunmuşdur:

İnformasiya texnologiyaları – İT sahəsində "*mətn prosessoru*", "*verilənlər bazası*", "*kompüter şəbəkəsi*", "*giriş-çıxış qurğuları*" kimi anlayışlar gündəmə gəlmiş və dərsliklərə daxil edilmişdir. Yeni yaranan sahələr – proqramlaşdırma, kompüter arxitekturası, alqoritmika – milli termin bazasının genişlənməsinə səbəb olmuşdur.

Elektroenergetika və rabitə – Bu dövrdə avtomatik idarəetmə sistemləri, elektrotexniki qurğular, simsiz rabitə texnologiyaları haqqında anlayışlar dilə daxil olmuşdur: gərginlik tənzimləyicisi, tezlik çeviricisi, rəqəmsal siqnal, modulyasiya, anten qidalandırıcısı kimi terminlər istifadə olunmağa başlanmışdır.

N.Hüseynova yazır ki, bu dövrdə Azərbaycan dilində texniki terminologiyanın zənginləşməsində kosmonavtikanın inkişafının da mühüm rolu olmuşdur. Kosmosun fəthi ilə əlaqədar yaranan "kosmos", "kosmodrom",

[22] AMEA Nəsimi adına Dilçilik İnstitutu Terminologiya şöbəsinin aparıcı elmi işçisi. e-mail: sima.guliyeva51@gmail.com
https://orcid.org/0009-0007-3538-9078
10.24412/2218-7588-2025-2-84-86

"orbit", "raket", "skafandr", "orbital stansiya" tez bir zamanda Azərbaycan dilinə keçmişdir [1, s. 49].

80–90-cı illərdə televiziya, qəzet və jurnallarda texnoloji yeniliklər haqqında materialların artması nəticəsində bu sahəyə aid terminlərin ümumi istifadəsi də artdı. Media vasitəsilə bir çox texniki terminlər cəmiyyətin geniş təbəqələri tərəfindən mənimsənildi. Texniki terminlərin geniş kütləyə çatdırılması üçün KİV mühüm vasitə rolunu oynamışdır. Televiziya proqramları və qəzetlərdə texnologiya ilə bağlı yazılarda Azərbaycan dilində terminlərdən istifadə təbliğ olunurdu ki, bu da ictimai şüurda terminlərin yer almasına səbəb olurdu.

Bu dövrdə məşhur elmi nəşrlər: "Elm və həyat", "Azərbaycan müəllimi", "Elm" kimi jurnal və qəzetlərdə terminoloji baxımdan zəngin məqalələr dərc edilirdi. Bu proseslərin nəticəsində yeni terminlər cəmiyyətə daha asan və tez mənimsədilirdi.

Onu da qeyd edək ki, bu mərhələdə terminologiyanın inkişafında beynəlxalq praktika da diqqətlə izlənilmişdir. Məsələn, Avropa ölkələrində texniki terminlərin tərcüməsi və məqsədilə fəaliyyət göstərən terminoloji mərkəzlər model olaraq götürülmüşdür. Fransız, alman və ispan dillərində də texniki terminlərin milliləşdirilməsi zamanı milli söz bazasına üstünlük verilməsi Azərbaycan dilindəki bənzər yanaşmalarla uyğunluq təşkil etmişdir.

1980-90-cı illərdə atılan addımlar XXI əsrdə texniki terminologiyanın stabil və sistemli şəkildə inkişaf etməsi üçün zəmin yaratmışdır. Bu dövrdə formalaşan təcrübə və yanaşmalar müasir dövrdə terminoloji bazaların rəqəmsallaşdırılması, terminoloji bazalarının yaradılması üçün əsas təşkil edir. Terminoloji təcrübənin müasir mərhələyə keçidində bu dövrdə yazılmış lüğətlər, elmi məqalələr və dərsliklər bu gün də istinad mənbələri olaraq qalmaqdadır.

1980-1990-cı illərdə texniki sahədə tərcümə fəaliyyəti geniş vüsət almışdı. Lakin bu proses bir sıra çətinliklərlə müşayiət olunurdu. Tərcümə prosesində qarşıya çıxan əsas çətinliklərdən biri spesifik texnoloji anlayışların milli dildə analoqunun olmaması idi. Bu isə bəzən terminlərin bir neçə formada istifadəsinə səbəb olurdu:

software → *proqram təminatı, proqram təmini, yumşaq təminat*

interface → *arayüzü, interfeys* və s.

Ekvivalent çatışmazlığı – Bir çox texniki anlayışın Azərbaycan dilində qarşılığı yox idi. Məsələn, *interface, bitrate, driver* kimi terminlərin tərcüməsi problematik idi.

Sistemləşdirilməmiş terminlər – Fərqli mənbələrdə eyni anlayışın fərqli tərcümələrinə rast gəlinirdi. Bu isə terminoloji xaosa səbəb olurdu.

Rus dilinin dominantlığı – Texniki sənədlərin və dərsliklərin əksəriyyəti rus dilindən tərcümə olunurdu ki, bu da həm struktur, həm də semantik yanlışlıqlara yol açırdı. Bunların qarşısının alınması üçün vahid lüğət bazasının və terminoloji platformaların yaradılması tələb olunur, eləcə də bu problemlərin aradan qaldırılması üçün tərcüməçilər və dilçilər arasında sıx əməkdaşlığa ehtiyac duyulurdu.

Bu çətinliyi aradan qaldırmaq üçün terminoloji tərcümə strategiyaları və prinsipləri tətbiq olunmağa başlandı. Terminlərin uğurlu tərcüməsi üçün aşağıdakı strategiyalar həyata keçirilmişdir:

Kalkaetmə – Terminlər hərfi tərcümə edilirdi. Məsələn, hard disk → *sərt disk*, data transfer → *verilənlərin ötürülməsi*.

Fonetik uyğunlaşdırma – Alınma terminlərin səs tərkibi Azərbaycan dilinə uyğunlaşdırılırdı: monitor → *monitor*, adapter → *adapter*.

Yeni sözyaratma – Dilin daxili imkanları ilə yeni sözlər formalaşdırılırdı: *yükləyici proqram, idarəetmə modulu, verilənlər girişi*.

Bu strategiyalar sayəsində texniki terminlərin Azərbaycan dilində istifadəsi həm daha sistemli, həm də funksional hala gətirilməyə çalışılmışdır.

1990-cı illərdə Azərbaycan Respublikasının dövlət dil siyasətində milli terminologiyanın inkişafı xüsusi yer tutmuşdur. 1992-ci ildə qəbul edilmiş "Azərbaycan Respublikasının Dövlət dili haqqında" qanun 1993-cü ildə Terminologiya Komitəsinin vəzifələrini artırmış və bu da terminologiyanın inkişafı istiqamətində dönüş nöqtəsi olmuşdur.

Qanunvericilik səviyyəsində Azərbaycan dilində elm və texnika sahələrinin inkişaf etdirilməsi, milli termin bazasının yaradılması və təkmilləşdirilməsi əsas vəzifələrdən biri kimi qeyd olunmuşdur. Həmçinin rəsmi sənədlərdə və dərsliklərdə xarici mənşəli terminlərin istifadəsinin məhdudlaşdırılması gücləndirilmişdir.

Nəticə. XX əsrin 80-90-cı illəri Azərbaycan dilinin texniki sahədə inkişafı baxımından mühüm mərhələ olmuşdur. Bu dövrdə texniki terminlərin formalaşması, tərcümə və adaptasiya prosesi, nizama salınma və tətbiq sahəsində atılan addımlar gələcək illər üçün zəngin və stabil terminoloji baza yaratdı. Terminoloji siyasətin əsas məqsədi texnoloji yenilikləri milli dillə ifadə etmək və bu sahədə elmi-məntiqi əsaslandırılmış bir sistem qurmaq idi. Bu istiqamətdə görülən işlər Azərbaycan dilinin texniki-elmi imkanlarının genişlənməsində əhəmiyyətli rol oynamışdır.

İstifadə edilmiş ədəbiyyat

1. Hüseynova N. Azərbaycan dilində termin yaradıcılığı prosesi (1920-1990)-cı illər. Bakı, 2008.
2. Sadıqova S. Azərbaycan terminoqrafiyasının konseptual əsasları. Bakı, 2023.

Açar sözlər: XX əsr, 80-90-cu illər, texniki terminologiya, milli baza.
Ключевые слова: XX век, 80-е-90-е годы, техническая терминология, национальная база.
Keywords: 20th century, 80s-90s, technical terminology, national base.

Xülasə

Bu məqalədə XX əsrin 80-90-cı illərində Azərbaycan dilində texniki terminologiyanın inkişaf prosesi tarixi-

linqvistik kontekstdə təhlil olunur. Sovet İttifaqının son dönəminə və müstəqillikdən sonrakı ilkin mərhələyə təsadüf edən bu dövr, texnoloji tərəqqinin və ictimai-siyasi dəyişikliklərin təsiri ilə terminoloji sahədə ciddi canlanma ilə xarakterizə olunur. Məqalədə texniki terminlərin formalaşması, lüğət tərkibinə daxilolma yolları, leksik-semantik xüsusiyyətləri və tərcümə problemləri geniş şəkildə araşdırılmışdır. Əsas diqqət Azərbaycan dilinin elmi-texniki potensialının artırılması istiqamətində atılan addımlara, o cümlədən ali təhsil ocaqlarında, elm və informasiya sahəsində aparılan dil islahatlarına yönəldilmişdir. Məqalədə informasiya texnologiyaları, elektroenergetika, avtomatika və digər mühüm sahələr üzrə yaranan yeni termin nümunələri təqdim olunmuş, terminlərin ya kalka, ya fonetik uyğunlaşdırma, ya da yeni söz yaratma üsulları ilə dilə daxil edildiyi göstərilmişdir.

Особенности развития технической терминологии в 80-90-е годы XX века

Резюме

В статье анализируется процесс развития технической терминологии в азербайджанском языке в 80-90-х годах XX века в историко-лингвистическом контексте. Этот период, совпавший с последним периодом Советского Союза и начальным этапом после обретения независимости, характеризуется серьезным оживлением в области терминологии под влиянием технического прогресса и общественно-политических изменений. В статье подробно рассматриваются формирование технических терминов, способы их включения в словарь, лексико-семантические особенности и проблемы перевода. Основное внимание уделяется мерам, предпринимаемым для повышения научно-технического потенциала азербайджанского языка, в том числе языковым реформам, проводимым в высших учебных заведениях, в сфере науки и информации. В статье приводятся примеры появления новых терминов в области информационных технологий, электроэнергетики, автоматизации и других важных областях, и показано, что термины были введены в язык либо путем калькирования, фонетической адаптации, либо новыми способами словообразования.

Features of the development of technical terminology in the 80-90s of the 20th century

Summary

The article analyzes the development of technical terminology in the Azerbaijani language in the 1980s and 1990s in a historical and linguistic context. This period, which coincided with the last period of the Soviet Union and the initial stage after independence, is characterized by a serious revival in the field of terminology under the influence of technical progress and socio-political changes. The article examines in detail the formation of technical terms, the ways of their inclusion in the dictionary, lexical and semantic features and translation problems. The main attention is paid to the measures taken to increase the scientific and technical potential of the Azerbaijani language, including language reforms carried out in higher education institutions, in the field of science and information. The article provides examples of the emergence of new terms in the field of information technology, electric power engineering, automation and other important areas, and shows that the terms were introduced into the language either by calque, phonetic adaptation, or new ways of word formation.

RƏYÇİ: dos.L.Ələbərova

Səbinə Namik qızı Əliyeva[23]

"DİVANÜ LÜĞA-İT-TÜRK" ƏSƏRİNDƏ İSMİN QURULUŞ MODELLƏRİNİN ƏKSİ

Giriş. XI əsrdə yaşamış Mahmud Kaşğari elm aləmində xəzinə dəyərində olan "Divani lüğət-it-türk" əsəri ilə məşhurdur. "Divan" yalnız lüğət deyil, türk dillərinin ilk sözlüyü, onların tarixi, XI əsrdəki dili, qrammatikası, coğrafiyası və s. özündə əks etdirməsi baxımından olduqca dəyərlidir.

Görkəmli şəxsiyyət, böyük türkoloq olan M.Kaşğarinin "Divani lüğət-it-türk" əsəri ilə bağlı tədqiqatların aparılması, əsərin öyrənilməsi dilçiliyimizdə hər zaman diqqət mərkəzində olmuşdur. Müasir dövrümüzdə də dilçilərimizin əsərlə bağlı olan araşdırmaları aktuallığı ilə seçilir. Ölkəmizdə əsərin Azərbaycan dilinə tərcümə olunmasında, nəşri və geniş şəkildə tədqiqində məşhur türkoloq Ramiz Əskərin böyük rolu olmuşdur.

Qeyd etməliyik ki, R.Əskərdən əvvəl Xalid Səid Xocayev M.Kaşğarinin "Divani lüğət-it-türk" əsərini tərcümə etmiş lakin müəyyən səbəblərdən əsər nəşr olunmamışdır. X.S.Xocayevin tərcüməsinin 2024-cü ildə nəşr olunması müasir dilçiliyimizdə maraqla qarşılanmış və əsərin nəşrinin "Divan"ın 950 illik yubileyinə təsadüf etməsi bu nəşrin daha da maraqla qarşılanmasına səbəb olmuşdur.

Ölkəmizdə türkoloji araşdırmalar, xüsusilə, dilimizin fonetik, leksik, morfoloji və sintaktik quruluşunun tədqiq edilməsi geniş miqyasda aparılmışdır ki, bu tədqiqatlarda M.Kaşğarinin "Divan"ından da geniş formada istifadə edilmişdir. Əsərin XI yüzillikdə türk xalqlarının dilini, qrammatikasını əks etdirdiyini nəzərə alsaq, bu lüğətin dilimizin tarixi qatlarının araşdırılmasında nə dərəcədə əhəmiyyətli olduğunu müəyyən edə bilərik.

"Divan"da tədqiqata cəlb edilən əsas məsələlərdən biri də ismin quruluş modellərinin araşdırılmasıdır. Məşhur dilçi Muxtar Hüseynzadə qeyd edir ki, çağdaş ədəbi dilimizdə istifadə edilən isimlər mənaca müxtəlif olduğu kimi, şəkilcə də müxtəlifdir. Bildiyimiz kimi, bəzi isimlər yalnız bir kökdən, bəziləri kök və şəkilçidən, bəziləri isə iki və daha artıq sözün birləşməsindən ibarətdir. Qeyd etməliyik ki, qədim türk yazılı abidələrində və eləcə "Divan"da da isimlər quruluşca sadə, düzəltmə və mürəkkəb növlərə ayrılır.

Əsas hissə. "Divan"da yer alan sadə isimlər bir, iki, üç, nadir hallarda dörd hecalıdır. Qeyd etməliyik ki, lüğətdə verilən sadə isimlər arasında bir-iki hecalı isimlər üstünlük təşkil edir. Məsələn: adhus-dost, aba-ayı, ot, at və s [4, s. 125]. kimi sözlər bu qəbildəndir.

"Divan"da düzəltmə isimlər müasir Azərbaycan dilində olduğu kimi sadə isimlərə sözdüzəldici şəkilçilərin artırılması yolu ilə yaranır. Düzəltmə isimlərin yaranmasında iştirak edən sözdüzəldici şəkilçiləri nəzərdən keçirək.

1. İkivariantlı isim düzəldən şəkilçilər.

Bu şəkilçilərdən geniş istifadə olunanı çağdaş dilimizdə də peşə, sənət mənalı sözlər yaradan **-çı, -çi** şəkilçisidir. Məsələn: akın+çı-axınçı, tarığ+çı-əkinçi və s. Lakin bildirməliyik ki, burda müasir türk dillərindən fərqli olaraq şəkilçi ikivariantlıdır. Müasir türk dillərində -çı[4] formasında istifadə olunur.

Müasir dilimizlə səsləşən isim düzəldən şəkilçilərdən biri də **-daş,-dəş** şəkilçisidir. Bu şəkilçi qohumluq münasibəti bildirən isimlərin yaradılmasında iştirak edir [1, s. 75]. Məsələn: əmik+dəş-süd qardaşı, kanq+daş-qardaş sözlərini qeyd edə bilərik. Bildirməliyik ki, XI yüzillikdən fərqli olaraq müasir dilimizdə bu şəkilçinin -dəş forması istifadə edilmir. Bununla yanaşı, -daş şəkilçisi əlavə olaraq mənəvi yaxınlığı ifadə edən sözlərin yaradılmasında da iştirak edir. Məsələn: sirdaş, vətəndaş, yoldaş və s.

-lağ, -lək şəkilçisi müasir dilimizdəki kimi məkan anlayışını bildirən isimlərin yaradılmasında istifadə olunmuşdur. Məsələn: qış+lağ – qışlaq, tarığ+lağ – tarla və s. Lakin bu şəkilçi müasir dövrümüzdə -laq formasında istifadə edilir.

-dəm, -təm şəkilçiləri də "Divan"da isim düzəldən ikivariantlı şəkilçilər arasında yer alır. Belə ki, bu şəkilçi mənəvi keyfiyyət mənasında istifadə olunan isimlərin yaradılmasında iştirak edir. Məsələn: ər+dəm - fəzilət [5, s. 244]. Bu şəkilçi Kaşğari dövründə az da olsa istifadə olunmasına baxmayaraq müasir dilimizdə isim düzəldən şəkilçilər arasında yer almır.

2. Dördvariantlı şəkilçilər say etibarı ilə daha çoxdur. Bu şəkilçiləri və düzəltdikləri isimləri nəzərdən keçirək.

İlk olaraq -lığ, -liğ, -luğ, -lüğ şəkilçisini qeyd edə bilərik. Hansı ki, bu şəkilçi qrammatika kitablarında da təstiq olunduğu kimi -lı, -li, -lu, lü şəkilçisindən törəmədir və lüğətdə də bu şəkilçinin daşıdığı funksiyanı yerinə yetirir desək yanılmarıq. Məsələn: kəpəz+lig – pambığı olan, pambıq sahibi, at+lığ – atlı və s. [6, s. 128].

Mücərrədlik, vəziyyət, keyfiyyət, zaman anlayışı ifadə edən isimlərin yaradılmasında istifadə olunan -lık, -lik, -luk, -lük şəkilçisindən də geniş istifadə edilmişdir. Məsələn: akı+lık – cömərdlik və s. Bu şəkilçi müasir dilimizdə də istifadə edilir.

Dörd variantlı -ın, -in, -un, -ün şəkilçisiylə düzələn isimlərin də sayı heç də az deyildir. Məsələn: ak+ın – axın və s. Bu söz çağdaş azərbaycan dilində ax+ım fonetik tərkibində istifadə edilir.

Mücərrəd mənalı isimlərin yaradılmasında istifadə olunan -ınc, -inc, -unc, -ünc şəkilçisi müasir Azərbaycan dilində də daşıdığı funksiyanı qoruyub saxlaya bilmişdir. Məsələn: səv+inc – sevinc sözünü nəzərdən keçirsək aydın şəkildə görərik ki, "Divan"da istifadə olunan bu söz çağdaş dilimizdə də eyni formada istifadə edilir.

Müasir dilimizlə eyni funksiyanı daşıyan dördvariantlı şəkilçilərdən bir digəri -ış, -iş, -uş, -üş şəkilçisidir.

[23]AMEA, Nəsimi adına Dilçilik İnstitutunun doktorantı. E-mail: sebineeliyeva2014@mail.ruOrchid ID: 0000-0002-7071-7969
10.24412/2218-7588-2025-2-87-89

"Divan"da da bu şəkilçi ilə feildən isim düzəldilmişdir. Məsələn: ül+üş – bölüşdürmə, bık+iş – baxış və s [3, s. 67].

Son olaraq feil kökündən isim yaradan -ıt, -it, -ut, -üt şəkilçisini qeyd edə bilərik. Məsələn: ög+üt – nəsihət, öyüd.

Lüğətdə sadə, düzəltmə isimlərlə yanaşı mürəkkəb isimlərə də yer verilmişdir. Tədqiqatlarımıza əsasən deyə bilərik ki, mürəkkəb isimlərin sayı sadə və düzəltmə isimlərlə müqayisədə azdır.

Mürəkkəb isimlərə, əsasən, ləqəb, ad və titullarda, həmçinin bəzi əşyaların, boyların, səma cisimləri və yer adlarında təsadüf edilir. Mürəkkəb isimlərdən Beşbalık, Özkənd, Taşkənd, Tünkənd, alkabölük, bakırsokum və s. kimi isimləri qeyd edə bilərik.

Samət Əlizadənin, fikrincə, "Şühədanamə"də ayrı şəkildə yazılan *sarvan başı* kimi sözlər həmin dövrdə ehtimal ki, söz birləşməsindən mürəkkəb sözə keçid mərhələsində olmuşdur [2, s. 56].

Əsərdə iki və daha artıq sözdən ibarət olan mürəkkəb adlara da yer verilmişdir. Kara Sənqir, Ala Yığaç kimi yer adları, Bəgəç Arslan Tegin kimi şəxs adları, kutluğ tigin – qutlu, alp tigin – igid təkin karabaş – ev qulluqçusu və s. kimi titul, vəzifə adlarına da təsadüf edilir.

Lüğətdə qarşılaşdığımız qoşa sözlərin əksəriyyəti mürəkkəb isimdir. Buraya tərəfləri yaxın mənalı, sinonim və antonimlərdən ibarət sözlər daxildir. Məsələn: tün-kün – gecə-gündüz, arslan-burslan – arslan-qaplan, ot-yəm – ədviyyat, arış-arkağ – əriş- arğac və s.

Lüğətdə sinonim və antonimlər say etibarı ilə kifayət qədər çoxdur. Məsələn: ak-ürünq, yürək-könqül, ak-kara, savçı-yalavaç və s.

Nəticə. Tədqiqatlarımızdan belə nəticəyə gələ bilərik ki, XI yüzillik türk xalqlarının dilinin, qrammatikasının aynası olan Kaşğarinin "Divani lüğət-it-türk" əsərində qeydə alınmış isimlərin quruluş modelləri müasir dilimizdən fərqlənmir. Sadə ismlərdə müasir dilimizlə eynilik təşkil edən isimləri nəzərdən keçirdik. Lakin müəyyən fonetik dəyişikliklərə uğrayaraq müasir dövrümüzdə istifadə olunan sadə isimlərin sayca daha çox olduğu qənaətinə gəldik.

Təbii haldır ki, düzəltmə isimlərin yaranmasında iştirak edən müəyyən şəkilçilər çağdaş dilimizlə səsləşsə də, bir çoxunda fərqli məqamlar nəzərə çarpır. Tədqiqatımızda müasir dilimizdə də düzəltmə isimlərin yaradılmasında iştirak edən şəkilçilərin qeyd olunmasına üstünlük verilmişdir. Bu dilimizin qədim qatlarının öyrənilməsində olduqca əhəmiyyətli bir məqamdır.

Daha əvvəl də qeyd etdiyimiz kimi, mürəkkəb isimlər say etibarı ilə az olsa da tədqiqatımızdan kənarda qalmamışdır. Mədəni, ictimai-siyasi və tarixi dəyişikliklər ən çox mürəkkəb isimlərin çağdaş dilimizdən fərqlənməsinə təsir göstərmişdir. Lakin yaxın mənalı sözlərin birləşməsindən yaranan mürəkkəb isimlərdə müasir dövrümüzlə uyğunluq daha çox nəzərə çarpır.

İstifadə edilmiş ədəbiyyat

1. Əskər R. Mahmud Kaşğari və onun "Divanü lüğət-it-türk" əsəri. Bakı: MBM, 2008, 432 s.
2. Əskər R. Mahmud Kaşğarinin "Divanü lüğət-it-türk" əsəri üzrə biblioqrafik və qrammatik göstərici.Bakı: MBM, 2008, 192 s.
3. Hüseynli N., Məmmədova J. Türk dillərinin genologiyası: Şumer və türk leksik paralelləri. Bakı: Nağıl evi, 2012, 341 s.
4. Hüseynova M. Mahmud Kaşğarinin "Divani lüğət-it-türk" əsərinin qrammatik xüsusiyyətləri. Bakı: ADPU, 2022, 274 s.
5. Kaşğari M. Divanü lüğat-it-Türk. II cild. Bakı: Ozan, 2006, 400 s.
6. Kaşğari M. Divanü lüğat-it-Türk. I cild. Bakı: Elm və təhsil, 2024, 544 s.

Açar sözlər: "Divani lüğət-it-türk, isim, sadə isimlər, düzəltmə isimlər, mürəkkəb isimlər

Key words: "Diwani lughat-it-Turk", noun, simple nouns, derivative noun, compound nouns

Ключевые слова: «Дивани-турецкий словарь», существительное, простые существительные,существительные, сложные существительные

Xülasə

Dilçilik tarixində özünə məxsus yeri olan Mahmud Kaşğarinin "Divani lüğət-it-türk" əsəri üzərində uzun illər bir çox tədqiqatçılar müxtəlif istiqamətlərdə tədqiqatlar aparmışlardır. Əsərin türkcənin bizə məlum olan ən qədim lüğəti, antologiyası və ensiklopediyası olması baxımından əhəmiyyəti mütləq qeyd edilməlidir. "Divan" universal bir əsər olaraq bütün dil, qrup və ləhcələrin fövqündə dayanan və onların arasında fərq qoymadan istisnasız olaraq hər birini əhatə edən və bununla özündə cəmləşdirməsi baxımından kifayət qədər zəngin bir xəzinədir. Müasir Azərbaycan dilinin tarixi qatlarının öyrənilməsi istiqamətində də əhəmiyyətli rol daşıyan "Divan"da sadə isimlər, ismin kateqoriyaları hər zaman aktuallığını qoruyan məsələlər kimi bugün də dilçilərin diqqət mərkəzindədir. Böyük türkoloq M. Kaşğarinin "Divan"ında ismlərin lüğəvi məna qrupları, ona aid qrammatik kateqoriyaları, quruluşca məna növləri zəngin nümunə və izahlarla əks olunmuşdur. Tədqiqat işimizdə "Divan" da yer alan sadə isimlərin müasir Azərbaycan dilindəki qarşılıqları, ismin kateqoriyaları və s. kimi mövzulara yer vermişik. Əldə etdiyimiz nəticələr elmi yenilikləri və dilçilik sahəsindəki üstünlükləri baxımından diqqətə layiqdir. "Divan"da ismin qrammatik kateqoriyalarının geniş və aydın mənzərəsi yaradılıb.

Отражение моделей структуры существительного в произведении «Дивани -турецкому словарю »

Резюме

На протяжении многих лет многие исследователи проводили исследования в различных направлениях по «Дивани-турецкому словарю» Махмуда Кашгари, который занимает особое место в истории языкознания. Необходимо отметить важность этого труда, поскольку он является старейшим известным нам словарем, антологией и энциклопедией турецкого языка. Как универсальное произведение, «Диван» представляет собой достаточно богатое сокровище, поскольку он выходит за рамки всех языков, групп и диалектов и охватывает каждый из них без исключения, не делая между ними различий. В «Диване», который также играет важную

роль в изучении исторических пластов современного азербайджанского языка, простые имена существительные и категории существительных и сегодня находятся в центре внимания лингвистов, как вопросы, которые всегда оставались актуальными. В «Диване» великого тюрколога М. Кашгари с богатыми примерами и пояснениями отражены лексические группы значений имен существительных, их грамматические категории и структурные типы значений. В наше исследование мы включили такие темы, как эквиваленты простых существительных в «Диване» в современном азербайджанском языке, категории существительных и т.д. Полученные нами результаты заслуживают внимания с точки зрения их научной новизны и преимуществ в области языкознания. В «Диване» создана широкая и ясная картина грамматических категорий имен существительных.

Reflection of the structural models of the noun in the work "Diwani lughat-it-turk"

Summary

For many years, many researchers have conducted research in various directions on Mahmud Kashgari's "Diwani lughat-it-turk", which has its own place in the history of linguistics. The importance of the work in terms of being the oldest dictionary, anthology and encyclopedia of Turkish known to us must be noted. "Diwan" is a universal work that stands above all languages, groups and dialects and covers each of them without exception without distinction and thus is a fairly rich treasure in terms of its inclusion. In "Diwan", which also plays an important role in the study of the historical layers of the modern Azerbaijani language, simple nouns and noun categories are still in the focus of attention of linguists today as issues that always maintain their relevance. In "Diwan" by the great Turkologist M.Kashgari, the lexical meaning groups of nouns, their grammatical categories and structural meaning types are reflected with rich examples and explanations. In our research work, we have included topics such as the equivalents of simple nouns in the “Divan” in modern Azerbaijani, the categories of nouns, etc. The results we have obtained are noteworthy in terms of their scientific innovations and advantages in the field of linguistics. A broad and clear picture of the grammatical categories of nouns has been created in the “Diwan”.

For many years, many researchers have conducted research in various directions on Mahmud Kashgari's "Diwani lughat-it-turk", which has its own place in the history of linguistics. The importance of the work in terms of being the oldest dictionary, anthology and encyclopedia of Turkish known to us must be noted. "Diwan" is a universal work that stands above all languages, groups and dialects and covers each of them without exception without distinction and thus is a fairly rich treasure in terms of its inclusion. In "Diwan", which also plays an important role in the study of the historical layers of the modern Azerbaijani language, simple nouns and noun categories are still in the focus of attention of linguists today as issues that always maintain their relevance. In "Diwan" by the great Turkologist M.Kashgari, the lexical meaning groups of nouns, their grammatical categories and structural meaning types are reflected with rich examples and explanations. In our research work, we have included topics such as the equivalents of simple nouns in the “Diwan” in modern Azerbaijani, the categories of nouns, etc. The results we have obtained are noteworthy in terms of their scientific innovations and advantages in the field of linguistics. A broad and clear picture of the grammatical categories of nouns has been created in the “Diwan”.

Rəyçi: f.e.d., prof. Mahirə Hüseynova

Səmayə Əhməd qızı Cəlilova[24]

MƏHƏMMƏD FÜZULİNİN DİLİNDƏ İŞLƏNMİŞ FRAZEOLOJİ VAHİDLƏRİN MİLLİ TƏRKİBİ

Giriş. Bəşər tarixində elə böyük mütəfəkkirlər var ki, onlar sadəcə mənsub olduqları xalqa deyil, daha böyük coğrafiyaya, insan topluluğuna, fikir, düşüncə cərəyanlarına təsir göstərir, nələrisə dəyişir, yeniləyir, yeni istiqamət göstərir, cığırlar, yollar açır. Kərbəla coğrafiyasında, Osmanlı təbəəliyində, müxtəlif dini məzhəblərin üz-üzə, göz-gözə, iç-içə yaşandığı bir zaman və məkan dilimində Əhli-Beyt sevgisi ilə yetişmiş və Azərbaycan tükcəsinin qrammatikası ilə dünyaya ölümsüz əsərlər miras buraxmış böyük mütəfəkkir Məhəmməd Füzuli Osmanlı divan ədəbiyyatının da, İraq türkmanlarının da, Azərbaycan türklərinin də şəriksiz və ən böyük nəzm ustadı sayılır. Əslində Azərbaycan türkcəsini Füzuliyə qədərki və Füzulidən sonrakı mərhələlər üzrə təsnif etmək və araşdırmaq da çox düzgün yanaşma olardı. Doğrudur, Füzulinin dilində işlənmiş çoxsaylı ərəb və fars sözləri bəzən fikrin tam anlaşılmasına çətinlik yaradır, ancaq onu da deyək ki, şairin tərtəmiz türkcədə yazdığı misralar var ki, oxucu mənalar arasında çaşıb qalır. Çoxmənalılıq, bir sözün bətninə bir neçə fərqli anlamlar sığdırmaq Füzuli dühasının spesifik xüsusiyyətidir.

Hər üç dilin gözəlliyi, geniş imkanları Füzuli ruhuna hopmuşdu. Bu üç dil arasında nə bir sərhəd, nə də təkanlı məftillər vardı, istədiyin zaman bu dildən o dilə, o dildən bu dilə keçə bilirdin. Bu imkan və sərbəstlik hər kəsin qəbul elədiyi, təbii bir imtiyaz, səlahiyyət idi. Məhz M.Füzuli kimi düha hər üç dildə o dilin incisi sayılacaq divan tamamlaya bilərdi ki, həmin əsərlər bu gün də o dillərin sevilən ədəbi nümunələri sayılır.

Şeirin, xüsusilə də klassik ədəbiyyat nümunələrinin qarşısında lakoniklik, az sözlə dünyanı yerindən tərpədə, insanın ruhunu canından çıxarıb sonsuzluğa yönəltmək hər zaman çox mühüm tələb kimi dayanıb. Ona görə də hər zaman belə olub ki, şairin bir beytə sığdırdığı mənanı açmaq, izah etmək, başqalarına çatdırmaq üçün sayca o beytdəkilərdən beş dəfə, on dəfə artıq söz işlətməli olursan. İçi məna yükü ilə dopdolu olan bu kəlmələri beytin misra qəliblərinə yerləşdirərkən şair istər-istəməz məsələnin texniki tərəfinə də baxmalı, dildə, deyilişdə qüsur eləməməyə çalışmalıdır. Bu məqamda, əlbəttə, dilin hazır materiallarından, frazeoloji birləşmələrdən istifadə şair üçün qaçılmaz hala gəlir. Amma bu məsələdə əsas olan dilə, daha doğrusu, dillərə hakim ola bilməkdir. Füzuli ərəb, fars və türk dillərinin bir-birinə keçid qapılarını dəqiq müəyyən etmiş sənətkardır. O, bəzən hazır bir ifadəni alıb olduğu kimi misraya yerləşdirir, bəzən də oxucusunə hələ o zəmana qədər müəyyən edilməmiş yeni söz birləşmələri, frazemlər təklif edir. Bu frazeoloji birləşmələr bəzən tamamın türk mənşəli olsa da, bəzən qarışıq olur, ya hər iki tərəfi ərəb və ya fars dilindən alınır. Onu da vurğulamaq lazımdır ki, bu gün Türkiyədə əksər ədəbiyyatşünaslar Füzuli şeirinin qrammatikasının Azərbaycan qrammatikası ilə yüz faiz üst-üstə düşdüyünü, işlətdiyi bir çox frazeoloji vahidlərin Anadolu coğrafiyasına deyil, Azərbaycana məxsus olduğunu təsdiq edirlər.

Əsas hissə. Frazeoloji vahidlərin elə bir kombinasiyasını göstərmək mümkün deyil ki, onun nümunələrinə Füzuli şeirlərində rast gəlmək mümkün olmasın. M.Füzuli dilinin tədqiqatçılarından professor T.Hacıyevin dediyi kimi, M.Füzuli Azərbaycan ədəbi dilinin banisidir. Bu, o deməkdir ki, M.Füzuli dilinin qrammatik quruluşu və əsas lüğət fondu Azərbaycan-türk millətinin (bu, eynən Azərbaycan xalqı deməkdir) dilinin əsasıdır və müasir milli Azərbaycan ədəbi dilinə uyğundur (8). Sözə böyük məsuliyyətlə yanaşan ustad Füzuli ifadə yaradıcılığı sahəsində ciddi fəaliyyət göstərmiş, Azərbaycan şeir dilinin müdrik, qanadlı və ibarəli şeir dili pilləsinə yüksəlməsi üçün çox böyük tarixi işlər görmüşdür (4).

Bu gün dilimzdə işlənən elə frazeoloji birləşmələr yoxdur ki, Füzuli yaradıcılığında olmamış olsun. Füzuli dilindəki frazeoloji birləşmələrin, atalar sözləri və məsəllərin hamısı müasir Azərbaycan dilində yaşayır və işlənir. Azərbaycan ədəbi-bədii dilinin inkişafında, klassik şeir üslubunun yüksək zirvəyə qaldırılmasında Füzulinin böyük xidmətlərindən biri, həm də birincisi onun tərəfindən bir çox Azərbaycan sözlərinin ilk dəfə şeir dilinə gətirilməsi və əvvəlki mərhələdə ədəbi dildə işlədilən bir sıra ərəb, fars sözlərinin, ifadələrinin azərbaycanca söz və ifadələrlə əvəz edilməsində, Azərbaycan dili vahidlərinin zənginləşdirilməsində və aparıcılıq xüsusiyyətlərini gücləndirməsindədir (3).

Faktlar göstərir ki, Füzuli dilindəki frazeoloji birləşmələri təşkil edən sözlər, bir qayda olaraq, mənsub olduğu dildə ümumxalq səviyyədə, yəni hər kəsin işlədəcəyi və anlayacağı səviyyədədir. Bununla yanaşı, Füzuli yaradıcılığındakı frazeoloji birləşmələrdə o dövrün xalq dili üçün yox, klassik şeir dili üçün məqbul sayılacaq lüğət vahidlərinə rast gəlirik. Türk dillərindəki hər hansı frazemin qarşılığı ərəb, yaxud fars dilində olduğundan Füzuli öz ana dilində olan frazemin ya bütünlükdə əcnəbi qarşılığını verir, ya da birinci hissəsini alınma sözlərlə əvəz edərək işlədir:

Vəslin mənə həyat verir, firqətin məmat,
Sübhanə, xaliqən xələqəl mövtə vəl-həyat (6, s. 87).

Vəsl qədrin bilmədim hicran bəlasın çəkmədən,
Zülməti-hicr etdi çox mübhəm işi rövşən mana (6, s. 60).

Qəmzə tiğin çəkdi ol məh, olma qafil, ey könül,
Kim müqərrərdir bu gün ölmək sana, şivən mana (6, s. 60).

Mey içmədən açılmaz imiş babi-məğfirət,
Cobqəndilər bu babidə piri-muğan içər (6, s. 136).

Bu son beytdə "cobqəndilər içər" frazemi "and içmək" birləşməsinin təsiri ilə yaranmışdır. Füzuli yaradıcılığındakı frazeoloji birləşmələrə geniş xalq kütlələrəinin gündəlik ünsiyyətində və hər təbəqəsində rast gəlmək olar. Bu cür

[24]BDU-nun müəllimi. cebmerli14@gmail.com
10.24412/2218-7588-2025-2-90-93

nümunələr ərəb-fars sözləri ilə ünsiyyətə girərək bir anlaşma şəraiti yaratmışdır. Nümunələrə nəzər salaq:

Füzuli, ayrı düşdün yaridən, səbr etməyə yer yox,
Düşüb səhrayə əfqan edəlim, sən ayru, mən ayru (6, s. 281).

Dün demişsən ki, Füzuli mənə qurban olsun,
Sənə qurban olayım, yenə nə ehsandır bu? (6, s. 280).
Qan edibən bağrın, işi mah etmə, hər dəm, ey fələk,
Hörmətim tut, bir-iki gün kim, sənin mehmaninəm (6, s. 253).

Füzuli dilinin frazeologiyası həm zənginliyi, həm də anlaşma dərəcəsi ilə eynən bugünkü kimi olmuşdur: gözə gəlmək, qulaq tutmaq, əldən getmək, qurunun oduna yaşın yanması, yelə vermək, üzünü ağ etmək, qara bağrını qan etmək, cana yetmək, hörmətini tutmaq, ayağına düşmək (yalvarmaq), barmağını dişləmək, üz döndərmək, canına od vurmaq, qulaq tutmaq, tüstüsü başından çıxmaq, ayağın kəsmək (gəlməmək), ayaq basmaq, könlünü almaq...

Klassik Azərbaycan şeirinin ən gözəl nümunələrini yaradan Füzulinin əsərlərinin frazeoloji tərkibini araşdırarkən türk mənşəli sözlərin aparıcı olduğu açıq-aydın görünür. Bizim hesablamalarımıza əsasən, Füzuli dilində təxminən altı yüzə yaxın hər iki tərəfi türk mənşəli frazeoloji birləşmələr işlənmişdir. Füzulinin şeir dilində işlənməş hər iki tərəfi türk mənşəli frazemlərin böyük çoxluğu bu gün də öz işləkliyini saxlamış,müasir ədəbi dildə, xalq danışıq dilində işlənməkdədir: gözət gəlmək, başın aşmaq, başından aşırmaq, özünə gəlmək, yola düşmək, qanlı yaş axıtmaq, yerə düşmək, əldən getmək (yox olmaq), qan tutmaq, torpaq olmaq, aradan götürmək (yox etmək), könlünü yıxmaq, baş qoşmaq, üzünü qara etmək, ayaq kəsmək, başına daşlar yağmaq, əldən-ələ gəzdirmək, özünü itirmək, yelə vermək, üz vermək (baş vermək), qan uddurmaq (zülm etmək), könül vermək, ümidini kəsmək, başına çizginmək (başına dolanmaq), odlara yanmaq, könlü sınmaq, gözdən düşmək, qan ağlamaq, bağrını dəlmək, göyə sovurmaq...

Demiş hər qönçəyə aşiqliyin razın səba derlər,
El ağzın tutmaq olmaz, qorxuram, ey dil, sənə derlər (6, s. 128).
Gər degil bir mah mehrilən mənim tək zar sübh,
Başın açıb nişə hər gün yaxasın yırtar sübh (6, s. 103).
Yeldə bulmuş buyi-zülfin, suda əksi-arizin,
Kim yeli bağruna basub, suya göz dikmiş hübab (6, s. 80).

Füzulinin elə beytləri var ki, poetik fikrin ağırlığı milli frazemlərin üzərinə düşür. Məsələn:

Gah gözdə, gah könüldə xədəngin məkan tutar,
Hər qanda olsa, qanlını əlbəttə, qan tutar (6, s. 120).
Baxdıqca sənə qan saçılır didələrimdən,
Bağrım dəlinir navaki-müjganını görgəc (6, s. 99).

Burada "qan saçılır" yəni "gözlərindən qanlı qığılcımlar yayılır", bağrım dəlinir – ürəyim parçalanır mənaları ilə şair könlünün iztirablarını, əzablarını bütün açıqlığı ilə təsvir edir:

Düşməzəm könlünə, yəni oluban oylə zəif,
Dərdi-eşqinlə ki, güzgudə görünməz əsərim (6, s. 239).

"Könlünə düşmərəm", yəni "sənin eşqindən, həsrətindən, dərdindən o dərcədə zəifləmişəm ki, artıq gözə görünmürəm, sənin yadına düşmürəm və elə hala gəlmişəm ki, güzgüdə əksim belə görünmür" deyən şair dilin frazeoloji mənbəyi vasitəsi ilə öz fikrini böyük ustalıqla və məntiqli ifadələrlə çatdırır:

Tiği-ğəmzən atma kim, bağrım dələr, qanım tökər,
İqdi-zülfün açma kim, aşuftəhal eylər məni (6, s. 138).

Füzuli Azərbaycan bədii fikrinin ən gözəl nümunələrini yaratmışdır. Dediyimiz kimi, ustad şairin dilində işlənməş türk mənşəli frazemlərin komponentləri semantik cəhətdən öz sabitliyini saxlamışdır. Bununla yanaşı, sonrakı əsrlərdə müəyyən dəyişikliyə uğramış və ya arxaikləşmiş frazeoloji vahidlər də şairin yaradıcılığında öz əksini tapmışdır:

Fərhad həvəs ilə yelə verdi ömrün,
Xak oldular onlar, mənəm indi ol xak (6, s. 396).
Başda hər tük eşq odundan bir tütündür kim, çıxar,
Cizginən başım bəla bəzmində bənzər məcmərə (6, s. 301).
Kim düşdü ayaqdan, usu getdi (7, s. 73).
Xahi dərviş ola vü xahi ğəni,
Usu arar duşunda görsə səni (7, s. 246).

"Us"- ağıl, düşüncə; "duş" sözü isə yuxu mənasında işlənmişdir. Qədim türk dillərinə dair abidələrdə "duş" sözü "tuş" şəklində, yuxu, yuxugörmə mənalarında da veriliir. Azərbaycan dilinin Zaqatala şivəsində "duş" sözü bu gün də duş, tuş, çuş fonetik tərkiblərində yuxu, röya, vaqiə mənalarında işlədilir.

Füzuli dilinin tədqiqatçılarından olan H.Mirzəzadə yazır: "Füzuli dilində işlənən Azərbaycan sözlərinin çoxluğu xalq təfəkküründün, milli mədəniyyətimizin bir forması kimi dövrün ədəbi dilinin ümumi mənzərəsini təsəvvür etməyə bir açardır" (9, s. 31).

Füzulinin əsərlərində bu tipli qədim Azərbaycan sözlərinin işlənməsi ustadın ana dilinin söz xəzinəsindən böyük məharətlə faydalandığını bir daha təsdiq edir:

Razi-dəruni dışraya salmaq rəva degil,
Budur günahı kim, asılır müqtəsil cərəs (6, s. 172).

Frazeoloji birləşmələrin köməyi ilə şair bu beytdə elə bir fikir fırtınası törədir ki, mənzərəyə baxıb heyrət etməmək mümkün deyil: "Könlün içindəki sirri səs çıxararaq çölə yaymaq doğru deyil, çünki bir can, bir bədən hər zaman bu günahından dolayı asılır, edam edilir".

Füzuli qəzəllərində çox vaxt milli sözlərdən ibarət frazeoloji birləşmələrin içində ərəb və ya fars sözü olur ki, bunlar da izahedici vasitə rolunu oynayır:

Degil bihudə gər yağsa fələkdən başıma daşlar,
Binasın tişeyi-ahimlə viran etdigimdəndir (6, s. 122).
Nə tütündür ki, çıxar çərxə, dili-zarə məgər,
Hicr dağını urur, laləüzarım bu gecə? (6, s. 293).
Nola girdabi-ğəm dersə, dili-sərgəştə dünyayə,
Sanır kim, cizginir aləm, kimin kim cizginir başı (6, s. 315).
Topraqdan götür məni, ey əşgi-laləgün!
Başımdan etmə sayəni kəm, ey hübabi-xun (6, s. 278).
Həm vüsalı urur od canıma, həm hicranı,
Bu əcəb şəm ilə düşdü, səri-karım bu gecə (6, s. 293).

Ana dilimizdəki "başına daşlar yağmaq", "dağ vurmaq", "od basmaq" kimi ifadələr fələk, hicran, aləm, sayə, həsrət kimi ərəb-fars sözləri ilə daha da konkretləşdirilir və şairin bədii məqsədinin ifadə vasitəsinə çevrilir.

Füzuli dilində işlənməş hər iki tərəfi türk mənşəli frazemlərin adlıq hissəsi daha çox insanın bədən üzvləri ilə ifadə olunur: əl, ayaq, üz, baş, göz, barmaq, bağır, qulaq, köks, dil və sair. Haqqında danışdığımız bu frazeoloji birləşmələrə diqqət yetirdikdə bir daha şahid olursan ki, böyük söz ustadı Azərbaycan frazeologiyasının leksik fondunun, ifadə imkanlarının inkişafında, genişlənməsində yeni mərhələ yaratmışdır.

Bir qədər irəlidə dediyimiz kimi, Füzuli dilindəki frazemlərin tərkib hissələri sırf türk sözlərindən ibarət olduğu kimi, bir çox hallarda da həmin sözlərdən biri ərəb və ya fars mənşəli olur. Frazeoloji vahidlər, heç şübhəsiz ki, ümumxalq dili səciyyəsi daşıyır. Lakin bununla yanaşı şairin dilində klassık şeir dili üçün məqbul sayıla biləcək tərkiblərlə də qarşılaşırıq. Bəzi hallarda frazemin tərkibində ümumxalq səciyyəli əcnəbi söz qismən çətin anlaşılan sözlə də əvəz olunur.

Füzuli dilində işlənmiş birinci tərəfi ərəb mənşəli frazemləri aşağıdakı kimi qruplaşdırmaq olar: mənası asan anlaşılan, bu gün də işlənən və dilimizdə vətəndaşlıq hüququ qazanmış, Azərbaycan dilinin qrammatik qanunlarına uyğunlaşmış frazeoloji birləşmələr: cəza vermək, əsir qoymaq, əzab vermək, eşqə salmaq, qədrini bilmək, hicran bəlası, rəhm ummaq, qəmdən ölmək, hicrə dözmək, cövr çəkmək, nəzər salmaq, heyrətdə qalmaq, zəhmət çəkmək, nitqdən düşmək, həyat vermək, eşqə düşmək, nitqi tutulmaq, qəflət yuxusu, dəm vurmaq, ədəb saxlamaq, cənnət quşu, zülm çəkmək, etibarı getmək, vətən tutmaq, xəcalət çəkmək və sair tipli frazeoloji birləşmələr bu gün də dilimizdə işlənməkdədir. Eyni zamanda M.Füzuli yaradıcılığında işlənmiş birinci tərəfi ərəb mənşəli sözlərdən ibarət elə frazeoloji vahidlər var ki, bu gün demək olar ki, işlənmir, işlənirsə də çox az işlənir: əcəl peyki (ölüm mələyi), məmat vermək (ölüm vermək), ehya vermək (həyat, dirilik vermək), möhnət yükü, dürr tökmək, məqam tutmaq, damənin (ətəyini) tutmaq, məlamət (qınaq) daşı, əflakə (göylərə) çəkmək, təriqə (yola) salmaq, təqrirə gətirmək (izah etmək)...

Füzuli yaradıcılığında tez-tez rast gəlinən fars mənşəli can, güzar, peyda, sayə, xab, düşmən, kar, ləb, bəxt, rəva, sirişk, azar, çeşm, zülf, pünhan, nalə, sitəm, əndişə, dəşt, rüzgar, cahan və sair sözlərlə düzəlmiş frazeoloji birləşmələrə nəzər salaq: dəmgahə düşmək (tələyə düşmək), guş tutmaq, pünhan tutmaq, can vermək, sayə salmaq, xab gətirmək, kar etmək, sirişk saçmaq, xoş gəlmək, aşiyan tutmaq, can vermək, can bağışlamaq, damənin tutmaq, ciyəri yanmaq və sair.

Sinəm həvayi-eşqin ilə doldu ney kimi,
Dəm vurduğumca ahu fəğandır çıxan nəfəs (6, s. 172).

Bu beytdə şair deyir ki, sinəm ney kimi sənin eşqinin havası ilə doludur, hər nəfəs aldığımıda köksümdən çıxan nəfəs deyil, ahu-fəğandır.

Füzuli məcazi obrazlar, ifadələr yaradıcılığında ərəb, fars və türk lüğat vahidlərinə eyni dərəcədə etibar edir. Şair obraz yaradıcılığında hər üç dilin materialına istinad etsə də, türk sözünü obraz səviyyəsinə qaldırarkən öz təxəyyülünə xüsusi güc verməli olmuşdur (5, s. 19).

Əks ruyin suya salmış sayə, zülfün toprağa,
Ənbər etmiş toprağın adın, suyun ismin gülab (6, s. 80).

Bu beytdə şair gözələ deyir: Üzünün əksi suya, saçın isə torpağa kölgə salır. Üzünün şəkli suyu gülaba döndərib, saçın torpağın adını dəyişib ənbər edib. Göründüyü kimi, bəzi hallarda frazeoloji vahidin içində türk sözlərinin ərəb və ya fars sözləri ilə əvəzlənməsinə baxmayaraq, həm frazeoloji məna saxlanılıb, həm də anlaşılma olduğu kimi qalıb: Suya salmış sayə (kölgə)...

Nəticə. Şairin dilində milli sözlərlə əcnəbi sözlər qaynayıb qarışmış, semantik və qrammatik cəhətdən uyğunlaşmışdır. Ümumiyyətlə, Füzuli dilindəki frazeoloji birləşmələrdə milli mənşəli leksika işlənmək tezliyinə görə üstünlük təşkil edir. Füzuli dilindəki frazeologiya milli dilinkidir (8). Füzulidə həm ana dili sözləri, həm də alınma leksik vahidlər poetik dilin zənginliyini təmin edir. Onun dilində nə qədər çox ərəb, fars sözləri işlənsə də onlar aparıcı mövqeyə sahib deyillər. Füzuli sənətinin yaranmasında ana dilinin Azərbaycan xalq dilinin milli-leksik materialı əsasdır, həlledicidir. Eyni vəziyyət frazeoloji birləşmələrə də aiddir.

İstifadə edilmiş ədəbiyyat

1. Bayramov H. Azərbaycan dili frazeologiyasının əsasları. Bakı: Maarif, 1978.
2. Cavadova M. Ş.İ.Xətainin leksikası. Bakı: Elm, 1977, 216
3. Dəmirşizadə Ə. Azərbaycan ədəbi dili tarixi. I hissə.
4. Əlizadə S. Füzulinin dilində frazeologiyanın mövqeyivə əhəmiyyəti. AEA-nın Nəsimi adına Dilçilik institutunun məqalələr məcmuəsi. Bakı, 1977.
5. Əlizadə S. Şah beytlər. Bakı: Azərnəşr, 2022, 208 s.
6. Füzuli M. Seçilmiş əsərləri, I cild. Bakı, 1958.
7. Füzuli M. Seçilmiş əsərləri, II cild. Bakı, 1958.
8. Hacıyev T. Yzaıçı dili və ideya-bədii təhlil. Bakı: Maarif, 1979.
9. Mirzəzadə H. M.Füzulinin dili. Bakı, 1965.

Açar sözlər: Füzuli, poeziya, eşq, göz, dünya, hicran, səhra, vüsal
Key words: Fuzuli, poetry, love, eye, peace, parting, desert, reunion
Ключевые слова: Физули, поэзия, любовь, глаз, мир, разлука, пустыня, воссоединение.

Xülasə

Füzuli şeirinin dili heyratamiz dərəcədə güclüdür, təsirlidir, lakonikdir, təsviri o qədər canlıdır ki, oxuduğun əsəri film kimi görə bilirsən. Tam qətiyyətlə deyə bilərik ki, XVI-XVI əsr ədəbi düşüncənin və ədəbi dilin formalaşmasında Füzulinin rolu müqayisə olunmayacaq qədər böyükdür. Türkdilli ədəbiyyatda öz ardıcıllarına Füzuli qədər təsir göstərən ikinci bir şair tapmaq mümkün deyil.

Füzulinin üstünlüyü də məlum həqiqəti ən dolğun, təsirli və heyrətamiz dərəcədə gözəl bir üslubda oxucunun gözləri önündə canlandıra bilməsindədir. Bütün şərq mütəfəkkirlərində olduğu kimi Füzulinin əsərlərində də 3 personaj var: can, canan, əğyar. Can şairin özü, canan Allah, əğyar isə canana gedən yolda canın qarşısını kəsən, onun canana qovuşmasını əngəlləyən dünyanın ötəri gözəllikləri və zövqüdür. Füzuliyə görə, dünya sevgisi ötəri, Allah sevgisi isə əbədidir, əbədini sevən əbədiyə qovuşar, əbədilik qazanar. Füzulinin gücü, üstünlüyü də əmin olduğu bu həqiqətləri ən inandırıcı şəkildə oxucusuna təqdim edə bilməsindədir.

Summary

The language of Fuzuli's poetry is powerful, effective, laconic, and the description is so vivid that the reader can see the work as a film. With complete confidence without exaggeration, we can say that the role of Fuzuli is incomparable in the formation of literary thought and literary language in the XVI-XVI centuries. It is impossible to find a second poet in Turkic literature who influenced his followers as much as Fuzuli.

Fuzuli's advantage is that he was able to bring the known truth to life before the reader's eyes in the most complete, practical and surprisingly beautiful style. As in all Oriental thinkers, there are three characters in Fuzuli's works: lover, beloved and the betrayer. The lover is the poet himself, the beloved is God, and the soul is the betrayer is the beauty and pleasure of the world that blocks the lover on the path and prevents him/her from reuniting with the beloved. According to Fuzuli, the love of the world is temporary. Nevertheless, the love of God is eternal, and the one who loves eternity will be reunited with eternity and gain eternity. Fuzuli's strength and superiority lie in the fact that he could present these truths to his readers in the most convincing way.

Резюме

Язык стихов Физули удивительно силен, эффектен, лаконичен, описание настолько яркое, что прочитанное произведение можно увидеть как фильм. Можно с полной уверенностью сказать, что роль Физули в формировании литературной мысли и литературного языка XVI-XVI веков несравнима велика. В тюркоязычной литературе невозможно найти второго поэта, оказавшего такое же влияние на своих последователей, как Физули.

Преимущество Физули в том, что он способен воплотить известную правду в жизнь на глазах читателя в наиболее полном, эффективном и удивительно красивом стиле. Как и у всех восточных мыслителей, в произведениях Физули три персонажа: душа, возлюбленная и соперник. Душа - это сам поэт, возлюбленная - это Бог, а соперник - это красота, сладости или радости мира, которые преграждают путь, и мешает воссоединиться с возлюбленной. Согласно Физули, любовь – это временное явление, а любовь к Богу вечна, и тот, кто любит вечность, воссоединится с вечностью и обретет вечность. Сила и превосходство Физули в том, что он умеет наиболее убедительно преподносить эти истины своим читателям.

Rəyçi: Filologiya üzrə fəlsifə doktoru, dosent Firəngiz Kərimli

Könül Məhyəddinova [25]

TÜRK VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ SADƏ CÜMLƏLƏR VƏ ONLARIN BÖLGÜSÜNƏ MÜNASİBƏT

Giriş. Son dövrlər ölkəmizdə dilçiliyin inkişafına dövlət qayğısının daha da gücləndirilməsi aktual məzmun daşıyan tədqiqatların aparılmasını və bu sahədə yeni istiqamətlərin araşdırılmasını gündəmə gətirir. Xüsusilə böyük qələbədən – tarixi Zəfərdən sonra ölkəmiz türk dünyasında öz tarixi nüfuzunu bir qədər də möhkəmləndirmiş, Azərbaycan reallıqları regionda olduğu kimi, türk dünyasında da böyük əks-səda yaratmışdır. Və beləliklə, qlobal miqyasda mürəkkəb hadisələrin baş verdiyi bir dönəmdə uğurla irəliləyən ölkəmizlə türk dövlətləri arasındakı siyasi-iqtisadi və elmi-mədəni əlaqələr yeni mərhələyə qədəm qoymuşdur. Xüsusilə Azərbaycanın qardaş Türkiyə ilə çoxəsrlik dərin köklərə bağlı əlaqələri bu gün tamamilə yeni müstəviyə qalxmış və nəticədə hər iki ölkədə arasında elmi-mədəni münasibətlər daha sıxlaşmışdır. Bu mənada, hər iki dilin qranmmatik quruluşunun elmi-nəzəri səviyyədə müqayisəli öyrənilməsi mühüm aktuallıq daşıyır.

Digər tərəfdən, qeyd etməliyik ki, həm Azərbaycan, həm də türk dilçiliyində sintaktik quruluşla bağlı araşdırmlar elmi-nəzəri səviyyəsinə və tədqiqat metodlarına görə bir-birindən kəskin fərqlənir. Hər iki türkcənin sintaktik quruluşundakı kiçik məqamları nəzərə almasaq, burada kəskin müxtəlifliklə qarşılaşmaq mümkün deyil. Ancaq elmi-nəzəri görüşlərdə bu fərqi aydın görmək olar. Yəni bu dillərin cümlə texnologiyası bənzər olsa da, bu barədəki nəzəri görüşlər müxtəlifdir. Bu baxımdan türk dilinin sintaktik quruluşunu zəngin nəzəri materiallar bazasında tədqiq etmək və dilin bu sahədəki zənginliyini üzə çıxarmaq baxımından araşdırmamız mühüm əhəmiyyət daşıyır.

Məlumdur ki, hər hansı bir dildə danışarkən şəxsin əsas məqsədi fikrini dinləyənə düzgün çatdırmaqdan ibarətdir. Uğurlu kommunikasiyaya nail olmaq üçün cümlədə sözlərin və söz birləşmələrinin, forma və mənaca bir-birinə bağlanması mütləqdir. Göstərilən proses baş verməsə, düzgün nitq əmələ gələ bilməz. Cümlənin qurulmasında onun bütün vasitələri, bütün ünsürləri iştirak edir. Cümlə aid olduğu mərhələdə həm xalqın təfəkkürünü, həm də dilin inkişaf səviyyəsini əks etdirən ən mühüm vasitədir. O dilin daxili qanunları əsasında formalaşan və bitmiş fikri ifadə edən sintaktik vahiddir. Cümlə hər bir dilin öz daxili qanunları əsasında formalaşır.

Sadə cümlə anlayışına nəzəri baxışlar

Hər hansı bir dildə danışarkən danışanın əsas məqsədi fikrini dinləyənə düzgün çatdırmaqdan ibarətdir. Uğurlu kommunikasiyaya nail olmaq üçün cümlədə sözlərin və söz birləşmələrinin, forma və mənaca bir-birinə bağlanması mütləqdir. Göstərilən proses baş verməsə, dil əmələ gələ bilməz. Cümlənin qurulmasında onun bütün vasitələri, bütün ünsürləri iştirak edir. Cümlə aid olduğu mərhələdə həm xalqın təfəkkürünü, həm də dilin inkişaf səviyyəsini əks etdirən ən mühüm vasitədir. O dilin daxili qanunları əsasında formalaşan və bitmiş fikri ifadə edən sintaktik vahiddir. Cümlə hər bir dilin öz daxili qanunları əsasında formalaşır.

Cümlə dilçilikdə mübahisəli məsələlərdən hesab edilir. Bir sıra dilçilər "cümlə" anlayışına müxtəlif formada yanaşmışlar. Cümlədə söz və söz birləşmələri arasında sintaktik-semantik və intonasiya əlaqəsi olmadan dil formalaşa bilməz və bitmiş bir fikir ifadə oluna bilməz. M.Peterson "bitmiş bir fikir ifadə edən və intonasiya vahidi olan söz və söz birləşmələri"ni cümləyə aid edir [9, s. 85]. V.Vinoqradovun fikrincə, cümlə hər hansı bir dilin qrammatik qanunları əsasında düzələn dil vahidi olub, fikrin formalaşmasına və ifadə edilməsinə xidmət edən vasitədir [10]. N. Dmitriyev yazır ki, "cümlə elə sözlər qrupudur ki, bu qrup müəyyən bitmiş fikri ifadə edir və bu fikirdən hər hansı bir real nəticə çıxarmağa imkan verir. Cümlənin tərkibinə elə sözlər daxildir ki, bunlar öz məntiqi qarşılıqlı əlaqəsinə görə hər hansı bir hökmü ifadə edir, yəni hər hansı bir yeni bitmiş fikir və ya mühakimə bildirir" [2, s. 104].

Cümlənin səciyyəvi xüsusiyyətlərini təhlil edən İ.İvanova belə nəticəyə gəlir ki, "cümlə predikativliyi xarakterizə edən müəyyən struktur tərkibi realizə edən və ünsiyyət prosesində istifadə edilən kiçik sintaktik konstruksiyadır" [2, s. 69]. Cümlə dilin daxili qanunları əsasında formalaşır. Bu sintaktik vahid bitmiş bir fikri ifadə edir və kommunikasiyada önəmli bir yer tutur.

Türk dili aqültinativ dillərə aid olduğu üçün burada sözlər ismin hal və feilin təsrif formalarının şəkilçiləri vasitəsi ilə qrammatik-semantik əlaqələr yaradaraq cümlə meydana gətirir. Dilin sintaktik quruluşunda modallıq, predikativlik, intonasiya aparıcı yer tutur ki, cümlə də, əsasən, bu üç ünsür vasitəsi ilə qurulur. Bu sintaktik vahid özündən əvvəlki iearxiyalardan (səsdən, sözdən, söz birləşmələrindən) formalaşır. Bu baxımdan, kommunikasiyanın ən işlək xüsusiyyətləri cümlədə ehtiva edilir və cümlə təfəkkürün ifadəsinin çevik forması kimi dildə təzahür edir.

Cümlə sintaksisin mərkəzi mövqeyində qərarlaşıb. Yəni onu müxtəlif aspektlərdən tədqiq etmək olar. Xüsusən dilçilikdə cümləni izomorfizm formasında araşdırmaq ona əlverişli status qazandırır. Komunikasiyanın bu çevik formasının bir sıra özəl xüsusiyyətləri var ki, bunları aşağıdakı kimi xarakterizə etmək olar:

1. Cümlə bitmiş fikir ifadə edir. Lakin bitkinlik cümlə üçün nisbi xarakter daşıyır. Fikir bitkinliyi o deməkdir ki, danışan şəxs bir cümlə ilə çatdırmaq istədiyini çatdıra bilir və başqa sözlərin işlədilməsinə ehtiyac duyulmur. Cümlənin həqiqi məzmunu yalnız mətn daxilində düzgün anlaşıla bilər.

2. Predikativlik. Mübtəda – xəbər əlaqəsi cümlə strukturunun təşkiledici mərkəzidir. Predikativlik sözlərin müəyyən qaydada düzülüşündən və müəyyən qrammatik qaydalarla əlaqələnməsindən yaranır: Xəbər – zaman, şəxs

[25]Bakı Dövlət Universiteti konul.mahyaddinova.m@bsu.az

10.24412/2218-7588-2025-2-94-96

və modallıq əlamətlərinin köməyi ilə predikativliyin yaranmasına, sözün və söz birləşməsinin cümlə şəklində formalaşmasına səbəb olur. Cümlədə predikativlik mahiyyətcə "özünə qayıdışla", təkrarla bağlıdır. Cümlə o zaman meydana çıxır ki, şəxs sonluğu meydana çıxıb diqqəti təkrarın birinci elementinə - subyekt ideyasının leksik ifadəsinə qaytarsın və çərçivə yaransın (qapansın). *Ben yarın geliyorum. Beni okulda beklersin.* Cümlədə predikativliyin təmin olunması üçün mübtəda və xəbər əlaqəsi vacibdir. Bu zaman xəbər müəyyənləşdirən, mübtəda isə müəyyənləşən tərəf kimi çıxış edir. Bu iki cümlə üzvünün bir-biri ilə əlaqələnməsi nəticəsində fikir ifadə edilir. Xəbər, zaman, şəxs, modallıq əlamətləri predikativliyin yaranmasına, sözün, söz birləşməsinin cümlə şəklində formalaşmasına səbəb olur.

3. İntonasiya – predikativliyin universal vasitəsidir. İntonasiya əsasında yalnız sözlərin birləşməsi deyil, tək-tək sözlər də cümləyə çevrilə bilir. Yalnız intonasiya əsasında söyləmin məqsədi anlaşıla bilər. İntonasiyasız cümlə olmur. Cümləni bitkinləşdirən, predikativliyi yaradan vasitələr olduqda da intonasiya mütləq fəaliyyət göstərir. Məqsəd intonasiyanın əsası, intonasiya isə məqsədin göstəricisi, müəyyənləşdiricisidir. Məs.: *Sen geliyorsun. Sen geliyorsun!* Bu iki cümlədəki fərq intonasiya ilə bağlıdır. Yəni məqsəddən asılı olaraq fikir əmr formasında da ifadə edilə bilər. Azərbaycan dilindən fərqli olaraq bu cümlənin sual versiyası Türkiyə türkcəsində intonasiya ilə yaranmır, çünki türkcədə belə cümlə modellərində ***-mı***[4] sual ədatının (soru ekinin) işlənməsi mütləqdir. Dilimizdə isə heç bir fərqli qrammatik forma olmadan *Sən gəlirsən. Sən gəlirsən! Sən gəlirsən?* şəkillərində işlənməsi mümkündür.

Azərbaycan dilində cümlələr ayrı-ayrı cəhətlər nəzərə alınmaqla, müxtəlif prinsiplər əsasında təsnif edilir. Bunların bir qismi ümumi xarakter daşıdığı halda, bir qismi cümlələrin müəyyən hissəsinə şamil edilir. Məsələn, məqsədə görə bölgü bütün cümlələrə aid edilirsə, baş və ikinci dərəcəli üzvlərin iştirak edib-etməməsinə görə bölgü yalnız sadə, bağlayıcı vasitələrə görə bölgü isə yalnız mürəkkəb cümlələrə aid edilir. Ümumən, Azərbaycan və türk dilçiliyində cümlə sintaktisinə yanaşma eyni deyildir. Azərbaycan dilçiliyi bu baxımdan nəzəri görüşlərin zənginliyi ilə seçilir. Bu görüşlər dünya dilçilik elminin nailiyyətlərini özündə əks etdirdiyindən dilçiliyimizdə sadə cümlənin təsnifi məzmunca daha genişdir. Aşağıdakı qeyd edəcəyimiz təsnifat artıq dilçiliyimizdə həm sabitləşmiş, həm dəs tədrisdə standart modelə çevrilmişdir [8, s. 84].

I. Məntiqi-sintaktik üzvlənmə imkanlarına görə: a) üzvlənən cümlələr; b) üzvlənməyən cümlələr bunlardır: 1) söz-cümlələr; 2) vokativ cümlələr

II. Məqsəd və intonasiyaya görə: a) nəqli; b) sual; c) əmr; ç) nida

III. Quruluşuna görə: a) sadə cümlələr; b) mürəkkəb cümlələr

IV. Modallığa görə: a) təsdiq cümlələr; b) inkar cümlələr

Dilçiliyimizdə sadə cümlə növləri aşağıdakı kimi təqdim olunur:

I. Baş üzvlərin iştirakına görə: 1) cüttərkibli cümlələr; 2) təktərkibli cümlələr

II. İkinci dərəcəli üzvlərin iştirakına görə: a) müxtəsər cümlələr; b) geniş cümlələr.

III. Stuktur-sematik tamlığına – bu vəya digər cümlə üzvünün buraxılıb buraxılmamasına görə: a) bütöv cümlələr; b) yarımçıq cümlələr

Elmi-nəzəri ədəbiyyatlarda **mürəkkəb cümlənin** isə üç növü fərqləndirilir: a) tabesiz mürəkkəb cümlələr; b) tabeli mürəkkəb cümlələr; c) qarışıq tipli mürəkkəb cümlələr.

Görkəmli rus türkoloqu A.N.Baskakov "Müasir türk dilində cümlə" adlı əsərində sadə cümlələrdən (basit cümle) geniş söz açır, onlarn müxtəlif modellərini qeyd edir. Müəllif cütüzvlü və təküzvlü sadə cümlələrinin quruluşu - təküzvlü isim cümlələri, təküzvlü nominativ cümlələr, təküzvlü modal cümlələr, təküzvlü modal dialoq cümlələr, təküzvlü əmr modal cümlələr, təküzvlü emosional cümlələr, xitab cümlələri, məsdər cümlələri və s. haqqında ətraflı məlumat verir [3, s. 75-100].

Türk dilçiliyində cümlənin təsnifi ilə bağlı fikirlər, öncə də dediyimiz ki, fərqlidir. Professor M.Kaya Bilgegil "Türkçe Dilbilgisi" kitabında cümlə haqqında ümumi məlumat verir, cümlə üzvlərinin (mübtəda, xəbər, tamamlıq və zərflik) xüsusiyyətlərindən danışır [4, s. 51-72]. Əsərdə cümlənin növləri ətraflı şərh olunur: a) cümlə üzvlərinin sırasına görə növləri; b) xəbərə görə cümlənin növləri; c) mənalarına görə cümlə növləri; ç) quruluşuna görə cümlənin növləri (sadə və mürəkkəb cümlələr).

Bilal Aktanın "Türkiye Türkçesinin Söz Dizimi" adlı kitabında da, demək olar ki, cümlənin təsnifinə münasibət eynidir [1, s. 115-130]. Müəllif cümlənin özəlliklərindən söz açdıqdan sonra, onun növlərini belə təqdim edir: xəbərin növünə cümlələr (isim və feil cümlələri), mənalarına görə cümlələr (təsdiq, inkar sual, əmr, nida cümlələri), xəbərin yerinə cümlələr (kurallı ve devrik cümleler), quruluşuna görə cümlələr (sadə və mürəkkəb cümlələr).

Hikmet Dizdaroğlu "Tümcebilgisi" kitabın əvvəliklərdən daha əvvəl yazıldığı üçün ilk iki mənbədən bir qədər fərqlənir; birincisi bu kitab türk dilində yalnızca cümlə sintaksisindən danışılır, ikincisi, müəllifin bölgüləri daha geniş təəssürat bağışlayır [5]. Kitabda cümlə haqqında ümumi məlumat verilir, cümlə üzvlərindən danışılır, cümlənin növləri: xəbərin cinsinə görə (ad cümləsi, feil cümləsi); quruluşuna görə - sadə (temel, tümcemsi, yantümce, içtümce)və mürəkkəb cümlə; mənalarına görə (təsdiq, inkar, sual, əmr, nida cümlələri) adı altında qruplaşdırılır.

Leyla Karahan "Türkçede Sözdizimi" adlı kitabında cümlə və cümlə üzvlərindən söz açır, bağlanma şəkillərinə, xəbərin formasına və yerinə görə cümlə növlərindən, habelə təsdiq, inkar və sual cümlələrindən bəhs edir [7].

Bütün mənzərədən də aydın şəkildə görünür ki, türk dilçiliyində, əsasən, sadə cümlənin məqsəd və intonasiyaya görə, cümlə üzvlərinin sırasına görə və cümlənin quruluşuna görə növlərindən söz açılmışdır. Biz araşdırmada çalışacağıq ki, Türkiyə və Azərbaycan dilçiliyindəki bu müxtəlifliyi müəyyən dərcədə uzlaşdırmaqla

mövcud fikirləri təhlil edək. Və təbii ki, nəzəri fikirlərimizi türk ədəbi örnəklərindən və danışıq dili materialları vasitəsilə aydınlaşdırmağa çalışacağıq. K.Əhmədovanın da qeyd etdiyi kimi, "dilçilik tarixində konkret tədqiqatlara nəzər saldıqda məlum olur ki,analizə cəlb olunan illüstrativ material heç də həmişə homogen xarakterliolmur, dilin müxtəlif qaynaqlarından – folklor nümunələrindən (xüsusi ilədə dilin paremiologiya fonundan, atalar sözləri, zərbi-məsəllər və s.), elmivə bədii ədəbiyyatlardan, şifahi nitqdən – götürülür" [6, s. 5].

Aparılan araşdırma müasir türk dilində zəngin cümlə modellərinin varlığını ortaya qoyduğu kimi, türk dilçiliyində məsələlərə nəzəri səviyyədə münasibətin o qədər də ətraflı olmadığını üzə çıxardı. Bu məsələ həm də özünü terminologiya sahəsində göstərir. Türk dilinin qrammatika kitablarında istər morfologiyada, istərsə də sintaksisdə termin probleminin olduğunu bilirik. Bunun səbəbləri müxtəlifdir. 1930-cu illərə qədər türk dili daha çox ərəb-fars qrammatikasına uyğun izah edilsə də, 30-cu illərdən sonra türk dilinə alman, fransız və digər Avropa dillərinin təsir etməsi, müasir dövr dilçilərinin də bu cərəyana uyğun qrammatikanı izah etməsi fikir ayrılıqlarına gətirib çıxaran birinci səbəb kimi göstərilə bilər. Bundan əlavə, müasir türkcənin təhsil səviyyəsinə görə də fərqli izah edilməsi göz önündədir. Yəni ibtidai və orta məktəb səviyyəsində sintaksis bir cür, ali məktəb səviyyəsində ayrı, akademik səviyyədə isə tamamilə fərqlitəqdim edilir. Müşahidələrimizdən belə nəticə çıxır ki, yüklem, özne və nesne adlanan ünsürlərdə ciddi problemlər olmasa da, dolaylı tümleç, düz tümleç, belirteç tümleci kimi ünsürlərdə problemlər vardır.

İstifadə edilmiş ədəbiyyat

1. Aktan B. Türkiye Türkçesinin Söz Dizimi. Ankara: Gazi Kitabevi, 2009, 188 s.
2. Акимова Г. Н., Вяткина С. В., Руднев Д. В. и др. Синтаксис современного русского языка: словарь-справочник. Факультет филологии и искусств СПбГУ, 2009, 172 с.
3. Baskakov A.N. Çağdaş Türkçede Cümle. Çeviren: O.S.Karaca. Ankara: TDK, 2017, 172 s.
4. Bilgegil M. K. Türkçe Dil Bilgisi. İstanbul: Dergah yayınları, 1982, 389 s.
5. Dizdaroğlu H. Tümcebilgisi. Ankara: TDK, 1976, 525 s.
6. Əhmədova K. Azərbaycan dilində çoxkomponentli mürəkkəb cümlələr / F.e.d. elmi təq.ed. dissert.avtoreferatı. Bakı, 2017, 40 s.
7. Karahan L. Türkçede Sözdizimi. Ankara: Akçağ, 2010, 190 s.
8. Kazımov Q. Müasir Azərbaycan dili. Sintaksis. Bakı: Təhsil, 2007, 495 s.
9. Korkmaz Z. Türkiye Türkçesi Grameri. Şekil Bilgisi. Ankara: Türk Dil Kurumu Yayınları, 3 Baskı, Ankara, 2009, 1146 s.
10. Пешкавский А.М. Русский синтаксис в научном освщении. М., 1938.
11. Виноградов В. В. Основные вопросы синтаксиса предложения / http://project.phil.spbu.ru/lib/data/ru/vinogradov/syntax.html (04.02.2024)
12. Кононов А.Н. Современный русский язык. Лексика, фонетика, словообразование, морфология. Москва: Высшая школа, 1976, s. 342

Açar sözlər: Azərbaycan dilçiliyi, türk dilçiliyi, sadə cümlə, cümlənin təsnifi, elmi-nəzəri görüşlər.

Keywords: Azerbaijani linguistics, Turkish linguistics, simple sentence, sentence classification, theoretical perspectives.

Ключевые слова: азербайджанская лингвистика, турецкая лингвистика, простое предложение, классификация предложений, научно-теоретические взгляды.

Xülasə

Məqalədə müasir Azərbaycan və türk dilçiliyində sadə cümlə anlayışına münasibət, cümlənin təsnifinə görüşlər təhlil olunur. Araşdırmada rus dilçiliyində cümlə anlayışı ilə bağlı fikirlərin xülasəsi verilir, sonra Azərbaycan və türk dilçiliyində sadə cümlənin bölgüsü müqayisəli təqdim edilir. Qeyd olunur ki, həm Azərbaycan, həm də türk dilçiliyində sintaktik quruluşla bağlı araşdırmlar elmi-nəzəri səviyyəsinə və tədqiqat metodlarına görə bir-birindən kəskin fərqlənir. Hər iki türkcənin sintaktik quruluşundakı kiçik məqamları nəzərə almasaq, burada kəskin müxtəlifliklə qarşılaşmaq mümkün deyil. Ancaq elmi-nəzəri görüşlərdə bu fərqi aydın görmək olar. Yəni bu dillərin cümlə texnologiyası bənzər olsa da, bu barədəki nəzəri görüşlər müxtəlifdir.

Abstract

The article analyzes the concept of the simple sentence and its classification in modern Azerbaijani and Turkish linguistics. It provides a summary of views on the concept of the sentence in Russian linguistics, followed by a comparative presentation of the classification of simple sentences in Azerbaijani and Turkish linguistics. The study notes that, although the syntactic structures of Azerbaijani and Turkish show no sharp differences apart from minor details, the two traditions differ significantly in terms of their scientific-theoretical approaches and research methodologies. While the sentence structures of the two Turkic languages are largely similar, the theoretical perspectives on these structures vary considerably.

Резюме

В статье анализируется отношение к понятию простого предложения и взгляды на его классификацию в современной азербайджанской и турецкой лингвистике. Представлен обзор подходов к понятию предложения в русской лингвистике, после чего проводится сопоставительный анализ классификации простого предложения в азербайджанской и турецкой лингвистических традициях. Отмечается, что исследования синтаксической структуры в азербайджанской и турецкой лингвистике существенно различаются по своему научно-теоретическому уровню и методам исследования. Хотя синтаксические структуры этих двух тюркских языков в целом схожи и не демонстрируют значительных различий, за исключением отдельных нюансов, в научно-теоретических подходах эти различия выражены достаточно отчетливо. Таким образом, несмотря на сходство синтаксической организации, теоретические взгляды на простое предложение в данных лингвистических школах различны.

RƏYÇİ: dos. E.Vəliyeva

Vəfa Vaqif qızı Pənahova[26]

İNGİLİS DİLİNDƏ DİLİN LÜĞƏT TƏRKİBİNİN ZƏNGİNLƏŞDİRİLMƏSİ YOLLARI

Qloballaşma və texnoloji inkişaf dövründə dillərarası münasibətlər intensivləşmiş, bu da beynəlxalq ünsiyyət vasitəsi kimi ingilis dilinin əhəmiyyətini artırmışdır. İngilis dili yalnız ana dili kimi danışanların sayı ilə deyil, həm də ikinci və ya xarici dil kimi istifadə sahəsi ilə dünya dilləri arasında xüsusi yer tutur. Belə geniş yayılma dilin lüğət tərkibinin dinamik inkişafı ilə birbaşa əlaqəlidir. Zəngin leksik fonda malik olmaq dilin informasiya daşımaq və yeni anlayışları ifadə etmək imkanlarını genişləndirir. Dilin leksik tərkibi onun əsas ifadə vasitələrindən biridir. İngilis dili öz dinamikası və qloballaşma meylləri ilə seçilərək dünyanın ən geniş yayılmış dillərindən birinə çevrilmişdir. Bu dilin inkişafında və zənginləşməsində müxtəlif mənbələrdən söz alması, yeni söz yaratma üsulları və texnoloji irəliləyişlər mühüm rol oynamışdır. Bu məqalədə ingilis dilində lüğət tərkibinin zənginləşməsi yolları – düzəltmə (derivation), mürəkkəb sözlər (compounding), konversiya (conversion), qısaltmalar (abbreviations), alınma sözlər (loanwords), neologizmlər və sleng, jargon və terminlər, eləcə də mediyanın rolu ətraflı şəkildə təhlil ediləcəkdir.

Həmçinin məqalədə ingilis dilində yeni sözlərin yaranması və lüğət tərkibinin zənginləşməsi prosesinin xüsusi əhəmiyyət kəsb etməsini vurğulamaq istəmişik.. Bu məqalədə lüğət tərkibinin zənginləşməsi yolları morfoloji əsasda – düzəltmə (derivation), mürəkkəb sözlər (compounding), konversiya (conversion) və qısaltmalar (abbreviations) kontekstində geniş şəkildə təhlil olunur.Qloballaşan dünyada ingilis dili beynəlxalq ünsiyyətin, elmin, texnologiyanın və biznesin əsas vasitələrindən birinə çevrilmişdir. Bu dili fərqləndirən əsas xüsusiyyətlərdən biri onun zəngin və çevik leksik sistemidir. İngilis dilinin söz ehtiyatı yalnız tarixi amillərlə deyil, həm də daxili leksik proseslər nəticəsində davamlı şəkildə zənginləşir. Bu prosesin başlıca mexanizmləri düzəltmə, mürəkkəb sözlərin yaradılması, konversiya və qısaltmalardır. Bu məqalənin məqsədi göstərilən üsulların hər birini təhlil etmək və onların ingilis dilində söz yaradıcılığına təsirini müəyyənləşdirməkdir.

Yeni sözlərin yaranması dilin canlılığının və adaptasiya qabiliyyətinin göstəricisidir. İngilis dilində söz yaradıcılığı morfoloji və qeyri-morfoloji yollarla baş verir. Morfoloji üsullara derivasiya (suffiks və prefikslər vasitəsilə söz düzəltmə), mürəkkəb sözlərin yaradılması (iki və ya daha çox sözün birləşməsi), konversiya (nitq hissələrinin dəyişməsi) daxildir. Qeyri-morfoloji üsullar isə alınma sözlər, qısaltmalar, neologizmlər və slenglərdən ibarətdir. Yeni sözlərin yaranması yalnız sözün formasının dəyişməsi ilə deyil, həm də onun semantik yükünün artması ilə xarakterizə olunur. Bu proseslər dilin tələblərə uyğun şəkildə yenilənməsinə şərait yaradır və ünsiyyətin effektivliyini artırır.Söz yaradıcılığı yalnız yeni leksik vahidlərin yaradılması deyil, həm də mövcud sözlərin funksional sahəsinin genişləndirilməsi prosesidir. Bu prosesdə həm diaxron, həm də sinxron yanaşmalar vacib rol oynayır.

Düzəltmə prosesi prefiks və suffikslərin kök sözə əlavə olunaraq yeni leksik vahidlərin yaradılmasıdır. Bu üsul ingilis dilində ən məhsuldar söz yaradıcı mexanizmlərdən biri hesab olunur. Düzəltmə nəticəsində yaranan sözlər yeni semantik və ya funksional xüsusiyyətlər qazanır. Məsələn, teach → teacher, manage → management, logical → illogical. Prefikslər əsasən sözün mənasına təsir edir, suffikslər isə sözün nitq hissəsini dəyişə bilər. İngilis dilində məhsuldar suffikslərə -ness, -ment, -ity, -er, -able və s. misal göstərmək olar. Düzəltmə prosesi həm gündəlik ünsiyyətdə, həm də elmi və texniki terminologiyada geniş tətbiq olunur.Düzəltmə söz yaradıcılığında ən geniş yayılmış üsullardan biridir. Düzəltmə nəticəsində yaranan sözlər, əsasən, yeni mənalarla yüklənir və fərqli nitq hissəsinə keçə bilər. Məsələn: act (verb) → action (noun), happy (adj) → happiness (noun), logical (adj) → illogical (adj). Düzəltmədə istifadə olunan prefiks və suffikslər sözün mənasına və funksional kateqoriyasına təsir göstərir. Bu üsulun üstünlüyü ondadır ki, mövcud söz bazası əsasında istənilən qədər yeni sözlər yaratmaq mümkündür.Düzəltmə — bir kök sözə şəkilçi əlavə etməklə yeni sözün yaranması prosesidir. Bu üsul ingilis dilində ən məhsuldar söz yaradıcılığı yollarından biridir. Düzəltmə zamanı sözün qrammatik növü, leksik mənası və funksional tətbiqi dəyişə bilər. Düzəltmə vasitəsilə yaranmış sözlər dilin leksik çevikliyini və ifadə imkanlarını genişləndirir.

Mürəkkəb sözlərin yaradılması iki və ya daha çox müstəqil leksik vahidin birləşməsi nəticəsində baş verir. Bu üsul, xüsusilə, yeni terminlərin yaradılmasında və mövcud anlayışların birləşdirilməsində əvəzsiz vasitədir. İngilis dilində mürəkkəb sözlər strukturlarına görə üç yerə bölünür: açıq (open compounds), qapalı (closed compounds) və defislə yazılan (hyphenated compounds). Məsələn, 'ice cream' (açıq), 'toothpaste' (qapalı), 'mother-in-law' (defislə). Compounding nəticəsində yaranan sözlər öz komponentlərindən fərqli məna daşıya bilər və bu, onların semantik dəyərini artırır. Bu üsul dilin ifadə imkanlarını genişləndirərək yeni anlayışların təsvirini asanlaşdırır.Compounding — iki və ya daha çox müstəqil sözün birləşərək yeni bir məna kəsb edən mürəkkəb söz yaratmasıdır. Bu üsul vasitəsilə yaradılan sözlər adətən sabit struktura malik olur və tez-tez terminologiyada istifadə olunur. Mürəkkəb sözlərin üç əsas tipi var: open (ice cream), hyphenated (mother-in-law), closed (toothpaste). Bu sözlərin semantik cəhətdən bütöv anlamı olur. Məsələn, 'blackboard' tərkib hissələrindən fərqli olaraq yeni anlayış – 'taxta lövhə' ifadə edir. Compounding sintaktik və semantik baxımdan dilin məhsuldar leksik üsullarından biridir.Mürəkkəb sözlər iki və ya daha çox sözün birləşməsindən əmələ gəlir. İngilis dilində bu üsulla çoxsaylı yeni leksik vahidlər yaranmışdır. Compounds üç formada olur: bitişik (closed compounds: toothpaste), defislə (hyphenated: mother-in-law) və ayrı yazılan (open compounds: high school). Mürəkkəb sözlər adətən yeni anlayış və ya predmetləri ifadə etmək üçün istifadə olunur. Bu üsul dillərdəki söz ehtiyatını effektiv şəkildə genişləndirir.

[26]**Dosent**

10.24412/2218-7588-2025-2-97-99

Konversiya ingilis dilində sözlərin morfoloji dəyişiklik olmadan bir nitq hissəsindən digərinə keçməsidir. Bu proses dilin sadəliyini və çevikliyini təmin edir. Məsələn: to email (verb) → an email (noun); clean (adj) → to clean (verb). Konversiyanın başlıca üstünlüyü ondan ibarətdir ki, əlavə morfoloji elementlərə ehtiyac olmadan yeni leksik vahidlər yaradıla bilir. Bu üsul həm danışıqda, həm də rəsmi və texniki mətnlərdə geniş istifadə olunur. Konversiya nəticəsində yaranan sözlər çox zaman istifadə kontekstinə uyğun olaraq müəyyənləşdirilir. Bu da onu digər söz yaradıcılığı üsullarından fərqləndirir və istifadəni daha çevik edir.Konversiya — sözün morfoloji quruluşu dəyişmədən nitq hissəsinin dəyişməsi prosesidir. Bu üsul ingilis dilində geniş yayılmış və istifadəsi çox rahat olan leksik vasitədir. Məsələn, name (noun) → to name (verb), clean (adj) → to clean (verb). Konversiyanın səbəbi dilin iqtisadi və çevik olma ehtiyacıdır. Bu üsul xüsusilə jurnalistika və texniki mətnlərdə tez-tez istifadə olunur. Konversiyanın funksional rolu ondan ibarətdir ki, dil daha çevik və məqsədyönlü şəkildə istifadə oluna bilir Bu proses yeni sözlərin yaranmasına əlavə resurs sərf etmədən nail olmağa imkan verir.

Qısaltmalar ingilis dilində gündəlik və rəsmi ünsiyyətdə sürətli və rahat ifadə vasitəsi kimi istifadə olunur. Qısaltmaların əsas növlərinə akronimlər, clipping, initialisms və blending daxildir. Akronimlərdə sözlərin baş hərfləri birləşərək yeni söz kimi tələffüz olunur: NATO, UNESCO. Initialisms – baş hərflərin ayrılıqda tələffüz olunmasıdır: BBC, FBI. Clipping – sözün bir hissəsinin çıxarılması ilə yaranır: exam (examination), lab (laboratory). Blending – iki sözün hissələrinin birləşməsindən yaranır: brunch (breakfast + lunch), smog (smoke + fog). Bu üsullar vasitəsilə dil daha lakonik və çevik hala gəlir. Xüsusilə texnologiya və informasiya dövründə abbreviations geniş yayılmışdır.Abbreviations ingilis dilinin sürətli kommunikasiya tələblərinə cavab verən bir üsuldur. Bu kateqoriyaya akronimlər, clipping, initialisms və blending daxildir. Akronimlər – sözlərin baş hərflərindən ibarət olan və bir söz kimi tələffüz olunan formalardır.Clipping – sözlərin qısaldılması: ad (advertisement), info (information). Blending – iki sözün birləşdirilərək yeni sözün yaradılması: brunch (breakfast + lunch), smog (smoke+fog). Qısaltmalar həm gündəlik danışıqda, həm də texniki və akademik diskursda geniş istifadə olunur.Qısaltmalar uzun ifadələrin qısa forması kimi istifadə olunur və xüsusilə texnologiya və gündəlik ünsiyyətdə geniş yayılmışdırMüasir dövrdə sosial media və mesajlaşma vasitələrində LOL (laugh out loud), BRB (be right back), OMG (oh my God) kimi informal qısaltmalar da geniş istifadə olunur.

İngilis dilinin inkişaf tarixi ərzində bir çox dillərdən sözlər mənimsənilmişdir. Latın, fransız, yunan, alman, ispan və hətta yapon dillərindən alınmış sözlər bu dili zənginləşdirmişdir. Məsələn, ‘restaurant’ (fransız), ‘algebra’ (ərəb), ‘robot’ (çex), ‘piano’ (italyan). Alınma sözlər ingilis dilinin adaptasiya qabiliyyətini nümayiş etdirir və onun beynəlxalq səviyyədə istifadəsini asanlaşdırır.İngilis dili tarix boyu müxtəlif dillərdən çoxlu sayda söz almışdır. Bu proses onun leksik tərkibinin zənginləşməsində mühüm rol oynamışdır. Əsasən fransız, latın, yunan, alman və ərəb dillərindən alınma sözlər müasir ingilis dilində geniş yer tutur. Məsələn, 'ballet' (fransız), 'algebra' (ərəb), 'philosophy' (yunan), 'kindergarten' (alman) kimi sözlər bu kateqoriyaya aiddir. Alınma sözlər adətən yeni anlayışları ifadə etmək üçün dilə daxil olur. Onlar həm terminoloji sahələrdə, həm də gündəlik leksikada istifadə olunur. Texnologiya, tibb, hüquq, incəsənət və digər sahələrdə alınma sözlərin rolu əvəzsizdir. Bu proses dilin inkişafına və universallaşmasına töhfəverir.Məsələn:

1. Cuisine (fransız dilindən) – 'French cuisine is known for its sophistication.
2. Alcohol (ərəb dilindən) – 'Alcohol consumption varies across cultures.'
3. Piano (italyan dilindən) – 'She plays the piano beautifully.'
4. Avatar (sanskrit dilindən) – 'The term avatar is widely used in digital platforms.'

Neologizmlər — yeni yaranmış və ictimaiyyət tərəfindən qəbul edilmiş söz və ifadələrdir. Texnologiyanın inkişafı və sosial medianın yayılması yeni anlayışların ifadəsi üçün yeni sözlərin yaranmasına səbəb olmuşdur. Məsələn: googling, selfie, webinar. Sleng isə daha çox qeyri-rəsmi ünsiyyətə xas olan qeyri-standart söz və ifadələr toplusudur. Bu kateqoriyalar dilin canlılığını və dəyişkənliyini göstərir.Neologizmlər dilə yeni daxil olan və ya yeni mənada işlədilən sözlərdir. Onlar sosial, elmi və texnoloji dəyişikliklər nəticəsində yaranır. Sleng isə qeyri-rəsmi ünsiyyətdə istifadə olunan ekspressiv və dinamik sözlər sistemidir. Müasir dövrdə internet və sosial media neologizmlərin və sleng ifadələrin yaranmasında böyük rol oynayır. Məsələn, 'google' (fiil kimi), 'selfie', 'hashtag', 'ghosting', 'influencer' kimi sözlər bu kateqoriyaya aiddir. Sleng daha çox gənclər arasında istifadə olunsa da, bəziləri zamanla ümumi dilə daxilolur.

Məsələn:

1. To google – 'I googled the recipe before cooking.'
2. Selfie – 'She posted a selfie on Instagram.
3. Ghosting – 'He disappeared without a word — total ghosting!'
4. Binge-watch – 'We binge-watched the entire series on Netflix.'

Peşə və sahə spesifik ünsiyyətdə jargon və terminlər mühüm yer tutur. Jargon müəyyən bir peşəyə, icmaya məxsus ifadə sistemidir. Terminlər isə elmi və texniki anlayışların dəqiq ifadəsi üçün istifadə olunur. Məsələn, hüquqda 'subpoena', tibbdə 'cardiology', İT sahəsində 'firewall' və s. Bu tip leksik vahidlər sahəyə dair bilikləri ifadə etməklə yanaşı, kommunikativ effektivliyi artırır. Jargon bəzən geniş ictimaiyyət üçün anlaşılmaz olsa da, peşəkar dairələrdə vacib vasitədir.

Məsələn:

1. Bandwidth (IT) – 'We need more bandwidth to support video calls.'
2. ROI (biznes) – 'The project had a high ROI.'
3. Algorithm – 'The search algorithm has been updated.'

4. Subpoena – 'The court issued a subpoena for the witness.'

Media, xüsusilə sosial media platformaları yeni leksik vahidlərin yaranmasında əsas rol oynayır. Yeni hadisələr, trendlər və texnologiyalar dilə daim yeni sözlər gətirir. Məsələn, 'meme', 'vlog', 'clickbait', 'repost', 'livestream' kimi sözlər media leksikasına daxildir. Bu innovasiyalar dilin çevikliyini və cəmiyyətə adaptasiya gücünü göstərir. Media vasitəsilə yayılan ifadələr çox zaman qısa müddətdə geniş ictimaiyyət tərəfindən qəbul olunur və leksik fonda möhkəmlənir.

Məsələn:

1. Meme – 'That meme went viral in just a day.'
2. Livestream – 'The concert was available via livestream.'
3. Clickbait – 'Don't fall for clickbait headlines.'
4. Repost – 'She reposted the announcement on her profile.'

Bir çox sözlər zamanla yeni mənalar qazanaraq çoxmənalı (polysemy) olur. Bu da söz ehtiyatının genişlənməsi formasına çevrilir. Məsələn, 'head' sözü həm insan orqanı, həm rəhbərlik, həm də obyektin ön hissəsini ifadə edə bilər. Çoxməna anlayışı semantik çevikliyin təzahürüdür və kontekstə əsasən mənaların ayırd edilməsi bacarığını tələb edir.

İngilis dili qədim ingilis dilindən başlayaraq norman işğalı, latın dili təsirləri və sənaye inqilabı dövründə sürətli leksik artım keçirmişdir. Bu inkişaf müxtəlif tarixi mərhələlərdə leksik sistemə əlavə olunan sözlərlə izlənilə bilər. Xüsusilə orta əsrlərdən sonra alınmalar və texnoloji inkişaflar dilə yeni sözlər axınını gücləndirmişdir.

Aparılan təhlillər göstərir ki, ingilis dili söz yaradıcılığı və leksik tərkibin zənginləşməsi baxımından çox məhsuldar sistemə malikdir. Düzəltmə, mürəkkəb sözlər, konversiya və qısaltmalar kimi mexanizmlər dilin öz imkanları daxilində yeni leksik vahidlər yaratmaq imkanı verir. Bununla yanaşı, alınma sözlər, neologizmlər və slenglər də bu prosesi tamamlayır. Nəticə etibarilə, bu üsullar ingilis dilinin beynəlxalq səviyyədə geniş tətbiqini və funksional səmərəliliyini təmin edir.İngilis dilinin lüğət tərkibinin zənginləşməsi onun qlobal dil kimi mövqeyini möhkəmləndirir. Söz yaradıcılığı üsulları – düzəltmə, mürəkkəbləşdirmə, konversiya, qısaltmalar, alınmalar və leksik innovasiyalar dilin inkişafına xidmət edir. Bu proseslər dilin ünsiyyət və ifadə imkanlarını genişləndirir. Eyni zamanda, yeni anlayışların və fenomenlərin dilə inteqrasiyasını asanlaşdırır. İngilis dilinin bu qədər açıq və çevik struktura malik olması onu elmi, texniki və gündəlik ünsiyyətdə universal vasitəyə çevirir. Gələcəkdə də texnologiyanın və cəmiyyətin inkişafı ilə bağlı olaraq ingilis dilində yeni leksik vahidlərin yaranması davam edəcək.

Ədəbiyyat

1. Bauer, L. (1983). English Word-Formation. CambridgeUniversity Press.
2. Plag, I. (2003). Word-Formation in English. CambridgeUniversity Press.
3. Katamba, F. (1993). Morphology. Macmillan.
4. Crystal, D. (2003). The Cambridge Encyclopedia of the English Language. CambridgeUniversity Press.
5. Yule, G. (2016). The Study of Language. CambridgeUniversity Press.
6. Jackson, H., & Amvela, E. Z. (2000). Words, Meaning and Vocabulary. Continuum.

Açar söz: sözdüzəltmə, söz yaradıcılığı, konversiya, mürəkkəbləşmə, qısaltma, dilin lüğət tərkibi.

Summary

In this article we study words, their nature and meaning, specific features of word formation. The term "word" denotes the main lexical unit of a language resulting from the association of a group of sounds with a meaning. We try to analyse the productive ways of forming new words, the ways to enlarge the vocabulary of the English language.

Резюме

В данной статье изучаются слова, их природа и значения, а так же особенности формирования слова. Термин "слово" означает главная единица языка, как результат группы звуков со значением. Мы анализируем пути формирования новых слов, определяем продуктивные пути их формирования в современном английском языке.

Rəyçi: dos. L.Ələkbərova

Səfərova Sevda Qabil qızı[27]

INGILIS VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ FRAZEOLOJİ BIRLƏŞMƏLƏR VƏ ONLARIN MÜQAYİSƏLİ TƏHLİLİ

Dilçiliyin müasir vəziyyəti müxtəlif səviyyəli dil vahidlərinin dərin və hərtərəfli öyrənilməsini tələb edir.Bu baxımdanfrazeoloji vahidlərin statusunun linqvistik baxımdan öyrənilməsi və müəyyən edilməsidilçiliyin aktual problemlərindən biridir. Dildə bu və ya başqa məna, yaxud məzmunu ifadə edən hər bir sabit birləşməyə, bölünməz ifadə və ibarələrə frazeoloji vahid deyilir. Dilin frazeoloji vahidlərinin məcmusuna onun frazeologiyası da deyilir.Frazeologiyanı təşkil edən birləşmə, ifadə və ibarələr bir sıra dilçilərin əsərlərində müxtəlif adlar altında verilmişdir. Bəziləri bunları frazeoloji birləşmələr, bəziləri idiomlar, bəziləri frazeoloji qruplar, bəziləri frazeoloji tərkib, bəziləri frazeologizmlər, bəziləri də frazeoloji vahidlər və s. adlandırmışlar.

Frazeologiya dilçiliyin sabit birləşmələrinii, nitq nümunələrini və ifadələrini - frazeoloji vahidləri öyrənən bir sahəsidir.Frazeologiya dilə XX əsrdə inkişaf etmiş elmi yanaşmadır və (yunanca φράνσις ifadələrindən "danışmatərzi"və -λογία -logia, "öyrənilməsi") deməkdir.Frazeologiya söz ehtiyatını genişləndirən və zənginləşdirən mənbələrdən biri kimi dilçiliyin iki və ya daha çox söz və söz birləşməsindən ibarət söz qrupları ilə məşğul olan sahələrindən biridir.[1]

“Frazeologiya” sözünün çox fərqli mənaları var. Dilçilik ədəbiyyatında bu termin frazeoloji vahidin strukturundan və xassələrindən asılı olmayaraq bir elementin mənasının digərindən asılı olduğu ifadələr üçün istifadə olunur. Frazeologiya nəzəriyyəsini, frazeoloji terminini ilk işlədən isveçrəli dilçi Ş.Balli olmuşdur. O,1905-ci ildə üsluba dair iki kitab yazmışdı və fəsillərdən birini frazeologiya adlandırmışdı.O, bəzi dilçilər kimi frazeologiyaya ifadə vasitəsi kimi yanaşmırdı və frazeologiyanı heç vaxt müstəqil bir elm kimi qəbul etmirdi.[2]

Frazeologiyanın öyrənilməsinə və onların təsnifatı probleminə müxtəlif yanaşmalar mövcuddur. İngilis və Amerika dilçiliyində frazeologiyanın elmi tədqiqinə dair nəzəri əsərlər, frazeologiyanı öyrənən xüsusi bir sahə və ümumiyyətlə frazeoloji vahid termini yoxdur. Bir çox post - sovet dilçiləri frazeoloji vahidlərin problemlərinin nəzəri tədqiqinə böyük maraq göstərmişlər. Rus frazeologiyası üçün ən mühüm nəzəriyyə akademik V.V.Vinoqradov tərəfindən işlənib hazırlanmışdır. O, rus frazeoloji vahidlərinin çox maraqlı təsnifatını işləyib hazırlamışdır. Onun rus frazeologiyasına dair məqalələri ölkəmizdə və xaricdə bir çox dilçi alimlərə böyük təsir göstərmişdir. Milli dillərin frazeoloji vahidlərini öyrənərkən bir çox dilçilər akad V.V.Viniqradovun işlədiyi frazeoloji nəzəriyyəyə və frazeoloji vahidlərin təsnifatına istinad edirlər. Lakin V.V. Vinoqradovun frazeoloji nəzəriyyəsində N.N.Amosova, A.V.Kunin və bir sıra başqa dilçilərin qeyd etdiyi kimi bəzi çatışmazlıqlar var. Məsələn, onun təsnifatının üçüncü növünün frazeoloji birləşməsi, yəni frazeoloji birləşmələr bir çox dilçilər tərəfindən frazeoloji vahid kimi qəbul edilmir. [3]

Frazeologiyadan danışarkən qeyd etməliyik ki, azərbaycan frazeologiyasının tədqiqinə dəyərli töhfələr verən prof. H.A.Bayramov olmuşdur. O, Azərbaycan frazeologiyasının müxtəlif problemlərinə aid çoxlu məqalə və doktorluq dissertasiyası yazmışdır. Bütövlükdə hazırda frazeoloji vahidlərin problemlərinin tədqiqinə müxtəlif frazeoloji nəzəriyyələr və müxtəlif yanaşmalar mövcuddur. A.S.Rəhimov, A.H.Hacıyeva da ingilis və azərbaycan frazeologiyasına aid məqalə və tezislərində ingilis və azərbaycan frazeologiyasının müxtəlif problemlərini araşdırmış, bu dillərin frazeologiyasının öyrənilməsinə dəyərli töhfələr vermişlər. Bu səbəbdənonların əsərləri böyük əhəmiyyət kəsb edir.Bildiyimiz kimi dilin lüğət tərkibi təkcə sözlərlə deyil, həm də frazeoloji vahidlərlə zənginləşir. Dil vahidlərinin əksəriyyətinin müəyyən əlamətlərə və spesifik xüsusiyyətlərinə görə qruplaşdırılması, onların hər bir qrupuna aid olan səciyyəvi cəhətlərin müəyyənləşdirilib üzə çıxarılması dilin leksik sisteminin tam və əhatəli şəkildə təsvir olunmasına yaxından kömək edən amillərdəndir. Bu baxımdan ingilis və Azərbaycan dillərinin lüğət tərkibində xüsusi mövqeyi və funksiyası ilə seçilən birləşmələrin leksik-semantik baxımdan qruplaşdırılması, onların sistemləşdirilərək ümumi xüsusiyyətlərinin müəyyənləşdirilməsi həmişə mütəxəssislərin diqqət mərkəzində olmuşdur ki, bu da təsadüfi deyildir.[4]

Dilçilikdə frazeologiya toplu və ya sabit ifadələri, məsələn, idiomlar, fraza fellər və çox sözdən ibarət leksik vahidlərin başqa növlərini öyrənir ki, burada ifadənin tərkib hissələri müstəqil şəkildə istifadə olunduqda mənalarının cəmindən daha spesifik və ya başqa cür proqnozlaşdırıla bilməyən məna alınır.Dilin leksik tərkibini təşkil edən bütün vahidlər heç də hər cəhətdən bir-birinə oxşamır. Dildəki hər bir leksik vahidin özünəməxsus xüsusiyyətləri və üslubi vəzifələri vardır. Buna görə də bəzi sözlər dilin bütün üslublarında işlənə bildiyi halda, digər qrup sözlər müəyyən üslubi məqsəd üçün yalnız bir üslubda işlənir. Bundan başqa, dildə bəzi sözlərdən az, bəzi sözlərdən isə çox istifadə olunur. İngilis dilçiliyində belə bir fikir özünə möhkəm yer tutmuşdur ki, dilin lüğət tərkibi bir-birilə sıx bağlı olan sözlərin məcmusundan ibarətdir. Dilin lüğət tərkibində sözlər heç də izolə edilmiş şəkildə mövcud deyildir və onlarınmüxtəlif qruplarda birləşməsi mütləqdir.

Frazeologiya lüğət sistemində xüsusi altsistem təşkil edir.Sözlər kimi frazeoloji vahidlər vahid anlayışı ifadə edir və cümlədə onun bir hissəsi kimi işlənir. Məlumdur ki, sözlər yalnız birləşmələrdə işləndikdə ünsiyyət vasitəsinə çevrilir. Bu, lüğət sisteminin ən rəngarəng hissəsidir və bu danışan cəmiyyətin dünyaya xas baxışını təsvir edir. Hər bir frazeoloji vahid əsl xalq yaradıcılığıdır. O, xalqın tarixini, o dildə danışan xalqın adət və ənənələrini əks etdirir. Bu

[27] *Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan.* ms.seferova@inbox.ru
10.24412/2218-7588-2025-2-100-102

baxımdan frazeoloji vahidlərin ümumi mənasında hər bir xalqın öz adət-ənənəsinin, vərdişlərinin, yaşadığı şərait və gündəlik yaşam tərzinin inikası dayanır. Bu, frazeoloji vahidlərin tərcüməsinin dəqiq verilə bilməməsinin səbəblərindən biridir. Buna görə də ingilis və Azərbaycan dillərində frazeoloji vahidlərin sərbəst söz birləşmələri kimi tərcüməsini vermək özünü doğrultmur. Həm Azərbaycan, həm də ingilis dillərində frazeoloji birləşmələrin tərkib hissəsi olan komponentlər həm say, həm semantika, həmçinin semantik əlaqələr baxımından, bütöv mənanın formalaşmasında birbaşa öz təsirini göstərir. Belə ki, frazeoloji birləşmələrin semantik xüsusiyyətlərini araşdırarkən frazeologizmlərin mənasının leksik məna ilə qarşılaşdırılması çox mühüm əhəmiyyət kəsb edir. Bu zaman aydın olur ki, bütöv elementləri bir-birindən ayırmaq çətin olduğu kimi onlar arasında olan bağlılığı da aradan qaldırmaq mümkün olmur. [5]

Frazeoloji vahidlərin əsas xüsusiyyətlərindən biri onların obrazlı, emosional, ifadəli olmasındadır.Belə ki, frazeoloji vahidlər dilin ekspressivliyində, onun emosionallığında xüsusi rol oynayır. Frazeoloji vahidlər bu və ya digər anlayışı ayrı-ayrı sözlərdən dəfələrlə təsirli və obrazlı əks etdirir. Frazeoloji vahidlər möhkəm milli xüsusiyyətə malik olur. Buna görə də frazeoloji vahidlərin əksəriyyəti başqa dilə eyni ilə tərcümə edilmir. Çünki başqa dilə tərcümə edilərkən onun qarşılığı-ekvivalenti və yaxud uyğun gələni olmadıqda o dildə frazeoloji vahidin mənasını doğru və düzgün əks etdirə bilən söz və ya ifadə axtarılıb tapılır. Belə ifadəni tapmaq üçün isə əsasən, iki başlıca cəhətə (məna və üslubi xüsusiyyətə) daha çox fikir verilir: 1) frazeoloji vahidin tərcümə olunduğu dildə mənasına görə sinonimi olan ifadə tapılır; 2) bunun üslubi xüsusiyyətlərinə müvafiq olan oxşar və ya çox yaxın ifadə seçilir.

Frazeoloji vahid zahirən də başqalarından fərqlənir və tanınır. Lakin frazeoloji vahidin forması əsas meyar deyildir, çünki forma aldadıcıdır. Belə ki, burda əsas cəhət frazeoloji vahidin mənasında, ondakı sözlərin bir-birinə uyğunlaşma dərəcəsindədir.Bir sıra frazeoloji vahidlərdə eyni söz təkrar olunur. Azərbaycan dilində xüsusən insan bədəninin üzvlərini bildirən *baş (baş əymək, baş vermək, baş vurmaq...), göz (göz dəymək, gözü doymamaq, göz qoymaq), üz (üz vurmaq, üz tutmaq, üzə salmaq...), ağız (ağız büzmək, ağız açmaq, ağız əymək...), dil (dil vermək, dil tapmaq, dilə düşmək), dodaq (dodaq büzmək, dodaq sallamaq, dodaq çeynəmək...), qulaq (qulaq vermək, qulaq asmaq, qulaqardına vermək...), əl (əl vermək, əl çəkmək, əl qoymaq...), ayaq (ayaq kəsmək, ayaq qoymaq, ayaq çəkmək...)* və s. sözlərin təkrarlandığı frazeoloji vahidlər daha çoxdur. İngilis dili frazeologizmlərini də bədən üzvlərinə görə qruplaşdırmaq mümkündür. Bu cür frazeoloji birləşmələr ayrıca bir qrup təşkil edir və Frazeologiyada somatik frazeoloji birləşmələr adlanır.

Təhlil göstərir ki, frazeologizmlərin tərkibində 40-a qədər bədən üzvü adını ayırmaq mümkündür. Məsələn, qol (hand,arm), dodaq (lip), ayaq (foot), çiyin (shoulder), burun (nose), diz (knee), bədən (body), baş (head), qulaq (ear), ürək (heart), əl (hand)- , üz (face)-, barmaq (finger), ağız (mouth), boyun (neck), dəri (skin) və s.Məs. *a cold in the head* (zökəm), *to be unable to look smb. in the face (*üzünə baxmağa utanmaq), *to hold one's tongue* (dilini saxlamaq), to be the left hand - qanunsuz doğulmaq, nigahsız doğulmaq, to have a bad head başı boş olmaq, başı heçnədən çıxmamaq, to sleep with one eye open- bir gözü açıq yatmaq, narahat yatmaq,ayıq-sayıq olmaq və s[6]

İngilis, eləcə də Azərbaycan dilində işlənən frazeologizmlərdə insanın xarakterindən bəhs edən çoxlu sayda idiomlar, atalar sözləri və s. mövcuddur. İdiomlardan ədəbi dilin demək olar ki, bütün üslublarından istifadə olunur. İdiomların ifadə etdiyi fikir nə qədər məcazi mənaya malik sözlərlə verilsə də burada söylənilən fikir daha konkret olur. Məhz buna görə də idiomlar bu və ya digər sözün ekvivalenti kimi, daha doğrusu, məcazi məna ilə verilən sinonim kimi ifadə olunur.

Məs.: *to fall in love with smb-kiməsə vurulmaq, aşiq olmaq*
to tell someone where to get off- kimisəyerindəoturtmaq, həddinibildirmək
to fall between two steals-iki daş arasında qalmaq, yerlə göy arasında olmaq, nə edəcəyini bilməmək
to take smth. to heart- ürəyinəsalmaq,dərdetmək
to go too far- cızığındançıxmaq, həddiniaşmaq
to cut off with a shilling = to disinherit – vərəsəlikdən məhrum etməkvə s.

İngilis dilində atalar sözü və məsəllərin də demək olar ki, təxminən 200-nün Azərbaycan dilində ekvivalenti var və onların mənası bəzən bir-birinə uyğun gəldiyi halda, bəzən isə əksinə heç bir uyğunluq tapa bilmirsən. Bu zaman isə onların ekvivalentlərindən istifadə məcburiyyəti ön plana çıxır Yəni, əgər uyğunluq tapmaq mümkün deyilsə, ona qismən də olsa münasib bir şəkildə hər hansı bir dildə oxşarını vermək olar. Məs.

No smoke without fire-Od olmayan yerdən tüstü çıxmaz;
No pain, no gain -İşləməyən dişləməz;
One swallow can not make spring -Bir gül iləyaz olmaz;
The pot calls the kettle black -Kor kora kor deməsə bağrı çatlayar;
As you sow you will mow -Nə əkərsən, onu da biçərsən;
Man may meet, but mountains never-Dağ dağa rast gəlməsə də, insan insana rast gələr;
Easy come, easy go- Haynan gələn, vaynan gedər.
To kill two birds with one stone-Bir güllə ilə iki quş vurmaq.
A burnt child dreads the fire - İlan vuran ala çatıdan qorxar;
There is no rose without a thorn = Qızıl gül tikansız olmaz və s.

Frazeologiyada somatik frazeoloji birləşmələr ayrıca bir qrup təşkil edir. Somatik frazeologizmlər Azərbaycan və ingilis dillərində işlənərkən onların oxşar və fərqli cəhətlərini araşdırıb tapmaq üçün tipoloji müqayisə önəm təşkil edir. Belə ki, tipoloji müqayisə zamanı ortalığa çıxan tərcümə problemlərinin həlli üçün kontekstdəki mənanı dəqiqliklə

vermək baxımından ekvivalentlilik xüsusiyyəti ön planda duran məsələlərdəndir. Məsələn, İngilis dilində işlənən "*bitter tongue",* Azərbaycan dilində işlənən "acı dil" frazeoloji birləşməsinin ekvivalentidir. Hər iki dildə bu birləşmə "*acı dil"* mənasını ifadə etsə də bu somatik ifadə İngilis dilində "ilan kimi sancan", Azərbaycan dilində isə "*zəhər tuluğu"* mənasında işlənir. [7]

Beləliklə, frazeologiya tərcüməçilərdən xüsusi diqqət tələb edən mürəkkəb bir hadisədir. Frazeoloji vahidin situasiyasından və xüsusiyyətlərindən asılı olaraq tərcüməçi onun ekvivalentini, analoqunu tapa, təsviri, leksik, kontekstual, antonimik tərcümə, izləmə və ya vahid transformasiyadan istifadə edə bilər. Tərcüməni yüksək keyfiyyətli yerinə yetirmək üçün tərcüməçi yuxarıda qeyd olunan frazeoloji vahidlərin tərcümə üsullarını yaxşı bilməlidir.Frazeoloji birləşmələrin daxili məna quruluşunun və xarici strukturunun, tərcümə olunma imkanlarının öyrənilməsi, milli və beynəlmiləl səciyyəsi ilə yanaşı onların işlənmə xüsusiyyətlərinin təhlili də həm nəzəri, həm də praktik cəhətdən aktuallıq kəsb edir.ki,bunlara da frazeoloji vahidin konkret kontekstdə işlənməsinin xüsusiyyətləri, onun strukturu, semantikası, emosional-ekspressiv koloriti daxildir.

ƏDƏBİYYAT

1.Qurbanov.AMüasir Azərbaycan ədəbi dili. I cild (2 cilddə). Bakı, 2019. 464 s
2.Halliday M.A.K. Wolfgang T, Colin Y, Cermakova A. Lexicology and Corpus Linguistics. London: New York, 2004, 304 p.
3.Amosova. H.H. Основы английской фразеологии. Либроком: 2010, 216 стр.
4. Bayramov. H.A, Azərbaycan dili frazeologiyasının əsasları. Maarif ,1978, 167 s
4.Ginzburg R.S, Khidekel S.S, Knyazeva G.Y, A Course in Modern English Lexicology. Second edition. Moscow: "Visshaya shkola", 1979, 269 p.
5. Arnold I.V. The English Word. Moscow: "Vısshayashkola". 1986, 295 p.
6. Кунин К.В. Курс фразеологии современного английского языка . Москва: 1986, 333 стр.
7.Hacıyeva.Ə.H İngilis və Azərbaycan dillərində somatik frazeologizmlərin struktur-semantik xüsusiyyətləri. Bakı, "Nurlan", 2008.

Açar sözlər: dilçilik, lüğət tərkibi, leksik vahid, ünsiyyət, söz qrupları, termin

Key words: linguistics, vocabulary, lexical unit, communication, word groups,term

Ключевые слова: лингвистика, словарный запас, лексическая единица, коммуникация, группы слов, термин

XÜLASƏ

İngilis və Azərbaycan dillərində frazeoloji birləşmələr və onların müqayisəli təhlili

Frazeoloji vahid leksik cəhətdən bölünməz dil vahidi, sözlərin sabit semantik bağlı birləşməsidir, mənasına görə ayrılmazdır, obrazlılığı, ifadəliliyi, üslubi və emosional rənglənməsi ilə seçilir, tamamilə və ya qismən yenidən düşünülmüşdür. Frazeoloji vahidlər qiymətləndirmə funksiyasına malikdir, yəni natiqin konkret predmet və ya hadisəyə münasibətini ifadə edir, nitqə canlılıq və ifadəlilik verir, auditoriyaya təsir etmək üçün güclü vasitədir.

Frazeoloji birləşmələrin daxili məna quruluşunun və xarici strukturunun, tərcümə olunma imkanlarının öyrənilməsi, milli və beynəlmiləl səciyyəsi ilə yanaşı onların işlənmə xüsusiyyətlərinin təhlili də həm nəzəri, həm də praktik cəhətdən aktuallıq kəsb edir.Məqalədə İngilis və Azərbaycan dillərinin materialları əsasında frazeoloji birləşmələrin struktur-semantik xüsusiyyətləri təhlil olunur və hər bir dilə məxsus frazeoloji birləşmələrin özünəməxsus cəhətləri araşdırılır, ümumi və fərqli xüsusiyyətləri aşkar edilir.

SUMMARY

Phrasological units in english and azerbaijan languages and their comparative analysis

A phraseological unit or fraseologysm is a lexically indivisible unit of language, a stable semantically linked combination of words, integral in its meaning, distinguished by imagery, expressiveness, stylistic and emotional coloring, completely or partially rethought. Phraseological units have an evaluative function, that is, they express the speaker's attitude to a particular object or phenomenon, give speech liveliness and expressiveness, and are a powerful tool for influencing the audience.

The study of the internal semantic and external structure of phraseological units, their translation capabilities, and the analysis of their development characteristics, along with their national and international characteristics, are both theoretically and practically relevant. The article analyzes the structural-semantic characteristics of phraseological units based on materials from the English and Azerbaijani languages, and examines the specific features of phraseological units specific to each language, revealing common and distinctive features.

РЕЗЮМЕ

Фразологические единицы в английском и азербайджанском языках и их сравнительный анализ

Фразеологическая единица или фразеологизм – это лексически неделимая единица языка, устойчивое семантически связанное сочетание слов, целостное по своему значению, отличающееся образностью, экспрессивностью, стилистической и эмоциональной окраской, полностью или частично переосмысленное. Фразеологические единицы обладают оценочной функцией, то есть выражают отношение говорящего к тому или иному предмету или явлению, придают речи живость и выразительность и являются мощным инструментом воздействия на аудиторию.

Изучение внутренней семантической и внешней структуры фразеологических единиц, их переводческих возможностей, анализ особенностей их развития, а также их национальных и интернациональных особенностей имеет как теоретическую, так и практическую актуальность. В статье анализируются структурно-семантические характеристики фразеологических единиц на материале английского и азербайджанского языков, рассматриваются специфические черты фразеологических единиц, характерные для каждого языка, выявляются общие и отличительные черты.

Rəy verən: dos. Nəcəfova Ş.Y

Məmmədova Leyla Adil qızı[28]

FARS DİLİNDƏ RƏNG ADLARININ MORFOLOJİ QURULUŞ MODELLƏRİ

Əsrlər boyu rənglər insanların həyat və fəaliyyətlərinin bütün sahələrində mövcud olmuş, dil və düşüncələrinin ətraf mühitlə əlaqəsini özündə əks etdirən aktual məsələlərdən biri hesab edilmişdir. Dünyanı, insan həyatını rənglərsiz təsəvvür etmək mümkün deyil. Rənglər xalqların mental-kommunikativ faktoru hesab edilən mədəniyyəti ilə sıx bağlı olub, insan psixologiyası və estetik zövqunu təmin edən faktorlardan biri kimi mühüm mənəvi-estetik əhəmiyyətə malikdir. Həmçinin bədii dildə çoxmənalı leksik vahidlər olan rəng adları stilistik imkanların ifadə edilməsi xüsusiyyətinə də malikdir. Təqdim olunan mövzuda fars dilində rəngləri ifadə edən leksikanın təsnifatı, morfoloji-quruluş modelləri, şəkilçilərin sinonimliyi və məhsuldarlığıhaqqında məlumat verilir. Dahi Azərbaycan şairi N.Gəncəvinin "Yeddi gözəl" poeması bədii-fəlsəfi fikirlərin rəng anlayışı ilə məharətlə ifadəsi, rənglərin insan, cəmiyyət və kainatın dərki ilə bağlılığını özündə əks etdirən unikal bir əsər olduğundan çıxışımı bu sətirlərlə başladım və qeyd edim ki, məqalədə verilmiş misallar Nizami əsərlərinin leksik materialından götürülmüş nümunələr əsasında verilmişdir.

Qədim dövrlərdən rəng anlayışı fəlsəfə, psixologiya, fizika, rəssamlıq, rəngkarlıq, tibb, estetika və s. kimi elm sahələrində müxtəlif aspektlərdən araşdırılmışdır. Rəng haqqında nəzəriyyələr qədim dövrlərə aid Çin və Avropa fəlsəfələrində müşahidə edilir. Lakinbu əsərlərdə rənglər dilçilik baxımından araşdırılmamışdır. Dilçilikdə rəng funksiyasının digər elmlərlə müqayisədə daha çox olmasına baxmayaraq, rənglərin linqvistik baxımdan sistemli şəkildə tədqiqi XX əsrin ortalarına təsadüf edir. Dünya dillərinin lüğət tərkibində çoxlu sayda rənglər və onların çalarlarını ifadə edən söz və ifadələrə rast gəlinir. Hər bir dildə rənglərlə bağlı leksik mənzərə təkcə dil faktorunun deyil, həm də həmin dildə danışan xalqların milli mədəniyyəti, adət-ənənələrinin bir sıra xüsusiyyətlərinin daşıyıcısı hesab edilir. Təbiətdə əsas rənglər qöy qurşağında əks olunan xromatik rənglər və qara, boz, ağ kimi axromatik rənglərə bölünür. Göy qurşağında rəng spektrının kəskin sərhədlərinin olmadığından əsas yeddi rəng nisbi xarakter daşıyır və bir rəngin digər rəngə keçidi rənglərin çalarlarının yaranmasına səbəb olur. Lakin ən zəngin dillər belə bu rəngarəngliyi tam şəkildə ifadə edən leksikaya malik deyildir. Rəng və çalarlarına adların verilməsi çoxəsrlik təcrübəyə malikdir və onları ifadə edən sözlərin çoxluğu leksik-qrammatik vahidlərin sayının artmasına səbəb olmuşdur ki, bu da öz növbəsində dili zənginləşdirən faktorlardan biri hesab edilir.

Müasir dilçilikdə rənglərin ifadə olunması məsələsi tarixi, leksik-semantik, linqvokurtural və funksional kimi əsas istiqamətlərdə aparılır. Rəngləri özündə əks etdirən dil vahidləri semantik, morfoloji, sintaktik quruluş, məcazi və simvolik məna aspektlərdən tədqiq edilir. Bu araşdırmalarda rəng leksikasını ifadə etmək üçün "rəngadlandırma", "kolorativ","kolorizm", "kolorotiv leksika" və s. kimi terminlərdən istifadə olunur. Rəngləri ifadə edən dil vahidlərinin kök morfemləri semantika və etimologiya baxımından rəng adlarını ifadə edir. Kolorativ leksika əsas rənglər və rənglərin müxtəlif çalarlarını ifadə edir və bədii mətndə müxtəlif funksiyaları yerinə yetirir.

Zəngin lüğət tərkibinə malik olan, dünyanın ən qədim və canlı dili sayılan fars dilində rəng bildirən terminlərin sayı çoxdur. Rənglər və rəng çalarlarını ifadə edən sözlər qədim dövrlərdən başlayaraq bu dilin leksikasının aktiv qatına daxıl olmuş, bədii dildə həm həqiqi, həm məcazi mənada istifadə edilərək, fars dilində danışan insanların milli mədəniyyəti, adət-ənənələrinin bir sıra etnik xüsusiyyətlərinin daşıyıcısı olmuşdur. Bu baxımdan rəng anlamını ifadə edən sözlərin mənalarının, quruluşca növlərinin və işlənmə yerinin araşdırılması müasir fars dilində gedən inkişaf proseslərinin izlənilməsi baxımından çox əhəmiyyətlidir. Rəngləri ifadə edən leksika fars dilinin məşhur lüğətlərində "Loğətname–ye Dehxoda", "Fərhəng-e Moin", "Fərhəng-e Əmid" və başqalarında geniş izah olunmuşdur. Fars dilində rəng adlarınn dilçilik baxımından geniş araşdırılması XX əsrin sonlarına təsadüf edir. İlk dəfə olaraq Mehrzad Mənsuri müasir fars dilində rənglər mövzusuna müraciət etmiş və 63 rəng adını təsbit etmişdir. Daha sonralar Məryəm Mirəhmədi, Mahutiyan, Qol Mohəmmədzade, İrəc Əfşar bu mövzunu araşdıraraq rəng adlarının sayının daha çox olması, mənşəyi və quruluş modelləri, simvolikası haqqında öz mülahizələrini irəli sürmüşlər. Hal-hazırda fars dilində 1600-dən çox rəng adı mövcuddur ki, bunlar müxtəlif lüğətlərdə, ədəbi əsərlərdə, dövrü mətbuatda müşahidə olunur. Rəng adlarının sayının artması farsdilli cəmiyyədə sənətkarlıq, rəssamlıq, ədəbiyyat, estetika, qiymətli daşlar, memarlıq, xalçaçılıq, maşınqayırma, boya sənaye sahələrinin inkişafi ilə sıx əlaqədardır.Hər il fars dilinin lüğət tərkibinə çoxlu sayda rəng adları daxil olur.

Məşhur lüğətlərdə "rəng" termininin izahı "günəş şüalarının təsiri altında ətraf mühitdə müşahidə olunan cisimlərdə özünü əks etdirən təbii ünsür kimi" verilmişdir. "Rəng" terminin "طرح ", " نقش ", " چهره ", " پوشاک", " kimi məna çalarları, "آرنگ ", " آزرد", " دیز", " راز", " فام", " گون", "وپرش", " kimi sinomləri, " رواج", "رونق", "مکر", "حیله", " فریب", " فسون" məzaci mənaları verilmişdir.

Fars dilinin söz yaradıcılığı prosesində aktiv mövqeyə malik olan kolorativ sözlər rəng semantikasını ifadə edən isim, sifət, feil kimi əsas nitq hissələrinin yaranmasına səbəb olmuşdur. Məs: " سبزی", "سرخی", "سیاهه", "زرده" kimi sözlərdə isim ," سبز شدن", " سرخ کردن", " طلایی در آوردن" kimi sözlərdə mürəkkəb feili ifadə edir. Bu nitq hissələrinin ən geniş yayılmış forması adyektiv quruluşa malik modellər - sifətlərdir.

Fars dilində rəng adları(رنگ واژه ها) leksik-semantik baxımdan əsas və alınma olmaqla ikiqrupa bölünür. Fars dilində bu bölgü رنگ واژه های بسیط و رنگ واژه های نا کانونی bəzən رنگ واژه های کانونی و رنگ واژه های غیر بسیط və ya رنگ واژه های اصلی و جعلی adlanır. Fars dilində əsas rəng adları bunlardır: سیاه (qara), سپید - سفید (ağ), سبز (yaşıl), زرد (sarı),

[28]***BDU, Orta Şərq dilləri kafedrası E-mail: leyla200910@mail.ru***

10.24412/2218-7588-2025-2-103-107

آبی (mavi), بنفش (bənövşəyi), سرخ (qırmızı), نارنجی (narıncı), صورتی (surəti), قهوه ای (qəhvəyi), خاکستری (boz).

Ümumiyyətlə, dilçilikdə əsas rənglərin təsnifatı problemi mövcüddur. Bu da əsasən əsas rənglərin sayının müxtəlifliyi ilə özünü biruzə verir. Rəngləri ifadə edən sözlərin linqvistik baxımdan tədqiqi və "bazis rənglər" terminin istifadə olunması ilk dəfə 1969-cu ildə Amerikalı dilçi-alimlər Brent Berlin və Pol Key tərəfindən yazılmış "Əsas rəng terminlərinin universallığı və təkamülü" kitabında öz əksini tapmışdır. Alimlər "dilçilik və psixologiyada rənglər" mövzusunu geniş araşdırmış və ilk dəfə olaraq "bazis rəng adları" termini yaratmışlar. Alimlər fars dili daxil olmaqla dünyanın 20 dilində mövcud rəng leksikasını tədqiq etmiş və müxtəlif dillərdə bazis rənglərin sayının müxtəlif olmasını və rəng terminlərinin xüsusiyyətlərini, hər bir dilin özünəməxsus əsas rəng adlarının mövcudluğunu qeyd etmişlər. Əsas rəng adlarının sayının az və ya çox olması dilin inkişaf səviyyəsindən deyil, o dildə danışan xalqların rəngləri psixoloji duyumu və məskunlaşdıqları ərazilərin xüsusiyyətlərindən asılıdır. Alimlər belə qənaətə gəlmişlər ki, rəng adlarının 95% əşya adlarından əmələ gəlmişdir, yalnız 5% sözlərin dəqiq etimologiyası məlum deyil. Alimlər rəng adlarını əsas (bazis) və əlavə olmaqla iki qrupa bölmuş və bazis rəng adlarının aşağıdakı əsas xüsusiyyətlərini qeyd etmişlər:

- monoleksem olması (bu baxımdan əsas rəng adları sadə sifətlərə aid edilir) سرخ ، سبز ، سیاه، سفید، زرد، کبود

- əşya ya varlıq haqqında insanda yeganə təsəvvürün yaranması, yəni siqnifikat funksiyaya malik olması (Məsələn, آبی (mavi), قهوه ای (qəhvəyi), نارنجی (narıncı) və s. kimi rəng adları istisnadır).

- leksemin hər hansı bir məhdud çərçivədə istifadə edilməməsi (məs: " داج " qara, qaranlıq mənasını versə də, yalnız "gecənin qaranlığı" mənasında ," زاغی " göy göz"mənasında, " کرند " "kürən at" mənasında işlənən sözlər istisnadır). "Dac" sözünün izahı Dehxoda lüğətində "tariki -ye şəb", "siyahi-ye şəb" "zağı" "an ke çeşm-e kəbud darəd" , Fərhəng-e Əmiddə "şəb-e besyar tarik", "korənd" sözünün izahı isə "əsb-e zərd rəng və ya ğəhve-yi rəng" kimi verilmişdir.

- terminin aydın və geniş anlamda , ümumişlək istifadə olinması xüsusiyyəti (" آل " " بور "," تیز "," ماوی " ," احمر " " kimi kolorativlər məhdud hallarda istifadə olunduğundan istisnadır).Yuxarıda göstərilən xüsusiyyətlərini nəzərə alsaq, fars dilində bazis rəng adlarınabunları aid etmək olar:سرخ ، سفید (سپید)، سیاه، زرد، سبز، کبود

Rəng adlarının morfoloji quruluş modelləri

Müasir fars dilində rəng adlarını ifadə edən sifətlərin quruluş modelləri morfoloji, sintaktik - təsviri yolla düzəlir. Əşyanın əlamət, keyfiyyət, rəng bildirən nitq hissəsi olan sifət kimi rəng adları quruluşca sadə, düzəltmə və mürəkkəb olmaqla üç yerə bölünür. Yuxarıda qeyd etdiyimiz kimi, müasir fars dilində quruluşca sadə olan əsas rəng adlarının sayı altıdır : سیاه (siyah), سفید (sefid) ya سپید (sepid), سرخ (sorx), زرد (zərd), سبز (səbz), کبود (kəbud). Fars dilində quruluşca sadə, lakin bazis rəng terminlərinə aid olmayan rəng adları da müşahidə olunur. Məs: آس (سبز)، آل (سرخ)، بور (سرخ و زرد)، بوقان (سرخ)، پشام (سیاه)، تیز(زرد)، چغر (نارنجی)، خنگ (اسب سفید رنگ)، رش (قهوه ای)، زال (سفید)، سمند (اسب زرد)، سور(خاکستری)، کال (آبی)، کبود (آبی)، کهر(قهوه ای و سرخ)، لال (سرخ)، نشت (زرد)، وشنی (سرخ) و غیره.

Digər dünya dilləri ilə müqayisədə fars dili adyektivləşmiş sözlərin, düzəltmə sifətlərin yaranma imkanlarının üstünlüyü ilə fərqlənir və bu dildə sifətlərin sayı digər əsas nitq hissələrindən daha çoxdur. Fars dilində quruluşca düzəltmə sifətlər olan rəng adları morfoloji üsulla düzəlir və bu üsulروش پسوندافزایی (rəveş-e pəsvəndəfzayi) adlanır.Düzəltmə sifətlər olan rəng adları رنگ واژه های اشتقاقی (rəngvajeha-ye eşteğaği) isimlərin sonuna müəyyən son şəkilçilərin artırılması ilə yaranır. Düzəltmə rəng adlarının yaranmasında əsasən aşağıdakı şəkilçilər iştirak edir: یای نسبت (ya-ye nesbət), پسوند گون(pəsvənd-e qun), پسوند فام (pəsvənd-e fam),پسوند ه (pəsvənd-e "e"), پسوند ین (pəsvənd-e "in"), پسوند های وش ، دیز، زار، وار ،سار، ا (pəsvəndha-ye "vəş","diz","zar","var","sar","a" və s. Bu şəkilçilər müasir fars dilində öz məhsuldarlığı ilə bir-birindən fərqlənir. Qeyd edim ki, fars dilinin ilkin mərhələsində mövcud olmuş bəzi şəkilçilər tarixi inkişaf prosesində fonetik dəyişikliyə uğramış, müasir dildə fərqli səslənmə əldə etmiş, bəzi şəkilçilər arxaikləşərək öz funksiyasını itirmişdir.

1) Bildiyimiz kimi düzəltmə sifətlərin yaranmasında iştirak edən şəkilçilərdən biri ی (ye) یای نسبت (ya-ye nesbət) adlanır. Orta fars dilində "*ik*" kimi mövcud olan bu şəkilçi müasir fars dilinin söz yaradıcılığında, həmçinin koloristik leksikanın yaranmasında fəal iştirak edən ən məhsuldar şəkilçilərdəndir. Bu şəkilçi müxtəlif əşya, bitki, təbiət ünsürləri və elementləri, bədən üzvlərinə əlavə edilərək alınma rəng adlarını əmələ gətirir. Məsələn: لعلی (qırmızı), آسمانی (mavi), خرمایی(xurmayı), خونی (qan rəngli- qırmızı), انارى (nar rəngli-qırmızı) , عنبری- مشکی (qara), ارغوانی (tünd qırmızı),حنایی (həna rəngli), لاجوردی (göy), خاکی (xaki) və s.Müasir fars dilində bəzi sözlərdə bu şəkilçinin "*ik*" variantının mövcudluğunun şahidi oluruq.Məsələn:تاریک (tarik)- qaranlıq,نزدیک (nəzdik)-yaxın və s.Buradan o qənaətə gəlmək olar ki, "*ik*" ی (ya-ye nesbət)in allomorfu – yəni tələffüzündə fonetik dəyişikliyə uğramış formasıdır."ya-ye nesbət"in digər allomorflar kimiگی (gi), وی (vi), یی (yi) – ni də misal göstərə bilərik. Məsələn:دانشجویی (daneşcuyi)- tələbəyə aid, دنیاوی (donyavi)-dünyavi, خانگی (xanegi) -evə aid, گنجوی (Gəncəvi)-Gəncəyə məxsus,روستایی (rustayi)-kəndə məxsus və s. Amma bu şəkilçilər rəng adlarının yaranmasında iştirak etmir.

نشست آن شب به نوشانوش یاران — Əyləşib işrətə yoldaşlarıyla
صبوحی کرد با شب زندهداران — Açdılar səhəri əldə piyalə.
سماع ارغنونی گوش میکرد — Ərqənun çaldırıb qulaq asdılar,
شراب ارغوانی نوش میکرد — Ərqəvan mey içib xumar oldular.

(نظامی ، خمسه، خسرو و شیرین، بخش ۱۵)

2) ین (in) şəkilçisi, qədim fars dilində "aina", orta fars dilində "en", Avesta dilində "yena" kimi mövcud olmuşdur.Müasir fars dilində "in" şəkilçisinin valentliliyinin geniş olmasını müşahidə edirik.Məsələn:

a)isimlərin sonuna artırılaraq düzəltmə sifətlər əmələ gətirir:خونین (xunin)- qanlı, بلورین (bolurin)- büllur,مشکین (meşkin)-

qara və s.
b)zərflərin sonuna artırılır: امروزین (emruzin)- bu günkü,دیرین (dirin)- qədimi və s.
c)sifətlərin sonuna artırılır: کبودین (kəbudin)- göy
d)sual əvəzliklərinin sonuna artırılır: چندمین (çəndomin)- neçənçi, کدامین (kodamin)- hansı və s.
e) yanaşma yolu ilə düzələn sıra sayları tərkibli birləşmələrin sonuna artırılır : پنجمین(pəncomin)-beşinci, بیستمین (bistomin)-iyirminci
j) müqayisə dərəcəsinə verilmiş sifətlərin sonuna artırılaraq üstünlük dərəcəli sifətlər əmələ gətirir: بزرگترین (bozorgtərin)- ən böyük, پرجمعیت ترین (porcəmiyyəttərin)- əhalısı ən sıx və s.

ین vasitəsilə əmələ gələn sifətlər iki məna funksiyasına malikdir: əşyanın bu və ya digər materialdan əmələ gəldiyini, həmçinin əşyanın rəng və çalarlarını ifadə edir. Məsələn: زرین (zərrin) qızılı və ya qızıl rəngli, آتشین (atəşin) alovlu, alov rəngli, سیمین (simin) gümüşdən hazırlanmış və ya gümüşü, boz rəngli və s.

زلف شب چون **نقاب مشکین** بست Gecənin yaşmağı göyləri sardı,
شه ز نقابی نقیبان رست Əyanlar əlindən Bəhram qurtardı.
(هفت پیکر بخش ۳نظامی، خمسه،

Yuxarıda qeyd etdiyimiz "ya-ye nesbət" və "in" morfemləri sinonim morfemlərdir və bir-birindən velentliyi, üslubi istifadə imkanları, məhsuldarlığı ilə fərqlənir. Bəzi hallarda bu şəkilçilər tam formada biri digərini əvəz edir ki, bu da onların məna və funksional oxşarlığını təsdiq edir. Məs: "meşki" – " meşkin", "xaki"- "xakin" və s. "Ya-ye nesbət"in geniş valentliliyi və "in" şəkilçisinin məhdud morfoloji və semantik valentliliyi onların məhsuldarlıq səviyyəsini təyin edir. "Ya-ye nesbət" fars dilinin ən məhsuldar şəkilçisi hesab edildiyi halda, "in" ilə mövcud olan sözlərin, xüsusilə də neoloqizmlərin sayı çox az müşahidə olunur. Onu da qeyd etməliyik ki, "isim+(in)" modeli üzrə düzələn sifətlər yaranma və məhsuldarlıq baxımından əhəmiyyətli dərəcədə azalır və ین (in) şəkilçisi söz yaradıcılığında geniş imkanlara malik olan یای نسبت (ya-ye nesbət) tərəfindən müasir fars dilindən sıxışdırılır.Bu şəkilçilər üslub baxımından da bir-birindən fərqlənir. Belə ki, " ya-ye nesbət" dialeklər və danışıq dili daxil olmaqla istənilən üslublarda, "in" isə əsasən kitab və poetik üslubda daha çox istifadə edilir. Lakin bütün üslublarda istifadə edilən ümumişlək "pustin", "çəndin", "nazənin" kimi sözlər istisna təşkil edir.

3)گون (qun) şəkilçisi rəng bildirən sözlərin yaranmasında fəal iştirak edir. Müasir fars dilində şəkilçi funksiyasını daşıyan bu şəkilçi qədim fars dilində "*quna"*, Avesta dilində "*qaona"*, orta fars dilində "*gon"*, "*gonay"* kimi müstəqil mənalı söz kimi mövcud olmuşdur. IX-XVI əsrlərə aid fars-dəri dilində yazılmış nümunələrdə -gun, -gon şəkilçilərinin müxtəlif mənalarda – rəng və görünüş mənasında verildiyinin şahidi oluruq. " گون" şəkilçisinin ərəb dilində qarşılığı olan " لون" müstəqil mənada "rəng" sözünü ifadə edir. Bu şəkilçi isimlərə birləşərək rəng, görünüş, şəkil mənalarını əks etdirən sifətlər yaradır. Müasir fars dilində "qun" komponentli چگون "çequn", چگونه "çequne", گوناگون "qunaqun" kimi sözlərə rast gəlirik ki, burda forma, şəkil, görünüş mənalarında işlənmişdir.

Bu şəkilçi bəzi qrammatik kitablarda şəkilçi, bəzilərində isə sözşəkilçi kimi verilmişdir. Ümumiyyətlə, müasir fars dilinin söz yaradıcılığında söz morfemlərin əhəmiyyətli rolu vardır. Söz morfemlər dilin müxtəlif tarixi mərhələlərində müstəqil mənalı sözlər kimi mövcud olmuş və müasir dövrdə isə şəkilçilər kimi sözlərin tərkibində müşahidə edilir.Adından göründüyü kimi, söz morfemlər həm sözlərin, həm də şəkilçilərin xüsusiyyətlərini özündə daşıyır. Fars dilində mövcud olan söz morfemlər ismi və feili olmaqla iki yerə bölünür. Bu şəkilçilər leksik mənalarını özündə saxlayır, lakin müstəqil mənalı söz kimi dilin lüğət tərkibində mövcud olmur. Məşhur şərqşünas alim Lazar Peysikov özünün "Очерки по словообразованию персидского языка" kitabında bu haqda geniş məlumat vermişdir.

Bu şəkilçinin ikili semantikaya malik olması onun valentliliyini artırır. Bu şəkilçini araşdırarkən onun əşyanın müəyyən rəngə uyğun olan isimlərə artırılması ilə eyni rəngi ifadə etdiyini görürük.Məsələn: آذرگون (سرخ)، به گون(زرد)، غالیه گون (سیاه)، لاله گون (سرخ)، می گون(سرخ)، شب گون (سیاه)، شام گون (سیاه) Bundan əlavə bu şəkilçi əsas rəng adlarına da birləşir və o rəngin çalarını ifadə edir.Məsələn: سبزگون (səbzqun) – yaşıl, سرخ گون (sorxqun)- qirmizi. Bu şəkilçinin ifadə etdiyi mənalardan biri də "oxşarlıq" mənasının ifadə etməsidir.Məsələنبیمارگون: (bimarqun)-xəstəyə bənzər, بیدگون (bidqun) – söyüd ağacina bənzər və s. Bəzi hallarda گون -*gun* ikili məna ifadə edə bilir.Məsələn آذرگون (azərqun) sözündə həm sarı-narınci rəngi , həm də "alova bənzər" mənanı, گلگون (golqun) sözündə həm qırmızı rəngi həm də "incə", "gözəl","güləbənzər" mənaları ifadə edir. Qeyd etmək lazımdır ki, müasir fars dilində "qun" şəkilçisinin valentliyi məhdudlaşmışdır və "isim+"qun" modelli birləşmələr azməhsuldarlığı ilə seçilir.Müasir fars dilində bundan əlavə گونی , گونه , گونا kimi şəkilçilərdən düzələn rəng adlarına da rast gəlirik. Fars dilində bu şəkilçilərdən əsasən rəngin çoxluğu, dolğunluğunu ifadə edərkən istifdə olunur. Məsələn: آسمان گونی، خاکسترگونی، زرگونی، پیروزه گونی، ماه گونی، زعفران گونه، سپیدگونه، گل گونه، نیل گونه، زرگونا، غالیه گونا s. və گوناگون sözü iki şəkilçinin birləşməsindən əmələ gələn "rəngarəng" sözünü ifadə edir.

به جنبش درآمد دو دریای خون İki qan dəryası təlaşa gəldi,
شد از موج آتش **زمین لاله‌گون** Atəş dalğasından yerlər qızardı.
(نظامی ، خمسه، اسکندرنامه، بخش ۲۶)

بیا ساقی آن آب آتش خیال Gəl ey saği, atəş xəyal o suyu,
درافکن بدان **کهرباگون** سفال Kəhrəba saxsının içiərinə tök.
(نظامی، خمسه، اسکندرنامه، بخش ۱ ۵۸)

نمودند **کاین زعفران‌گونه خاک** Dedilər:"Zəfəran rəngli bu torpaq
کند مرد را بی‌سبب خنده‌ناک İnsanı səbəbsiz güldürür ancaq."
(نظامی،خمسه، اسکندرنامه، شرفنامه،بخش ۴۲)

4) Rəng adlarının əmələ gətirən şəkilçilərdən biri də "fam" sözşəkilçisidir. فام (fam) şəkilçisi isimlərə və əsas rəng adlarına əlavə edilir və oxşarlıq, rəng çalarlığını ifadə edir.Məsələn:آیینه فام (ayinefam) – parlaq, şəffaf, خورشیدفام (xorşidfam) -parlaq, işıqlı, ازرق فام (əzrəğfam) – göy rəng, بیجاده فام (bicadefam)-qırmızı, لعل فام (ləlfam)- qırmızı rəng, سیاه فام(siyahfam)-qara və s.Bu şəkilçinin بام , پام , variantlarında nadir hallarda rast gəlirik: زرد بام ، کبود بام və s. Bu şəkilçi həm də sifətlərin azaltma dərəcəsində də iştrak edir.

سحرگه که طاوس مشرق خرام Səhər çağı şərq tovuzu

فیروزه فام برون زد سر از طاق Firuzərəngli tağdan başın qaldırdı.

(نظامی، خمسه، اسکندرنامه، بخش ۴۵)

Yuxarıda qeyd etdiyimiz "qun" və "fam" sözmorfemlər semantik baxımdan yaxın olduqlarından sinonim şəkilçilər sayıla bilər. Məs: "səbzqun"- "səbzfam", "siyahqun"-"siyahfam","zomrodqun"-"zomrodfam" , "ləlqun" – "ləlfam" və s.Bundan əlavə fars dilində rəng adlarının düzəlməsində iştirak edən bəzi şəkilçilər mövcuddur ki, müasir dövrdə məhsuldarlığını itirmiş, lakin bəzi misallarda müşahidə edilir. Bu şəkilçilərə aşağıdakılar aiddir:

5) ه – "e" şəkilçisi məhdud sayda rənglərin yaranmasında iştirak edir."e" şəkilçisi ilə düzələn düzəltmə sifətlər iki quruluş modelinə malikdir:

1) isim və əsas rəng adlarını bildirən sifətlərin sonuna "e" (ه + (صفت) اسم) məs: دیزه
(خاکستری)، سرخه (سرخ) ، کبوده (آبی) ، نیله (آبی)، سبزه (سبز)

2) feil əsasının sonuna "e" artırmaqla (ه + بن فعل)
پرهوده (زرد سوخته) – پرهودن ، کالیده (موهای زرد) – کالیدن ، رشته (رنگ سرخ شده) – رشتن

6) وش – سیاوش (سیاه)، صبح وش (سفید)، زنگی وش (سیاه) və s. Onu da qeyd edək ki, bu şəkilçi həm rəng, həm də oxşarlıq mənasında işlənir.

او خود چو **غبار مشک وش** داشت Onun müşk rəngli saçları vardı,
از نافه عشق بوی خوش داشت Eşqın nafəsindən ətir saçardı.
(نظامی، خمسه، لیلی و مجنون،بخش ۲۵)

Bu beytdə «غبار مشک وش» birləşməsində مشک وش qara rəngli mənasında verilmişdir.

او بر آن **اژدهای دوزخ وش** Cəhənnəm əjdaha belində Mahan
کرده بر گردنش دو پای به کش Möhkəm sarılmışdı ona qorxudan.
(نظامی، خمسه،هفت پیکر، بخش ۳۰)

«اژدها ی دوزخ وش» birləşməsində isə bu şəkilçinin bənzətmə mənasında işləndiyinin şahidi oluruq «دوزخ وش». دوزخ وار،دوزخ سان ، دوزخ سرشت sözlərinə rast gəlirik. Müasir dildə مه وش ، پری وش - kimi sözünün sinonimləri kimi sözlərdə oxşarlıq mənasında geniş istifadə olunur. Bundan əlavə fars dilində rəng leksikasını yaradan şəkilçilər mövcuddur ki, dilin müəyyən mərhələsində mövcud olmuş müasir dildə öz funksionallığını itirərək arxaikləşmişlər. Belə şəkilçilər "وند های رنگ واژه ساز نازایا vəndha-ye rəng vajesaz-e nazaya" adlanır və bunlar aşağıdakılardır:

7) شب دیز (سیاه ، خاکستری) ، ترنج دیس (زرد) دیس – دیز
8) زار - وار شفق زار (سرخ) ، بنفشه وار(بنفش)، مس وار (سرخ)

سر افشانی تیغ گردن گذار Baş üzən, baş kəsən iti qılınclar,
بر آورده از جوی **خون لاله زار** Çölləri qan ilə etmiş laləzar.
(نظامی، خمسه،اسکندرنامه، بخش اول)

9) زاغ سار (سیاه) ، کافورسار(سفید) – سار Bu şəkilçi əsasən oxşarlıq mənasında, bəzi hallarda rəng mənasında işlənir.

آن بیابانیان **زنگی سار** O zənci sifətli çöllülər ki var,
دیو مردم شدند و مردم خوار İnsan yeyən divdir, insana oxşar.
(نظامی، خمسه، هفت پیکر،بخش ۳۰)

«زنگی سار» qara dərili zəncilərin rəngi mənasında verilmişdir.

Mürəkkəb quruluşa malik olan rəng adları iki və daha artıq müstəqil mənalı sözlərin birləşməsindən alinan koloralivlərdir. Bu sözlərin yaranmasında " رنگ", " آرنگ " , " آزرد " , " نگار" , " چرده " , " پوش " kimi sözlərdən əsasən istifadə olunur.Məs:

آزرد زرد ، سبزآرنگ، سبزرنگ، سیاه رنگ، لعل رنگ، پروین رنگ، نی رنگ ، زرنگار ، گوهرنگار، سیاه چرده ، شقایق پوش ، چمن پوش، غوره رنگ و غ.

ز آن خردمند سرو **سبز آرنگ** Yaşıl sərvə dedi böyük hökmran:
خواست تا از شکر گشاید تنگ "Gəl götür darlığı gül dodağından!"
(نظامی، خمسه، هفت پیکر،بخش۲۸)

زمین **نطع شقایق پوش** گشته Torpaq al xalçaya büründü,
شقایق مهد مرزنگون گشته Mərznequn beşiyi lalədən oldu.
(نظامی، خمسه، خسرو و شیرین، بخش ۳۷)

Fars dilində yuxarıda qeyd etdiyimiz morfoloji quruluş modellərindən rəng leksikasının yaranmasında sintaktik üsullardan da geniş istifadə edilir. Qısaca olaraq sintaktik üsuldan da məlumat vermək istərdim. Sintaktik yolla yaranan rəng leksikası bunlardır:

1) İki müstəqil mənalı sözün izafət birləşməsinin sonuna "ya-ye nesbət" artırılması modeli ilə (مضاف + مضاف الیه + یای نسبت)
مغز پسته ای (سبز) ، دانه ی اناری (سرخ)، آب اناری (سرخ) ، تاج خروسی (سرخ) ، عاج فیلی (سفید) ، پای مرغی (زرد) و غ.

2) İki müstəqil mənalı sözün izafət birləşməsinin əvvəlinə "rəng", "berəng" sözlərinin artırılması ilə (به رنگ) (مضاف + مضاف الیه + رنگ)

رنگ (به رنگ) + آب حنا (کمرنگ) ، آب دریا (آبی)، به پخته (زرد) ، تازه زرشک (سرخ)، خون خروس (سرخ) ، گل رعنا (سرخ) ، گل جعفری (زرد) ، گل هلو (صورتی) و غ.

3) "pust", " qol" , "bərg", " çub" ,"dom","çeşm", "kəf" "şax"və digər sözlərlə əmələ gələn izafət və "ya-ye nesbət" quruluş modelli birləşmələr

پوست پیازی (صورتی)، پوست پسته ای (سبز)، پوست پرتقالی (نارنجی)، گل اناری (سرخ)، گل پنبه ای (سفید)، گل چناری (قهوه ای)، گل ماشی (زرد)، برگ بیدی (بنفش) ، برگ ترنجی (سبز)، دم طاووسی (سبز)، دم روباهی سرخ)، چشم ببری (نارنجی)، چشم گربه ای (آبی)، کف دریایی (سبز)، چوب گردویی (قهوه ای)، شاخ آهویی (قهوه ای)، شاخ گوزنی (سفید) و غ.

4) İki rəng adının təkrarı ilə yaranan modellər əsasən

سبز سبز ، سرخ سرخ ، زرد زرد (zərd-e zərd, sorx-e sorx, səbz-e səbz)

Nəticə. Araşdırmalardan o nəticəyə gəlmək olar ki, 2500 illik tarixi inkişaf mərhələsinə malik olan fars dilində rəngləri ifadə edən leksikanın sayı çoxdur və təsnifat baxımından əsas(bazis) və alınma adlara bölünür. Müasir fars dilində rəng adlarını ifadə edən leksikanın quruluş modelləri morfoloji, sintaktik - təsviri yolla düzəlir. Sifət kimi rəng adlarının sadə və mürəkkəb quluş modelinə aid olan adların sayı az, düzəltmə rəng adlarının sayı isə çoxluq təşkil edir. Fars dilinin ilkin mərhələsində mövcud olmuş bəzi şəkilçilər tarixi inkişaf prosesində fonetik dəyişikliyə uğramış, müasir dildə fərqli səslənmə əldə etmişdir. Rəng adlarının yaranmasında iştirak edən şəkilçilər öz məhsuldarlığı ilə fəqlənir, bəziləri isə ümumiyyətlə arxaikləşərək öz funksiyasını itirmiş, yalniz klassik bədii nümunələrdə müşahidə edilməkdədir. Həm sözlərin, həm də şəkilçilərin xüsusiyyətlərini özündə daşıyan "qun", "fam" kimi söz morfemlər sinonim sıralarını yaradır ki, bu da fars dilinin lüğət tərkibinin zənginləşməsində əhəmiyyətə malikdir. Müasir fars dilində koloristik leksikanın araşdırılması müasir linqvistikanın leksikologiya sahəsinin aktual problemlərinin gələcək həlli üçün əhəmiyyətlidir.

İstifadə olunmuş ədəbiyyat:

1. حسن عمید، فرهنگ عمید، نشر فرهنگ اندیشمندان، تهران، 1388
2. فرهنگ معین
3. لغتنامه دهخدا
https://ganjoor.net.4
5.Л.С.Пейсиков, Очерки по словообразованию персидского языка, Москва,1973
6. Ю. А. Рубинчик, Персидско-русский словарь, в 2-х т. ,1983

Ключевые слова: персидский язык, колористическая лексика, морфемы-синонимы.
Açar sözlər: *fars dili, koloristik leksika, morfemlər, sinonim şəkilçilər*
Keywords: Persian language, color-related vocabulary, synonymic morphemes

Морфологические модели колористической лексики в персидском языке

РЕЗЮМЕ

Вданной статье изучаетсяособенности морфологическойструктуры колористической лексикив персидском языке на основе лексического материала литературного произведения "Хамсе" великого поэта Азербайджанского народа Н.Гянджеви. В персидском языке цветов,означающих лексику, образуется с помощью следующих суффиксов: "ya-ye nesbat", "in", "qun", "fam", "e", "vaş", "zar" и т.д., которые различаются степенью валентности и продуктивности.

Morphological Models of Color-related Vocabulary in the Persian Language

SUMMARY.

This article examines the features of the morphological structure of color-related vocabulary in the Persian language based on the lexical material of the literary work Khamsa by the great poet of the Azerbaijani people, Nizami Ganjavi. In Persian, color-denoting vocabulary is formed with the help of the following suffixes: "ya-ye nesbat", "in", "qin", "fam", "e", "vaş", "zar", etc., which differ in their degree of valency and productivity.

RƏYÇİ: dos. Ə.Məmmədova

Dilara R. Khanbabayeva [29]

JARGON WORDS IN THE ENGLISH LANGUAGE

Jargon refers to the specialized language of a professional group, from ER nurses to bureaucrats. This language is often useful or necessary for those within the group but can be meaningless to outsiders—though there are many jargon examples that we use in daily life, such as MIA (missing in action, originally military jargon). Some professions have so much jargon of their own that even the jargon itself has a name; for example, lawyers use legalese and academics use academese. Jargon is also sometimes known as lingo or argot. A passage of text that is full of jargon is said to be jargony. Jargon is a recognized term for a group of words that exists in almost every language and whose aim is to preserve secrecy within one or another social-group.

Jargonisms are generally old words with entirely new meanings imposed on them. The traditional meaning of the words is immaterial, only the new, improvised meaning is of importance. Most of the jargonisms of any language, and of the English language too, are absolutely incomprehensible to those outside the social group which has invented them. They may be defined as a code within a code, that is special meanings of words that are imposed on the recognized code—the dictionary meaning of the words. Thus the word grease means “money”; loaf Thus the word grease means “money”; loaf means “head”; a tiger hunter is “a gambler”; a lexer is “a student preparing for a law course”. Jargonisms are social in character. They are not regional. In Britain and in the US almost any social group of people has its own jargon. The following jargons are well known in the English language: the jargon of thieves and vagabonds, generally known as can’t; the jargon of jazz people; the jargon of the army, known as military slang; the jargon of sportsmen, and many others. Slang, contrary to jargon, needs no translation. It is not a secret code. It is easily understood by the English-speaking community and is only regarded as something not quite regular. It must also be remembered that both jargon and slang differ from ordinary language mainly in their vocabularies. The structure of the sentences and the morphology of the language remain practically unchanged. But such is the power of words, which are the basic and most conspicuous elements in the language, that we begin unwittingly to speak of a separate language.

Jargonisms do not always remain the possession of a given social group. Jargonisms, like slang and other groups of the non-literary layer, do not always remain on the outskirts of the literary language. Many words have overcome the resistance of the language lawgivers and purists and entered the standard vocabulary. Jargon is the complex language used by experts in a certain discipline or field. This language often helps experts communicate with clarity and precision.

Jargon is different from slang, which is the casual language used by a particular group of people.

Critics of jargon believe such language does more to obscure than clarify; they argue that most jargon can be replaced with simple, direct language without sacrificing meaning.

Jargon is frequently considered ‘bad’ in the realm of professional writing because of the way it can obscure meaning. For novice student writers who are just beginning to hone their skills writing in a specific academic discipline, how can they learn to emulate the writing of professionals in concrete, achievable ways? In this paper, I use experience from teaching an undergraduate writing-intensive anthropology course to argue that effective use of discipline-specific vocabulary, which is important for students to become more confident writers of anthropology, is not discussed often enough for students to practice and incorporate into their own academic voices. This paper outlines techniques used in a writing-intensive introductory anthropology course and seeks to raise more dialogue about writing pedagogy in anthropology.

Jargon is the specialised words or phrases used by a certain profession or group to refer to things that happen in that profession or group.

In communication, jargon refers to the language used by a particular group or profession to talk about things that happen in that profession. Jargon makes communication between colleagues easier by providing words for things that don't require further elaboration.

Jargon is used by professionals in different fields or industries to describe different aspects of these fields. People working within the same professions are likely to use and understand the same jargon, however, people outside of these professions are unlikely to understand most jargon.

If we look at the legal profession for instance, some examples of jargon (legal jargon) include:

acquittal: a judgement made that says a party is not guilty of the crime with which they've been charged.

defamation: the damage of another person or party's reputation.

restitution: the penalty or compensation paid to someone for injury or loss.

jurisprudence: the theory of law.

Jargon is important because it helps people within a particular profession to communicate with one another efficiently and clearly. The existence of jargon can simplify complicated concepts and situations, making for easier understanding and communication.

[29] senior lecturer . AZERBAIJANUNIVERSITY OF LANGUAGES

10.24412/2218-7588-2025-2-108-110

'Jargon' refers to the specialised language used in a particular profession or field to describe things that happen within that profession or field.

Jargon is unlikely to be understood by people outside of a particular field or occupation.

Jargon is mainly used to make communication simpler, clearer, and more efficient.

The benefits of using jargon include: creating a sense of shared identity and workplace culture, making descriptions easier and more efficient, and facilitating communication in professional environments.

The disadvantages of using jargon include: it can be exclusive and leave people out, it can cause distrust if overused, and it can be confusing for non-native language speakers

Overuse can lead to distrust

In certain industries, excessive jargon use can lead to feelings of distrust, especially where clients or customers are concerned. If a client hears jargon terms being thrown around all the time and are unable to fully understand what is being said, they might begin to feel distrust of the company working for them. Jargon can make things unclear for people who don't understand the terminology.

Supporters of jargon believe such language is necessary for navigating the intricacies of certain professions. In scientific fields, for instance, researchers explore difficult subjects that most laypeople would not be able to understand. The language the researchers use must be precise because they are dealing with complex concepts (molecular biology, for example, or nuclear physics) and simplifying the language might cause confusion or create room for error. In "Forbidden Words: Taboo and the Censoring of Languages," Keith Allan and Kate Burridge argue that this is the case:

"...Should jargon be censored? Many people think it should. However, close examination of jargon shows that, although some of it is vacuous pretentiousness...its proper use is both necessary and unobjectionable."

Critics of jargon, however, say such language is needlessly complicated and in some cases even deliberately exclusionary. American poet David Lehman has described jargon as "the verbal sleight of hand that makes the old hat seem newly fashionable." He says the language "gives an air of novelty and specious profundity to ideas that, if stated directly, would seem superficial, stale, frivolous, or false." In his famous essay "Politics and the English Language," George Orwell argues that obscure and complex language is often used to "make lies sound truthful and murder respectable, and to give an appearance of solidity to pure wind."

Jargon vs. Slang

Jargon should not be confused with slang, which is informal, colloquial language used by groups of people and which varies based on age and geography. The main difference is one of register; jargon is formal language unique to a specific discipline or field, while slang is a common, informal language that is more likely to be spoken than written. A lawyer discussing an "amicus curiae brief" is an example of jargon. A teen talking about "making dough" is an example of slang.

List of Jargon Examples

Jargon can be found in a variety of fields, from law to education to engineering. Below are some examples of jargon that have permeated daily life, outside their original context:

Due diligence: A business term, "due diligence" refers to the research that should be done before making an important business decision or transaction.

AWOL: Short for "absent without leave," AWOL is military jargon used to describe a person whose whereabouts are unknown but who is believed to have abandoned post.

MIA: Very similar to AWOL, this is also military jargon that means "missing in action", but to describe someone who may have been lost in battle.

Hard copy: A common term in business, academia, and other fields, a "hard copy" is a physical printout of a document or book (as opposed to an electronic copy).

Cache: In computing, "cache" refers to a place for short-term memory storage.

Dek: A journalism term for a subheading, usually one or two sentences long, that provides a brief summary of the article that follows.

Stat: This is a term, usually used in a medical context, that means "immediately." (As in, "Call the doctor, stat!")

Dark horse: This is originally a political term for a relatively unknown or underestimated person who seems unlikely to succeed but then does.

Holistic: Another word for "comprehensive" or "complete," "holistic" is often used by educational professionals in reference to curriculum that focuses on social and emotional learning in addition to traditional lessons.

Magic bullet: This is a term for a simple solution that solves a complex problem. (It is usually used derisively, as in "I don't think this plan you've come up with is a magic bullet.")

Best practice: In business, a "best practice" is one that should be adopted because it has proven effectiveness.

Although they are sometimes used similarly, jargon and slang are not the same. Often, they both involve an informal use of a term to communicate an idea, so there’s a bit of overlap between the two words. However, slang is simply informal language, whereas jargon is specific to a group of people. Virtually every occupation and group has some jargon associated with it. In addition to the examples above, check out these other types of jargon:

Political jargon - There are lots of examples of political jargon being used by 24-hour news outlets, including terms like deep state and bipartisan.

Military jargon - Among much of the common vocabulary in the military, there is certainly no shortage of shorthand and military acronyms too. Be all that you can be with this jargon.

Workplace jargon - Many offices use common workplace jargon to describe everything from the office environment to specific business practices.Law enforcement officers and professionals have their own set of police jargon as well.

10-4 - radio jargon meaning, "Okay" or "I understand"
assumed room temperature - an individual has died
beat - an officer's parole area
berries and cherries - the lights on top of a police car
code eight - term that means officer needs help immediately
code eleven - a code that means the individual is at the scene of the crime
mirandize - to read someone their rights
Sam Browne - a police belt
suspect - s person whom the police think may have committed a crime
wolf pack - A group of patrol cars traveling together
More Types

Like a secret "insider" language, jargon is terminology only understood by people in a certain group. Most words in the English language are a part of common, everyday speech, understood by almost anyone who speaks the language. However, jargon is like a type of shorthand between members of a particular group of people, often involving words that are meaningless outside of a certain context. Following are some examples of jargon that will help illustrate the concept.

For example, most English speakers know that "cool" is slang for something that's good, but only a plumber would know that "brass" is plumbing jargon for a faucet or fixture.

A Word of Caution About Jargon

If you're speaking informally to other people in the same field of study, occupation, or group, you can use jargon and still be understood. However, if you're speaking to someone outside this group or writing work for a larger audience, you should avoid the use of jargon. The point to writing and speaking is communication, and using words only a few people know can get in the way of getting your point across. If you think about your audience first, you'll always choose the right words.

LITERATURE

1. Arnold İ.V., The English Word, Moscow, "Higher school", 1986, 296 p.
2. Galperin, I.R. Stylistics. - Moscow: Higher School, 1981.-332 p.
3. Widdowson, H. G. Practical Stylistics. OUP: 1992.
4. Znamenskaya T.A. Stylistics of the English Language. Fundamentals of the Course. – M., 2002.

Açar sözlər: jarqon sözlər, slənqlər

Key words: jargons, jargonisms, slangs

XÜLASƏ

Məqalədə ingilis dilində danışıq lüğət tərkibinə aid olan jarqonlardan bəhs olunur, nümunələr məqaləni əyaniləşdirir, habelə jarqonlar və slənqlər arasında fərqə nəzər salınır.

SUMMARY

The presented article deals with jargons. Jargons are members of special colloquial vocabulary. The article also deals with the difference between jargons and slangs. The presented article is enriched with examples.

РЕЗЮМЕ

В статье рассматривается жаргонизмы — это слова и выражения, используемые определенной профессиональной, социальной или возрастной группой для внутреннего общения. Они часто непонятны или имеют иное значение для людей, не принадлежащих к данной группе,также расматривается разница между сленгом и жаргоном.

RƏYÇİ: dos. S.Abbasova

Alaviyya Bahruz Nuri [30]

MÜASİR İNGİLİS DİLİNİN LÜĞƏTİN ÜSLUBİ DİFFERENSİASIYASI SISTEMİNDƏ KULTURONİMLƏRİN YERİ

İngiltərədə və ABŞ-da istifadə edilən ingilis dili artıq yarım əsrdən çoxdur ki, tədqiqatçıların diqqətini cəlb etməkdədir. İngilis dilinin bu iki əsas variantı arasındakı fərqlərə baxmayaraq, dilçilik ədəbiyyatında bu variantların sistemli müqayisəsinə həsr edilmiş əsaslı tədqiqat aparılmamışdır.

İngilis dilinin amerikan və britaniya variantları (bundan sonra, biz onları AE, yəni Amerikan ingilis variantı, BE, yəni Britaniya ingilis variantı kimi adlandıracayıq) arasındakı mövcud qarşılıqlı münasibətləri, onların fərqləndirici əlamətlərini sadəcə olaraq sadalamaq yolu ilə deyil, həmçinin onların fərqləndirici elementlərinin xüsusi çəkisini dil strukturunun bütün sahələrində onların miqyasını və işlənmə dairəsini müəyyənləşdirmək yolu ilə araşdırmaq lazımdır. Buna isə, fərqləndirici və oxşar elementlərin ümumi dil sisteminin tərkib hissəsi kimi araşdırıldığı zaman nail olmaq olar.

Müasir ingilis dili mürəkkəb və dinamik inkişaf edən bir dil sistemidir. Dilin lüğət tərkibi cəmiyyətin sosial, mədəni, siyasi və digər sferalarında baş verən dəyişikliklərdən asılı olan ən mobil strukturdur. Dilin leksik vahidləri, semantik quruluşundan əlavə, sözlərin istifadə dairəsi ilə müəyyən edilmiş müəyyən üslubi rəng çalarlarına malikdir. Dilçilər leksik vahidlərin istifadəsinin məqsədəuyğunluğu anlayışını nitq subyekti tərəfindən üslubun düzgün seçilməsi, yəni verbal ünsiyyətinin şərtləri üçün danışanın seçdiyi dil vasitələri kimi müəyyən edirlər.

Dilin lüğət tərkibinin üslubi diferensiallaşdırılması məsələsi ilə İ.V.Arnold, İ.R.Qalperin, V.V.Qureviç, M.A.K.Hallidey, S.Qremli[12;13;14;2;1] və başqaları məşğul olub. Onlar dilin lüğət tərkibinin üslubi diferensiallaşdırılmasının əsas meyarlarını, müasir mərhələdə ingilis dilinin lüğətinin diferensiallaşdırılması üçün bir vasitə kimi funksional üslub anlayışının nəzərdən keçirilməsini, ingilis dilinin əsas üslublarının spesifik cəhətləri və onların işlənmə xüsusiyyətlərini araşdırıb. Əsasən onların tədqiqat obyekti dilin lüğət tərkibi və onun üslubi xüsusiyyətləri olub.

Əgər biz British English və American English əsas lüğət tərkiblərinə nəzər salsaq, görərik ki, onların arasında dilin bütün səviyyələrində fərqlər mövcuddur. AE və BE variantları arasındakı fərqlərə həsr edilmiş elmi ədəbiyyatların nəzərdən keçirilməsi göstərir ki, ingilis dilinin bu variantlardan hansını "nümunəvi" hesab etmək və, ümumiyyətlə, AE variantını müstəqil dil adlandırmaq olarmı, kimi məsələlərə dair mübahisələr hələ də davam etməkdədir.

Bəzi müəlliflər heç bir elmi əsas olmadan iddia edirlər ki, AE variantı Britaniya ingilis dilinin dialektidir. Qeyd etmək lazımdır ki, AE variantının fərqləndirici əlamətləri nəinki dialekt, eyni zamanda ədəbi dil hadisələrinə də xas olan xüsusiyyətlərdir. Məsələn, İngiltərədə və Amerikada "eat" felinin keçmiş zaman formasının iki tələffüz forması mövcuddur: "ate" – (eıt), (et). Bununla belə İngiltərədə (et) normativ variant hesab edilir, (eıt) isə normaya uyğun gəlməyən, savadsız adamların nitqində işlənən forma kimi şərh edilir. Ingilis dilçisi R.Kuerkin fikrincə, (eıt) kimi tələffüz edilən (ate) adamlarda onun yazıldığı kimi tələffüz etmək təsəvvürü yaradır. Digər tərəfdən, (eıt) amerikalılar üçün düzgün forma hesab edilir, (et) isə "kənd, əyalət, savadsız camaatın" nitqinə xas olan xüsusiyyət kimi baxılır [4, s.15].

Aydındır ki, fərqləndirici elementlərin bu cür ayrılmasına görə İngiltərə və Amerika ədəbi dil normaları tamamilə bir-birinə oxşardır. Bununla belə, bu cür fərqləndirici elementlərin xüsusi çəkisi nisbətən böyük deyildir və onların özləri isə dil sisteminin zahiri cəhətlərinə meyl edirlər. Lakin bir halda ki, Böyük Britaniya ədəbi dil normaları AE üçün qeyri-şərtsiz məcburi qüvvəyə malik deyildir və amerikanlıların və ingiltərəlilərin öz ingilis dili üçün "ədəbi dil və dialekt" ierarxiya cərqəsi mövcuddur, onda ABŞ üçün tamamilə səciyyəvi olan dil hadisələrini britaniya normalarından kənara çıxan dialekt hadisəsi kimi araşdırmağa və AE variantını dialekt adlandırmağa heç bir əsas yoxdur.

Deməli, AE ingilis dilinin milli variantlarından biridir. Milli dili sosial linqvistik kateqoriya kimi səciyyələndirilən bütün əlamətlər ona da məxsusdur. Öz ierarxiya quruluşunda, ərazi və sosial dialektlərdən tutmuş ədəbi dilədək, milli dilin bütün quruluşunu əks etdirir. İngilis dilli ölkələrdə dilin vəziyyəti üçün səciyyəvi olan hallardan biri odur ki, ingilislər, amerikanlılar, kanadalılar, avstraliyalılar və başqaları istifadə etdikləri ingilis dili variantları arasındakı fərqləri şişirtməyə meyilli olsalar da, özlərini vahid dil birliyinə məxsus hesab edirlər [5, s.17].

Hələ keçən əsrdə U.Uitni belə bir fikir söyləmişdir ki, Amerikadakı müasir ingilis dili, Şimali Amerika kontinentinin müstəmləkə dövrünün ingilis ədəbi dilinə aiddir [16, s.35]. Təəsüf ki, U.Uitni öz fərziyyəsini dil materialının təhlili ilə möhkəmləndirməmişdir [9]. AE variantının ilk tədqiqatçılarından biri G.Krepp isə başqa bir nəticəyə gəlmişdi. Onun fikrincə, AE variantının fərqləndirici əlamətləri ilk növbədə öz sisteminin müstəqil inkişafına səbəb olmuşdur. Belə bir inkişafın mühüm səbəbini o, ingilis dilinin ərazi dialektlərinin Şotlandiya dialektləri ilə, Amerikaya köçən ilk sakinlərin danışdığı şimali və cənubi ingilis dili dialektlərinin qarışmasında görür [3, s.159].

Müstəmləkə dövründə Amerikaya köçüb gələnləri heç də hamısı ədəbi dildə sərbəst danışa bilmirdilər. Onlardan bir çoxunun yerli dialektlərdə, bir çoxunun isə ədəbi dildə danışmasını, xüsusilə qeyd etmək məqsədə uyğundur. Unutmaq olmaz ki, milli ingilis ədəbi dilinin formalaşması da elə həmin dövrə təsadüf edir. Artıq bu dövrdə

[30] **NakhchivanStateUniversity (English teacher)**
mayisnuri422@gmail.com.
https://orcid.org/0000-0003-4219-1071
10.24412/2218-7588-2025-2-111-114

İngiltərədə milli ədəbi dilin sosial nüfuzu nəzərə çarpaçaq dərəcədə yüksəlmiş, ərazi dialektləri isə əsas etibarı ilə mənfi sosial mahiyyət kəsb etmişdir.

AE variantının fərqləndirici elementlərinin təhlili göstərir ki, Amerikada ingilis dili tarixinin erkən dövründə, standart AE artıq bütün "sub-standart" sistemlərə, o cümlədən dialektlərə münasibətdə hakim mövqe qazanmışdır. Elə buna görə də deyə bilərik ki, AE və BE variantlarının ümumi birliyinin saxlanması və bütövlükdə AE variantlarının formalaşmasında həlledici rol ərazi dialektlərinə yox, yalnız ədəbi dilə məxsus idi.

AE və BE leksik cəhətdən qarşılıqlı surətdə bir-birinə keçməsi heç şübhəsiz intensiv xarakter daşıyır. Bu da, şübhəsizdir ki, XIX – XX əsrlərlə, hətta XXI əsrin əvvələri ilə müqayisədə hər iki variant leksik-semantik mərhələdə bir-birinə daha çox yaxınlaşmışdır. Buna görə də haqlı olaraq qarşıya belə bir sual çıxır, AE və BE vaiantları arasında mövcud olan leksik-semantik fərqlərin tamamilə aradan götürülməsi hadisəsi baş verəcəkmi?

Aydındır ki, bu sualın cavabı ancaq fərziyyə səciyyəsi daşıya bilər. Bununla belə, hər iki variantın dilin lüğət tərkibində bir-birinə qarşılıqlı təsiri göstərir ki, fərqlərin bu cür tarazlaşması çətin ki, mümkündür. Həqiqətən, tədqiqat zamanı araşdırılan material inandırıcı surətdə sübüt edir ki, variantlararası leksik alınma sözlər ya nominasiya sistemindəki, ya da ekspressiv üslubi vasitələr ehtiyacındakı boşluğu doldurmaq üçün tamamilə qanunauyğun səciyyə daşıyırlar. Digər tərəfdən, bu kateqoriyaya daxil olmayan vahidlər çox uzun bir dövrdür ki, ərazi əlamətin neytrallaşdırmaq üçün möhkəm sabitlik göstərirlər. Buraya məişət leksikasında əşlənən fərqləndirici elementlərin böyük qrupları daxildir, məsələn: "lift, braces, suspenders, biscuit, cookie". AE və BE variantlarının leksik-semantik mikrosistemlərinin qarşılıqlı təsiri, sosial linqvistik təhlil də daxil olmaqla, çox dərin və hərtərəfli təhlil tələb edir.

N.Vəliyeva qeyd edir ki, "*... Elitar, professional və kütləvi subkulturlarının qarşılıqlı əlaqələrinin, yəni etnik şüurun variativliyinin təhlili üçün Azərbaycan cəmiyyətinə nəzər salmaq lazım. İlk öncə respublikamız üçün aktual sosial hadisə olan işarələrin xarakteristikasından başlayaq. Bu anlayışlar filoloqlarda və ticarət işçilərində üst-üstə düşür. Məsələn, assosiativ eksperimentə cəlb olunan tələbələrində "Qaçqın", "Köçkün" sözləri "Qarabağ, İrəvan xanlığı, didərgin, evsiz, obasız, müharibə, yoxsul" sözlər ilə assosiasiyalar yaradır. "Bomj" sözü – "çirk, kirli, evsiz, yoxsul, avara, küçə, zirzəmi, zibillik" sözlər ilə assosiasiyalar yaradır. "Özbaşınalıq", "Qarmaqarışıqlıq" söz-stimul tələbələr "hərc-mərclik, xaos, hərkilik, anarxiya, yox, basqın, dəhşət, qanunsuzluq, zorakılıq" sözləri ilə əlaqənləndirirlər. "Azərbaycanlı" söz-stimula "Vətən, dil, islam, idman, namus, kişi, Əhməd, Məmməd, ruh, xarakter" - belə reaksiyalar aşkar olunub. Tək-tək assosiasiyaları təhlil edəndə "bomj, dəhşət, dərin, fəxr, qürur, can, qəlb, mentalitet, vətənpərvər, islam, bəxti gətirib" sözləri aşkar edirik. Beləliklə, müasir gənclik öz şəxsi aidiyyətini normal şəkildə qiymətləndirərək Azərbaycana və azərbaycanlıya soyuqluğu müşahidə etmir. Bütövlükdə filoloqların və ticarət işçilərin reaksiyaları bir-birinə oxşardır. Buna baxmayaraq, filoloqlarda verilən stimullara assosiasiyalar ümumi şəkildə daha az fərqlənir, nəinki kommersantlarda"*[8, s.214]. Müasir ingilis dilinə tərcümə zamanı qeyd etdiyimiz leksik vahidlərin spesifikasını nəzər almaq lazım.

Tədqiqat işimiz müasir ingilis dilində kulturonimlərin koqnitiv və diskursiv xüsusiyyətlərinin tədqiqinə həsr olunduğu üçün, lüğətin üslubi differensiasiyası sistemində onların yerini müəyyən etmək zəruriyyəti yaranır.

Yuxarıda biz qeyd etdik ki, kulturonimlər – müxtəlif mədəniyyətlərin elementləri ilə bağlı dil vahidləri üçün ümumi anlayışdır. Məsələn, BE /AE: mobile phone – cell phone; cv – resume; post – mail; postcode – zip code; cabinet – chest; autumn- fall; football – soccer; rubber – eraser; lorry – truck; chips – French fries; sweets – candy; courgette – zucchini; biscuit – cookie; crisps – chips; holiday – vacation; film – movie; fuel – gas; torch – flashlight; lift – elevator; tap – facuet; wardrobe – closet; cot – crib; dummy – pacifier; jumper – sweater; pants – underwear; nappy – diaper; vest – under shirt; trousers – pants; trainers – sneakers; pyjamas – pajamas; waist coat – vest; curtains – drapes; carpark – parking lot; motorway – highway; underground – subway; boot – trunk; tyre – tire; timetable – schedule; caravan – trailer; bonnet – hood; takeaway – take out; overpass – flyover; trash can – dust bin; rubbish – garbage / trash; queue – line; plaster – band-aid; chemist's – drugstore; fringe – bangs; ladybird - ladybug.

AE və BE variantlarının müqayisə edilən mikrosistemində araşdırılan material, ümumi əsasın elementlərinin fərqləndirici elementlərdən həm say hesabı ilə, həm də öz funksional əhəmiyyətinə görə çox olduğu nəticəsinə gəlməyə imkan verir. Bu faktı aşağıdakılarala təsdiq etmək olar:

1. Dil strukturunun bütün mərhələlərində əsas vahidlərdə olan fərqlər, bu vahidlərin inventardakı fərqlərindən çoxdur.

2. Oxşar cəhətlər daha cox səciyyəvi və geniş yayılan hadisədir.

3. Ayrılmaların əksəriyyəti eyni vahidlərin müxtəlif funksional istifadəsinə keçir.

4. Ümumi əsasın elementləri ilə fərqləndirici elementlər arasındakı münasibətdə birtərəfli qeydə alınmış tutuşdurmalar ərazi cəhətdən işlənməsi qeydə alınan ikitərəfli tutuşdurmalar üzərində üstünlüyə malikdir.

5. Ümumi əsasın xüsusi çəkisini nisbətən yüksək olması müqayisə edilən mikrosistemin, o elementləri ilə qismən uyğun gəlir ki, onlar ayrılmalarda özünü büruzə verir. Leksik semantik sistem mərhələsində bu fakt oz ifadəsini bir tərəfli qeydə alınmış tutuşdurma ayrılmalarının ikitərəfli qeydə alınmış tutuşdurmalar üzərində tapır.

6. Variantlararası fərqlərin miqyası və tutduğu yerlər o halda səcəyyəvidir ki, fərqlənmələr təcrid olunmuş halda yox, proporsional xarakter daşıyır, onlar bir qayda olaraq dil hadisələrinin məhdud dairəsini əhatə edir.

Bununla belə, ingilis ədəbi dilinin British English və American English variantlarının mikrosistemlərindəki çarpazlaşma faktı, bu variantlar arasındakı fərqlərin tədqiqi ciddi surətdə, əsaslı yanaşma tələb edir.

Beləliklə, müasir ingilis dili ilə bağlı mövcud araşdırmaları təhlil edərək belə nəticəyə gələ bilərik ki, dil zamanla dəyişən ərazi və sosial cəhətdən müəyyən edilmiş sistemdir. Müasir ingilis dilinin lüğət tərkibi müxtəlifliyi ilə

seçilir. Müxtəlif ünsiyyət vəziyyətlərində insanların sosial və nitq davranışının strukturu leksik vahidlərin diferensiallaşdırılması üçün bir sıra xüsusi meyarları müəyyən etməyə imkan verir.

Dilçilikdə üslub dedikdə, müəyyən bir cəmiyyətdə ənənə ilə sosial həyatın ən ümumi sahələrindən birinə təyin edilmiş və bütün əsas parametrlərinə görə eyni dilin digər növlərindən qismən fərqlənən dil müxtəlifliyi başa düşülür: lüğət tərkibi, qrammatika və fonetika. Dilin lüğət tərkibi cəmiyyətin inkişafi ilə bilavasitə bağlıdır [10].

Hələ qədim Yunanıstanda leksik vahidlərin üslubi diferensiallaşdırılmasının müəyyən oxşarlığı var idi: yüksək üslub - epik və faciə dili, orta üslub - lirikanın dili, aşağı üslub - komediya dili.

Qədim Romada üslub bölgüsü üçün əsas meyar dil variantlarının yayılma ərazisi idi. Məsələn, Roma sakinlərinin nitqi ideal idi və dilin ədəbi normasını təşkil edirdi.Kənd yerlərinin nitqi tamamilə düzgün olmasa da, məqbul, ucqar əyalətlərin nitqi isə ümumi qəbul edilmiş normaya uyğun gəlməyən aşağı səviyyədə inkişaf edən nitq kimi müəyyən edilib. Sonradan Roman dillərinin formalaşması üçün əsas olan aşağı səviyyədə inkişaf edən nitq oldu.

Rusiyada bu nəzəriyyə M.V.Lomonosov tərəfindən işlənib hazırlanmışdır. O, rus dilinin inkişafı və üslubi təşkili ilə bağlı fikirlərinin nəticələrini iki Ritorikada (1743 və 1748) təqdim etmişdir[15].

Əgər keçmişdə cəmiyyətin sinfi quruluşu ana dili danışanların nitqində müəyyən iz buraxırdısa, müasir cəmiyyətdə sinif işarələri o qədər də nəzərə çarpmır. Müasir zamanda insanın mənşəyi və ya gəlir səviyyəsi deyil, nailiyyətləri ön plana çıxır. Beləliklə, müəyyən bir sosial təbəqəyə münasibət spesifik nitq xüsusiyyətlərinin müəyyənedicisi kimi əhəmiyyətini itirir.

Cəmiyyət nümayəndələrinin mövcud olduğu ərazisindən və ya sosial quruluşundan asılı olaraq dilin leksik tərkibinin diferensiallaşdırılması leksik vahidlərin kommunikativ situasiyalarda işlədilməsi əsasında dilin diferensiasiyası ilə əvəz olunur. İnsanların fəaliyyət növü ilə müəyyən edilən peşəkar mobillik sinfi fərqləri təkcə sosial deyil, həm də linqvistik cəhətdən məhdudlaşdırır[12, s.264].Bununla əlaqədar olaraq, dilçilər verbal ünsiyyətinin sosial-mədəni xüsusiyyətlərindən asılı olaraq çox sayda funksional üslubun mövcudluğunu təklif edirlər.

Hər bir fəaliyyət və ya bilik sahəsinin təbiəti dünyanın qavrayışının özünəməxsus mənzərəsi ilə müəyyən edilən linqvistik vasitələrin və mətn növlərinin seçiminə xüsusi bir yanaşma təmin edir. Bununla belə, hər hansı bir nitq bir sıra qeyri-linqvistik əlamətlərlə, məsələn, tədqiq obyektindən və təfəkkür növündən asılı olmayaraq dəqiqlik, abstraktlıq, obrazlılıq, məntiq, fikirlərin təqdimat xüsusiyyətləri ilə xarakterizə olunur [11, s.264].

Əksər dilçilər ingilis dilinin lüğətini öyrənərək və dil sisteminin leksik vahidlərinin təsnifatını tərtib edərək üç əsas leksik layı müəyyən edirlər: ədəbi dil (müxtəlif təsnifatlarda təyin olunan kitab üslubu və ya rəsmi üslub); dilin neytral layı (dilin lüğət müxtəlifliyinin böyük hissəsini təşkil edir, nitqin bütün hissələrinə xidmət edir); danışıq dili (bəzi təsnifatlarda - qeyri-rəsmi üslub) [6, s.24; 7, s.96-103].

Dil üslubu müəyyən bir ünsiyyət məqsədini yerinə yetirmək üçün nəzərdə tutulmuş və müəyyən bir effekt əldə etməyə yönəlmiş bir-birindən asılı və qarşılıqlı şərtləndirilən dil vasitələrinin sistemi kimi müəyyən edilə bilər. Müasir ingilis dilinin üslubiyyatında rəsmi kitab leksikasında elmi üslub, rəsmi işgüzar üslub, publisistik üslub, bədii üslub və qəzet üslubunu ayırırlar.Eyni fikir müxtəlif dil vasitələri ilə sözlə ifadə oluna və yazıla bilər. Fikir ifadəsinin məna çalarlarının dəyişdirilməsi məzmunun qavranılmasına əhəmiyyətli dərəcədə təsir edir və eşidilən və ya oxunanlara reaksiyanın müxtəlif formalarını müəyyən edir.

Dilin lüğət tərkibinin üslubi diferensiallaşdırılmasının ən mübahisəli meyarları hələ də nitq fəaliyyətinin forması və ədəbi lüğətin janr fərqləndirilməsi meyarı olaraq qalır. Nitq fəaliyyəti formasında qeyri-məhdud söz ehtiyatı, həmçinin nitqin şifahi və yazılı formalarının lüğətləri; janr fərqləndirmə formasında janr-məhdud söz ehtiyatı, poetizmlər, publisistik leksika, klerikalizmlər, elmi leksika (terminlər) fərqləndirilir.

Müasir ingilis dilinin funksional üslublarının sayı və xüsusiyyətləri ilə bağlı tədqiqatçılar arasında müxtəlif fikirlər mövcuddur, lakin demək olar ki, hamısı üslubların iki qrupa bölünməsi ilə razılaşır: formal və qeyri-rəsmi, yəni kitab və danışıq.

Lüğətin üslubi differensiasiyası və sözlərin ifadəliliyi ilə bağlı fərqliliyi funksional üslubların müəyyən qədər təcrid olunsa da, bir-birindən təcrid olunmaması ilə sıx bağlıdır. Kommunikasiya zamanı danışan nitqin müəyyən məzmununu, əhval-ruhiyyəsini və məqsədini çatdırmaq üçün istifadə olunan leksik vahidləri və digər üslub vasitələrini seçməkdə sərbəstdir.

Beləliklə, tədqiqat zamanı belə nəticəyə gəldik ki, müasir ingilis dilinin lüğətin üslubi differensiasiyası sistemində kulturonimlərin yeri sərbəstdir. Bu o deməkdir ki, kulturonimlər həm formal, həm də qeyri-formal üslublarda geniş istifadə olunur.

İstifadə olunmuş ədəbiyyat

1. Gramley, S., Patzold, K.-M.A Survey of Modern English. – London – New York.: Routledge, –2004. – 416 p.
2. Halliday, M.A.K., Matthiessen C.M.I.M. An Introduction to Functional Grammar, 3-rd edition, London, Arnold, – 2004. – 689 p.
3. Krapp, G.Ph. The English Language in America. Vol.1, –New York: F.Ungar Publishing Company, –1966.– 404 p.
4. Marcwardt, A.H., Quirk, R. A Common Language. British and American English, –Washington, –1964.–79 p.
5. Mencken, H.L. The American Language. A Preliminary Inquiry into the Development of English in the United States, –New York: Cosimo, Inc., –2009.– 430 p.
6. Valiyeva, N.Ch. Communicative-Pragmatic Paradigm of English Lexicology.–Baku: Science and Education, –2014. – 288 p.
7. Valiyeva, N.Ch. Introductory Course to the English Stylistics.–Baku: Science and Education, – 2018.–440 p.
8. Valiyeva N.Ch. Təhsilin Dili və Dilin Təhsili Mədəniyyətlərarası Dialoq ya Qlobal Kommunikasiya şəraitində. – Germany, – Saarbrükken: Lambert Academic Publishing (LAP), – 2018. – 264 p.
9. Whitney P. Schemas, Frames and Scripts in Cognitive Psychology. International Encyclopedia of the Social and Behavioral Sciences, –New York, – 2001. – pp.13522-13526.
10. Антрушина, Г.Б., Афанасьева, О.В., Морозова, Н.Н. Лексикология английского языка. – Москва: Издательство Юрайт. – 2016. – 287 с.
11. АрнольдИ.В. Семантика. Стилистика. Интертекстуальность. Лингвистическоенаследие XXвека, –Москва: Либроком, – 2010. – 448 с.

12. Арнольд И.В. Лексикология современного английского языка. 2-е изд-ие, перераб., – Москва: Флинта: Наука, – 2012. – 376 с.
13. Гальперин И.Р., Черкасская Е.Б. Лексикология английского языка. – М., – 1956.
14. Гуревич В.В. Стилистика английского языка. – М.: Наука, – 2009. – 72 с.
15. Ломоносов М.В. Российская грамматика. –М.: Типография Императорской Академии Наук, – 1755. – 212 с.
16. Ярцева, В.Н. Развитие национального литературного английского языка, –Москва: Наука, –1969.–286 с.

Açar sözlər: dil, variant, lüğət tərkibi, kulturonim, funksional üslub,
Key words: language, variant, lexis, culturonym, functional style.
Ключевые слова:язык, вариант, словарный состав, культуроним, функциональный стиль.

SUMMARY

The place of theculturonymsin the system of stylistic differentiation of the vocabulary of Modern English

Modern English is a complex and dynamically developing language system.The vocabulary of a language is the most mobile structure, depending on changes in social, cultural, political and other spheres of society.Lexical units of a language, in addition to their semantic structure, have certain stylistic shades, determined by the sphere of use of words.Linguists define the concept of appropriateness of using lexical units as the subject's correct choice of speech style, that is, the linguistic means chosen by the speaker for the conditions of his verbal communication.

Many linguists have dealt with the issue of stylistic differentiation of the vocabulary of the English language.They explored the main criteria for the stylistic differentiation of the vocabulary of the language, consideration of the concept of functional style as a tool for differentiating the vocabulary of the English language at the present stage, and the specific features of the main styles of the English language, English language and features of its development. The main object of their research was the vocabulary of the language and its stylistic features.

The English language, used in England and the USA, has attracted the attention of researchers for more than half a century. Despite the differences between these two major varieties of English, there has been no serious research in the linguistic literature that systematically compares these varieties.

Since our research work is devoted to the study of the cognitive and discursive features of culturonyms in modern English, it is necessary to determine their place in the system of stylistic differentiation of the dictionary.Culturonyms are general concepts for linguistic units related to elements of different cultures. Thus, in the course of the study, we came to the conclusion that the place of culturonyms in the system of stylistic differentiation of the vocabulary of modern English is free. This means that culturonyms are widely used in both formal and informal styles of speech.

РЕЗЮМЕ

Место культуронимов в системе стилистической дифференциации лексики современного английского языка

Современный английский язык представляет собой сложную и динамично развивающуюся языковую систему. Лексика языка — наиболее подвижная структура, зависящая от изменений в социальной, культурной, политической и других сферах жизни общества.Лексические единицы языка, помимо своей смысловой структуры, имеют определенные стилистические оттенки, определяемые сферой употребления слов.Лингвисты определяют понятие целесообразности употребления лексических единиц как правильный выбор субъектом стиля речи, то есть языковых средств, выбранных говорящим для условий его речевого общения.

Многие лингвисты занимались вопросом стилистической дифференциации словарного запасаанглийского языка.Они исследовали основные критерии стилистической дифференциации лексики языка, рассмотрение понятия функционального стиля как инструмента дифференциации лексики английского языка на современном этапе, специфические особенности основных стилей английского языка, английский язык и особенности его развития.В основном объектом их исследования стала лексика языка и его стилистические особенности.

Английский язык, используемый в Англии и США, уже более полувека привлекает внимание исследователей. Несмотря на различия между этими двумя основными вариантами английского языка, в лингвистической литературе не проводилось серьезных исследований, посвященных систематическому сравнению этих разновидностей.

Поскольку наша исследовательская работа посвящена изучению когнитивных и дискурсивных особенностей культуронимов в современном английском языке, необходимо определить их место в системе стилистической дифференциации словаря.Культуронимы – это общие понятия для языковых единиц, относящихся к элементам разных культур. Таким образом, в ходе исследования мы пришли к выводу, что место культуронимов в системе стилистической дифференциации лексики современного английского языка свободно. Это означает, что культуронимы широко используются как в формальном, так и в неформальном стилях речи.

RƏYÇİ: dos. N.Vəliyeva

Mehriban Zeynal qızı Hacızadə[31]

21-Cİ ƏSRDƏ TİBBDƏ YARANAN TERMİNLƏRİN LEKSİK XÜSUSİYYƏTLƏRİ

21-ci əsrdə tibbdə yaranan terminlər, tibbin inkişafı və texnologiyanın inteqrasiyası ilə sıx bağlı şəkildə dəyişmiş və zənginləşmişdir. Bu terminlər həm leksik, həm də semantik baxımdan bir sıra xüsusiyyətlərə malikdir.

21-ci əsr, tibbin sürətlə inkişaf etdiyi, texnologiya ilə sıx inteqrasiya olunduğu və qlobal sağlamlıqproblemlərinin (xüsusilə pandemiyaların) meydana çıxdığı dövr olmuşdur. Bu dövr tibbi terminologiyada da əhəmiyyətli dəyişikliklərə və yeni terminlərin meydana gəlməsinə səbəb olmuşdur. Yeni yaranan bu terminlər yalnız məzmun deyil, həm də dil baxımından mühüm araşdırma mövzusuna çevrilmişdir.

21-ci əsrdə yaranan tibbi terminlər yalnız yeni anlayışları ifadə etmir, həm də dilinleksik sisteminə dinamik şəkildə daxil olaraq onun strukturuna və semantik sahəsinətəsir göstərir.Bu terminlər çox zaman beynəlxalq mənbəli olub, əsasən ingilis, latın vəyunan dillərindən götürülür. Beləliklə, leksik baxımdan bu terminlərdə alınma sözlərin, abreviaturalı formaların, hibrid quruluşların və neologizmlərin xüsusi çəkisi artmışdır. Terminlərin yaranma mexanizmi kimi morfoloji törəmə, semantik genişlənməvə sintaktik birləşmələrdən istifadə halları da diqqətəlayiqdir.

Mövzunun aktuallığı: Müasir dövrün reallıqları ilə sıx bağlıdır. Tibbi terminlərin düzgün başa düşülməsi və istifadəsi tibb işçilərinin peşəkar fəaliyyəti, elmi tədqiqatların aparılması, eləcə də pasiyentlərlə ünsiyyətin effektivliyi baxımından mühüm əhəmiyət daşıyır. Bu səbəbdən, 21-ci əsrdə tibbdə yaranan yeni terminlərin leksik xüsusiyyətlərinin araşdırılması həm linqvistik, həm də praktik aspektdən əhəmiyyətlihesabolunur.

Qeyd etmək lazımdır ki, yeni tibbi terminlərin bir sıra yaranma səbəbləri vardır:

1. Elmi texnologiyaların inkişafı: Genetik mühəndislik, süni intellekt,telemedisina kimi sahələrdəəldə edilən nailiyyətlər yeni anlayışlar tələb edir. Bu baxımdan tibbi sahədə bir sıra yeni terminlər yaranmışdır. Bu terminləri aşağıdakı kimi təqdim etmək olar:

1)Telemedisin - tibbi xidmətlərin uzaq məsafədən, internet və rabitə texnologiyaları vasitəsilə göstərilməsi.

2)Süni intellekt (AI)tibbdə - tibbi diaqnostika və müalicə proseslərində süni intellekt alqoritmlərinin tətbiqi (məsələn, görüntü analizində və ya xəstəlik proqnozlaşdırılmasında).[3,səh.10; 6,səh.3]

3)Gen redaktəsi (CRI SPR)- DNT-nin müəyyən hissələrinin dəyişdirilməsi və ya düzəldilməsi texnologiyası.

4)Robot- assisted surgery(Robotla dəstəklənən cərrahiyyə)- Robot texnologiyaları ilə dəqiq və minimal invaziv cərrahi müdaxilələrin aparılması.

5)Biosensörlər- Bədən göstəricilərini (qan şəkəri, ürək döyüntüsü və s.) real vaxtda izləyən cihazlar.

6)Nanotibbi- nanotexnologiyaların tibbdə tətbiqi, xüsusilə dərman daşıyıcı sistemlər və hüceyrə səviyyəsində müalicələr.

7) Bioprinting- 3D printerlər vasitəsilə canlı toxuma və orqanların çap edilməsi.[4]

8) Dərin öyrənmə (Deep learning) tibbdə- Tibbi şəkillərin təhlilində, xəstəliklərin diaqnostikasında və fərdi müalicə üsullarının hazırlanmasında istifadə olunur.

9) Dijital biomarkerlər- Mobil və geyinilə bilən cihazlar vasitəsilə əldə edilən bioloji məlumatlar.

10) Fərdiləşdirilmiş tibb (Personalized Medicine)- Xəstənin genetik məlumatlarına əsaslanaraq fərdi müalicə strategiyalarının hazırlanması.

2. Qlobal pandemiyalar: Covid-19 kimi epidemiyalar nəticəsində ictimai istifadəyə keçən çoxsaylı yeni anlayışlar formalaşıb. Qlobal pandemiyalar zamanı yaranan və geniş istifadəsinə başlanan bəzi tibbi terminlər aşağıdakılardır:

1) Pandemiya - Dünyanın bir çox ölkəsində yayılan infesion xəstəlik.

2) Epidemiya -Müəyyən bölgədə və qısa müddətdə baş verən genişmiqyaslı xəstəlik yayılması.

3) Endemiya - Müəyyən coğrafi bölgədə daimi olaraq mövcud olan infeksionxəstəlik.

4) Karantin - Yoluxmuş və ya yoluxma riski olan şəxslərin izolyasiya olunması.

5) Sosial məsafə - Yoluxmanın qarşısını almaq üçün insanların bir-birindən fiziki məsafədə qalması.

6) Asimptomatik - Yoluxmuş, lakin heç bir simptom göstərməyən şəxslər.

7) Ventilyator (Süni tənəffüs cihazı) - Ağır xəstələrdə nəfəs almağı təmin edən tibbi cihaz.

8)PCR testi (Polimeraz zəncir reaksiyası testi) -Virusun genetik materialını müəyyən edən diaqnostik test.

9) İmmunitet pasportu -Xəstəliyə qarşı immuniteti olan şəxslərin statusunu göstərən sənəd(təklif edilmişdi, bəzi ölkələrdə tətbiq olundu).

10) Kontakt izləmə (contact tracing) - Yoluxmuş şəxslə təmasda olanların müəyyən edilərək izlənməsi.

11) İnkubasiya dövrü - Virusun bədənə daxil olmasından simptomların ortaya çıxmasına qədər keçənmüddət.

12) Zoonoz xəstəliklər - Heyvandan insana keçən infeksion xəstəliklər (Covid-19-un başlanğıcı bu kateqoriyaya daxildir).[7]

3. Multidissiplinar yanaşmalar: Biotexnologiya, mühəndislik və riyaziyyatın tibbə inteqrasiyası yeni leksik vahidlərin yaranmasına səbəb olub.Multidissiplinar yanaşmalar - yəni müxtəlif sahələrin birgə əməkdaşlığı- tibb

[31]B.m. **Azərbaycan Dillər Universiteti . mehribanhacizade7@gmail.com. https://orcid.org/. 0009-0006-9476-3157**
10.24412/2218-7588-2025-2-115-118

sahəsində yeni terminlərin yaranmasına və ya mövcud terminlərin genişlənməsinə səbəb olmuşdur. Bu yanaşma xüsusilə kompleks xəstəliklərin müalicəsində (xərçəng, pandemiyalar, psixoloji pozuntular və s.) əhəmiyyətlidir.

1)Multidissiplinar komanda(MDT- Multidisciplinary Team)- Fərqli ixtisas sahiblərinin (həkim, psixoloq,fizioterapevt, dietoloq və s.) xəstənin diaqnoz və müalicə planında birlikdə çalışması.

2)Holistik yanaşma (Holistic approach) - Xəstəni yalnız fiziki deyil, həm də psixoloji, sosial və ətraf mühitfaktorları ilə birlikdə qiymətləndirmə.

3)Bio-psixo-sosial model - Xəstəliyin səbəblərinin və nəticələrinin bioloji, psixoloji və sosial aspektlərini nəzərə alan yanaşma.

4)İnterprofessional əməkdaşlıq - Fərqli səhiyyə peşə sahibləri arasında ünsiyyət və əməkdaşlıq (məsələn, tibb bacısı, psixoloq, sosial işçi)

5)Genişləndirilmiş tibbi qərarvermə - Müalicə planının tək həkim tərəfindən deyil, mütəxəssis qrupu tərəfindən hazırlanması.

6)Səhiyyədə sistem yanaşması (Systems medicine/systems biology)- Molekulyar bioloji, bioinformatika, statistika və digər sahələrin birləşdirilməsi ilə xəstəliyin sistematik analizi.

7)Reabilitasiya tibb komandası - Fizioterapevt, loqoped, iş terapevti, sosial işçi və psixoloq kimi ixtisasların bir arada işlədiyi reabilitasiya yanaşması.

8)Psixososial dəstək xidməti - Xəstələrin emosional və sosial ehtiyaclarını qarşılayan dəstək strukturları (məsələn, onkoloji xəstələr üçün psixoloji məsləhət xidməti).

9)E-sağlamlıq(E-health) və telemedisin - Tibb, texnologiya və informasiya sistemlərinin birləşməsi ilə uzaqdan tibbi xidmət göstərilməsi.[5]

10)Translasyonal tibb (Translational medicine) - Elmi araşdırmaları klinikaya tətbiq etmək üçün biologiya, informatika və klinik tibb arasında körpü yaradan yanaşma.

4. Beynəlxalq terminoloji inteqrasiya: Yəni müxtəlif ölkə və mədəniyyətlərdə istifadə olunan tibbi terminlərin standartlaşdırılması və uyğunlaşdırılması - qlobal səhiyyə sistemində vahid anlaşma və əməkdaşlıq üçün vacibdir. Bu inteqrasiya nəticəsində bir sıra yeni terminlər yaranmış, bəziləri isə qlobal şəkildə qəbul edilərək daha geniş yayılmışdır.

1)ICD (İnternational Classification of diseases) - ÜST tərəfindən hazırlanmış xəstəliklərin və sağlamlıq problemlərinin beynəlxalq təsnifatı (hazırda ICD-11 versiyası istifadə olunur).[1]

2)ICF (İnternational Classification of Functioning, Disability and Health) - Sağlamlıq və əlillik vəziyyətlərinin funksional və sosial aspektlərini təsnif edən beynəlxalq sistem.

3)SNOMED.CT (Systematized Nomenclature of Medicine- Clinical Terms) – Dünyada klinik terminologiyanın standartlaşdırılması üçün istifadə olunan geniş və təfsilatlı tibbi termin bazası. [1]

4)EBM-sübutlara əsaslanan tibb (Evidence- Based Medicine) - Tibb qərarlarının klinik təcrübə, xəstə istəkləri və elmi sübutlara əsaslanaraq verilməsi, bu yanaşma qlobal səviyyədə standart terminologiya tələb edir.

5)Universal Health Coverage(UHC) - Əhalinin ehtiyac duyduğu səhiyyə xidmətlərini iqtisadi yük olmadanalmasını təmin edən beynəlxalq səhiyyə anlayışı və siyasət termini.

6)Global Burden of Disease (GBD) - Xəstəliklərin və ölüm səbəblərinin beynəlxalq səviyyədə müqayisəli ölçülməsi üçün istifadə olunan metodoloji termin..[2]

7)Antimikrob müqavimət(AMR- Antimicrobial Resistance) - Dünya səviyyəsində koordinasiyalı strategiyalar üçün yaranmış standart terminlərdən biri.

8)Neglected Tropical Diseases(NTDs) - Daha çox az inkişaf etmiş ölkələrdəyayılan və qlobal səhiyyə gündəmində yer alan xəstəliklər qrupu.

9)One Health - İnsan, heyvan və ətaraf mühit sağlamlığının əlaqəli olduğunu vurğulayan beynəlxalq konsepsiya və termin.[8]

10) Health İnformatics (Səhiyyə informatikası) - Məlumatların idarə olunması, saxlanması və paylaşılmasıüçün qlobal standartların yaradılması nəticəsində formalaşmış tibbi sahə və terminlər toplusu.

21-ci əsrdə tibbdə yaranan terminlərin leksik xüsusiyyətlərinin tədqiqi müasir terminologiya elminin mühüm istiqamətlərindən biridir. Bu dövrdə tibbi terminologiyada baş verən dəyişikliklər elmi-texniki tərəqqi, yeni xəstəliklərin aşkarlanması, innovativ müalicə üsullarının meydana çıxması və beynəlxalq əməkdaşlığın intensivləşməsi ilə bağlıdır.

Aşağıda bu terminlərin leksik xüsusiyyətləri sistemli şəkildə təqdim olunur:Beynəlmiləlləşmə və ingiliscə təsirin artması.

- 21-ci əsrdə yaranan tibbi terminlərin əksəriyyəti ingilis dilindən alınmışdır.[9]**Məsələn:***Covid-19. Booster long Covid, telemedicine, gene editing*.[7]
- Bu terminlər əksər hallarda olduğu kimi (transliterasiya yolu ilə) qəbul edilir.Kompozit və sintetik terminlər.Yeni terminlər tez-tez bir neçə leksik vahidin birləşməsi ilə yaranır. **Məsələn:***immunotherapy (immun+therapy), neurodegeneration (neurot+degeneration).* Akkronim və abreviaturatlardan geniş istifadə.
- Yeni xəstəliklər, müalicə üsulları və texnologiyalar üçün akronimlər işlədilir:**MRSA** (Methicillin-resistant Staphylococcus aureus);**SARS, MERS, AI** (Artificial Intelligence in Medicine).Texnoloji və interdisiplinar təsir.

- Biotexnologiya, süni intellekt, robototexnika kimi sahələrlə əlaqəli terminlər:

Nanomedicine, bioninformatics, robot-assisted surgery.Terminlərin semantik genişlənməsi.

- Klassik terminlər yeni məna çalarları qazanır:**Pandemic**-termini əvvəlki dövrlərə nisbətən daha geniş və tez-tez istifadə edilir. Bu termin yalnız infeksiyalarla yox, genişmiqyaslıqeyri-infeksion xəstəliklər(məsələn, obezlik pandemiyası) üçün dəistifadə

olunur.Yeni yaranan leksik vahidlərin dinamikası.Tibbi terminlər daha tez yenilənir və dəyişir. Pandemiya dövründə yaranan terminlərin bir hissəsi sabitləşdir, bəziləri isə sıradan çıxır.Metaforik və funksional adlandırmalar.

- Xüsusilə populyar elmi ədəbiyyatda:Səssiz qatillər-***hipertoniya, ateroskleroz*** kimi xəstəliklərə metaforik yanaşma.

Genetik saat, molekulyar açar, bioloji izlər kimi ifadələr.

Nəticə: 21-ci əsrdə tibbin dinamik inkişafı xüsusilə də biotexnologiya, gen mühəndisliyi, süni intellekt, telemedisina və pandemiya şəraitində yaranan fövqalədə vəziyyətlər, tibbi terminologiyanın da sürətli və kəmiyyətcə artan inkişafına səbəb olmuşdur. Yeni elmi kəşflər, diaqnostika və müalicə metodlarının tətbiqi, həmçinin qlobal sağlamlıq problemlərinin aktuallaşması nəticəsində leksik sistemə minlərlə yeni termin daxil olmuşdur. Bu terminlərin əksəriyyəti beynəlxalq səviyyədə qəbul olunan, əsasən ingilis dilindən alınmış və çox vaxt mürəkkəb sintaktik və morfoloji quruluşa malik ifadələrdir.

Müasir tibbi terminlərin leksik xüsusiyyətlərini bir neçə əsas istiqamət üzrə təsnif etmək mümkündür. Əvvəla, bu terminlərdə texniki dəqiqlik və semantik yüklülük müşahidə olunur; yəni, bir termin konkret anlayışı ifadə etməklə yanaşı, onun tətbiq sahəsi, funksiyası və mənşəyi haqqında da məlumat verir.İkincisi, çoxkomponentli vəsintetik terminlərə üstünlük verilir. Belə terminlər adətən latın, yunan və ingilis mənşəlikomponentlərin birləşməsi ilə yaradılır və bu da onların beynəlxalq tibbi dövriyyədə istifadəsini asanlaşdırır. Daha bir mühüm cəhət isə abreviaturaların və qısaldılmış formaların geniş yayılmasıdır. Xüsusilə pandemiya dövründə (Covid-19 kimi) tibbi leksikonda qısa və yığcam ifadələrə olan tələbat artmış, bu da kommunikasiya effektivliyini artırmışdır. Terminlərdə tez-tez texnoloji və informatik leksik vahidlərin istiifadəsi də qeydə alınır ki, bu da tibbin digər elmlərlə inteqrasiyasını əks etdirir.

Sosial və psixoloji aspektləri əhatə edən yeni terminlərin yaranması da diqqət çəkicidir. Tibbi humanitar sahələrdə (psixiatriya, psixologiya, reabilitasiya və s.) cəmiyyətin dəyişən ehtiyaclarını əks etdirən leksik vahidlər artır. Gender neytrallığı, etik və hüquqi çərçivələr, pasient mərkəzli yanaşmalar tibbi terminologiyanın daha da demokratik və inklüziv olmasına şərait yaradır.

Beləki 21-ci əsrdə tibbi terminologiyanın leksik xüsusisyyətləri təkcə tibb elminin deyil,eyni zamanda texnoloji, sosial və mədəni inkişafların da birbaşa təsiri ilə formalaşır. Bu terminlər dinamik, çevik və çoxşaxəli olmaqla yanaşı, həm də qlobal səviyyədə anlaşma və koordinasiyanı təmin etmək üçün xüsusi struktur və məna daşıyıcılığına malikdir. Terminoloji sistemin bu cür inkişafı tibb elminin daha effektiv tərəqqisinə, biliklərin qlobal miqyasında paylaşılmasına və səhiyyə sisteminin ümumi funksionallığına müsbət təsir göstərməkdədir.

İstifadə olunmuş ədəbiyyat siyahısı

1. World Health Organization. (2022). International Classification of Diseases (11th ed.). https://www.who.int/classifications/icd/en/
2. World Health Organization. (2020). One Health. https://www.who.int/new room/q-a-detail/one-health
3. Topol, E. (2019). Deep Medicine: How Artificial Intelligence Can Make Healthcare Human Again. Basic Books.
4. Guttmacher, A. E., Collins, F. S., & Drazen, J. M. (2009). The genomic era: The future of genomics in clinical medicine. New England Journal of Medicine, 360(18), 1818-1820. https://doi.org/10.1056/NEJMsr0806177
5. Kay, M., Santos, J., & Takane, M. (2011). mHealth: New horizons for health through mobile technologies. World Health Organization.
6. Rajkomar, A., Dean, J., & Kohane, I. (2019). Machine learning in medicine. New England Journal of Medicine, 380(14), 1347-1358. https://doi.org/10.1056/NEJMra1814259
7. Lwin, M. O., Lu, J., Sheldenkar, A., Schulz, P. J. (2020). Global Sentiments Surrounding COVID-19 Vaccines: Lexical and Sentiment Analysis Using Twitter Data. JMIR Public Health Surveill, 6(4), e24087. https://doi.org/10.2196/24087.
8. Kruk, M. E., Gage, A. D., Arsenault, C., Jordan, K., et al. (2018). High-quality health systems in the Sustainable Development Goals era: Time for a revolution. The Lancet Global Health, 6(11), e1196-e1252. https://doi.org/10.1016/S2214-109X(18)30386-3
9. Crystal, D. (2003). The Cambridge Encyclopedia of the English Language. Cambridge University Press.

Xülasə

21-ci əsrdə tibbin sürətli inkişafı nəticəsində yeni diaqnostik müalicə üsulları,texnologiyalar və elmi sahələr formalaşmış, bu da tibbi terminologiyanın əhəmiyyətli dərəcədə zənginləşməsinə səbəb olmuşdur. Bu dövrdə yaranan tibbi terminlər beynəlxalq xarakter daşıyır və ingilis, latın,yunan mənşəli sözlərə əsaslanır.

Leksik xüsusiyyətlərinə görə bu terminlərdə alınma sözlər,qısaltmalar,hibrid tərkibli ifadələr,neologizmlər vəçoxkomponentli sintaktik strukturlar üstünlük təşkil edir.

Yeni terminlərin yaranması əsasən morfoloji törəmə,semantik genişlənmə və terminləşmə prosesi vasitəsilə baş verir. Bu terminlər müasir elmi-texniki reallıqlarıifadə etməklə yanaşı, tibbi kommunikasiyanın dəqiqliyini və effektivliyini təmin edir. Terminlərin formalaşmasında ixtisaslaşmış sahələr (bioinformatika, gen terapiyası, telemedisin və s.) xüsusi rol oynayır.

Tibbi terminlərin leksik təhlili bu sahədə elmi-linqvistik araşdırmaların zəruriliyini göstərir.Beləliklə, 21-ci əsrdə tibbi terminologiya yalnız tibb elminin inkişafının göstəricisi deyil, həm də dilin leksik sistemindəki dəyişikliklərin canlı sübutudur.

Açar sözlər: Tibbi terminologiya, alınma sözlər, neologizmlər, abreviaturalar, hibrid terminlər,terminləşmə, bioinformatika, gen terapiyası, telemedisin, morfoloji törəmə, semantik genişlənmə, tibbi ünsiyyət.

Summary

Lexical features of Medical Terms Emerging in the 21st Century

The rapid development of medicine in the 21st century has led to the emergence of new diagnostic and treatment methods,technologies and scientific fields, significantlyenriching medical terminology. The newly introduced medical terms are mostly of international origin, primarily derived from English, Latin and Greek. In terms of lexical features, neologisms and multicomponent syntactic constructions are predominant.

The formation of these terms generally occurs through morphological derivation, semantic expansion and terminologization.These terms not only reflect contemporaryscientific and technological realities, but also ensure precision and efficiency in medical communication.Specialized subfields such as bioinformatics, gene therapy and telemedicine play a keyrole in the creation of new terms.

The lexical analysis of medical terminology highlights the necessity of linguistic and scientific research in this area. Thus, 21st century medical terminology serves not only as an indicator of medical advancement,but also as clear evidence of changes in the lexical system of language.

Key words: medical terminology, loan words, neologisms, abbreviations, hybrid terms,terminologization, bioinformatics, gene therapy, telemedicine, morphological derivation, semantic expansion, medical communication.

Резюме

Лексические особенности медицинских терминов, возникших в XXI веке

Бурное развитие медицины в XXI веке привело к появлению новых методов диагностики и лечения, технологий и научных направлений, что значительно богатило медицинскую терминологию.Новые медицинские термины в основном имеют международное происхождение и заимствуются преимущественноиз английского, латинского и греческого языков.

С точки зрения лексики преобладают заимствованные слова, аббревиатуры, гибридные конструкции, неологизмы и многокомпонентные синтаксические структуры.Формирование терминов происходит в основном через морфологическое словообразование, семантическое расширение и терминологизацию. Эти термины не только отражают современные научно-технические реалии, но и обеспечивают точность и эффективность медицинской коммуникации.

Особую роль в создании новых терминов играют такие специализированные области, как биоинформатика, генная терапия, телемедицина и другие.

Лексический анализ медицинской терминологии подчеркивает необходимость лингвистических и научных исследований в данной области. Таким образом медицинская терминология XXI века служит не только показателем прогресса медицины, но и ярким свидетельством изменений в лексической системе языка.

Ключевые слова: медицинская терминология, заимствованные слова, неологизмы,аббревиатуры, гибридные термины, терминологизация, биоинформатика, генная терапия, телемедицина, морфологическое образование, семантическое расширение, медицинская коммуникация.

Elmi rəyçi: Fil.f.d. dos. Aslanova Zarina.

Наиля Зейналова[32]

ЛЕКСИКО-СЕМАНТИЧЕСКИЕ ОСОБЕННОСТИДЕФЕКТИВНЫХ ГЛАГОЛОВ В РУССКОМ ЯЗЫКЕ

Глагол – самая сложная и самая емкая часть речи современного русского языка. Он отличается исключительной сложностью своего содержания, разнообразием грамматических категорий и форм, богатством парадигмати-ческих и синтагматических связей. Глаголы по числу употребления занимают второе место после существительных, и их парадигма может достигать до 200 форм. Это утверждение в известной степени подтверждается наличием большого количества разнообразных форм (личных, видовых форм, формы инфинитива, причастия и деепричастия). Кроме того, глагол – «это основной элемент морфологического уровня» **[2, с. 182].**

Однако ошибки, связанные с употреблением глагольных форм, часто приводят к смысловому и стилистическому разрушению всего текста и ней-трализации его художественной выразительности. В связи с этим необходи-мо правильно употреблять различные глагольные формы, в особенности те, у которых выделяются некоторые особенности при образовании форм л

Возникновение ошибок обусловлено, прежде всего, вариантностью норм в области морфологии. В данной работе мы рассматриваем самые распространенные ошибки, связанные с употреблением глаголов, и причины их возникновения.Редко или почти совсем не употребляются в литературном языке из-занеобычности звучания формы *башу* (от басить), *галжу* (от галдеть), *гвозжу* (от гвоздить), *дужу* (от дудеть), *ерунжу* (от ерундить), *прегражу* (от прегра-дить), *пылесошу* (от пылесосить), *сосежу* (отсоседить), *шкожу*(от шкодить).Не употребляются из-за фонетического совпадения с формами от других глаголов такие формы, как *бужу* (от *бузить*, ср.: *бужу* от *будить*), *держу* (от *дерзить*, ср.: *держу* от *держать*), *тужу* (от *тузить*, ср.: *тужу* от *тужить*).Научиться правильно употреблять личные формы русских глаголов, по-нимать и использовать различие смысловых оттенков дублетных форм – одна из задач человека, владеющего культурой родного языка. Характерным признаком подобных глаголов является отсутствие форм

1 и 2 лица единственного числа, имеющее непосредственное отношение к их структуре или семантике. Не образуют форму повелительного наклонения глаголы *ехать, видеть, хотеть, мочь, жаждать.* Употребляются приставоч-ные глаголы: *поезжай, съезди, посмотри* и т.д. Это дефективные глаголы.

Врусском языке к числу дефективныхотносятся глаголы, вызывающие затруднения при образовании:

1) личных форм, а также форм императива: *внять, основать, простереть*;

2) формы 1-го л. ед. ч. наст. или будущего простого времени: *бузить, затмить.*

Эти глаголы также называют недостаточными. У ряда глаголов эта недостаточность обусловлена законами благозвучия/ неблагозвучия, т. е. неимеющиеотдельныхличныхформпопричинамфонетическим (неудобно произносимое сочетание звуков (*победить, очутиться* и др.). Данные глаго-лы не имеют форм 1-го лица единственного числа вследствиепоявлениянепривычныхзвуковыхсочетаний.**[6, с.140]**

Довольно часто критерий благозвучия зависит от индивидуального эстети-ческого чутья. Так, по мнению Л.А. Булаховского, форма *защищу* недопустима.Также глаголы *дерзить, победить, убедить, убедиться, переубедить, раз-убедить, очутиться, ощутить, затмить, чудить, чадить, дудеть, галдеть, голосить, гласить, бузить, тусить, ерундить, окраситься* и другие. В любом случае «выбор необходимой и приемлемой формы обеспечит точ-ность и выражение мысли и эффективность общения».**[7, с. 186]**

Следует отметить, что, согласно языковой норме, глаголы в форме 1-го лица единственного числа претерпевают чередования. Ср.: *лизать – лижу, прекратить – прекращу, бежать – бегу.* Таким образом, отступления от указанных глагольных форм, то есть нелитературное образование 1-го лица без чередования, «носят резко сниженный характер».**[1, с. 256]**

Проанализировав случаи недостаточности глагольных форм, можно прийти

к выводу, что существуют четыре причины глагольной недостаточност

1. Неблагозвучие. Здесь следует отметить случаи: и.

а) столкновение слогов: *ощутить – ощущу*; б) звуковую тавтологию: *обуржуазить – обуржуажу*; в) скопление согласных: *затмить – затмлю*.

2. Омонимия. Здесь следует различать: а) омофонию таких форм: *выродиться – вырожусь* (ср. *выражусь*); б) их омографию: *мутить – мучу* (ср. *мучу –мучить*).

Омонимия форм не всегда приводит к дефектности парадигмы: так, глаголы *водить* и *возить* совпадают в форме 1-го лица ед. ч. (*вожу*), также пара слов *ле-чить – лететь (лечу)*, но недостаточными при этом не становятся.**[2, с. 413]**

3. Псевдомотивация – «установление подобия семантического родства между разными словами через звуковое их сближение» (*бужу – бузить? будить*?).

4. Неясность. Формы, искаженные чередованием, могут не опознаваться как принадлежащие парадигме данного глагола, при этом чем менее употребителен глагол, чем короче форма, искаженная чередованием, тем менее ясной она ста-новится: *бдеть – бжу, дудеть – дужу, рысить – рыщу, шкодить – шкожу, ерундить –*

---

[32] Ст.преподаватель Кафедры русского ячзыкознания Бакинского государственного университета
10.24412/2218-7588-2025-2-119-121

ерунжу, парусить – парушу. (ср. *бдить, бдит*, но *бжу;дудишь, ду-дит*, но *дужу*), именно поэтому словатипа *бжу* и *дужу* «настолько необычны для нашего слуха, что возникают сомнения в возможности использовать эти формы в речи».

Первая причина недостаточности связана с нарушением требования бла-гозвучия, вторая и третья с нарушением однозначности, Четвертая – ясности.

Так, в речи трудновоспроизводимые формы можно заменятьаналитическими глагольными формами совершенного и несовершеногоовида, глаго-лами-синонимами или описательными выражениями. Например: *победить – смогу победить* (сов. вид), *буду побеждать* (несов. вид), *выиграю* (синоним) – *одержу победу* (описательное выражение); *ощутить – смогу ощутить* (сов. вид), *буду ощущать* (несов. вид), *почувствую* (синоним) – *испытаю чувство* (описательное выражение).

В любом случае «выбор необходимой и приемлемой формы обеспечит точность и выражение мысли и эффективность общения» **[7, с. 386]**

Глагол может быть недостаточным и из-за семантического значения. Эта группа глаголов – достаточно многочисленный класс. Их в языке более полуторы тысяч. Формы 1 и 2 лица не имеют фонетических или

грамматических ограничений для их образования, однако из-за особенностей семантики эти формы в языке не употребляются (за исключением случаев метафоризации).Например, глагол *вызревать*. Можно сказать «*сыры вызре-вают», «камамбер вызревает».* Но нельзя сказать «*я вызреваю, мы вызрева-ем»*. Значит, все личные формы, кроме третьего лица, будут невозможны.

Назовем особые семантические причины, по которым не образуются формы 1-го, а также 1-го и 2-го лица единственного числа:

I. Отсутствие непосредственного производителя действия или носителяпризнака (безличные формы глаголов): *вечереть, рассветать, смеркаться,*

лихорадить, знобить, нездоровиться и т. д. Например:

1. *Знобить* Безл. «О болезненном ощущении озноба, о лихорадочном состоя-нии»; «Об ощущении озноба, лихорадочного состояния»: *Больного знобит.*

2. *Смеркаться* Безл. «О наступлении сумерек, вечерней темноты; *стемнеть, стемнеться*»; «О наступлении сумерек»: *На дворе смеркается.*

II. Отсутствие соотношения с действием одушевленного лица (говорящего): *ржаветь, зеленеть, хлынуть, колоситься, мерцать, теплеть, прорасти* и

т. д. Указанные глаголы непосредственно связаны с процессами, протека-ющими в живой и неживой природе. Например: *Колоситься*«Вырастая, выпускать колосья (о злаках)»;«*Вырастая, давать колос*»: *Рожь колосится*.

Хлынуть 1. «*Начать литься с силой, потоком*»: *Внезапно хлынул дождь.*

III. Обозначение процессов, совершающихся в организме человека:

гноиться, кровоточить, заживиться, отняться, рассосаться, слипнуться и т. д. Например: *Гноиться* «Выделять гной»: *Рана гноится. Заживиться* Разг. «Зажить, залечиться (о ране, ссадине)»: *Болячка быстро заживилась.*

Ряд глаголов не имеет форм 1 и 2 лица, поскольку их лексическое значение несовместимо с представлением о субъекте и адресате сообщения (*сбежаться, перепадать, темнеться, близиться* и др.), глагол имеет только форму 3 лица (*светает, брезжит* и др.).

Также глаголы *брезжить, светать, осыпаться, сквозить, гаснуть и др.*

Эти глаголы не способны обозначать действие субъекта, отсутствует непосредственный производитель действия или носитель признака.

Например: *Знобить* – «о болезненном ощущении озноба, о лихорадочном состоянии».*Больного знобит. Смеркаться.* – «О наступлении сумерек, вечерней темноты; *стемнеть, стемнеться» На дворе смеркается.*

Наличие совместного (группового) действия в глаголах: *сбегаться, толпиться, столпиться, разлетаться, слететься, скопиться, галдеть, сбежаться,заполонить, разбежаться. Например*: *Столпиться – Собраться в одном месте в большом количестве, толпой.Прислуга столпилась в дверях. Слететься – Прилететь в одно место с разных сторон.Собраться, сбежаться отовсюду.*Данные глаголы связаны с представлением о множестве участников, то есть предполагают нескольких участников и исключает возможность употребления глаголов в единственном числе.

При образовании указанных форм следует особенно внимательно относиться к выбору необходимой формы. Это обеспечит точность в выражении мысли и «успешность речевого общения» **[4, с. 3]**,а также способствует овладению нормативным русским языком, позволяет логически правильно, убедительно, ясно и аргументированно излагать информацию в устной и письменной форме» **[3, с. 60]**

В русском языке выделяются следующие семантические группы недостаточных глаголов, связанных с животным миром. Они употребляются только в форме 3 лица и не употребляются в 1-м и 2-м лице в единственном и во множественном числе. Это глаголы, лексическое значение которых исключает или несовместимо с представлениями о 1-м или 2-м лице деятеля. Причины семантические.

Данные глаголы обозначаютдействия или процессы, которыенемогут быть отнесены к говорящемулицу и егособеседнику, то есть к человеку, и имеют значение процессов, свойственных животно-

мv мирv: *доиться. телиться. жеребиться. окотиться. шениться, пастись, нестись* (о птицах) и другие – (глаголысознаниемпроцессов, свойственныхмируживотных).

Однако при употреблении подобных глаголов в переносном значении эти формы легко появляются: «*Я таю, жертва злой отравы*» (П.); «*Что это у вас яйца наполовину битые*?» «*Почем я знаю! – весело отозвалась продавщица. – Я ведь сама не несусь*» **[5,с. 44]**

Глагол *телиться* в переносном значении имеет значение – *медлить,*

возиться. Срочно связывайся по рации с городом. Да не ***телись*** *же ты, три попа твою за ногу, срочно вызывай город.* В.Д. Поволяев «Лесные солдаты».В данном предложении употребляется форма 2 лица единственного числа.Выделяются следующие семантические группы глаголов со значением процессов, протекающих в растительном мире: *разрастись, колоситься, куститься, отпочковаться, набухнуть, осыпаться, золотиться, пестреть.*

Не употребляются в 1-м и 2-м лице глаголы, лексическое значение которых исключает или несовместимо с представлениями о 1-м или 2-м лице деятеля. Употребляясь в переносном значении, эти глаголы могут использоваться с одушевленными существительными. Например:**позеленеть**:

Что за подлость и что за глупость! – ***позеленел*** *отзлости Петр Степанович. –* Достоевский Ф. М., Бесы, 1872.**Куститься**: *И посмотрел на отца. На худом отцовском лице* ***кустились****густые брови, а кожа у него была грубее, чем у промокшего башмака.*Мэтт Хейг, Мальчик по имени Рождество, 2015.

Глагол в любом предложении является ядром, позволяющим характери-зовать и описывать события и ситуации в их динамике.В связи с этим ошиб-ки, связанные с употреблением глагольных форм, часто приводят к смысло-вому и стилистическому разрушению всего текста.

В связи с этим необходимо правильно употреблять различные глаголь-ные формы, в особенности те, у которых выделяются некоторые особенности при образовании форм лица.

ЛИТЕРАТУРА

1. Голуб И. Б. Риторика. – М.: Эксмо, 2008. – 384 С. 256
2.Грамматики современного русского литературного языка (М., «Наука», 1970) С. 412
3.Грызина О. В. Концепция курса «Основы языкознания» в системе высшего гуманитарного образования // Вестник науки и образования. – № - М.: Проблемы науки, 2015. – С. 59-6
4.Ефанова Л. Г. Категория нормы в русской языковой картине мираАвтореф. дисс. докт. филол. наук. – Томск, 2013. С. 3
5. Рахманова Л.И., Суздальцева В.Н. Современный русский язык. – М, 1997 г.
6. Розенталь Д. Э., Теленкова М. А. Словарь лингвистических терминов. М.: Просвещение, 1985.С. 140
7. Русский язык и культура речи / Под ред. В. Д. Черняк. – СПб.: САГА; М.: ФОРУМ, 2005. – 368 с.

РЕЗЮМЕ

Глагол – самая сложная и самая емкая часть речи современного русского языка. Он отличается исключительной сложностью своего содержания, раз-нообразием грамматических категорий и форм, богатством парадигматичес-ких и синтагматических связей. В речи часто встречаются ошибки, связанные с употреблением глагольных форм, приводящих к смысловому истилистическому разрушению всего текста.

В настоящей статье анализируются особенностидефективных глаголов русского языкас точки зренияупотребляемости, рассматриваются самые распространенные ошибки, связанные с их употреблением, а также причины возникновения данных ошибок.

Ключевые слова: дефективные глаголы, русский язык, употребляемость, ошибки.

Rus dilində nöqsanlı fellərin leksik və semantik xüsusiyyətləri

XÜLASƏ

Müasir rus dilində feil daha mürəkkəb və daha əhatəli nitq hissəsidir. O, olduqcamürəkkəbməzmunu, qrammatik kateqoriya və formalarının müxtəlifliyi, paradiqmatik və sintaqmatik əlaqələrin zənginliyi ilə seçilir. Tez-tez nitqdə feil formalarının istifadəsi ilə bağlı müəyyən səhvlər müşahidə edilir ki, bu da bütün mətnin məna və üslub cəhətdən dağılmasına səbəb olur.

Məqalədə rus dilində nöqsanlı feillərin xüsusiyyətləri onların istifadəyə yararlılığı nöqteyi-nəzərindən təhlil edilir, belə feillərin istifadəsi ilə bağlı geniş yayılmış səhvlər və bunların baş vermə səbəbləri nəzərdən keçirilir.

Açar sözlər: nöqsanlı feillər, rus dili, istifadəyə yararlılıq, səhvlər

LEXICO-SEMANTIC FEATURES OF DEFECTIVE VERBS IN THE RUSSIAN LANGUAGE

Summary

Keywords: defective verbs, the Russian language, paradigm, usage, errors.The verb is the most complex and capacious part of speech in themodern Russian language. It is distinguished by the exceptionalcomplexity of its content, the diversity of grammatical categories andforms, the richness of paradigmatic and syntagmatic connections. Inspeech, there are often errors associated with the use of verb forms,leading to the semantic and stylistic destruction of the entiretext. The article analyzes the features of defective verbs in theRussian language from the standpoint of their usability, considersthe most common errors associated with their use, as well as thereasons for the occurrence of such errors.

RƏYÇİ: dos. L.Ələkbərova

Hüseynova Aytac Sərvər [33]

SOSİAL ŞƏBƏKƏ MƏTNLƏRİNDƏ QRAMMATİK NORMALARIN POZULMASI

İnsan həyatının çox hissəsini digər fərdlərlə qarşılıqlı əlaqə və ünsiyyətdə olan sosial varlıqdır. Sosial həyat yalnız insanların bir-birinə ehtiyacı olduqda yaranan və inkişaf edən mühitdir ki, bu da onları müxtəlif kommunikasiya kanalları ilə qarşılıqlı əlaqədə olmaq və məlumat ötürməyə təşviq edir.

Ünsiyyət insanlar arasındakı sosial münasibətlərin, onların cəmiyyətin üzvləri kimi qarşılıqlı fəaliyyətinin spesifik bir formasıdır (6, səh 9). Ünsiyyətin sosial mənası bəşəriyyətin illərdir topladığı mədəni formaların və sosial təcrübənin qarşılıqlı şəkildə bir-birinə ötürülməsindədir. Ünsiyyət insanın şəxsiyyət kimi formalaşması üçün olan vasitələrdən biridir. Bir insanın davranışı, fəaliyyəti, dünyaya və özünə münasibəti digər insanlarla ünsiyyəti ilə müəyyən edilir.

Ünsiyyətdə bir-biri ilə əlaqəli üç tərəf var. Onları daha ətraflı nəzərdən keçirək:

1. kommunikativ tərəf - insanlar tərəfindən məlumat mübadiləsi və ötürülməsi;
2. interaktiv tərəf - insanlar arasındakı qarşılıqlı əlaqələrin təşkili;
3. ünsiyyət tərəfdaşları tərəfindən bir-birlərini qavramaq və qarşılıqlı anlaşmanı qurmaq, bir-birlərinə qarşılıqlı şəxsi münasibətə əsaslanmaq (26,səh 43). Ünsiyyətin əsas komponentləri məqsəd, vasitə və məzmundur. Yəni insanlar hansı səbəbdən ünsiyyət qururlar, insanlar hansı vasitələrlə ünsiyyət qururlar (məlumat ötürmə yolları) və qurulan əlaqələrin məzmunu nədən ibarətdir (ötürülən məlumatlar). Bir insanın digəri ilə ünsiyyət qurmaq üçün dildən istifadə etdiyi vəziyyətə nitq fəaliyyəti deyilir. Nitq fəaliyyətinin bir neçə növü var:

1) danışma - hər hansı bir məlumatı çatdırmaq üçün dildən istifadə;
2) dinləmə - səslənən nitqin mənasını başa düşmək;
3) yazı - nitqin məzmununu kağıza yazmaq;
4) oxuma - kağıza yazılmış məlumatların qəbulu.

Sosial şəbəkələrdə ünsiyyət çox spesifikdir və hər bir fərdin hər gün qarşılaşdığı "real" ünsiyyətdən keyfiyyətcə fərqlidir. Yaxın gələcəkdə müasir informasiya texnologiyaları sayəsində canlı ünsiyyətin kəmiyyət üstünlüyünün əsaslı şəkildə zəifləməsi müşahidə olunur.Ünsiyyət, qarşılıqlı əlaqəyə girən fərdlərin ümumi mədəniyyəti və xarakterik xüsusiyyətləri, habelə qarşılıqlı əlaqənin baş verdiyi şərtlər və faktorlar ilə təyin olunan müxtəlif səviyyələrdə baş verir (4, səh 271).Danılmaz fakt budur ki, bu gün internet bəşəriyyətin bildiyi ən nəhəng məlumat mənbəyidir. Ancaq uzun və yaxın məsafələrdə istifadəçilər arasında rabitənin səmərəliliyi, sürəti və mövcudluğu kimi imkanlar, internetdən yalnız öyrənmək üçün bir vasitə deyil, həm də ünsiyyət üçün bir vasitə kimi istifadə etməyə imkan verir.

Bu gün yeni bir dilçilik forması - yazılı danışıq nitqi ortaya çıxdı. İngilis dili internetdə əsasən yazılı şəkildə mövcuddur, lakin interaktiv şəbəkə ünsiyyəti şəraitində yazılı nitq sürəti şifahi nitqin müxtəlifliyinə yaxın formasına çevrilməkdədir. Müəyyən emosional vəziyyətlərin təyinatını müəyyən ifadələrlə təyin etmək üçün çox cəhdlər olmuşdu, lakin hamısı uğursuz oldu. Əslində, bu günə qədər ifadələr yalnız müəllifin mətnə duyğusal, rəngli münasibəti barədə məlumat vermeyib, sadəcə duyğularının istiqamətini və dərəcəsini çatdırır . Gördüyümüz kimi, duyğu palitrası çox zəifdir.Dünyanın dil mənzərəsi konsepsiyası Wilhelm von Humboldt və neo-Humboldtian daxili dil formasının fikirlərinə qayıdır. Humboldt dilin və düşüncənin milli məzmununa diqqət yetirən ilk dilçilərdən biri olub, fərqli dillərin millətlər üçün orijinal düşüncə və qavrayış orqanları olduğunu bildirir.

Eyni obyektə iki müxtəlif insanın münasibəti fərqli olduğundan həmin obyektin subyektiv obrazi yaranır. Beləliklə, söz fərqləri müəyyən hüdudlarda olan subyektiv nümayəndəliklərin yükünü daşıyır, çünki daşıyıcıları eyni dil birliyinin üzvü olduqları üçün müəyyən bir milli xarakter və şüura malikdirlər (14, səh 200).

V. fon Humboldtun fikirləri, neo-Humboldtianlar tərəfindən qəbul edildi. Onlardan biri, L. Weisgerber, "dünyanın dil mənzərəsi" terminini XX əsrin otuzuncu illərində elmə tanıtdı və mənəvi məzmunun müəyyən bir toplumun dilində yaşadığını və fəaliyyət göstərdiyini qeyd etdi. Müəyyən bir dilin dünyasının mənzərəsi adlanır. Dilçilikdə dünyanın dil mənzərəsinin tərifləri çoxdur.

Digər alimlərə görə (N. A. Besedina, T. G. Bochina, M. V. Zavyalova, T. M. Nikolaeva, M. V. Pats, R. X. Xayrullina, E. S. Yakovleva, vs.) dünyanın dil xəritəsi dildə müəyyən edilmiş və müəyyən bir dil toplumu üçün spesifik olan gerçəkliyi qavrama sxemidir (16, səh 424).

Hər şeydən əvvəl, dünyanın ən populyar hashtaglarını əks etdirən "Trend Modullar" adlı bir blokun olduğu Sosial şəbəkələrin xəbərlər hissəsində Facebook və bir vaxtlar məşhur olan Twitter-də dünyanın dil mənzərəsini görə bilərsiniz.

İstifadəçilər hashtag - # ilə başlayan söz və ya ifadələrdən istifadə edərək bir qrup mesajı mövzuya və ya növə görə birləşdirə bilər. Bu xidmət istifadəçilərlə əlaqəli sözləri, mövzuları izləməyə imkan verir, habelə istifadəçilərə və mediaya cari gündəliyi və hazırda əhalini narahat edən məsələləri başa düşməyə kömək edir.

Facebook və ya digər məşhur sosial şəbəkələrdə mövzuların nə qədər sürətlə dəyişməsi, sosial şəbəkə dünyasının dil mənzərəsinin hərəkətli olduğunu göstərir, insanın dünyaya münasibətini, yalnız həyatında deyil, bütövlükdə dünyada baş verənlərə marağını və iştirakını müəyyənləşdirir. Bu yaxınlarda bir insanın özünü təqdimatında və dünyadakı şəklinin əks olunmasında xüsusi bir yer, aşağıda daha ətraflı dayanacağımız sözdə ictimaiyyət tərəfindən tutulur.

İnsanın zamanının çox hissəsi digər insanlarla qarşılıqlı əlaqə və ünsiyyətə sərf edilir. Ünsiyyət insanlar

[33] **Azərbaycan Dillər Universiteti ,müəllim.** aytaj.huseynova05@gmail.com.
10.24412/2218-7588-2025-2-122-125

arasındakı sosial münasibətlərin, onların cəmiyyət üzvləri kimi qarşılıqlı fəaliyyətinin spesifik bir formasıdır. Sosial mənası bəşəriyyətin illərdir topladığı mədəni formaların və sosial təcrübənin ötürülməsindədir. Ünsiyyət insanın şəxsiyyət kimi formalaşması üçün vasitələrdən biridir.

Ünsiyyət öz xüsusiyyətlərinə, funksiyalarına, metodlarına və quruluşuna sahib olan mürəkkəb bir elementdir. Ünsiyyətin kommunikativ, interaktiv və qavrayış tərəfləri mövcuddur. Əsas komponentləri məqsəd, vasitə və məzmundur.Məlumat ötürmə metodları (və ya rabitə vasitələri) şifahi və şifahi olmayanlara bölünür.

Hər hansı bir sosial şəbəkə, ilk növbədə, internet rabitəsinin qaydalarını və qanunlarını nəzərə alaraq bir insanın başqası ilə bölüşməyə hazır olduğu bir vasitədir.Sosial bir şəbəkə içərisində ünsiyyəti və ya şəbəkə ünsiyyətində qəbul edilən leksik vahidlər aktiv şəkildə dəyişir (yəni genişləndirir) sosial və sosial şəbəkədəki ünsiyyət çərçivəsindəki bu fenomen, birincisi, ingilis dilinin semantikasına, ikincisi, texniki amillərin, interfeys xüsusiyyətlərinin və sosial şəbəkənin funksionallığının təsirindən qaynaqlanır.

Sosial şəbəkələrdə ingilis dilinin xüsusiyyətlərini daha dolğun və dərindən öyrənmək üçün dilçiliyin əsas hissələrindəki dəyisiklikləri nəzərdən keçirmək lazımdır. Bunlar morfologiya, leksikologiya və sintaksisdir.

1. **Morfologiya** (yun. μορφή -forma, λόγος-elm) — Linqvistikada nitq hissələri və onların dəyişilmə qaydalarını öyrənir. Termin biologiyadan götürülüb, hal-hazırda da bu elmdə işlənməkdədir. Morfologiya termini dilçiliyə məşhur alman dilçisi, naturalizm dilçilik məktəbinin banisi A.Şlayxer tərəfindən gətirilib(26, https://az.wikipedia.org/wiki/Morfologiya).

Ingilis dilinin morfologiyası öz növbəsində ingilis dilində olan sözlərin quruluşunun, təsis elementlərinin və yerinə yetirdiyi funksiyaların qaydalarının öyrənilməsindən ibarətdir.

Dilin mənalı hissələri, yəni kök, leksik və qrammatik şəkilçilər ayrı-ayrılıqda morfem adlanır. Sözün quruluşunu öyrənmək üçün onu tərkib hissələrinə ayırırlar. Sözün ayrılıqda işlənə bilən və leksik mənaya malik olan hissəsi kök adlanır. Şəkilçilər sözün kökünə qoşularaq ya onun leksik ya da qrammatik mənasını dəyişir. Şəkilçilər 3 yerə bölünürlər

1. Prefiks
2. Suffiks
3. Infiks

Prefikslər kökün əvvəlinə, suffikslər sonuna, infikslər isə kökün ortasına əlavə olunurlar(14, səh 16ngilis dilində morfologiya sözləri nitq hissələri nöqteyi nəzərdən öyrənir. Ingilis dilində nitq hissələri 2 yerə bölünür. Bunlar əsas və köməkçi nitq hissələridir.

Sosial şəbəkələr istifadəçilərə morfemlər və morfoloji söz düzəltmə ilə "oynamaq" imkanı yaratdı, bu da öz növbəsində istifadəçilərin fikirlərini və hisslərini yazmaq və daha asan ifadə etmək üçün yeni yollar icad etməyə imkan verdi(26, səh 27).

Facebook və twitterdə istifadəçilərin kommentlərini nəzərdən keçirmək mümkündür.

Ən çox yayılmış dətişikliklərdən biri kökdə və ya şəkilçidə hər hansısa hərfin köməkliyi ilə sözlərin uzadılmasıdır.

This is so wonderful and looooooooong over due!!!

Burada sözün uzadılması vaxtın uzadılmasına diqqəti çəkmək üçün istifadə olunmuşdur. Sosial şəbəkələrdə digər ən məşhur və ən çox istifadə olunan növ sözlərin qısaldılmasıdır.

`Diamond Heart or Dancing in Circles as next single pls`

` Diamond Heart or Dancing in Circles növbəti mahnı kimi, zəhmət olasa` kimi tərcümə olunur. Sosial şəbəkə istifadəçiləri qisaltmalardan vaxta qənaət, fikri daha tez çatdırmaq məqsədi ilə istifadə edirlər. Baxmayaraq ki, günümüzdə artıq bu adi hal almışdır.

Bəzən nəinki bütöv sözlər hətta bütöv ifadələr də qısaldıla bilər. Məsələn, laughing out louder, ürəkdən gülmək kimi tərcümə olunur və qısaldılaraq LOL kimi istifadə olunur.

Digər dəyişikliklər özünü leksikologiya bölməsində göstərir. Leksikologiya dilçiliyin bir bölməsidi.Dilin müasir vəziyyətində və eləcə də tarixi inkişaf prosesində lüğət tərkibini öyrənir. Leksikologiyanın əsas məqsədi dilin lüğət tərkibini bir sistem kimiöyrənməkdən ibarətdir. Odur ki, leksikologiyaya, eyni zamanda sözlərin məna xüsusiyyətindən danışan bəhs də daxil edilir ki, bu bəhs ayrılıqda semasiologiya adlanır(27).

Leksikologiyanın əsas məqsədi sözün mahiyyətini və tərkibini, sözlərin mənasını və çoxmənalılığını aydınlaşdırmaqdan, sözdə baş verən bir sıra inkişaf və yenilikləri dəqiqləşdirməkdən ibarətdir. ilin lüğət tərkibinin inkişafi və genişləndirilməsi üçün 4 yaradıcılıq yolu vardır. Bunlardan üçü dilin daxili resurslarından, dördüncüsü isə digər dillərin resurslarından istifadə etməkdir. Bu yaxınlarda ingilis dilində xokkey sevərlərin dilində yeni bir feil meydana gəlmişdir. Kronwall – İsvecrə xokkey klubunun müdafiəçisidir. Onun xokkey oyunundakı priyomları o qədər güclü və sərtdir ki internet istifadəciləri buna laqeyd qalmayıb onun adından ninki isim hətta feil kimi istifadə edirlər. Indi bu feildən nəinki xokkey oyunları sırasında həmçinin digər oyun növlərində də istifadə olunur(26).

Fikrini qısa ifadə etmək üçün bir vaxtlar məşhur olan Twitterdən istifadə olunurdu. Twitter ciggildəmək mənasını verən `tweet` feilindən götürülmüşdür. Artıq uzun zamandır ki, tweet feili öz mənasından uzaqlaşmış, twit atmaq, twit qoymaq mənasında işlədilir. (26)

`You haven`t tweeted 2 days` (Iki gündür ki twit atmamısan). `Apple pick` söz birləşməsi Azərbaycan dilinə `alma yığmaq` kimi tərcümə olunsa da sosial şəbəkə istifadəçiləri bundan dünyaca məşhur Apple firmasının vurğulmaq üçün istifadəedirlər(26, https://az.wikipedia.org/wiki/Sintaksis).

`People can`t applepick from me cause İ dun have one`.

(Insanlar mənim ayfonumu oğurlaya bilməzlər, çünki məndə yoxdur.)

Sintaksis nəinki qrammatikanın, ümumiyyətlə dilçiliyin çox mühüm şöbələrindəndir. Belə ki, dil özünün ünsiyyət vasitəsi olmaq vəzifəsini , məlum olduğu kimi, daha doğrusu cümlələr vasitəsi ilə yerinə yetirir. Lakin bu qədər böyük əhəmiyyətə malik olmaslna baxmayaraq, bir elm kimi sintasisin predmeti və tədqiqat sərhədləri dilçilikdə hələ də özünün tam həllini tapmamışdır. Sintaksisin əsas vahidi cümlədir. Cümlə dilin ən kiçik ünsiyyət vahididir(29,səh. 155). Azərbaycan dilində olduğu kimi ingilis dilində də cümlələr iki növə ayrılır.

1. Simple sentences (Sadə cümlələr)
2. Composite sentences (Mürəkkəb cümlələr)

Sadə cümlə mübtəda və xəbərdən ibarət olur. Sadə cümlələrin aşağıdakı növləri vardır

1. Nəqli
2. Sual
3. Inkar
4. Əmr
5. Nida

Mürəkkəb cümlələr də öz növbəsində iki yere tabeli mürəkkəb cümlələr və tabesiz murəkkəb cümlələrə ayrılır.

Cümlədə düzgün söz sirası belə göstərilir – mübtəda + xəbər + tamamlıq + zərflik.

He watches TV-set in the evening.

Zaman və yer zərflikləri mübtədanın qarşısında dura bilər.

Two years ago I opened my own shop in London.

Təyin cümlədə istənilən nitq hissəsinin qarşısında işlənə bilər. Təyin + mübtəda + xəbər + təyin + tamamlıq + zərflik. A good cook stewed a tasty mutton for dinner

There+to be konstruksiyalı cümlələr də istifadə oluna bilər. Bu söz sırasını dəyişmir. Bundan hər hansısa bir məkan və zamanda nəyinsə mövcudluğunu göstərmək üçün istifadə olunur. osial şəbəkə mətnlərində qrammatik səhvlərin olduğu bir neçə nümunəyə nəzər yetirək.

İ seen him yesterday(30).

Bu cümlədə zaman düzgün işlədilməmişdir. “I saw him yesterday” kimi işlənməsi daha məqsədəuyğundur.

Come join Jason and myself at the water park(30).

Bu cümlədə isə “myself”qayıdış əvəzliyininəvəzinə “Come join Jason and me” olaraq yazılsa idi daha düzgün olardı. Sosial şəbəkə mətnlərində qrammatik normaların pozulmasına aid bir çox nümunələr gətirmək olar.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Hüseynov A.R. İngilis dilinin nəzəri qrammatikası üzrə mühazirələr toplusu. Bakı, “Mütərcim”, 2015, 375 s.
2. Musayev O.İ. İngilis dilinin qrammatikası. Bakı, “Qismət”, 2007, 608 s.
3. Musayev O.İ. İngiliscə- Azərbaycanca lüğət. Bakı, “Qismət”, 2003, 1670s.
4. Məmmədov A.Y. Mətn yaranmasında formal əlaqə vasitələrinin sistemi. Bakı-Elm-2001. 143s
5. Вахрамова Е.Н., Кузнецова Н.В. К вопросу о лингвистических перспективахнеологизмов социальных сетей// Вестник Нижегородского университета им. Н.И. Лобачевского. 2009. No 6. С. 270-275.
6. Виноградова Т.Ю. Специфика общения в интернете / Т.Ю. Виноградова // Русская исопоставительная филология : лингвокультурологический аспект. –Казань, 2009. –С. 63 —67.
7. Горошко Е. И. Современная интернет-коммуникация: структура иосновные параметры // Интернет-коммуникация как новая речевая формация: коллективная монография / Наука, 2012. 328 с
8. Комиссаров В.Н. Теория языковой картины мира/ В.Н. Комиссаров// Лингвистические аспекты. –М.: Наука, 1990. –163 с.
9. Кашкин В.Б.Парадоксы границы в языке и коммуникации. / В.Б.кашкин // Воронеж: Издатель О.Ю. Алейников, 2010
10. Кузнецов А. В. Сленг пользователей Twitter (на материале английского языка) // Молодой ученый. —2011. —No2. Т.1. —С. 217-218.
11. Леонтьев А.А. Прикладная психолингвистика речевого общения и массовой коммуникации./А.А. Леонтьев //М.: Смысл, 2008
12. Маслова В.А. Современные направления в лингвистике. /В.А.Маслова //М.: Академия, 2008
13. Матусевич А. А. Общение в социальных сетях: прагматический, коммуникативный, лингвостилистический аспекты характеристики. 2016.
14. Смирницкий А.И. Морфология английского языка. Издательство литературы на иностранных языках. 2000-440
15. Смирницкий А.И. Лекции по истории английского языка. ДобросветКДУ2011. —232
16. Цветкова Л. С. Нейропсихологическаяреабилитация. Речь и интеллектуальнаядеятельность. М.:Издательство Московского университета, 2001
17. Петрова Е. Очерк сопоставительной типологии английского и русского языков. Грамматическая норма и варианты. LAPLambertAcademicPublishing, 2011–424
18. Мисуно Е.А. Перевод с английского языка на русский язык: учеб. пособие / Е.А.Мисуно, И. В. Шаблыгина. –Минск:Аверсэв, 2009. –255
19. Azar B.S. Understanding and Using English Grammar. WashingtonGeorgetownUniversity Press, 1999, 437 p.
20. Azar B.S. Fundamentals of English Grammar. Washington Georgetown University Press, 2003, 503 p
21. Frodesen J., Eyring J. Grammar Dimensions IV. New York, Heinle&Heinle. 2009, 448 p.
22. Gordon E.M. Krylova I.P. A Grammar of Present-day English. Moscow, 1986, 430 p
23. Gordon E.M., Krylova I.P. Modality in Modern English. Moscow, 1968.
24. Huddlestone R., Pullum G. The Cambridge Grammar of the English language. Cambridge University Press, 2002, 661 p.
25. Ilyish B.N. The structure of Modern English. Moscow, 1965, 365 p.
26. https://nauchkor.ru/pubs/osobennosti-yazyka-sotsialnyh-setey-na-primere-facebook-twitter-5b8883837966e1073081b785
27. https://az.wikipedia.org/wiki/Morfologiya
28. https://az.wikipedia.org/wiki/Sintaksis
29. http://www.anl.az/el/a/aa_ud.pdf
30. Reddit.com

Açar sözlər: sosial şəbəkə, qrammatika, morfologiya, sintaksis, leksikologiya

Ключевые слова:социальные сети, грамматика, морфология, синтаксис, лексикология

Key words: social media, grammar, morphology, syntax, lexicology

Xülasə

SOSIAL ŞƏBƏKƏ MƏTNLƏRİNDƏ QRAMMATİK NORMALARIN POZULMASI

Beləliklə, deyilənləri nəzərə alaraq bu qənaətə gəlinir ki, məlumatın daha tez çatdırılması üçün düşünülmüş halda dilin morfoloji strukturunun pozulmasına yol verilir. Səbəblər müxtəlif ola bilər, məsələn, vaxta qənaət edərək daha çox fikir catdırmaq məqsədlərdən biridir. Hətta sosial şəbəkə istifadəçiləri öz emosiyalarının hədsiz dərəcədə coşub-daşmasını göstərmək üçün bir məlumatda caps lok funksiyasından bir neçə dəfə istifadə edə bilərlər. İstifadəçilər fikirlərini dəqiq çatdırmaq üçün sözlərin mənasını, ekspressiv emossionallığında deformasiya edə bilirlər. Fikrin daha sadə formada catdırmaq üçün sosial şəbəkə istifadəciləri morfemlərin və morfoloji sözdüzəldici komponentlərin funksiyalarını oynadaraq daha rahat kombinlər kəşf edirlər.

Резюме

Учитывая вышеизложенное, можно прийти к выводу, что для более быстрой передачи информации сознательно допускается нарушение морфологической структуры языка. Причины могут быть разными, например, экономия времени и стремление выразить как можно больше мыслей. Даже пользователи социальных сетей могут использовать клавишу Caps Lock несколько раз в одном сообщении, чтобы подчеркнуть чрезмерность своих эмоций. Пользователи, стремясь точно передать свои мысли, могут искажать значение слов и их эмоционально-экспрессивную окраску. Чтобы донести мысль в более простой форме, пользователи социальных сетей играют с функциями морфем и морфологических словообразующих компонентов, открывая для себя более удобные комбинации.

Summary

Thus, considering the points mentioned above, it can be concluded that in order to convey information more quickly, the morphological structure of the language is deliberately compromised. The reasons may vary; for example, saving time and expressing more ideas is one of the main goals. Even social media users may use the Caps Lock function multiple times in a message to express intense emotions. In an effort to convey their thoughts accurately, users may distort the meaning and emotional expressiveness of words. To deliver their message in a simpler form, social media users tend to play with the functions of morphemes and morphological word-forming components, discovering more convenient combinations.

RƏYÇİ: dos. E.Vəliyeva

Aybəniz Tələt qızı Meybəliyeva[34]

DİLDƏ BİLİNQVİZM HADİSƏSİ VƏ ONUN MAHİYYƏTİ

Giriş. Qloballaşan dünyada insanların bir neçə dildə ünsiyyət qurması artıq nadir hal hesab olunmur, zəruri və vacib amil kimi qiymətləndirilir. Dilçilikdə bu bilinqvizm adlanır. Bilinqvizm iki dili bilmək və ondan istifadə edə bilmək bacarığı kimi qiymətləndirilir. A.Qurbanovun bilinqvizmlə bağlı tədqiqatlarında terminin mənşəyini və tərifini belə izah etmişdir. "*Bilinqvizm latın mənşəli sözdür, mənası ikidillilik deməkdir. Bir ölkədə eyni zamanda iki dildən istifadə edilməsi elmdə və siyasətdə bilinqvizm adlanır*" (5, s. 265).

Bilinqvizm hadisəsi bəzi məqamlarda bir şəxsin, hətta iki dildən çox dil bilməsinə kimi gedib çıxa bilər. Bilinqvizm sadəcə dil hadisəsi deyildir, o, bir çox elm sahələrini birləşdirən, onların maraq dairəsində olan məsələdir. Buraya psixologiya, nevrologiya, sosiologiya və s. kimi elm sahələrini aid edə bilərik.

Dövrümüz üçün aktual olan bilinqvizm hadisəsi əsas sosiolinqvistik problemlərdən biri kimi qiymətləndirilir və elmi ədəbiyyatlarda ikidillilik termini ilə ifadə olunur. "*Bilinqvizm hal-hazırda dövrümüzün vacib və aktual sosiolinqvistik problemlərindən biridir və ikidillilik termini ilə paralel şəkildə istifadə olunur. İkidillilik müasir dövrümüzdə çox geniş yayılmış və müxtəlif aspektlərdən araşdırılan dil məsələlərdən hesab olunur. Onun tarixi də çox qədimdir desək, yanılmarıq, çünki dünyanın bir çox ölkələrində bütün tarixi dönəmlərdə bilinqvizm mövcud olmuşdur. İkidillilik, əsasən, çoxmillətli ölkələrdə müşahidə olunan dil hadisəsidir. Məsələn, Hindistan, Amerika, Rusiya, Azərbaycan və s. kimi çoxmillətli ölkələrdə bilinqvizmə çox tez-tez rast gəlinir. İnsanlar arasında birbaşa dil əlaqələri ikidilliliyin yaranmasına yol açmaqla bərabər, eyni zamanda onun müxtəlif növlərinin və formalarının yaranması ilə nəticələndi. Qeyd edək ki, dillər arasında mövcud əlaqələr, dil sistemləri arasında deyil, həmin dillərin daşıyıcıları arasında mövcud olur* (2, s. 110). Deməli, bilinqvizm həm də tarixinin dərin köklərə getməsi ilə seçilir və müstəmləkə ölkələrində demək olar ki, hal-hazırda ikidillilik hökm sürür.

Əsas hissə. Bilinqvizm insanın psixikasına, sosial əlaqələrinə, o cümlədən onun təhsil imkanlarına da müsbət təsir göstərir. Bilinqvizm ilk növbədə insan beyninin koqnitiv inkişafına təsir göstərir. Belə ki, ikidilli insanlar birdilli insanlarla müqayisədə daha çevik düşünür, onların yaddaşı və diqqəti daha üstün olur. İki dildə fikirlərini bildirmək ona imkan verir ki, baş verən hadisələrə daha çevik münasibət bildirsinlər.

İki dildə danışa bilmək qabiliyyəti bilinqvistlərə daha çox insanla ünsiyyətdə olmağa və fikirlərini ifadə etməyə yol açır. Bundan başqa bilinqvizm mədəni zənginliyə də gətirib çıxara bilir. Hər iki dili mükəmməl şəkildə bilən bilinqvist bu dillərlə bağlı mədəniyyətləri də daha dərindən qavraya bilir. İkidilli fərdlər iki və daha çox mədəniyyət arasında birlik rolunu oynamaqla müxtəlif toplumlarla asanlıqla ünsiyyət qura bilirlər. Mədəniyyətlər arasında asanlıqla anlaşmanın yaranmasına imkan verən ikidillilik tolerantlıq, dözümlülük mühiti formalaşdırır ki, nəticədə qarşılıqlı anlaşma yaranır.

İkidilli olmaq şəxslərə imkan verir ki, əmək bazarında daha rəqabətli olsunlar və birdillilərlə müqayisədə tez iş tapırlar. Onlar daha çox təhsil, diplomatiya, eləcə də tərcüməçilikdə uğur əldə edirlər.

Ancaq bilinqvizmin sadalanan müsbət cəhətləri ilə bərabər, çatışmayan cəhətləri də vardır.

1. Bilinqvist hesab olunan şəxslərin nitqlərində tez-tez kod dəyişməsi də baş verir. Danışıq zamanı onlar sözlərin bəzilərini qarışdırır, qəfildən bir sözü başqa dildə deyirlər.

2. Bir çox hallarda bilinqvistlər dil balansını qoruyub saxlaya bilmirlər. Təhsil, iş, ailə, ətraf mühit və s. sosial amillərdən asılı olaraq zamanla bir dil digər dilə üstünlük edə bilər və daha az istifadənin nəticəsi olaraq dil unudula bilər.

3. Bilinqvizm prosesində kimlik böhranı da baş verir. İki dildə danışan şəxs hansı dildən daha çox istifadə edəcəyi, hansı mədəniyyətin daşıyıcısı olduğunu müəyyən etməkdə çətinlik çəkir.

İkidilli insanlar dillər arasında keçid etdikdə onların beyni aktiv fəaliyyəti ilə seçilir. Bu zaman beyinin fəaliyyəti idrakın çevikliyi, eləcə də diqqətin yönləndirilməsi kimi problemlərin həllinə yönəlir. Bir sözlə, bilinqvizm sadəcə kommunikativ qabiliyyət deyil, eyni zamanda beyinin funksiyalarının inkişafı baxımından da mühüm əhəmiyyət kəsb edir.

Uşaqlarda iki dilin paralel şəkildə öyrənilməsi zamanı bir sıra mürəkkəb məsələlər meydana çıxır ki, burada kod dəyişməni xüsusi qeyd etməliyik. Həm Azərbaycan dilini, həm də rus dilini bilən uşaq və ya hər hansısa bir fərd Azərbaycan dilində danışarkən müəyyən məqamlarda rus dilinə aid ifadələr də işlədirlər. Məsələn, başa düşdün? mənasında Вы понимаете? kimi ifadələrə rast gəlinir.

Bilinqvizmin yaranmasına səbəb olan amillər müxtəlifdir və sözsüz ki, bu səbəblər dillərin bir-birinə müxtəlif aspektlərdən təsir göstərməsinə səbəb olur.

Buraya ilk növbədə coğrafi səbəbləri aid edə bilərik. Fərqli dil qruplarına məxsus insanlar müəyyən səbəblərdən bir-birinə qonşu ola bilirlər və nəticədə, dillərin bir-birinə təsirinin nəticəsi olaraq bilinqvizm yarana bilər. Məsələn, Azərbaycan və rus dillərini qeyd edə bilərik.

Fərdlərin şəxsi seçimi də onların bilinqvist olmasına gətirib çıxara bilər. Məsələn, film izləməyi çox sevən şəxs ən çox baxdığı filmləri orjinalda seyr etmək üçün həmin dili öyrənir və nəticədə bilinqvist olur. Çin dilində fil izləməyi sevən şəxs həmin dili öyrənir və beləliklə, şəxsi seçimi əsasında biliqnvist olur.

[34]Bakı Dövlət Universiteti, Filologiya fakültəsi, İngilis dili (humanitar fakültələr üzrə) kafedrasının baş müəllimi. aybanizmeybaliyeva@bsu.edu.az
ORCID ID: 0009-0004-0132-5584
10.24412/2218-7588-2025-2-126-129

Hal-hazırda dünyada ingilis dilini öyrənənlər sürətlə artmaqdadır və məhz bu səbəbdən ana dili ilə paralel ingilis dili ikinci dil kimi öyrənilir. İngilis dilinin bu şəkildə geniş yayılmasına səbəb elm, təhsil, texnoloji inkişaf və s. kimi sosial və iqtisadi amillərlə bağlaya bilərik.

"*İkidillilik fenomeni təkdillilikdən fərqli olaraq daha mürəkkəb fərdi, sosial, mədəni, psixoloji və tərbiyəvi ölçüləri ehtiva edir. Bu səbəbdən ikidillilik təkcə dilçilik və dil oxu üzərində aparılan araşdırmalarla məhdudlaşmır. Dilçilikdən başqa, ikidillilik fenomeni immiqrantlar, qeyri-adi icmalar, onların təhsili, psixoloji durumu, sosial və iqtisadi problemlər kimi məsələlərlə də dərindən bağlıdır. Bu fenomenin müxtəlif akademik sahələri əhatə etməsi ikidilliləri müəyyən etmək və təsnif etmək üçün istifadə olunan meyarları əhəmiyyətli dərəcədə artırmışdır*" (3, s. 354). Təkcə bu sitatda verilmiş məsələləri ayrı-ayrılıqda izah etməyə çalışsaq çox mürəkkəb və çıxılmaz yola çıxa bilərik. Ona görə də bilinqvizm məsələsinin nə dərəcədə mürəkkəb bir anlayış olduğunu söyləyə bilərik. Elə ilk problem ondan başlayır ki, şəxs ikidilliliyə hansı formada yiyələnmişdir. Burada da çox uzun və mürəkkəb izahlara ehtiyac yoxdur, əsas meyarlara diqqət yetirmək kifayətdir. Z.Ateşal haqlı olaraq qeyd edir ki, "*İkidillilik və çoxdillilikdə əsas problem insanların hansı ikidillilik və çoxdilliliyə malik olmasıdır. İkidillilik ən dar formada iki dili bilmək/istifadə etmək kimi müəyyən edilsə də, mənimsəmə və öyrənmə yaşı, bacarıq səviyyəsi və istifadə tezliyi kimi meyarlar ikidillilik anlayışı ilə bağlı müxtəlif alt anlayışların/başlıqların yaradılmasını zəruri etmişdir. Əslində, bu cür başlıqlar açıb ikidillilik anlayışını mürəkkəbləşdirməkdənsə, ikidilli olmağın əsas meyarlarını təqdim etmək və ya ən sadə izahı vermək daha vacibdir*" (1,s. 2).

Bilinqvizmin yaranmasına müxtəlif səbəblər yol açdığı üçün onun mənimsənilməsi və istifadə edilməsi ilə bağlı müxtəlif növləri vardır. "*Dillərin mənimsənilməsi və istifadə edilməsinin müxtəlif yollarını əks etdirən koordinat, mürəkkəb və subordinativ ikidillilik də daxil olmaqla, ikidilliliyin müxtəlif növləri var. Məsələn, koordinasiyalı ikidillilər adətən iki dili erkən yaşlarından öyrənirlər, subordinativ ikidillilər isə ikinci dili daha sonra öyrənirlər və müxtəlif səviyyələrdə bacarıq nümayiş etdirə bilərlər. Kommunikativ sərištə anlayışı mühüm əhəmiyyət kəsb edir, çünki o, konkret icmalar daxilində dil istifadəsini tənzimləyən sosial norma və qaydaları dərk etməyi əhatə edir*" (6). Koordinasiyalı ikidillilər danışdığı hər iki dili bir-birindən tam və heç bir müdaxilə olmadan iki ayrı dil kimi bilirlər. Buna səbəb onların hələ uşaqlıqdan hər iki dildə dildə danışa bilməsidir. "*İkidillilik koordinasiyalı, mürəkkəb və ya tabeli hesab olunur. Koordinasiyalı ikidillilikdə insanın hər bir dil üçün paralel, lakin ayrı sistemləri var. Bu ikidillilik növü ən çox ikidilli ailələrdə böyüyən və hər iki dilə körpəlikdən yiyələnmiş insanlar arasında rast gəlinir"* (8). Deməli, koordinasiyalı bilinqvizm ən çox ikidilli mühitdə böyüyən insanlara aid edilir. Belə fərdlər hələ körpəlikdən iki dilə yiyələnirlər və demək olar ki, hər iki dili eyni səviyyədə bilirlər. Onlar iki dili o səviyyədə bilirlər və müxtəlif mühitlərdə onlardan sərbəst şəkildə istifadə edə bilirlər. "*Bəzi dairələrdə subtraktiv ikidillilik kimi də tanınan bu tipdə fərd dilləri ayrı-ayrılıqda, ayrı-ayrı mühitlərdə öyrənir və hər ikisini mənimsədikdən sonra bu ayrılığı qoruyur. Məsələn, evdə bir dildə danışan şagird valideynləri və ev mühiti vasitəsilə bu dili əldə edib, sonra isə məktəbdə ikinci dili öyrənir. O, yalnız məktəbdə, sinif mühitində ikinci dildə danışır və dillər beynində ayrı qalır*" (7). Qeyd edilən fikirlər də irəli sürdüyümüz iddiaları təsdiq edir və bu tipli bilinqvistlər digərləri ilə müqayisədə daha çox uğur əldə etmək şansları olur.

Kompleks bilinqvizm zamanı iki dil bir-birinə qarışmış formada öyrənilir və bir çox hallarda anlayışlar qarışdırırlır. Subordinativ ikidillilikdə isə bir dil aparıcı və əsas olur, ikinci dil yalnız tərcümə vasitəsilə başa düşülür.

İnterferensiya termini bilinqvizmdə geniş şəkildə istifadə olunan anlayışlardan biridir. İnterferensiya termini dilçilikdə bir dilin strukturunun bu və ya digər formada başqa bir dilə təsiri kimi başa düşülür.

İnterferensiya daha çox iki və üç dildə danışan şəxslərin nitqində və yazısında rast gəlinir. Məsələn, ana dili ingilis dili bir fərd, Azərbaycan dilində danışmağa çalışarkən aydın şəkildə ingilis dilinə məxsus söz sırası, cümlə quruluşunu müşahidə edə bilərik.

İnterferensiyanın yaranmasına bir çox səbəblər yol açır.

Bunlardan birincisi və ən əsası iki və ya ikidən çox dildə eyni zamanda danışmaq;

ikincisi ana dilini və ya ikinci bir dili tam şəkildə mənimsəməmək;

üçüncüsü yaşadığı mühitin insana təsir göstərməsi (məsələn, ingilisdilli, rusdilli mühitdə böyümək) və s. Sözsüz ki, sadalanan bu səbəblər interferensiyanın yaranmasına yol açan səbəblərdən yalnız müəyyən bir qismidir.

İnterferensiya hadisəsi fonetik, leksik, qrammatik, hətta sintaktik səviyyədə müşahidə oluna bilər.

Fonetik interferensiya dedikdə bir dilə məxsus səslərin tələffüzündə digər dil və ya dillərin təsirinin müşahidə edilməsi kimi başa düşülür. R.Heydərov fonetik interferensiyanı bu şəkildə izah etmişdir. "*Dünya dilləri içərisində hətta iki dil belə tapmaq olmaz ki, fonetik sistemləri tam olaraq üst-üstə düşsün. Buna görə də əcnəbi dildə hər hansı bir sözü və ya ifadəni demək cəhdi artikulyasiyanın və informasiya vərdişlərinin yenidən qurulmasını tələb edir. Lakin yeni dili öyrənən hər bir şəxs ilkin mərhələdə xarici dilin səslərini öz doğma dilinin «fonetik sistemi» prizmasından qəbul edir. Bu da öz növbəsində fonetik interferensiyanın yaranmasına münbit şərait yaradı*" (4,s. 72). Deməli, fonetik interferensiya o zaman daha aydın şəkildə müşahidə olunur ki, iki dil arasında fərqlilik çox olsun. İnterferensiya hadisəsi Məsələn, iki dildə danışan həm rus, həm də Azərbaycan dillərini bilən şəxsin nitqində rus dilinin təsiri müəyyən sözlərin tələffüzü eşidə bilərik. "ğ" səsinin əvəzinə q səsinin tələffüzü, "x" səsinin yerinə "h" səsinin tələffüzünü nümunə kimi göstərə bilərik.

Leksik interferensiya isə bir dildən gələn söz və ifadələrin başqa bir dilin qayda və qanunlarına əsaslanmadan istifadə edilməsi nəzərdə tutulur. Məsələn, Mən "новая" tapşırıq verirəm. Bu nümunədə "новая" sözü yeni mənasında işlənir.

Qrammatik və ya sintaktik interferensiya cümlə quruluşunda başqa bir dilin təsiri ilə səhv və çox zaman qeyri-adi strukturun müşahidə edilməsidir. Məsələn, Anam yazacaq mənə səhər. Qrammatik interferensiyanın yaranmasına bir sıra amillər yol açır ki, bura fərdin ana dili ilə ikinci dilin qrammatik sistemləri arasında fərqlərin olmasıdır. Bundan başqa həmin şəxslərin dil öyrənmə səviyyəsinin aşağı olmasıdır. Belə ki, onların danışdıqları dillərin qrammatik quruluşunu yaxşı mənimsəmirlər və nəticədə interferensiya hadisəsi baş verir. Bu kimi halların baş verməməsi üçün ilk növbədə danışdığı dilin struktur fərqlərini dərindən öyrənmək, çoxlu dinləmə və oxumaqla təcrübə qazanmaq, ən əsası isə davamlı olaraq hər iki dildə danışmaq lazımdır. Məsələn, ingilis dilində zaman mənalı bəzi ifadələr cümlənin sonunda işlədilir ki, every day buna misal ola bilər. Azərbaycan dilində "Anam hər gün məktəbə gedərdi" cümləsində hər gün zərfliyi mübtədadan sonra işlənmişdir. Ancaq ingilis dilində My mother every day goes to school kimi işlənmir. İngilis dilinin qrammatik strukturuna görə zaman mənalı zərflər cümlənin sonunda işlənməlidir, yəni həmin cümlə "My mother goes to school every day" şəklində istifadə olunmalıdır.

Dildə bilinqvizm hadisəsinin mövcudluğu qeyd etdiyimiz kimi bir çox müsbət və mənfi tərəfləri ilə xarakterizə edilir. Bilinqvizm bir şəxsin iki dildən istifadə etməsi kimi başa düşülür və müasir dövrün aktual mövzularından biri kimi dəyərləndirilir. İkidilli şəxs həm fərdi inkişafı, həm sosial uyğunlaşması, həm də uğurlu peşəkar fəaliyyəti ilə seçilir. Təsadüfi deyildir ki, dünya xalqları arasında artan sosial, siyasi, iqtisadi, o cümlədən mədəni əlaqələr bilinqvist insanlara ehtiyacı daha da artırır. Təhsildə, elmdə, əmək bazarında, zehni və idrakı inkişafda, mədəniyyətlərarası əlaqələrdə bilinqvizmin mühüm əhəmiyyəti vardır.

İstifadə edilmiş ədəbiyyat

1. Ateşal, Z., Uluslararası Sosyal Bilimler Dergisi, Cilt 1, Sayı 7 (2017), s.1-12
2. Bayramova, P. https://www.researchgate.net/publication/392840350_Uluslararasi_Turk_Lehce_Arastirmalari_Dergisi_International_Journal_of_Turkic
3. Bican, G. (2017). İki dilliliğin tanımlanması: Kuramsal tartışmalar ve güncel yaklaşımlar. Ana Dili Eğitimi Dergisi. 5(2), 353-366.
4. Heydərov, R. Dillərin inkişafında dil əlaqələrinin rolu, Bakı, Elm və təhsil, 2013, 216 s.
5. Qurbanov, A. Ümumi dilçilik. III cild (3 cilddə). Bakı: 2019, 512 s.
6. https://www.ebsco.com/research-starters/language-and-linguistics/bilingualism
7. https://www.getblend.com/blog/types-of-bilingualism/
8. https://www.ebsco.com/research-starters/language-and linguistics/bilingualism

Açar sözlər: bilinqvizm, interferensiya, fonetik interferensiya, leksik interferensiya, qrammatik interferensiya

Key words: bilingualism, interference, phonetic interference, lexical interference, grammatical interference

Ключевые слова: билингвизм, интерференция, фонетическая интерференция, лексическая интерференция, грамматическая интерференция

Xülasə

Məqalədə bilinqvizm hadisəsinin mahiyyətinə toxunulur, onun təkcə dilçilik elmi üçün deyil, eyni zamanda sosial elmlər, pedaqogika, psixologiya, sosiologiya ilə sıx bağlı olduğu diqqətə çatdırılır. Bilinqvizm hal-hazırda yalnız bir dili bilmək kimi xarakterizə edilə bilməz, o müasir dövrün əsas tələblərindən biri kimi qiymətləndirilir. Bilinqvizm adi dil hadisəsi deyildir, o, şəxsin sosial və intellektual bacarığıdır. Cəmiyyətdə, təhsildə, ailədə ikidilliliyin inkişaf etdirilməsi həm fərdlərə, bütövlükdə isə cəmiyyətə mühüm faydalar verir. Bilinqvist şəxslər iki və daha çox mədəniyyəti anlama və qəbul etmə bacarığına sahib olurlar. Onların zehni və idrakı qabiliyyəti yaddaş, diqqət kimi sahələrdə daha üstün olurlar. Ancaq bilinqvizmin mənfi cəhətləri də vardır. İlk növbədə buraya kod dəyişmə, tədrisdə müəyyən çətinliklərin olması, sosial və psixoloji məsələləri aid edə bilərik.

The phenomenon of bilingualism in language and its essence

Summary

The article touches upon the essence of the phenomenon of bilingualism, not only for linguistics, but also for social sciences, pedagogy, psychology, sociology. Bilingualism cannot currently be characterized as knowing only one language, it is considered one of the main requirements of the modern era. Bilingualism is not an ordinary linguistic phenomenon, it is a social and intellectual ability of a person. The development of bilingualism in society, education, and the family provides significant benefits to both individuals and society as a whole. Bilingual individuals have the ability to understand and accept two or more cultures. Their mental and cognitive abilities are superior in areas such as memory and attention. However, bilingualism also has its disadvantages. First of all, we can include code switching, certain difficulties in teaching, and social and psychological issues.

Феномен билингвизм в языке и его сущность

Резюме

Встатье затрагивается сущность феномена билингвизма, доводится до сведения, что он тесно связан не только с лингвистической наукой, но и с общественными науками, педагогикой, психологией, социологией.Билингвизмв настоящее время нельзя охарактеризовать только как знание языка, он рассматривается как одно из основных требований того современного времени.Билингвизм-это не обычное языковое явление, это социальная и интеллектуальная компетентность человека.Развитиедвуязычияв обществе, образовании, семье приносит важные выгоды как отдельным людям, так и обществу в целом.Когнитивные люди приобретают способность понимать и принимать две и более культуры.Их умственные и когнитивные способности превосходят их в таких областях, как память и внимание.Ноу билингвизмаестьи недостатки. Прежде всего, мы можем отнести к этому изменение кода, наличие определенных трудностей в обучении, социальные и психологические проблемы.

RƏYÇİ: dos. L.Ələkbərova

Ляман Ильгар кызы Мамедова[35]

МЕТОДИКА РАБОТЫ С ТЕКСТОМ ДЛЯ ФОРМИРОВАНИЯ КОММУНИКАТИВНОЙ КОМПЕТЕНЦИИ УЧАЩИХСЯ СРЕДНЕГО ШКОЛЬНОГО ВОЗРАСТА

Текст как средство обучения является источником информации, инструментом освоения лингвистического, терминологического аппарата, приемом овладения нормами русского литературного языка, способом формирования и развития предметных компетенций, способом приобщения к русской культуре, инструментом контроля и диагностики уровня сформированных знаний и умений.

Как объект и предмет изучения, текст представляет собой результат речевой деятельности, в котором воплощен авторский замысел, а чувства, мысли переданы при помощи средств языковой выразительности.

Особое внимание следует уделить подбору текстов для работы со детьми школьниками среднего возраста на уроке русского как иностранного.

В современной лингвистике нет четких критериев классификации текстов. При ориентации на разные критерии в первичной дифференциации останавливаются на делении на «научные» и «ненаучные тексты», «художественные» и «нехудожественные тексты», «монологический» и «диалогический тексты», «моноадресатный» и «полиадресатный тексты» и др [1, с. 79]. Большинство исследователей, занимающихся проблемами текста, учитывая факторы реальной коммуникации, то есть сферы общения и характера отражения действительности, делят все тексты на художественные и нехудожественные. Нехудожественным текстам свойственна направленность на однозначность восприятия, а художественным – на неоднозначность. И тот, и другой признаки очень важны. Гвенцадзе М.А. удалось сформулировать основные признаки художественной и нехудожественной коммуникации [2, с. 96]. Для нехудожественных текстов свойственно: присутствие непосредственной связи между коммуникацией и жизнедеятельностью человека, отсутствие эстетической функции, отсутствие подтекста, установка на однозначность восприятия, установка на отражение реальной действительности. В противоположность нехудожественным художественные тексты характеризует отсутствие непосредственной связи между коммуникацией и жизнедеятельностью человека, наличие эстетической функции, содержание подтекста, ориентирование на неоднозначность восприятия.

Кроме образовательного содержания, в тексте заложены развивающие запасы, поэтому текст является средством формирования коммуникативноречевых умений и навыков, таких как: сопоставлять разные точки зрения, вычленять главную и второстепенную информацию, сравнивать данные разных наук, соотносить научные знания с накопленными в области лингвистики в процессе изучения, ориентироваться в структуре, инструкции, алгоритме выполнения задания. Следует отметить, что текст является средством формирования языковой рефлексии.

Учащиеся должны уметь работать с текстами разных стилей, жанров, ориентироваться, в каком направлении развивается мысль в произведении, при помощи каких стилевых и жанровых особенностей можно создать свое собственное высказывание.

Нельзя не согласиться с мнением Т.М. Пахновой о том, что работа с текстом на уроках русского языка создает условия: для осуществления функционального подхода при изучении лексики, морфологии, синтаксиса; для формирования представления о языковой системе; реализации внутрипредметных (межуровневых), а также межпредметных связей курсов русского языка и литературы; для духовно-нравственного воспитания учащихся, для развития их творческих способностей [5, с. 7].

Для того чтобы работа с текстом на уроке была правильно организована, С.И. Львова выдвигает ряд требований по проведению многоаспектного комплексного анализа текста:

1) первичное восприятие в процессе чтения текста;
2) осмысление лингвистических средств создания образности художественного текста;
3) выразительное чтение;
4) заучивание текста наизусть;
5) составление связного высказывания [12, с. 49].

В современной методике преподавания русского языка существуют разные подходы к анализу текста на уроках, но хочется отметить, что их отличает целевая установка. Это может быть лингвистический анализ текста с выявлением тех лингвистических средств, при помощи которых выражаются авторские идея и замысел, чувства; или лингвостилистический анализ с выявлением речевых средств и рассмотрением языковых единиц, которые позволяют понять идейное содержание текста от темы, сюжета, архитектоники, композиции до образной системы; или лингвоэстетический анализ с выявлением средств языка и художественной речи с позиции особенностей поэтики текста; или филологический анализ текста, который совмещает в себе аспекты лингвистического и литературоведческого анализов, то есть рассматриваются одновременно и содержание, и форма произведения.

Таким образом, можно сделать вывод, что все виды анализа не всегда помогают понять произведение, приблизиться к авторскому замыслу. Высшим уровнем понимания является понимание основного содержа-

[35]БСУ, магистр*mammadova02@internet.ru*

10.24412/2218-7588-2025-2-130-132

ния, ведущей мысли – идеи – высказывания, а средством – инструментом, помогающим понять автора, – являются отношения, в которые вступают единицы языка. С этой точки зрения актуальное членение предложения и интерпретация текста позволяют выйти на новый вид анализа речевого произведения – герменевтический, исследующий процессы понимания читателем текста.

Существуют разные формы работы с текстом на уроках русского языка: помимо комплексных и лингвистических анализов, широко применяется редактирование, написание свободных диктантов, аннотаций, тезисных планов, конспектов, рефератов, чтение текстов.

Обучение чтению – одна из главных задач, которую должен решать учитель на уроках русского языка, так как основные компоненты чтения – восприятие текста и обработка информации. Коммуникативной задачей чтения является ориентирование на то, с какой целью осуществляется процесс извлечения информации. В связи с этим выделяют три основные функции чтения: познавательную, регулятивную и ценностноориентированную. Познавательная функция реализуется в том, что ученик получает новые знания о мире, явлениях, регулятивная проявляется в способности применять полученную информацию из текста, ценностноориентированная воздействует на читателя с целью совершенствования личности через чувства, эмоции, а также способствует повышению его культурного уровня.

Поскольку при чтении решаются разные коммуникативные задачи, реализуются три вида чтения: изучающее, ознакомительное, просмотровое. Если требуется точное и полное понимание текста и достоверное извлечение информации из него, то применяется изучающее чтение. Если задачей является осмысление какой-либо части текста или выявление главной мысли, то используют ознакомительное чтение. При просмотровом чтении необходимо составить общие представления о тексте.

Изучающее чтение направлено на вдумчивое и глубокое понимание текста, что в свою очередь невозможно без постановки вопросов до и после прочтения. Приемы изучающего чтения используются при работе с текстами параграфов, содержащих теоретический, понятийный материал лингвистического характера.

Ознакомительное чтение – один из быстрых видов чтения, при котором идет установка на осмысление главной информации каждой части и понимание текста в целом без последующего его воспроизведения. Задачей данного вида чтения является умение определять тему текста по заголовку, концовке, прогнозировать его содержание, определять композицию, членить на смысловые части, отличать важную информацию от несущественной, находить ключевые слова. Приемы ознакомительного чтения уместны при чтении дополнительного материала к параграфам учебника при изучении теоретического материала и сопровождаются специальными заданиями, например: найти ту часть текста, которая дополняет информацию текста правила, кратко сформулировать основную мысль представленного фрагмента и др.

Просмотровое чтение основано на умении учащихся определять смысловую нагрузку текста по заголовку, по началу абзацев, делить на смысловые части, выделять и обобщать факты, прогнозировать дальнейшее развертывание событий в тексте. Приемы просмотрового чтения уместны при соотнесении информации текста с рисунками, схемами, таблицами. В учебниках русского языка представлены упражнения с заданиями, требующими ответа на конкретный вопрос, например: определить стиль текста; назвать вид связи предложений в тексте; выяснить, какую роль играют в описании имена прилагательные; найти слова и выражения, при помощи которых автор передает свое отношение при описании и др.

Таким образом, в работе с текстом необходимо правильно организовать выполнение заданий, направленных на восприятие и осмысление содержания, так как умение грамотно читать способствует формированию других коммуникативных навыков [4, с. 146].

Умение читать и понимать прочитанное, умение обрабатывать информацию в заданном направлении является основополагающим звеном в формировании коммуникативной компетенции, поэтому, читая тексты, пересказывая, трансформируя, анализируя, интерпретируя, изучая их, учащиеся способны самостоятельно создать свой речевой продукт.

Литература

1. Валгина Н.С. Теория текста: учебное пособие. Москва: Логос, 2003, 173 с.
2. Гвенцадзе М.А. Коммуникативная лингвистика и типология текстов. Тбилиси: Тбилисский университет, 1986, 315 с.
3. Львова С.И. Школьный курс русского языка в контексте современного целеполагания // Русская словесность. 2004, №3, с. 46-51.
4. Львов М.Р. Словарь-справочник по методике преподавания русского языка: пособие для студентов пед. вузов и колледжей. Москва: Академия, 1999, 271 с. 13
5. Пахнова Т.М. Текст как основа создания на уроках русского языка развивающей речевой среды // Русский язык в школе. 2000, №4, с. 3-12.

Ключевые слова: анализ текста, речь, речевая деятельность, коммуникативная компетенция, компетенция, текст.

Keywords: text analysis, speech, speech activity, communicative competence, competence, text.

Xülasə

Bu məqalənin məqsədi rus dili dərslərində kommunikativ səriştənin formalasmasında tektosentrik yanasmanın öyrənilməsidir, əsas vəzifələr bunlardır: psixolinqvistika və pedaqogika nümayəndələrinin təcrübəsinin ümumiləsdirilməsi, məlumatla isləmək üçün mövcud metodların, formaların və metodların təhlili, rus dili dərslərində mətnlə işin təşkilində müasir texnologiyaların tətbiqi.

Резюме

Dosent R.M.Məmmədov yazır: "İnşa vasitəsilə şagirdlərin bədii təfəkkürünü inkişaf etdirmək üçün təfəkkür yaradıcılığının üç əsas mərhələsini müəyyənləşdirmək lazımdır: 1) problemi başa düşmək; 2) problemi həll etmək; 3) hökmün doğruluğunu təsdiq edən müəyyən nəticəyə gəlmək..." [7, 157].

İngilis dilində danışığı öyrənmək vacibdir. Danışıq dilini öyrənmək üçün söz ehtiyatı artırılmalıdır. Bunun üçün nə etməliyik?

1.Bu üsullardan biri müxtəlif vasitələrdən istifadə edərək sözləri öyrənməkdir. Məsələn: tanınmış şəxslərin adlarından istifadə edərək (Nicolas Cage/ Nicolas in cage), mürəkkəb sözlər yaratmaq üçün işlədilən sözləri öyrənmək və ya əksini etmək (teardrop\ tear + drop, pancake\ pan + cake, earrings \ ear +rings), sinonimlərini tapmaqla (angry\irritated\annoyed\offended) və bunun kimi digər üsullardan istifadə etməklə ingilis dilində bir çox sözləri öyrətmək mümkündür.

2. İngilis dilində olan qısa hekayələr oxumaq və ya maraqlı olan şəxs, əşya və digər şeylər haqqında məlumat axtarmaqla müəllim tələbələrinə yeni məlumatlar yeni söz və ifadələr öyrədə bilmək imkanı əldə etmiş olur. Burada gördüyünüz hər bir sözü tərcümə etmək tələb olunmur. Cümlələrin mənasını kontesə istinad edərək başa düşməyə çalışmalıyıq Belə ki, oxuyarkən bu sözlərlə yenidən qarşılaşdıqda tələbələrdə onların mənası haqqında daha aydın fikir yaradacaq. Əks halda, həmin sözü tərcümə etməklə mənasını öyrədə bilərik.

İstifadə olunan ədəbiyyat

1. 1.Lorena Manaj Sadiku. "The Importance of Four Skills Reading, Speaking, Writing, Listening in a Lesson Hour". nd Literature Studies. Vol. 1, No.
2. 2.Roxanne F. Complex Nature of Reading Fluency: A Multidimensional View. "Reading and Writing Quarterly" journal, 2008.
3. Hacıyev A.C. Azərbaycan ədəbiyyatının tədrisi metodikası (Ali məktəblərin filologiya fakültələrinin tələbələri üçün vəsait). Bakı, Təhsil. 2003
4. Həsənli B.A. .Ədəbiyyatın tədrisi metodikası (müzakirə mətnləri). Pedaqoji ali məktəblərin filologiya fakültələri üçün kredit təhsil sistemi üzrə dərs vəsaiti. Bakı, "Müəllim" nəşriyyatı. 2011
5. Məmmədov R.M. Ədəbiyyat təlimində şagirdlərin bədii təfəkkürünün inkişaf etdirmək yolları. Bakı, Maarif,2015

Açar sözlər: məqalə yazı oxu dinləmə danışıq üsul

Ключевые слова статья письмо чтение прослушивание говорение метод

Key words article writing reading listening speaking method

Summary

Language is a multifaceted tool that serves as a means of communication, expression, and understanding. Within the realm of language acquisition, four primary skills play a central role: speaking, listening, reading, and writing. If we want to become fluent in English, we'll need to work on all four skills: «Reading expands one's knowledge and understanding of language. It allows individuals to access a vast wealth of information, literature, and culture. Through reading, individuals can explore diverse perspectives, historical accounts, and contemporary issues.Writing is the skill that allows individuals to express their thoughts and ideas in a structured and organized manner. It serves as a means of documentation, creativity, and self-expression. In academic and professional settings, effective writing is essential for creating reports, essays, emails, and other forms of communication. It also plays a crucial role in preserving knowledge, culture, and history through the written word. Strong writing skills enable individuals to convey their thoughts with clarity and precision. Speaking with confidence will let you express your thoughts and communicate in conversations and presentations. Speaking is often considered the most critical language skill, as it directly enables human communication.

Резюме

Владение иностранным языком состоит из четырёх основных навыков: слушать, говорить, читать и писать. **Речь**. Подразумевается проговаривание не просто вслух, а в полный голос.**Чтение** - отличный инструмент расширения словарного запаса и укрепления грамматики. Умение воспринимать иностранный язык на слух — еще один важный навык. Поэтому изучение иностранного языкасодержать прослушивание аудиокниг, подкастов, музыки, просмотр фильмов и видео с субтитрами или без них. Способность свободно

выражать свои мысли на любую тему без длительного обдумывания должна стать главной целью изучения иностранных языков. *К* активным навыкам относят говорение и письмо, *к* пассивным – чтение и слушание. Часто бывает, что пассивные навыки развиты в большей степени, чем активные, то есть человек лучше понимает иностранный язык, чем общается на нём. Именно поэтому в языковых школах бóльшее внимание уделяют говорению и используют коммуникативные методики.

Rəyçi, f.f.d, .Əhmədli M.P

Аскерова Захра Талехгызы[41]

ТОПОНИМИЧЕСКИЕ КОМПОНЕНТЫ В КУЛИНАРНОЙ ТЕРМИНОЛОГИИ
(На материале русского языка)

Введение. Язык и пища — неотъемлемые компоненты культуры и социальной идентичности народа.Кулинария, как важная сфера повседневной жизни, отражается в языковой картине мира, формируя устойчивые словосочетания, метафоры и наименования, связанные с бытом, традициями и географией. Пища как культурный феномен не только объект потребления, но и источник языковой репрезентации, где каждая единица несёт историко–культурнуюинформацию, отражающую специфику региона, народа илиэпохи.

Одним из показательных примеров такой репрезентации являются топонимы в кулинарной терминологии.Топонимы — географические наименования — выполняют в языке номинативную, культурную и смысловую функции. Они служат кодами памяти, зашифровывая исторические, этнические и социокультурные смыслы.Географические названия проникают в язык под влиянием исторических контактов, торговли, миграции, культурного обмена и стремления сохранить идентичность и аутентичность рецепта. Таким образом, топоним в гастрономическом термине указывает не только на территорию, но и создаёт ассоциации, формирует ожидания и придаёт продукту особую ценность для потребителя.Языковая фиксация топонимов сохраняет связь с местом происхождения и подчёркивает эксклюзивность рецепта или традиции.

Цельисследования—выявление систематизации и анализ топономических компонентов в кулинарной терминологии русского языка с точки зрения их происхождения,функционирования и закрепления вязыке.Исследование включает следующие задачи:

• выявить и классифицировать топонимы в названиях блюд и сладостей;
• определить их семантическую роль и лингвистические особенности;
•проанализировать культурную обусловленность их появления и устойчивости.

Актуальность обусловлена интересом к междисциплинарным подходам, где пересекаются лингвистика, культурология и гастрономия.

Научная новизна — попытка систематизации и анализа топонимических компонентов в гастрономической лексике России, Азербайджана и стран Европы и Азии в русском языке.

Кулинарные термины исследовались в различных аспектах (лингвокультурологическом,этимологическом,функциональном, лексико-семантическом, прагматическом и др) [10, 12, 14]

.В настоящей же статье рассматриваются кулинарные термины,компонентами которых являются топонимические дериваты.Поскольку в рамках одной статьи охватить все термины исследуемого разряда невозможно, мы ограничимся рассмотрением лишь наиболее интересных и оригинальных, на наш взгляд, примеров. Систематизация и анализ материала будут осуществляться по тематическим разрядам с учетом географического объекта(страна,город, регион, область).

Отметим сразу, что при анализе кулинарных терминов с топонимическими компонентами важно учитывать их словообразовательнуюструктуру и морфологические особенности. В кулинарной лексике с географической маркировкой наблюдаются две основные структурные модели названий: **однословные** и **двусловные**.

Однословные названия представлены, как правило, существительными, которые в процессе языковой адаптации приобрели статус нарицательных терминов. Такие названия обычно происходят от топонимов и обозначают либо конкретные блюда, либо продукты питания или названия напитков. Примеры: *боржоми* — название минеральной воды и одноименного грузинского города; *камамбер* — сыр происходящий из региона Камамбер во Франции.*пломбир* – получившее свое название мороженное от французского города Пломбьер-ле-Бен ,где впервые было произведено в конце XVIII века ; *коньяк* - алкогольный напиток , название которого связано с французским городом Cognac. Эти слова, как правило, заимствованы из других языков.Процесс заимствования сопровождался как транслитерацией, так и фонетической адаптацией, в зависимости от степени интеграции термина в лексическую систему русского языка. Данные термины функционируют в языке как самостоятельные существительные,которые закреплены в толковых словарях.В то же время существуют примеры фонетической адаптации, отражающие особенности русской фонологии: так, итальянское *Parmigiano* стало в русском языке «пармезан».Согласно Этимологическому словарю русского языка М. Фасмера, слово «пармезан» заимствовано через французское *parmesan* с указанием на город Парма, где производится данный вид сыра [7].

Двусловные названия- наиболее частотной моделью образования устойчивых словосочетаний в русском языке является структура **«прилагательное + существительное»**, в которой прилагательное, производное от топонима, выполняет атрибутивную функцию. Такие словосочетания, как *итальянская паста,украинский борщ,тверские котлеты и венскийшницель* являются устойчивыми и широко закреплены в лексике.Модель **«существительное + существительное»** наряду с конструкцией «прилагательное + суще-

[41] *Магистрант.Бакинский государственный университет, г. Баку.email:zehraaskerovaa@gmail.com.*
10.24412/2218-7588-2025-2-143-145

ствительное» представляет собой одну из наиболее продуктивных структур в наименованиях блюд с географической маркировкой. Примеры подобных конструкций включают *салат Тбилиси, торт Прага*,торт *Апшерон, киш Лорен*. Эти наименования, как правило, являются устойчивыми, лексически закреплёнными в языке и не подвергшимися словообразовательной адаптации.Наряду с прилагательными, в некоторых кулинарных наименованиях используется структура **«существительное + наречие»(образа действия)**, характерная, а например, для выражений типа *жаркое по-азербайджански, печень по-тверски,суп по-омски,щи по-пермски,рыба по-вологодски*. Однако такая модель является менее продуктивной в сравнении с прилагательными.Полагаем, что в рамках настоящего исследования невозможно обойти стороной вопрос словообразовательного потенциала кулинарных терминов, содержащих географические наименования.Кулинарные деривaты с географическими наименованиями в языке преимущественно адаптируются посредством **аффиксального** способа словообразования, характеризующегося структурой «топоним + ^-ск/-к + слово». Например: *узбекский плов,турецкая пахлава, берлинский пончик,тайский салат.* Кроме того, широко используется **приставочно-суффиксальный** способ словообразования, представленный конструкцией «слово + по + топоним + -^ск + ^-и» например: *утка по-пекински, котлетыпо-киевски,мясо по-французски,картофель по-испански.*Помимо этого, отмечается прямая адаптация, включающая транслитерацию и фонетическую адаптацию заимствованных элементов, как было указано выше.

1.Кулинарные термины с компонентом— хоронимом (названием страны): австрийский штрудель - традиционный десерт австрийской кухни из тонко раскатанного тестас начинкой из фруктов или орехов. Его название происходит от немецкого слова «Strudel» — «водоворот», что отражает форму блюда.Штрудель появился в XVIII веке под влиянием османской кухни и стал классическим элементомавстрийской гастрономии***; азербайджанская долма*** -одно из самых изысканных и почитаемых блюд азербайджанской кухни, представляющее собой фаршированные овощи или листья винограда с начинкой из мяса, риса и специй.Этимология слова *долма* представляет собой объект пристального внимания многих лингвистов. В числе исследователей, обращавшихся к изучению происхождения этого термина, значится немецкий тюрколог Герард Клаусон, который в своём труде *«Этимологический словарь тюркских языков до XIII века»* (Oxford, 1972) связывает слово *долма* с древнетюркским глаголом *doldur*— «наполнять», «заполнять»[9]. Подобная этимологическая интерпретация подтверждает исконно тюркскую природу данной лексемы и её широкое распространение в кулинарной терминологии тюркоязычных народов; ***греческий салат***–традиционное блюдо греческой кухни, состоящее из свежих овощей, оливок и сыра фета. Сам термин *греческий салат* получилмеждународное распространение в XX веке, хотя аналогичные сочетания ингредиентов имеют древние корни, подтверждённые в античной литературе. Сыр фетаупоминается в произведениях Гомера и считается одним из самых древних видов сыра в Европе.

2.Кулинарные термины с компонентом— **астионимом (названием города)**: ***чизкейк Сан- Себастьян***- представляет собой десерт, который получил свое название в честь астионима Сан-Себастьян, расположенного в Стране Басков (Испания). Он был впервые создан в 1990-х годах в ресторане «LaViña». Этот десерт примечателен своей обожжённой верхней корочкой и мягкой, кремообразной текстурой, что делает его визуально и вкусово отличным от традиционных американских чизкейков;***торт«Киевский»*** десерт, название которого содержит астионим, указывающий на его происхождение из Киева. Этот торт разработан в 1956 году на Киевской кондитерской фабрике имени Карла Маркса, ныне известной как фабрика «Рошен»[2, 15]. Торт состоит из орехово-белковых коржей типа безе с прослойкой и отделкой масляно-заварным кремом. В 1973 году рецептура торта была запатентована, и с тех пор он стал символом кулинарной культуры Киева и получил широкое распространение на постсоветском пространстве; ***шекинская пахлава*** - одна из традиционных разновидностей азербайджанской восточной сладости, название которой связано с астионимом Шеки, где и сформировалась её оригинальная рецептура. В отличие от других региональных вариантов, она выделяется уникальной рецептурой теста, начинки и сиропа.

3.Кулинарные термины с топонимом - наименованием области и региона.

Сибирские пельмени - традиционное блюдо, распространённое в Сибири, наименование которого содержит топоним, указывающий на регион происхождения. По одной из версий, слово *пельмени* имеет финно-угорское происхождение (коми-пермяцкое *пельнянь* — «хлебное ухо»). Считается, что блюдо возникло как адаптация восточноазиатских кулинарных традиций (китайских и маньчжурских), претерпевшая трансформацию под влиянием угро-финских народов;***карабахская кята*** - разновидность традиционной азербайджанской сладкой выпечки, связанная с регионом Карабах. Представляет собой круглый пирог с начинкой из сахара, муки и сливочного масла, заключённой в тонкое слоёное тесто. Кята отличается особой технологией приготовления и символизирует гостеприимство в карабахской кухне**.**

Заключение. Проведённое нами исследование подтвердило, что кулинарные термины с топонимическим компонентом играют важную роль в формировании и функционировании кулинарной лексики русского языка.Эти наименования фиксируют культурно-географические связи, отражая происхождение, особенности рецептуры и региональные традиции тех или иных блюд.

На основе собранного материала и его лингвистического анализа можно сделать следующие выводы:

1.Проведённая классификация позволила структурировать исследуемые кулинарные единицы по видам топонимических **компонентов:хоронимы,астионимы,названия регионов и областей**

2.Термины с топонимическим компонентом демонстрируют устойчивость в языке; чаще всего имеют структуру типа **прилагательное + существительное** или **существительное + наречие** (в редких случаях встречаются однословные образования).Анализ морфемной и синтаксической структуры терминов выявил их подчинённость общим законам русской словообразовательной системы. Такие термины часто становятся устойчивыми и не подвержены трансформации даже при заимствовании в другие языки.

3. Историко-культурный аспект играет ключевую роль в мотивации и закреплении таких терминов в языке: многие блюда получили свои названия в честь местности, где были изобретены или обрели особую популярность.

4.Топонимическая составляющая кулинарных терминов — это не только указание на происхождение, но и важный элемент лингвокультурного анализа. Исследование данной группы слов позволяет глубже понять, как язык фиксирует культурные реалии, трансформируя географическое знание в знаковую систему.

Список использованной литературы

1. Буньятов К. Г., Малеев Н. М. Азербайджанская кулинария. — Баку: Логос, 1982. — 182 с.
2. Бутейкис Н. Г., Кенгис Р. П. Торт «Киевский» // Приготовление мучных кондитерских изделий. — М.: Экономика, 1969. — С. 245–246. — 302 с.
3. Даль В. И. Толковый словарь живого великорусского языка. Т. 1: А–З / В. И. Даль. — Москва: РИПОЛ классик, 2006. — 752 с.
4. Ковалёв Н. И., Куткина М. Н., Карцева Н. Я. Русская кухня. — М., 2000.
5. Ожегов С. И., Шведова Н. Ю. Толковый словарь русского языка: 80 000 слов / С. И. Ожегов, Н. Ю. Шведова. — 4-е изд., доп. — М.: Азбуковник, 1997. — 944 с.
6. Ушаков Д. Н. Толковый словарь русского языка. Т. 1: А – К / Д. Н. Ушаков. — М.: Государственное издательство иностранных и национальных словарей, 1935. — 839 с.
7. Фасмер М. Этимологический словарь русского языка. Т. 2: Е – П / пер. с нем. и доп. О. Н. Трубачёва. — М.: Прогресс, 1965. — 619 с.
8. Черных П. Я. Историко-этимологический словарь современного русского языка. Т. 1: А–П. — М.: Русский язык, 1994. — 624 с.
9. Clauson G. An Etymological Dictionary of Pre-Thirteenth-Century Turkish. — Oxford: Clarendon Press, 1972. — 988 p.
10. https://cyberleninka.ru/article/n/rol-kulinarnoy-leksiki-vo-vzaimosvyazi-kultury-i-yazyka/viewer
11. https://dic.academic.ru
12. https://elibrary.ru/download/elibrary_49121275_96720254.pdf
13. https://greekreporter.com/2025/05/04/the-ancient-greek-roots-of-feta-cheese
14. https://vital.lib.tsu.ru/vital/access/services/Download/vtls:000421473/SOURCE1
15. https://web.archive.org/web/20120215203900/http://www.kyivpost.ua/lifestyle/article/nastoyashij-kievskij-tort-legendarnoj-oshibki-ne-bylo-33943.html
16. https://www.cntraveller.com/article/true-story-behind-the-burnt-basque-cheesecake#:~:text=the%20family%20business.-,Cecilia%20Alvarez%2DHevia%20Arias,cheesecake%20heard%20around%20the%20world.
17. https://www.duden.de/rechtschreibung/Strudel

Ключевые слова: топоним, кулинарная терминология,блюдо,хороним,астионим, русский язык

Açar sözlər :toponim, kulinariya terminologiyası, xörək, horonim, astionim, rus dili

РЕЗЮМЕ

В статье систематизируются и анализируются топонимические компоненты, встречающиеся в названиях блюд ,продуктов питания и сладостей в кулинарной терминологии в русском языке . Основная цель исследования – выявление происхождения, функционирования и закрепления географических наименований в составе кулинарных терминов. В ходе анализа выявлены основные модели наименований, отражающие национальную и культурную специфику, а также лингвистическую устойчивость топонимических компонентов в гастрономической лексике.Полученные результаты способствуют более глубокому осмыслению словообразовательного потенциала топонимов, их роли в кулинарной терминологии и их значимости в отражении культурных традиций.

KULİNARİYA TERMİNOLOGİYASINDA TOPONİMİK KOMPONENTLƏR (RUS DİLİMATERİALI ƏSASINDA)

XÜLASƏ

Məqalədə rus dilində kulinariya terminologiyasında xörəklərin, qida məhsullarının və şirniyyatların adlarında təsadüf edilən toponimik komponentlər sistemləşdirilir və təhliledilir. Araşdırmanın əsas məqsədi kulinariya terminlərinin tərkibində coğrafi adların mənşəvi, istifadəolunma xüsusiyyətləri və sabitləşməsini müəyyən etməkdir. Təhlil zamanı qastronomik leksikada toponimik komponentlərin milli və mədəni özəlliklərini, o cümlədən linqvistik sabitliyini özündə əks etdirən əsas modellər aşkar edilmişdir. Əldə edilmiş nəticələr toponimlərin söz yaratma imkanlarının, onların kulinariya terminologiyasında və mədəni ənənələrin əks etdirilməsində əhəmiyyətli rolunun daha dərindən dərk olunmasına köməkedir.

RƏYŞİ: dos. L.Ələkbərova

Aytən Cəfərova [42]

FOLKLOR SIMVOLLARININ SEMANTİKASI: YAXŞI-PİS, XEYİR-ŞƏR, QARANLIQ-İŞIQLI, İSTİ-SOYUQ, ACI-ŞİRİN
(Naxçıvan folklor mətnləri əsasında)

Simvol haqqındakı araşdırmalar dövrümüzdə mübahisəli məsələlər sırasındadır. Əgər hansısa hadisə haqqında danışılırsa ki, o hadisə simvolikdir, ona xüsusi məna veririlir, eyni zamanda, bu hadisənin effektivliyinə öz-özlüyündə şübhə ilə yanaşılır. İnsan öz yaşamı boyunca çox məqamlar var ki, onları simvollar şəklində ümumiləşdirir, konkretləşdirir. Lakin bu simvollarınonların kəsb etdiyi semantika, daşıdığı məna yükü üst qatın görüntüsündən daha çox anlaşılır. Simvolluq daşıyan hər hansı əşya və hadisənin sözügedən səviyyəyə çatması onun sakrallıq qazanması ilə də ölüçülür. Sakrallıq, qədim türkcədə də qutsallıq, simvolun kəsb etdiyi əsas xarakterdir. "Sakral" sözü (latınca - sacrum) tərcümədə müqəddəs, Tanrının nəzərində olan xoş nəsnə anlamını daşıyır. Bəzən simvollar, əksinə, sakral xüsusiyyətdən tamamilə uzaq olur. Bu isə onun simvolik dəyərinə heç bir xələl gətirmir. Əşya və ya hadisənin simvol vəziyyətinə gəlməyi üçün onun əsrlərin sınağından çıxmağı, mövcud olduğu dövrün və məkanın təsirlərinə sərt reaksiya göstərərək yaşamağı vacibdir.

Məqalədə ilkin mifik simvollar kimi yaxşı-pis, xeyir-şər, qaranlıq-işıq, isti-soyuq, acı-şirin arxetiplərinin folklor mətnləri daxilində işlənmə tezliyi və daşıdıqları semantik yük aydınlaşdırılır.

Yaxşı-pis. İlkin düşüncənin məhsulu olan, tədqiqatçıların da, əsasən, arxetip adlandırdıqları yaxşı və pis, xeyir və şər, qaranlıq-işıq, isti-soyuq, acı-şirin əksilikləri folklor mətnləri içərisində əsas fikri ifadə etmək baxımından poetik konfiqurasiya qazanaraq həm də simvollaşır. Bu simvollaşma daxilində adları sadalanılan ünsürlər dərin və dolğun məlumat daşıyıcısı funksiyasına da malikdirlər. Yəni hər bir ünsür var olduğu poetik aləmdə - folklor mətnində əsas fikrin kiçildilmiş, sanki ixtisarlaşdırılmış forması olaraq elementi, simvoludur. Dünya bina olandan, yaranandan etibarən yaxşını və pisi təyin etmək üçün vuruşan, mübarizə aparan insan mütləq şəkildə ilkin – yaxşının qalibiyyətini görmək arzusunda olub. Yaxşı düşüncədir, sözdür, canlıdır. Lakin şüurun əks etdirdiyi hər düşüncə yaxşı deyildir. Danışılan, ifadə edilən hər söz yaxşı deyildir. Canlıların da heç də hamısı yaxşı deyildir. Beləliklə, düşüncəsi və sözü yaxşı olan canlı – insan yaxşıdır. Yaxşı deyildirsə, əks halda pisdir. Bütün yaxşılıqların əksi pisdir. Yaxşıya yaxın məna daşıyan xoş, gözəl, müsbət və s. kimi yaxşı tutumlu sözlərdir. Pisin isə yaxın variantı yamandır. Kəsb etdiyi məna sevilməyən, xoşagəlməyən, ədalətsizlik, zülm, nifrət, kin və s.dir. Bəzən yaman sözüçox, həddən artıq mənasında da işlənir. Bir atalar sözündə bu yanaşma müşahidə olunur: "Yaman yeyənin olsun, yaman deyənin olmasın" (Azərbaycan folkloru antologiyası. Naxçıvan folkloru: 1994, 223). Pis-yaman ekvivalenti ilkin janrlardan olan ovsun örnəklərində də simvolik məna daşıyır:

...Üzərriyim çırtdasın,
Yaman gözlər pırtdasın;
Və ya:
Səməni, ay səməni,
Göyərdərəm mən səni...
İllətilsin loğmanı,
Yamanlığın amanı (Naxçıvan folkloru. II cild: 2011, 61).

Pis sözünün ekvivalenti olan yaman sözün sehri gücünə inamı ifadə edən qarğış örnəyində öz əksini tapır: "Yaman dərdə düşəsən" (Naxçıvan folkloru. II cild: 2011, 86).

Yaxşı və pis dilin elementi, vahidi olsa da mifik təfəkkürlə sıx bağlıdır. Professor Ramazan Qafarlı dili və mifi bir-birinə qohum hesab edir və Erist Kassirerin bu haqdakı mülahizələrindən qaynaq gətirərək yazır: "Təbiidir ki, inkişafın müəyyən mərhələlərində mif dildən, dil mifdən ayrılmış, lakin qohumluqlarını müəyyən əlamətlərində ikisi də qoruyub saxlamışdır. Erist Kassirer yazır ki, bir dillə mifin ayrılma xətlərinə prospektiv deyil, retrospektiv şəkildə göz qoymalıyıq, yəni o yerə qayıtmaq lazımdır ki, hər ikisnin ayrılma xətləri öz mənbələrini oradan götürür" (Qafarlı: 2015, 96). R.Qafarlı dilin və mifin eyni konseptual forma olduğunu, qısa şəkildə onun metoforik düşüncə adlandığını deyir.

Folklor örnəklərində yaxşı və pis metoforik düşüncə vasitəsilə simvollaşdırılır. Obrazlar aləmində yaxşının və pisin dil elementlərinin təqdimatı mifin metoforik yönü ilə ifadə olunur: "Gözəl göyərçinə deyillər: - Kimin gəlinisən? – der: - Dayımın. Kəhliyə deyillər: - Kimin gəlinisən? – Xalamın. Başı yoluq qarğıya deyəllər: - Kimin gəlinisən? – deyər: - Bibimin. Der ki, dad bibi əlinnən. Xalaynan bibi gəlini yaxçı saxlamaz. Qara gün verər"(El sözü, yurd yaddaşı: 2010, 33).

Naxçıvandan toplanılmış folklor mətnlərində yaxşı və pis semantemlərinin mifoloji xaosla bağlılığı tədricən kosmosla əlaqələnməni də ifadə edir. Mifik düşüncədən qaynaqlanan yaxşı və pis semantemləri həm də ritual-mifoloji dünya modelinin qalıqlarıdır. Qədim insan təsəvvüründəki yaxşı və pis folklor mətnində poetik əhatədə cilalanmış, müəyyən qədər yeni model alaraq simvolluq qazanmışdır. Folklorik düşüncədə yaxşıya münasibət şəxsi mövqedən də yozulur. Əgər bir əşya və insan və ya məkan mənə görə uyğundur, qənaətbəxşdirsə, demək, o yaxşıdır. Yox, əgər, bir əşya və ya insan, hətta məkan mənim ruhumla uyğun deyilsə, deməli, o, pisdir. Bu baxımdan, mənimlə

[42]AMEA Naxçıvan Bölməsi fil.ü.f.d, dosent **ceferli_ayten@ mail.ru**
10.24412/2218-7588-2025-2-146-149

uyğunlaşan, hətta digərlərinin pis qəbul etdiyi mənimlə yaxşıdırsa, bu zaman xalq dilində işlənən alqış örnəyinin qaynağı da məlum olur: "Mənə dəyməyən qurdu min il yaşasın" (5).

Təqdim olunan örnəklərdə yaxşı və pis semantemləri heyvan və quş simvolik kodları daxilində gerçəkləşir. Nəticə dərin simvolika kəsb edir. Gözəl göyərçin – yaxşı baxılan, dəyələndirilən gəlin; kəklik – dərdli, qayğılı gəlin; başı yoluq qarğa – qara gün verilən gəlin və qurd - aləmə meydan oxuyan, hökmranlıq qazanandır. Prof. Seyfəddin Rzasoy insan-heyvan münasibətlərin dərin simvolika kəsb etdiyi haqda yazır: "Oğuz etnokosmosunun quş və heyvan səviyyələrində kosmoqonik təsnifata məruz qalması etnosun kosmik vahid olaraq zoomodel səviyyəsində dəyərləndirilməsi deməkdir. Bunun kosmik mahiyyətində insan-heyvan münasibətləri modeli durur..." (Rzasoy: 2009, 171).

Yaxşı-pis təzadlı ünsürü deyim faktlarına da transformasiya olunub. Aşağıdakı örnəkdə də yaxşının doğurduğu aləm kosmos aləmidir: düzənlidir, qəbulediləndir. Pisin doğurduğu isə qarışıqdır, xaosdur, sevilməyəndir: "Babalar deyərdi: Hər kəsin yaxşı arvadı var: Yatsın oynasın, dursun oynasın, yesin oynasın, işsin oynasın, toya getməsin, toy evindədi. Hər kəsin pis arvadı var: Yatsın ağlasın, dursun ağlasın, yesin ağlasın, işsin ağlasın, yasa getməsin, yas evindədi"(El sözü, yurd yaddaşı: 2010, 32).

Yaxşı ədalətin, sülhün, hümanizmin, onun əksi olan pis neqativin, xoşagəlməyənin, zülmün simvolu kimi nağıl örnəklərində də yer alır. "Səxavətli çoban" (Azərbaycan folkloru antologiyası. Naxçıvan folkloru: 1994, 134)mətnində ölkəni ədalətlə, sevgi ilə idarə edən Şah Abbas obrazı yaxşının real nümunəsidir. Onun əksi olan Qara vəzir isə qəddar, camaata göz verib, işıq verməyən, onların son tikəsinə belə göz dikən, zülmü ərşə dayanan obraz kimi pisin ən gerçək təqdimidir.

Folklor örnəklərində yaxşı-yaman əksliyinin təyin etdiyi elementlər də ən azı bu təyiniedicilər qədər simvolikdir. Məsələn: yaxşı arvad, yaxşı at, yaxşı bez, yaman arvad, yaman at, pis bez və s.

Yaxşı at qamçı yeməz;
Yaxşı bez arşınsız olmaz;
Yaxşını yada vermək olmaz – hayıfdı,
Pisi də vermək olmaz – ayıbdı (Azərbaycan folkloru antologiyası. Naxçıvan folkloru: 1994, 225).

Yaxşı söz – pis söz ifadələri də folklor mətnlərində simvolik məna daşıyır. Obrazların yaxşı sözü satmaqla yaxşılığı təbliğ etməyi, pis sözlə pis vərdişin yaranmağı kimi məqamlar həmin mətnlərin əsas ideyasını təşkil edir. "Birinə yüz tümən, birinə yüz çubuq"(Azərbaycan folkloru antologiyası. Naxçıvan folkloru: 1994, 249) gülməcə mətnində yaxşı söz söyləməyin vərdiş halı alması insanın xarakterinin də yaxşı yönə istiqamətlənməsi ideyasını ifadə edir. "Arvadı əri saxlar" (Azərbaycan folkloru antologiyası. Naxçıvan folkloru: 1994, 230)ibrətamiz xarakterli mətndə isə pis yola düşmək, pis vərdişlər qazanmaq, pis öyrənmək pis təlqinlərin, düzgün olmayan tərbiyənin nəticəsi olaraq təqdim edilir.

Xeyir-şər. Hadisənin müqəddəs olanla əlaqəsi xeyir, demonik, ziyanverən olanla əlaqəsi isə şərdir. Mifik təfəkkürdən qaynaqlanan mövsüm və məişət mərasimləri zamanı icra edilən ritualın arxasında, əsasında xeyiri arzulama, şərdən qorunma məqsədi, istəyi dayanır. Xeyir arzulama nitq etiketləri içərisində aktiv işlənən ifadələrdə də aydın təqdim olunur: "Sabahınız xeyir!", "Axşamınız xeyir!", "Gecəniz xeyrə qalsın!", "Allah xeyir versin!" və s. Sözün sehri gücünə inamı xarakterizə edən alqış örnəklərində də xeyir-şər mübarizəsi ilə bağlı mifik təfəkkürdən doğan inancın izləri qorunmaqdadır: "Sağ canın xeyrin görəsən"; "Şər üzü görmüyəsən" (Naxçıvan folkloru. II cild: 2011, 82). Sözün sehri gücü alqışlarla yanaşı qarğışlarda öz poetik ifadəsini tapır. Ən yaxşı alqış-qarğış örnəyi kimi lirik növün janrlarından olan bayatı şəkilli alqış, eləcə də qarğış örnəklərində də xeyir-şər mübarizəsi düşüncəsinin izləri müşahidə olunur. Əgər alqış örnəklərində xeyir arzulanırsa, qarğış örnəyində də, tam əksinə, şər arzulanır:

Mən aşiq, şərə düşsün,
Namərdi şərə düşsün.
Göz yaşın selə dönsün,
Üzünnən dərə düşsün (Naxçıvan folkloru. II cild: 2011, 85).

Xeyri arzulamaqla yanaşı onu qorumaq, onun varlığına xələl gətirənləri qadağa "siyahısına" salmaqla qədim insan yenə də xeyir və şərin mübarizəsi ilə bağlı düşüncəsini ifadə etmiş olub və bu düşüncə inanc örnəyi şəklində bu gün formalaşıb: "Ahunu öldürən xeyir görməz" (Naxçıvan folkloru. II cild: 2011, 30). Deməli, xeyirdən uzaq qalmamaq üçün məhz şərdən uzaq durmaq mütləqdir. Ahunu öldürən – şər simvolunun "siyahısında yer alandır". Ahunu qorumaq isə xeyiri əldə etmək deməkdir.

Naxçıvandan toplanmış "Şahzadə Bəndalı" nağıl mətnində şahın – atanın qızı Gülgəzi Bəndalıya verərkən ata duasını məhz xeyir arzulamaqla ümumiləşdirir: " – Oğlum, bizdə qız evi toy eləmir. Get, Allah xeyir versin!" (Azərbaycan folkloru antologiyası. Naxçıvan folkloru: 1994, 110). Xeyir və şərin mübarizəsi mif mətnləri ilə yanaşı nağıl mətnlərində də ön plandadır. Ərazinin folklor mühitinə məxsus olan "Qardaşlar" (Azərbaycan folkloru antologiyası. Naxçıvan folkloru: 1994, 184)nağıl mətnində xeyir və şər qardaşlar və quldurlar statusunda, "Sehrli üzük" (Azərbaycan folkloru antologiyası. Naxçıvan folkloru: 1994, 211)nağıl mətnində isə Məhəmməd-Fatma və qarı-lotu statuslarında təqdim olunur. Hər iki mətndə bəşəriyyətin əbədi arzusu olan xeyirin qələbəsi müşahidə olunur.

İşıq-qaranlıq. "Dünyada işıq (günəş, od, ocaq) qədər geniş işlənən ikinci arxetipik simvola təsadüf olunmur – müəyyən zehni, ruhi və mənəvi keyfiyyətləri dildə ifadə edəndə həmişə köməyə çatır. Hətta müasir xalqların, o cümlədən, Azərbaycan türklərinin danışığında onlarla sözə, ifadəyə, frazeoloji vahidə rast gəlirik ki, "işıq" metaforik, mifopoetik obrazından törəmişdir: işıq üzü görmək, aydın danışmaq, aydınlaşmaq, işıq saçmaq, parlaq olmaq, göz

qamaşdırmaq, gözün nuru, alovlanmaq və s. təsadüfi deyildir ki, təsəvvürdə canlandırılan bütün müqəddəs varlıqlar işıqla, nurla əlaqələndirilir. İlahi aləmin sakinləri həmişə işıq vasitəsilə yerə enirlər. Və işığın ilk ağla gələn funksiyası xilaskarlığıdır. Qaranlıqda şər ruhların çevrəsində qalan ulu əcdad yalnız havanın işıqlanması ilə onlardan yaxa qurtarmağı bacarmışdır..."(Qafarlı: 2015, 118).

Folklor obrazlarının qaranlıqla mübarizə apararaq işıqlı dünyaya çıxması nağıl mətnlərində tam şəkildə aydın təsvir olunur. Məşhur "Məlikməmməd" nağılında işıqlı dünya ilə qaranlıq dünya motivləri elə xeyirlə şərin mübarizəsi fonunda baş verir. Naxçıvandan toplanmış nağıl mətnlərində də bu, belədir. "İynədan" (Azərbaycan folkloru antologiyası. Naxçıvan folkloru: 1994, 131)nağıl mətnində gözlərinin nuru – işığı ilə sevilən qızın əlindən şər qüvvələr həmin gözləri alır, o, qaranlığa məhkum edilir. Lakin qaranlıqda yaşayarkən də daxili nurundan – işığından məhrum olmayanxeyirxah qız işıqlı dünyasına, gözlərinə qovuşur. Qaranlıq – xaosun, işıq isə - kosmosun rəmzi olmaqla yanaşı,mətndə itmə, yox olma, ölüm və yenidən yaranma, dirilmə modelinin də simvoludur. Qaranlığın ekvivalenti olan, şər qarışan zaman edilməsi qadağa sayılan məqamlar da qaranlığa qarşı mübarizə düşüncəsindən qaynaqlanır: "Şər qarışanda qonşuya suya getməzlər" (Naxçıvan folkloru. II cild: 2011, 26). Qaranlıqla mübarizə həm də işığı arzulamaqla icra olunub. İlkin janr örnəklərindən birində də bu, öz ifadəsini tapır: "Səməni, can səməni, Gözlərimə işıq ver, İşıq ver, yaraşıq ver" (Naxçıvan folkloru. II cild: 2011, 61). İşığı qorumaq onun həm də ilkin düşüncədə kult səviyyəsində olduğunu təsdiqləyir. Və bu da işığın qutsallığının and səviyyəsinə qovuşmasını şərtləndirir: "İşığa and olsun" (Naxçıvan folkloru. II cild: 2011, 80).

"Çalıb-çağıran ağac" (Azərbaycan folkloru antologiyası. Naxçıvan folkloru: 1994, 151)nağıl mətnində də işığın digər bir kontaminasiyası, işıq içində işıq olan yanar şamdandır. Bu şamdanın işığı, nuru otağın sakral mahiyyətini daha da artırır, çoxaldır. Öz bəxtini axtaran qəhrəman daxil olduğu otaqda nazənin sənəmin hər tərəfində yanan qızıl şamdan görür. Buradakı şamdanlar işıq arxetipinin digər ifadəsidir.

"Abdulla ilə Mehriban Sultan" nağıl mətnində qəhrəmanın – Abdullanın gün işığını əldə etməyə çalışması motivinin əslində də ilkin mifopoetikadakı işıqla qaranlığın, xeyirlə şərin mübarizəsi düşüncəsi dayanır. Uşaq çağlarından qaranlıq otaqda saxlanılan, böyüyən Abdullanın aydınlanması, bilgilənməsi də məhz həmin qaranlıq otaqda icra olunurdu. Lakin Abdulla əsl işığın məhz işıqlı dünyada əldə etməyin mümkün olduğunu sübut edir. Abdullanın işıq uğrundakı ilkin mübarizəsi mətndə belə təsvir olunur: "...Bir gün necə olursa, qapı açıq qalanda otağa gün işığı düşür. Abdulla durub nə qədər eləyirsə, işığı tuta bilmir. Mollası gəlib görür ki, oğlan özünü ora-bura çırpıb əldən salır...Molla başa düşür ki, Abdulla gün işığı ilə əlləşir. Molla deyir: - Oğul, o gün işığıdı, niyə özünü həlak edirsən? Abdulla deyir: - Gün işığı nədi? Molla başa salır ki, hər yer sənin otağın kimi deyil. Ay var, gün var, gözəl ölkələr, vilayətlər var. Şah baban səni tapşırıqla qaranlıqda saxladıb..." (Azərbaycan folkloru antologiyası. Naxçıvan folkloru: 1994, 173). Mətndən də göründüyü kimi, işıqsız dünya dərkolunmaz, qəbulolunmazdır. Qaranlığın qənimi olan işığı ancaq ondan uzaq saxlamaqla qorumaq olar. Bir-birinə zidd, qənim olan bu iki ünsür – işıq və qaranlıq həm də daimi mübarizədədir.

İşıq-qaranlıq mübarizəsinin simvolik səviyyəsi əfsanə mətnlərindən də yan keçməyib. "Buxkar piri" (Naxçıvan folkloru. II cild: 2011, 72) adlı bir əfsanə mətnində də qələbəni əldə etmək üçün işığın vacibliyi əsas şərt kimi qəbul edilir. Yeni həyat, yeni məskən arzusu ilə səyahətə çıxan xan öz ordusuna əmr edir ki, qaranlıq düşməmiş hər tərəfdə tonqal qalansın və tonqallar da səhərə kimi yansın. Mifopoetik düşüncədə işığı xilaskar hesab edən qədim insan qaranlığa qalib gəlməyi işığı qorumağın, onu əbədiləşdirməyin vacib olduğunda görüb.

İsti-soyuq. Digər ilkin arxetiplər kimi isti və soyuq arxetipik ünsürləri qədim insanın işıq-qaranlıq düşüncəsi ilə üst-üstə düşüb. İstini arzulama işığı sevmək arzusundan, soyuqdan qorunma qaranlıqla mübarizə düşüncəsindən qaynaqlanır. "İlyasın tapılması" (Naxçıvan folkloru. II cild: 2011, 41)mif mətnində bu mübarizə öz poetik ifadəsini tapır. Qışın soyuğundan donan İlyas yazda günün istisindən cana gəlir, bədəni qızır, yeni həyata qovuşur.

Acı-şirin. Acı və şirin arxetipləri də folklor mətnlərində simvolik məna daşıyır. Lakin digər arxetipik ünsürlərlə müqayisədə Naxçıvan folklor örnəkləri daxilində acı-şirin ünsürləri çox zəifdir. "Ağzım acıdı" (Azərbaycan folkloru antologiyası. Naxçıvan folkloru: 1994, 247)folklor mətnində acı simvolik mövqedə işlənib. Belə ki, evinə oğru-quldur girən qarı ev əhlini qorxutmadan oyatmaq məqsədilə "ağzım acıdı" deyərək əsas fikrini ifadə edir.

Şirin ünsürünün simvolik mövqeyi isə məişət mərasimləri zamanı daha aydın görünür. Ağızı şirin etmək, şirin söz söyləmək, şirin-şirin yatmaq ifadələri də elə şirinin simvol kimi ilkin təzahürləridir. Ordubadda oğlan toyundan sonrakı ilk şənbədə keçirilən mərasim el arasında "Şənbi şirnisi" adlanır. Bu zaman süfrədə ancaq şirniyyatdan ibarət nemətlər olur. Eləcə də elçilik zamanı qızın "hə"sini almaq mərasimi baş tutarsa, şirin çay süfrəyə gətirilir və şirin çayı da məhz qızın qardaşı süfrəyə gətirir. Şirin çay baş tutan mətləbin ilkin ifadəsidir.

Araşdırma, ilkin mifik simvollar olan yaxşı-pis, isti-soyuq, işıq-qaranlıq, acı-şirin arxetiplərinin Naxçıvan folklor örnəkləri əsasında aparıldı. Məlum oldu ki, bu ünsürlərin köklü semantika daşıması onların daha qədim mifoloji təsəvvürlərdən qaynaqlandığını sübut edir. İlkin mifoloji elementlər kimi bu ünsürlərin bəzilərinin daşıdığı məna yükü dünyanın qədim mifoloji düşüncələri ilə üst-üstə də düşür. Eləcə də bu arxetiplərin müasir günün tələbləri əsasında da dəyişikliklərə məruz qaldığı və bundan sonra da qalacağı danılmazdır. Lakin bütün bunlara baxmayaraq, sözügedən arxetiplərin ifadə etdiyi mənalar Naxçıvan ərazisinin qədim kökə malik əhalisi tərəfindən yaradılmış folklor mətnləri daxilində öz ilkin simvolik formulasını itirmir, əksinə daha da təkmilləşdirilmiş şəkildə yaşayır. Bu simvolika, əsasən, qədim türkün ilkin psixoloji və fəlsəfi düşüncəsindən qaynaqlanmışdır.

ƏDƏBİYYAT:

1. Azərbaycan folkloru antologiyası. Naxçıvan folkloru. Bakı. - Sabah, - 1994, - 388 s.

2. Azərbaycan folkloru antologiyası. XXIII say. Naxçıvan örnəkləri. 2-ci cild. Bakı. - 2012, - Elm və təhsil, - 332 s.
3. El sözü, yurd yaddaşı. Folklor toplusu. Bakı. - Elm, - 2010, - 168 s.
4. Qafarlı R. Mifologiya. Mifogenez: rekonstruksiya, struktur, poetika. 6 cilddə. I cild. Bakı. - Elm və təhsil, - 2015, - 454 s.
5. Mənbə verilməyənlər müəllifin şəxsi arxivindəndir.
6. Naxçıvan folkloru. II cild. Naxçıvan.- Əcəmi, - 2011, - 496 s.
7. Rzasoy S. Oğuz mifologiyası. Bakı. – Nurlan, - 2009, - 363 s.
8. Şərur folklor örnəkləri. I kitab. Bakı. - Elm və təhsil, - 2016, - 348 s.

Açar sözlər: simvol, sakral, qədim türk, folklor mətnləri, yaxşı-pis, işıq-qaranlıq, isti-soyuq, acı-şirin

SEMANTICS OF FOLKLORE SYMBOLS: GOOD-BAD, GOOD-EVIL, DARK-LIGHT, HOT-COLD, Bitter-Sweet (based on Nakhchivan folklore texts)

Summary

Research on symbols is one of the controversial issues in our time. If it is said about some event that it is symbolic, it is given a special meaning, but at the same time, the effectiveness of this event is questioned in itself. There are many moments throughout a person's life that are generalized and concretized in the form of symbols. However, the semantics they acquire, the meaning they carry is understood more than the appearance of the upper layer of symbols. The achievement of the aforementioned level of any object and event that carries symbolism is also confirmed by its acquisition of sacredness. Sacredness, or in ancient Turkic, holiness, is the main characteristic that a symbol acquires. The word "sacral" (Latin - sacrum) in translation means a sacred, pleasing object in the eyes of God. Sometimes symbols, on the contrary, are completely devoid of sacred properties. This does not harm their symbolic value. In order for an object or event to become a symbol, it is important for it to stand the test of centuries and to live up to the influences of the time and place in which it exists.

The article clarifies the frequency of use of the archetypes of good-bad, good-evil, dark-light, hot-cold, bitter-sweet as primary mythical symbols within folklore texts and the semantics they carry.

Keywords: symbol, sacred, ancient Turkic, folklore texts, good-bad, light-dark, hot-cold, bitter-sweet

СЕМАНТИКА ФОЛЬКЛОРНЫХ СИМВОЛОВ: ХОРОШИЙ-ПЛОХОЙ, ДОБРО-ЗЛОЙ, ТЕМНЫЙ-СВЕТЛЫЙ, ЖАРКИЙ-ХОЛОДНЫЙ, ГОРЬКИЙ-СЛАДКИЙ (на материале фольклорных текстов Нахчывана)

Резюме

Исследования символов являются одними из самых спорных тем нашего времени. Если событие называется символическим, ему придается особое значение, но в то же время ставится под сомнение эффективность самого этого события. В жизни человека есть множество моментов, которые обобщены и конкретизированы в форме символов. Однако семантика, которую они приобретают, смысл, который они несут, более понятен, чем внешний вид верхнего слоя символов. Достижение вышеупомянутого уровня любого символического объекта или события также знаменуется приобретением им сакральности. Сакральность, или по-древнетюркски — святость, является главной характеристикой символа. Слово «сакральный» (лат. sacrum) переводится как нечто святое, угодное в глазах Бога. Иногда, наоборот, символы полностью лишены сакрального характера. Это не умаляет его символической ценности. Чтобы объект или событие стали символом, важно, чтобы они выдержали испытание временем и пережили воздействие времени и места, в котором они существуют.

В статье выясняется частота использования таких архетипов, как хороший-плохой, добро-злой, темный-светлый, горячий-холодный, горький-сладкий, в качестве основных мифических символов в фольклорных текстах и семантика, которую они несут.

Ключевые слова: символ, сакральный, древнетюркский, фольклорные тексты, хороший-плохой, светлый-темный, горячий-холодный, горький-сладкий

RƏYÇİ: T.Cəfərli

Gülxani (Pənah) Vaqif qızı Şükürova [43]

İSA HƏBİBBƏYLİ: CİNGİZ AYTMATOV "DÜHASI"

İsa Həbibbəylinin tədqiqatlarında Şingiz Aytmatov yaradıcılığı, onun türk dünyasının böyük şəxsiyyəti kimi böyük istedadı mühüm yer tutur.

"Qəzetçi Dzyüyo", "Aşim", "Baydamtal çayında", "Ağ yağış", "Rəqiblər", "Üz-üzə", "Cəmilə", "Qırmızı yaylıqlı qovağım mənim", "Köşək gözü", "İlk müəllim", "Ana tarla", "Əlvida Gülsarı", "Dağlar çökəndə" kimi onlarla povest və hekayələrin müəllifi Çingiz Aytmatovun həyat və yaradıcılığı ədəbiyyatşünaslarımız tərəfindən təhlil və tədqiqatını tapmışdır. Bu cəhətdən akademik İsa Həbibbəylinin araşdırmaları da diqqəti çəkir.

2006-cı ildə yazılmış "Əbədi gəlin" və ya "Dağlar çökəndə" romanının "ədibi bütün yaradıcılıq yolu boyu onu düşündürən problemlərin ümumiləşmiş bədii ifadəsi masştabında Çingiz Aytmatov dühası"nı tamamladığını yazır, onun böyük sənət dünyasındakı "əbədilik möhürü", "Kassandra damğası" romanında bəşəriyyətə etdiyi xəbərdarlıqdan sonra "dünyanın gəlib çatacağı son dayanacağı təqdim edən möhtəşəm yekun"u kimi qiymətləndirir.

Çingiz Aytmatovun əsərlərini "geniş coğrafiyaya yayılmış türk xalqlarının ortaq taleyinin uğurlu ədəbi təqdimatı", insanlığın, planetin problemlərini əks etdirmək və çıxış yolları göstərmək mənasında" dünya ədəbiyyatının zəngin mənəvi xəzinəsi kimi qiymətləndirir. Kiçik qırğız aulundan dünyaya parlayan böyük ədəbiyyat günəşi Çingiz Aytmatovun zəngin yaradıcılığı milli ədəbiyyatın möhtəşəm təqdimatı olmaqla yanaşı, dünya ədəbiyyatında da yeni bir zirvə yaratması, UNESCO-nun statistikasına əsasən, əsərlərinin 170-dən çox xarici dilə tərcümə olunub və yüz milyonlarla tirajla nəşr edilməsi statistikası yazıçının dünya ədəbiyyatındakı mövqeyini ifadə edən və onun ciddi faktdır.

Akademik İ.Həbibbəyli türk dünyasının böyük sənətkarının Azərbaycanla əlaqəsini araşdırır. "Çingiz Aytmatov və Azərbaycan" məsələsinin "özündə çoxcəhətli mətləbləri ifadə edən əhəmiyyətli bir mövzu" olduğunu qeyd edən alim ilk növbədə vurğulayır ki, Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin böyük ümumiləşdirmə əsasında deyilmiş ("Dünya ədəbiyyatı xəzinəsinə gözəl əsərlər bəxş etmiş Çingiz Aytmatov həm Qırğızıstanın, həm də bütün türk dünyasının fəxridir") fikirlərində Çingiz Aytmatov sənətinin yeri və mahiyyəti dahiyanə şəkildə ifadə olunmuş, xalqımızın bu qüdrətli sənətkara münasibəti öz əksini tapmışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 25 fevral 2008-ci ildə dünya şöhrətli yazıçı Çingiz Aytmatovu "Dostluq" ordeni ilə təltif etməsi və bu böyük yazıçı haqqındakı müdrik fikirlərini "Siz həmişə, bütün dövrlərdə Azərbaycanın dostu olmusunuz. Bu, sovet dövründə də belə olub, ...müstəqillik dövründə də... Çətin anlarda siz həmişə ədalətin, sülhün, əməkdaşlığın tərəfdarı kimi öz qətiyyətli sözünüzü demisiniz" bütövlükdə bu böyük söz ustadına, onun ölməz sənətinə Azərbaycanda dövlət səviyyəsində verilmiş dəyərin ifadəsi kimi yüksək qiymətləndirir. Azərbaycanda dəfələrlə qonaq olmuş Çingiz Aytmatovun Azərbaycan ədəbiyyatı və mədəniyyəti haqqında qiymətli fikirlərini diqqətə çatdırır. Onun böyük demokrat yazıçı Cəlil Məmmədquluzadənin "dünya ədəbiyyatındakı yeri və yaradıcılığındakı novatorluq barəsində 1967-ci ildə dediyi fikirləri ("Müasir dövrdə milli ədəbiyyatların, xüsusən də bədii nəsrin inkişafında C.Məmmədquluzadə yaradıcılığının əhəmiyyətini dəyərləndirməmək mümkün deyildir. O, türk xalqları ədəbiyyatında realist nəsr məktəbinin əsasını qoymuşdur. Böyük sənətkar həm də alovlu satirik, mükəmməl ruhlu yazıçı və sosioloq kimi də çıxış edir. O, bütün hallarda yeniləşməyə nail ola bilmişdir") yazıçı təəssüratından çox, mütəfəkkir bir şəxsiyyətin dərin düşüncəsinin məhsulu kimi dəyərləndirir.

Cəlil Məmmədquluzadə ilə Çingiz Aytmatov yaradıcılığının müqayisəli təhlilini verən İsa Həbibbəyli Cəlil Məmmədquluzadənin "Ölülər" tragikomediyasının Çingiz Aytmatovun manqurtlaşma fəlsəfəsinin möhkəm bünövrəsini təşkil etdiyini, "Dəli yığıncağı" pyesi də, Çingiz Aytmatovun "Əsrə bərabər gün" romanı da mövcud cəmiyyətdəki ədalətsizlikləri, xaosu, çaşqınlığı dərin mahiyyəti ilə birlikdə əks etdirdiyini, Cəlil Məmmədquluzadənin "Danabaş kəndinin əhvalatları" povestindəki ürəyinin hökmü ilə yaşamaq uğrunda mübarizə aparan Zeynəb obrazının Çingiz Aytmatovun Cəmiləsinin böyük bacısı təsiri bağışladığını, Çingiz Aytmatovun əsərlərindəki "kiçik insanlar"ın hamısında Novruzəli saflığı, usta Zeynal ayıqlığı, Məhəmmədhəsən əmi bütövlüyü olduğunu, Cəlil Məmmədquluzadənin yaradıcılığında da və Çingiz Aytmatovun əsərlərində də "kiçik adam"ın geniş miqyasda xalq mənası daşıdığını söyləyir: "XX əsrin əvvəllərində Cəlil Məmmədquluzadənin yaşayıb-yaratdığı dövrdə çar Rusiyası rejimi, həmin vüzillivin sonrakı mərhələlərində isə totalitar kommunist ideologiyası kiçik adamı cəmiyyətin böyük adamı səviyyəsinə yüksəlməyə imkan yaratmamışdır. Xalqların adi, sadə, qabiliyyətli, dərin mənəviyyata malik insanlarının yaşadıqları cəmiyyətin, mənsub olduğu xalqın, vətəndaşı olduğu məmləkətin əsas təmsilcisi, qurucusu və rəhbəri olması uğrunda mübarizə aparmağı mənasında Cəlil Məmmədquluzadə və Çingiz Aytmatovun sənət idealları qoşa zirvələrdə qərar tutur. Bu böyük sənətkarlar öz xalqlarının həyatından alıb təsvir etdikləri bədii obrazları, həmçinin digər xalqların eyni taleyə malik insanlarının həyatı və ümidlərinin ifadəsi səviyyəsinə qaldırmaq missiyasını uğurla həyata keçirmişlər" (1).

Çingiz Aytmatovun Azərbaycan yazıcılarından M.F.Axundzadə, Səməd Vurğun, Rəsul Rza, İmran Qasımov, Bəxtiyar Vahabzadə, Anar, Hidayət, Hüseynbala Mirələmov, Sahmar Əkbərzadə, Sabir Rüstəmxanlı və başqalarının yaradıcılığına verdiyi yüksək qiymət Azərbaycan ədəbiyyatında gedən mühüm dəyişikliklərin fonunda yaranan

[43] Azərbaycan Memarlıq və İnşaat Universiteti, Azərbaycan dili və pedaqogika kafedrasının müəllimi, filologiya üzrə elmlər doktoru, dosent
gulxani@outlook.com
10.24412/2218-7588-2025-2-150-153

böyük ədəbiyyatın obyektiv səkildə dəyərləndirilməsi ilə yanaşı, həm də ədəbiyyatımızın geniş miqyasda təqdim olunmasına da xidmət etdivini, Cingiz Aytmatovla "qürur" duyduğumuzu (Anar), dünya söhrətli Azərbaycan bəstəkarı Qara Qarayevlə yaxından ünsiyyət saxladığı, onunla böyük sənət haqqında fikir mübadiləsi apardığı qeyd edilir. Onun Qara Qarayevi "dünyada baş verən qeyri-insani hərəkətlərə–müdafiəsiz insanların nahaq qanının axıdılmasına, onlara əzab və işgəncə verilməsinə heç zaman biganə qalmayan əsl sənətkar" kimi yüksək qiymətləndirdiyini göstərir.

Çingiz Aytmatovun Moskvada Maksim Qorki adına Ədəbiyyat İnstitutunda birlikdə təhsil aldıqları yazıçı İmran Qasımovla məslək dostluğunu, Moskvada və ya Qırğızıstanda onunla gündəlik sıx əlaqədə olan müasirlərindən fərqli olaraq, çox uzaq məsafədə–Bakıda yaşayan, ara-sıra ümumittifaq tədbirlərində görüşdüyü və məktublaşdığı İmran Qasımovla daha dərindən ünsiyyət saxladığı və onunla çox ciddi ictimai-mənəvi mətləbləri bölüşdüyü vurğulanır: "Çingiz Aytmatovun Bakıya İmran Qasımova göndərdiyi 4 yanvar 1964-cü il tarixli məktubda "dəhşətli tənhalıq dəqiqələrində" yaşadığı hissləri və düşüncələri onunla bölüşməyə ciddi ehtiyac duyduğunu xüsusi olaraq qeyd etmişdir. Məktubdakı "səndən gizlədəsi heç nəyim yoxdur. Əksinə, çox sadam ki, öz düşüncələrimi sənինlə açıq bölüşə bilirəm. Hər adama ürəyini boşaltmaq olmaz" – sözləri Çingiz Aytmatov–İmran Qasımov dostluğunun böyük etibarın əsl nümunəsi olduğunu göstərir"(1).

1978-ci ildə Çingiz Aytmatovun İmran Qasımova ünvanladığı məktubdakı fikirləri ("Sənə əziz dostum", – deyə müraciət edərək, düzü, aralarda işləndikcə ucuzlaşan bu sözlərə görə daxilən narahatçılıq keçirirəm. Xüsusən indiki zamanədə geniş təmaslar dövründə elə hər gələni "Əziz dost" adlandırmaq ümumi qaydaya çevrilib. Sən isə mənimçün sözün əsl mənasında, həqiqətən dostsan! Əsl dostsan! Çünki bunun ciddi, zamanla təsdiqlənmiş əsası vardır ...İmran, sənin müdrikliyin, heyrətamiz dostluq kultun sayəsində mən həqiqi dostluq haqqında bu qənaətə gəlmişəm") xatırladır, İ.Həbibbəyli "böyük etibarın, qarşılıqlı dərin mənəvi ehtiyacın əsl nümunəsi olan Çingiz Aytmatov–İmran Qasımov dostluq münasibətlərini "Əsrə bərabər gün" romanındakı Boranlı Yedigey və Qazanqapın dostluğu ilə müqayisə etmək olar", – deyir.

Azərbaycanı çox sevən Çingiz Aytmatovun Bakıya səfərləri olub. 1985-ci ildə həyat yoldaşı Məryəm xanımla Bakıya gəlmiş Çingiz Aytmatov Bəxtiyar Vahabzadənin yubileylərindəki çıxışında həyat və yaradıcılığından ətraflı bəhs etməklə, onu türk dünyasının, türkdilli ədəbiyyatın aparıcı simalarından biri kimi yüksək qiymətləndirib. Çingiz Aytmatov xatirələrində yazır: "...Dünyada ad çıxaran çox şair var. Qəzet və jurnalları vərəqlədikcə görürsən ki, əsl şair azdır. Tək-tənha qalanda, bir neçə kəlmə ilə "Həyat nədir?" sualına cavab axtaranda yalnız sözü fikirdən, obrazdan, ruh və nəfəsdən yoğrulmuş həqiqi şairlər sənin yaşamaq eşqinə, düşüncələrinə qol-qanad verir. Müasirimiz Bəxtiyar Vahabzadə belə şairlərdəndir…". İsa Həbibbəyli Çingiz Aytmatovun yaxın dostluq etdiyi xalq şairi Bəxtiyar Vahabzadə ilə münasibətlərinin böyük maraq doğurduğu, iki böyük sənətkarın dostluğunun təməlində "əsərlərindəki böyük vətəndaşlıq cəsarəti, millilik amili və bəşərilik meyarları" dayandığı, Bəxtiyar Vahabzadənin 2004-cü ildə nəşr olunmuş ikicildlik "Seçilmiş əsərləri"nə ön söz yazdığı, buradakı mülahizələri ("Bəxtiyar Vahabzadənin poetik təfəkkür mədəniyyəti təbiətcə millidir. ...Bununla yanaşı, Bəxtiyar Vahabzadənin poetik təfəkkür mədəniyyəti daha üstün mahiyyət kəsb edir və millilikdən ümumbəşəri səviyyəyə qalxır. ...Bəxtiyar Vahabzadə öz möhtəşəm poeziya məbədini ucaltmaqdadır. O qüdrətlidir. Bu məbədi ucaldan əllər mahir və qadir əllərdir") B.Vahabzadənin ölməz sənətinə Çingiz Aytmatov səviyyəsində verilmiş yüksək qiymət bilir.

Xalq şairi Bəxtiyar Vahabzadə də müxtəlif vaxtlarda Ç.Aytmatovun sənəti və şəxsiyyəti haqqında öz fikirlərini bildirmiş, həmin sənətkarların ədəbiyyata baxışlarındakı ümumi cəhətlərdən çox, onların yaradıcılıqlarının ideya-sənətkarlıq, millilik və bəşərilik baxımından yaxınlıq və doğmalığı qabardılmışdır, "qan qardaşı" adlandırdığı Çingiz Aytmatov haqqındakı fikirləri ("Aytmatov hər şeydən öncə mənim qan qardaşımdır. O, qırğız torpağının əli qələm tutan Batır Manası olmaqla yanaşı, həm də böyük türk dünyasının üzünü ağ edən XX əsrin klassikidir... Aytmatov qələminin sehri, əcazı dünya ədəbiyyatına misilsiz incilər bəxş edib... Çingiz Aytmatov mənim üçün yaş həddinə sığmayan, əsərləri ilə çoxdan əbədiyyətə qovuşan sənət cəngavəridir"), Azərbaycan Milli Akademik Dram Teatrının səhnəsində uğurlu tamaşaya qovulmuş "Özümüzü kəsən qılınc" əsərinə baxmış, onu çox təsirləndirən bu tamaşaya yüksək qiymət verdivi qeyd edilir.

Akademik İsa Həbibbəyli Cingiz Aytmatovun xalq yazıcısı Anarla münasibətlərini də "böyük sənətin qarşılıqlı dialoqu kimi cəlbedici və əhəmiyyətli" bilir. 19 oktyabr 2018-ci ildə Səməd Vurğun adına Azərbaycan Dövlət Rus Dram Teatrında Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun dəstəyi ilə Qırğızıstan SSR-nin Xalq yazıcısı, Qazaxıstanın Xalq yazıcısı, Qırğız Respublikasının Qəhrəmanı, Qırğızıstan SSR Elmlər Akademiyasının akademiki, Sosialist Əməyi Qəhrəmanı, Lenin və SSRİ-nin üç Dövlət Mükafatı Laureatı Cingiz Aytmatovun "Cəmilə" povesti əsasında qırğız dilində tamaşanın baxışı zamanı Anar Cingiz Aytmatovla bağlı xatirələrini bölüsərkən bildirir ki, Cingizin uşaqlıq və yeniyetməlik illəri ağır keçib, onun atası Stalin repressiyalarının qurbanı olub. Bu, yazıçının yaradıcılığına da təsirsiz ötüşməyib, onun mənəvi dəyərlərin ön planda olduğu bütün əsərləri oxucuda dərin təəssürat doğurur. Biz Cingiz Terekulovlə Bakıda, Biskekdə, Ankarada və digər şəhərlərdə dəfələrlə görüşmüsük, onunla öz düşüncələrimi bölüsmüsəm və həmisə dəstək görmüsəm". Ç.Aytmatovun atası Torekul Aytmatov görkəmli dövlət xadimi olmuşdur. 1937-ci il repressiyasına məruz qalmış, həbs edilmiş, 1938-ci ildə isə güllələnmisdir.

"Cingiz Aytmatov və Azərbaycan ədəbiyyatı" mövzusunu"Azərbaycan və qırğız ədəbiyyatları və xalqların dostluğunun çox canlı bir nümunəsi" kimi qiymətləndirən İsa Həbibbəyli dünya xalqlarının, xüsusən türk xalqlarından hər birinin Cingiz Aytmatovu, ilk növbədə öz xalqının doğma yazıcısı olaraq qəbul etdivini, bununla belə Cingiz Aytmatovun"dünyada oxsar taleləri yaşayan, insan, zaman, cəmiyyət və gələcək haqqında eyni və ya bənzər düşüncədə olan xalqların hamısının görkəmli yazıçısı" olduğunu söyləyir.

Bir cox qələm sahiblərimizin (Sahmar Əkbərzadə, Vilayət Rüstəmzadə, Aydın Məmmədov, Əhməd Qəsəmoğlu, Adil Cəmil, Əli Mahmud) Cingiz Aytmatovla onun vətəni Qırğızıstanda görüsdüvünü, müsahibələr alıb Azərbaycan mətbuatında cap etdirdivini, Azərbaycan rəssamı Cavad Mircavadovun Cingiz Aytmatovun təsəbbüsü ilə Moskvada fərdi yaradıcılıq sərgisinin kecirildivi, Cingiz Aytmatovun Cavad Mircavadovun tablosunu həmisəlik özünün Biskekdəki is otağından asdığını, digər bir əsərini isə Nobel mükafatı laureatı Qabriel Qarsia Markesə göndərməklə Azərbaycan təsviri sənət ustasının geniş dairədə tanıdılmasına yaxından kömək göstərdiyini bildirir.

Azərbaycanda Cingiz Aytmatovun həyatı və yaradıcılığının tədqiq edildiyini (filologiya elmləri doktoru Leyla Gəravzadənin "Rusdilli türk yazıcılarının yaradıcılığında etnoepik yaddaş problemi" mövzusunda yazdığı doktorluq, Ülviyyə Hüseynovanın "Cingiz Aytmatovun rusdilli əsərlərində türkizmlər" mövzusundakı filologiya üzrə fəlsəfə doktorluğu, Mehman Həsənlinin "Cingiz Aytmatov və Azərbaycan ədəbiyyatı" adlı dissertasiyaları) yazır.

Cingiz Aytmatovun əsərlərinin hələ keçən əsrin 60-cı illərindən Azərbaycan dilinə tərcümə olunduğu və elmi-ədəbi mühitdə böyük maraqla qarşılandığı ("Cəmilə" (1961) və "Köşək gözü" (1963) povestləri (tərcüməçi Qılman Musayev), "Qırmızı yaylıqlı qovağım mənim" (1965) povesti, "Əsrə bərabər gün" (1983) romanı (İshaq İbrahimov), "İlk müəllim" (1965), "Ana tarla" (1966) və "Ağ gəmi" (1980) povestləri (Cəmil Əlibəyov), "Dəniz kənarıyla qaçan alabaş" povesti (Xeyrulla Əliyev. 1979), "Erkən gələn durnalar" povesti (Vilayət Rüstəmzadə. 1990), "Qiyamət" romanı (Vaqif Əlixanlı. 1990), "Cingiz xanın ağ buludu" povesti (Məti Osmanoğlu. 1992), "Oğulla görüş", "Köçəri quşların göz yaşları", "Balaca əsgər", "Dəhnəçi", "Qırmızı alma", "Buynuzlu ana maral", "Mankurt əfsanəsi", "Öldürək-öldürməyək" hekayələri (İbrahim İlyaslı. 2014), "Üz-üzə" (Mehman Həsənli. 2016) povesti, "Kassandra damğası" romanı (Nərgiz Cabbarlı. 2018), "Seçilmiş əsərləri" (2009) (2) "Azərbaycan oxucusunun yaddaşında və mütaliəsində" geniş yer tutduğu bildirilir.

Akademik İsa Həbibbəyli Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata kecirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli Sərəncamından sonra Ç.Aytmatovun "Seçilmiş əsərləri"nin kitab halında ölkəmizdə dəfələrlə kütləvi tirajla cap olunduğunu, anadan olmasının 80 illivi 2008-ci ildə Azərbaycanda böyük təntənə ilə qeyd olunduğu, haqqında kitablar (Südabə Sərvinin tərtibi ilə 2009-cu ildə "Cingiz Aytmatov. Mən Manas oğluyam" kitabı, Elnarə Akimovanın hazırladığı "Çingiz Aytmatov – Türk ruhunun qələbəsi" kitabı) cap olunduğunu yazır.

Nəticə. Akademik İsa Həbibbəylinin Cingiz Aytmatov və Azərbaycan münasibətləri ilə bağlı araşdırmaları, burada qoyulan problemlərin aktuallığı özü bir monoqrafik tədqiqat işidir. Cingiz Aytmatovun Azərbaycan ədibləri, Azərbaycan dövlətinin rəhbərləri, incəsənətin müxtəlif sahələrində çalışan istedad sahibləri ilə əlaqəsi, dostluğu, fikir mübadilələri İsa Həbibbəylinin professional ədəbiyyatşünas diqqətindən yayınmır.

Dünya xalqlarının, xüsusilə türk dünyasının böyük sənət sahiblərinin yaradıcılığının tədqiqi və tədqiqatı baxımından bu məqalələrinin xüsusi əhəmiyyət kəsb etdiyini görürük. İsa Həbibbəylinin intellekt düşüncəsi, geniş məlumat dairəsi, çoxsaxəli yaradıcılıq fəaliyyəti, dünya xalqlarının, eləcə də türk dünyasının ədəbiyyatına, incəsənətinə dərindən bələdliyi onun ədəbiyyatşünas imkanlarının genişliyinə, müraciət etdiyi mövzuların çoxçeşidliliyinə imkan yaradır.

İsa Həbibbəylinin Cingiz Aytmatov yaradıcılığı ilə bağlı silsilə məqalələri Azərbaycan ədəbiyyatşünaslığında Çingiz Aytmatov yaradıcılığı ilə bağlı yeni elmi-tədqiqat işlərinin genişləndirilməsinə, aparılmasına yol açır.

Gələcək tədqiqatçılar Cingiz Aytmatovun bədii irsi ilə bağlı bu məqalələrdə qoyulan məsələləri daha ətraflı, geniş şəkildə təhlil və tədqiqata cəlb edə bilərlər...

İstifadə edilmiş ədəbiyyat

1. İsa Həbibbəyli. Əbədi mogikan – Cingiz Aytmatov-90. "525-ci qəzet", 1-2 oktyabr 2018.
2. AytmatovÇ. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2009, 761 s.

Açar sözlər: Çingiz Aytmatov, qırğız, humanizm, milli, İsa Həbibbəyli.
Ключевые слова: Чингиз Айтматов, киргиз, гуманизм, национальный, Иса Габиббейли.
Key words: Chingiz Aitmatov, Kyrgyz, humanism, national, Isa Gabibbayli.

Xülasə

Məqalədə qırğız ədəbiyyatının görkəmli nümayəndəsi Cingiz Aytmatovun zəngin yaradıcılığı, milli ədəbiyyatın inkişafında onun əsərlərinin misilsiz rolu, dünya ədəbiyyatında da yeni bir zirvə yaratması, məhz onun sayəsində bütün türk dünyasının ortaq mədəniyyəti, ədəbiyyatı məsələsi bu gün də ədəbiyyatsünaslığın, Azərbaycan ədəbiyyatı tarixinin gündəmində olması, UNESCO-nun statistikasına əsasən, əsərlərinin 170-dən cox xarici dilə tərcümə olunub və yüz milyonlarla tirajla nəşr edilməsi statistikası yazıçının dünya ədəbiyyatındakı mövqeyini ifadə edən ciddi fakt olması, yaradıcılığında milli və bəşəri anlayışları geniş mənada insanlıq düşüncəsi ilə birləşdirməsi məsələləri ilə bağlı akademik İsa Həbibbəylinin elmi-nəzəri fikirləri tədqiqata cəlb edilir.

Иса Габиббейли о творчестве Чингиза Айтматова

Резюме

В статье рассказывается о богатом творчестве выдающегося представителя киргизской литературы Чингиза Айтматова, уникальной роли его произведений в развитии национальной литературы, о том, что и в мировой литературе он создал новую вершину, именно благодаря ему вопрос общей культуры, литературы всего тюркского мира и сегодня стоит на повестке дня литературоведения, истории азербайджанской литерату-

ры, согласно статистике ЮНЕСКО, что статистика его произведений переведена более чем на 170 иностранных языков и издана сотнями миллионов тиражей является серьезным фактом, свидетельствующим о положении писателя в мировой литературе, к исследованию привлекаются научно-теоретические идеи академика Исы Габиббейли по вопросам объединения в его творчестве национальных и человеческих понятий с мыслью о человечестве в широком смысле.

Isa Habibbayli about the work of Chingiz Aitmatov

Summary

The article tells about the rich work of the outstanding representative of Kyrgyz literature Chingiz Aitmatov, the unique role of his works in the development of national literature, that he created a new peak in world literature, it is thanks to him that the issue of general culture, literature of the entire Turkic world is still on the agenda of literary criticism, the history of Azerbaijani literature, according to UNESCO statistics, that the statistics of his works have been translated into more than 170 foreign languages and published in hundreds of millions of copies is a serious fact indicating the position of the writer in world literature, the research involves the scientific and theoretical ideas of academician Isa Habibbayli on the issues of combining national and human concepts in his work with the idea of humanity in a broad sense.

RƏYÇİ: dos. L.Ələkbərova

Əsmər Seyfəddin qızı Əliyeva [44]

CULIAN BARNS YARADICILIĞINDA PSİXOLOGIZM

Giriş. Müasir dünya ədəbiyyatında psixoloji dərinliyə malik bədii nümunələrin sayı artmaqda davam edir. Bu baxımdan, psixologizm – yəni insanın daxili aləminin, düşüncə və hisslərinin bədii şəkildə təhlili – yazıçıların ədəbi yaradıcılığında mühüm yer tutur. Psixoloji təhlil vasitəsilə fərdin daxili ziddiyyətləri, qərarsızlıqları, yaddaşın təsiri və mənəvi məsuliyyət məsələləri daha dərindən və inandırıcı şəkildə ortaya qoyulur. Belə bir yanaşma tərzini öz yaradıcılığında ustalıqla birləşdirən yazıçılardan biri də İngiltərənin çağdaş ədəbiyyatının görkəmli nümayəndəsi Culian Barnsdır.

Culian Barns yaradıcılığı həm mövzu, həm də forma baxımından zənginliyi və çoxqatlılığı ilə seçilir. Onun əsərlərində fərdin daxili dünyası, yaddaşın seçiciliyi, zamanla dəyişən baxış bucaqları, şəxsiyyətin formalaşması və psixoloji travmalar əsas tədqiqat obyektinə çevrilir. Yazıçının əsərlərində psixologizm yalnız obrazların xarakterizasiyası üçün deyil, həm də fəlsəfi və estetik sualların irəli sürülməsi üçün bir vasitədir. Barnsın qəhrəmanları çox vaxt öz keçmişləri ilə üz-üzə qalır, xatirələrlə real həyat arasında sərhədlər bulanıqlaşır və nəticədə insan psixikasının mürəkkəbliyi ön plana çıxır [8, s. 13].

Bu məqalənin məqsədi Culian Barnsın bədii irsində psixologizmin təzahür formalarını araşdırmaq, onun əsərlərində daxili monoloq, yaddaşın funksiyası, emosional ziddiyyətlər və fərdi şüurun bədii təcəssümünü təhlil etməkdir. Məqalədə yazıçının məşhur əsərləri – xüsusilə *"The Sense of an Ending"*, *"Flaubert's Parrot"* kimi romanlar üzərində dayanaraq, psixoloji elementlərin necə işlənməsi və oxucuya hansı mənəvi-əxlaqi təsir bağışladığı göstəriləcəkdir.Culian Barnsın əsərləri insan həyatının dərin mənalarını, seçim qarşısında qalmanın məsuliyyətini və fərdin daxili disharmoniyasını ön plana çıxarır.Onun yaradıcılığında müşahidə olunan psixoloji yanaşma klassik psixologizmdən fərqlənərək, postmodern dövrün insanını təhlil edir – şübhə içində olan, qərarsızlıqla yaşayan, öz yaddaşının nə qədər etibarlı olduğunu sorğulayan bir fərdi. Bu baxımdan, Barnsın qəhrəmanları sadəcə ədəbi obraz deyil, eyni zamanda kompleks psixoloji modellərdir. Mövzunun aktuallığı həm də onunla izah olunur ki, müasir dövrdə insanın özünüdərkə can atması, emosional və mənəvi problemlərlə üzləşməsi ədəbi qəhrəmanların timsalında daha dolğun şəkildə əksini tapır. Culian Barnsın psixoloji portretlər yaratmaq bacarığı, onun ədəbi texnikaları ilə yanaşı, insan şüurunun dərinliklərini incəliklə işləmək bacarığını da nümayiş etdirir.Bu tədqiqatın məqsədi Culian Barns yaradıcılığında psixologizmin təzahür formalarını, onun hansı ədəbi vasitələrlə gerçəkləşdirildiyini və bu yanaşmanın oxucuya təsirini araşdırmaqdır. Eyni zamanda, müəllifin seçdiyi bədii strukturların və personajların psixoloji reallığa nə qədər yaxın olduğunu müəyyənləşdirmək də bu işin əsas vəzifələrindən biridir.

Əsas hissə. Culian Barnsın əsərlərində psixoloji elementlər yalnız fərdi xarakterlərin hiss və düşüncələrinin təsviri ilə ilə məhdudlaşmır, həm də onların dünyagörüşünü formalaşdıran amillərin, keçmiş təcrübələrin və yaddaşın insan həyatında oynadığı rolu araşdırmaq üçün əsas vasitəyə çevrilir. Müəllifin yaradıcılığında hadisələrin zahiri dinamikasından çox, daxili emosional proseslərin analizi ön plana çəkilir.Bu mənada, Barnsın əsərləri müasir ədəbiyyatda psixologizmin inkişaf istiqamətlərini izləmək baxımından olduqca maraqlıdır.Culian Barnsın psixologizmə yanaşması klassik ədəbiyyatda müşahidə olunan emosional portretləndirmədən fərqlənir. O, insan psixikasını zaman və yaddaş prizmasından araşdırır. Əsərlərində tez-tez rast gəlinən motivlərdən biri yaddaşın qeyri-müəyyənliyi və selektivliyidir.Müəllif insanın öz keçmişini necə dəyişdirə biləcəyini, yaddaşın nə dərəcədə subyektiv olduğunu və zaman keçdikcə həqiqətin necə təhrif olunduğunu incə detallarla təsvir edir.Məsələn, "The Sense of an Ending" ("Bir Sonluğun Duyğusu") romanında baş qəhrəman Tony Websterin xatirələri və öz həyatını anlamağa çalışması vasitəsilə müəllif oxucunu psixoloji introspeksiyaya cəlb edir.Roman boyu Tony öz keçmişini yenidən xatırlayır, hadisələri təhlil edir və başa düşür ki, yaddaşın təqdim etdiyi "həqiqət" bəzən insanın özü tərəfindən formalaşdırılmış bir illüziyadan başqa bir şey deyil. Bu əsərdə psixologizm yazıçının üslubunun ayrılmaz tərkib hissəsi kimi çıxış edir və oxucunu qəhrəmanın daxili aləmi ilə üz-üzə qoyur [6, s. 55]. Culian Barns bədii yaradıcılığında diqqət çəkən məqamlardan biri də onun insanın daxili sükunətini pozan hadisələri necə ustalıqla təqdim etməsidir. Onun qəhrəmanları əksər hallarda gündəlik həyatın adi axarı içərisində yaşadıqları psixoloji sarsıntılarla qarşılaşır və bu qarşılaşma onların dünyagörüşünü, münasibətlərini və qərarvermə mexanizmlərini dəyişir. Barnsın yanaşmasında psixologizm yalnız fərdi portretin açılması üçün vasitə deyil, həm də zamanın və yaddaşın insan taleyinə təsirini dərk etmək üçün bir alət rolunu oynayır.

Müəllifin qəhrəmanları təkcə psixoloji konfliktlərlə deyil, eyni zamanda mənəvi seçimlər və daxili məsuliyyət hissi ilə də mübarizə aparır.Məsələn, "Flaubert's Parrot" əsərində baş qəhrəmanın məşhur yazıçı Qustav Floberin həyatını və irsini araşdırması əslində onun özünü axtarış yoludur.Bu metanarrativ strukturda psixologizm bədii təhkiyənin bir hissəsinə çevrilir və oxucunu obrazın emosional və intellektual səyahətinə şərik edir. Eyni zamanda, roman ədəbiyyat, yaddaş, sənət və həyat arasındakı sərhədləri sorğulamaqla yanaşı, fərdi düşüncənin də nə qədər nisbi və dəyişkən olduğunu nümayiş etdirir [10, s. 268].

Culian Barns yazılarında insan duyğularının incə çalarlarına toxunmaq bacarığı onun psixoloji realizminə güclü təkan verir. O, fərdi travmalar, itkilər, sevgi və xəyanət kimi dərin emosional təcrübələri təhlil edərkən obrazların daxili aləmini təbii və inandırıcı şəkildə təqdim edir. Bu xüsusiyyətləri ilə o, müasir oxucunun gündəlik

[44]Bakı Dövlət Universitetinin doktorantı. teacherasmar@gmail.com
10.24412/2218-7588-2025-2-154-158

həyatında yaşadığı ziddiyyətləri və daxili narahatlıqları ədəbi formada yenidən yaşadır.Culian Barns yaradıcılığı müasir ingilis ədəbiyyatında psixologizmin güclü nümayəndələrindən biri kimi çıxış edir.

Culian Barns əsərlərindəki psixologizm oxucu ilə əsər arasında emosional körpü yaradır, onu fəal iştirakçıya çevirir və bu baxımdan müəllifin yaradıcılığı təkcə ədəbi deyil, həm də psixoloji və fəlsəfi dəyərə malikdir. Beləliklə, Barnsın yaradıcılığı müasir dövr insanının daxili dünyasının bədii ifadəsi baxımından nümunəvi bir ədəbiyyat nümunəsi kimi qiymətləndirilə bilər [2, s. 272].

Ədəbiyyat icmalı: Culian Barns müasir İngilis ədəbiyyatında psixoloji dərinliyi ilə seçilən yazıçılardandır.Onun yaradıcılığına nəzər saldıqda, fərdin daxili dünyasının, yaddaşın, mənlik axtarışının və emosional ziddiyyətlərin ön planda dayandığı aydın olur.Bu baxımdan, Barnsın əsərlərindəki psixoloji aspektlər tədqiqatçıların marağına səbəb olmuş və müxtəlif elmi məqalələrdə geniş şəkildə təhlil olunmuşdur.

N.Fedorov (2012) öz tədqiqatında Culian Barns və Ian McEwan kimi yazıçıların əsərlərində psixoloji roman janrında baş verən dəyişiklikləri araşdırır.Müəllif bildirir ki, Barnsın yaradıcılığı müasir İngilis nəsrində psixoloji təhlilin forma və məzmun baxımından yenilənməsi ilə seçilir.Barns personajların daxili təlatümlərini, travmalarını və qərarsızlıqlarını ustalıqla əks etdirərək psixoloji romanın sərhədlərini genişləndirir.Onun personajları tez-tez yaddaş, zaman və mənliklə bağlı suallar qarşısında qalır, bu isə oxucunu daha dərindən düşünməyə vadar edir.

Ümumiyyətlə, Culian Barnsın yaradıcılığında psixologizm həm struktur, həm də məzmun baxımından əsas mövqedə dayanır. O, fərdin daxili dünyasını, yaddaşın subyektivliyini və insan şüurunun mürəkkəbliyini ədəbi forma çərçivəsində təqdim edərək müasir psixoloji roman janrına əhəmiyyətli töhfələr vermişdir. Onun əsərləri təkcə ədəbi deyil, həm də psixoloji baxımdan dərin analiz tələb edir və bu səbəbdən geniş elmi maraq doğurur.

Culian Barns müasir İngilis ədəbiyyatında psixoloji dərinliyi ilə seçilən yazıçılardandır. Onun yaradıcılığına nəzər saldıqda, fərdin daxili dünyasının, yaddaşın, mənlik axtarışının və emosional ziddiyyətlərin ön planda dayandığı aydın olur. Bu baxımdan, Barnsın əsərlərindəki psixoloji aspektlər tədqiqatçıların marağına səbəb olmuş və müxtəlif elmi məqalələrdə geniş şəkildə təhlil olunmuşdur.

Culian Barnsın "The Sense of an Ending" əsəri psixologizm baxımından xüsusi maraq doğurur. Aliakbari Harehdasht və Ekbatäni (2019) bu əsəri təhlil edərək yaddaş və psixoloji müdafiə mexanizmlərinin personajların davranış və qərarlarında necə təzahür etdiyini göstərirlər.

Müəlliflərin fikrincə, əsərdə baş qəhrəmanın keçmişi ilə bağlı xatirələrinin qeyri-dəqiqliyi və yenidən qurulması, onun psixoloji müdafiə mexanizmlərinin işə düşməsinin göstəricisidir. Barns yaddaşın sabit və obyektiv bir şey olmadığını, əksinə, daim dəyişən və subyektiv təcrübələrə əsaslanan bir konstruksiya olduğunu vurğulayır. Bu, oxucuda həm personajın yaşantılarına empatiya yaratmağa, həm də insan yaddaşının etibarlılığı üzərində düşünməyə səbəb olur.

Bundan əlavə, Arıkan və İpekçi (2020) Culian Barnsın "England, England" əsərini fərdi və kollektiv psixoz prizmasından təhlil etmişlər. Tədqiqatçılar bu əsərdə milli identiklik, simulyasiya və reallıqla əlaqəli anlayışların psixoloji baxımdan necə təqdim edildiyini araşdırırlar. Onların qənaətinə görə, Barns bu romanda həm fərdi, həm də cəmiyyətin öz kimliyini necə saxtalaşdıra biləcəyini, özünə yalan danışma halının necə kollektiv bir psixoz halını ala biləcəyini ustalıqla göstərir. Əsərdə personajların özlərini yalanlarla inandırmaları, reallığın yerini simulyasiyanın alması və ictimai davranışların psixoloji aspektləri diqqət mərkəzindədir.

Barnsın digər məşhur əsərlərindən biri olan *Flaubert's Parrot* romanı da psixoloji və fəlsəfi aspektlərlə zəngindir. Müəllifin fikrincə, romanın qəhrəmanı olan Geoffrey Braithwaite, öz şəxsi itkiləri və travmaları ilə baş etməyə çalışarkən, Flaubert haqqında araşdırmalara dalır və bununla da öz daxili aləmini yenidən qurmağa cəhd edir. Bu axtarışlar nəticəsində Barns psixoloji dərinliklə oxucuya insanın gerçək mənliyə və həyat həqiqətlərinə çatmaq üçün keçdiyi daxili yolları göstərir. Əsərdə keçmişin izləri, fərdi yaddaş və emosional bağların insan şüuruna təsiri əsas mövzular sırasındadır.

Culian Barnsın psixologiyaya olan marağının və bu sahədəki ədəbi ustalığının daha geniş şəkildə təhlil olunduğu mənbələrdən biri Tory və Vesztergom (2014) tərəfindən tərtib olunmuş *Stunned into Uncertainty: Essays on Julian Barnes's Fiction* adlı məqalələr toplusudur. Bu topluda müxtəlif tədqiqatçılar tərəfindən Barnsın romanları və hekayələri psixoloji və fəlsəfi aspektlərdən təhlil olunur. Məqalələrdə onun yaradıcılığında qeyri-müəyyənlik, mənlik, yaddaş və şəxsiyyət anlayışlarının necə ədəbi şəkildə qurulduğu ətraflı şəkildə araşdırılır. Topluda Barnsın oxucunu daim qeyri-müəyyənliklə üz-üzə qoyduğu və bunun vasitəsilə onları fəal düşünməyə sövq etdiyi fikir xüsusi vurğulanır.

Ümumiyyətlə, Culian Barnsın yaradıcılığında psixologizm həm struktur, həm də məzmun baxımından əsas mövqedə dayanır. O, fərdin daxili dünyasını, yaddaşın subyektivliyini və insan şüurunun mürəkkəbliyini ədəbi forma çərçivəsində təqdim edərək müasir psixoloji roman janrına əhəmiyyətli töhfələr vermişdir. Onun əsərləri təkcə ədəbi deyil, həm də psixoloji baxımdan dərin analiz tələb edir və bu səbəbdən geniş elmi maraq doğurur.

The Sense of an Ending əsəri Culian Barnsın bu baxımdan ən çox diqqətçəkən romanlarındandır. Əsərdə hadisələr baş qəhrəman Toni Vebsterin yaddaş prizmasından təqdim olunur. Toni gənclik illərində yaşadıqlarını xatırlamağa çalışır və illər sonra aldığı bir məktub onun keçmişinə yenidən nəzər salmasına səbəb olur. Lakin bu xatirələrin dəqiqliyi, doğruluğu daim sual altındadır. Barns burada yaddaşın subyektiv və dəyişkən olduğunu göstərir. Keçmişlə bağlı müəyyən detallar Toni üçün fərqli şəkildə xatırlanır, bu isə onu həm özünü, həm də başqalarını yenidən qiymətləndirməyə məcbur edir.

Əsər boyu Toni psixoloji müdafiə mexanizmləri ilə qarşı-qarşıya qalır – o, günah hissindən qorunmaq üçün keçmişi fərqli şəkildə xatırlayır və bu da onu əsl həqiqətdən uzaqlaşdırır. Nəticədə o, özü haqqında bildiyi hər şeyi sorğulamağa başlayır. Bu introspektiv gedişat, keçmişin və yaddaşın insan psixologiyasına təsiri əsərin əsas təməlini təşkil edir. *The Sense of an Ending* romanı bu baxımdan xüsusi əhəmiyyət daşıyır.

Əsərin baş qəhrəmanı Toni Vebster tipik "etibarsız nəqliyyatçı" obrazıdır (bax: [7, s. 31]). O, hadisələri öz yaddaşı vasitəsilə danışır, lakin sonradan oxucu ilə birlikdə özü də anlayır ki, yaddaşı onu aldatmış, bəzi hadisələri unutmuş, bəzilərini isə təhrif etmişdir. Toni sakit, məsuliyyətli, səliqəli biri kimi təqdim olunur, lakin dərinliyə enəndə, onun emosional uzaqlığı, qorxu və inkarla dolu psixoloji müdafiə mexanizmləri aşkara çıxır. Gənclik illərində dostları ilə münasibətlərində öz məsuliyyət payını boynuna almayan Toni, yaşlandıqdan sonra keçmişdə baş verən faciənin onun səssizliyi və laqeydliyi ilə bağlı ola biləcəyini başa düşür. Bu, onun daxili parçalanmasını və gecikmiş vicdan əzabını güclü şəkildə göstərir.

Toni özünü günahkar hiss etdikcə yaddaşına etibar edə bilmədiyini anlayır və bu da oxucunu insanın öz həyatını nə qədər subyektiv şəkildə qavradığını düşünməyə vadar edir. Eyni romandakı Veronika obrazı da diqqətəlayiqdir. O, Toni üçün həmişə "sirli və anlaşılmaz qadın" olaraq qalmışdır. Əsər boyu Toni Veronikanı "soyuq", "təhqiramiz", "qapalı" kimi təsvir edir, lakin əslində bu qadının da öz travmaları, itkiləri və susqun ağrıları olduğu sonradan ortaya çıxır. Veronika hadisələrə Toni qədər passiv yanaşmasa da, keçmişin yükünü ağır formada daşıyan bir obrazdır. Onun qəzəbi, susqunluğu və gizlədilmiş hissləri – bu obrazın psixoloji mürəkkəbliyini açır. Veronika bir tərəfdən özünü Toni kimi insanlardan qorumağa çalışır, digər tərəfdən isə həyatının izahını verməkdən yorulmuş bir insan kimi görünür. Onun davranışları psixoloji baxımdan təcrid olunma və emosional yüklənmənin nəticəsidir.

Barnsın digər əsəri olan *Flaubert's Parrot* romanında da psixoloji dərinlik aydın şəkildə hiss olunur. Baş qəhrəman Geoffrey Braithwaite həyat yoldaşının ölümündən sonra yazıçı Flaubert-in həyatını və onun papağını axtarmağa başlayır. Lakin bu axtarış əslində onun öz həyatını və şəxsi travmalarını anlaması üçün bir vasitəyə çevrilir. Braithwaite-in Flaubert haqqında topladığı məlumatlar, verdiyi suallar onun öz daxili dünyasında baş verənlərlə paralel inkişaf edir. O, Flaubert-in simasında həm intellektual bir obraz, həm də öz ağrılarının bir növ simvolunu görür. Əsərdəki fraqmentar struktur, keçidlər və qeyri-xətti süjet qəhrəmanın daxili parçalanmışlığını və psixoloji dağınıqlığını əks etdirir. Barns burada insanın gerçəkliklə necə əlaqə qurduğunu, emosional itkini necə rasional şəkildə dərk etdiyini və yaddaşın travmanı necə formalaşdırdığını incəliklə təqdim edir [3, s. 170].

Flaubert's Parrot romanında baş qəhrəman Geoffrey Braithwaite obrazı üzərində ayrıca dayanmaq məqsədəuyğundur. O, zahirən mədəniyyətli, rasional, tənqidçi bir həkim kimi görünür, lakin oxucu roman boyunca onun həyat yoldaşının intiharı ilə əlaqədar yaşadığı emosional və psixoloji travmaların izlərinə şahid olur. Geoffrey-nin Flaubert-ə olan həddsiz marağı və onun həyatındakı detalları ifrat dərəcədə araşdırması, əslində öz həyatını, itirdiklərini və başa düşə bilmədiklərini anlamağa çalışmasının bir simvoludur. O, Flaubert-in tutuquşusunu tapmaqla, bir növ, həyat yoldaşının sirrini anlamağa, onun ölümünün səbəblərinə varmağa çalışır. Geoffrey-nin araşdırmaları bir növ psixoterapevtik prosesə çevrilir – o, keçmişini, həyat yoldaşının xəyanətini, öz hisslərini rasional izah etməyə çalışır. Bu obraz "intellektual qaçış" modelinə uyğundur: o, duyğusal ağrıdan qaçmaq üçün intellektual fəaliyyətə sığınır. Lakin roman boyu onun maskası tədricən düşür və Geoffrey-nin içindəki yalnızlıq, günahkarlıq və dərin təəssüf ortaya çıxır.

Culian Barnsın bütün bu obrazlarını birləşdirən cəhət onların daxili ziddiyyətlərlə yaşayan, emosional balans axtaran və yaddaş, zaman, mənlik kimi mövzularla üzləşən insanlar olmasıdır. Barnsın yazı tərzi bu psixoloji dinamikaları sadə dildə, lakin böyük incəliklə təqdim edir. O, oxucunu qəhrəmanların zehni dünyasına daxil edir və hər bir emosional reaksiyanın səbəbini düşünməyə vadar edir.

Onun əsərlərində psixologizm sadəcə personaj xarakteristikası deyil, bütöv süjetin və ədəbi ideyanın qurucu elementidir. Barnsın dili sadə, ifadəsi dəqiq, psixoloji təhlili isə çoxşaxəlidir. Bu səbəbdən onun yaradıcılığı müasir ədəbiyyatda psixoloji roman janrının parlaq nümunələrindən hesab olunur. Eyni zamanda, Barnsın romanlarında psixoloji mövzular fəlsəfi düşüncə ilə iç-içədir. Onun qəhrəmanları yalnız emosional təlatümlər yaşamır, həm də həyatın mənası ilə bağlı fundamental suallar qarşısında qalırlar [5, s. 67]. Bu isə onun əsərlərinə intellektual zənginlik qatır. O, oxucunu yalnız hadisələrin deyil, düşüncələrin içərisinə daxil edir və onları psixoloji introspeksiyaya sövq edir. Culian Barnsın psixologizmə əsaslanan yazı tərzi, onun bədii üslubunun fərqliliyini və müasir ədəbiyyatda tutduğu mühüm mövqeyi göstərir. O, insan psixikasının ziddiyyətlərini, daxili sükunət və xaos arasında olan mübarizəni ədəbi mətnlərlə ustalıqla əks etdirir. Onun qəhrəmanları bəzən özlərini tapa, bəzən də daha da itirə bilərlər, lakin hər zaman oxucunu düşünməyə vadar edərlər. Bu xüsusiyyət Barnsın yaradıcılığını yalnız ədəbi deyil, həm də psixoloji baxımdan zəngin və təhlilə açıq bir fenomenə çevirir.

Culian Barnsın yaradıcılığında qəhrəmanlar sadəcə süjeti irəlilədən personajlar deyil, həm də psixoloji dinamikanı daşıyan mürəkkəb fərdlərdir. Onlar həyatın mənası, yaddaşın doğruluğu, mənlik və kimlik kimi fundamental suallarla üz-üzə qalırlar. Barnsın qəhrəmanları tez-tez introspektiv düşüncələrə dalır, keçmişləri ilə hesablaşır və bunun nəticəsində daxili dəyişikliklər yaşayırlar.

Tony Webster ("The Sense of an Ending") – Barnsın ən güclü psixoloji obrazlarından biridir. O, ilk baxışdan sakit, adi, mülayim, məsuliyyətli və təmkinli bir insan təsiri bağışlayır. Lakin onun iç dünyası dərin psixoloji sarsıntılarla doludur. Toni gənclik illərində baş verən bəzi hadisələri illər sonra xatırlamağa çalışdıqda, yaddaşının onu aldatdığını, müəyyən detalların ya dəyişdiyini, ya da tamamilə unudulduğunu anlayır. Bu onu psixoloji sarsıntıya aparır.

Veronica Ford – Tony ilə münasibətdə olan və həyatının vacib bir hissəsini təşkil edən obrazdır. İlk baxışdan soyuq, anlaşılmaz, təmkinli və məsafəli biri kimi görünür. Tony onu "sirli qadın" kimi xatırlayır. Veronicanın davranışları bəzən sərt, bəzən təmkinli, bəzən də passiv-aqressiv şəkildə təqdim olunur. Lakin oxucu hadisələrin mahiyyətini dərk etdikcə anlayır ki, Veronicanın sərtliyi, əslində onun psixoloji müdafiə formasıdır.

Geoffrey Braithwaite ("Flaubert's Parrot") – həyat yoldaşını itirmiş və bu itkini intellektual fəaliyyətlə unutmağa çalışan yaşlı bir həkimdir. O, yazıçı Flaubert-in həyatını, onun tutuquşusunu və sənətinə olan münasibətini araşdırır. Lakin bu araşdırma əslində Braithwaite-in öz daxili axtarışlarının simvoludur. O, həyat yoldaşının intiharına cavab tapmağa çalışır, onu niyə başa düşə bilmədiyini, nəyi görmədiyini anlamağa cəhd edir. Geoffrey-nin psixoloji müdafiəsi intellektuallaşdırmadır – o, emosional ağrısını rasional məntiq və ədəbiyyat vasitəsilə anlamağa çalışır. Lakin roman boyu bu intellektual maska tədricən zəifləyir və onun altında yatan dərin peşmanlıq, tənhalıq və təəssüf üzə çıxır.

Nəticə. Nəticə olaraq, Culian Barnsın qəhrəmanları həyatın emosional və zehni çətinliklərini daşıyan, psixoloji baxımdan çoxşaxəli insanlardır. Onlar sadəcə süjet elementləri deyil, həm də ədəbiyyat vasitəsilə insan təbiətinin ən dərin qatlarını öyrənməyə imkan verən güzgülərdir. Barns onları nə qəhrəmanlaşdırır, nə də tamamilə günahlandırır – əksinə, onları olduğu kimi, kompleks və çətin, lakin gerçək insanlar kimi təqdim edir. Bu isə onun psixologizmə əsaslanan yazıçılıq üslubunun gücünü nümayiş etdirir.

Culian Barnsın yaradıcılığı müasir ədəbiyyatda psixologizmin parlaq nümunəsi kimi qiymətləndirilə bilər. Onun romanlarında insan psixikasının dərinliklərinə enmək, fərdin daxili aləmini üzə çıxarmaq və yaddaş, zaman, şəxsiyyət, travma kimi mövzuları çoxqatlı və mürəkkəb şəkildə təqdim etmək əsas yaradıcı prinsip kimi çıxış edir. Barnsın qəhrəmanları klassik qəhrəman stereotiplərindən uzaq, real həyatda qarşılaşa biləcəyimiz, ziddiyyətli, qeyri-mükəmməl və psixoloji baxımdan mürəkkəb fərdlərdir. Bu fərdlər yaddaşın etibarlılığına şübhə edir, keçmişlə barışmağa çalışır, seçimlərinin nəticələri ilə üzləşir və öz mənliklərini yenidən dərk etmə kuğrunda daxili mübarizə aparırlar.

Barnsın psixoloji qəhrəmanları bəzən öz hisslərini bastıraraq intellektual fəaliyyətə sığınır ("Flaubert's Parrot"), bəzən isə vicdan əzabı və gecikmiş anlayışlarla yüklənmiş həyatlarını yenidən dəyərləndirirlər ("The Sense of an Ending"). Bəziləri keçmiş izlərini silmək, kimliklərini sıfırdan qurmaq istəyərkən ("England, England") öz daxili boşluqları ilə üzləşirlər. Bütün bu obrazlarda ümumi olan cəhət – onların emosional zənginliyi, psixoloji müdafiə mexanizmlərinin təzahürü və həyatı introspektiv şəkildə dərk etməyə çalışmalarıdır.

yaradıcılığı yaddaşın qeyri-müəyyənliyini, insan münasibətlərinin mürəkkəbliyini və gerçəkliklə subyektiv qavrayış arasındakı fərqi vurğulamaqla oxucunu fəal şəkildə düşünməyə təşviq edir. Onun psixologizmə əsaslanan yazı üslubu sadə dilə və real həyat situasiyalarına söykənsə də, dərin fəlsəfi və mənəvi anlamlar ehtiva edir. Bu isə Barnsın ədəbiyyatdakı yerini yalnız süjet ustası deyil, eyni zamanda insan ruhunun incəliklərini kəşf edən bir düşünür kimi möhkəmləndirir. Nəticə etibarilə, Culian Barnsın əsərlərində psixologizm yalnız mövzu deyil, həm də formadır; yalnız məzmun deyil, həm də quruluşdur. Onun romanları oxucunu insanın daxili aləminə səyahətə dəvət edir və bu səyahət, bəzən ağrılı, bəzən aydınlaşdırıcı, lakin həmişə düşündürücü olur.

İstifadə edilmiş ədəbiyyat

1. N.Fedorov, A.A. (2012). Psychological novel modifications and modern English prose (J. Barnes, J. McEwan). *Liberal Arts in Russia*, 1(1), 14. https://doi.org/10.15643/libartrus-2012.1.2
2. AliakbariHarehdasht, H., &Ekbatäni, Z. (2019). A study of memory and psychological defense mechanism in Julian Barnes's *The Sense of an Ending*. *International Journal of Linguistics, Literature & Translation*, 2(4), 272–280. https://doi.org/10.32996/ijllt.2019.2.4.28
3. Arıkan, S., &İpekçi, Y. (2020). Julian Barnes's *England, England*: A literary portrayal of individual and collective psychosis. *ÇankayaUniversity Journal of Humanities and Social Sciences*, 14(2), 170–186. https://doi.org/10.47777/cankujhss.848830
4. Bilge, F.Z. (n.d.). The perpetual quest for author(ity) and authenticity in *Flaubert's Parrot* [Flaubert'inPapağanıromanındayazar, otoriteveözgünlükarayışı]. *Mimar Sinan Fine Arts University*, Turkey.
5. Tory, E., & Vesztergom, J. (Eds.). (2014). *Stunned into uncertainty: Essays on Julian Barnes's fiction*. Budapest: EötvösLorándUniversity.
6. Fedorov, A.A. (2012). Psychological novel modifications and modern English prose (J. Barnes, J. McEwan). *Liberal Arts in Russia, 1*(1), 14. https://doi.org/10.15643/libartrus-2012.1.2
7. Guignery, V. (2006). *The fiction of Julian Barnes: A reader's guide to essential criticism*. Palgrave Macmillan. https://www.palgrave.com/gp/book/9780230507157
8. Finney, B. (2011). *Narrating memory: History and subjectivity in the work of Julian Barnes*. ManchesterUniversity Press. https://manchesteruniversitypress.co.uk/9780719082631/
9. White, A. (2017). Time and narrative: Julian Barnes's *The Sense of an Ending* and the philosophical aesthetics of literature. *Philosophy and Literature, 41*(1), 168-185. https://muse.jhu.edu/article/657430
10. Holmes, F.M. (2009). Julian Barnes and the postmodern problem of truth. *Critique: Studies in Contemporary Fiction, 50*(3), 268-282. https://www.tandfonline.com/doi/abs/10.3200/CRIT.50.3.268-282
11. Guignery, V., & Roberts, R. (Eds.). (2009). *Conversations with Julian Barnes*. University Press of Mississippi. https://www.upress.state.ms.us/Books/C/Conversations-with-Julian-Barnes

Keywords: Modern, Literature, Psychologism, Monologue, Memory, Time

Ключевые слова: Современность, Литература, Психологизм, Монолог, Память, Время

Summary

Julian Barnes, one of the contemporary representatives of English literature, stands out for his deep exploration of the intricacies of human psychology in his works. His novels and short stories primarily focus on the investigation of the individual's inner world, with deep philosophical and psychological themes such as memory, time, identity, and moral responsibility. In Barnes' works, psychologism not only serves as an artistic method but also as a key tool for uncovering the cause-and-effect relationships of human life and decisions. One of the author's most famous

works, *The Sense of an Ending*, delves into psychological depth, the reliability of individual memory, and the tendency to distort the past. Through the main character Tony Webster's memories and self-awareness process, the author challenges the reader to contemplate how selective and manipulative human consciousness can be. In this work, psychologism goes beyond just depicting the characters' feelings and thoughts, elevating it to a philosophical level by deepening the motives behind their actions.

In other works by Barnes (such as *Flaubert's Parrot*, *Talking It Over*, *Love, etc.*), considerable attention is given to creating psychological portraits, individual analysis, and internal monologues. His protagonists face their internal dilemmas in real-life situations, encounter choices, and during these moments, their psychological reactions form the core of the author's interest. Barnes presents psychology not only as a means of individual characterization but also as a key to analyzing the relationship between society and the individual. His focus on psychologism is closely linked to the subtleties in his literary style, attention to detail, and introspective narrative techniques. Instead of objective depictions of events, he describes how the characters feel, perceive, and remember them, drawing the reader closer to the characters' inner worlds. This enhances the emotional depth and realism of his works.

Thus, Julian Barnes' creations serve as a prominent example of psychologism in modern literature. In his works, questions about the inner world of humans, the selectivity of memory, and the meaning of life are reflected in literary language. With his psychological approach, Barnes is able to provoke thought in the reader and turn them into an active participant in the literary text. In this respect, his works present valuable material for both literary and psychological studies.

Резюме

Джулиан Барнс, один из современных представителей английской литературы, выделяется своей глубокой проработкой тонкостей человеческой психологии в своих произведениях. Его романы и рассказы в первую очередь сосредоточены на исследовании внутреннего мира личности, затрагивая философские и психологические темы, такие как память, время, идентичность и моральная ответственность. В произведениях Барнса психологизм служит не только художественным методом, но и ключом к раскрытию причинно-следственных связей человеческой жизни и принятых решений.

Одним из самых известных произведений автора, "Предчувствие конца", отличается психологической глубиной, достоверностью воспоминаний и стремлением исказить прошлое. Через воспоминания и процессы самосознания главного героя Тони Уэбстера автор побуждает читателя задуматься о том, насколько избирательным и манипулятивным может быть человеческое сознание. В этом произведении психологизм выходит за рамки простого описания чувств и мыслей персонажей, поднимаясь до философского уровня путём углубления мотивов их поступков.

В других произведениях Барнса (таких как "Попугай Флобера", "Разговоры о любви" и др.) большое внимание уделяется созданию психологических портретов, индивидуальному анализу и внутренним монологам. Его герои сталкиваются с внутренними дилеммами в реальных жизненных ситуациях, делают выбор, и в эти моменты их психологические реакции становятся в центре внимания автора. Барнс рассматривает психологию не только как средство индивидуализации персонажей, но и как ключ к анализу взаимоотношений между обществом и личностью.

Его внимание к деталям, нюансам стиля и интроспективным повествовательным техникам делает его произведения более реалистичными и эмоционально насыщенными. Вместо объективного описания событий он показывает, как персонажи чувствуют, воспринимают и помнят их, тем самым приближая читателя к их внутреннему миру.

Таким образом, творчество Джулиана Барнса является ярким примером психологизма в современной литературе. В своих произведениях он поднимает вопросы о внутреннем мире человека, избирательности памяти и смысле жизни, отражая их в художественном тексте. Благодаря психологическому подходу Барнс способен пробуждать мысли у читателя и превращать его в активного участника литературного процесса. В этом аспекте его произведения представляют ценность как для литературных, так и для психологических исследований.

RƏYÇİ: dos. E.Vəliyeva

Əliyeva Nüşabə Əjdər qızı,[45] Əliyeva İradə Bəbir qızı [46]

ISMAYIL ŞIXLININ ROMANLARINDA QADIN SURƏTLƏRİ

İsmayıl Şıxlınınyaradıcılığı XX əsrAzərbaycanədəbiyyatında əhəmiyyətliyertutur.Yazıçı "Ayrılan yollar", "Dəli Kür", "Ölən dünyam" kimi sanballı romanların müəllifidir. Romanlarda zəngin, koloritli qadın surətləri yaradılmışdır. İsmayıl Şıxlı vurğulayır ki, müxtəlif dövrlərdə yaşamalarından asılı olmayaraq qadın surətlərinin oxşar xüsusiyyətləri daha çoxdur. İlk növbədə onlar qadındırlar, anadırlar. "Dəli Kür" romanı XIX əsrdə yaşamış Azərbaycan qadınlarının həyatından bəhs edir.Əlbəttə, bu həyat yolu heç də həmişə rəvan və asan olmamışdır. "Bu və digər xüsusiyyətləri,milli kolorit əlamətlərini nəzərə alaraq,demək olar ki,Azərbaycan bədii nəsirində "Dəli Kür" lə yarışan ikinci bir əsər tapmaq çətindir"(2,s.180). "Dəli Kür" romanında təsvir olunan Zərnigar,Mələk,Salatın,Güləsər,Pakizə,Mina kimi qadın surətləri Azərbaycan xalqının ən yaxşı xüsusiyyətlərini özlərində yaşadırlar, təcəssüm etdirirlər. Bu mənada təhlilə Zərnigar obrazından başlamaq düzgün olardı. Zərnigar varlı ailədə anadan olmuş, böyümüşdür. Üç qardaşın yeganə bacısı olmuşdur. Qardaşları, gəlinləri onu hər toyda oynatmış və "xınalı kəklik" adlandırdıqları bacılarını hər cür qayğı və məhəbbətlə əhatə etmişdilər. Nəhayət, günlərin birində "xınalı kəklik" ər evinə köçdü. Lakin qardaşları bacılarının öz toyunda oynamasına icazə vermədilər. Zərnigar digər kənddə yaşayan uzaq qohumlarından birinə ərə verilmişdi.Zərnigarın gələcək həyat yoldaşı Cahandar ağa kənd toylarında keçirilən cıdır yarışlarında qalib gəlmiş, dəliqanlı kənd cavanlarını məğlub etmişdi. Başqa kənddən gələn oğlanın – Cahandar ağanın onları məğlub etməsi kənd cavanlarına yamanca yer eləmişdi. Cahandar ağa qalib gəldiyinə görə aldığı hədiyyəni – yaylığı Zərnigara bağışlamışdı . Bununlada məsələ həll olunmuşdu. Cahandar ağa Zərnigarın uzaq qohumlarından idi. Onların ulu babaları yaxın qohum olmuş, eyni kənddə yaşamışdılar. Zərnigarın babasının əlindən xata çıxmış və o, gecələrin birində arvad - uşağını arabaya yığıb bu kəndə köçmüşdü. İndi uzun illərdən sonra qohumluq münasibətləri yenidən bərpa olunmuşdu. Zərnigarın Cahandar ağanın evində günləri pis keçməmişdi. İki oğlu, bir qız övladı dünyaya gəlmişdi. Varlı ailədə böyüyən Zərnigar hökmlü qadınlardan idi. Evin bütün idarəçiliyini əlinə almışdı. Gözündən heçnə yayınmırdı. Cahandar ağa iki oğul anasını, həyat yoldaşını çox sevirdi. Cahandar ağa şəhərə, böyük oğlu Əşrəf üçün qazinin qızına elçiliyə getmişdi. Qayıdanda çayın qırağında Mələyi görmüş və götürüb qaçmışdı. Onun kimliyi ilə qətiyyən maraqlanmamışdı. Cahandar ağanın Mələyi götürüb qaçması Zərnigarı odsuz- ocaqsız yandırırdı. Nə edəcəyini bilmirdi. Oğlu Şamxalın ot biçinindən qayıtmasını səbirsizliklə gözləyirdi. Hadisələrin hansı gözlənilməz sonluqla bitəcəyini düşünməmişdi, ağlına gətirməmişdi. Anasının göz yaşlarına dözməyən Şamxal qərara gəlmişdi ki, Mələyi öldürsün, ya da qovsun. Ovdan qayıdan Cahandar ağanın qəfil gəlişi vəziyyəti kökündən dəyişdi. Nökərlər namusa boğulub atasının qabağından qaçmağı özünə sığışdırmayan Şamxalı birtəhər Cahandar ağanın əlindən aldılar, Kürün sahilinə qədər ötürdülər. Məhz bu hadisədən sonra Zərnigar xanım vəiyyətin çıxılmaz və mürəkkəb olduğunu dərk etdi. Müxtəlif fikirlərə düşdü, planlar qurmağa başladı. Qardaşlarının yanına getmək fikrin beynindən keçirirdi. Ancaq həmin fikirdən dərhal əl çəkdi.Yeni bir düşmənçilik başlamazdımı? Topdağıtmaz ailəsi gözünün qabağında dağılmazdımı? Övladları didərgin düşməzdilərmi? Bundan kim qazanacaqdı? Günüsünün əl – qolu açılmazdımı? Bu qəbildən olan suallar Zərnigara rahatlıq vermirdi. Zərnigar günüsünün – Mələyin qanını içməyə hazır idi. Fikrimizcə, Şamxalın kasıb ailənin qızı Güləsəri götürüb qaçması Zərnigarın Mələklə bağlı gələcək planlarında azacıq da olsa dönüş nöqtəsi oldu. Mələk oğlunu, gəlinini öldürmək istəyən Cahandar ağanın qarşısını kəsdi, onu ikinci dəfə övlad qatili olmaqdan qurtardı. Bununla da Zərnigarın etibarını, hörmətini qazana bildi. Zərnigar bir müddət oğlu Şamxalgildə yaşadı. Gəlini Güləsər və qızı Salatın onun başına pərvanə kimi dolanır, əlini ağdan qaraya vurmağa qoymurdular. Zərnigar Qori seminariyasından qış tətilinə gələn oğlu Əşrəfi, qızı Salatını geriyə, Cahandar ağanın yanına göndərdi. Bir müddət sonra özü də evinə qayıtdı. Cahandar ağa kimi mərd, ona olmazın pisliklərini etmiş həyat yoldaşının yalqız,təklənmiş vəziyyətdə qalmasını,yaşamasını qəbul edə bilmədi. Digər tərəfdən bacısı Şahnigarı öldürən Cahandar ağanın meyidin yuyulmasını Zərnigara etibar etməsi çox mətləblərdən xəbər verirdi. "Bu səhnə nə qədər ağır, məşəqqətli səhnə olsa da, biz burada qatili yox,özü-öz bağrını yaran,ürəyini qoparan bir adamın faciəsini gördük"(1,s 177).Həyatın amansız zərbələrinə mərdliklə sinə gərən Zərnigar xanım möhkəmlənmiş, mətinləşmişdir. Ailə ocağını tamamilə dağılmaqdan, məhv olmaqdan xilas etdi. Həqiqətən Zərnigar xanım Azərbaycan qadınlarının ən yaxşı xüsusiyətlərini qoruyub saxlamağa qadir olan obraz kimi əbədi olaraq yaddaşlarda qalır, yaşayır. İsmayıl Şıxlının "Dəli Kür" romanında yaddaqalan qadın surətlərindən biri Mələkdir. Mələk uşaq yaşlarından valideynlərini itirmişdir. Yaxın qohumlarının himayəsində böyümüşdür. Ailə qurandan sonrada bəxti gətirməmişdir. Birinci əri Allahyar onu söyüb – döymüş, incitmişdi. Mələk dəfələrlə Kürün sahilinə getmiş, özünü öldürmək istəmişdi. Məhz belə gərgin məqamların birində Cahandar ağa onu götürüb qaçmış, müəyyən mənada xilaskarına çevrilmişdi. Sonrakı hadisələr göstərdi ki, Mələk ləyaqətli,sadiq,vicdanlı həyat yoldaşıdır. Bir neçə dəfə Cahandar aganı övlad qatili olmaqdan xilas etmişdi… "Dəli Kür" romanındakı digər qadın obrazı Cahandar ağanın yeganə qızı Salatındır. Salatın iki od arasında qalmışdı. Topdağıtmaz evlərinin göz qabağında dağılmasına laqeyd yanaşa bilmirdi. Var qüvvəsi ilə ailənin birliyini qoruyub saxlamağa çalışırdı. Fikrimizcə, Cahandar ağanın bağışlanılası mümkün olmayan hərəkətlərindən ən çox əzab çəkən məhz Salatın oldu… "Dəli Kür" romanında təsvir olunan Güləsər obrazını İsmayıl Şıxlının uğuru kimi

[45] **Azərbaycan Tibb Universiteti Baş müəllim nushabe.aliyeva@bk.ru. ORCID: 0009-0008-50-52-4722;**

[46] **Azərbaycan Tibb Universiteti Baş müəllim iradaazeri@mail.ru.ORCID: 0009-0000-9925-7890**
10.24412/2218-7588-2025-2-159-161

dəyərləndirmək olar. Güləsər kasıb və mərd bir ailənin övladıdır. Varlı ailənin qızı Salatınla yaxşı, normal münasibətlər saxlayır. Gizli şəkildə kəndin birinci varlısının – Cahandar ağanın oğlu Şamxalı sevirdi. Bəzən sevgisini özü-özünəetiraf etməkdən çəkinirdi. Qızın iştahından gör nələr keçir, kimi sevir deyə daşqalaq ediləcəyindən qorxurdu. Bəzən də saatlarla damın – evin üstünə çıxır,Şamxalı görmək ümidi ilə Cahandar aganın evinə tərəf baxmaqdan yorulmazdı. Sonda tale Güləsərin üzünə güldü. Cahandar ağanın bu izdivaca heç vaxt qol qoymayacağını, razılıq verməyəcəyini bilən Şamxal Güləsəri götürüb qaçdı. Qardaşı Çərkəzin küsməsinə, etirazlarına rəğmən, Güləsər sübut etdi ki, o, Şamxala vəfalı həyat yoldaşı, Cahandar ağaya isə layiqli gəlindir.Çünki Cahandar ağa həmişə şəhərə, həftəbazarına gedəndə qəbul etmədiyi və küsülü olduğu gəlininə hədiyyə almağı unutmurdu…

"Dəli Kür" romanında baş verən hadisələr XIX əsrdə "Ölən dünyam" romanında isə XX əsrin əvvəllərində baş verir. Ancaq problemlər, qayğılar eynidir. Digər tərəfdən bir məsələ şəksizdir, şübhəsizdir. Müxtəlif maneələrə baxmayaraq İsmayıl Şıxlının əsərlərində təsvir olunan qadın surətləri cəmiyyətin aparıcı qüvvələri rolunda çıxış edirlər. Bu mənada İsmayıl Şıxlı qədim, orta əsrlər və xüsusi ilə də XIX əsr Azərbaycan ədəbiyyatın ən yaxşı ənənlərini layiqincə davm etdirmişdir. Bir faktı vurğulamaq yerinə düşər ki, "Ölən dünyam" romanında qadın və ümumiyyətlə insan talelərindəki faciəvi elementlər , məqamlar "Dəli Kür" və "Ayrılan yollar" əsərlərinə nisbətən daha çoxdur. Bunun əsas səbəbi XX əsrin 20-30 – cu illərində Azərbaycanın ictimai- siyasi həyatında baş verən hadisələr , kəskin sinfi mübarizədir. "Ölən dünyam" romanında Güllü xanım obrazı müəllif mövqeyinin nədən ibarət olmasında, aydınlaşdırılmasında həlledici rol oynayır. Güllü xanım varlı bir ailəyə rəhbərlik edir. Gəlinləri,oğlanları onun qulluğunda dayanırlar, bir sözünü iki eləmirlər. Güllü xanım sərtdir, ədalətlidir, qayğıkeşdir,uzaqgörəndir və müdrükdür. Hadisələrdən yaxşı baş çıxarmağı bacarır. Təsadüf nəticəsində oğlu Həsən ağanın əlindən xata çıxır. Yaxın qohumları Ələddin ova gedərkən öldürülür. Həsən ağa və qardaşı Şamiddin özlərini itirirlər. Nə edəcəklərini bilmirlər. Heç bir çıxış yolu olmadığını düşünürlər və anaları Güllü xanıma müraciət edirlər. Güllü xanım bədbəxt hadisənin hansı şəraitdə baş verdiyini aydınlaşdırır, dəqiqləşdirir və müdrük, dünyagörmüş insanlara məxsus tərzdə qərarlar qəbul edir, tədbirlər görür. Güllü xanımın "xatanı biz etmişik, altındanda özümüz çıxmalıyıq" sözlərində Azərbaycan qadınlarının bütün yaxşı xüsusiyyətləri cəmləşmişdir. Güllü xanımın gördüyü tədbirlər nəticəsində AlqazaxlılarlaÇıraqlılar arasında baş verə biləcək qan düşmənçiliyinə son qoyulur. Sonrakı hadisələr Güllü xanımın nə qədər haqlı olduğunu inandırıcı şəkildə sübut etdi. Güllü xanımın mənsub olduğu varlı təbəqənin, nəslin nümayəndələrinin Qazaxıstana sürgün edilməsi təhlükəsi yaranmışdı. Güllü xanım bu barədə keçmiş nökərləri, indi kənd şura sədri işləyən Qaybalı kişi tərəfindən əvvəlcədən xəbərdar edilmişdi. Gəlinlərinə "qiymətdən ağır, vəzndən yüngül" nə varsa götürməyi əmr etdi. Keçmiş nökərləri, indi "hakimi mütləqə" çevrilmiş keçəl Xondulunun hədələri qarşısında əyilmədi, sınmadı. Yalnız son dəfə evi, həyat bacası ilə vidalaşanda göz yaşlarına hakim kəsilə bilmədi. Uzaq Qazaxıstana sürgünə göndərilənləri yük vaqonlarında aparırdılar. Onlar dəhşətli əzablara düçar oldular. Güllü xanım yenədə mənliyini itirmədi. Ağlayıb sıtqamağın mənasız olduğunu bilirdi. Həqiqətən gözlərimiz qarşısında ideal, mətin, mübariz Azərbaycan qadınının obrazı canlanı.

İsmayıl Şıxlının "Ayrılan yollar" romanında baş verən hadisələr sovet dövründə, XX əsrin 50-60 cı illərində cərəyan edir. Ancaq qadınların şəxsi və ictimai həyatlarında köklü, əsaslı dəyişikliklər baş verməmişdir. Daha doğrusu, cəmiyyət qadın problemlərinə həssaslıqla yanaşmağa adət etməmiş,alışmamışdır. Digər tərəfdən qadın bütün ictimai qurluşlarda qadın olaraq qalırdı. Həm də, əgər söhbət Şərq Müsəlman, Türk qadınlarından gedirsə… "Ayrılan yollar" romanında əsas qadın surətlərindən biri Tükəzbandır. Tükəzban təxminən iyirmi yaşı olanda sevimli həyat yoldaşı Səmədi itirmişdir. "Sacının birini ağ, birini qara hörmüş", yeganə oğlu İmranı böyütmüşdür. İmran anasının çəkdiyi əziyyəti yerə vurmamış , layiqli övlad olmuşdur. Orta məktəbi qurtardıqdan sonra Gəncədə ali təhsil almış, aqronomluq ixtisasına yiyələnərək dogma kəndlərinə qayıtmışdır. Anasını tək qoymaq istəməmişdir. Baxmayaraq ki, şəhərdə və rayon mərkəzində qalıb işləmək üçün sərfəli təkliflər almışdı. Tükəzban oğluna baxır,sevinir, fərəhlənirdi. Eyni zamanda İmranın kəndə qayıtmasına razı deyildi. Həyat yoldaşı Səmədin başına gələnlər gözünün önündən çəkilmirdi. Tükəzban oğul toyu görmək, nəvə sahibi olmaq istəyirdi. Kənddəki qızları nəzərdən keçirir, İmrana, özünə layiq gəlin axtarırdı. Kənddə hamı kolxoz sədri, müasir Azərbaycan kəndinin Qurbanəli və Xudayar bəyi hesab olunan Qurban Kosağlunun başına and içirdi. Kosaoğlunun həyat yoldaşı Sayalı ərinin bacısı qızı Şahnazı İmrana ərə vermək üçün nə qədər səy göstərsə də, məqsədinə çata bilmədi.Başqası olsaydı , Şahnazın əvvəl şəhərdə, sonra isə kənddə etdiyi "hoqqabazlığa",gündə bir oğlanla münasibətdə olmasına göz yumardı. Tükəzban yeganə övladının gələcək taleyini düşündüyündən Şahnazı yox,əxlaq,namus mücəssəməsi olan şəhərli qızı – Nərgiz müəlliməni seçir. Tükəzban həyatdan vaxtsız getmiş rəfiqəsi Güləsərin yeganə yadigarı Zeynəbi İmrandan ayırmamış, dogma balası kimi nazını çəkmiş, qayğısına qalmışdır. Zeynəb maddi imkan olmadığına görə ali təhsil ala bilməmişdir. Kolxozda işləməyə başlamışdı. Əməksevərliyi, işgüzarlığı nəticəsində çoxlarının hörmətini qazanmışdı. Kəndin fəallarından, qabaqcılarından hesab edilirdi. Qorxu nə olduğunu bilmirdi. Düzlük, ədalət mücəssəməsi idi. Sözü birbaşa üzə deyirdi Kolxoz sədri Kosaoğlunun,briqadir Kazımın şəxsində özünə düşmən qazanmışdı. Kosaoğlunun fitfası, "qanun keşikçisi", rayon prokuroru Əsədovun təhriki, "planı" nəticəsində Kazım tərəfindən götürülüb qacırılma təhlükəsi qarşısında qalır. Bacardığı qədər Kazıma müqavimət göstərir. Təsadüf nəticəsində İmran tərəfindən xilas edilir. Həmişə şıltaqlığı ilə seçilən Zeynəb özünü saxlaa bilməyib İmranın boynuna sarılır, hönkür-hönkür ağlayır. Qızlıq ismətini, namusunu qorumağın nə qədər çətin olduğunu yalnız indi başa düşür. Oğlu İmrandan vəziyyətin nə yerdə olduğunu öyrənən Tükəzban Zeynəbi yanında saxlayır. Uşaqlıq illərində olduğu kimi, başını sığallayır, nağıl danışır. Zeynəb müvəqqəti də olsa şən, qayğısız uşaqlıq çağlarına qayıtmışdı… Həyat necə də qəribədir. Dünənki qızcığaz böyümüş, qızlar bulağından su içmişdir… Tükəzban Zeynəbin gələcək taleyinidə düşünürdü…

"Ayrılan yollar" romanında təsvir olunan Nərgiz müəllimə şəhərdə böyümüş , ədəbiyyat müəllimi ixtisasına yiyələnmiş, təyinatını kəndə almışdır. Daha dəqiq desək, uğursuz məhəbbətindən, sevgisindən baş götürüb qaçmışdır. Bir daha ürəkdən sevə biləcəyini təsəvvürünə gətirə bilmirdi. Nərgiz müəllimə tələbə yoldaşı Teymurda itirdiyi sevgisini İmranda tapa bildi. İsmayıl Şıxlının bütün əsərlərində qadın surətləri yaradılmışdır və ədalət naminə demək lazımdır ki, mənfi qadın tiplərinə az-az rast gəlinir. Bu da yazıçının qadınlara münasibətindən irəli gəlirdi, qaynaqlanırdı. İsmayıl Şıxlının qənaətinə görə qadınlara münasibət köküdən dəyişməlidir. Qadınlarişləməli , oxumalı, mübariz olmalıdırlar.Çünki cəmiyyətin gələcəyi onlardan çox aslıdır. İsmayıl Şıxlının hər üç romanından gəldiyimiz əsas nəticə yuxarıda göstərilənlərdir.

İstifadə olunmuş ədəbiyyat

1. Əfəndiyev A. Sənət və kəşf (Ədəbi – tənqidi fraqmentlər). – Azərbaycan, N7, s.177
2. Hüseynov A. Nəsrin təkamülü və tənqidin mülahizələri.- Azərbaycan, 1981,N3, s.180
3. İsmayılov Y. "İsmayıl Şıxlı.Həyatı,mühiti,sənəti". Bakı- "Ayna Mətbu Evi". 1999, 220 səh
4. Quliyev H. Yaradıcılıq axtarışları.B.,Gənclik, 1977 , 302 səh
5. Şıxlı İ. Seçilmiş əsərləri. İki cilddə. I cild.Bakı, "Şərq- Qərb",2005,408 səh
6. Şıxlı İ.Daim axtarışda.B.,Yazıçı,1988,250 səh

Açar sözlər: *yazıçı, yaradıcılıq, qadın, obrazlar, romanlar, ədəbiyyat*
Key words: *writer, women, characters, literary hero, creativity*
Ключевые слова: *писатель, творчество, женщина, образы, романы, литература.*

Женские образы в романах Исмаила Шихлы

Резюме

Творчество Исмаила Шихлы занимает особое место в Азербайджанской литературе XX века. Писатель был активным участником Великой Отечественной войны. После войны закончил институт, защитил кандидатскую диссертацию. Литературную деятельность начинал в50-е годы XX века. Написал следующие романы: «Дороги расходятся», «Буйная Кура», «Мой умершиймир». Следует отметить, что у писателя особое отношение к женским образам. Изображенные писателем женские образы сложные, колоритные, неповторимые. И в этом смысле Исмаил Шихлы продолжал и развивал лучшие традиции азербайджанской классической литературы. Гюллу ханым, Зарнигяр, Салатын, Мелек, Тюкезбан, Зейнаб, Наргиз муаллима и др. лучше всех выражают авторскую концепцию. Часто они дают ценные советы и очень любят свою семью.

В статье анализируются вышеуказанные проблемы.

Summary

Images of women in Ismayil Shikhli's novels

The work of Ismayil Shikhli occupies an important place in the 20th century Azerbaijani literature. The writer took an active part in the Great Patriotic War. After the war, he completed his incomplete higher education. He started artistic creation in the 50s of the 20th century. In addition to his stories, he wrote novels in different years. In the artistic works of the writer, a special attitude was shown to the images of women. The female images described by the writer are complex and dedicated. In this sense, Ismayil Shikhli continued and developed the best traditions of ancient, medieval, and especially XIX century Azerbaijani literature. Ms. Gullu, Zarnigar, Salatin, Melek, Tukazban, Zeynab, and Nargiz clarify what the author's position is. Women are loyal to their spouses and often give them valuable advice. The article examines the above-mentioned problems.

Rəyçi: Dosent Kadiyeva Sevda Əbdülsəməd q.

Ofeliya İsmayılova [47]

BÖYÜK HUMANİST YAZIÇI F. M. DOSTOYEVSKİNİN ƏSƏRLƏRİNDƏKİ SÜRƏTLƏRİN ÖZÜNƏMƏXSUSLUĞU

Fyodor Mixayloviç Dostoyevski yaradıcılığı nəinki rus, bütün dünya ədəbiyyatı tarixində parlaq zirvələrdən biridir. Yazıçı, həqiqətən də, gələcəkdən xəbər verən əsərlərində XIX yüzilliyin ortalarında ictimai şüur və varlığın daha mürəkkəb və ziddiyətli formalarına verilən diqqətə, dövrün dərin ziddiyyətlərinə daha dəqiq, zərif və düzgün açıqlamaq bacarığına əsaslanan realizmin xüsusi, təkrarolunmaz növünü yaratmışdır. O, bütün yaradıcılığı boyu insanlarda olan sosial və mənəvi əsasların mürəkkəb şəkildə bir-biri ilə əlaqədar dialektikasını obyektiv surətdə təsvir etməyə cəhd göstərmişdir. F.M.Dostoyevski ədəbi-bədii əsərlərində ziyalının, cəmiyyət tərəfindən rədd edilən şəxsin, cinayətkarın, yaxud özünə sui-qəsd edən bir insanın "ağlının və vicdanının xəstəliklərini" misli görünməmiş amansızlıqla təhlil etmişdir. Dünya ədəbiyyatında onun qədər mürəkkəb, ziddiyyətli və tədqiqi çətin olan az yazıçı tapılar. Ona hələ sağlığında "psixoloq yazıçı" deyənlər çox idi.

F.M.Dostoyevski qüdrətli, realist bir sənətkar olduğu kimi, öz ölməz əsərləri ilə dünya ədəbiyyatı xəzinəsini zənginləşdirən, insan qəlbinin ən gizli bucaqlarına dalıb, oradakı ən dəhşətli təzadları: işığı-zülməti, gözəlliyi-çirkinliyi, nəcabəti-rəzaləti, insani ehtirasları və heyvani hissləri məharətlə açıb göstərən dahi bir yazıçı olduğunu sübut etmişdir.

Onun əsərləri dilimizə xeyli gec tərcümə olunmuşdur. Bunun səbəbi yazıçının ədəbi və publisistik üslubunun mürəkkəbliyi, əksər hallarda ifrat gərginlik, sarsılma vəziyyətlərində personajların daxili monoloqlarının çoxsəsliliyi ilə izah olunur. Azərbaycan bədii tərcümə məktəbinin ən yaxşı nümayəndələri F.M.Dostoyevskinin "Bəyaz gecələr" («Белые ночи»)(tərc. Yusif Əzimzadə), «Неточка Незванова» (tərc. İshaq İbrahimov), "Alçaldılmış və təhqir olunmuş insanlar" («Униженные и оскорбленные»)(tərc. Beydulla Musayev), "Cinayət və cəza" («Преступление и наказание»)(tərc. B.Musayev), "Axmaq" («Идиот») (tərc. Q.Şərifov) adlı əsərlərini Azərbaycan dilinə tərcümə etmişlər. Bundan başqa onun "Kəndli Mareya" (tərc. S.Zeynalov), "Yad arvad və çarpayı altında olan kişi" (tərc. C.Cahanbaxş) və "Ədəbi ər" (tərc. Qılman İlkin) adlı hekayələrinin Azərbaycan dilində olan tərcümələri mövcuddur. Lakin L.Səmədovanın elmi axtarışlarından məlum olmuşdur ki, hələ 1914-cü ildə "İqbal" qəzetində ADP-nin gələcək rəhbəri olan M.Ə.Rəsulzadə tərəfindən tərcümə olunmuş "Ölü evdən qeydlər" («Записки из мертвого дома») əsərinin kiçik hissəsi "Qartal" adı altında nəşr edilmişdir (1).

M.Ə.Rəsulzadənin tərcümə etdiyi kiçik bir hissədə – "dustaqxana heyvanları" hissəsində burada yaşayan insanların ev heyvanlarına olan sevgisini görürük. Dustaqlar ağır işlər yerinə yetirən Kəhər adlı dayçaya səmimi şəkildə bağlanmışlar. At tələf olduqdan sonra buradakı insanlar onun ölümünü təşviş hissi ilə qarşılayır və yeni atın həbsxanaya gətirilməsini səbrsizliklə gözləyirlər: bu onları elə bil ki, həyata yenidən qaytarırdı və onlar ailələrini və azadlıqlarını arzulayırdılar. Xarakterik xüsusiyyət ondan ibarət idi ki, at alındıqdan sonra elə bir dustaq tapılmırdı ki, onun boynuna və ya boğazına sığal çəkməsin (2, s.252).

Yazıçı, həmçinin, qeyd etmək istəyirdi ki, bir sıra dustaqların ev istisinə olan meyli o qədər güclü idi ki, onlar ev heyvanlarına məhəbbətlə yanaşırdılar və əgər onlara icazəverilsəydi, onlar dustaqxanada çoxlu sayda olan evheyvanları və quşlarını da saxlayardılar. Əsərin sonunda dustaqxanaya yaralı qartalın gətirilməsi səhnəsi əks olunmuşdur. F.M.Dostoyevski həm yaralı qartalın əsarətdə olan əzablarını, dustaqların ona qarşı olan diqqətini və onların qartalı azadlığa buraxmalarını çox qabarıq şəkildə təsvir etmişdir. Gəlin əsərdən bir hissəni tərcüməsi ilə müqayisə edək:

Orijinal:«Одиноко и злобно он ожидал смерти, не доверяя никому и не примиряясь ни с кем… Наконец, арестанты точно вспомнили о нем, и хоть никто не заботился, никто не поминал о нем месяца два, но вдруг во всех точно явилось к нему сочувствие» (2, с.255).

Tərcümə: "Əvət, o, kimsəyə etimad göstərmiyor, kimsə ilə sülh etmiyor, barışmaz bir düşmən qalaraq ölümünü bəkliyordu. Artıq iki ay oldu ki, kimsə qaraquşu xatırlamıyor, onu düşünmüyordu. Fəqət son günlərdə ona qarşı bir məhəbbət hissi oyandı" (3, s.414).

Qeyd etmək lazımdır ki, tərcümə olunan hissə dəqiqsizliklərlə zəngindir. Ayrı-ayrı cümlələr artırılmışdır,«арестанты точно вспомнили о нем» cümləsi "kimsə qaraquşu xatırlamıyor, onu düşünmüyordu" cümləsi kimi tərcümə olunmuşdur ki, bu da yanlışdır.

Qartal haqqında olan hekayənin yekun hissəsində mövcud olan bəzi frazeologizmlər də tərcümə olunmamışdır.

Orijinal: «Ему, знать, черта в чемодане не строй. Ему волю подавай, заправскую волю-волюшку» (2, с.256).

Tərcümədə: "Sən ona şəfqatlı baxmağındansa ona hürriyyət ver, hürriyyət, o, mərhəmət düşgünü degil" (3, s.414).

Tərcümə zamanı "şeytanı çemodanda gizlətmək olmaz" ifadəsi tamamilə itmişdir. "Mərhəmət düşkünü degil" cümləsi isə mütərcim tərəfindən artırılmışdır.

Məlumdur ki, F.M.Dostoyevskinin əsərlərinin Azərbaycan dilinə çevrilməsi problemi çox zəhmət tələb edən bir işdir. Yazıçının ən gözəl hisslərini tərənnüm edən, nəcib, xəyalpərəstlərdən bəhs edən, poeziya ətirli "Bəyaz gecələr" povestini yazıçı Yusif Əzimzadə ustalıqla tərcümə etmişdir. Nəcib, insanmünasibətləri axtaran xəyalpərəstlik, yüksək məhəbbət duyğuları bütün əsər boyu oxucunu həyəcanlandırır,onda gözəl hisslər oyadır. Povestdə yazıçı köməksiz

[47] **AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu**

10.24412/2218-7588-2025-2-162-165

sevgililərə, nəcib, sadə, yoxsul insanlara rəğbətini bildirir və sinifli cəmiyyətin daxili puçluğunu, kəskin ziddiyyətlərini göstərir. Gəlin romandan bir parçaya nəzər salaq:

Orijinal: «Есть что-то неизъяснимо трогательное в нашей петербургской природе , когда она, с наступлением весны, вдруг выкажет всю мощь свою, всё дарованные ей небом силы, опушится, разрядится, упестрится цветами…Как-то невольно напоминает она мне ту девушку, чахлую и хворую, на которую вы смотрите иногда с сожалением, иногда с какою-то сострадательною любовью, иногда же просто не замечаете её» (4, с.111).

Tərcümədə: "Bahar gələrkən birdən-birə bütün qüdrətini, göylərin ona bəxş etdiyi bütün gözəlliyini aşkara çıxaran yaşıllıqlardan məxmər don geyinən, rəngarəng çiçəklərlə bəzənən Peterburq təbiətində təsvirə gəlməyən nə isə təsirli bir şey var...Bu təbiəti seyr edərkən bu mənə qeyri ixtiyari olaraq xəstə və zəif qızı xatırladır. Siz bu qıza təəssüflə, bəzən mərhəmət qarışıq bir məhəbbətlə baxırsız, bəzən isə onu sadəcə olaraq görmürsüz"(5, s.12).

1962-ci ildə Y.Əzimzadə tərəfindən Azərbaycan dilinə tərcümə olunmuş bu əsərdə dilimizin leksik zənginliyi, söz və ifadələrin çoxmənalılığından düzgün istifadə edilmişdir. Lakin yazıçı bir sıra tənqidçilərin narazılığı ilədə qarşılaşmışdır:

Orijinal: «Случись что не буду в известный час на том же месте Фонтанки, я уверен, что на него нападет хандра. Вот почему мы чуть не кланяемся друг с другом, особенно когда оба в хорошем расположении духа» (4, с.114).

Tərcümədə:"Əgər müəyyən saatda Fontankanın həmin yerdə qoca dostuma rast gəlməsəm, əminəm ki, o kədərlənər. Bax, buna görə də biz, bəzi hallarda, xüsusilə kefimiz yaxşı olduqda bir-birimizə az qala baş əyib keçirik" (5, s.12).

«Хондра» rus klassiklərinin əsərlərində rast gəlinən və hissi ifadə edən bir sözdür. Bu söz "kədərlənər" sözü kimi tərcümə olunmuşdur ki, bu da sözün ekvivalenti deyil. Burada orijinalda rast gəldiyimiz "bəzi hallarda" ifadəsi də artıqdır. Ümumiyyətlə isə,Y.Əzimzadənin özünün yaradıcı təfəkkürü, əsərin dərindən başa düşülməsi, onun məzmun və formasının tam şəkildə vəhdət təşkil etməsinə əsaslanmışdır.

Talesiz bədbəxt bir qızın həyatından bəhs edən «Неточка Незванова» povestinin Azərbaycan dilinə İshaq İbrahimov tərcümə etmişdir. Əsas surətlərdən biri xəyalpərəst qadın obrazıdır. Burada F.M.Dostoyevski uşaq yaşlarından həyatdan təcrid olunmuş qəribə insanların arasında tərbiyə edilən və yalnız sonradan həyatın reallıqları ilə üzləşən qəhrəmanın xarakterinin formalaşdırılmasının mürəkkəb prosesini həyata keçirmişdir. Əsərdə Netoçkanın dili ilə söylənilən hissələr çox təbiiliklə tərcümə olunmuşdur.

Orijinal: «Ефимов отвечал, что к графу он сам не пойдёт, но если его пошлют, то на это будет воля господская; графу он скрипку не продаст, а если у него захотят взять её насильно, то на это опять будет воля господская»(6, с.184).

Tərcümədə: "Yefimov cavabında deyir ki, öz xoşuna qalarsa o öz xoşu ilə qrafın yanına getməyəcək. Yox əgər məcbur edib göndərsələr başqa məsələ, bu ağanın öz işidir, skripkanıda qrafa satmayacaq, yox əgər onu zorla almaq istəsələr yenə də ixtiyar ağanındır"(7, s.56).

Tərcüməçi Netoçkanın atasının həyəcanlı nitqini düzgün şəkildə oxucuya çatdırmışdır. Ona, "на то воля господская" ifadəsini iki variantda işlətmişdir. "Ağanın öz işidir" və "ixtiyar ağanındır". Bu da orijinala xələl gətirmir. Göründüyü kimi nitq çox ifadəli alınmışdır.

F.M.Dostoyevskinin Azərbaycan dilinə tərcümə edilmiş ilk irihəcmli əsəri "Alçaldılmış və təhqir edilmiş insanlar" romanı olmuşdur. Bu əsər əvvəllər V.Hüqo, N.V.Qoqol və L.N.Tolstoyun əsərlərini tərcümə edən Beydulla Musayev tərəfindən çevrilmişdir. 1861-ci ildə qələmə alınmış bu romanda həyatda öz yerlərini tapmayan insanların məşəqqətləri,üçüncü təbəqəni təşkil edən yoxsullaşmış dvoryanların və müxtəlif ziyalıların həyatı təsvir edilmişdir. Gəlin xarakterik bir nümunəyə nəzər salaq:

Orijinal: «У двадцатидвухлетного князя, принуждённого тогда служить в Москве, в какой-то канцелярии, не оставалось ни копейки, и он выступал в жизнь как «голяк-потомок отрасли старинной» (8, с.181).

Tərcümədə: "O zaman Moskvada hansı bir dəftərxanada işləməyə məcbur olan iyirmi iki yaşlı knyazda bircə qəpikdə qalmırdı: O, həyata "lüt-üryan" qədəm qoymuşdur" (9, s.31).

B.Musayev "qanadlı" ifadə olan «голяк-потомок отрасли старинной» ifadəsini daha yığcam olan "lüt-üryan" frazeologizmi ilə əvəz etmişdir. Bu orijinalın mənasına bir qədər uyğun gəlmir. Digər nümunəyə müraciət edək:

Orijinalda: «Ты на вечерне собиралась, Наташа, а вот уж и благовестят, – сказала она. – Сходи, Наташенька, сходи, помолись, благо близко. Да и прошлась бы и заодно. Что в заперти – то сидеть? Смотри, какая ты бледная; ровно сглазили» (8, с.35).

Tərcümədə: "Nataşa sən axşam ibadətinə hazırlaşırdın, budur zəng də çalır. Nataşa,get, get dua elə, yaxşı olarsan! Bir az da gəzərsən, həmişə evdə oturmaq olmaz ki, gör bənizin necə solub, elə bil sənə göz dəyib" (9, s.36).

Tərcümə ilə orijinalı tutuşdurduqda hər kəlmənin öz yerində işlənməsi, sözlər arasında bədii əlaqənin itməməsi, bədii dilimizin sadə və təbii gözəlliyinin saxlanması aydın hiss olunur. Lakin bəzi hissələrdə tərcümə çatışmamazlıqlardan heç də məhrum deyildir.

Orijinalda: «Ах, да ведь я и забыла (всё то я забываю!) ладанку я тебе кончила; молитву зашила в неё, ангел мой» (8, с.35).

Tərcümədə: "Ah! Gör necə yadımdan çıxıb (İndi hər şey yadımdan çıxır), Mələyim, sənə bir dua tikmişəm" (9, s.36).

"Ladanka" sözünün Azərbaycan dilində hərfi mənasını izah etmək çətindir. Rus-Azərbaycan lüğətində bu söz "kisəcik" kimi tərcümə olunur. İfadəni "dua qoymaq üçün kisəcik tikmişəm" kimi çevirmək olardı.

Dostoyevski əsərlərini tərcümə edən şəxslərin digər xarakterik səhvlərindən biri də orijinal əsərin sadə cümlələrinin mürəkkəb cümlədə birləşdirilməsindən ibarətdir.Nümunəni nəzərdən keçirək.

- «Непременно простит, только может быть не так скоро. Ну что ж? Я докажу ему, что и у меня есть характер. Ведь сделаться семейным человеком не шутка; тогда уж я буду не мальчик... то есть я хотел сказать, что я буду такой же, как другие... ну, там, семейные люди»(8, с.40).

"Mütləq əfv edəcək, ancaq ola bilsin ki, bir az tez olmayacaq. Nə eybi var!? Mən ona sübut edərəm ki, mənim də iradəm var. Axı ailə sahibi olmaq zarafat deyil;onda mən daha uşaq olmayacağam...Yəni onu demək istəyirəm ki, mən də o biri adamlar kimi olacağam, ailəli adamlar kimi" (9, s.57).

Lakin bu pozuntular əsərin bədii-ideya mənası və onun üslubunun təhrif edilməsinə gətirib çıxarmamışdır. Əsasən, tərcümənin dürüstlüyü müəllif üslubunun, milli koloritin qorunub saxlanması, Azərbaycan dilinin incilərinin bütün parlaqlığı ilə yaşatması, rus dilinə xas olan spesifik terminlərin tərcümə mətninə təbii surətdə daxil edilməsi B.Musayevin yaradıcılıq nailiyyəti kimi qiymətləndirilmişdir.

"Alçaldılmış və təhqir edilmiş insanlar" romanı üçüncü təbəqəni təşkil edən insanların, yoxsullaşmış dvoryanlar və müxtəlif ziyalıların həyatını əks etdirmişdir. Təbiidir ki, öz strukturu və probleminə görə mürəkkəb olan bu əsərin tərcümə olunması çox çətin iş hesab edilirdi. Lakin B.Musayev "Alçaldılmış və təhqir edilmiş insanlar" romanının müəllifinin humanizmliyini, onun sosial ədalətsizliyə qarşı yönələn etirazını milli oxuculara çatdırmağa müvəffəq olmuşdur.

M.F.Dostoyevskinin erkən dövrlərdə yazılan povestləri və eləcə də iri epikformalı ilk əsəri olan "Alçaldılmış və təhqir edilmiş insanlar" romanından sonra bizim Azərbaycan tərcüməçilərinin onun "Cinayət və cəza" adlı əsərinə müraciət etməsi qanunauyğun hesab edilir.Rusiyanın kapitalizmə qədəm qoyduğu dövrdə qələmə alınmiş (1866-cı il) bu əsər burjuaziya reallığının ziddiyyətini, zənginlik və yoxsulluğu, "cəmiyyətin güclü qüvvələri" ilə şəhərin alçaldılmış və təhqir olunmuş təbəqəsi arasında olan kontrastları ifadə etmişdir. Əsərin baş qəhrəmanı olan kasıb tələbə Raskolnukov təsirlərə məruz qalsa da, o bu yazıq insanlara kömək etmək səadəti və xöşbəxtlik yollarını tapmaq arzusundadır. Tərcüməçi Beydulla Musayev əksər hallarda romanın psixoloji xüsusiyyətini, əsas məzmununu, dialoqlar ilə monoloqların mahiyyətini oxucuya çatdırmağa nail olmuşdur. Romanın əvvəlində Raskolnikov meyxanada əvvəllər titulyar müşavir olmuş, daha sonra öz işini itirərək, ailəsi ilə birlikdə tam yoxsulluqda yaşayan, lakin insan ləyaqəti hissindən məhrum olmayan cənabMarmeladov ilə rastlaşır. B.Musayev emosional xüsusiyyətlərə malik olan bu həyəcanlı monoloqun tərcümə zamanı bütün normalarına (leksiki və sintaksis) riayət etməklə oxucuya çatdırılmasına nail olmuşdur.

Orijinalda: «А, осмелюсь ли, милостивый государь мой, обратиться к вам с разговором приватным? Ибо хотя вы и не в значительном виде, но опытностьмоя отличает в вас человека образованного и к напитку непривычного. Сам всегда уважал образованность, соединённую с сердечными чувствами, и, кроме того, состаю титулярным советником. Мармеладов – такая фамилия… Осмелюсь узнать: служить изволили» (10, с.15)

Tərcümədə: "Hörmətli cənab, cəsarət edib ləyaqətli söhbət üçün müraciət edə bilərəmmi? Zira siz hərçənd yaxşı görkəmə malik deyilsiz, amma mənim təcrübəm sizin oxumuş və içkiyə adət etməmiş bir adam olduğunuzu nəzəriməçatdırır. Mən özüm həmişə təhsillə birləşmiş səadətli hisslərə hörmət etmişəm.Bundan əlavə, titulyar məsləhətçiyəm, familyam Marmeladovdur. Cəsarət edib soruşuram: İltifat edib qulluq edirsinizmi" (11, s.18).

Hər kəlmə yerində işlənmiş, tərcümə uğurlu alınmışdır. Belə çətin ifadə«титулярный советник» sözləri düzgün olaraq yenə titulyar məsləhətçi kimi tərcümə olunmuşdur.

"Cinayət və cəza" romanında mərkəzi qəhrəman olan Raskolnikovun daxili monoloqu, onun ruhu və qəlbi, onun xəstə tarazlaşdırılmış şüurunun özünəməxsus etirafı xüsusi yerlərdən birini tutur.

Raskolnikovun etdiyi cinayətlərdən sonra duyduğu həyəcanların təsvir edilməsi zamanı F.M.Dostoyevskinin psixoloji məharəti xüsusi qüvvəyə malik olmuşdur. Əsərin qəhrəmanı özünü Napoleon və hökmran kimi deyil, "sakit, zəifləmiş addımlar və titrəyən dizləri ilə geriyə qayıdan, əsən bit" kimi hiss edir. Gəlin bu parçaya nəzər salaq:

Orijinalda: «Потому, потому я окончательно вощ – прибавил он, скрежеща зубами, – потому что сам-то я, может быть, ещё сквернее и гаже, чем убитая вощь, изаранее предчувствовал, что скажу себе, это уже после того, как убью» (10, с.287).

Tərcümədə: "Sonra o, dişlərini qıcadaraq əlavə etdi: Ona görə mən qəti surətdə billəm ki, bəlkə də mən özüm o öldürülmüş bitdən daha pisəm, daha murdaram: əvvəlcədə elə özüm hiss edirdim ki, onu öldürəndən sonra bu sözü özümə deyəcəyəm" (11, s.18).

Tərcüməçi Raskolnikovun fikirlərinin həyəcanlı axınını onun daxili sarsıntılarını düzgün şəkildə ifadə etmişdir. Burada, B.Musayev dəqiq ekvivalenti tapır və Raskolnikovun qorxu və şübhələrlə dolu olan nitqinin intonasiyasını, müvəffəqiyyətli şəkildə oxucuya çatdırır.

Ədəbiyyatşünaslar yaxşı bilirlər ki, M.F.Dostoyevski öz bədii əsərlərində adların əvəzində əvəzliklərdən istifadə edir. Yazıçı həcmcə iri olan bu romanda öz baş qəhrəmanının soy adından az istifadə edir. Bunun əvəzinə "onu" sözünə tez-tez rast gəlirik. Bu isə müəllifin öz personajının məşəqqətli həyəcanlarını açıqlamasına yardım edir.

Orijinalda: «Он никогда не говорил с ними о боге и вере… Он молчал и не возрожал им … бровь его не шевелнулась, ни одна чертаего лица не дрогнула … Он пролежал в больнице весь конец поста и святую…»(10, с.556)

Tərcümədə: "Raskolnikov onlarla Allah barəsində, din barəsində heç söhbət etməmişdi. Lakin dustaqlar onu bir dinsiz kimi öldürmək istəyirdilər. Raskolnikov sakitcə durub onu gözləyirdi; onun qaşları tərpənmirdi, üzündə heç bir dəyişiklik görünmürdü... Raskolnikov pəhrizin sonuna kimi və pasxa bayramını xəstəxanada yatdı..." (11, s.605)

Tərcüməçi "Raskolnikov" soyadını üç dəfə təkrar edir, halbukibu müəllif tərəfindən "o" əvəzliyi ilə verilmişdir.Raskolnikov cənab Marmeladov ilə görüşür, onun ailəsinin faciəli vəziyyəti, onun böyük qızı olan Soneçkanın acınacaqlı həyatı haqqında öyrənir. Daha sonra o anasından bacısı Duneçkanın qardaşına maddi kömək etmək məqsədilə işbaz Lujina ərə getməsi haqqında məktub alır. O, bir sıra personajların daxili və xarici səsini eşidir, onlar ilə sərbəst dialoqlar aparır, onlara etiraz edir, onlar ilə mübahisə edir və onlara istehza edir.

Qeyd edək ki, B.Musayev bu dialoqların bəzilərinin əsas xüsusiyyətlərini bacarıqlı şəkildə oxucuya çatdırmışdır. Məsələn:

«Небывать этому браку, пока я жив, и к черту господина Лужина!»«Потому что это дело очевидное, – бормотал он про себя, ухмыляясь излобно торжествуя заранее успех своего решения. – Нет, мамаша, нет, Дуня, необмануть меня вам!.. И ещё извиняются, что моего совета не попросили и безменя дело решили!» (10, с.556)

Tərcümədə bu cümlə növbəti şəkildə səslənmişdir:

"Nə qədər ki, mən sağam, onlar evlənməyəcək, cəhənnəm olsun cənab Lujin də! – O, öz qərarının müvəffəqiyyətlə nəticələnəcəyinə sevinərək, kinli-kinli gülümsəyir, mızıldayaraq öz-özünə deyirdi: - ona görə ki, bu aydın bir məsələdir. Yox, ana, yox, Dunya, siz məni aldada bilməyəcəksiniz! Hələ bir üzür də istəyir, mənsiz məsələni həll etmişlər!" (11, s.605)

Göründüyü kimi, tərcümədə Raskolnikovun bu "dialoqlaşdırılmış" monoloqunun əlamətləri xarakterizə olunmuşdur. Bundan başqa, belə bir amil də nəzərə çarpır ki, tərcüməçi bəzi hallarda şüurlu şəkildə orijinal əsərin adekvatlı tərcüməsindən kənara çıxmışdır.

Bildiyimiz kimi, əsərdə çoxlu atalar sözünə və zərbi məsəllərə rast gəlinir.Qeyd etmək lazımdır ki, əksər hallarda bunlar B.Musayevin çevirməsində dəqiq şəkildə tərcümə edilmişdir. Məsələn, «это только цветочки, а настоящие фрукты впереди» kimi xalq məsəlini tərcüməçi belə səsləndirmişdir: "bu hələ harasıdır, əsl işlər hələ qabaqda olacaq".

Yaradıcılığındakı, təfəkküründəki məlum ziddiyyətlərə, əsərlərindəki boyaların tutqunluğuna, bəzən ifrat qatılığına, bəlkə də qaranlığına baxmayaraq, F.M.Dostoyevskinin yaratdıqları bəşəriyyət üçün qiymətlidir, əzizdir.

F.M.Dostoyevskiirsinin Azərbaycan oxucularına çatdırılması böyük bir şərəfli işdir. Ümidvaram ki, ədibin hələ tərcümə olunmamış, lakin dünya şöhrətini qazanmış digər əsərləri də, şübhəsiz ki, Azərbaycan dilində bütün bədii əzəməti və gözəlliyi ilə canlanacaqdır.

İstifadə olunmuş ədəbiyyat:

1. Самедова Л. Русская классическая литература в дореволюционных переводах.Автореферат дис.докт.фил.наук.Б.,1996.
2. Достоевский Ф.М. «Записки из мертвого дома». М., 1983.
3. Dostoyevski F.M. "Cİlь evdən qeydlər". Hekayələr. Bakэ, 1983.
4. Достоевский Ф.М. «Белые ночи». Л., 1983.
5. Dostoyevski F.M. "Bəyaz gecələr". Az.Dцvlət Nəcr., 1971.
6. Достоевский Ф.М. «Неточка Незванова». Полн.Собр.Соч. Л., Наука, 1972, т.2.
7. Dostoyevski F.M. "Netoзka Nezvanova". Bakэ, Gənclik, 1977.
8. Достоевский Ф.М. «Униженные и оскорбленные».М.,Худож.Литература,1971.
9. Dostoyevski F.M. "Alзaldəlmэю və təhqir edilmiю insanlar". Bakэ, Gənclik, 1979.
10. Достоевский Ф.М. «Преступление и наказание». М., Худож. Литература, 1971.
11. Dostoyevski F.M. "Cinayət və cəza". Bakэ, Azərnəcr, 1960.

Великий писатель-гуманист Ф.М.Достоевский исвоеобразие образовв его произведениях

Резюме

Статья посвящается великому русскому писателю, знатоку человеческих сердец Ф.М.Достоевскому и созданным им образам. В творчестве писателя отразились противоречия действительности и общественной мысли, мир человеческих страданий и трагедия ущемленной, униженной личности.

Безусловно, переводить такого сложного писателя создает определенные трудности. В статье частично затрагивается проблема перевода и как переводчики Ф.М.ДостоевскогоЮ.Азимзаде, И.Ибрагимов, Бейдулла Мусаев раскрыли внутренний мир этих образов.

The great writer humanist F.M. Dostoevsky and the originality of characters in his works

Summary

The article is devoted to the famous Russian writer F.M.Dostoevsky, the master of human souls. His oeuvre incorporate all contradictions of the reality, the artist sounds the depths of human misery, the tragedy of degraded person.

No doubt, it is very hard to translate the masterpieces of such complicated writer. In this article some point of translation are touched on as well as how the interpreters Y.Azimzade, I.Ibrahimov, B.Musayev preserve the inward of characters in the course of translation.

RƏYÇİ: dos. L.Ələkbərova

Məmmədova Tinatin İsabalı qızı [48]

ŞAİR AĞACANIN DASTANLARI

Aşıq sənətinin inkişafında böyük xidmətləri olan şair Ağacan Cabbar oğlu Cabbarlı 1876-cı ildə Şorayıl mahalının Qarakilsə kəndində anadan olmuşdur. Həyatının çox hissəsini Borcalıda kecirdən sair-asıq kimi tanınan Ağacan 80 ildən cox ömür sürmüs, 1951-ci ildə Sibirdə vəfat edib. "Cox erkən anasını itirmis, usaqlıq illəri ağır keçmiş, ilk məhəbbəti olan Gülzarla qovuşa bilməmiş Ağacan üçün atasının nə deməkistədiyiaydınidi...Ağacan 19 yaşında ailə qurur, Gülxanım adlı bir qızla evlənir. Bir ildən sonra qızı Zəhra dünyaya gəlir. Körpənin ayağı sayalı olur, gəlin gənc ərini iki oğulla sevindirir. Lakin... Ağacan ailə sevincindən doymamış, erməni quldurları başı min bəla çəkmiş xalqı öz doğma el-obasından pərən-pərən salır. 1906-cı ildən də Ağacanın ailəsi Gümrüdən çıxmalı olur, çıxmalı olur yox, didərgin düşür, ailə üzvləri də bir-birindən xəbərsiz. Cəlladların törətdiyi vəhşiliklər çalın-çarpaz dağ çəkir Ağacanın ürəyinə; ömür-gün yoldaşından və üç körpəsindən xəbərsiz Borçalı mahalının Quşçu kəndinə pənah gətirir. Uzun axtarışlardan, əziyyətlərdən sonra ailəsinin və qohumlarının İranda və Türkiyənin İstambul şəhərində məskən saldıqlarını öyrənə bilir. Ürəyində övlad nisgili qalan şair bir də onu öyrənə bilir ki, böyük oğlu Qəmbər əzab-əziyyətlərə dözə bilməyib, dünyasını dəyişib. Dərd üstündən dərd yüklənirsairə... Usaqlıq illəri cox ağır keçib. 1906-cı ildə erməni-müsəlman qarşıdurması nəticəsi olaraq ailəsi ilə birgə Sorayıldan çıxır, ailə üzvləripərən-pərəndüşür.Ağacan özü Borçalının Quşçu kəndinə pənah gətirir, ömür-gün yoldaşı və üç körpəsinin sorağını Türkiyədən alır.

Şair Ağacanın həyatı Borçalıda da ağır keçib. O, Quşçu kəndində də uzun müddət yaşaya bilməyib və məcburiyyət qarşısında qalıb Qaçağana köçüb və burada məskunlaşıb.Şair Ağacan 1917-ci ildə ikinci dəfə öz əmisi qızı Zəhra ilə evlənir və ömrünün sonuna qədər onunla yaşayır. İki oğlu-Ənvərlə, Səmistan və iki qızı - Tərlanla Göyçək dünyaya gəlir... Lakin... Ağacan Quşçu kəndində də cox yaşaya bilmir. O, ərəb və fars dillərini kamil bildiyindən kəndin nəsi mollalarının savadsızlığını sübut edib, onların yalanlarını xalqa başa saldığından, camaatın gözündən düşən "molla"lar yaxınlıqdan keçən arxın suyunu açıb, gecəynən Ağacanın evinə doldururlar. Elə o vaxtdan ailəsi ilə birlikdə qonşu Qaçağan kəndinə köçür. Həmin hadisədən təsirlənən şairin qaynar sinəsindən ana südü qədər təmiz, dağ çeşməsi kimi şəffaf şerlər axmağa başlayır.

Şair Ağacan Qaçağan kəndində də yersiz təqiblərə məruz qalıb. Dəfələrlə qandallanıb, lakin günahsız olduğundan azad edilib. Lakin kin-küdurət daş qəlblərdənsilinməyib.1943-cü ildə Şair Ağacanı günahı olmadan yenə həbs edirlər"(2).

XX əsrin əvvəllərindəki erməni-müsəlman davasında erməni şovinistlərinə qarşı mübarizə aparıb, əmisi oğlu Qorxmazı öldürən rus hərbçini öldürüb.

Bundan sonar həm ermənilərin təqibindən yaxa qurtarmaq, həm də birinci həyat yoldaşı ilə qarşılaşıb əzab çəkməmək üçün ikinci həyat yoldaşı Zəhranı da götürüb Borçalıya gəlir.Ağacan Quşçuya gəldiyi gündən aşıq İbrahimin (Quşçu İbrahimin) ailəsi ilə yaxınlıq edir, İbrahimin ailəsi ona bəzi şevlərdə köməklik edir.

İbrahimlə Ağacan arasında bir doğmalıq yaranır. Bu münasibət həm də ona gətirib çıxarır ki. İbrahim ustadı Dollu Abuzər rəhmətə gedəndən sonra(1912) Ağacandan aşıqlığın sirlərini öyrənməyə başlayır. Təsadüfi deyil ki, sonralar nüm Quşçu İbrahim deyirdi:"Abuzərdən dərs almışam, Ağacan ustadım olub".

Ağacan aşıq sənətinin inkişafında mühüm xidmətləri olan – Borçalıda Xındı Məmməd, Quşçu İbrahim, Əmrah Gülməmmədov, Göycə Məmmədov və digər böyük ustad aşıqların yetişməsində əvəzsiz xidmətləri ilə seçilən sənətkardır. Hər əlinə saz alıb, özünə aşıq deyənlərə qarşı daim sərt davranışları ilə seçilmişdir.

Aşıqlıq bir dərvadı,
Hər yetən dalmasın gərək.
"Divani", "Təcnis" yerinə
"Gəravlı" calmasın gərək.

Sair Ağacanın seirlər və dastanları aşıqların repertuarında mühüm yer tutur. Sairin "Cahangir-Mələksuma" dastanı dillər əzbəri olmusdur. Sair Ağacanın yaratdığı bu dastanı folklorsünas alim, Əməkdar mədəniyyət iscisi Elxan Məmmədli 1980-ci ildə ustad aşıq Əmrah Gülməmmədovun dilindən yazıya köçürüb. Dastanın qısa məzmunu aşağıdakı kimidir:

"Misir şəhərinin - padşahı Ədil şahın övladı olmurdu. onun bir yaxşı tədbirçi vəziri vanydı. Bu gün Ədil şah dedi:

- Vəzir, mən artıx qocalıram, mənim var-dövlətimə. tacıma, bu cah-calalh sələtənətimə sahib olajax bir öyladım yoxdu.

Vəzir dedi:

- Qibleyi-aləm, mən o iş üçün nə tədbir eliyə bilərəm? da gözdə, bəlkə də, Allahdan sənə bh öylad kəramət ola.

Ancax, deyillər, padşahm bir bərbəri var idi. Padşah üz-başım ona təraş etdirərdi. Bir gün padşah üz-başını eləməkdən ötrü bərbərin qarşısında əyləşdi. Öz əksini aynada çox pərişan görüf dərinnən bir ah çəkdi. Baxdı

---

[48] **AMEA Nizami Gəncəvi adına. Ədəbiyyat İnstitutunun aparıcı elmi işçisi, fil.f.d., dosent.**

10.24412/2218-7588-2025-2-166-168

gördü ey dili-qafil, üzü-başı tamam ağanrıf. Fikirləşdi ki, hə... qojalıx məni yama yerdə haxladı. Bərbər padşahın bu halını duydu. Dedi:

- Qibleyi-aləm, bu yer üzündə böyüklük sizdə, ad-san taxt-tac, dövlət-var, səltənət sizdə, axı, nə dərdiniz ola bilər ürəkdən ah çəkdiniz?

Padşah dedi:

- Bərbər, mane olma, işinnən məşğul ol.

Bərbər dedi:

- Padşahım, dərdini deməsən, öldürsən də, üzünü təraş eləmijəm"(1.98)

Bərbərin əlindən cana gələn padşah dərdini ona danışdı. Bərbər ona malını-mülkünü paylamağı məsləhət gördü. Bərbərin məsləhətinə qulaq asan şahın bir il sonra Cahangir oğlu dünyaya gəldi. 18 yaşına çatanda bir gecə yuxuda Hindistan padşahının-İzzət bəyin bacısı Mələksuma xanıma aşiq olur. Dərdini sazla anasına,atasına söyləyən Cahangir bu söydadan əl çəkməyəcəyini söyləyir. Şah əlac yolu kimi oğlunu vəzirlə birlikdə Yəmənə göndərir. Yəmənə tacir libasında vəzirlə gələn Cahangir bir yol edib Mələksumanı görür. Mələksuma da Cahangirə vurulur. Alveri qoyub xəlbət-xəlbət qızla görüşməyə qaçan Cahangirə vəzir öyüt-nəsihət verir, hər yerdə açıq-aşkar Mələksumanın adını çəkməsin. Sən demə Cahangirdən başqa Heydər xan adında bir nəfər Mələksumanın tərifini eşidib ona aşiq olub. İzzət şaha xəbər gedir ki, bacın Mələksumanı Heydər şaha verdin verdin, yoxsa zora əl atmalı olajıyıx. İzzət şah vəzir-vəkili ilə məslətləşdikdən sonra döyüşməyi qərara aldı. Lakin İzzət şahın qoşunları döyüşdə qırıldı. Şah naəlac qalıb camaatı səfərbərliyə çağırdı. Hadisədən xəbər tutan Cahangir özü Bəxtiyar pəhləvanla üz-üzə gəlir. Əvvəl deyişib, sonra vuruşurlar. Cahangir pəhləvanı məğlub edir. İzzət şah bu vəziyyətdən xoşhal olur, Cahangirə xələt verir. Lakin hadisədən xəbər tutan Heydər bəy fikrindən dönmür, bu dəfə də Hafiz adlı aşığı götürüb gəlir İzzət şahın qapısına. Tələbi bu olur ki, kim bu aşığa qalib gəlsə o çıxıb gedəcək, yoxsa qızı özü ilə aparacaq. Heç kəs Hafiz aşığa qalib gələ bilmir, Cahangir vəziyyəti görüb sazını da alıb meydana daxil olur.

Hafız əfəndi:
İnanginən yeminimə, andıma,
Qocalsam da, gümanım var kəndimə.
Hafizsən, düşməynən feli-fəndimə,
Kəndini kəməndə salıb gedərsən.
Cahangir bəy:
Qoca, andın qənim olsun canına,
Şəyirdləri nə düzüfsən yanına.
Ağ saqqalın batıraram qanına,
Başını bədənnən atıb gedərsən.
Hafiz əfəndi:
Hafiz əfəndiyəm, gəl məni tanı,
Çoxları qarşımda sındı, usandı.
Ellər görür baş-bədəndən atanı,
Bir cana borclusan, ölüb gedərsən.
Cahangir bəy:
Cahangir sanını endirdi ona,
Geyinib keçindim bir ayrı dona.
İftida kim idi, gəldi cahana,
Beşi pəncəlabdı, söylə beşi nə**?**

Yenə cavab verə bilməyən Hafiz əfəndi sazını Cahangirə verməyə məcbur olur. Cahangir bu qoçaqlığının qarşılığı olaraq Mələksumaya elçi düşür. İzzət şah belə qoçaq, qorxmaz gəncə razılığını bildirir. Araşdırdıqdan sonra Cahangirin Ədil şahın oğlu olduğunu bildikdən sonra lap ürəklə qızını Cahangirə verdi. Neçə gün, neçə gecə toy-düyün oldu. Toyun sonunda aşıq gəlib toyu belə tamamladı:

Sənə nejə bel bağlayım, ey vəfasız fani dünya,
Mənnən artıq bəndələrin itib adı-sanı, dünya.
Biədəbsən, tanımırsan nə sultanı, xam, dünya,
Çox yığıbsan gərdəninə belə nahaq qanı, dünya.
Qubarlanma öz-özünə, gəl yolunu tanı, dünya,
Özünnən baqi qoymadın, mülkü Süleymam, dünya.
Gündə neçə min işləri keçirirsən xəyalınnan,
Döy başına ağlaginən, qiyamatın zavalınnan.
Gündə min biri oluban, minin dəyirsən dalınnan.

Ədəbiyyat

1. M.Nəbioğlu. Şair Ağacan: ömür yolu, mühiti və sənəti. Bakı,2023,190s.
2. M.Borçalı. Şair Ağacan. Zim.az. 2019.
3. Afina Barmanbay. Şair Ağacan ve "Türkiye seferinin" üç varyantı. Budapeşt 2023.

Xülasə

Aşıq sənətinin inkişafında böyük xidmətləri olan şair Ağacan Cabbar oğlu Cabbarlı 1876-cı ildə Şorayıl mahalının Qarakilsə kəndində anadan olmuşdur. Şair Ağacan dövrünün haqsızlıqlarına biganə qalmayan, ədalətsizliklərlə barışmayan biri olmusdur. Kesməkesli həyat sürən Ağacanın seirləri və dastanları asıqların repertuarında mühüm yer tutur. Sairin "Cahangir-Mələksuma" dastanı dillər əzbəri olmuşdur. Məqalədə dastanın qısa məzmunu əks olunmusdur.

Açar sözlər: Aşıq, aşıq sənəti, Ağacan, dastan, şair.

Эпосы поэта Агакана

РЕЗЮМЕ

Поэт Агаджан Джаббар оглу Джаббарлы, внесший большой вклад в развитие ашугского искусства, родился в 1876 году в селе Гаракилсех Шораильского района. Поэт Агаджан был человеком, который не был равнодушен к несправедливости своего времени и не мирился с несправедливостью. Поэмы и эпосы Агаджи, прожившего бурную жизнь, занимают важное место в репертуаре ашугов. Эпос поэта «Джахангир-Мелаксума» стал любимым произведением многих народов. В статье отражено краткое содержание эпоса.

Ключевые слова: Ашик, ашикское искусство, Агаджан, эпос, поэт.

Poet Agajan's epics

Summary

The poet Agajan Jabbar oglu Jabbarli, who made great contributions to the development of ashiq art, was born in 1876 in the village of Garakils, Shorayil district. Poet Agajan was someone who was not indifferent to the injustices of his time and did not reconcile with injustices. Agajan, who lived a turbulent life, holds an important place in the repertoire of ashiqs. The poet's epic "Jahangir-Melaksuma" has become a household name. The article reflects the brief content of the epic.

Keywords: Ashiq, ashiq art, Agajan, epic, poet.

RƏYÇİ: dos. E.Vəliyeva

Tahirə Bağırova [49]

SƏRRAF QASIMIN QOŞMALARI VƏ GƏRAYLILARI

Çoxəsrlik tarixə malik olan Azərbaycan aşıq məktəbi özünəməxsus inkişaf yolu keçmişdir. Tarixin müxtəlif çağlarında yaşayıb-yaratmış bir çox istedadlı aşıq və şairlər ədəbiyyatımızın yeni mövzu və ideyalarla zənginləşməsində, bədiilik baxımından kamilləşməsində əhəmiyyətli rol oynamışlar.Yurdumuzun ən qədim bölgələrindən olan Naxçıvanda da aşıq sənətinin özünəməxsus inkişaf yolu və xüsusiyyətləri olmuşdur.

Çağdaş Naxçıvan aşıq məktəbinin banisi kimi tanınan unudulmaz şair və ustad Sərraf Qasımın aşıq yaradıcılığı Naxşıvan aşıq saz və söz yaradıcılığına qiymətli töhfələr verıb. Tədqiqatçıların araşdırmalarından məlum olur ki, Naxçıvan aşıq və şairləri arasında Sərraf Qasım qədər deyişmələri, şeirləşmələri, digər şair və aşıqlarla görüşmələri olan, dastanlar,qoşmaları və gəraylılaryaradan ikinci bir şəxs olmamışdır.

Ustad aşıq və şairlərdən dərs alan, aşıq sənətinin bütün sirlərinə bələd olan və öz yaradıcılıq fəaliyyəti ilə Azərbaycan aşıq ədəbiyyatının inkişafına əvəzsiz töhfələr verən Sərraf Qasım Naxçıvan mühitində könüllü olaraq öz sazı və sözü ilə aşıq sənətinin əhəmiyyətli şəkildə təbliği və tədrisi sahəsində mühüm xidmətlər göstərdiyinə, Naxşıvan aşıqlarının böyük bir hissəsini Azərbaycanın digər bölgələrindən alıb gətirdiyi sazlarla təmin etdiyinə, Naxçıvanda ilk dəfə rəsmi saz məktəblərinin yaranmasının səbəbkarı olduğuna və çox sayda aşıq və saz müəllimi yetişdirdiyinə görə tədqiqatçı folkloşünas və ədəbiyyatşünas alimlər tərəfindən çağdaş Naxçıvan aşıq məktəbinin banisi adlandırılmışdır. Rüstəmli Sərraf Əyyub oğlu 31 dekabr 1939-cu il tarixdə Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunun Aşağı Qışlaq kəndində anadan olub.

Aşıq kimi çalıb-oxumasa da el şairidir. Öncə "Qışlaqlı Qasım", sonra " Sərraf Qasım" təxəllüsünü seçmişdir. Onun "Beşlik", "Yeddilik" hecalarında şeirləri çap edilib.(3, səh,10-17).

11 hecalı şeirlər - QOŞMALAR VƏ TƏCNİSLƏR:

11 hecalı, 4 misralı şeirlər - (Mürəbbelər)

SƏNİN NƏYİN VAR?
BU TOYDA
XOŞ GƏLİB
CANSAĞLIĞIDI
GƏLƏNDƏ GƏL
BU BƏYİN
AY ANA-ANA
BALA (Xoşbəxt ata)
OLSUN (Öyüd)
UNUTMA
O BƏXTƏ-BƏXTDİR
İGİD İŞİ
BAĞÇADA GÜL

XX əsrin ikinci yarsında Naxçıvan Muxtar Respublikasında aşıq sənətinin dirçəlişinə və yeni inkişaf mərhələsinə daxil olmasına ən mühüm töhfələr vermiş şəxs məhz Sərraf Qasım olmuşdur. Bundan başqa, onun başqa janrda şeirləri də vardır. " Örnəklər" el şeiri tərzində yazılmış nümunələr sırasındadır:

Şirin xəyallara dolandırıram,
De, dolandırıram, kimi çiynimdə?
cəmi çiynimdə.
Zənn edirəm: fırtınalı cahanda,
Ümman mənəm, üzür gəmi çiynimdə,
nəmi çiynimdə.

"Xəyal" şeiri məhz bu mövzudan bəhs edir.

Əzəl gündən qədir bilən dostların,
Billəm qədrin, əhli-halam, əhli-hal,
Bu deyil xəyal.
Bu ki, xəyal deyil, bir həqiqətdir,
Dostların qəlbində qurmuşam cəlal,
Yoxdur qəm, məlal.

Şeirlərində fikir, məzmun aydınlığı, dil və üslub axıcılığı var.Sərraf Qasım eyni zamanda həm klassik, həm də müasir poeziya janrlarında heyrətamiz şeirlər və dastanlar yazıb-yaradan bir şair olmuş və öz dövründə "Azərbaycanın misilsiz və təkrarsız şair oğlu" adlandırmışlar.

[49]Filologiya üzrə fəlsəfə doktoru., aparıcı e.i, dosent Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
10.24412/2218-7588-2025-2-169-172

Xeyli sayda dastanlar, deyişmələr, şeirləşmələr, qoşmaları, gəraylıları, bağlamalar, qıfılbəndlər, ustadnamələr, ibrətnamələr, nəsihətnamələr, poemalar, mərsiyələr və lirik şeirlərin yaradıcısı olan Sərraf Qasımın əsərləri mövzu baxımından da çox zəngin olmuşdur. Sərraf Qasımın yaradıcılığında onun ədəbi-tənqidi görüşlərini əks etdirən qoşmaları da maraq doğurur.

"Nə qaldı yüzə" şeirində:

Əlfə ziyarətdə halı dolandım,
Mən də bu dünyanı, Alı, dolandım.
Doxsanı topladım, nə qaldı yüzə?
Çin düzə-düzə.
Aşıq, çin düzə-düzə,
Gəzdim çin düzə-düzə.
Saydım ömrüm ilməsin,
Gecə, gün düzə-düzə.

Xalq aşığı və el şairi olmasına baxmayaraq Sərraf Qasım öz şeirlərində poeziyanın qarşısında duran vəzifələr haqqında da özünün ədəbi-tənqidi fikirlərini ifadə edir. Onun şeirlərində klassik aşıqların ustadnamələrində, ictimai məzmunlu şeirlərində müşahidə etdiyimiz hikmət və məna dərinliyi də duyulur.

Cığalı qoşmalar və təcnislər:

Aramızdan vaxtsız getdin, ay aşıq,
Qaldı ellərində sazın, Abdulla.
Bağınız verəndə təzə bar, aşıq,
Qara torpaq örtdü üzün, Abdulla.
Aramızdan vaxtsız getdin, Abdulla,
Qaldı ellərində sazın, Abdulla.

"Sənin nəyin var" adlı şeirində 1973-cü ilin bahar çağında bir qrup Azərbaycanlı alim və mütəxəssis, o cümlədən Gəncədə yerləşən Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun bir neçə nəfər müəllimi və rəhbər vəzifələrdə işləyən məzunu Gürcüstanın paytaxtı Tbilisi şəhərində keçirilən bir elmi konfransda iştirak etmək üçün Gürcüstana dəvət olunur. Gürcüstandakı bu qonaqlıq məclisində Azərbaycandan, Gürcüstandan və digər qonşu respublikalardan bütün təbəqələrdən olan adamlar, alimlər, müəllimlər, kənd təsərrüfatı işçiləri, mütəxəssislər, sənaye işçiləri və başqa sahələrin nümayəndələri iştirak edirdilər. Qonaqlıqda iştirak edən Gürcüstanlı alimlər, məclis zamanı öz doğma vətənləri olan Gürcüstanın təbiətini, tarixi abidələrini və təbii sərvətlərini həddindən artıq tərifləməklə Azərbaycanı kölgədə qoymağa cəhd edirlər. Onların bu hərəkəti Sərraf Qasıma çox pis təsir göstərir. Buna görə də, öz müəllimlərimdən icazə alıb, bu Gürcü alimlərin cavabını şeir dili ilə vermək istəyi yaranır. Məclisdəki Azərbaycanlı alimlər və ziyalılar bu fikiri dəstəkləyib, Gürcü alimlərə cavab verməyi və Azərbaycanın füsunkarlığı qarşısında onları susdurmağımı istədilər. Sərraf Qasımın alqışlarla qarşılanan "**Sənin nəyin var**" adlı bu şeiri ilə onlara layiqli bir cavab verməyi bacardı. Bundan sonra artıq onların əlavə deməyə heç bir sözü olmadı.

Zərdüşt övladıyam, hər daş dastanım,
Mənim şöhrət yazım, sənin nəyin var?
Qədim salnamədir, ol qobustanım,
Mənim onda gözüm, sənin nəyin var?

Bir yurdum var Məhsətili, Heyranlı,
Adı "Azərbaycan", güllü, reyhanlı,
Mil-Muğanım qırqovullu, ceyranlı,
Mənim geniş düzüm, sənin nəyin var?

Sərraf Qasım Azərbaycanın bölgələrinin vəsfi barədə şeirlər qələmə almışdır: Sərraf Qasımın bu əsəri, həm öz zənginliyi ilə həm də müstəqil Azərbaycanın ilk poetik xəritəsi olması ilə digərlərindən fərqlənir. "**Seyrinə bir bax" / gəl gör, qardaşım**

Çıx Azərbaycanın seyrinə bir bax,
Vüqarlı Şahdağın gəl gör, qardaşım.
Ordan salam söylə dost Dağıstana,
Açıbdır Dərbənddə gül, gör, qardaşım.

Babadağ, Bazardüz sanki bir cənnət,
Dost, bu yerlər alıb ellərdən qiymət,
Hər çiçəkdən cövhər süzüb təbiət,
Qonaqkənddə çəkib bal, gör, qardaşım.

Sağlamlığın qayğısına qalmaq və onun dəyərləndirən Sərraf Qasım 2 hecalı, 4 misralı qoşması :

"Cansağlığıdı" adlı şeirində:

Əzizim, ən əziz nədir dünyada,
Olsa əgər qismət, cansağlığıdı.
Maddi varlıq ilə, əvəz olunmaz,

Gözəl şirin nemət, cansağlığıdı.

Fikir eylə, gəl düşün sən öz-öznə,
Bax dolsa da həyat eşqi gözünə,
Sağaltmaz xəstəni dolu xəzinə,
Şahlıq, həm səltənət, cansağlığıdı.

Azərbaycan bölgələrinin təbiətinin gözəl füsünkar olmağını əks etdirən Sərraf Qasım:

"Gələndə gəl" qoşmasında:

Təbiət vurğunu, təbiət dostu,
Sən bizim dağlara el gələndə gəl.
Yoğur gəlişini təbəssümə qat,
Bahar gəlişilə il gələndə gəl.

İzlə durnaları: yolları səma,
Çəkib qatarını düzər nizama.
Eldən-elə gələn yetişsin kama,
Durna gəlişini bil, gələndə gəl.

8 hecalı, 4 misrali gəraylıları :

"Bir bax"

Endirəndi, qaldırandı,
Hökmdardı, bəxtə bir bax.
Çox da zərli-zibalıdır,
Çevriləndə, taxta bir bax.

Bu dünyada ola düzlük,
Nə sizlikdir, nə də bizlik.
Əlacsızıq, çarəsizik,
Yoxsulluq var yoxda, bir bax.

Dostluqda mərdliyi, səmimiliyi əks etdirən gəraylı:

"Sədalansın" gəraylısında:

Könül, rübabın asta çal,
Həzin-həzin sədalansın.
Xoş qədəmli əziz dosta,
Dur, qurban kəs, qadalansın.

Sərraf Qasımın eyni zamanda sədaqəti, düzgünlüyü olmayan üzdəniraq "dostlar" haqqında "Deyilmiş" gəraylısı

Sərraf Qasım, dünya mülkü,
Çoz şirindi, onu bil ki,
Adı insan, özü tülkü,
Belələri az deyilmiş.

8 heçalı, müxtəlif misrali gəraylılar(1-ci beyti 6, digər beytləri 5 misralı olan gəraylılar)

DAĞLAR (Ömür)

Ömür sazla, sözlə keçdi,
Mən zövq aldım, yola saldım.
Səndə doldum yaşa, dağlar.
Doğma, əziz, istəkli tək,
Oldun sirdaş, verdin qardaş,
Mənimlə baş-başa, dağlar.

Heç vaxt əsrləri və yaradıcılığı vasitəsilə şan-şöhrət əldə etmək həvəsində olmayan və ömrünü yazıb-yaratmağa həsr edən Sərraf Qasımın sağlığında onun 7 ədəd şeirlər kitabı çap olunmuş, lakin buna baxmayaraq, onunn əsərlərinin böyük bir hissəsi hələ də çap olunmamış vəziyyətdə qalmışdır. Bunun səbəbi isə dəftərlərə köçürdüyü əlyazmalardan ibarət olan öz şeirlərini istifadə etmələri üçün qaytarmaq şərtilə bəzi dost-tanışları və aşıq dostlarına vermiş, ancaq təəssüflər olsun ki, Sərraf Qasımın yüzlərlə şeirini özündə əks etdirən belə dəftərlərin bəziləri geri qaytarılmayıb və bununla da Sərraf Qasımın ədəbi irsinin müəyyən bir hissəsi artıq itirilib və əldən çıxıb.

Sərraf Qasımın öz yaradıcılığı ilə yanaşı, əsasən xeyirxah işlər görmək və dini ibadət və ayinlərini yerinə yetirmək kimi bəyənilən məşğuliyyətlərə həsr etmişdir.

Sərraf Qasımın 9 fevral 2018-ci il tarixdə 78 yaşında öz doğma kənd evində sübh namazını qılıb, bir surə Quran oxuduqdan sonra ürək infaktı keçirərək, dünyasını dəyişmiş, elə həmin gün də Şahbuz rayonun Aşağı Qışlaq kənd qəbirstanlığında dəfn olunmuşdur.

Ədəbiyyat

1. "Çağdaş Naxçıvan aşıqları" kitabının 2-ci cildi, səh, 355-360 (professor Əsgər Qədimovun araşdırması).

2. "Dərələyəz folkloru", VIII cild; səh, 348-350 (343-345), Bakı, "Elm", 2006, 768 səh.
3. "Sözün Sərrafi"- Hürriyyət, №2(3102), 9-11 yanvar, 2021- ci il, səh.,12
4. Güntac Şahməmmədli. Saz-söz sənətimizin 80 yaşlı Sərrafi". Nuxçıvan: 2019 s.2
5. İsmayılov H. Aşıq yaradıcılığı: mənşəyi və inkişaf mərhələləri. Bakı, Elm, 2002, səh ., 314
6. Naxçıvan folkloru.- Bakı, "Sabah" ,1994, səh., 309-326
7. Səfərov Yusif. "Əsərləri". V cilddə, II c.,"Naxçıvan aşıq mühiti". Naxçıvan: Əcəmi , 2017, 58-81 s.
8. Səfərov Yusif. "Naxçıvan aşıq-ədəbi mühiti". Bakı: 2009, 10-17 s.
9. Sərraf Qasımın ədəbi irsi. Sayt: (sarrafqasim)

Xülasə

Zəngin sənət növü olan aşıq yaradıcılığı Naxçıvanda ta qədimdən formalaşıb inkişaf etmiş, bir çox istedadlı aşıq və şairlər ədəbiyyatımızı yeni növ və ideyalarla zənginləşdirmişdir. Aşıq məktəbinin tanınmış və unudulmaz şair Sərraf Qasım aşıq saz və yaradıcılığına qiymətli töhfələr verib. Məqalədə Sərraf Qasımın qoşma və gəraylıları barədə geniş məlumat verilmiş, 2 hecalı, 8 hecalı , 4 misralı qoşma və gəraylılardan nümunələr öz əksini tapmışdır.
Açar sözlər: Aşıq sənəti, qoşmalar, gəraylılар, Sərraf Qasım

Эпосы Саррафа Касима (кошма и герайлы)

РЕЗЮМЕ

Богатый вид исскусства творчество ашуга формировалось и развивалось в Нахичеване с древних времен. Среде ашуга Нахичевана внесла ценный вклад в искусство в области саза и его творчества известный и незабываемый поэт школы ашугов Сарраф Касим. В статье рассматривается творчества Саррафа Касима как автор ценных произведений в различных жанрах ашугской поэзии.

Приведены примеры составляющий из 2-х и 8-и слогов и в том числе 4-х куплетов герайл и кошма
Ключевые слова: творчество ашуга, жанр ашугской поэзии (кошма и герайлы) , Сарраф Касим.

Sarraf Gasim attachments and relatıves

Summary

A rich art form, ashiq creativity has been formed and developed in Nakhcivan since ancient times. The environment of Nakhchivan ashuq has given valuable gifts to the art of ashug in the field of saz creation. The article examines the life of Sarraf Gasim. Sarraf Gasim, the founder of the Nakhchivan ashug environment, taught the secrets of the art of ashug-saz to saz lovers. Sarraf Gasim gained fame as the author of valuable works in various genres of love poetry. According to our research, among Nakhchivan ashug and poets, there was no other person who had dialogues and poems with other poets and ashuq and and created epics than Sarraf Gasim. Examples are given of components of 2 and 8 syllables,including 4 verses of gerail and koshma
Keywords: ashug art, ashug-saz, Sarraf Gasim, epic.

RƏYÇİ: dos.L.Ələkbərova

Svetlana Məmmədova [50]

MİRZƏ BİLALIN POETİK İRSI

Şamaxı ədəbi mühiti – "Beytüs-səfa" və mesenant Mahmud Ağa Əhməd Ağa oğlunun musiqi-şeir məclisi onu sənət dünyasına bağlamışdır. Mahmud Ağa məclisində Əngəxaranlı Aşıq İbrahimlə tanışlığı onun uşaqlıqdan qəlbini ovsunlayan aşıq sənətinə məhəbbətini coşdurmuşdur. Ustadının məsləhəti ilə o, muğamlarımızın sirlərini "Şirvan bülbülü" Mirzə Məhəmmədhəsəndən mükəmməl şəkildə mənimsəyib, el məclislərinə ayaq açır. Azərbaycan Aşıqlarının I qurultayının iştirakçısı olan Aşıq Bilal Rəsulzadə, Ü.Hacıbəyov, C.Qaryağdıoğlu, S.Şuşinski, Q.Pirimov, Asıq Sənəm, Aşıq Mirzə, Aşıq Əsəd, Aşıq İslam, Aşıq Məhəmməd və başqaları ilə dost olmuşdur. O, qırx ilə yaxın Şirvanda bu sənəti yaşatmış və onlarla şagird yetişdirmişdir. Şirvanlı Aşıq Mirzə Bilal 1937-ci il iyun ayının 17-də həbs edilmişdir. Həmin ilin noyabr ayının 26-da "xalq düşməni" adı altında güllələnmişdir. "Pristavın əlindən" adlı şerinə görə 1917-ci ildə onu Çar hökuməti həbsxanaya salır. 1928-ci ildə Bakıda Azərbaycan aşıqlarının birinci qurultayının nümayəndəsi olmuşdur. 1937-ci ildə üzərinə qara kölgə salınan günahsızlardan biri də el aşığı Aşıq Bilal oldu. 1937-ci il noyabrın 26-dan 27-nə keçən gecə güllələnmişdir. Azərbaycan Respublikası prokurorluğunun 28 oktyabr 1993-cü il tarixli qərarı ilə Bilal Mustafa oğlu bəraət almışdır.

Şirvanlı Aşıq Bilal (Bilal Mustafa oğlu Mikayılov-1872-1937) Şamaxı qəzasının Qaşəd kəndində yoxsul bir ailədə anadan olmuşdur. Atası Mustafa kişi bəylərin icarəyə verdiyi torpağı becərməklə öz ailəsini güc-bəla ilə dolandırarmış. Aşıq ehtiyac və məhrumiyyət içərisində ömür-gün keçirən Mustafa kişi qırx iki yaşında vəfat edir. Atadan yetim qalan səkkiz yaşlı Bilal bəylərin qapısmda nökərçilik etməli olur, onların sürüsünü otarır. Təbiətin əlvan çalarları onun gözlərinə köçüb, könlünə süzülür. Bir yandan da atasızlıq, ehtiyac və məşəqqət Bilalın uşaq ürəyini kövrəldərək onda şeirə, musiqiyə coşğun həvəs oyadır. "Kəklik" şeirini misal göstərmək olar.

Vurulmuşam çamalıka
Gəl dərdimi qan, a kəklik!
Gəlin kimi ayağına
Sən qoymusan xına kəklik!

Başın yaşıl, gözün qara,
Oxşayırsan nazlı yara.
Qaçma bizdən uzaqlara,
Qal bu yerdə, sona kəklik!

Qış sovuşub yaz gələndə,
Qız-gəlinlər gül dərəndə
Gəl onlara qarış sən də,
Qaçma məndən yana kəklik!

Azad dolan bizim yerdə,
Son qoymuşuq qəmə,
Dərdə, Aşıq Bilal məclislərdə
Nəğmə desin sana kəklik!

Bu illərdə Bilal atasının dostu molla Veyisdən yazıb-oxumağı öyrənir.

Ruhani məktəbi bitirməsinə baxmayaraq molla Veyis öz dövrünün mütərəqqi zəlcaya malik ziyalısı idi. Bilalın gələcəyinə böyük inam bəsləyən molla Veyis onu Şamaxıya aparıb Seyid Əzimin məktəbinə qoyur. Seyid Əzim məktəbi Bilalın həyatında yeni mərhələ açır. O, Şamaxı ədəbi mühitində tədricən formalaşmağa başlayır.

Saz və söz sənətinin sirlərini öyrənməkdə Şamaxılı Aşıq İbrahim Əngixaranlının Bilala böyük təsiri olur. Çox keçmir ki, Bilal saz çalıb, söz qoşması ilə el-obanın rəqbətini qazanır. Fərəhlənən Aşıq İbrahim öz şagirdinin inkişafı üçün,onun ilham çeşməsinin daha da gurlaşması uçun əlindən gələni əsirgəmir. "Olmuşam şeirində qeyd edilir.

Şeirin məhəbbəti ülvi mənasın,
Əzəldən hiss edib qanad olmuşam!
Hicranın oduna gecə-gündüz
Səməndər quşu tək yanan, olmuşam.

İlk baharın laləsini görəndə
Dost bağından tər bənövşə dərəndə,
Danışanda, oynayanda, güləndə
Sevdalı hüsnünə uyan olmuşam.

Mənim gözəlimin yox imiş tayı-

[50] **AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun aparıcı elmi işçisi, fil.f.d., dosent**
10.24412/2218-7588-2025-2-173-175

Camalı xəcl edir günəş, ayı.
Şirvanlı Bilalam, Kürdən o tayı,
Gəzib dolaşmışam, heyran olmuşam.

Aşıq Bilal ustadı Aşıq İbrahimlə birgə Şirvanı, Mili, Muğanı, Ermənistanı, Gürcüstanı, Dağıstanı gəzib el-obanm toy məclislərində çalıb- çağırır və tezliklə camaat arasında böyük şöhrət qazanır.

Müstəqil aşıqlıq edən Mirzə Bilal özü də ustad aşıq kimi onlarla şagird yetişdirmişdir. O, sələflərinin ənənəsinə sadiq qalaraq böyük bir aşıq məktəbi yaratmışdır. Şamaxıdan Aşıq Abbas, Aşıq Şakir, UcardanAşıqSoltan, Salyandan Aşıq Qurbaxan, Kürdəmirdən Aşıq Ağalar və neçə-neçə başqa işıqlar Mirzə Bilalın yetirməsidir. Şirvanlı Aşıq Mirzə Bilalın yüksək xidmətlərindən biri də yeni saz havaları yaradaraq aşıq musiqisini zənginləşdirməsindən ibarətdir. O, eyni zamanda «Şirvan şikəstəsi», «Şirvan gəraylısı», «Qobustan şikəstəsi», «Qara qafiyə», «Döymə Kərəmi» kimi saz havalarına uyar xallar əlavə etmişdir.

Dövrünün görkəmli adamları ilə mənəvi yaxınlıq-Seyid Əzim kimi maarifçi ziyalıdan, mütərəqqi şairdən dərs alması, Sabir, Səhhət kimi istedad sahibləri ilə bir məktəbdə oxuması Bilalın dünyagörüşündə silinməz izlər buraxır. Bu izlər realizmə çevrilib onun yaradıcılığına hopur. Necə deyərlər, ömrü boyu «aşıq gördüyünü çağırır». Aşıq Bilalın çoxcəhətli yaradıcılığında diqqəti cəlb edən əsas xüsusiyyətlərdən biri məhz budur - hayat həqiqətini bədii həqiqətə çevirmək bacarığı! "Yandırdı" şeirində öz əksini tapır.

Məni bir qələm qaşlının
Nazı yandırdı, yandırdı.
Çiyni xıırmayı saçlının
Sözü yandırdı, yandırdı.

Ağ əllərə həna yaxdı,
Sandım belə sona yoxdu.
Naz eləyib mənə baxdı,
Gözü yandırdı, yandırdı.

Yaradıcılığının ilk dövründə əsasən gözəlləri vəsf edən cavan aşıq Mirzə Bilal get-gedə mövzu məhdudluğundan çıxıb zamanla səsləşən şeirlər yazır. Aşıq şeirinin formalarında dəyərli satiralar yaradır. Bu satiralarda həyatın kölgəli cəhətləri öz əksini tapır. Eli-ulusu çapıb-talayan harınlaşmış bəylər, koxalar, pristavlar Aşıq Bilalın tənqid hədəfinə çevrilir:

Çalıb-çapıb dağıdır-
Yağı oğlu yağıdır...
Yediyimiz ağıdır
Pristavın əlindən.

Bir bəndini misal gətirdiyimiz. «Pristavın əlindən» adlı bu şeirə görə 1917-ci ildə Aşıq Bilal Çar hökuməti tərəfindən həbs olunur. Azərbacanda Aprel inqilabının qələbəsindən sonra sinəsi dərdli aşıq azadlıq qazanır. O, azad cəmiyyətin azad nəğməkarına dönüb sinəsində saz doğma diyarı oba-oba, oymaq-oymaq dolaşır. Tərəqqi edən jurdumuzun xoşbəxt günlərini sazın-sözün diliylə camaata çatdırır.

Mən aşiqam dərindən
Nökər oldum dərindən
Məni günəş yandırdı
Atam yatdı sərində

Kənd əməkçilərini yurdumuzun çiçəklənməsinə səfərbər edən şeirlər qoşub oxuyur. «Zərbəçi», «Dövrandır» və s. şeirlər bu qəbildəndir. Yuxarıda dediyimiz kimi Aşıq Bilal öz dövrünün ictimai-siyasi hadisələrindən heç vaxt kənarda qalmayaraq dövrlə, zamanla səsləşən şeirlər yazıb. «Düşüb millət arasına», «Böyük Oktyabr bayramı» kimi şeirlər öz məqamında yazılan, zamanın nəbzini tutan və bu gün də təravətini itirməyən şeirlərdir.

Sovet hakimiyyəti illərində ədəbiyyat və mədəniyyətə xüsusi diqqət verilir. Sazla sözü birləşdirən ulu aşıq sənəti də bu diqqətdən kənarda qalmır. 1928-ci ildə Bakıda Azərbaycan aşıqlarının I qurultayı çağırılır. Aşıq Bilal da bu qurultaya nümayəndə seçilir. O, burada bir çox adlı-sanlı aşıqlarla-Aşıq Hüseyn Bozalqanlı, Aşıq Əsəd, Aşıq İslam, Aşıq Sənəm, Aşıq İsmayılla şəxsən görüşüb tanış olur və bu tanışlığın böyük əhəmiyyəti olur. El sənətkarlarının, mənəvi yaxınlığı yeni mövzular, təzə deyişmələr meydana çıxarır. Aşıq Bilalla Aşıq Hüseyn Bozalqanlının deyişməsi də bu cəhətdən maraqlıdır... Deyişmə, bir-birinin adını eşidib üzünü görməyən iki el sənətkarının ilk tanışlıqını çox səmimi ifadə edir.

ƏDƏBİYYAT

1. Mikayılov Bilal . "İlk baharım gəl görüm". Bakı, Yazıçı 1982.
2. Микаилов Билал- Издательство-Типография «Красный Восток»
3. «Приди моя весна» Баку, Писатель, 1982.
4. Şirvanlı AşıqMirzə Bilal. Bakı: Nurlan, 2003.
5. Allahmanlı M., Qasımlı M. Aşıq şeirinin poetik biçimləri və çeşidləri. Bakı, 222 s.
6. Azərbaycan ədəbiyyatı tarixi, X cilddə I cild, Bakı, 2018, 1069 s.
7. Cəfərzadə Ə. Azərbaycanın aşıq və şair qadınları. Bakı, 1991, 208 s.
8. Qəniyev S. Şirvan folklor mühiti. Bakı, 1997, 100 s.
9. Qəniyev S. El şairi Badam Müslim qızı. Bakı, 2005, 108 s.

Поэтическое наследие Ашыга Билала

Резюме

Билал Мустафа огллы Микаилов (1872-1937) родился в селе Газед Шемахинского уезда.

Выросший в бедноте он рано осиротел потеряв отца. Своё существование он обеспечивал ухаживая за скотом беков, пас их в чистом, цветущем поле, где вбирал в душу, красоту и поэтику природы.

В эти трудные для него годы он обучался чтению, который предчувствуя большоебудущее Билала увёзего в Шемаху там мулла Веис устроил его в школу Сеид Азима Так начался новый этап жизни в литературной среде Шемахи.

Обучаясь художественному мастерству слова, игры на сазе он постепенно стал участвовать на народных гуляниях, свадьбах и таким образом завоевал любовь и уважение простого народа. Встечаясь с видными людьми своего времени, такими как Сеид Азим Ширвани, М.Ə.Сабир, А.Саххат он вобрал в себя их опыт и знание. Многогранность и особенность его творческого наследия отразили жизненную правду художественного мастерства ашыга Билала.

Ключевые слова: осиротел-yetim qaldı, красота-gözəllik, большая вера-böyükinam радость-fərəh, слова-şöhrət, традиция-ənənə, видный-görkəmli, период-mərhələ

Poetical Heritage of Ashug Bilal

SUMMARY

Bilal Mustafa oghlu Mikayilov (1872-1937) was born in Gazed village of Shamakhi county.

Growing up in poverty he was left in an orphan when his father was dead. He provided his daily expenditures by herding cattle of noblemen taking them to the fresh and flowery fields where he choose beauty and poetry.

In such difficult time he learned reading and writing from the friend of his father mullah Veyis who felt great future of Bilal and took him to Shamakhi. There mullah Veyis arranged for him the school of Seyid Azim. So it was beginning of the new stage of literature environment in Shamakhi. Studying artistic mastery of the word, tricks in saz , he began to attend in national festivals, weddings and by this way he gained love and respect of populace. Meeting with the prominent people of his period such as Seyid Azim Shirvani, M.A. Sabir. A. Sahhat he took on their experience and knowledge. Variety and originality of his artistic heritage reflected vital truth about artistic mastery of ashug Bilal.

Key words: he was left in an orphan, beauty, great belief, gladness, fame, tradition, prominent, stage

RƏYÇİ: dos. E.Vəliyeva

Hikmət Müseyib Yusifov[51], Zülfiyyə Fevral Adıgözəlova[52]

CƏFƏR CABBARLININ DRAMATURGİYASINDA QADIN OBRAZLARI

Giris. Azərbaycan ədəbiyyatında qadın obrazlarının formalasması və inkisafı bir cox yazıcı və dramaturqların yaradıcılığı ilə bağlıdır ki, bu baxımdan Cəfər Cabbarlı xüsusi yer tutur. XX əsr Azərbaycan dramaturgiyasının banilərindən biri olan C.Cabbarlı qadın məsələlərinə, onların cəmiyyətdəki mövqeyinə, hüquqlarına və mənəvi dünyasına xüsusi diqqət yetirmişdir. Onun dramaturgiyasında qadın obrazları təkcə estetik funksiyanı deyil, həm də sosial, ictimai və psixoloji funksiyanı yerinə yetirir. Bu məqalədə Cəfər Cabbarlının dramaturgiyasında qadın obrazlarının funksional yükü, tipoloji xüsusiyyətləri və ədəbi-estetik əhəmiyyəti araşdırılır. Cəfər Cabbarlı XX əsr Azərbaycan ədəbiyyatında həm dramaturq, həm də maarifçi kimi mühüm yer tutur. Onun dramaturgiyası yalnız sənət baxımından deyil, ideya və ictimai məzmun baxımından da dəyərlidir. Xüsusilə qadın məsələsinə münasibəti və qadın azadlığı ideyalarının bədii şəkildə təqdimatı onun yaradıcılığında diqqətəlayiq məqamdır. Bu baxımdan Cəfər Cabbarlı təkcə yazıçı deyil, həm də cəmiyyətin ideoloji inkişafına təsir edən ziyalı kimi çıxış edir.

Cəfər Cabbarlı XX əsrin əvvəllərində – Azərbaycan cəmiyyətində modernləşmə proseslərinin, qadın hərəkatlarının, milli oyanış və azadlıq ideyalarının yüksəliş dövründə fəaliyyət göstərmişdir. Bu dövrdə qadınların hüquqsuzluğu, ailədaxili zorakılıq, təhsildən və ictimai həyatdan uzaq salınmaları ciddi sosial problemlər kimi qarşıda dururdu. Cəfər Cabbarlı qadın məsələsinə yalnız sosial deyil, həm də mədəni aspektdən yanaşaraq bu problemləri dramaturgiyasında əks etdirmişdir.

Belə ki, C.Cabbarlının yaradıcılığı XX əsrin əvvəllərinə – Azərbaycan cəmiyyətinin sürətli dəyişikliklər yaşadığı bir dövrə təsadüf edir. Bu dövrdə qadınların azadlıq və maariflənmə hərəkatı güclənir, patriarxal düşüncə tənqid olunmağa başlayır. Ədib də bu dəyişikliklərə biganə qalmayaraq, əsərlərində qadın azadlığını və hüquqlarını müdafiə edən fikirlərə öz əsərlərində geniş yer vermişdir.

"Azərbaycan qadınlarının düşdüyü uçurum, əhatə olunduğu bataqlıq belə dərin və qaranlıq idi. C.Cabbarlının qadın qəhrəmanları - Gültəkin, Firəngiz, Gülzar, Dilbər bu acınacaqlı həyatın yolçuları idilər. C.Cabbarlını daima düşündürən, onun yaradıcılığından qırmızı xətlə keçən qadın emansipasiyası arzusu "Sevil" dramında öz bədii ifadəsini tapdı" [1, s. 7].

"Sevil" dramında qadın obrazı və qadın azadlığı – Cəfər Cabbarlının ən məşhur əsərlərindən biri olan "Sevil" dramı qadın obrazlarının tipik bədii təcəssüm nümunəsidir. Sevil obrazı vasitəsilə müəllif qadının sosial mühitdəki mövqeyini, dəyişmək arzusunu və cəmiyyətin konservativ dəyərləri ilə mübarizəsini əks etdirir [5].

T.Məsimov C.Cabbarlının yaradıcılığında milli dəyərləri təhlil edərkən vurğulayır ki: "Böyük sənətkar "Sevil" pyesində Azərbaycan mühitinin qadına, ailəyə münasibəti ilə bağlı problemləri, milli koloritləri diqqətdə saxlayaraq səhnəyə gətirmişdi. Sevil daxili məzmunu ilə, canlılığı, reallığı və təbiiliyi ilə başqa obrazları kölgədə qoyur. Sevil minlərlə talesiz Azərbaycan qadınlarının ümumiləşmiş tipik bir timsalı idi" [6, s. 7].

Sevil əvvəlcə ailə və kişi hökmranlığına tabe, susqun bir qadın kimi təqdim olunur. Sonradan o, əri Balaxanı tərk edir, oxuyur, maariflənir və azad qadına çevrilir. Sevilin dəyişimi, hicabını cırıb atması simvolik jest olaraq qadın azadlığının bədii təcəssümüdür. Bu obrazın ideya yükü dövrün qadınlarına çağırış xarakteri daşıyır və maarifçi düşüncənin məhsulu kimi qiymətləndirilə bilər.

H.Atakişiyeva yazır: "Cəfər Cabbarlı hekayələrinin əksəriyyətini qadın adları ilə adlandırmışdır. Bu təsadüfi deyildir. Belə ki, ədibin hekayələrinin əsas mövzusunu qadın azadlığı, Azərbaycan qızının səhnəyə gətirilməsi, qızların təhsildən uzaqlaşmasının qarşısının alınması, qadınların acı həyatı, qadın çarəsizliyi təşkil edir" [2].

"Almaz" dramında qadın iradəsi və maarifçilik – Digər mühüm əsər olan "Almaz" dramı da qadın obrazlarının ictimai funksiyası baxımından önəmlidir [5]. Almaz müəllimədir və kənddə maarifçiliyi təbliğ edir. O, kişilər tərəfindən təhdid olunur, lakin geri çəkilmir. Almaz cəsarətli, maarifçi və idealist qadın obrazıdır. O, cəmiyyətin patriarxal təbəqəsinə qarşı ideoloji müqavimət göstərir. Almaz obrazı qadınların ictimai fəaliyyətə cəlb olunmasının vacibliyini vurğulayır. Əsər qadın iradəsinin gücünü, savadın və biliyin cəmiyyət üçün əhəmiyyətini ortaya qoyur. Almaz obrazı həm də müəllifin maarifçilik ideyalarının daşıyıcısıdır və Azərbaycan qadınının yeni simasını təqdim edir.

"Aydın" dramında qadınlar və kişi qəhrəmanın münasibəti – "Aydın" dramı C.Cabbarlının qadın azadlığı mövzusuna ilk böyük yanaşmalarındandır [4]. "Aydın" dramı əsasən kişi qəhrəmanın – Aydının ideyaları üzərində qurulsa da, burada da qadın obrazları mühüm funksiyaya malikdir. Qadınlar – Gültəkin, Səriyyə, Aydının ideyalarına müxtəlif münasibət bəsləyirlər və əsərin ideya-estetik çalarlarını dərinləşdirirlər.

Əsərdə əsas qadın obrazlarından biri Gültəkin obrazıdır. Gültəkin – Aydının ideyalarına uyğunlaşmağa çalışan, idealist, cəmiyyətin dəyişən dəyərləri fonunda formalaşmış, təhsilli, düşüncəli və müasir qadın tipidir. O, klassik patriarxal cəmiyyətə qarşı çıxan, azad fikirli, iradəli bir qadındır. Gültəkinin öz fikrini sərbəst ifadə etməsi, Aydınla münasibətlərində bərabərlik prinsiplərini qoruması müəllifin qadınlara münasibətini əks etdirir.

[51] BDU-nun Qazax filialının Dil, ədəbiyyat və onların tədrisi metodikası kafedrasının baş müəllimi.
hikmtyusubov53@gmail.com
[52] BDU-nun Qazax filialının Dil, ədəbiyyat və onların tədrisi metodikası kafedrasının baş müəllimi.
zulfiyye.adgozelova.66@mail.ru
10.24412/2218-7588-2025-2-176-178

Səriyyə – daha çox mühafizəkar təsəvvürləri təmsil edən, dəyişkən və şübhə dolu obrazdır. Bu qadınlar arasında psixoloji fərqlər müəllifin qadın xarakterlərini fərqli aspektlərdən göstərmək bacarığını nümayiş etdirir.

"Oqtay Eloğlu" dramında qadın obrazları "Oqtay Eloğlu" dramında da qadın obrazı mühüm rol oynayır [3]. Bu əsərdə xüsusilə Firəngiz obrazı maraq doğurur. Firəngiz cəmiyyətin və ailənin təzyiqlərinə qarşı çıxaraq, azad iradəsini nümayiş etdirən, sevgi və fərdi seçim uğrunda mübarizə aparan bir qadın kimi təqdim olunur. O, ailənin, cəmiyyətin riyakar dəyərlərinə qarşı duraraq öz şəxsiyyətini qorumağa çalışan obrazdır. Firəngizin faciəli taleyi isə cəmiyyətin qadın azadlığına qarşı sərt münasibətini əks etdirir.

"Yaşar" və "1905-ci ildə" dramlarında qadınların mövqeyi – C.Cabbarlının "Yaşar" və "1905-ci ildə" əsərlərində də qadın obrazları əhəmiyyətli yer tutur [5]. "Yaşar" dramında qadınlar cəmiyyətin real sosial münasibətləri içərisində təqdim olunur. Onlar ailə, həyat və ideologiya məsələlərində müxtəlif mövqelər nümayiş etdirirlər. "1905-ci ildə" əsərində isə qadın obrazı vasitəsilə tarixi hadisələrin təsiri altında dəyişən fərdi psixologiya və sosial rol əks etdirilir. Bu əsərlərdə qadınlar həm ictimai hadisələrin iştirakçısı, həm də mənəvi dayaq funksiyası daşıyırlar.

Müəllifin qadın obrazları təkcə konkret bir şəxsiyyətin təsviri deyil, həm də azadlıq, maarifçilik, irəliləyiş kimi ideyaların simvoludur. Gültəkin maarifçiliyin, Firəngiz azad iradənin, digər qadın obrazları isə cəmiyyətin müxtəlif təbəqələrinin ideoloji simvollarıdır. Onların taleyi vasitəsilə müəllif cəmiyyətin ümumi mənzərəsini yaradır.

Ədibin "Od gəlini" pyesində Solmaz obrazı əsas qadın qəhrəmanlarından biridir və o, sosial-mənəvi dəyişikliklərin fonunda qadınların yaşadığı daxili və xarici ziddiyyətləri təmsil edir [4]. Solmaz obrazı XX əsrin əvvəllərində baş verən sosial və mədəni dəyişikliklərin fonunda formalaşır. O, bir tərəfdən patriarxal ailə və cəmiyyət münasibətləri içində formalaşmışdır, digər tərəfdən isə müasirləşmə ideyalarının təsiri altındadır. Solmazın davranış və düşüncələrində bu ikiliyin izləri aydın görünür.

Solmaz qadın azadlığı və hüquqları haqqında düşünməyə başlayan, lakin bu düşüncələri hələ tam ifadə edə bilməyən keçid dövrünün qadınıdır. O, mülayim, emosional və çevrəsinin təsirinə tez məruz qalan bir obrazdır. Belə ki, bu obraz "Od gəlini" əsərində keçid dövrünün qadını kimi mühüm əhəmiyyət daşıyır. Solmaz tam azad deyil, lakin azadlığa doğru bir addımdır ki, müəllifin bədii təfəkküründə bu, ümumi ictimai transformasiyanın simvolu kimi təqdim olunur.

Cəfər cabbarlının "Solğun çiçəklər" əsərində Sara obrazı ikinci planda olsa da, müəllifin qadınlarla bağlı ideoloji xəttini daha da gücləndirən əsas bədii fiqurlardan biridir [4]. Bu obraz əsərdə çox danışmayan, amma çox şey deyən simvolik bir fiqurdur. O, cəmiyyətin aşağı təbəqəsindəki qadınların vəziyyətini təmsil etməklə bərabər, qadın həmrəyliyinin və səssiz müşahidənin gücünü göstərir. Yazıçı bu obrazla qadınların iztirablarının yalnız fərdi yox, həm də ümumi sosial xarakterini daşıdığını vurğulayır.

Qadın obrazlarının psixoloji və sosial analizi – Cəfər Cabbarlının qadın obrazları yalnız ictimai status baxımından deyil, eyni zamanda psixoloji dərinliyi ilə də seçilir. O, qadınların daxili ziddiyyətlərini, qorxularını, arzu və ümidlərini realist şəkildə təqdim edir. Sevilin və Almazın azadlıq uğrunda mübarizəsi onların daxili iradəsinin gücünü göstərir. Gültəkin və Səriyyə isə qadının daxili dilemma və qərarsızlığını əks etdirən obrazlardır. Bu obrazlar C.Cabbarlının qadın psixologiyasını dərinliklə müşahidə etdiyini və təqdim edə bildiyini sübut edir.

C.Cabbarlının əsərlərində qadın obrazlarının dil və üslub baxımından təhlilindən məlum olur ki, bu obrazların danışıq dili onların təhsili, mədəni səviyyəsi və sosial statusu ilə uyğun gəlir. Məsələn, Gültəkin və Firəngiz kimi qəhrəmanların nitqi fəlsəfi, məntiqli və aydın olduğu halda, ikinci planda olan qadın obrazlarının nitqi daha sadə və gündəlikdir. Bu da müəllifin obrazları fərqləndirmək və onların xarakterlərini daha dolğun vermək bacarığını göstərir. Onların daxili monoloqları, dialoqlardakı durğunluq və gərginlik, dramatik qarşıdurmalardakı ifadələr obrazların daxili aləmini açmağa xidmət edir.

C.Cabbarlı ilə eyni dövrdə fəaliyyət göstərən yazıçılarla müqayisədə onun qadın obrazları daha güclü və müstəqildir. Məsələn, Abdulla Şaiqin və Nəcəf bəy Vəzirovun əsərlərində qadınlar daha çox ailə mühitinə və ənənəvi rollara bağlı olaraq təqdim olunurlar. C.Cabbarlı isə bu sərhədləri aşaraq qadını müstəqil bir fərd kimi təqdim edir. Bu da onun ideoloji və estetik üstünlüyünü göstərir.

Ümumilikdə, C.Cabbarlı dramaturgiyasında qadın obrazları aşağıdakı funksiyaları yerinə yetirir:

1. Maarifçi-fəlsəfi funksiya – Qadınların savadlanması, azadlığa çıxışı müəllifin maarifçi ideyalarının bədii ifadəsidir.

2. İctimai-mədəni funksiya – Cəfər Cabbarlı qadın obrazları vasitəsilə cəmiyyətin mədəni inkişaf səviyyəsini göstərir.

3. Psixoloji funksiya – Qadınların daxili aləminin təsviri onların fərdi müstəqilliyə doğru yönələn inkişafını göstərir.

4. Estetik funksiya – Obrazların dolğunluğu, bədii təsviri əsərin estetik dəyərini yüksəldir.

C.Cabbarlının qadın obrazları bu gün də aktualdır. Onların təqdim etdiyi problemlər və ideyalar çağdaş dövrün qadın məsələləri ilə səsləşir. Bu baxımdan ədibin irsinin müasir feminist və gender yanaşmaları prizmasından da təhlili vacibdir. Bu istiqamətdə aparılacaq tədqiqatlar həm Azərbaycan ədəbiyyatşünaslığının, həm də gender araşdırmalarının inkişafına töhfə verə bilər.

Nəticə. Cəfər Cabbarlı dramaturgiyasında qadın obrazları bədii, ideoloji və psixoloji baxımdan zəngin struktura malikdir. Onun yaratdığı Sevil, Almaz, Gültəkin kimi qadın qəhrəmanlar Azərbaycan qadınının müasir obrazını formalaşdırmaqla yanaşı, cəmiyyətin inkişafında onların rolunu ön plana çəkir. Onlar təkcə bir dövrün qadınlarının deyil, ümumilikdə Azərbaycan qadınının azadlıq mübarizəsinin ədəbi simvoludur. Ədibin yaratdığı qadın

obrazları vasitəsilə o, Azərbaycan cəmiyyətində qadının yeri və rolu haqqında geniş və dərin fikirlər irəli sürmüş, qadının azadlığı, hüquqları və şəxsiyyəti uğrunda mübarizəni ədəbi müstəviyə daşımışdır. C.Cabbarlı bu obrazlar vasitəsilə qadın azadlığı ideyasını təşviq etmiş, eyni zamanda ədəbiyyatın maarifləndirici funksiyasını uğurla həyata keçirmişdir. Müəllifin qadın obrazları bu gün də aktuallığını qorumaqda davam edir və müasir tədqiqatlar üçün geniş imkanlar açır.

İstifadə edilmiş ədəbiyyat

1. Abbasova G. Cəfər Cabbarlı yaradıcılığında qadın emansipasiyası. 525-ci qəzet.-2018.-19 dekabr. s. 7
2. Atakişiyeva C. Cəfər Cabbarlının hekayələrindəki qadın obrazları. https://www.tarihistan.org/atakisiyeva-h-c-r-c-f-r-cabbarlinin-hekay-l-rind-ki-qadin-obrazlari/25444/
3. Cabbarlı C. Oqtay Eloğlu. Bakı: Qanun, 2019.
4. Cabbarlı C. Əsərləri, II cild. Bakı: Şərq-Qərb, 2005.
5. Cabbarlı C. Əsərləri, III cild. Bakı: Şərq-Qərb, 2005.
6. Məsimov T. Cəfər Cabbarlı yaradıcılığı milli dəyərlər xəzinəsidir. Azərbaycan. - 2014.- 9 avqust.- s. 7.

Açar sözlər: Cəfər Cabbarlı, XX əsr, dramaturgiya, qadın obrazları, qadın azadlığı.
Ключевые слова: Джафар Джаббарлы, XX век, драматургия, женские образы, свобода женщин.
Keywords: Jafar Jabbarli, 20th century, drama, female images, women's freedom.

Xülasə

Bu məqalədə XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən biri olan Cəfər Cabbarlının dramaturgiyasında qadın obrazlarının bədii təqdimatı araşdırılmışdır. Müəllifin dram əsərlərində qadınların sosial mövqeyi, psixoloji portreti, azadlıq ideyası uğrunda apardıqları mübarizə təhlil olunur. Məqalə göstərir ki, Cəfər Cabbarlı öz dövrünün qabaqcıl fikirli sənətkarı kimi qadın məsələsinə xüsusi diqqətlə yanaşmış və qadın azadlığını ədəbi müstəviyə gətirərək ictimai şüura təsir göstərmişdir.

ЖЕНСКИЕ ОБРАЗЫ В ДРАМАТУРГИИ ДЖАФАРА ДЖАББАРЛИ

Резюме

В статье рассматривается художественное воплощение женских образов в драматургии Джафара Джаббарлы — одного из выдающихся представителей азербайджанской литературы XX века. В драматических произведениях автора анализируется социальное положение женщин, их психологический портрет, их борьба за идею свободы. В статье показано, что Джафар Джаббарлы, будучи новаторским художником своего времени, уделял особое внимание вопросу женщин и влиял на общественное сознание, выводя тему свободы женщин на литературный уровень.

FEMALE IMAGES IN THE DRAMA OF JAFAR JABBARLI

Summary

The article examines the artistic embodiment of female images in the drama of Jafar Jabbarli, one of the outstanding representatives of Azerbaijani literature of the 20th century. The author's dramatic works analyze the social status of women, their psychological portrait, and their struggle for the idea offreedom. The article shows that Jafar Jabbarli, being an innovative artist of his time, paid special attention to the issue of women and influenced public consciousness, bringing the theme of women's freedom to the literary level.

RƏYÇİ: dos. L.Ələkbərova

İsayeva Nigar [53]

MƏHƏRRƏM CƏFƏRLİNİN ÖMÜR YOLU

Giris. Məhərrəm Cəfərli 1946-ci il yanvarın 5-də Naxcıvan MSSR-in Sərur ravonunun Xok kəndində anadan olub. 1964-1969-cu illərdə Azərbaycan Dövlət Pedaqoji Universitetinin filologiya fakültəsində təhsil almışdır. 1984-cü ildə "Osman Sarıvəlli və sifahi xalq ədəbiyyatı" mövzusunda namizədlik dissertasiyasını müdafiə etmisdir. 2003-cü ildə filologiya elmləri doktoru dərəcəsi almaq üçün "Azərbaycan məhəbbət dastanlarının poetikası" mövzusunda dissertasiya müdafiə etmişdir. 40 ilə yaxındı Naxçıvan Dövlət Universitetində dərs deyir. 2004-cü ildən AMEA-nın Naxçıvan bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun folklorşünaslıq şöbəsinin müdiridir. Naxçıvan MR, folklorşünaslıq tarixi və nəzəri tədqiqi və öyrənilməsi folklor toplamaqla məşğuldur.

Bəli dünyaya yeni qədəm basmış gənc nəsil gələcəyə ümid və inamla çalışırvə məktəbdə elm öyrənirdi. M.Cəfərli də Xok kənd yeddiillk və Qonşu qıvraq kənd orta məktəblərində ümumi orta təhsil alıb Bakıya qayıtdı. Sevimli orta məktəb müəllimləri Vahab Hüseynov, M.Seyidov və başqalarının yolu ilə getmək arzusuna qovuşmaq üçün sərhədlərini indiki Azərbaycan Dövlət Pedaqoji Universitetinin dil-ədəbiyyat fakültəsinə təqdim etdi. 1964-1969-cu illərdə tanınmış alimlər M.Təhmasib, F.Qasımzadə və başqalarından qazandığı biliklərlə ali məktəbi başa vurdu. 1969-1970-ci illərdə həqiqi hərbi xidməti başa vurduqdan sonra gənc müəllim M.Cəfərov vaxtilə oxuduğu Xok kənd orta məktəbində müəllim kimi fəaliyyət göstərdi. 1970-1971-ci dərs ilində öz müəllimləri ilə çiyin-çiyinə çalışması onun həyatının ən unudulmaz və yaddaqalan hadisəsinə çevrildi.

O, NDU-da əvvəl metodist, sonra müəllim işlədi. İşıqlı ziyalı düz 40 ildən artıq bu ali təhsil ocağında pedaqoji institut və universitet mərhələlərində çalışmış və bir çox uğurlara imza atmış-elmlər doktoru, professor olmuşdur. M.Cəfərli AMEA-nın Folklor şöbəsində "Osman Sarıvəlli və xalq yaradıcılığı" mövzusunda namizədlik dissertasiyanı 1984-cü ildə müdafiə etmişdir. Bu uğurundan sonra o, zəngin folklorumuzun daha dərin qatlarının tədqiqi ilə 20 ilə yaxın elmi-nəzəri axtarışlar apararaq 2003-cü ildə "Azərbaycan məhəbbət dastanlarının poetikası" mövzusunda dissertasiya müdafiə edir və filologiya üzrə elmlər doktoru alimlik dərəcəsi alır. Bu illərdə o, NDU-nun tarix-filologiya fakültəsinin dekanı, Ali Diplomatiya Kollecinin rektoru (1997-2003) vəzifələrinə irəli çəkir. M.Cəfərli 2004-cü ildən ömrünün sonunadək NDU-nun professoru saxlanılmaqla AMEA Naxçıvan bölməsinin İncəsənət, Dil və ədəbiyyat İnstitutu folklorşünaslıq şöbəsinin müdiri vəzifəsinə təyin olunub. Burada onun fəaliyyəti daha qaynar və səmərəli olur. Onillik ərzində məhsuldar elmi yaradıcılığına görə alimə "Qızıl qələm", mükafatı (2004), "Türk xalq kültürü" və folkloruna xidmət ödülü (2008), Avrasiya Dostluq Qurumunun mükafatı (2009) verilmişdi. Bunlar da onun ölkəmizin hüdudllarından kənarda tanındığını təsdiqləyən faktlardır. Üçcildlik "Naxçıvan folklor antologiyası"nın az vaxtda hazırlanıb nəşr olunması işi də professor M.Cəfərlinin rəhbərliyi və yaxından iştirakı ilə baş tutmuşdur. Azərbaycan Yazıçılar Birliyinin M.Cəfərli "Heydər Əliyev və milli mənəvi irs", "Nuhdan və mifdən başlanan irs", Naxçıvan, Məhəbbət dastanlarının poetikası", "Azərbaycan dastanlarının struktur poetikası", "Dastan və mif" və başqa məqalə və monoqrafiyalarına görə AMEA Naxçıvan Rəyasət Heyətinin qərarı ilə ictimahumanitar elmlər üzrə "İlin alimi" elan olunmuş və mükafatlara layiq görülmüşdür. Qələmini publisistika sahəsində də işlədən M.Cəfərli Naxçıvan MR-in qabaqcıl müəllimləri haqqında həmkarı Abbas hacıyevlə birgə hazırladığı "Nurlu ömürlər" kitabının 1-ci cildini 200-ci ildə Bakıda və 2002-ci ildə ikinci cildini Naxçıvanda nəşr etdirib.

Professor M.Cəfərli 2012-ci il fevralın 11-də Ankarada ürək əməliyyatı zamanı dünyasını dəyişib və öz kəndi Xok qəbirstanlığında dəfn olunub.

Məhərrəm Cəfərli dərc olunmuş 150-dən çox elmi məqalənin, 25 kitabın müəllifidir. "Yazıçı və folklor" Azərbaycan folklorşünaslığının inkişafı problemlərinə, dastan poetikasına, aşıq sənətinə həsr edilmişdir. Məqalələri İran və Türkiyədə çap olunmudur. "Dastan və mif" kitabı isə Təbrizdə çap olunmuşdur (2003). 1998-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü. 2004-cü ildə "Qızıl qələm" mükafatına layiq görülüb. 2008-ci ildə alim beynəlxalq mükafat olan "Türk dünyasının mədəniyyəti və elmə xidmət" mükafatı ilə təltif olunub.

Professor Məhərrəm Cəfərli "Yazıçı və folklor" probleminə, Azərbaycan folklorşünaslığının inkişafına, xalq aşıq yaradıcılığına, dastanların poetikasına dair sanballı elmi tədqiqatların müəllifi kimi hər birimizin əziz xatirəsində yaşayır. Məqalə və kitabları İran və Türkiyə kimi xarici ölkələrdə çap olunan alimin əsərləri folklora marağı olan insanlar tərəfindən daima maraqla qarşılanmışdır. Alimin "Dastan və mif" kitabı İranda, "Folklor və etnik milli şüur" kitabı isə Türkiyədə çap olunmuşdur.

Naxçıvan ədəbiyyatşünaslıq məktəbinin folklorşünaslıq sahəsində hazırladığı və çap etdirdiyi əsərlər içərisində professor Məhərrəm Cəfərlinin əsərlərinin sayı az deyil. Ümummilli lider Heydər Əliyev siyasi və ideoloji kursunun məntiqi davamı olaraq Naxçıvanda məhz Ali Məclis Sədri Vasif Talıbovun rəhbərliyi və xüsusi diqqəti ilə milli-mənəvi dəyərlərə böyük diqqət ayrıldığı və qayıdış özünü əks etdirdiyi kimi, "Naxçıvanda xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında" verilən Sərəncamdan irəli gələrək də mənəvi dəyərlərin, xalq yaradıcılığının öyrənilməsi, tədqiq və təbliğ olunması, nəşr olunması istiqamətində xeyli işlər görmüşdür.

Xalq yaradıcılığına verilən əhəmiyyət və diqqətin nəticəsi olaraq professor Məhərrəm Cəfərlinin rəhbərliyi ilə Azərbaycan MEA Naxçıvan Bölməsinin folklorşünaslıq şöbəsinin əməkdaşlarının birgə səyi ilə Naxçıvan Muxtar Respublikası ərazisinə ekspedisiyalar təşkil olunaraq folklor nümunələri toplanmış, üç cilddə Naxçıvan Folklor Antologiyasının hazırlanması üçün materiallar əldə edilmişdir. Bu fundamental əsərlərə Naxçıvandan toplanmış mif,

[53] **AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Şifahi xalq ədəbiyyatı və ədəbi abidələr şöbəsinin . fil.f.d., a.e.i**
10.24412/2218-7588-2025-2-179-181

əfsanə, nağıl, dastan, mərasimlər və oyunlar, müxtəlif hikmətli sözlər, lətifələr, mahnılar və s. daxil edilmişdir. Antologiyanın bir sıra malik olduğu əhəmiyyətli xüsusiyyətləri vardır. O cümlədən antologiyanın bir əhəmiyyəti ondadır ki, hər şeydən əvvəl Naxçıvanın söz xəzinəsinin, geniş məzmunda, maddi fondu, yaddaşıdır. Zaman keçdikcə folklor informatorları dünyasını dəyişir, deməli, yaradıcılıq faktlarının daşıyıcıları azalır, nə qədər nümunələr də yaddaşlardan silinib unudulur. Nümunələrin silinməsi və unudulması isə milli-mənəvi söz xəzinəmizin itməsi deməkdir. Ancaq nə qədər zaman keçməsinə baxmayaraq yazıya köçürülən, maddiləşdirilən bu mənəvi abidələr, milli sərvətlər yaşayacaq, özü ilə birgə xalqın milli xüsusiyyətlərini, adət, ənənə, yaşam və düşüncə tərzini: bir sözlə, milli mənəvi yaddaşı yaşadacaq, əbədiləsdirəcəkdir.

Elm insanı ucaldan və yaşadan sahədir, çünki elm insana və insanlığa xidmət edir. Alimin nəsillər qarşısında böyük xidmətləri olduğu kimi, nəsillər də öz növbəsində ona xidmət etmiş alimi unutmur və layiqli hörmətlə həmişə yad edir. Alimin qələmi özündən ağır, varlığından məsuliyyətli və dəyərli olmalıdır. Bəşəri, ümummilli amala xidmət etmək alimin dəyər tərəzisidir. Şeytana xidmət edən qələm alim silahı deyil. Allahın təqdir etdiyi elm xeyirə, gözəlliyə, insanlığa və haqqa xidmət edən elmdir. Bu baxımdan Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev alim haqqında bəhs edərkən demişdi: "Öz dilini inkişaf etdirən alim, müəllim, öz tarixini yazan, inkişaf etdirən, tarixini əks etdirən alim, öz mənəviyyatını araşdıran, təhlil edən və ümumiləşdirən, elmləşdirən, xalqına yüksək səviyyədə çatdıran alim – onlar hamısı birlikdə öz xalqının, millətinin, milli şüurunun, milli ruhunun, vətənpərvərlik ruhunun inkişaf etməsinə, irəlidə getməsinə xidmət göstərir". Məqamı gəlmişkən demək olar ki, ümummilli liderimizin xarakterizə etdiyi alimlərdən idi Məhərrəm müəllim. Alimi yaşadan onun əsərləri, milləti, xalqı yolundakı xidmətləridir. Professor Məhərrəm Cəfərli öz əsərləri ilə, insan dəyəri bilən adamların hörmət və sevgisi ilə daim yaşayacaqdır. İnsanlığı və ağsaqqalığı qarşısında ehtiram duyduğumuz gözəl alimimizə Allah rəhmət eləsin.

Məhərrəm Cəfərlinin elmi əsərləri hal-hazırda dərs vəsaitləri kimi istifadə edilir. Bunları qeyd etmək məqsədəuyğundur.

1. Osman Sarıvəlli və aşıq yaradıcılığı. Bakı: Azərbaycan SSR "Bilik" Cəmiyyəti, 1981;
2. Xalqla bağlılıq (Osman Sarıvəllinin anadan olmasının 80 illiyi münasibətilə). Bakı: Azərbaycan SSR "Bilik" Cəmiyyəti, 1986;
3. Azərbaycan məhəbbət dastanlarının poetikası. Bakı: Elm, 2000;
4. Dastan və mif. Bakı: Elm, 2001;
5. Folklor və etnik-milli şüur. Bakı: Elm, 2006;
6. Dastan yaradıcılığı. Bakı: Elm, 2007;
7. Nahçıvan folklor materyalleri esasında folklor ve etnik-milli şuur. Ankara: Kültür Ajans Yayınları, 2007;
8. Aşk Konulu Azerbaycan Halk Hikayelerinin Şiirsel Yapısı. Ankara: Kültür Ajans Yayınları, 2010;
9. Naxçıvan folkloru. I Cild. "Azərbaycan folkloru antologiyası" (redaktoru M. Cəfərli, tərtib edənlər M. Cəfərli və Rafiq Babayev). Naxçıvan: Əcəmi, 2010;
10. Naxçıvan folkloru. II Cild. "Azərbaycan folkloru antologiyası" (redaktorlar M. Cəfərli və Rafiq Babayev, tərtib edənlər M. Cəfərli, Yusif Səfərov, Rafiq Babayev). Naxçıvan: Əcəmi, 2011;
11. Naxçıvan folkloru. III Cild. "Azərbaycan folkloru antologiyası" (redaktorlar və tərtib edənlər M. Cəfərli və Rafiq Babayev). Naxçıvan: Əcəmi, 2012.

ƏDƏBİYYAT

1. M.Cəfərli. Azərbaycan dastanlarənən struktur poetikasə. BAKI.2010, 204 S.
2. Hacə Tofiq Seyidzadə. Folklorumuzun tədqiqatələrəndan biri.
3. Məhərrəm Cəfərli. Azərbaycan məhəbbət dastanlarənən poetikasə.Bakə. Elm 2000.
4. Vəliyev V. Azərbaycan folkloru. Bakə. Maarif 1985

Xülasə

Məhərrəm Cəfərli 1946-ci il yanvarın 5-də Naxcıvan MSSR-in Sərur ravonunun Xok kəndində anadan olub. 1964-1969-cu illərdə Azərbaycan Dövlət Pedaqoji Universitetinin filologiya fakültəsində təhsil almışdır. 1984-cü ildə "Osman Sarıvəlli və sifahi xalq ədəbiyyatı" mövzusunda namizədlik dissertasiyasını müdafiə etmişdir.

2003-cü ildə filologiya elmləri doktoru dərəcəsi almaq üçün "Azərbaycan məhəbbət dastanlarının poetikası" mövzusunda dissertasiya müdafiə etmişdir. 40 ilə yaxındı Naxcıvan Dövlət Universitetində dərs deyir. 2004-cü ildən AMEA-nın Naxcıvan bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun folklorşünaslıq şöbəsinin müdiridir.
Açar sözlər: folklor, aşıq, M.Cəfərli, ömür yolu, mükafat

The Life of Muharram Jafarli

Summary

Maharram Jafarli was born on January 5, 1946 in the village of Khok, Sharur district, Nakhchivan ASSR. In 1964-1969, he studied at the Faculty of Philology of Azerbaijan State Pedagogical University. In 1984, he defended his candidate's dissertation on the topic "Osman Sarivelli and Oral Folk Literature".

In 2003, he defended his dissertation on the topic "Poetics of Azerbaijani Love Epics" to receive the degree of Doctor of Philology. He has been teaching at NakhchivanStateUniversity for nearly 40 years. Since 2004, he has been the head of the folklore department of the Institute of Art, Language and Literature of the Nakhchivan branch of ANAS.
Keywords: folklore, ashug, M. Jafarli, life path, award

Жизненный путь Мухаррама Джафарли

Резюме

Магеррам Джафарли родился 5 января 1946 года в селе Хок Шарурского района Нахчыванской АССР. С 1964 по 1969 год учился на филологическом факультете Азербайджанского государственного педагогического университета. В 1984 году защитил кандидатскую диссертацию на тему «Осман Сарывелли и устное народное творчество».

\ В 2003 году защитил диссертацию на тему «Поэтика азербайджанского любовного эпоса» и получил ученую степень доктора филологических наук. Он преподает в Нахчыванском государственном университете почти 40 лет. С 2004 года — заведующий отделом фольклора Института искусства, языка и литературы Нахчыванского отделения НАНА.

Ключевые слова: фольклор, ашуг, М. Джафарли, жизненный путь, награда

RƏYÇİ: dos. T.Əliyev

Günel Telman qızı Xıdırlı [54]

XƏSTƏ HƏSƏNİN AXISQANIN USTAD AŞIQLARI İLƏ DEYİŞMƏLƏRİ

Giriş. Axısqa aşıq mühitinin ən görkəmli yetişdirmələrindən biri olan Xəstə Həsən mühitin bir çox ustad aşıqları ilə münasibətdə olmuşdur. Bu əlaqələr Xəstə Həsənin "Sözdə bir" divanisi ilə yanaşı, müxtəlif aşıqlarla deyişmələr və bu deyişmələrlə bağlı rəvayətlərdə qorunub saxlanmışdır. Bu deyişmələr arasında Xəstə Həsənin Öməri ilə, Aşıq Qarani ilə, Aşıq Səfili ilə və İrfani ilə deyişmələrini qeyd etmək olar.

Əsas hissə. Xəstə Hasanın XVIII-XIX əsrlərdə yaşadığı göstərilir (4, s. 89). Xəstə Hasan özünün "Sözdə bir" divanisində müasiri olan bir şair və aşıqların adını çəkir:

Vaqif dərddən xəbərdardır, Cövhərin qiyməti yox
Qul Qarani, Qara Zülal, Aşıq Ömər sözdə bir (1, s. 156).

Bunlardan Qul Qarani və Aşıq Ömərlə Xəstə Həsənin deyişmələri məlumdur.

Xəstə Hasanla Ömərinin deyişməsi.

Öməri Xəstə Hasanla eyni dövrdə yaşamış Axısqa aşıqlarından biridir.

Bu deyişmə Ömərinin sözləri ilə başlayır, Öməri Xəstə Hasanı "ustam" adlandırır. Ümumiyyətlə deyişmə Ömərinin Xəstə Həsənə verdiyi suallar və Xəstə Həsənin cavabları şəklində qurulmuşdur.

Öməri:
Əylən, ustam, əylən, səndən bir xəbər sorem,
Adət nədür, ərkan nədür, yol nədür?
Ol səni bənə adətən cərrah dedilər,
Yürəgimdə yara nədür, sevda nədür?
Xəstə Hasan:
Bir uşaq ki, xocasından dərs alır,
Adət budur, ərkan budur, yol budur.
Niyatım haca getmax, sidqim cənnət,
Yürəgimdə yara budur, sevda budur. (2, s. 81)

Burada Ömərinin verdiyi suallara Xəstə Həsənin cavabları dini məzmun daşıyır. O, niyyətinin həccə getmək, sidqinin isə cənnət olduğunu bildirir. Maraqlı cəhət isə "adət, ərkan və yol nədir" sualına onun "uşağın xocadan dərs alması" cavabını verməsidir. Bu həm aşığın təhsilə, tərbiyəyə verdiyi yüksək qiyməti, həm dövrün və mühitin səciyyəsini (aşıq olmaq üçün ustaddan dərs almağın vacibliyini) əks etdirir.

Öməri:
Hangi peyğəmbərdən qaldi bu yapi?
Cannı-cannı içini tutdi həpisi.
On iki baxçadur, qırx səkkiz qapi,
Oni bəkliyan iki yol nədür?
Xəstə Hasan:
Nuh reyğəmbərdən qaldi bir yapi,
Canni-canni içinə toldi həpisi,
On iki aydur, qırx səkkiz hafta,
Onların içində bir doğuş, bir ölüm – iki yol budur. (2, s. 82)

Burada da dini məzmun görünür. İnsan həyatında iki əsas hadisənin olduğu vurğulanır: doğulmaq və ölmək. Bir ildəki həftələrin sayının 52 yox, 48 kimi verilməsi diqqət çəkir. Aşıq, yəqin ki, ayların sayını (12) bir aydakı həftələrin sayına vurmaqla bu nəticəyə gəlmişdir.

Öməri:
Bir cami yapdurdum, daşdan minarəsi,
Mehrabi minbər, içi dolu müşk ilə ənbər.
Səksən bin əvlim, yüz bin peyğəmbər,
Onların içində iki gül nədür?
Xəstə Hasan:
Cənnəti-əladur bizim xanamız,
Kəbəyi-şərifdə bir nişanamız.
Adəm atamız, Həvva anamız,
Onların içində iki gül budur.

Yenə dini məzmunlu şeirdə cənnət, Kəbə və bütün insanlar və peyğəmbərlər arasında ilk insanlar olan Adəm və Həvva xatırlanır.

Öməri:
Bilirsənmi neçədir sıratın yoli?
Sırati kim keçdi, yanında Ali?

[54] Azərbaycan Dövlət Pedaqoji Universitetiş xidirligunel91@gmail.com
10.24412/2218-7588-2025-2-182-187

Üç yüz altmış altı səlvinin tali,
Talında açılan iki gül nədür?
Xəstə Hasan:
Otuz iki sıratın yoli, Məhəmməd keçdi,
Sıratın yoluni, yanunda Ali.
Üç yüz altmış altı bir yılın güni,
Yılda iki bayram, iki gül budur (2, s. 82).

Bu dəfə Məhəmməd peyğəmbər və Əli xatırlanır, ildə ən əziz günlər kimi Ramazan və Qurban bayramları göstərilir. Maraqlıdır ki, ildəki günlərin sayı hicri qəməri təqvimdəkinə müvafiq 355 yox, 366 kimi göstərilir.

Öməri:
Aşıq Öməri der, cahanı gəzdim,
Oxudum əlifi, mim ilə yazdım.
Xuda ki əmr etdi, bir gəmi düzdüm,
Gəmi nədür, dərya nədür, sel nədür?
Xasta Hasan:
Xasta Hasan da der, cahanı gəzdim,
Fitfa duasını əzbərə yazdım.
Xuda ki əmr etdi bir gəmi düzdüm,
Gəmi – cəsət, könül – dərya, göz yaşı – sel budur. (2, s. 83)

Sonuncu misrası mükəmməl təşbehlərlə qurulmuş bu bənddə bədən gəmiyə, könül dəryaya, göz yaşı isə selə bənzədilir.

Xasta Hasanın Aşıq Səfili ilə deyişməsi

Aşıq Səfili kimi də tanınan Molla Məhəmməd Axısqa aşıq mühitinin ən görkəmli nümayəndələrindəndir. Onun yaradıcılığı Axısqa tarixinin çətinliklərlə dolu bir dövrünə təsadüf etmiş, bu da onun yaradıcılığında kədər motivinin güclü olmasına şərait yaratmışdır. Aşıq Səfilinin yaradıcılığı vətən mövzulu şeirlərlə zəngindir. Bunların əksəriyyətində Axısqanın rus hakimiyyətinə keçməsi ilə burada yaşayan müsəlman türklərə edilən zülmləri özündə əks etdirir.

Aşıq Molla Məhəmməd Yusif oğlu Kuşoyev Axısqa mahalının Koblıyan (Altunqala) bölgəsinin (indiki Adıgün rayonunun) Pulate kəndindəndir. Molla Məhəmməd Səfili 1870-ci ildə anadan olmuş, 1937-ci ildə siyasi repressiyaya məruz qalmış, sürgün olunmuşdur (3, s. 9-10). Onun Xasta Hasanla yanaşı, Murad Zarzamlı, Aşıq Bezgün Sakunetli, Aşıq Sümməni, Şəhri Əfəndi, Aşıq Bəsirlə deyişməsi də qeyd olunur (3, s. 21).

Səfili ilə olan deyişmə Xəstə Həsənin Öməri ilə deyişməsinə çox yaxındır. Səfili də Öməri kimi Xəstə Hasanı "ustam" adlandırır və ona müxtəlif suallar verir.

Aşıq Səfili:
Əglən, usdam, səndən xəvər alayım,
Yarın mənşər günü nə demək gərək?!
Orucun tutmayan, namaz qılmayan,
Haqqın divanında nə demək gərək?!
Xəstə Hasan:
Göylər para-para oldu, yerə töküldü,
Günahgar quluna Məhəmməd gərək.
Gənə eşqin dəryasında söküldü,
Yarın, məhşər günü şafaqat gərək! (3, s. 54).

Bu deyişmə də dini məzmun üzərində qurulub. Birinci hissədə günahkarların haqq divanında nəyə ehtiyacı olduğu bildirilir. "Gənə eşqin dəryasında söküldü" misrası ilə ilahi məhəbbətdən danışılır.

Aşıq Səfili:
Məhsum kimi dərin çəksə daraya,
Təbibsən, ilac eylə yaraya.
Savaxdan bir meyit düşsə araya,
Molla bulunmasa nə demək gərək?!
Xəstə Hasan:
Ürəgim yaradı, cigərim oxlar,
Kədərim artıb da, dərdim çoxlar,
Əhli kamil sözün bəndini yoxlar,
Fərz ilə sünnət salavat gərək! (3, s. 55)

Bu sətirdə isə islam dininin tətbiqi məsələlərindən, dini rituallardan danışır.

Aşıq Səfili:
Sefilim də dəriyalara dalanda,
Yel qaldırıb, mah camalı solanda,
Əzrail döşünə pəncə çalanda,
Dillər fəndə gələr, nə demək gərək?!

Xəstə Hasan:
O qanatsız uçan kəsik başıydı,
Sələtlə Ərasət öz qardaşıydı.
Əzrayılı bilmiyənnər naşıydı,
Xastasan der: salavat gərək! (3, s. 55)

Burada da ölüm yaxınlaşanda nə etmək lazım olduğu haqqında danışılır.

Deyişmədə diqqəti cəlb edən ən mühüm cəhətlərdən biri əvvəlki iki misranın giriş səciyyəsi daşıması, əsas məzmunun sonuncu iki misrada ifadə olunmasıdır. Bu həm Səfilinin suallarında, həm də Xəstə Həsənin cavablarında müşahidə olunur.

Xəstə Hasanın Aşıq Qarani ilə deyişməsi

Aşıq Qarani, yaxud Qul Qaraninin həyat və fəaliyyəti XVIII əsrin sonu XIX əsrin əvvəllərinə aiddir. Qul Qarani Çıldır, Ağbaba, Ərdahan, Qars və digər bölgələrdə məşhur olmuş, bir çox aşıqlarla deyişmişdir (1, s. 156).

Qarani:
Əvvələ dörd kitabdan hər-bir hesab tap,
Siftə qələm çaldı bax birisinə,
Kəlmeyi şərifdə, canlı mehrəcdə,
Qatarlanıb gedər bax birisinə.
Mən əzizinəm, yarasul dedilər,
Eyib dərdə düşdü yarasul dedilər,
Yığıldı cümlə yarasul dedilər,
Nə səbəbdən nəylət endi, bax birisinə.
Xasta Hasan:
Xasta Hasan der, bir budaq üstə,
Məcnunun mahalı bir budaq üstə,
İki alma bitib bir budaq üstə,
Biri şövlə verər bax birisinə.
Yer altında qızıl bir rüzgar üstündədi,
Bu dünyanın çay ətrafi bir şahmar üstündədi,
Bərxudamın malı çoxdu, çox mal verər Vəliyə,
Çox malın çox əzabı var, onunçün verməz dəliyə,
Əgər mübarək əlin qalsa Astanım Aliya,
Heç kimsəyə başın əyməz Zülfüqar üstündədi.
Xasta Hasan deyir bu sözləri anlayana nəsiyyət,
İnsan oğlundan qalxdı möhübbət, heyvandan xasiyyət,
Hər yatanda zikr eylə, hər qalxanda vəsiyyət,
Keçdi günüm, doldu sinəm,
Heyif ki, o da ixtiyar üstündədi. (2, s. 83-84)

Yenə dini məzmun daşıyan deyişmədə "Süleymana qalmayan dünya" məsəli xatırlanır, həyatın əsasında duran dörd ünsür xatırlanır, İsmayıl qurbanı hadisəsindən danışılır, səmavi dinlərin dörd müqəddəs kitabı və onların verildiyi peyğəmbərlərin adı çəkilir, islam dinində qeyd olunan mələklər və onların vəzifələri göstərilir (2, s. 84-85). Deyişmə Qul Qarani və Xəstə Həsənin dini biliklərinin dərinliyini göstərir.

Bu deyişmə yalnız dördlüklər əsasında qurulmamışdır. Şeir şəkilləri və misraların sayı deyişmə boyu dəyişir. Bu deyişmənin müxtəlif variantları var. Bu deyişmədə yalnız bir şeirin deyil, müxtəlif şeirlərin söyləndiyi qeyd olunur. Asif Hacılının "Ahıska türkləri: inanc dünyası" kitabında verilən variantda deyişməyə daxil olan bir neçə şeirin birləşdirildiyini güman etmək olar. Ə.Şamil bu deyişmədə "Qara hey!" cığalı təcnisinin, "Bax" divanisinin, və "Ver xəbər" divanisinin olduğunu göstərir (6, s. 44). Yuxarıdakı variantda "Bax" rədifi ilə yanaşı, "Bax birisinə", "Üstündədi", "Bir də bir" rədiflərini də görürük.

"Qara hey!" cığalı təcnisi aşağıdakı kimidir:
Qul Qaranı:
Əlif-bey içində, hərf arasında,
Bir xət gördüm, çəkilibdi qara hey!
Əziziyəm, qara hey!
Qış gəldi bax, qara hey.
Qaradan boyax olmaz,
Boyanıbdı qara, hey!
Namərd seyraqubun bafası olmaz,
Dolanar dünyanı üzü qara hey!
Xəstə Hasan:
Aləm bilir bu dünya da beş gündü,
Mən bilirəm beşini də qara hey!
Əziziyəm qara, hey!

Oxu dərsin qara, hey!
Əzəlindən kim çalıb,
Ağ üstündən qara hey?!
Sağlıq xəbərimi yara versələr,
Dost sevinər, düşmən geyər qara hey! (6, s. 44)

Burada dini məzmundan bir qədər uzaqlaşma müşahidə olunur. İnsanlar arasındakı münasibətlərə toxunulur. Dostluq, düşmənlik, vəfasızlıq haqqında danışılır. Sonrakı hissələr də oxşar mövzuda davam edir.

Deyişmədə cığalı təcnis kimi çətin bir şəkildən istifadə olunması diqqəti cəlb edir.

"Bax" divanisinin böyük hissəsi A.Hacılının nəşrində də verilmişdi. Ə.Şamilin nəşrindəki variant (6, s. 46) da ona çox yaxındır. Deyişmədəki digər divani "Ver xəbər" rədiflidir:

Qul Qaranı:
Bizi yoxdan var eyləyən ol sübhandan ver xəbər,
Səkkiz cənnət əzizi o kimlərdən ver xəbər.
O kimdi, hüllə biçir insanın sifətinə?
Doqquz bağa su bağlayan o bağmandan ver xəbər.
Xəstə Hasan:
Bizi yoxdan var eyləyən ol sübhandan al xəbər,
Səkkiz cənnət əzizi o kimlərdən al xəbər.
İdrisdir, hüllə biçir insanın sifətinə,
Doqquz bağa su bağlayan o bağmandan al xəbər. (6, s. 46)

Burada rəqəm simvolikasından istifadə olunmuşdur. 8 və 9 saylarının rəmzi mənası açılmışdır.

Sonrakı hissələrdə Qabilin Habili öldürməsi əhvalatına, Həzrəti Yunus hekayəsinə, Həzrəti İsanın atasız dünyaya gəlməsinə işarə olunur (6, s. 47).

Xəstə Hasan və Qaranının deyişməsi haqqında dastan-rəvayət də var. Ə.Şamil bu dastan-rəvayətin dörd nüsxəsinin olması haqqında danışır. Bunlar Məhəmməd Hüseynqulu oğlundan, Aşıq İsgəndər Ağbabalıdan, Aşıq Murtazadan və Aşıq İlyas Dadayevdən (6, s. 41): "Birinci nüsxəni araşdırıcı Elxan Məmmədli babasından toplayıb və AMEA Folklor İnstitutunun Arxivində 1996-cı ilin ekspedisiya materialları sırasında 100-cü qovluqda saxlanılır. Sonrakı üç variant isə şəxsi arxivimizdə və AMEA Folklor İnstitutunun arxivində müxtəlif illərin ekspedisiya materialları arasındadır. Dördüncü variantı isə S.Peterburqda yaşayan professor Faiq Çələbi 9 iyul 1987-ci ildə Almatı şəhərində olarkən Aşıq İlyas Dadayevdən toplayıb" (6, s. 41-42).

Rəvayətə görə, Qarzaxlı, yaxud Sarıqamışlı Nağı bəyin evində onun aşığı Qaranının gəlininə dediyi tərif bəyin xoşuna gəlmir. Qaranını bağlayacaq aşıq axtarırlar. Xavet kəndində danaçılıq edən bir yeniyetməyə haqdan vergi verildiyini eşidib onu Qul Qaranı ilə deyişməyə gətirirlər (6, s. 42-43). Bu yeniyetmə Xəstə Həsəndir.

Xəstə Hasan Qul Qaranının dediklərinə cavab verir, ancaq Qul Qaranı onun bağlamasını açа bilmir. Sonda Qul Qaranı Nağı bəydən Xəstə Hasanı ona iki günlük qonaq verməsini xahiş edir (6, s. 47).

Deməli, Xəstə Həsənin Qul Qarani ilə deyişməsini digər deyişmələrdən fərqləndirən bir cəhət də Öməri və Səfilinin Xəstə Həsəni ustad hesab etməsi, Qarani ilə deyişmədə isə Qaraninin ustad, Xəstə Həsənin yeniyetmə hesab edilməsidir.

Xəstə Hasanın Aşıq İrfani ilə deyişməsi

Əli Şamil yazır ki, Aşıq Şenlik 1853-1914-cü, Aşıq Nuru 1811-1885-ci illərdə yaşamışlarsa, Xəstə Həsən 1760-1840-ci illərdə yaşadığı qənaətindəyiksə onda da Urfanının (əsil adı Sülüyman) doğum tarixi 1750-ci illərdən əvvəldə olmalıdır (4, s. 90).

İrfaninin əsl adı Süleyman kimi göstərilir. Yeniyetmə çağlarında ərənlər ona yuxuda buta verdiyindən təhsilini yarımçıq qoyaraq sevgilisi, Türkmən bəyinin qızı Sənəmi axtarmağa başlamışdır (4, s. 86).

Bu deyişmə ilə bağlı da qısa bir rəvayət var:

"Xəstə Hasan qardaşı oğlunu həbsdən azad etdirmək üçün Xosubya bəylərinə xahişə gedir. Onlar aşıqı sınamaq üçün zəmanəsinin ustad aşığı və irfan əhli olan İrfanini məclisə dəvət edirlər" (4, s. 85).

İrfani "Dörd qaldı" rədifi ilə bağlama söyləyir, Xəstə Həsən isə ona "Dörddü dörd" rədifi ilə cavab verir:

İrfani:
Aradım, yoxladım könül şəhrini,
Gördüm bu könlümdə yenə dörd qaldı.
O dördün birini qaldırdım atdım,
Baxdım gerisinə yenə dörd qaldı.
Xəstə Hasan:
Ol yaradan bu dünyanı xəlq etdi,
Nişangahı dörd qıvladı, dörddü dörd,
Yoxdan var eylədi cəmi insanı,
Abı, ataş, xaki, badda dörddü dörd. (4, s. 87)

Dörd sayının ifadə etdiyi mənalar üzərində qurulan şeirdə onun simvolikası açılır. Məsələn, Xəstə Hasan dünyanın əsasında duran dörd ünsürdən danışır: su, od, torpaq və yel.

İrfani:

Oxudum, oxudum mətləbə çatdım,
Bir bəzirgan tapdım yarısını satdım,
İndi də o dördün ikisin atdım,
Yenə baxdım gerisində dörd qaldı.
Xəstə Hasan:
Yoxdan var eylədi cümlə aləmi,
Endi fəriştələr, çəkdi qələmi,
Məhəmmədə gəldi haqqın salamı,
"İncil", "Tövrət", "Zabur", "Quran" dörddü, dörd. (4, s. 87).

Burada isə Allahın dünyanın yoxdan yaratması, Məhəmməd peyğəmbərə Quranın nazil olması haqqında danışılır. Bu dəfə dörd sayı ilə dörd müqəddəs kitaba işarə olunur.

İrfani:
İrfani deyər bu sözləri alana,
Eyvallahım var təcnisi bilənə,
Üçünü atdım, birini aldım qələmə,
Dörddən dörd tulladım yenə dörd qaldı.
Xəstə Hasan:
Dövr edilər bu dünya dönər, ha dönər,
Bir gün olar çıra bəndindən sönər,
Xəstə Hasan, sinənə əzrayıl qonar,
Dörd kimsə aparar, yenə dörddü dörd. (4, s. 87)

Bu hissədə isə həyat-ölüm məsələsi və dünyanın dövranından danışılır.

Ümumiyyətlə rəqəm simvolikası həm şifahi xalq yaradıcılığı, həm də yazılı ədəbiyyatda mühüm yer tutur. Bu özünü aşıq yaradıcılığında göstərir. 4, 7, 9, 40 kimi sayların ifadə etdiyi rəmzi mənaya ədəbiyyatda daha çox müraciət olunur.

Bu deyişmənin bir neçə variantı var. Ə.Şamil başqa tədqiqatçıların haqqında danışmadığı bu deyişmə haqqında Aşıq İslam Ərdənərdən eşitmiş, sonra onu Ağbabalı Aşıq İsgəndər Gülməmmədovdan yazıya almışdır. O qeyd edir ki, Xəstə Hasanın qohumlarından olan və Qazaxıstanın Talqar şəhərində sürgündə yaşayan Aşıq Murtaza da 1985-ci ildə Xəstə Hasanla İrfaninin deyişməsini ona göndərmişdir. Müəllif bu deyişmənin Aşıq İslam Ərdənər, Aşıq İskəndər, Aşıq Murtaza və Qazaxıstan respublikasının Çimkənd şəhərində yaşayan Aşıq İlyas Dadaşov variantlarından danışır (4, s. 86-88).

Nəticə. Xəstə Həsənin deyişmələrinin ortaq xüsusiyyətlərindən biri bu deyişmələrin hamısının digər aşıq tərəfindən başladılmasıdır. Burada Xəstə Həsən qarşısındakı sənətkarın suallarına cavab tapır, onun verdiyi müəmmaları açmağa nail olur.

Xəstə Həsənin mühitin müxtəlif görkəmli sənətkarları ilə deyişmələri Axısqa aşıq yaradıcılığına dair maraqlı faktlardandır. Bu deyişmələr mühitin nümayəndələri arasındakı ədəbi əlaqələri daha yaxşı öyrənməyə imkan verir.

İstifadə edilmiş ədəbiyyat

1. Apbaba A. Apbaba-Əldər aıoəq mьhiti. Bakɔ: Elm və təhsil, 2012, 310 s.
2. Hacələ A. Ahɔska tьrkləri: inanc dьnyasɔ. Bakɔ: Mьtərcim, 2014, 108 s.
3. Hacələ A. Axɔsqalə Aıoəq Molla Məhəmməd Səfili. Bakɔ: Mьtərcim, 2014, 84 s.
4. Єamil Ə. Aıoəq Ьrfanənən ımьr yolu və єeirləri // "Ortaq tьrk keɜmiєindən ortaq tьrk gələcəyinə". IV Uluslararasə Folklor Konfransənən materiallarə. AMEA Follkor Ənstitutu, Bakɔ, 2006, 1-3 noyabr, s. 85-91.
5. Єamil Ə. Ərfani ləqəbli aєiqlar və "Ьrfani" havalari (Araıodərmalar, ıoeirləri, dastan-rəvayətlər və not yazələrə), Bakɔ, 2016, 243 s.
6. Єamil Ə. Aıoəq Qaraninin ımьr yolunun dəqiqləєdirilməsi problemləri // Ozan dьnyasɔ, 2018, № 2 (30), s. 37-49.

Açar sözlər: deyişmə, aşıq, dini, Xəstə Həsən, Ömeri, Qarani, Aşıq Səfili, Aşıq İrfani

Key words:exchange of words, ashik, religious, Khasta Hasan, Omari, Qarani, Ashik Sefili, Ashik Irfani

Ключевые слова:поэтические состязания, ашуг, религиозный, ХастаГасан, Омари, Гарани, АшугСефили, Ашуг Ирфани

Xəstə Həsənin Axısqanın ustad aşıqları ilə deyişmələri

Xülasə

Axısqa aşıq mühitinin ən görkəmli nümayəndələrindən olan və mühitin ustad şəcərəsində mühüm rol oynayan Xəstə Həsən dövrünün bir çox aşıqları ilə münasibətdə olmuşdur. Bu münasibət və qarşılaşmalar Xəstə Həsəndan bəhs edən dastan-rəvayətlərdə və deyişmələrdə qorunub saxlanmışdır. Xəstə Həsənin Ömeri, Aşıq Qarani, Aşıq Səfili və İrfani ilə deyişmələrini qeyd etmək olar. Məzmun və ifadə tərzi ilə bir-birinə yaxın olan bu deyişmələr, əsasən, sual-cavab şəklində qurulmuşdur. Müxtəlif şeir şəkillərində olan bu deyişmələrdə dini məzmunun üstünlüyü aydın görünür. Deyişmələrinin ortaq cəhətlərindən biri də odur ki, onların hamısı digər aşıq tərəfindən başladılır, Xəstə Həsən isə qarşısındakı sənətkarın suallarına cavab verir, ona ünvanlanan müəmmaları açır.

Поэтические состязания Хаста Гасанас мастерами-ашугами Ахыски

Резюме

Один из самых выдающихся представителей ашугской среды иигравший важную роль в родословной мастеров этой среды, - ХастаГасанподдерживал отношения со многими ашугами своего времени. Эти

отношения и встречи сохранились в дастанах-притчах и дейишме –публичные поэтических состязаниях о Хаста Гасане. Следует подчеркнутьпоэтические состязания Хаста Гасана с Омаром, Ашугом Гарани, АшугомСефили и Ирфани. Эти поэтические состязания, близкие по содержанию истилю выражения, в основном построены в форме вопросов и ответов. В этихвариациях различных поэтических форм отчетливо прослеживаетсяпреобладание религиозного содержания. Одной из общих черт ихпоэтических состязаний является то, что все они начинаются другим ашугом,в то время как Хаста Гасан отвечает на вопросы стоящего перед ним мастераслова и разгадывает обращенные к нему загадки.

Exchange of opinions among Khasta Hasan and the chief ashiks of Ahiska

Summary

Being one of the most important representatives of the circle of ashiks of Ahiska and occupying an important place in the lineage of the masters of the circle, Hasta Hasan had contacts with many ashiks of his time. These contacts and encounters are preserved in the epics, legends and exchange of opinions talking about Hasta Hasan. It is worth mentioning the exchanges between Khasta Hasan and Omari, Ashik Qarani, Ashik Sefili, and Irfani. These exchanges of opinions, similar in content and style of expression, are mainly structured in a question and answer format. In these variations of various poetic forms, the dominance of religious content is clearly evident. One of the common features of the exchanges is that they are all initiated by the other ashiks. Khasta Hasan answers the master`s questions and solves the riddles addressed to him.

Rəyzi: f.e.d., prof. M.Allahmanlə

Cavid Zeynalov [55]

KAMAL ABDULLA HEKAYƏLƏRİNDƏ MİFOLOJİ ZAMAN VƏ MƏKANIN XARAKTERİSTİKASI

Zaman anlayışının iki tərəfinin olması onun həm "obyektiv", həm "subyektiv" olmasından irəli gəlir. Hamımız obyektlər (əşyalar) dünyasının içində yaşayırıq. Dərk edə bildiyimiz və düşünə bildiyimiz hər şey əşyalar dünyasının bir hissəsidir. Zaman və məkan bu dərk edilən əşyalar dünyasının nizamı formalarıdır. Ernst von Aster bu obyektləri real zaman və məkana bağlı olub-olmamasına əsasən "real obyektlər" və "ideal obyektlər" olmaqla iki əsas sinifə ayırır.

"Real obyektlər" həqiqətə bağlı olanlardır, bunda görə də məkanda və zamanda mövcud oluş tərzləridir. "Fiziki obyektlər" və "Ruhi obyektlər" bu qrupa daxildir. "Fiziki obyektlər" müəyyən məkanda və müəyyən zamanda mövcud olurlar. "Ruhi obyektlər" isə məkanla dolayı münasibət içindədirlər, ancaq həmişə müəyyən zamana aiddirlər. "İdeal obyektlər" zehnimizin yaratdığı, üstəgəl, obyektiv məkan və zamanla heç bir əlaqəsi yoxdur. "Riyazi obyektlər" və "Virtual obyektlər" bu qrupa aiddir. [3,s. 12]

Bu fikirlərdən də göründüyü kimi, zamanı vasitə kimi istifadə edəndə o, bütün əməllərimizi müəyyən bir nizam içində reallaşdırmağımıza imkan yaradan, gündəlik həyatımızı asanlaşdıran elementdir. Ancaq ondan sevgi, ölüm kimi mücərrəd anlayışlar olaraq danışsaq, onun dərki adama görə dəyişir. Bəzən bütün həyatı mənalandırmağa namizəd olan fəlsəfi subyektə çevrilir. Bax onda zaman həll olunması çətin müəmmaya çevrilir. [7]

Tədqiqatçı-alim Cozef Şipli özünün məşhur "Dünya ədəbiyyatı terminlər lüğəti"ndə (Dictionary of world literary terms) yazır: "Zaman bütün tragediyalarda əsas qəhrəmandır: Leydi Maqbet xəyallar qurarkən, zaman ona krallıq ehtirasını gətirir. Faust həyatını yaşarkən, Hamlet tərəddüd edir. Zaman onların talelərini yazmaqda tələsir." [5, s. 334]

Zamana qarşı bu cür müxtəlif yanaşmalar yazıçıların yaradıcılıqlarında da özünü göstərməkdədir. Kimisi zamanı dəqiq və nizamlı təqdim edərkən, kimisi qeyri-müəyyən və xaotik təsvir edir. Lakin xalq yazıçısı Kamal Abdullanın yaradıcılığında zaman konsepsiyasını daha maraqlı bir forma alaraq mifoloji müstəvidəözünü göstərir. Belə ki, müəllifin istər romanlarında, istərsə də hekayələrində "zaman" konkret tarixi anı yox, daha çox yazıçı tərəfindən təklif edilən, alternativ, mifoloji zamandır. Bu alternativ, mifoloji zamanda ilk baxışdan bir-birindən uzaq olan, yaxud biri mifoloji çağı (tutalım, Dədə Qorquddakı Oğuz zamanı), digəri isə konkret tarixi (tutalım, Şah İsmayıl dövrü) ifadə etsə də, onlar müəllif mətnində bir-birinin içinə keçərək, çulğalaşaraq, alternativ, başqa bir müstəviyə keçiblər.

Kamal Abdullanın bütün romanlarından, habelə hekayələrindən keçən əsas xəttlərdən biri də postmodern mətnlərə xas olan intertekstuallıq, palimpsestlikdir. Latınca, palimpsestin mənası "yenidən qazılmış" deməkdir, bu, köhnə bir rəsmin, yaxud mətnin üstünə onunla oxşar olan, ancaq eyni olmayan yenisinin yazılmasını ifadə etmək üçün istifadə edilən termindir. Bu barədə şair, ədəbiyyatşünas Qismət Rüstəmov xalq yazıçısı Kamal Abdullanın hekayələri haqqında yazdığı "Üz-üzə güzgülər" adlı essesində qeyd edir: "Kamal Abdullanın hekayələrində yol işarələri çox vaxt ithaflar olur. Məsələn, "Qar" hekayəsi Əbdürrəhim bəy Haqverdiyevə ithaf edilib. Bunun üzdəki səbəbi ehtiramdırsa, mətndaxili məntiqi başqadır. "Qar" palimpsest mətndir. Məncə, müəllif bu hekayəni Haqverdiyevin "Haqq mövcud" və "Çeşmək" hekayələrinin əlyazmasına yazıb. Amma yeni versiyada köhnəəlyazmalardan silinib getmiş tənqidi-realist məqamların yerinə magizm əlavə edilib. Məsələn, bu hekayədə "Haqq mövcud"dakı məşədi iləpristavın pul-para münasibətləri yoxdur, amma daim eyni sözü təkrarlayan (Haqq mövcud!) dərvişin refreni başqa formada var: Qar yağacaq! "Qar"ın altında "Çeşmək"dən də nəsə var: eyni şeyi təkrar etməklə adamı çərlədənlər. Eyni sözün təkrarı bir tərəf üçün (Həsən əmi üçün) inamı işarələyirsə, digər tərəf üçün (Qəddar Malik üçün) adam çərlədən bozluq, yoruculuqdur. Hekayənin finalı sanki böyük türk şairi Yahya Kamalın məşhur misrasının təsdiqidir: "İnsan alemde hayal ettiği müddetçe yaşar!" Belə ki, beş ildir qar yağmayan şəhərə yay günü qəfil qar yağır. Amma şəhəri gəlinlik donuna bürüyən bəmbəyaz qarın yağması Həsən əminin ağappaqaq kəfənə bürünməsi hesabına başa gəlir. Elə bil, Həsən əmi özü qara çevrilib şəhərə yağır və bu çevrilmə Qəddar Malikin qəlbindəki buzları əridir, hekayə onun hönkürməsi ilə bitir…" [6]

Sitatdan göründüyü kimi, Kamal Abdullanın "Qar" hekayəsi ithafi ilə işarə etdiyi müəllifin – Əbdülrəhimbəy Haqverdiyevin "Haqq Mövcud" hekayəsinin yenidən yazılmasıdır, palimpsest metodla yenidən qurulması, ədəbi-mədəni dövriyyəyə buraxılmasıdır. Bəzən Kamal Abdullanın mətnlərini realist ədəbi düşüncənin kanonları ilə qiymətləndirmək istəyən, bu mətnləri aid olmadıqları ədəbi estetik metodlarla şərh etmək yanlış qənaətlərə gətirib çıxarır. Çünki bu mətnlər modernist və postmodernist ədəbiyyat paraqdimasına uyğun yazılıb və ona uyğun da şərh olunmalıdır. Beləliklə, postmodern mətnlər üçün vacib anlayışlarından olan intertekstuallıq (mətnlərarası əlaqə) məsələsinə gəlirik. Bu anlayışı ədəbiyyatşünaslıqda məşhurlaşdıran, onun geniş vüsət almasında böyük zəhməti olan Yuliya Kristevanın fikrincə, hər bir mətn sitatlar toplusudur, başqa mətnlərləəlaqədir, başqa-başqa mətnlərin bir mətnin içinə yeridilməsidir. Deməli, hər mətnin təhlili, şərhi zamanı onun başqa mətnlərləəlaqəsi üzə çıxarılmalı, belə şərh olunmalıdır. Bu yanaşmaya görə, hər bir müəllif mətnini qurarkən bilərəkdən, yaxud təhtəlşüur səviyyəsində mütləq başqa mətnlərləünsiyyətə girir. Bundan başqa oxucu da bu prosesin aktiv tərkib hissəsidir, yəni ənənəvi ədəbi düşüncədəki kimi, oxucu passiv deyil, o da şərh prosesinin, mətn inşasının tərkib hissəsidir. Belə ki, o, mətnin intertekstual qatlarını üzə çıxarır, öz mümkün şərhini təklif etməklə çoxmənalı struktura töhfə verir.

[55]ADU. Mətbuat katibi 10.24412/2218-7588-2025-2-188-190

Kamal Abdullanın dünyaşöhrətli argentinalı yazıçı, intellektual Xorxe Luis Borxesə ithaf etdiyi "Adaşlar" adlı hekayədə də eyni məntiqi görürük. Bu hekayə Borxesin "Özgə" hekayəsi ilə mətnlərarası əlaqə üzərində və palimpsest məntiqlə qurulub. Burada bəzi narrativ fərqlər gözə çarpır, belə ki, Borxesin hekayəsi birinci şəxsdə yazılıb, yəni müəllif əhvalatı öz başına gəlmiş kimi danışır; Kamal Abdulla isə mətni üçüncü şəxsdə nəql edir, yəni müşahidəçi mövqeyindən. Bu hekayədə müəllif müəyyən semantik vasitəsli mətni birqatlı olmaqdan çıxarır, daxili arxitektonika vasitəsilə xronotopları aktivləşdirir. Bu barədəədəbiyyatşünas Qismət Rüstəmov yazır: "Ziqmund Freydin məşhur bir məqaləsi var: "Yaradıcı yazıçılar və gündüz yuxuları" (Creative writers and Day-dreaming) Freyd məqaləsində təxminən belə suallar qoyur: yazıçılar bu qədər hekayə yazırlar, bəs bunun mənbəyi hardadır, istifadə etdikləri qaynaq nədir, onlar varlığından xəbərimiz olmayan duyğuların canlı təəssüratlarını yaratmaq üçün hansı metodlardan faydalanırlar? Freyd iddia edir ki, özünəməxsus bir dünya quran, ya da dünyanı öz xoşuna gələcək şəkildə yenidən tərtib edən uşaqlar oyun oynayarkən yaradıcı yazıçılar kimi davranırlar. Ancaq uşaq böyüyür və oyun dünyasından aralı düşür, zaman keçdikcə özü də heyrətlənir ki, vaxtilə oyunlardan necə zövq alıb. Amma Freyd deyir ki, insan təbiəti heç nəyi atmır, sadəcə bir şey başqa şeyin yerinə keçir. O, artıq oyun oynamasa da, xəyal qurmağa davam edir. Freyd gecə görülən yuxularla gündüz görülən yuxuları ayırır və gündüz görülənləri yaradıcı yazının metaforası kimi istifadə edir. Bu kontesktdən baxanda "Günorta yatanlara həmişə qəribəbaxmışdı" cümləsinin gizlinləri bir az aydınlaşır, amma hələ tam yox. Tam olması üçün növbəti cümləni yanına əlavə etməliyik: "İndi isə özü hər gün öhdəlik götürmüş adam kimi eyni vaxtda yuxu ilə görüşə tələsirdi." Öhdəlik götürmüş kimi yuxular aləminə, oyun dünyasına, alternativ gerçəkliyə, yaradıcılıqla adaş, əkiz dünyaya tələsən təhkiyəçi, (müəllifin hekayədəki alter eqosu) Freydin diliylə desək, güzdüz yuxuları görür, yəni zamanlararası sərhədlərin itdiyi yerə can atır. Bu, elə yaradıcı yazının, yazmağın metaforasıdır."[6]

Kamal Abdullanın "Adaşlar" hekayəsinin intertekstual marşrutu belə qurulub desək, yanılmış olmarıq: mətnin ithafı Borxesədir, üstəlik, onun məşhur hekayələrindən birinin motivi üstündə qurulub, beləliklə, intertekstual qatlar qurulmuş olur. Bu iç-içə keçmək modelinə postmodern nəzəriyyədə "mise en abyme" deyirlər. Bu anlayışı sənət dünyasına görkəmli fransız yazıçısı Andre Jid daxil edilib. Andre Jid gündəliklərində yazırdı ki, nə vaxt hər hansı sənət əsərindəəsərin özünün öz mövsuzu ilə yer dəyişdirdiyini görsəm, sevinirəm. Dünyadakı heç bir fənd əsərin bütövlüyünü bundan yaxşı göstərə bilməz. Eynilə Şekspirin "Hamlet" pyesinin içində göstərilən pyes kimi. Bu halda mətn sanki öz bütövlüyü ilə metaforaya, bədii təyinə çevrilir.

"Mise en abyme" - sözünün mənası "sonsuzluğa düşmək"dir. Andre Jid bu qəribə anlayışı möhürləri, emlembləri, nişanları öyrənən gerbşünaslıqdan – heraldikadan tapıb. "Mise en abyme" anlayışına bundan başqa Mişel Fukonun "Kəlmələr və şeylər" kitabındakı Dieqo Velaskesin məşhur "Meninlər" əsəriylə bağlı təhlildə də rast gələ bilərik.

Mişel Fuko sözügedən kitabda Velaskesin dünyaca məşhur "Meninlər" tablosuyla bağlı yazır ki, bu əsərdə rəssam da tabloda görünür, burada sifarişçi Kral Filip və həyat yoldaşı da var – onların rəssama tərəf olan baxışı bizə tuşlanıb, tabloya baxanlara. Rəssamın özünü isəəlində fırça arxadakı güzgüdə görürük. Fuko yazır ki, rəssamın özünü əsərdə göstərməsi artıq sənətin tamam fərqli dünya görüşünü təmsil etdiyini göstərir. Artıq paradiqma dəyişikliyi baş verib. Kamal Abdullanın sözügedən "Adaşlar" hekayəsində xronotop kimi, "balkon" (eyvan), eləcə də "pivnoy" kimi yerləri görürük. Hekayənin bütün süjeti bu zaman-məkan fəzalarında baş tutur, inkişaf edir və yekunlaşır.

Kamal Abdulla hekayələrini oxuyarkən bir digər postmodernist anlayış olan dekonstruksiyaya baxmalıyıq. Fransız filosof Jak Derridanın nəzəri axtarışları daha çox mətn və dil nəzəriyyəsi üzərində fokuslanmışdı və dekonstruksiya anlayışı ətrafında formalaşırdı. Derrida yazırdı ki, istənilən mətn paradokslardan və xaosdan ibarətdir, müəllifin niyyətindən asılı olmayaraq, yekun mətnin gerçək, həqiqi mənasını tam mənada bilmək mümkün deyil. Derrida dili məna və informasiya vasitəsi kimi dekonstruksiya edir. Alimin fikrincə, ünsiyyət vaxtı daim boşluqlar qalır, fasilələr yaranır, deməli, məna sabit deyil, daimi transformasiya içindədir. Əgər mətndə məna daim ertələnirsə, yaxud sabit yox, dəyişkəndirsə, onda təhlilçi, oxucu və ya yazıçı nə etməlidir? Derridanın düşüncəsinə görə, mətnləri götürüb hissələrinə ayırmalı, içindəki bir-birinə diametral əks olan mənaları analiz etməlidir.

Kamal Abdullanın "Adaşlar" hekayəsində bu cür dil üzərindən qurulan məna oyunları var. Bu hekayədə "uçan balkon" söz birləşməsiylə birqatlı olmayan, fərqli mənaları olan bir dil oyunu təklif olunur. Belə ki, bizim dilimizdə "uçmaq" sözünün bir göyə uçmağı bildirən mənası var, bir də uçub dağılmağı bildirən mənası var. Bir sözün ikibaşlı təbiəti müəllifə imkan verib ki, həm süjetin, həm də personajın daxili dinamikasına yeni rakursdan baxsın.

"Xaron, mərhəmətli Xaron" hekayəsində müəllif yenə mifoloji mövzuya müraciət edir. Bu dəfə də mətndə mifoloji məkan və zaman ətrafında qurulan, mifoloji sistemdə daha çox qəddar, soyuqqanlı, qaradinməz, heç bir emosional refleksi olmayan personaj kimi təsvir edilən, Stiks çayının sahilində ruhları öz qayığı ilə o biri sahilə keçirən Xaronu yeni təqdimatda görürük. Belə ki, mifoloji məntiqə görə, Xaronun qayığında o biri sahilə keçəndə hər kəs dünyadakı hər şeyi unudur, yaddaşını təhvil verib gedir. Ancaq Kamal Abdulla bu mifoloji məkanda və zamandakı hadisələrə öz alternativini təklif edir: övladıyla bağlı xatirələrini təhvil vermək istəməyən anaya Xaronun yazığı gəlir, övlad sevgisi qəddar Xaronda belə mərhəmət hissini oyadır.

"Parisin seçimi" heyayəsində müəllif yenə məkan və zaman olaraq mifoloji dövrü, antik yunan miflərinin dünyasını seçir. Troya müharibəsini başladan məşhur hadisəni müəllif yenə özünəməxsus alternativ formada nəql edir. Kentavr Xironun mağarasında Peleylə Fetidanın toyu keçirilir. Ancaq bu toya nifaq ilahəsi Erida dəvət edilmir. Buna qəzəblənən Erida kənardan məclisə üstünə "ən gözəl" yazılmış nifaq alması göndərir. Məclisdəən gözəlin kim

olmasıyla mübahisə başlayır, beləcə, Hera, Afrodita və Afina arasında rəqabət alovlanır. Münsif kimi Parisi seçirlər. Məlumdur ki, mifin orijinal variantında gənc Paris ona ən gözəl qadını, sevgini vəd edən məhəbbət ilahəsi Afroditanı seçir. Ancaq Kamal Abdullanın versiyasında Paris ona hakimiyyət vəd edən Heranı seçir.

Yazıçının "Edam vaxtını dəyişmək olmaz" hekayəsində də zamana maraqlı yanaşma özünü göstərməkdədir.Belə ki,hekayənin adında zaman faktoruna xüsusi işarə var.Artıq əvvəlcədən müəyyənləşmiş, geri dönüşü olmayan hökmün icra olunacağı vaxt, zaman var və sözügedən həyatın gündəlik axarı həmin qırılma anına doğru axır. Burada məqsəd hekayədə qətlə yetirilən Şükufənin qatilini tapmaq deyil. Yazıçı insan mövcudluğu ilə bağlı qəliz, mürəkkəb psixoloji vəziyyət, sərhəd situasiyası yaratmaqla onun – insanın üzdə olmayan qatlarını açmaq, sirli təbiətindən bir parçanı üzə çıxarmağa çalışır. Məhz buna görə də hekayənin fokusunda qətl hadisəsi yoxdur, bu hissə oxucunun fantaziyasının sonsuzluğuna etibar edilib. Müəllif hekayədəki vəziyyəti, edam aktına doğru axan zamanla bağlı oxucunu düşünməyə dəvət edir.

"Həzin yay axşamı" hekayəsində müəllif əksər hekayələrində rast gəldiyimiz məkan və zaman anlayışına, eləcə də xronotopuna sadiq qalaraq, zaman kimi yay fəslini, məkan kimi bağ evini (Bilgəh) seçir. Oyun və sevgi motivləri ətrafında qurulan, yay fəslində, bağda üç qız dörd oğlanın, bir də eyvandan onlara baxan yaşca nisbətən böyük Orxan adlı gəncin fonunda, xronotop kimi bağ evində baş tutan mətndə müəllif əldən qaçırılmış sevgi fürsətlərinin, dilə gətirilməyən arzuların, sonrakı peşmanlığın ovqatını ifadə edir.

"Köhnə məhlə" hekayəsində Kamal Abdulla digər mətnlərində çox rast gəldiyimiz bağ evi və şəhərdəki "köhnə məhlə" xronotopları ətrafında qurur. Burada müəllif öz üslubuna xas olan zamanda və məkanda sıçrayışlar edərək bir vaxt kəsimində (yayda), konkret məkanda (bağ evində) dostların əyləncə məclisindən onların başqa yaş dövrünə vəbaşqa məkana keçid edir. Məlum olur ki, həmin yay gecəsində, həmin bağ evində baş verənləri əksəriyyəti ya xatırlamır, ya da aradan keçən zamanda başqa cür xatırlayır.

Beləliklə, yuxarıda sadalananların yekunu olaraq deyə bilərik ki, Kamal Abdullanın hekayələrində mifoloji zaman və məkan anlayışlarına olduqca fərqli və simvolik şəkildə yanaşılmışdır. Yazıçının hekayələrində bu anlayışlar realist yox, metafizik və çoxqatlı formada təqdim edilmişdir. Zaman xronoloji yox, dairəvi, təkrarlanan və sirrli xarakter daşıyır. Bu isə mifoloji düşüncənin əsas xüsusiyyətlərindəndir. Hadisələr keçmiş, indiki və gələcək zaman arasında sərhədsiz şəkildə axın edir. Eləcə də, "Bir vaxtlar", "çoxdan" kimi qeyri-müəyyən zaman ifadələri onun əsərlərində tez-tez işlənir vəbu isə öz növbəsində, zamanın real ölçüsünü yox, mifoloji başlanğıcı ifadə edir. Bundan başqa, məkan da xalq yazıçısının hekayələrində təkcə coğrafi yer kimi yox, mistik, simvolik və keçid nöqtəsi kimi təsvir olunur. Burada məkanlar həm real, həm də metafizik təbiətli olub reallıq və qeyri-reallıq arasında sərhədin yox olması ilə xarakterizə olunur. Yazıçının əsərlərində qədim şəhərlər, məscidlər, türbələr, kitabxanalar, qayaüstü yazılar,arxaik kəndlər, yuxuda görünən yerlərkimi sakral məkanlardan tez-tez istifadə olunur. Bu cür məkanlar mifoloji keçmişə qapı rolunu oynayır. Eləcə də, bir yoldan keçmək, bir dağdan aşmaq, bir tuneldən keçmək kimi məkan dəyişiklikləri sadəcə fiziki hərəkətlərolmayıb, şüuraltı və mifoloji keçidləri simvolizə edir.

Ədəbiyyat:

1. Abdulla K. Hekayələr. Bakı: Mьtərcim Nəşriyyatı, 2009. 56 s.
2. Bakhtin M. Forms of Time and of the Chronotope in the Novel: Notes toward a Historical Poetics. Mikhail M. Bakhtin. The Dialogic Imagination: Four Essays. Ed. Michael Holquist. Trans. Caryl Emerson and Michael Holquist. 1981. Austin: University of Texas Press, 1990d. 84-258.
3. Ernst A. Bilgi Teorisi ve Mantək, Əev: Macit Gцkberk, Əstanbul: Sosyal Yayənlar, 1994. 190 s.
4. Narlə M. Romanda zaman ve mekвn kavramlarə. Baləkesir Вniversitesi Sosyal Bilimler Dergisi, 2002. Cilt 5 (7): 91-106.
5. Shipley J. Dictionary of World Literary Terms, Boston: The Writer, 1970. 466 p.
6. https://kulis.az/xeber/edebi-tenqid/xeber -20066
7. www.Unige.ch/lettres/framo/enseignements/methodes/tnarrative/tnintegr.html

Açar sözlər:Kamal Abdulla, hekayə, xronotop, postmodernizm, zaman, məkan.

Keywords:Kamal Abdulla, story, chronotope, postmodernism, time, space.

Ключевые слова:Камал Абдулла, история, хронотоп, постмодернизм, время, пространство.

Characteristics of mythological time and space in Kamal Abdulla's short stories

Summary

This article examines how mythological time and space are reflected in Kamal Abdulla's stories. In Kamal Abdulla's stories, mythological concepts of time and space are approached in a very different and symbolic way. In the writer's stories, these concepts are presented in a metaphysical and multi-layered form, not a realistic one. Space, however, is described in the stories of the folk writer not only as a geographical location, but also as a mystical, symbolic, and transitional point. Here, spaces are both real and metaphysical in nature, characterized by the disappearance of the boundary between reality and unreality.

Характеристики мифологического времени и пространства в рассказах Камала Абдуллы

Резюме

В этой статье рассматривается, как мифологическое время и пространство отражены в рассказах Камала Абдуллы. Истории Камала Абдуллы рассматривают мифологические концепции времени и пространства совершенно иным, символическим образом. В рассказах писателя эти концепции представлены не реалистично, а метафизически и многослойно. В рассказах народного писателя космос изображается не только как географическое место, но и как мистическая, символическая, переходная точка. Здесь пространства одновременно реальны и метафизичны по своей природе, характеризуются исчезновением границы между реальностью и нереальностью.

Rəyzi:akad. Muxtar Kazım oğlu Əmanov

Allahverdiyev Vaqif Saleh oğlu [56]

RƏSUL RZA YARADICILIĞINDA NOVATOR AXTARIŞLARI

1950-ci illərin ortalarında başlayaraq Azərbaycan poeziyası bir tərəfdən ümumi və formalaşmış müasir ənənələrinin, fərdi sənət vərdişlərinin əsasında müəyyən keyfiyyət dəyişiklikləri ilə inkişafını davam etdirir, o biri tərəfdən müstəqil yaradıcılıq axtarışları yollarında müəyyən novatorluq əlamətləri ilə zənginləşirdi. Bu yeni mərhələnin ilk pillələrində ədəbi həyatda hadisəyə çevrilən R. Rza "Qızıl gül olmayaydı" kimi dərin siyasi–ictimai səciyyə daşıyan üsyankar ruhlu poetik faciəsini yaratmaqla poeziyada və ümumiyyətlə ədəbi-ictimai fikirdə dönüş məqamının əsasını qoydu. A. Tvardovskinin "Üfüqlərdən üfiqlərə" və V. Luqovskoyun "Əsrin ortaları" poema-epopeyaları ilə ideya-bədii səciyyə baxımından yanaşı dayanan bu əsər tezliklə özünün təsir dairəsini genişləndirdi. Poeziyamızda repressiya illərinin faciələrini və ümumiyyətlə sovet dövründə baş verən ayrı-ayrı ədalətsizlikləri və haqsızlıqları müxtəlif vasitələrlə əks etdirən dolayı və sətiraltı misralar çoxalmağa başladı.

"Qızıl gül olmayaydı" əsərində alovlu və talesiz şair Mikayıl Müşfiqin həyatının bəzi məqamları fonunda bütov bir tarixi dövrün, siyasi-ictimai və həm də ədəbi mühitin səciyyəvi mənzərələri əks etdirən R. Rza poeziyasının tədqiqatçılarından A. Abdullazadənin qeyd etdiyi kimi, "bu mənada Müşfiqin obrazında ümumuləşdirilən "Qızıl gül olmayaydı" poemasının əsas qəhrəmanı 30-cu illər, daha doğrusu, bu illərin faciəli hadisələridir. Ədəbiyyatda həmişə öncüllərdən olan novator şair R. Rza bu poemasında da həmin illərin əsl iç üzünü açan ilk ədib oldu". [1.96]

Ancaq bu hələ "Qızıl gül olmayaydı" əsərində qoyulan ədəbi problemlərin bir tərəfi – mövzu və ideya-məzmunu ilə bağlı olan cəhətidir. Problemin başqa

tərəfləri isə poemanın bədii keyfiyyətlərində təzahür edən və ümumi ədəbi inkişafı, poetik səciyyə və səviyyənin mahiyyətindən irəli gələn sənətkarlıq məsələləri ilə bağlıdır. Lirik-epik janr istiqamətində qələmə alınan bu poema hər şeydən əvvəl janr və forma əlvanlığının özünəməxsusluğu, vəzn və quruluş xüsusiyyətləri, struktur sistemi və nəhayət, obrazlı poetik ifadə tərzinin orjinallığı ilə diqqəti cəlb edir.

Bu poema ilə ümumilikdə müasir Azərbaycan poeziyası obrazlı ifadə tərzinin bir sıra yeni keyfiyyət dəyişiklikləri mərhələsinə qədəm qoyur. Əsası hələ "Lenin"
poemasında qoyulan obrazlı poetik ifadələr – bənzətmə, təşbeh və metaforalar "Qızıl gül olmayaydı" poemasında daha səciyyəvi və əlvan çalarlarla zənginləşməklə, xüsusi bir sistem təşkil edir, şairin novatorluq axtarışları yollarında əsaslı nəticələr əldə etdiyindən xəbər verir.

Elə bil göz yaşları
Sözün yolunu kəsdi,
Töküldü damla-damla [3. 236]

və ya

Yollarına əbədi
Hicran kölgəsi düşmüş
O kədərli, qorxulu,
Ümidli uzaqlarda. [3. 238]

Yeni və orjinal mahiyyətli belə metaforik obrazlar düzümü, tez-tez dəyişməklə bir-birini davam etdirib tamamlayan forma ardıcıllığı konkret bir mərhələnin – siyasi-ictimai islahatlar dövrünün verdiyi nisbi ideoloji sərbəstlik əlamətlərinə şairin öz istedadının dərəcəsinə uyğun olaraq əlavə etdiyi bədii-sənətkarlıq xüsusiyyətləridir. Bu poemanın və ümumiyyətlə R. Rza yaradıcılığının timsalında poeziyamız həmin dövrdə – 1950-ci illərin sonlarına yaxın obrazlı poetik təfəkkürün, novator axtarışlarının formalaşma mərhələsini yaşamağa başlayır.

"Qızıl gül olmayaydı" poemasındakı bütün epik-dramatik təsvirlər lirik məqamlar əsasən əsərin baş qəhrəmanı olan Müşfiqin ətrafında cəmlənir. R. Rza yaradıcılığının ardıcıl tədqiqatçısı İ.Əbilov əsərin bu xüsusiyyətini belə səciyyələndirir; "M. Müşfiq surəti istisna olunarsa, poemada bütöv və mükəmməl cizgilərlə oxucuya təqdim olunan bitkin bədii surət yoxdur. Lakin əsərdəki canlı insan ehtirasları, zamanın pafosu, adamların ürək döyüntüləri, psixoloji momentlər elə məharətlə verilmişdir ki, insanın taleyi bu əsərin aparıcı qüvvəsi olmuş, nəticədə əsər müəllifin həyata, insanlara poetik münasibətini əks etdirən monumental bədii nümunə kimi ədəbiyyatımızda uzun müddət yaşamaq hüququ qazanmışdır. [2. 119]

Bu əsaslı müşahidəyə təkcə onu əlavə etməyi lazım bilirik ki, əsərin qəhrəmanı "insanın taleyi" olmaqdan daha əvvəl və daha çox dövrün ictimai-syasi və ədəbi mühitidir ki, poemada cərəyan edən bütün hadisə və vəziyyətlər bu mühitin "xarakterinin" nəticəsi olaraq meydana çıxır. Bu poema ilə R. Rza həm də vətəndaş cəsarəti ilə poetik cəsarətin qovuşması və sintezinə nail olmaqla, istər ədəbi mühit, istərsə də geniş oxucu kütləsi tərəfindən o qədər də asanlıqla qəbul edilməyən şerinin novator keyfiyyətlərini bir sıra yeni və orjinal cəhətlərlə zənginləşdirmə yoluna qədəm qoyur. Bu vaxta qədər ayri-ayri epizodik məqamlarda üzə çıxan və "Lenin" poemasında nisbətən artıb fəallaşan yeni forma, vəzn və ifadə elementləri, obrazlı poetik təfəkkür "Qızıl gül olmayaydı" əsərində xüsusi sistem təşkil etməyə başlayır. Şair poemanın məzmunu ilə əlaqədar müxtəlif sujet və təsvirlərdə konkret əhval və vəziyyətə uyğun olaraq şerinin forma və vəzn mənzərəsini dəyişdirir. Müəllif təhkiyyəsi gah dramatik gərginliklə, gah da incə lirikliklə ifadə olunur ki, bu da əsərin sujetinin ümumi inkişaf istiqamətinin epik ardıcıllığına nəinki xələl gətirmir,

[56] **ADPU-nun Ağcabədi filialının dosenti.**

10.24412/2218-7588-2025-2-191-195

əksinə onun daha maraqlı və cazibədar olmasını təmin etmiş olur. Bu cəhət həm də R. Rza şeirini 1960-cı illərin daha rəngarəng və çoxtərəfli novator axtarışlarına hazırlayıb yetkinləşdirir.

1950-ci illərin ikinci yarısında cəmiyyətdə baş verən siyasi-ictimai islahatlar, keçmiş SSRİ-nin totalitar rejiminin zaman-zaman möhkəmləndirib keçilməz qalalara çevirdiyi sərhədlərinin üzərindəki qara pərdələri qaldıraraq dünyaya pəncərə açmaq üçün müəyyən imkanlar yaratdı – mədəniyyət xadimləri, o cümlədən şair və yazıçılar az da olsa xarici mühitlə ünsiyyətə girməyə, onunla əlaqə saxlamağa nail ola bildilər. Əslində bu prosesin hələ 1950-ci illərin əvvəllərində son dərəcə məhdud şəkildə də olsa ilk cığırları açılmağa başlamışdı. Bir qrup mədəniyyət xadimləri ilə bərabər Avropa ölkələrinə səfər edən S. Vurğun həmin o ilk cığırları açanlar sırasında yeganə Azərbaycan şairi olmuşdur. Bu səfər təkcə onun dünyagörüşündə deyil, yaradıcılığının səciyyə və mənzərəsinə də müəyyən təsir etmişdir. Məşhur "Avropa xatirələri" Azərbaycan poeziyasında ilk səfər təəssuratları silsiləsi belə yaranmışdır. 1950-ci illərin ortalarında həmin estafeti davam etdirənlərdən biri də R. Rza oldu ki, bu da onun yaradıcılığına təsirsiz qalmadı.

Əslində R. Rza beynəlxalq mövzuya həmin səfərlərdən əvvəl müraciət etmişdi. Onun hələ müharibədən əvvəl və sonra yazdığı "Həbəşistan", "İki dünya", "Madrid", "Qızaran bayraqlar", "Azadlıq heykəli", "Haqqın səsi" və s. şerləri, xüsusən "Almaniya" poeması bəzən fikirdən daha çox sözün yaratdığı patetik ruhu, birbaşa ifadə tərzi ilə əlamətdar olsa da, şairin yaradıcılığında bu mövzuya xüsusi hazırlıq mərhələsini təşkil etmişdir. 1950-ci illərin ikinci yarısında xarici səfərlərə Şərq ölkələrindən başlayan R. Rzanın ilk baxışda təkcə səfər təəssüratları səciyyəsi daşıyan bir sıra şerləri həm də onun novator axtarışları yollarında obrazlı təfəkkür tərzinə qarşısıalınmaz meylinin konkret ədəbi məhsullarından ibarət idi. Belə obrazli ifadələr, forma əlvanlığı ilə seçilən "Şəttülərəb", "Əlcəzair meydanında", "Açın qapıları – insan gəlir", "Hələ bu harasıdır" kimi şerləri bu dövrdə sanki ikinci nəfəsi açılan R. Rzanın yaradıcılığında "Qızıl gül olmayaydı" poeması ilə başlanan tamamilə yeni bir mərhələnin davamı sayıla bilər. 1957-ci ildə xarici səfərlərini Avropa ölkələrində – Fransa, İsveçrə, Türkiyə, Hollandiya, İtaliya, Yunanstan, Bolqaristan və Ruminiyada davam etdirən şair

Xurmaları daşıdılar gəmi-gəmi,
Ərəbə bir qamış doxma qaldı,
birdə dərdi-qəmi -

kimi Şərq ölkəsindən aldığı ilkin təəssuratları daha əhatəli və monumental siyasi-ictimai movzularla genişləndirir. Bu silsilədən olan "Luvr", "Zəfər ilahəsi", "Miloslu qız" kimi Fransa həyatına həsr edilmiş şerlərdəki daxili genişlik və məna çalarları xüsusilə fərqlənir. Hiss olunur ki, sosializm sisteminin, onun müstəmləkəsi siyasətinin ağrı-acılarını illərdən bəri içində çəkən şairin bu dərdləri heç olmasa xarici mühitə köçürməklə ifadə etmək üçün əlinə fürsət düşmüşdür. R. Rza hələ Afrika və ərəb ölkələrinə səfərlərindən sonra yazdığı şeirlərində bu fürsəti əldən qaçırmamış, bir-birinin ardınca milli dərərlərimizin məhvinin qarşısını almaq üçün müntəzəm şəkildə qələmini işlətməyə başlamışdır:

Mən də sənin dinindəyəm–
Qalib gələnə qədər mübarizə.
Azadlıq uğrunda lazım gələrsə,
Təəssüfsüz ölmək,
Vətən deyilən ana torpağı
Qəlbimin duyğusu,
Gözümün ərşə çəkilən yuxusu, [3. 119]

"Hələ bu harasıdır" şerindəki bütün belə dolğun və kəskin mahiyyətli poetik parçalar yaşadığımız günlərdə də səciyyəvi və aktual səslənir.

Hələ bu harasıdır,
Məzlumların qəzəbi
Çox tufanlar qoparasıdır. [3. 119]

Şairin bu mövzuda qələmə aldığı, xüsusən Fransa təəssuratından yaranan bir sıra şeirlərində onun 1960-cı illərin ortalarına doğru yaradacağı assosiativ səciyyəli əsərlərin ilk əlamətləri də duyulur. "Rənglər" silsiləsində özünün yüksək səviyyəsinə çatan assosiativliyin – obrazlı poetik ifadə tərzinin ən kamil formasının ilkin cücərtiləri R. Rzanın məhz bu silsilələrində hiss edilməyə başlayır;

Bu qanadlı ilahə
"Qanadlı zəfər" adlanır.
İmkanım olsaydı, pozub
misyölərin ovqatına
Silərdim qan–ad–lı
Sözündən orta hecanı
Təhrif etsəm də
Adsız müəllifin niyyətini.
Sözün qalan hissəsi
Düzgün ifadə edərdi
"Zəfərin" mahiyyətini [3. 120]

Obrazlı poetik təfəkkürün ardıcıl sistem halına düşdüyü bu yaradıcılıq mərhələsinin sonlarına yaxın R. Rzanın qələmə aldığı "Mən torpağam", "İnsan şəkli", "Soruş" kimi şeirləri və "Bir gün də insan ömrüdür" poeması ümumilikdə poeziyamızın inkişaf problemlərinin konkret zaman vahidində xüsusi səciyyəsi baxımından maraq doğurur. Belə şerlərin hər bir misrası obrazlı şəkildə ifadə edildiyindən onlar müstəqil bir əsər daxilində öz misra müstəqilliyini qorumaqla, öz çəkisi və tutumu ilə də bir-birindən seçilirlər. Sözcülük, təsvirçilik, ritorik pafos belə əsərlərdə özünə yer tapa bilmir. Həm də şeirin həmin səciyyəsinin klassik ənənələri mövcud olmaqla qəzəl-qəsidə-divan ədəbiyyatı ilə səsləşir. Füzuli şeiri bu baxımdan daha çox fərqlənir. Beləki, onun hər bir qəzəlinin özünəməxsus məna dəyəri olmaqla, ondakı hər bir beyt də özlüyündə müstəqil bir fikri ifadə edir. R. Rzanın adları çəkilən şerlərində də belədir. Vahid bir fikir ifadə edən "Soruş" şeirindəki müxtəlif misralara müraciət edək:

Od nə çəkdi,
küldən soruş!
Baş nə çəkdi,
dildən soruş!
Zülmətlərin möhnətini
kor söyləsin!
Bəm xalların fəryadını
zildən soruş!
Ömrün çətin yollarında
daşa ləpir salsa ayaq,
Gün nə çəkdi,
İldən soruş! [5. 60]

Bütün şeir başdan-başa belə müstəqil məna dəyərinə malik olan obrazlı poetik misralardan ibrətdir. M. Arif aşağıdakı mülahizələri irəli sürəndə şairin məhz bu dövrdə yaranan şerlərini nəzərdə tuturdu: "Şeir vardır ki, onu distilə edilmiş su kimi içirsən, onu hamar bir yol kimi keçirsən, misraları, səhifələri rahatca udursan; nə fikrə bir qida, nə hissə bir lay düşür. Səni heç cür şey narahat etmir, heç kəs bir yerə çağırmır, ritorik cümlələr bir- birini əvəz edir. Şeir də var ki, hər bir misrası səni tutub saxlayır, şüuru, hissi müdaxiləyə dəvət edir, fikrə qida verir, düşünməyə məcbur edir... R. Rza ritorikanı öz şeirndən qovmuşdur. Onun yerini şeirdə konkret obrazlar, canlı fikir və məna tutmuşdur". [4. 572] "Konkret obrazlar, canlı fikir və məna tutmu", şairin eyni dövrdə qələmə aldığı "Mən torpağam" şeirində də misra, beyt və ya bəndlərin belə müstəqilliyi mövcuddur:

Mən küləyəm, əsməsəm
Kim bilər mən varam.
Mən büldam, səhraları susuz görüb
ağlaram
Mən ürəyəm, döyünməsəm,
ölərəm.
Mən işığam-qaranlığın qənimi.
Maraq dolu gözəm mən,
baxmaya bilmərəm. [3. 86]

"İnsan şəkli" şeirində və "Bir gün də insan ömrüdür" poemasında da özlüyündə belə muxtariyyət səciyyəsini qoruyan misra, beyt və bəndlər az deyil. Ümumiyyətlə, R. Rza axtarış yollarında müəyyən bir poetik nəticə və ya qənaətə gəldikdən sonra ayaq saxlayan, işini bitmiş hesab edən müəlliflərdən fərqli olaraq daima yol üstə, səfər ərəfəsində olan ardıcıl şair təbitinə malik sənətkarlardandır – o daim axtarir, düşünür və söz, məna üzərində fasiləsiz işləyir. Tənqidçi Qulu Xəlilov məhz belə şeirlərin meydana gəldiyi illərdə yazırdı: "Rəsul Rza görünmüş bir işin son bəzək-düzəyi ilə məşğul olan", başqalarının dediklərini yenidən təkrar edən şairlərdən deyildir. O, sözün həqiqi mənasında novatordur. R. Rza şeirimizdə yeni fikir və forma üğrunda ardıcıl mübariz olan şairlərdəndir". [6. 185]

Rza. Rzanın yuxarıda haqqında söhbət gedən "İnsan şəkli", "Mən torpağam", "Şoruş" kimi onlarca şeirləri ilə yanaşı onların ardınca yazılıb onların yekunu kimi səslənən "Bir gün də insan ömrüdür" poeması poeziyanın bu səciyyəsini daha aydın şəkildə ifadə edir.

Bu poema insanda hər şeydən əvvəl insanı görüb onu layiq olduğu ucalığa çatdırmaq, poeziyada özünə qədər kütləvi hal olan əməyin, zəhmətin insanı deyil, insanın əməyi mənalandırmaq qüdrətini estetik cazibə səviyyəsinə yüksəltmək əzminin tərənnümünə xidmət edir:

Eşitmişəm idarədə qalırsan
Üç gecedir.
Yaramaz belə.
Muğayət ol özündən.
Adamlar necedir?
Xəstələnən yoxdur ki,?
Plan dövlət qanunudur–
bilirsən özün
Ancaq, adamsız nə plan, nə dolum!
Adamlarda olsun gözün. [1. 169]

1960-cı illərin əvvəllərindən başlayaraq poeziyamızda obrazlı-assosiativ ifadə üsulunun, intellektual başlanğıcın ilk nümunələrinə təsadüf edilir ki, bu da ənənəyə qayıdışın yeni forması kimi qəbul edilməlidir. Xalq şeirində, xüsusən bayatılarda və klassik poeziyamızda ayrı-ayrı nümunələrinə rast gəldiyimiz assosiativ bədii təfəkkürün müxtəlif formaları XX əsrin ikinci yarısında özünün poeziyada təkrar döğuluşu ilə yeni mahiyyət kəsb etməyə başlayır.

Azərbaycan poeziyasında assosiativ təfəkkürün sistemli şəkildə ilk nümunələrinə R. Rzanın "Rənglər" silsiləsində rast gəlirik. Lakin bundan əvvəl hələ şairin "Dəniz nəğmələri", silsiləsində, "Realizm", "Belədir" şeirlərində, "Canavar və quzu", "Buruqların söhbəti", "Qaranquş və sərçə" kimi obrazlı-alleqorik səpkili poetik nümunələrdə assosiativ ifadə tərzinin müxtəlif səciyyələrdə müəyyən əlamətləri ilə qarşılaşırıq. "Belədir" şerində assosiasiya, obrazlı təfəkkür onu ifadə edən hər hansı bir misra və ya bənddə deyil, bütövlükdə əsərin məzmunundan doğan nəticədə meydana çıxır:

Sən üst mərtəbədəsən,
Mən aşağıda
İnsan yuvasıdır
Yuxarı da,
Aşağı da,
Sənə də işıq, hava, çörək lazımdır.
Mənə də.
Sənə də duyan rək lazımdır.
Mənə də.
Bir ovuc buğda da nemətdir,
Bir dənə də. [5. 9]

Görkəmli ədəbiyyatşünas M. Arif R. Rzanın "Rənglər" silsiləsini təhlil edərkən poeiyada assosiativlik haqqında yazır ki, "Rənglər" oxucuya tədayi-əfkar, assoasiya vasitəsilə xatirələr, duyğular oyatmaq, onu düşündürmək yolu ilə həyatı və insanları yaxşı öyrənmək, dərindən dərk etmək məqsədi ilə yazılmışdır. Oxşarlığın özlənilməzliyi, təbii ictimai hadisələri, sənət aləmini əhatə edən müqayisələrin həyati dolğunluğu oxucunu xəyala daldırır, düşündürür, onda yeni intibalar oyadır". [4. 8]

R. Rza "Rənglər" silsiləsinindəki ayrı ayrı poetik parçalarda hər bir rəngin müxtəlif çalarlarına cəmi bir və ya iki misra sərt edir. Ağdan qaraya, mavidən sarıya qədər bütün rənglərə ayrıca məna çaları verən şair bəzən metafora, bəzən də orjinal istiarələr vasitəsilə elə gözlənilməz tapıntılara nail olur ki, poetik təxəyyulun gücü və imkanları oxucunu təccübləndirməyə bilmir. Məsələn "Firuzəyi" kimi o qədər də tez nəzərə çarpmayan rəngi R. Rza kiçik bir şeirində altı cür assosiativ çalarlarla mənalandırır:

Xatirələrdə qalmış məhəbbət ağrıları
Dənizin yaraşığı.
Yaşıl abajurdan
Mavi divara düşmüş
Lampa işiği.
Yoxsul qız barmaqlarının həsrəti
Cəfər Cabbarlının Bakısı
Dünyadakı gözlərdən
Ancaq ikisi. [7. 21]

Şair bütün rənglərə ayrıca şeir həsr etdikdən sonra bununla kifayətlənməyib axtarışlarını davam etdirir və onların başqa çalarlarını da yeni-yeni poetik parçalarda və müxtəlif səpkidə mənalandırır. "Qaranın dərd çaları", "Mavinin təsəlli çaları", "saman sarısı", "Qırmızının inam çaları", və s. belə yeni poetik tapıntılardandır. Məsələn "Sarı", "Kürən" kimi şeirlərlə bu rəngin daha çox siyasi-ictimai ruhlu, təbiət və məhəbbətlə bağlı çalarlarını verdikdən sonra ona nəyə görə yenidən qayıtmağa ehtiyac duyduğunun səbəblərini açmaq üçün elə orjinal metoforik cəhətlərə müraciət edir ki, şairə irad tutmağa əsas tapmaq mümkün olmur:

Anadan olduğu evin
Çılpaq divarlarına həsrət.
Peşimanlıq qoxuyan həqiqət.
Qürubun şəfəqlərində
yaralı qəlbinə meydan oxuyan
Nazim Hikmət

Və onun ağrılı məhəbbəti
Bir xırmanı bir külfətə,
Bir doyumcun, az olan
arpanın küləşi.
Qış günləri. [7-21]

"Rənglər" silsiləsi ilk dəfə çap olunduqdan sonra mətbuatda onu qəbul etməyənlərin sayı, tərəfdarlarından qat-qat çox olmuşdur. Lakin qısa bir zamanda aydın oldu ki, bu silsilə təkcə Azərbaycan poeziyasının inkişafında xüsusi

bir mərhələ təşkil etməklə qalmayıb, ümumilikdə XX əsr dünya söz sənətinin ən yaxşı nümunələri ilə müqayisə edilə bilər.

Ədəbiyyat

1. A. Abdullazadə. Od nə ɜəkdi. Bakɔ. Azərnəcr. 1990.
2. R. Rza. secilmiɛ əsərləri. 5 cilddə. V cild. Bakɔ. Yazɔɜɔ. 1983.
3. Ɔ. Əbilov. Həyatən poetik ɛəhri. "Azərbaycan" jurnalə. 1963.
4. R. Rza. Duypular,dьɪoьncələr. Bakɔ. Yazɔɜɔ. 1964.
5. M. Arif . Seçilmiş əsərləri. 3 cilddə. I cild. Bakı. Elm. 1967.
6. Q. Xəlilov. Yeni fikir, yeni söz uğrunda. "Azərbaycan " jurnalı. 1960.
7. R. Rza. Dözüm. Bakɔ. Azərnəcr. 1965.

Açar sözlər: Novator, keyfiyyət, poetik, təfəkkür, poeziya assosiativ, ritorik, pafos, Rəsul Rza, rənglər, obrazlı, ifadə, şeir,misra, sözçülük, təsvirçilik, forma, vəzn.

Key words: Innovative, quality, poetic, thinking, poetry associative, rhetorical, pathos, Rasul Rza, colors, figurative, expression, poetry verse, rhetoric, description, form, weight

Xülasə

1950-ci illərin sonlarından başlayaraq obrazlı poetik təfəkkürə keçidlə əlamətləndirilən ədəbi proses bir sıra yeni forma və ifadə elementləri ilə zənginləşərək poeziyanın novator istiqamətini müəyyənləşdirir.

1960-cı illərin əvvəllərindən başlayaraq poeziyamızda obrazlı - assosiativ ifadə üsuluna, intellektual başlanğıcın ilk nümunələrinə təsadüf edilir ki, bu da ənənəyə qayıdışın yeni forması kimi qəbul edilməlidir. Xalq şeirində, xüsusən bayatılarda və klassik poeziyamızda ayrı-ayrı mümunələrinə rast gəldiyimiz assosiativ bədii təfəkkürün müxtəlif formaları XX əsrin ikinci yarısında özünün poeziyada təkrar doğuluşu ilə yeni mahiyyət kəsb etməyə başlayır.

Bu inkişaf prosesində ritorik pafosdan, patetik ifadə tərzindən uzaqlaşma, fikrin ifadə tərzində konkretliyə, obrazlı, daha sonra isə assosiativ təfəkkür tərzinə keçid və novator keyfiyyətlərinə meyl R. Rza yaradıcılığını şərtləndirən əsas amillərdir.

Belə ki, obrazlı poetik təfəkkürün ən yüksək forması olan assosiativ ifadə tərzinin ilk nümunələrinə R. Rzanın " Rənglər" silsiləsində rast gəlirik.

"Rənglər" silsiləsi ilk dəfə olaraq çap olunduğundan sonra mətbuatda onu qəbul etməyənlərin sayı, tərəfdarlarından qat-qat çox olmuşdur. Lakin, qısa bir zamanda aydın oldu ki, bu silsilə təkcə Azərbaycan poeziyasının inkişafında xüsusi bir mərhələ təşkil etməklə qalmayıb, ümumilikdə XX əsr dünya söz sənətinin ən yaxşı nümunələri ilə müqayisə edilə bilər.

New forms, weights and means of figurative poetic expression in R. Rza's works

Summary

The literary process, marked by the transition to figurative poetic thinking since the late 1950s, is enriched with a number of new forms and elements of expression that define the innovative direction of poetry.

Since the early 1960s, our poetry has been characterized by a method of figurative-associative expression, the first examples of intellectual beginnings, which should be considered as a new form of return to tradition. Different forms of associative artistic thinking, which we encounter in folk poetry, especially in bayats and in our classical poetry, begin to acquire a new essence in the second half of the twentieth century with their rebirth in poetry.

In this process of development, the main factors determining R. Rza's creativity are the departure from rhetorical pathos, pathetic expression, the transition to concrete, figurative, and then associative thinking, and innovative qualities.

Thus, we find the first examples of associative expression, which is the highest form of figurative poetic thinking, in R. Rza's "Colors" series.

After the first publication of the series "Colors", the number of those who did not accept it in the press was many times more than its supporters. However, it soon became clear that this series is not only a special stage in the development of Azerbaijani poetry, but in general can be compared with the best examples of world art of the twentieth century.

RƏYƷ: dos. S.Abbasova

Офелия Исмаилова [57]

СХОДСТВО СЮЖЕТОВ В ПРОИЗВЕДЕНИЯХ Ф.М.ДОСТОЕВСКОГО И ГУСЕЙНА ДЖАВИДА

Писатель-реалист, выдающийся русский писатель, признанный драматург Ф.М.Достоевский создал свои наиболее выдающиеся романы как «Преступление и наказание», «Идиот», «Бесы», «Братья Карамазовы» и другие, в которых отражены его важнейшие философские, социальные и нравственные искания (1, стр. 365-400).

В творчестве писателя отразились противоречия действительности и общественной мысли в эпоху острой ломки социальных отношений в России. Новый буржуазный строй приводил к кризису общественных идеалов и шаткостей нравственной жизни. Основа реалистического творчества Ф.М.Достоевского – мир человеческих страданий, трагедия ущемленной и униженной личности. Писатель выступает против теории «счастливого» общества, в котором уничтожается свобода человека, его духовные интересы.

Ф.М.Достоевский – создатель идеологического романа, в котором развитие сюжета определяется, главным образом, борьбой идей, столкновением мировоззрений, воплощенных в характерах персонажей. Гуманистический антибуржуазный характер реализма писателя оказал огромное влияние на русскую и мировую литературу.

Великий азербайджанский поэт и драматург Гусейн Джавид, как и Ф.М.Достоевский, жил и творил в сложнейший период. В первые десятилетия XX века, когда поэт пришел в литературу и в полный голос заявил о себе происходили стремительные изменения и в общественно-политической жизни, и в литературе – Годы Первой Мировой войны, падение самодержавия в России, установление в Азербайджане первой Демократической республики, насильственное свержение Демократической республики и установление Советской власти.

Сопоставительный анализ творчества двух писателей – Ф.М.Достоевского и Гусейна Джавида выявил наличие многих точек соприкосновения между их взглядами на проблему человека и проблему гуманизма. При изображении образа идеального героя Ф.М.Достоевский исходил из православно-христианской концепции человека, из величия образа Христа и свой идеал искал среди нравственно совершенных людей, а Гусейн Джавид отдавал предпочтенье герою, способному активно бороться за торжество истины и справедливости. Если для героя Достоевского вера выше истины, то герой Джавида трагически ищет возможности объединить эти два начала воедино и встать на позицию борьбы и ожидания справедливости.

Кто он – Иблис: основной образ, герой-носитель авторской идеи. Гусейн Джавид не повторяет своих предшественников, не идет проторенными путями, а создает оригинальный образ. Изменения Демона внешние, он меняет лишь свой облик, а суть его неизменна. Иблис-Демон появляется на грешной земле для того, чтобы найти себе двойника. Среди людей он выбирает Арифа. Дьявол – падший ангел, носитель зла. Иблис-Дьявол считает, что это человек, а ангел начало всех бед видит в Иблисе, который хохочет и говорит:

Dəryalara hökm etmədə tufan
Səhraları sarsıtmada vulkan
Sellər kimi axmaqda qızıl qan,
Canlar yıxar, evlər yıxar insan (2, s.110)

Идет мировая война, люди истребляют друг-друга, что доставляет огромное наслаждение Дьяволу. Главный герой произведения Ариф является романтичным молодым парнем. Обратившись к образу Иблис, Гусейн Джавид изобразил людей, которые из-за материального блага продали душу Дьяволу. Арифа озадачили оккупационные войны, жестокость людей, преступление и предательство. Он бессильный ответить на такие мучительные вопросы, как «кто виноват в том, что мир охвачен войной, кто повинен в бедствиях людей, почему людьми владеют корыстные страсти?» У Арифа сложный и противоречивый характер, он убивает жену и брата и эти ужасные преступления стали следствием не воздействия на него Иблиса, а результатом этих отступлений героя от истины и гуманизма, от веры и добра, то чтоон оказывается в тяжелом душевном состоянии и сложных житейских условиях. Ариф ищет спасение в отчуждении, в бегстве от дикостей цивилизованного мира. Он задает себе вопрос: почему Бог спокойно взирает на бедствия людей и приходит к выводу, что в мире властвует право того, кто сильней, но он не верит, что любовь, совесть и милосердие не имеют никакой мощи. Если в мире много измен, преступлений и предательств, то вина лежит на прочной человеческой натуре и его дьявольской природе.

Пьеса заканчивается словами:

«Что такое Иблис? Причина всех преступлений и измен… А что же такое человек, предающий всех? *Иблис!...»*

Недаром Джавида сравнивали с самыми известными деятелями мировой литературы и назвали его Шекспиром Азербайджана и Востока. Его начали переводить довольно поздно. Исследования и перевод его творческого наследия сложились в конце 50-х и 60-е годы, т.е после реабилитации поэта. Однако широкие

[57] Институт литературы им. Низами Гянджеви НАНАЕ-mail: ismailova_ofelya@mail.ru
10.24412/2218-7588-2025-2-196-198

возможности появились в 80-е годы, когда благодаря Общенациональному лидеру Гейдару Алиеву было отмечено его 100-летие и прах поэта был перевезен из Сибири на Родину.

Сопоставительный анализ творчества двух писателей Ф.М.Достоевского и Гусейна Джавида выявил наличие многих точек соприкосновения между их взглядами на проблему человека и на проблему гуманизма. При изображении образа идеального героя Ф.М.Достоевскийисходил из православно-христианской концепции человека, из величия образа Христа и свой идеал искал среди нравственно совершенных людей, а Гусейн Джавид отдавал предпочтенье герою, способному активно бороться за торжество истины и справедливости. Если для героя Достоевского вера выше истины, то герой Джавида трагически ищет встать на позицию вечной борьбы и ожидания справедливости.

Ф.М.Достоевский впервые в русской литературе заговорил о человеке, осознавшем стремления к поиску своего места в жизни. По словам самого писателя «Идиот» – это выражение нравственно-философской позиции, отражение его литературных принципов. Писатель пытается изобразить «положительно прекрасного человека» и создает роман о судьбе «пророка» в современном общества, где в камине жжет деньги, лжет, убивает и сходит с ума (3, стр. 47-49)

Оказавшись в центре петербургского общества, князь Мышкин стремится предложить помощь или спасти кого-либо из героев. Он взаимодействует практически со всеми героями романа и одна из его главных функций – раскрыть внутренний мир персонажа. Мышкин с легкостью заводит с собеседником откровенный разговор и для многих такое общение подобно исповеди. Писатель стремился показать читателю «положительно прекрасного» кроткого человека, похожего на Христа, и размышляет о том, что будет, если он окажется среди нас. Кто-то из героев смеётся над ним, а кто-то видит в нем прозорливого. Но всех объединяет одно: люди не принимают помощи и доводят князя до безумия. Образ князя Мышкина может служить отношением Христа к людям: он принимает всех, с кем свели его обстоятельства и готов полностью войти в их жизнь. Он принимает другого человека как самого себя. Ф.М.Достоевский показывает, что Христос, войдя в человеческую жизнь, не меняет её. Он помогает человеку, но не насилует его волю. Во внешности князя действительно угадывается образ Христа. Князь Мышкин абсолютно неприспособлен к жизни. Главный герой произведения «Идиот» Мышкин не молится и не исповедуется, но сохраняет меру христианской любви, которая доступно только святым (4).

Ф.М.Достоевский впервые в русской литературе заговорил о человеке, осознавшим непреодолимость к поиску своего места в жизни. «Я» не вне среды других, а рядом с ними и вместе с Богом. Так в романе писателя ясно обнаруживается религиозная и христианская основа его мировоззрений. Это была трудная задача показать характер Идиота, выдумать для него поле действия, чтобы показать его духовные устремления. Трагедия Мышкина – это трагедия мира, не верующему Богу и святым. Судьба Мышкина – всечеловеческая, она приближает её к любому человеку, независимо от его нации и это надо понимать как участие Христа в бытии каждого человека.

Использованная литература

1. ДостоевскийФ.М. и литература Серебряного века. Альманах. Москва: изд-во «Наследие», 2013.
2. Романтизм Гусейна Джавида. Баку: Азернешр, 1975.
3. Поэтика «невыразимого» в романе «Идиот». Сборн. Научных трудов. Иваново: ИВТУ, 1999.
4. Фромм Е. Психоанализ и религия. Москва: «Наука», 1989.

Ключевые слова: выдающийся русский писатель Ф.М.Достоевский, романтизм Гусейна Джавида, роман «Идиот», произведение «Иблис», сопоставительный анализ

Açar sözlər: görkəmli rus yazıçısı F.M.Dostoyevski, Hüseyn Cavidin romantizmi, “İdiot” romanı, “İblis” əsəri, müqayisəli analiz

Key words: a well known Russian writer F.M.Dostoyevsky, the romanticism of Huseyn Javid, novel “The Idiot”, novel “The Devil”, comparative analysis

F.M.Dostoyevski və Hüseyn Cavidin əsərlərində məzmun oxşarlığı

Xülasə

Məşhur yazıçı, insan qəlbinin bilicisi, sözün dahi sənətkarı Fyodor Mixayloviç Dostoyevskinin “İdiot” əsəri mədəniyyət tarixinə daxil olmuş əsərlər siyahısındadır. Bu əsərdə özlərini dərddən itirmiş insanların ah-nalələri və iniltiləri bir yerə toplanmışdır.

Öz ədəbi fəaliyyətinə XX əsrdə başlamış istedadlı yazıçı Hüseyn Cavid Azərbaycan romantizminin nümayəndələrindən biri olmuşdur. Onun imperialist müharibəsinə qarşı yazdığı “İblis” əsərində Qərbin əxlaqı, tərbiyəsi öz əksini tapmışdır. Dini qanunlar və dini təşkilatlar ilə təhrif olunmuş beynəlxalq siyasi aləmdə bu əsər xeyli narazılıq doğurmuşdur.

Bu dahi yazıçıları yaxınlaşdıran cəhət ondan ibarətdir ki, onlar Rusiya və Azərbaycanın keçid dövrünə düşmüşdülər. Biz onların yaradıcılığında yüksək estetik idealı, qətiyyətli güclü xarakterlərə marağı və onların qəhrəmanlarının ekstremal vəziyyətdə gərginliyə düşməsinin şahidi oluruq.

Bu iki dahi yazıçının əsərlərini oxuyarkən biz bu oxşarlıqları duyur və onların dünyagörüşünü alqışlayırıq.

Similarities of plots in the works of F.M.Dostoyevsky and Huseyn Javid

Summary

The work of the famous writer, connoisseur of the human soul, the brilliant master of words Fyodor Mikhailo-

vich Dostoyevsky “The Idiot” can be rightfully considered one of the main novels of world literature. In this work, the delirium and groans of people who have lost themselves from grief merged into one.

Huseyn Javid, who began his literary career in the 20th century, was a talented writer, one of the representatives of Azerbaijani romanticism. In is tragedy “Iblis”, written against the imperialist war, the master reflected the moral world of humanity. This world, distorted by spiritual laws and religious organizations, created enough intrigue.

These brilliant writers are brought together by the fact that they both lived in the transitional periods of their countries – Russia and Azerbaijan. In their works we observe a high aesthetic ideal, interest in strong characters, and the behavior of heroes in extreme situations. Reading the works of both writers, we feel these similarities and welcome their worldviews.

Rəyçi: filologiya elmləri doktoru, professor, **Gülər Abdullabəyova**

Aygün Xəlilqızı [58], İsmayılova Miinayə Abbas qızı [59]

ƏDƏBİYYATIN FƏLSƏFƏSİ VƏ FƏLSƏFƏNİN ƏDƏBİYYATI

Giriş: Fəlsəfə nədir? Hər şeydən əvvəl fəlsəfə bir düşünmə sənətidir. düşünmə bacarığıdır. Həyatın digər sahələrində də, məsələn incəsənətdə, elmdə,ədəbiyyatda da düşünmə yoxdurmu? Var...O zaman fəlsəfəni fərqləndirən xüsusiyyət nədir? Fəlsəfənin bir düşünmə sənəti olduğunu söylədiyimiz zaman onun bütün digər fəaliyyət sahələri ilə birləşdirici,bütünləşdirici bir əlaqə olduğunu və özünə xas bir fəaliyyət olduğunu qeyd etmək lazımdır.Gündəlik həyatımızda da digər elm sahələrində də düşünmə aktı yenə də iş başındadır. Ancaq bu fəaliyyət sahələrində düşünən zehin, mövzuya uyğun olaraq obyekt – predmet təyinatına görə hərəkət etməkdədir.Fəlsəfi düşünmənin özünəməxsus bir xüsusiyyəti vardır.Otamamilə müstəqil bir düşünmə sənətidir.Bu xüsusiyyətinə görə ən birinci özü olmaqla ,var olan hər bir şeyə sualla yanaşır Bir sözlə fəlsəfə varlığı,var olanı elmlə sözə tökən bir sahədir.

Ədəbiyyatın növlərinə nəzər salsaq şifahi və yazılı ədəbiyyat kimi növlərini görməklə bərabər eyni zamanda ədəbiyyatdakı əsəryazma xüsusiyyətinə görə də bədii əsər, fəlsəfi əsər, ədəbi əsər, kimi növlərə ayrılır.

Bəsədəbiyyat nədir? İnsan var olanlarla dil vasitəsi ilə ünsiyyət yaradır.İnsan özünü dil ilə ifadə edir.Əslində insanın özünü ifadə etməsinin bir çox növləri vardır amma bunların ən aydın olanı ədəbiyyatdır. Düşüncə,duyğu,hadisə və təsvirlərin dil vasitəsi ilə şəkiləndirilməsdir ədəbiyyat XX əsrdə Haydegger Antik Yunan dünyası haqqında var olan bir düşüncə açıqlığının get –gedə itirliməsini qeyd edir.Bunu isə düşüncə və ya varlığın dili olan şeirdən uzaqlaşma ilə əlaqələndirir. (**Heidegger, Auflage 2012**.) İohan Corc Hamann şeiri insanın ana dili adlandırır.

Bir ədəbi əsərə yönəlmək dünyayla əlaqə qurmaq,bir insanla üz-üzə dayanmaqdır. Bir əsəri əsər səviyyəsində sevdirən nədir deyə soruşsaq ,Nərmi Uygurun ifadəsi ilə desək : "Bir yazını ədəbiyyat yazısı edən nə sadəcə mövzusu, nə anlatması , nə də istifadə olunan sözlərdir.Bir yazını əsər edən şey onun insani mövqedən yazılmasıdır. (**Uygur, 1985, s 14**)

Bir sözlə ədəbiyyat sənət yoluyla insanın maariflənməsi, insanın insanlaşmasında ən əlverişli yollarından biridir.

1) Ədəbiyyat və fəlsəfə münasibətləri. Məlumdur ki,fəlsəfə elə bir sahədir ki,onun demək olar ki,bütün sahələrlə əlaqəsi vardır.Bu fəlsəfənin daha çox funksiyaları ilə bağlı olan bir məsələdir.Biliklərin inteqrasiyası onun digər elmlərlə əlaqələrini gücləndirir.Nəticədə ümumi harmoniyanın yaranması bir bəşəriyyətin elmi-mədəni inkişafına xidmət edərək insanlıq tarixində özünəməxsus izlər buraxır.Biz hər zaman fəlsəfənin digər sahələrə olan metodoliji vacibliyini qeyd etmişik.Amma bu gün məqsədimiz fəlsəfənin digər elmlərə,daha konkret desək ədəbiyyata olan təsiri haqqında danışmazadan əvvəl daha çox ədəbiyyatın fəlsəfəyə olan təsiri haqqında bəhs etmək istərdim. Qeyd etmək istərdim ki, bəlkə də fəlsəfənin tarix səhnəsinə çıxmasında ədəbiyyatın rolu böyük olmuşdur.

Çünki ilkin fəlsəfi təsəvvürlərin mənbəyi də məhz özündən başqa digər mədəni abidələrin fonunda yaranaraq inkişaf etmişdir.Şərqin mədəni irsinin araşdırılması nəticəsində məlum olan faktlardan biri də burada yaranan miflər,əfsanələr,nağıllar və .s nin varlığı ilə bir daha öz təsdiqini tapır.

E.ə. VI minillikdən başlayaraq İkiçayarasında (Dəclə və Fərat) mövcud olmuş Şumer mədəniyyəti bəşəriyyətin ən qədim sivilizasiyalarından biridir.Şumer mədəniyyətinin ən möhtəşəm abidəsi isə "Bilqamıs" dastanıdır.Bu əsər 5000 il bundan əvvəl Şumerlər tərəfindən şifahi şəkildə yaradılmış və II –ci minillikdə Akkad dilinə tərcümə olunaraq on iki gil lövhə üzərinə köçürülmüşdür. "Bilqamıs şər qüvvələrə qarşı vuruşan, ağlı və eşqi birləşdirən,dünyada harmoniya yaratmaq istəyən,qorxu bilməyən qəhrəman tipidir.Dastanda məzmun lövhələr şəklində təqdim olunur. Bu hissələrdə Bilqamısın Urukun əsasıını qoyması,Enkidu ilə dostluğu və s haqqında məlumatlar verilir.(**Quliyev, 2011,** s **11.**) Şumer sivilizasiyasından xəbər verən maddi-mədəniyyət abidələri və ədəbi əsərlər onların yaratdıqları əlifba ilə gil lövhələrə köçürülmüş, həmin yazılar dövrümüzə qədər gəlib çıxmışdır. Şumer kitabələrindəki şeirlər, nəğmələr, ağılar, zərb-məsəllər, himn və ağlaşma, lətifələr, əfsanələr, təmsillər, dastanlar, nümunələr ulu və əzəmətli bir xalqın mədəniyyətindən xəbər verir.

Qədim Misirdə ilkin fəlsəfi ideyalarının yaranmasında iki mühüm abidəni qeyd etməklə burada da ədəbiyyatın rolunu bir daha üzə çıxarmış oluruq. "Arfaçının mahnısı" və "Ölümün tərənnümü" adlı əsərlərdə ölməzliyin və əbədiliyin gözəl əməllərlə qazanılması , mənalı həyat və xöşbəxtlik haqqında olan düşüncə və fikirlər ədəbi bir incəliklə çatdırılırdı.Və yaxud qədim fəlsəfi biliklərin məskənlərindən sayılan Babilistanda ədəbi abidələrdən sayılan "Müdrik Axikar haqqında" olan mədəni abidə və "Ağanın qul ilə söhbəti" adlı abidələrdə də dilin,obrazların, ədəbi düşüncələrin necə ilkin fəlsəfi düşüncələrə təkan verdiyinə şahid olmuş oluruq.

Fəlsəfə bir dünyagörüşü,düşüncə,təfəkkür və dünyaya dair fikirlərin toplandığı bir sahə ola bilər.Amma heç də hər kəsin dediyi və ya düşündüyü kimi başa düşülməsi çətin,sirli, mübahisəli də deyildir.Ədəbiyyata gəlincə ədəbiyyat duyğu,düşüncə və fikirlərin estetik,obrazlı emosional həssaslıqla ifadə edilməsidir.Fikir veririsinzsə hər ikisinin də qaynağı eynidir.Həyat,insan,dünya,fərd və cəmiyyət və .s tarixdən, məddəniyyətdən və bunların yansımalarından bəslənsələr də dil adlı sistemdən istifadə etsələr də metod olaraq yolları ayrıdır.Fəlsəfə daha çox

[58] **BDUəlsəfə kafedrasının dosenti. Fəlsəfə üzrə fəlsəfə doktoru, dosentaygunxalilqizi@mail.ruhttps://orcid.org/0000-0002-1781-8904**

[59] **AzMİU Azərbaycan dili və pedaqogika .kafedrasının müəllimi mina.ismayil.60@mail.ru**

10.24412/2218-7588-2025-2-199-203

ümumi və əhatələyici bir yol tutsa da ədəbiyyat xüsusi və fərqli olanla məşğuldur.Gözəl bir ədəbiyyat da gözəl bir fəlsəfə də inkişaf etmiş,yetişmiş bir dilə borcludur.Söhbət anlada bilməkdən,başa salabilməkdən gedir.Dilin insana bəxş etdiyi hüzur qurulan cümlələrdən,işlədilən sözlərdən asılıdır.Anlamaq və anladılmaq üçün dildən daha güclü təsir vasitəsi yoxdur.

Mənanın dil ilə anladılmadığı yerdə,duyğu və düşüncənin dildə açıqlanmadığı yerdə ədəbiyyat da daxil olmaqla bütün sahələr bu boşluğu yaşaya bilər.Yetkin bir dil ədəbiyyat üçün nə qədər vacibdirsə Fəlsəfə üçün də bir o qədər vacibdir.Fəlsəfənin dili də ədəbiyyatın dili qədər mənalı ,açıq,təmiz,aydın olmalıdır.Ədəbiyyat da,fəlsəfə də həm düşüncənin, həm də dilin bəhrəsidir. Fəlsəfə və ədəbiyyat bəzən görüşür,bəzən də ayrılır.Məsələn, fəlsəfədə elə sahələrmövzular var ki, onlar sadəcə elmi,idraki, texniki materialların açılması ilə əlaqədardır.Burada poetik düşüncə,əsararəngiz dil qabiliyyəti tələb olunmur.Burada dil sadəcə fəlsəfəyə ifadə vasitəsi olaraq yardım edir,lakin ədəbiyyatdakı fəlsəfə və yaxud ümumən fəlsəfə daha özəl,daha xüsusi bir fəlsəfədir.Buradakı fəlsəfə incələşmiş, sənətlə qaynayıb- qarışmış, sənətləşmiş fəlsəfə olur. Ədəbiyyat öz mahiyyətini fəlsəfi vasitələrlə açdığı kimi fəlsəfə də fəlsəfi romanlar,fəlsəfi poeziya ilə öz problemlərini daha yaxşı anlatmağı bacarır.Əslində nəinki ədəbiyyat , bütün sənətlər, bütün sahələr fəlsəfə ilə bağlıdır, hər biri fəlsəfə ileyoğrulmuşdur amma onlarda olan fəlsəfə bizim fəlsəfə adı ilə bildiyimiz fəlsəfə deyil. Fəlsəfəçilik etmək anlatmaqdır,sənət göstərmək,təqdim etmək, olanı öz aləmindəki baxış bucağınla göstərə bilməkdir.Düşünən ədəbiyyat başqadır,içində fəlsəfə olan ədəbiyyat başqadır.Çünki düşünmək hələ düşündürmək deyildir.Çox qəribədir ki,insanlar musiqidəki,rəsmdəki,heykəltaraşlıqdakı fəlsəfəni görməzlər, amma ədəbiyyatdakı fəlsəfəni daha tez görürlər.Ədəbiyyat da fəlsəfə də əvvəl-axır sözə tökülmüş düşüncədən başqa bir şey deyildir.Fəlsəfədəki intellektuallıq məcburi olaraq diskursiv vəməntiqi düşüncə növünə aiddir.Yəni bir fikirdən,müddəadan nəticə çıxararaq bir müddəadan başqa bir müddəaya məntiqlə keçmək,prinsipdən nəticəyə gedən təfəkkür yolunu formalaşdırır.Bir həqiqətdən digər bir həqiqətə keçmədən fəlsəfəçilik edə bilməzsən.

Şeirdə - söz sözü gətirir, fəlsəfədə fikir fikri.O başqa məslə ki, söz özü ilə məna da gətirir və fikir də sözlərə bürünüb gəlir; önəmli olan hansının nə zaman aparıcı olmasıdır. Fikrin yüyəni sözün əlində olanda - şeir, sözün yüyəni fikrin əlində olanda - fəlsəfə yaranır. İlhamlar qoşa gələndə - fəlsəfi poeziya.(**Xəlilov , 2021.**)

Ədəbiyyat və incəsənət bir nümayişetdirmə sənətidir. Amma fəlsəfə bu nümayişetdirmənin,göstərilənlərin içərisində həqiqəti,doğrunu seçəbilmə bacarığıdır.

Tarixdə bəzi filosoflar bədii əsərlər də yazmışdır.Lukresiy,Tomas Mor,Volter,Kamyu və.s.Bu da fəlsəfənin ədəbi formasının vacibliyini göstərir.

Ədəbiyyatın etik dəyərlərin təbliği məqsədilə işlədilməsi onun sosial rolu barədə də düşünməyimizi vacib sayır. Nəzərə alsaq ki, etika fəlsəfənin ictimai şüur formalarından biridir. Demək olar ki,ədəbiyyatın etik fəaliyyəti ictimai şüurun formalaşmasında həm fəlsəfəyə həm də ədəbiyyata uğur qazandırır və fayda verir.

Jak Deridanın belə bir fikri vardır: "Ədəbiyyat və incəsənət hər şəkildə hər şeyin söyləməsinə şərait yaradan bir müəssisədir."Hər bir insanın ən vacib xüsusiyyəti düşünmə bacarığıdır"Düzgün bir həyat yaşaya bilmələri üçün insanların düşünməyə,düşüncəyə ehtiyacı vardır.Hər hansı bir ədəbi mətn ortaya qoysaq vəya oxusaq bu zaman o insanın düşüncələri ortaya çıxar.Deməli hər ədəbi mətnin arxasında bir düşüncə vardır.Əgər bu düşüncə olmasa bir mətni və ya əsəri struktur olaraq ərsəyə gətirmək ,hadisələri nizamlamaq,obrazları ifadə etmək mümkün ola bilməz.Lakin bu düşüncə hər hansı bir fəlsəfi mətndə olduğu kimi ədəbi mətnin hamısına yayıla bilməz. Çünki ədəbiyyat mətndə və ya əsərdə fəlsəfəyə səthi toxuna bilər,yəni hər hansı daha dərin məna daşıyan bir söz və ya cümlə o mətnin içərisində işlənə bilər,lakin o yazını tamamlə zəbt edə bilməz.Maraqlıdır ki,əgər mətnin hər bir yerində fəlsəfdən danışılmış olsa,fəlsəfə anladılmış olsa bu zaman o ədəbi mətnin dəyərinə kölgə salar.Belə demək olarsa həm də bir az ağırlıq və yoruculuq verə bilər.

Ədəbiyyatın təzahür forması dildir.Dil və fəlsəfə arasındakı münasibət fəlsəfəçilərin dil vasitəsilə fəlsəfə yaratmalarından qaynaqlanır.Fəlsəfədə dil fəlsəfəsi deyilən bir sahə vardır. Dil fəlsəfəsi fəlsəfənin dil ilə məşğul olan bir sahəsidir.O,dilin şüur və gerçəklik arasındakı əlaqələrini öyrənən bir fəlsəfə sahəsidir.Burada iki tədqiqat istiqaməti müəyyənləşir.Birincisi dil və həqiqət,ikincisi dil və şüur.Buna görə də dil fəlsəfəsi epistemalogiyanın bir -birinə yaxın sahələrinin və şüura,idraka dayanan fəlsəfənin yanında yer almaqdadır.

Dilin fəlsəfədəki rolundan danışarkən deyə bilərik ki, Jak Derrida ilk dəfədigər elmlərlə fəlsəfəni kompleksləşdirdiyi zaman fiziki fəlsəfə deyil, fizika və fəlsəfə, media fəlsəfəsi əvəzinə fəlsəfə və jurnalistika, dilçilik fəlsəfəsi əvəzinə, fəlsəfə və dil qavramlarını istifadə etmişdir. Burada nə qədər həqiqət payı olsa da, Derridanın fikirləri ilə razılaşmaq da bir az çətindir. Dilçiliklə bağlı elmlər dedikdə linqvistika və filologiya əsas elmlər kimi hesab olunur, gündəlik mətbuat, televiziya, reklam platformaları, kütləvi mədəniyyət ənənələri bizdən sadəcə dilin qrammatik mahiyyətini tələb edir. Əslində dilin qorunmağı üzərində məsuliyyətli olan bu sahələrin özündə gündəlik nə qədər qayda-qanun pozuntusunun baş veridiyini görürük. Fəlsəfə və dilçilik münasibətləri bu baxımdan həm şairdən, həm müxbirdən, həm də redaktordan dilin konkret öz çəkisi və yazılan bir materialın oxu halında tələffüzünün sadə və savadsız görünməməyi üçün labüddür.Bəzən zəngin bir materilanın da bəsit təqdimatı və ya dil zəifliyi o materialın sanbalılığını aşağı salır. Amma dil fəlsəfəsi sadəcə danışıq prosesi deyil, burda dil həm informativ vasitə, həm düşüncə istehsalçısı, həm ünsiyyət vasitəsi, həm də səslənən sözlər və cümlələrə görə məsuliyyət duyğusudur.

Dil fəlsəfəsiin tanınmış nümayəndələrindən biri L.Vitgenşteyendir.Onun belə bir məhşur fikri vardır "Düşünün ki ,danışa biləsiniz" Həqiqətən də düşünərək danışmaq ,düşündürərək anlatmağa səbəb olur.Söhbət burda bədii fələsəfi ədəbiyyatların dilindən gedir.Bir əsərin oxucuya təsir gücü yaratması üçün,onun hafizəsində

izlər buraxması üçün və nəhayət oxuyucunun dünyagörüşünə müsbət düşündürücü,mənəvi əxlaqi təsir yaratması üçün yazıçının dil imkanlarını maksimum dərəcədə istifadə etməsi lazımdır.

2) Ədəbiyyat ilə fəlsəfə arasında olan ortaq nöqtələr:

1) Həm ədəbiyyat həm də fəlsəfə fərdi bir səyin nəticəsində meydana gəlir.(Mənəvi varlığın formalarında fərdidən başlayan ümumiyə gedən bir yol var.)

2) Fəlsəfədə də ədəbiyyatda da bir xəyal gücü vardır.Burada fəlsəfəçinin xəyal gücü ədəbiyyatçının xəyal gücündən daha çoxdur. Filosofun xəyal gücü mücərrəd bir xəyal gücüdür.(Mağara alleqoriyası)

3) Bəzi ədəbiyyatçılar əsərlərində fəlsəfədən yararlandıqları kimi ,bəzi filosoflar da ədəbiyyatdan faydalanmışlar.

Fəlsəfinin individuallına gəlincə o;

1) Fəlsəfi sayıla bilən bir sualın ətrafında var olma ehtiyacı vardır fəlsəfədə.

2) Tutarlı fikirlərdən meydana gəlir.

3) Varlıq anlayışı ətrafında mərkəzləşmə baş verir.

İnsanın düşüncə və əməlləri ilə bağlı fəaliyyətlərini üç hissəyə ayırmaq olar.Bunlar fəlsəfə,incəsənət və elmdir.İnsanlıq tarixindəki inkişafın mərhələri də özünü məhz bu sahədə göstərmişdir.Fəlsəfə ilə yaxın olan sahələrdən biri də incəsənətdir.

Ədəbiyyyat və fəlsəfə münasibətlərinin tarixini çox erkəndən başlasaq deyə bilərik ki, onların arasında tarixdən gələn universal insan düşüncəsini birlikdə toxuduğunu görmüş olarıq. Müəlliflərin yazdığına görə " Aristoteldə ədəbiyyat yoxdur amma Platon filosof olmadan əvvəl bir ədəbiyyat adamıydı**"(Gunay-Gundoğan, 2014, s.36).**

İndi bu fikirləri dinlədiyiniz zaman hər kəsdə belə bir fikir yaranacaqdır.Bəs Aristotelin poetika əsəri? O ədəbiyyatdan bəhs etmirmi? Aristotel bu əsərində şeir,sənət ilə bağlı olan qavramları əhatə edir.O, bu əsərində estetik qavram içərisindəsənətlərin qarşılaşadırmalarını və tragediyanın üstünlüyünü vurğulayır.Aristotel öz ümumi fəlsəfəsində varolanların xaricində bir ideyanın varlığını qəbul etmədiyi kimi sənət sahəsində də Platonun irəli sürdüyü Fövqəl gözəllik" ideyasını da qəbul etmir.Aristotelə görə gözəllik ideyası var olduğu üçün gözəl gördüyümüz obyektlərdə sənət əsərləri bir mahiyyət qazanmır, əksinə sənət əsərləri var olduqları üçündür ki, gözəllik anlayışından söz açа bilirik. Aristotel Poetikasında "Epos,Tragediya, Komediya, Ditharmbos şeiri ilə Fleyta,Gitara kimi sənətlərin böyük bir hissəsi təqliddir" deyir**. (Aristoteles, 2011, 104)**

Burdan belə nəticəyə gələ bilərik ki,Aristotel incəsənət və onun tərkibi haqqında fikirlər bildirmişdir.amma özünün və ya fikirlərinin ədəbiyyatı olmamışdır.Yəni sənət və onun tərkib elementləri haqqında fikirlərini anlayışlar şəklində izah etmişdir.Poetika anlayışının özü zamanla bir təkamül keçirərək fəlsəfi mənada yeni poetik düşüncələrin meydana çıxmasına nail olur.Məsələn "Poezis" sözü şeirin qurulma prosesi,"Poetika" sözü isə bu prosesin uğurlu bir tamamlanmasıdır.Və yaxud "Poeta" hazırlayan,quran mənasında "Poema" isə qurulmuş olan bir şey mənasında işlənir.

Hər bir elm sahəsi insanlığa xidmət etməlidir.Hesab edirəm ki,burda insanın mənəvi dünyasına,duyğularına,mənəvi təkamülünə ən çox fayda verən elm məhz ədəbiyyatdır.Sözlə insan beyninə,düşüncələrinə və ümumilikdə insan həyatına nüfuz edəcək,təsir göstərəcək ən güclü vasitə olan ədəbiyyat bütövlükdə bəşəriyyətə fayda verəcək ən ümdə vasitədir.Burada alman filosofu İ. Kantın bu sözləri də yerinə düşərdi , "Əgər insana həqiqətən də lazım olan elm varsa, onda bu, insana onun layiq olduğu yeri göstərən və insan olmaq üçün nə etmək lazım olduğunu öyrədən fəlsəfədir".

Əgər fəlsəfə tarixinə baxsaq bir çox filosofun həm də ədəbi bir tərzdən istifadə etdiyini görərik.Antik dövrün bəzi filosofları öz fikirlərini şeirlər şəklində dilə gətirmişlər.Platon,Şopenhauer eyni zamanda həmdə böyük ədəbiyyatçıdırlar.Rassel,Albert Kamus,Sartr ədəbiyyat üzrə Nobel mükafatı almış filosoflardır.Amma bəzi güclü filosoflar da vardır ki,bunlar yaxşı yazar olmamışlar.Məsələn Aristorel və yaxud Kant dərin filosoflar olduqları halda istifadə etdikləri dil baxımından yaxşı yazar deyildilər.Bu isə o deməkdir ki,yaxşı bir filosof olmaq üçün yaxşı bir ədəbiyyatçı olmaq şərt deyildir.Yenə eyni şəkildə yaxşı bir ədəbiyyatçı olmaq üçün də yaxşı bir filosof olmaq şərt deyil.

Həm ədəbi əsər həm də fəlsəfi əsər bir subyektin məhsuludur.Ədəbiyyada gerçəkliyin izah edilməsi,təsvir edilməsinin və ya xəyalın məhsulu olan bir düşüncənin izah edilməsinin yeganə vasitəçisi kəlimə,sözdür.Bəlkə də elə buna görə ədəbiyyat digər incəsənət növlərindən (rəsm,teatr,musiqi kimi) ayıran xüsusiyyət də məhz budur.Bəs o zaman fəlsəfə də subyektiv bir psixikanın məhsulu olduğu üçün, vasitə olaraq anlayışları istifadə etdiyi üçün burada da bir subyektivlik ortaya çıxırmı?

Həm ədəbi əsər həm də fəlsəfi əsər fərdi bir cəhdin təzahürüdür.Amma ədəbi əsərdə estetik zövq yazıçının şəxsiyyətini ortaya qoyur.Fəlsəfi əsərdə isə məqsəd estetik zövq olmadığı üçün istifadə olunan dil mücərrəd və quru bir dildir. ədəbiyyat fələsəfəyə qavram,anlayış analizlərindən uzaqlaşaraq hadisələri müəyyən bir vəziyyətə salmaqla fələsəfnin quruluğunu aradan götürür.Buna görə də bir fəlsəfi əsər individuallığı aşır.Ancaq individuallığı aşmaq o əsəri başqa bir filosofun yaza biləcəyi mənasına da gəlməz. Necə ki, "Karamazov qardaşları"nı Dostoyevskiden başqa yaza bilməzdisə eləcə də "Praktik zəkanın tənqidi" ni də Kantdan başqa bir filosof yaza bilməzdi.

İnsanlıq tarixi ilk öncə şeirə daha sonra isə yazıya keçmişdir.Şleyermaxerin də dediyi kimi insanlar birbaşa fəlsəfəyə keçmədiyini, şeirdən fəlsəfəyə doğru təkamül etdiyini vurğulayır.Bu sözün açıqlaması olaraq demək olar ki, ədəbiyyat fələsəfəyə bir hazırlıqdır. Ona görə də fələsəfnin meydana çıxa bilməsi üçün ədəbiyyatın üstün bir

mərhələyə çatması lazımdır.O halda belə bir sual yaranır: Fəlsəfi dilin meydana gəlməsində ədəbiyyatın təsiri varmı?

Milet məkətbinin nümayəndələrindən olan Fales ilə başlayan fəlsəfənin ilk dövrlərinə aid filosofların qoyub getdikləri əsərlərə baxılırsa istər suala olan cavabın,istərsə də Şleyermaxerin də qeyd etdiyi mövqenin bir fenomen olduğunu söyləmək olar.Ümumi mənada fəlsəfni mifdən logosa keçid adlandırmaq olar. Yunan mifalogiyasında isə əsərlər beytlər formasında, şeir diliylə yazılmışdır.

Aristotel şeiri texniki bir fəaliyyət kimi ruhu təmizləməyə xidmət edən bir vasitə hesab edirdi.Ədəbiyyat insanı anlama və anlatma fəaliyyətində ən güclü ifadə vasitəsi olaraq vardır. Çox maraqlıdır ki, bəzən insanlar öz aralarında söhbət edərkən adi gündəlik məişət söhbətlərindən dəyişkən bir fikir söylədikləri zaman qarşısındakı insanın "Bəsdir fəlsəfəçilik etdiyin", yaxud "ədəbiyyat qurma" deyə bir zarafatları da olur. Bu sözün özü əslində fəlsəfə və ədəbiyyat bağlarının nə qədər yaxın olduğuna bir daha sübutdur. Hər ikisi həyatın ,varlığın özündən bəhs edən fikirləri ehtiva etdiyi, düşüncələrin ən dərin qatlarından istifadə edilməsiylə insanlar,bəşəriyyətə xidmtdədirlər. Doğrudur, hər ədəbiyyat dərin düşüncə yarada bilməz və yaxud hər fələsəfə ədəbiyyat dilini zəngin istifadə edə bilməz amma ədəbiyyatın düşüncə dərinliyi onun içərisindəki fələsəfədə , fəlsəfənin gözəlliyi onun konkretliyi və sistemliliyi ilə bərabər həm də dilinin bəlağətində, ifadə zənginliyindədir. Jak Deridya görə ədəbiyyat və fəlsəfə necə bir yazı şəkli olursa olsun arxe-yazım qavramından başlanılması lazımdır. (**Derrida, 1988, . 53.**)

Fəlsəfə hər şeydən əvvəl bir düşüncə sənətidir.O zaman belə sual meydana gəlir: bəs rəsm,şeir,roman,musiqi insanı düşündürmürmü? Əslində fəlsəfənin düşüncə işi olduğunu söylədiyimiz zaman onun digər fəaliyyət sahələrləri ilə bir bütünlük quraraq özünəməxsus bir fəaliyyət formasını nəzərə almaq kifayət edir.

Fəlsəfi düşünmənin özünəməxsus başqa bir tərəfi də vardır.O tamamilə müstəqil bir düşünmə sahəsidir.Bu xüsusiyyətinə görə ən birinci özü olmaqla varlıqda,var olanda hər şey haqqında maraqlanır.Bir şey ilə maraqlanmaq o şey barəsində ətraflı düşünmək deməkdir əslində.

Ədəbiyyat elə bir sahədir ki, onun həm fəlsəfə həm də ədəbiyyat qatı vardır. Mənəvi və maddi həyat, insan və dünya münasibətləri, fərd,cəmiyyət, insanın daxili və xarici aləminin mübarizəsi, həqiqət,gözəllik,ədalət, ləyaqət, haqsızlıq, ədalət, azadlıq və məsuliyyət, əxlaqi kimi anlayışlar həm fəlsəfənin həm də ədəbiyyatın ortaq mövzularıdır.Bu mövzuları isə ictimailəşdirən isə ədəbiyyatın zəngin dilidir.

Fəlsəfə və ədəbiyyat münasibətlərində belə bir sual da meydana çıxır: fəlsəfənin ədəbiyyatı mümkündürmü və yaxud ədəbiyyatsız fəlsəfə ola bilərmi?Məsələn bədii əsərlərdə açıq fəlsəfəçiliklər vardır. Roman yazan insan nəyisə həll etmə gücünə malik deyil.Romanın müəllifi həll edilməli hər hansısa bir məsələni özü deyil əsərin qəhrəmanı vasitəsilə həyata keçirməyə başlayır. Romanın məqsədi daha çox problemləri göstərməklə , yaşanan hadisələri göz önünə gətirir. Oxucuya təqdim olunan bir əsərdə qarşımıza çıxan fikirlər müəllifin adından olsa da qəhərəmanının dilindən oxucuya çatdırılır.Misal üçün deyə bilərik ki,Dostoyevskinin "Cinayət və cəza" əsərində qəhrəmanın dilindən səslənən və qarşımıza çıxan belə fikir vardır: "Bəzi qadınlar qəzəbli kimi davransalar da təhqir olunmaqdan böyük həzz alarlar. Bunu deməyə belə ehtiyac duymuram.İnsan deyilən varlıq təhqir olunmağı çox xoşlayar.Təbii ki,əslində bu sözlər müəllifin sözüdür lakin bu sözlərə görə biz Dostoyevskiyə əsəbləşə bilmirik?Çünki psixoloji olaraq bu sözləri oxuduğumuz zaman müəllifdən çox qəhrəmanın fikirləri kimi bizə təsir edən və müəllifə nifrət və ya irad bildirməyəcək qədər hadisələrin və ya fikirlərin gizlənməsi hadisəsi baş verməkdədir. Bəzən də oxuduğumuz əsərlərdə əsərdə olan iki obrazın bir –biri ilə çılğın dialoqunu görürük.Burada fikirlərdən hansı müəllifin hansı isə qəhərmanının fikridir deyə bilirikmi? Xeyr.Deməli roman yazan bir insan həqiqətləri açan deyil ,onu çatdıran bir insandır.

Qısacası ədəbiyyat həm də bir növ fəlsəfədir.İnsanla bağlı bütün həssaslıqların fəlsəfəsidir.İnsan öz düşüncələrini, fəlsəfəçiliklərini sözün,poeziyanın dili ilə çatdırır.

Digər önəmli və maraqlı nüanslardan biri də şifahi xalq ədəbiyyatının milli fəlsəfənin yaranmasındakı rolunda görməyimizdir.Məsələn Azərbaycan şifahi xalq ədəbiyyatı demək olar ki,xalqımızın fəlsəfi düşüncəsinin dərinliyini göstərən ən bariz nümunədir.Dildən -dilə dolaşan, nəsildən nəslə keçən, tarixləri aşan milli fəlsəfə zəngin mədəni-tərbiyəvi,mənəvi aspekt daşımışdır. Nağıllar,bayatılar,laylalar,atalar sözləri və sairə sözün və mənanın dərinliklərində mənəvi ucalığın yollarını göstərmişdir.Bəzən yazma-oxuma bilməyən sıravi bir vətəndaşın belə mənəvi təkmilləşməsinə məhz ədəbiyyatın bu janları güclü təsir göstərmişdir.Hər atalar sözləri,bayatılar,zərbi məsəllər öz daxilində zəngin bir fəlsəfə daşımaqda idi. Xalqa qəhrəmanlıq,yurd sevərlik,mərhəmət, ədalət,gözəllik,insanlıq kimi anlayışları təbliğ edən şifahi xalq ədəbiyyatı bu zaman həm də fəlsəfənin akseoloji dəyərlərini təbliğ etmədədir.

Nəticə : Ədəbiyyat tarixində xalqın maarifləndirilməsi yolunda maarifçi ziyalıların hər zaman böyük rolu olmuşdur. Maarifçilər xalqı cəhalətdən oyatmaq məqsədilə eyni zamanda həm də fəlsəfi fikirlərini çatdırmaqda məhz ədəbiyyatdan istifadə etmişlər. Doğrudur, onları tamamilə zəngin bir fəlsəfə ilə əhatə olunmuş da hesab etmək olmaz. Xalqı maarifləndirmək və ictimai həyatda nizam yaratmaq üçün bəlkə də ədəbiyyat fəlsəfəyə kömək edəcək ən düzgün vasitə sayıla bilərdi.Fəlsəfədə əriməyən ədəbiyyat və yaxud ədəbiyyatda qaynanyıb-qarışmayan fəlsəfə deyərkən buraya ən uyğun nümunə olaraq maarifçiləri misal çəkə bilərik.Bu mənada XIX əsr Azərbaycan maarifçiləri buna ən doğru sübutdur. Çünki onlar daha çox ədəbiyyat vasitəsilə xalqın mənəvi inkişafında böyük rol oynamışdırlar. Onlar milləti savadlandırmaqla onun vətəndaşlıq şüurunu inkişaf etdirib müstəqil, azad və suveren cəmiyyətə hazırlamışlar. Bir ziyalı kimi öz üzərlərinə böyük missiya götürərək bədii ədəbiyyat vasitəsilə milli maarifləndirmənin öncüllərinə çevrilmişlər. Bu baxımdan demək olar ki, Azərbaycan maarifçiliyi ilk maarifçilik

yolunu M.F.Axundzadənin ictimai-fəlsəfi düşüncələrinin ideya təməli üzərində başlamış və inkişaf etdirmişdir.

Gündəlik həyatımızda da düşüncənin fəaliyyət prosesində olması göz önündədir. Ancaq bu fəaliyyət sahələrində düşünən zehin düşünmə xüsusiyyətinə görə obyektivləşmə növünə görə fərqlənməkdədir. Yəni hər gündəlik düşüncə obyektivləşə bilməz. Məlum olduğu kimi də bir fikrin düşündürmə qabiliyətinə malik olması üçün o fikrin mənəvi varlığa çevrilməsi lazımdır. Mənəvi varlıq isə ilk öncə subyektiv mənəvi varlıq olaraq yola çıxsa da müəyyən bir müddət sonra obyektivləşmiş mənəvi varlığa çevrilir. Məhz bu zaman fəlsəfə və ədəbiyyat bağlılığından qanadlanan düşüncənin qalxdığı yüksəklik daha üstün bir mənada qərarlaşır.

İtifadə edilmiş ədəbiyyat

1. Aristoteles, "Poetika", çeviren:İsmail Tunalı, Remzi Kitabevi A.Ş., İstanbul Mayıs 2011, Basım: 20, s 104.
2. Derrida, Jaques, Limited İNC (Evanston :Northwestern Universitiy Press, 1988, s. 53
3. Quliyev, E.H., "Şərq xalqları ədəbiyyatı. I –ci cild. Bakı. 2011. s.11.
4. Heidegger, Des Kunstwerkes, Philipp Reclam-Jun Stuttgart XVI əsrdə, Bibliographische Information der Deutschen Nationalbibliothek, Auflage 2012, (01101)
5. Xəlilov, Səlahəddin, Ədəbiyyatın fəlsəfəsi və ədəbiyyatda fəlsəfə, Ədəbiyyat qəzeti. 05.11.2021.
6. Mustafa Günay-Ali Osman Gündoğan, Felsefe ve Edebiyat, Konya, 2014, s. 36.
7. Uygur, Nermi, İnsan acısından edebiyat, Remzi kitabevi, İstanbul. 1985 . s 14.

Xülasə

Ədəbiyyat tarixində xalqın maarifləndirilməsi yolunda maarifçi ziyalıların hər zaman böyük rolu olmuşdur. Maarifçilər xalqı cəhalətdən oyatmaq məqsədilə eyni zamanda həm də fəlsəfi fikirlərini çatdırmaqda məhz ədəbiyyatdan istifadə etmişlər. Xalqı maarifləndirmək və ictimai həyatda nizam yaratmaq üçün bəlkə də ədəbiyyat fəlsəfəyə kömək edəcək ən düzgün vasitə sayıla bilərdi. Fəlsəfədə əriməyən ədəbiyyat və yaxud ədəbiyyatda qaynanyıb-qarışmayan fəlsəfə deyərkən buraya ən uyğun nümunə olaraq maarifçiləri misal çəkə bilərik. Bu mənada XIX əsr Azərbaycan maarifçiləri buna ən doğru sübutdur. Çünki onlar daha çox ədəbiyyat vasitəsilə xalqın mənəvi inkişafında böyük rol oynamışdırlar. Onlar milləti savadlandırmaqla onun vətəndaşlıq şüurunu inkişaf etdirib müstəqil, azad və suveren cəmiyyətə hazırlamışlar. Bir ziyalı kimi öz üzərlərinə böyük missiya götürərək bədii ədəbiyyat vasitəsilə milli maarifləndirmənin öncüllərinə çevrilmişlər. Gündəlik həyatımızda da düşüncənin fəaliyyət prosesində olması göz önündədir. Ancaq bu fəaliyyət sahələrində düşünən zehin düşünmə xüsusiyyətinə görə obyektivləşmə növünə görə fərqlənməkdədir. Yəni hər gündəlik düşüncə obyektivləşə bilməz. Məlum olduğu kimi də bir fikrin düşündürmə qabiliyətinə malik olması üçün o fikrin mənəvi varlığa çevrilməsi lazımdır. Mənəvi varlıq isə ilk öncə subyektiv mənəvi varlıq olaraq yola çıxsa da müəyyən bir müddət sonra obyektivləşmiş mənəvi varlığa çevrilir. Məhz bu zaman fəlsəfə və ədəbiyyat bağlılığından qanadlanan düşüncənin qalxdığı yüksəklik daha üstün bir mənada qərarlaşır.

Açar sözlər: Fəlsəfə, ədəbiyyat, maarif, varlıq, müqayisə, söz, mənəvi.

Философия литературы и литература философии

Абстракт

В истории литературы просвещенные интеллектуалы всегда играли важную роль в просвещении народа. Просвещение использовало литературу, чтобы пробудить людей от невежества и одновременно донести свои философские идеи. Возможно, литературу можно считать наиболее подходящим инструментом, помогающим философии в просвещении народа и наведении порядка в общественной жизни. Когда мы говорим о литературе, которая не растворяется в философии, или философии, которая не выплескивается в литературу, мы можем привести в качестве наиболее подходящего примера эпоху Просвещения. В этом смысле Азербайджанские просветители XIX века являются самым верным тому доказательством. Потому что они сыграли важную роль в духовном развитии народа, главным образом через литературу. Просвещая нацию, они развивали ее гражданское сознание и готовили ее к независимому, свободному и суверенному обществу. Как интеллектуалы, они взяли на себя великую миссию и стали пионерами национального просвещения посредством художественной литературы. Очевидно, что мышление является частью нашей повседневной жизни. Однако в этих областях деятельности мыслящий разум различается по типу объективации, который он имеет в силу своей природы мышления. То есть не всякая повседневная мысль может быть объективирована. Как известно, для того, чтобы идея обрела способность вдохновлять мысль, она должна быть преобразована в духовную сущность. Хотя духовное существование изначально начинается как субъективное духовное существование, по истечении определенного периода времени оно трансформируется в объективированное духовное существование. Именно в это время высота, на которую поднимается мысль, вдохновленная связью философии и литературы, становится более возвышенной.

Ключевые слова: Философия, литература, просвещение, существование, сравнение, слово, мораль

RƏYÇİ: dos. S.Abbasova

Simuzər Sultan qızı İsmayılova [60]

ŞAMİL SALMANOVUN YARADICILIĞINDA ƏNƏVƏ VƏ NOVATORLUQ PROBLEMİ

Giriş. Azərbaycan ədəbi tənqidinin və ədəbiyyatşünaslığın tanınmış, nüfuzlu alimlərindən olan Şamil Salmanov uzun illər müasir Azərbaycan ədəbiyyatının mühüm və aktual nəzəri-metodoloji problemlərinin tədqiqi ilə məşğul olmuşdur.

Tədqiqat dairəsinin geniş olmasına, eyni zamanda ədəbiyyatın bütün janrlarından və müxtəlif problemlərindən yazmasına baxmayaraq ədəbi mühitimizdə Şamil Salmanov daha çox poeziya tənqidçisi və ədəbi tənqidimizin tədqiqatçısı kimi tanınmışdır. Poeziyaya olan sonsuz vurğunluğuna baxmayaraq ədəbiyyatşünas alim ömrünün əsas hissəsini elmi yaradıcılığa həsr etmiş, ədəbi-ictimai mühitdə tənqidçi kimi məhşurlaşmışdı.

Əsas hissə. Şamil Salmanov Azərbaycan tənqidinin yalnız tarixi ilə deyil, nəzəri problemləri ilə də ilk dəfə məşğul olan alimlərimizdəndir. Onun "Azərbaycan sovet şeirinin ənənə və novatorluq problemi (1920-1932-ci illər)" tədqiqatı XX əsrin 60-cı illərində yazılmış ən yaxşı ədəbiyyatşünaslıq əsərlərindən biridir. Yeri gəlmişkən qeyd edək ki, Şamil Salmanov on ilə yaxın bir müddət ərzində mövzu üzərində çalışmış və yalnız 1970-ci ildə bu tədqiqat əsərini tamamlayaraq müdafiə etmişdir. Əsər 1980-ci ildə monoqrafiya kimi çap olunmuşdur.

Əsərin elmi məziyyətlərini yüksək qiymətləndirən Bəkir Nəbiyev yazırdı: "Monoqrafiyada şeirin öz inkişaf prosesi ilə yanaşı, onun tənqiddəki inikası müfəssəl tədqiq olunur. Bu da elmi-nəzəri fikir baxımından əsərin maraqlı çıxmasına səbəb olmuş, əhəmiyyətini artırmışdır. Poetik yaradıcılığa canlı və fəal münasibət, onun aparıcı meyillərini düzgün qiymətləndirmək fikrinin müstəqilliyi bu monoqrafiyanın əsas məziyyətləri kimi qeyd oluna bilər" [1, s. 133].

Arif Səfiyev isə bildirirdi ki, "Azərbaycan sovet şeirinin ənənə və novatorluq problemi (1920-1932-ci illər)" monoqrafiyası həm müəllifin özünün, həm də ümumən ədəbiyyatşünaslığımızın ciddi nailiyyəti kimi qiymətləndirilməlidir" [5, s. 5].

Tənqidçi alim Şamil Salmanovun 1980-ci ildə çap olunmuş "Azərbaycan sovet şeirinin ənənə və novatorluq problemi (1920-1932-ci illər)" monoqrafiyası XX əsrin 30-cu illərində yaranmağa başlayan yeni şeirin ideya-estetik axtarışları, həmin illərin ədəbi-tənqidi ilə poeziya arasındakı qarşılıqlı əlaqəsi ənənə və novatorluq problemi baxımından araşdırılaraq tədqiq edilmişdir. Dövrün, zamanın hakim siyasi-ideoloji və elmi-metodoloji tələb və prinsipləri əsasında yazılmış bu əsərin başlıca məziyyəti ənənə və novatorluq probleminə baxışların geniş və əhatəli şəkildə tədqiqata cəlb olunmasıdır.

Şamil Salmanov ənənə və novatorluğun sovet ədəbiyyatındakı təsirləri ətrafında elmi diskussiyalar aparır, dövrün poeziyasında yeni və köhnə təcrübələrin qarşılıqlı əlaqəsini aşkara çıxarmağa çalışırdı.

Əsərdə Şamil Salmanov yazır ki, "həyat materialının yeniliyi, ideya-bədii novatorluğun əsası olsa da, yeganə atributu deyil: həqiqi novatorluq üçün həyat materialının yeniliyindən başqa bir də bu materiala sənətkar münasibətinin yeniliyi, onu dərk etməyin yeniliyi gərəkdir" [2, s. 22].

Həyat materialına "sənətkar münasibətinin yeniliyi" kifayət qədər nəzərə alınmadığı üçün XX əsrin bəzi nəzəriyyəçiləri bir çox xalqların ədəbiyyatında feodal orta əsrinin əlamətlərini görür və bunu yeni realizmin formalaşmasına, novatorluğun inkişafına mane olan amil kimi qiymətləndirirdilər. Bu meyilləri həmin tədqiqatçıların əsərlərində müşahidə edən Şamil Salmanov həmkarları ilə ciddi fikir mübadiləsinə qoşularaq, onların mülahizələrinə düzəliş verirdi. Haqlı olaraq deyirdi ki, həm ideya-məzmun, həm də bədii forma, üslub baxımından zəngin olan bütün Şərq və Orta Asiya ədəbiyyatlarının özünəməxsusluqlarını nəzərə almadan, onların hamısını ümumi bir "Şərq uslubu" yaxud formalizm adlandırmaq səhvdir. Şamil Salmanov "Şərq formalizmi", "Feodal orta əsr istilahları"nı qəbul etmirdi. O deyirdi ki, bir halda ki, bu xalqlar yeni əsrdə novator ədəbiyyat yarada biliblər, o halda bu ədəbiyyatın tarixi keçmişi, ictimai-mədəni ənənələri olub. O yeni forma axtarışlarının aparılmasını təqdirəlayiq hesab edir, şərti poetik formalardan yeni formalara keçidi müstəqil cəhət kimi qiymətləndirirdi.

Monoqrafiyada geniş, əhatəli tədqiqat predmetinə çevrilmiş mühüm problemlərdən biri də ənənə və novatorluğun qarşılıqlı əlaqəsini, onların dialektik vəhdətinin ədəbi tənqiddə qoyuluşudur.

Məlumdur ki, Azərbaycan sovet ədəbiyyatının təşəkkül mərhələsində ənənə və novatorluq bütün incəsənətdə aktual bir yaradıcılıq məsələsi sayılırdı. Ancaq ədəbi-tənqid onların poeziyada, şeirdə təzahürlərinə daha çox diqqət yetirirdi.

Yeni ədəbiyyatın yaradılması uğrunda kəskin ideoloji mübarizələr şəraitində təşəkkül tapan 1920-1930-cu illərin ədəbi tənqidinin maraq dairəsinə bədii yaradıcılığın forma, məzmun, müasirlik, metod, üslub məsələsi kimi ənənə və novatorluq da daxil idi. Həmin dövrdə ədəbi tənqid sahəsində fəaliyyət göstərmiş Mustafa Quliyev, Əli Nazim, Hənəfi Zeynallı, Məmməd Kazım Ələkbərli, Mikayıl Rəfili, Məmməd Arif, Hüseyn Mehdi və başqalarının məqalələrində yeni ədəbiyyata məxsus novatorluğun xüsusiyyətləri geniş şəkildə aydınlaşdırılırdı. Bu baxımdan Əli Nazimin "Yeni həyat və yeni ədəbiyyat", "Yeni Azərbaycan ədəbiyyatı", Mustafa Quliyevin "Hazırkı türk ədəbiyyatı haqqında", Hənəfi Zeynallının "Metodoloji müqəddimə", Mehdi Hüseynin "Bizdə futurizm cərəyanı" və bu kimi

[60] AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu Ədəbiyyat nəzəriyyəsi şöbəsinin aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru, dosent

simaismayilova.elm@mail.ru
ORCİD ID: 0009-0002-9245-1863
10.24412/2218-7588-2025-2-204-206

məqalələr aktuallıq kəsb edirdi. Həmin məqalələri əhatəli şəkildə elmi təhlilə cəlb edən Şamil Salmanov onlarda qaldırılan məsələlərin daxili mahiyyətini açmağa çalışırdı.

Müəllif həm ədəbi tənqidin bədii meyar axtarışlarından, həm ədəbi prosesə münasibətindən, həm də sərbəst şeir problemlərindən bəhs edərək diqqət mərkəzində yeni şeirin ənənə və novatorluq məsələsini saxlayırdı.

Tənqidçi dövrün ədəbi tənqidinin metodoloji axtarışlarını, bu zaman əldə edilən uğur və kəsirləri novatorluq probleminə münasibətin kontekstində qiymətləndirirdi. Şamil Salmanov monoqrafiyada yazır: "Axtarış-həyatı bədii görmənin, bədii dərk etmənin yeniliyi üçün başlıca amildir. Həyat materialın yeniliyi, ideya-bədii novatorluğun əsasıdır, lakin yeganə əlaməti deyildir. Həyat materialının yeniliyindən başqa, bir də bu materiala sənətkar münasibətinin yeniliyi, onu dərk etməyin yeniliyi gərəkdir" [2, s. 35].

Şamil Salmanov 20-30-cu illər ədəbiyyatına da məhz həmin bu fikirlərin prizmasından yanaşırdı.

Qeyd edək ki, alimin tənqidi yaradıcılığı üçün bu yenilik sözü ən müəyyənedici sözdür, istiqamətdir, meyildir. Doğrudan da o, hansı bir sənətkara, onun yaradıcılığına müraciət edirsə, məhz yeniliyə müraciət etmiş olur. Məsələn, Rəsul Rza yaradıcılığında həyatın, gerçəkliyin, yeni poetik çalarlarını, rənglərini görür. Əli Nazimi yeniliyi müdafiə edən bir tənqidçi kimi kəşf edir, Mikayıl Rəfilinin həm poetik, həm də elmi-tənqidi yaradıcılığında novatorluq axtarışlarını açıqlayırdı.

Təkcə tədqiq etdiyi sənətkarların yaradıcılığında deyil, tədqiq etdiyi ədəbi dövrlərin də yenilik meyilləri Şamil Salmanovun axtarışları üçün spesifikdir. Monoqrafiyada belə bir fikirlə də qarşılaşırıq: "20-ci illərin tənqidi, hər şeydən əvvəl, axtarış tənqidi idi" [2, s. 35].

Şamil Salmanov həmin dövrün ədəbiyyatı ilə ədəbi tənqidi bir-birindən ayırmırdı, təcrid etmirdi, çünki, həmin dövrün ədəbi tənqidini belə bir meyar olmadan qiymətləndirmək mümkün deyildi.

Qeyd edək ki, kommunikativ fəaliyyətlər həyata keçirilərkən dərsdəki fraqmentlərin təhlilinə, şərhinə qədər olan prosesə bütövlükdə nəzarət müəllimin əməyi hesabına reallaşdırılır.

Üstəlik, burada vaxtın idarə olunması, resurs təminatı və s. kimi məsələlərin də izlənilməsi vacib şərtdir.

Bir sözlə, bütün prosesə nəzarətin həyata keçirilməsi təhsilverənlərin vəzifəsinə aid olan məqamların ciddi və məsuliyyətli olmasından xəbər verir.

Buradan belə bir nəticə hasil olunur ki, müəllimlər bu cür fəaliyyətlərdə belə məsuliyyətli, həssas prosesin mərkəzi nöqtəsində dayanan əsas fiqur və sima hesab edilirlər.

Ali məktəblərdə bacarıq və vərdişlərin səmərəli şəkildə təkmilləşdirilməsi üçün nəzərdə tutulmuş mətn materialları mütləq aşağıdakı kimi müəyyənləşdirilməli və uyğunlaşdırılmalıdır:

1. dilöyrənənlərin maraq və tələbatları,
2. onların yaş səviyyələri,
3. bilik,
4. xüsusilə, alman dili sahəsində olan linqvistik bilik səviyyələrini nəzərə almaqla seçilməlidir.

Təhsilalanlar mətnlərin bazasında təşkil olunmuş müzakirə və debatlarda fəal şəkildə iştirak edərək mövqelərini, müzakirə obyekti olan mövzuya dair münasibətlərini, fikir və ideyalarını söyləməli, əsaslandırılmış rəylərini adekvat şəkildə bildirərək səylərini qabiliyyətlərinin və tənqidi təfəkkürün inkişaf etdirilməsinə istiqamətləndirməlidirlər [5, s. 84].

Ali məktəblərdə bacarıqların formalaşdırılması və təkmilləşdirilməsi funksiyasını həyata keçirməklə eyni zamanda işin təşkili prosesində istifadə edilən mətn materialları dilöyrənənlərdə müvafiq linqvistik bacarıqların təkmilləşdirilməsini təmin etməlidir.

Beləliklə, onlarda kommunikativ kompetensiyanın ayrılmaz tərkib hissəsi olan linqvistik kompetensiyanın inkişaf etdirilməsi təmin olunmalıdır.

Onu da vurğulamaq lazımdır ki, kommunikativ fəaliyyətlər zamanı sözlərin konektstual mənalarının kontekst vasitəsilə müəyyənləşdirilməsinə üstünlük verilməlidir.

Lakin leksik vahidlərin mənalarını kontekstdən başa düşməyə cəhd edən dilöyrənənlər uğursuzluğa məruz qalarsa, onlar yalnız əsas məna daşıyan sözlərin mənalarını tapmaq üçün lüğətdən istifadə etməlidirlər.

Olduqca vacib olan daha bir məsələ, dilöyrənənlərə alman dilində kommunikativ fəaliyyətlər üzərində işin təşkilinin nə vaxt həyata keçirilməsi məsələsidir.

Məlum olduğu kimi, xarici dil tədrisinə müasir yanaşmanın prinsipləri üzərində qurulmuş kommunikativ fəaliyyətlərdə şifahi nitqin öyrədilməsi prioritet bir məsələ kimi müəyyənləşdirilir.

Tədqiqatçı Y. Ş. Kərimov kommunikativ fəaliyyətlərdən istifadənin üzərinə diqqət çəkərək qeyd edir ki, mövzu ilə əlaqədar hər qrupa ayrıca tapşırığın verilməsi məşğələni daha canlı və maraqlı edir, daha ətraflı axtarış aparmağa şərait yaradır. Bu zaman istəyə uyğun olaraq müəllim hər qrupun fəaliyyətini proqram mövzusuna, dərsin materialına müvafiq istiqamətləndirir.

Müəllim hər qrupa eyni mövzu üzrə müxtəlif (4 cür) tapşırığın yazıldığı kartoçkalar paylayır. Hər bir qrupun üzvləri öz kartoçkalarındakı tapşırığın həll yolunu araşdırırlar. Müəllim qruplara yanaşaraq, müzakirənin necə getməsinə nəzarət edir, nöqsanlarına göz qoyur, çox çətinlik çəkənlərə kömək göstərir[1, s. 156].

[70] **ADU. baş müəllim. e-mail: gulkharhusseynova@mail.ru**

10.24412/2218-7588-2025-2-243-247

Metodist F. Kərimov isə interaktiv təlim prinsiplərinə əsaslanan kommunikatiyönümlü təlimin əsas fəaliyyət növləri olan şifahi nitq, oxu, yazı və dinləyib-anlama vərdişlərinin interaktiv, biri-biri ilə ilə əlaqələndirilmiş şəkildə dilöyrənənlərə aşılanmasını qeyd edir. Burada sözü gedən fəaliyyət növlərinin eyni zamanda, yəni xarici dil təliminin ilkin mərhələsindən həyata keçirilməsini vurğulayır[2, s. 2].

Alman dilinin tədrisində kommunikativ fəaliyyətlərin aktuallığından və səmərəliliyindən bəhs edərkən, burada vərdişlərin inkişaf etdirilməsi məsələsini unutmamalıyıq. Bu da dilöyrənənlərdə səslənməni adekvat şəkildə anlamaq qabiliyyətinin inkişaf etdirilməsinin diqqət mərkəzində olmasını və bacarıqların təhsilalanlara aşılanması prosesinin məhz bu istiqamətdə reallaşdırılmasını tələb edir.

Adı gedən fəaliyyətlər üzərində işin təşkili zamanı istifadə edilən tapşırıq və çalışmaların əhəmiyyəti və keyfiyyəti təlim prosesinin səmərəliliyinə təsir göstərən ən vacib amillərdəndir. Bəzən bu tapşırıq və çalışmalar asan ya da daha çətin olur ki, bu da dilöyrənənlərin motivasiyasını aşağı salır.

Kommunikativ fəaliyyətlər zamanı mətnlər üzərində işin təşkili prosesini planlaşdırarkən, yerinə yetiriləcək tapşırıq və çalışmaların növlərinə, onların ardıcıllığına xüsusi diqqət yetirilməlidir.

Qeyd edildiyi kimi, ali məktəblərdə təhsilalanlara alman dilində vərdişlərin tələb edilən səviyyədə aşılanması məqsədilə aparılan iş məqsədyönlü, sistemli, planlaşdırılmış şəkildə təşkil edilməlidir. Belə ki, təqdim edilmiş mətn və yaxud digər mətn materialları növündən asılı olmayaraq üç əsas mərhələdən ibarət olmalıdır:

a) kommunikativ fəaliyyətlərdən əvvəl həyata keçirilən fəaliyyət növləri,

b) proses ərzində yerinə yetirilən çalışma və tapşırıqlar,

1. işin təşkilindən sonra yerinə yetirilən tapşırıqlar.
2. Kommunikativ fəaliyyətlər üzərində işin təşkili zamanı normal şəraitin yaradılması vacibdir.
3. Buraya aşağıdakıları aid etmək olar:
4. Dilöyrənənlərin adlarının öyrənilməsi vacibdir;
5. Hər kəsin özünü aid olduğu qrupa təqdim etməsi məqsədəuyğun hesab edilir;
6. Qruplar adıgedən fəaliyyətlər üzərində iş aparmaqda say baxımından böyükdürsə, bu zaman altqruplar yaratmaq məsləhətlidir;
7. Açıq fikirli olmaq və dinləmələrə hörmətlə yanaşmaq lazımdır;
8. Bir-birlərinin fikir və ideyalarına münasibət bildirməyə həvəsləndirmək vacibdir;
9. Sakit mühitin təmin edilməsi müzakirələri məhsuldar edir;
10. Dilöyrənənlərə vaxtın ayrılması özündə zəngin məzmun ehtiva edən söhbətlərlə yekunlaşır;
11. Təhsilalanlara öz fikirlərini yazmağa şərait yaradılmalıdır. Bunu xüsusilə, qruplarda iştirakdan əvvəl, kiçik və cütlərlə həyata keçirmək lazımdır;
12. Danışıqdan əvvəl onların fikirlərini cəmləşdirərək mövzuya fokuslanmaları mühüm şərtdir;
13. Planlaşdırma zamanı əsas məsələlər haqqında dərs ərzində qərar vermək məsləhətdir;
14. Dilöyrənənlərin məşğul olmasını təmin etmək məqsədəuyğundur;
15. Ən azı üç mövzunu yetərli hesab etmək olar;
16. İşə başlamazdan əvvəl, kağızda qeydlər aparılmalıdır;
17. Uyğun sitatlar hazırlamaq lazımdır;
18. Məzmunda mütəmadi dəyişikliklər edilməlidir.
19. Kommunikativ fəaliyyətlər əsasında eyni zamanda aşağıdakılar diqqət mərkəzində olmalıdır:
20. debatlar,
21. təqdimatlar,
22. fərdi yazılar,
23. kiçik qrup müzakirələri və s.

Bütün bunlar uyğun şəkildə təşkil edilməlidir.

Kommunikativ fəaliyyətlərə cəlb etmənin iki yolu vardır:

1. Uyğun məsələlər üzərində işləmək;
2. Düzgün istiqamətləndirmə.

Suallar ünvanlayaraq, soruşmaq asan proses kimi görünə bilər. Lakin maraqlı, cəlbedici və motivasiyaedici suallar hazırlamaq kifayət qədər çətindir. Bunun üçün dərindən fikirləşmək lazımdır.

Bundan başqa, kommunikativ fəaliyyətlərin təşkili ilə bağlı strategiyalar mövcuddur.

Bunlar aşağıdakılardır:

1. Suallar;
2. Reflektiv yazı;
3. Kiçik qrup işi;

Suallar da seçim baxımından müxtəlif ola bilir:

istiqamətverici suallar

1. Sualları planlı şəkildə paylaşdırın;
2. Qapalı suallar hazırlayın;
3. Cavabları hər qrupdan seçərək, üç nəfərdən soruşun;

tələbələr tərəfindən seçilmiş suallar

1. Sinfə iki sual təqdim etməyi tapşırın. Onlar bunu "online" formada da həyata keçirə bilərlər;

2. Dilöyrənənləri istiqamətləndirin;
3. Qiymətləndirmə və geridönüş edin.

Təcrübə göstərir ki, dilöyrənənlərin ünsiyyət prosesinə artan ehtiyaclarının ödənilməsi məqsədi ilə dil və nitq materiallarının məqsədyönlü şəkildə birləşdirilərək əlaqələndirilməsi kommunikativ fəaliyyətlərin təşkilinin əsasında dayanır. Bu zaman uğurlu ünsiyyətə nail olma səviyyəsi maraq doğurur.

Kommunikativ fəaliyyətlərin reallaşdırılması zamanı danışıq bacarıqlarına verilən tələblərə nəzər yetirsək, orada alman dilinin öyrənilməsində şifahi nitqin əsas hissə olduğu diqqət çəkir.

Bu zaman aşağıdakılar aşılanır:

1. Dinləmək,
2. Sualları cavablandırmaq;
3. Lüğət ehtiyatı formalaşdırmaq;
4. Danışıqda fikir və hisslərini ifadə etməyi bacarmaq,
5. İzahlarla təmin etmək,
6. Təsvirlər vermək;
7. Anlamanı inkişaf etdirmək üçün suallar ünvanlamaq;
8. Dram, söhbət, rollu oyunlar, müzakirə və debatlarda iştirak etmək;
9. Rəsmi və qeyri-rəsmi nitqi dərk etmək;
10. Müxtəlif yanaşmaları başa düşmək, dinləmək;
11. Dilöyrənənlərin diqqətini cəlb etmək.

Xüsusilə, şifahi nitqin inkişafında sinif fəaliyyətlərinin rolu böyükdür.

Sözügedən məsələdə bu fəaliyyətlərin rolu danılmaz olaraq qalır. Bunun üçün intensiv və müntəzəm təcrübə tələb olunur.

Dinləmə, oxu, yazı kimi makrobacarıqlar və lüğət də daxil olmaqla fərqli şəkildə danışıq fəaliyyətləri həm çətin, həm də tələbələri danışığa sövq etmə, motivə etmə baxımından maraqlıdır. Buradatəhsilverənlər tərəfindən kreativliyə ehtiyac da yaranır.

Bundan əlavə, məqsədə çatmağa sosial şəbəkələrdəki həmkarlarından öyrənilən kommunikativ onlayn fəaliyyətlər və bəzi Power Point sənədləri də kömək edə bilir.

Auditoriyadakı bu danışıq fəaliyyətləri isə aşağıdakı qaydada reallaşdırılır:

1. fərdi tapşırıqlar,
2. cütlərlə iş,
3. qrup fəaliyyətləri

Bunlar rəngarəng və maraqlı, motivasiyaedici yollarla həyata keçirilir.

Beləliklə, dilöyrənənlər müəllim və yoldaşları ilə aşağıdakı vasitələrlə əlaqə saxlayırlar:

1. çatlar,
2. maillər,
3. ismarıclar.

Bunlar daha çevik və şəxsiyyətyönümlü öyrənməni reallaşdırır.

Buradan aydın olur ki, internet vasitəsilə kommunikativ fəaliyyətlərin reallaşdırılması dilöyrənənlərə öz istiqamətləri üzrə öyrənməni təmin edən ən möhtəşəm vasitələrdən hesab edilir. Onlar özləri hər şeyə nəzarət edir, sosial şəbəkələrdəki məlumatlarla maraqlanır, müzakirələrə qoşulurlar.

Burada öyrənməni idarəetmə sistemlərindən hər kəs öz məqsədlərinə uyğun spesifik olaraq, istənilən şeyi tapmağa qadir olur.

Tələbəyönümlü tədrisdə özünütəhsil, özünüdərk və şüurun inkişafı yüksək səviyyədə olduğu üçün dilöyrənənlər artıq dil biliklərinə əsaslanan fonetik, leksik və qrammatik çalışmalar sistemi ilə kifayətlənmirlər. Onlar digər insanlarla ünsiyyət qurmaq, ətraf aləm haqqında biliklərini dərinləşdirmək üçün xarici dildən istifadə edərək, müxtəlif mövzularda tanımadığı insanlarla ünsiyyət yaratmağa və onlarla qarşılıqlı anlaşmaya, əcnəbi xalqların mədəniyyətinə yaxınlaşmağa çalışırlar.

Məhz elə bu məsələlərdən irəli gələn şərtlər kommunikativ fəaliyyətlərin təşkili və aparılmasının vacibliyindən xəbər verir.

Alman dilində həyata keçirilən beynəlxalq layihələrə şifahi nitq və oxu motivasiyasının da daxil edilməsi faydalı olardı.

Bununla, layihə üçün nəzərdə tutulmuş mövzu tədris proqramında nəzərdə tutulmuş dil materialını tam şəkildə əhatə etməklə tədrislə uyğunlaşdırılmış olardı.

Layihələrdə irəli sürülən problemli məsələ, eləcə də, həmin layihələrin məzmunu elə formada qurulmalıdır ki, onların yerinə yetirilməsi prosesinə kompüter telekommunikasiyasının da cəlb edilməsi zərurəti təbii şəkildə formalaşdırılsın və mövcud olsun.

Başqa sözlə, bütün layihələr nə qədər maraqlı və praktik cəhətdən əhəmiyyətli nəzərə çarpsalar belə, telekommunikasiya layihələri ilə uyğunlaşa bilmirlər.

Layihələr pedaqoji və metodoloji cəhətdən yalnız o zaman faydalılığı ilə seçilə bilər ki, onların yerinə yetirilməsində qarşıya qoyulmuş problemin həlli üçün müxtəlif sahələrdən məlumat toplanmasını tələb edən çoxsaylı, sistematik, lakonik və ya uzun müddətli araşdırmalar nəzərdə tutulmuş olsun.

Qısa film yaratmaqda dilöyrənənlər ilk öncə, onu fakt və ya bədii təxəyyül üzərində quracaqları barədə düşünməlidirlər.

Müxtəlif səhnələr üçün ssenari yazılışı, rolların bülüşdürülməsi və onların məşqindən sonra təhsilalanlar yazılmış dramı ifa etməklə onu mobil telefonun yaddaşına köçürürlər. Bu kateqoriyadan olan layihələr dilöyrənənlərə dram, hərəkətli səhnələşdirmə kimi geniş aspektdə janr seçmək imkanı verdiyindən, bu onların dərin marağına səbəb ola bilər.

Dolğun məzmunlu və real dünyanın dil təcrübəsinin mənimsənilməsi ilə yanaşı, layihə-əsaslı tapşırıqların İKT- əsaslı dil təliminə inteqrasiyasından bəhs edilərək , metodoloji ədəbiyyatlarda iki elementə diqqət çəkilir:

1. Dilöyrənənlər məqsədə çatmaq üçün fəaliyyət göstərirlər;
2. Fəaliyyət onun nəticəsinə uyğun olaraq qiymətləndirilir.

İKT əsaslı layihələr həm auditoriya şəraitində, həm də auditoriyadankənar mühitdə yerinə yetirilən bir neçə mərhələni özündə ehtiva etməkdədir.

Bütün bu qeyd edilən mərhələlər ssenarilərin ilkin variantının hazırlanması, qiymətləndirmə, yoxlama və filmlərin məşq edilməsi də daxil olmaqla ayrı-ayrılıqda qiymətləndirilməlidir. Onları **v**ebsayta yükləməklə də qiymətləndirmək olar.

Bəzi İKT əsaslı fəaliyyətlərin məhsulları milli və beynəlxalq viktorinalara təqdim edilə bilər. Video layihənin köməkliyi ilə təhsilalanlar öz şəxsi portfoliolarında və ya albomlarında saxlaya biləcəkləri videoçarxlar yaratmaqla onlayn valideynlərinə, dostlarına göstərə bilərlər[6].

Bundan başqa, videolayihələri həyata keçirməklə dilöyrənənlər özlərinin alman dilində danışa bildiklərini tədricən hiss edəcəklər ki, bu da onlara dili davamlı və daha həvəslə öyrənmək üçün əlavə stimul verəcək.

Sözü gedən layihələr dilöyrənənlərdə uğur qazanmaq, özünəinam kimi müsbət hisslər aşılaya bilər.

Dilöyrənənlər İKT-nin imkanlarından istifadə edərək, müxtəlif layihələri həyata keçirmək üçün müxtəlif mövzulara müraciət edə bilərlər.

Başlanğıc üçün onlar televiziya vasitəsilə efirə gedən bir sıra proqramlardan, o cümlədən, tokşou, oyun şouları və xəbər bülletenlərindən ideyalar əldə edə bilərlər.

Öyrənmə prosesinə yenilikçi olaraq yanaşma İKT-yə də müasir yanaşmanı tələb edir.

Öyrənmə prosesi davamlı olduğundan, sözügedən İKT əsaslı öyrənmə də davamlı proses hesab oluna bilər.

İKT-əsaslı fəaliyyətin qiymətləndirilməsi həm dil, həm də tədris baxımından maraq doğurur.

Dərs prosesinin maraqlı təşkili bir çox hallarda alman dilini xarici dil kimi tədris edən müəllimlər üçün çətin məsələyə çevrilir. Bu zaman tələbələrin dərsə biganə qalması onların uğur qazanmasına ciddi mane olur.

Buradan belə bir nəticə hasil olur ki, dərsə real marağı olmayan tələbələr auditoriyada həyata keçirilən fəaliyyətlərdə iştirakda da az fəallıq göstərirlər.

İKT-nin alman dilinin tədrisi işi çərçivəsində bir çox müəllimlər tərəfindən vacib məsələ kimi səciyyələndirilən İKT vasitəsilə həmin dilin öyrənilməsi günün tələbidir.

C. Harmerin fikrincə, əməkdaşlıq etməyən və dərsə həvəssiz yanaşan dilöyrənənlər problem yaratmaqla tədris prosesindəki ahəngi və ardıcıllığı pozurlar.

Sinif müşahidələri və çalışmalar əsasında təşkil edilən ənənəvi təhsil motivasiya azlığına gətirib çıxarır[4, s.39].

Metodist Ə. Səfiyev kommunikativ fəaliyyətlərin həyata keçirilməsində iştirak edən dilöyrənənlərin sayı məsələsini ön plana çəkir.

O kommunikativyönümlülükdən bəhs edərək, yazır ki, xarici dilin ixtisas dili kimi tədrisi prosesində işin kommunikativyönümlü şəkildə təşkil edilməsi zamanı təhsilalanların sayı mütləq nəzərə alınmalıdır. Belə ki, müzakirələrin, rollu oyunların, debatların və digər fəaliyyət növlərinin həyata keçirilməsi tələbələrin sayına uyğun olaraq təşkil edilməlidir. Əgər belə olarsa qrupdakı bütün tələbələr sözügedən fəaliyyətlərdən maksimum faydalana bilərlər[3, s.123].

Beləliklə, alman dilinin ali məktəblərdə tədrisi zamanı mövcud bacarıq və vərdişlərin formalaşdırılmasında, inkişaf etdirilməsində kommunikativ fəaliyyətlərin rolu danılmaz olaraq qalır.

ƏDƏBİYYAT

Azərbaycan dilində

1. Kərimov Y. Ş. Təlim metodları. Bakı: "RS Poliqraf" MMC, 2009, 279 s.
2. Kərimov F. Şifahi nitqin inkişafı yolları. Bakı: BSU nəşriyyatı, 2002, 139s.
3. Səfiyev Ə. İngilis monoloji nitqinin kommunikativ tədrisinin əsasları. Bakı: "Elm" 2019, 176 s.

İngilis dilində

4. Harmer J. The Practice of English Language Teaching. 5th edition. Pearson Education Limited, 2015, 446 p.

Alman dilində

5. Anderson J. Kognitive Psychologie. Eine Einführung. Heidelberg : Francke, 1989, 118 s.
6. internet resursu
7. https://.wikipedia.org

Açar sözlər: dil, fəaliyyət, motivasiya, ünsiyyət, nitq

Key words: language, activity, motivation, communication, speech

Ключевые слова: язык, деятельность, мотивация, коммуникация, речь

The methodology of usage of the communicative activities in German language teaching at junior courses of high schools.

SUMMARY

In this article great attention was given to the importance of usage of the communicative activities in German language teaching.

There is stressed different communicative activity types in this research.

Also, is touched to the different important roles of these activities in teaching process at junior courses.

So, these mentioned activities increases the quality of teaching process, empowers collaboration and interaction.

Also, helps to increase motivational sphere of learners.

At that time, the activeness increases in these lessons, teaching process gets an interesting and colourful character.

Методика использования коммуникативной деятельности в обучении немецкому языку в младших курсах ВУЗа

РЕЗЮМЕ

В статье подчеркивается важность использования коммуникативной деятельности при обучении немецкому языку. Упоминаются названия разных видов коммуникативной деятельности. Рассматривается важная роль этих мероприятий в образовании.

Таким образом, упомянутые мероприятия повышают эффективность обучения, укрепляют сотрудничество, поддерживают непрерывность взаимодействия.

Кроме того, это приводит к повышению мотивации.

В этом случае повышается активность, обучение становится интересным и красочным.

Rəyçi: ped.f.d.,dos. Jalə Fuadqızı Mehrəliyeva

Cəfərova Nabat Beydullaqızı[71]

OXU DƏRSLƏRİNDƏ NAĞILLAR ÜZRƏ İŞİN TƏŞKİLİ TEXNOLOGİYASI

Nağıllar öz sehriylə hər kəsin qəlbinə fərəh gətirən, hisslərinə, duyğularına, könlünə hakim olan bir mənbədir. Belə bir ifadə vardır ki, nağıllarda xalqın tarixi əks olunur.Nağıllar xalqların hər birində müxtəlif cür dünyagörüşü formalaşdırır, onların həyat tərzi, bir-birinə qayğısı, zülmkarlara qarşı mübarizəsi, gələcəyə arzuları, inamı, əqidəsi və s. nağıllarda öz əksini tapır, bununla belə nağılların spesifikasında real həyatla uyğunlaşmayan, qəribə əşyalara, hadisələrə rast gəlinir[9, s. 106-135]. Nağılların quruluşu hekayələrin quruluşuna oxşardır. Hekayədəki məzmun, ideya nağıllarda da özünü göstərir.

Nağıllardan istifadə uşaqların dünyagörüşünü genişləndirir, təfəkkürünü inkişaf etdirir, yaddaşını gücləndirir. Nağılların oxusu şagirdlərin ruhuna yaxındır, çünki, nağıllardakı hadisələrin əyləncə və maraq dolu olması, dilinin anlaşıqlı, obrazların parlaqlıqı onları cəlb edir. Nağıllar sadə dillə nəql edilir, oradakı obrazların müxtəlifliyi, ifadələrin zənginliyi şagirdlərdə nitq bacarıqlarını formalaşdırır.

Nağılın başlanğıcı, sonluğu olur ki, bu da onu digər janrlardan fərqləndirir. Nağıllar dramatikliyi, hadisələrin, personajların canlılığı ilə seçilir. Nağıllardakı hadisələr şagirdlərin yaradıcı təxəyyülünü inkişaf etdirir, Şagirdlərə maraqlı, emosional, ifadəli bir dillə təqdim edilən nağıllar nitqin zənginliyini, təfəkkürün inkişafını təmin edir.

İbtidai siniflərdə kiçik yaşlıların təlim-tərbiyəsində nağıllardan- xalq yaradıcılığının dərin hikmətindən faydalanmaq olduqca vacibdir. Nağıllar əsrlərin sınağından çıxaraq dövrümüzə qədər gəlib çıxmış hikmət xəzinəsidir. Nağıllar vasitəsilə biz xalqın həyatı, məişəti, alətləri, inancları, oyunları, qəhrəmanlıqları, mübarizəsi, arzu və istəkləri ilə tanış olmaqla yanaşı, böyük tərbiyəvi örnək götürürük.

Şagirdlərin təfəkkür, təxəyyül, fantaziya və dünyagörüşünü, yaddaşını nağıllar əyləncəli şəkildə genişləndirir, əməksevərlik, düzlük, doğruçuluq, yoldaşlıq, dostluq, doğmalara məhəbbət, xeyirxah insanlara hörmət yaradır, leksik bazanı zənginləşdirir, nitq bacarıqlarını fəallaşdırır, eyni zamanda nitqin rabitəliliyini artırır, təxəyyülün, fantaziyanın genişlənməsinə yardımçi olur. Kiçikyaşlı uşaqların nitq inkişafında nağılların rolu böyükdür.

Məhz ona görə də ibtidai siniflərdə müəllim nağıllardan geniş istifadə etməlidir.

Nağıllar şagirdlərin inkişafına tənzimləyir, onları düşünməyə, həyat hadisələri ilə müqayisə aparmağa, fərqləri, oxşarlıqları üzə çıxarmağa kömək edir. Kiçikyaşlı uşaqların nitq inkişafına, nitq mədəniyyətinə yiyələnmələri hər kəsi düşündürməlidir. Böyüklərin uşaqlara həsr etdiyi nağıllar çox tərbiyəvi əhəmiyyət kəsb edir, uşaqlarda oxumağa motivasiya yaradır, estetik sövq formalaşdırır. Odur ki, şagirdlərin psixoloji təbiətinə, ruh halına, kiçicik aləminə nağıllar qədər güclü təsir göstərə biləcək təsirli qüvvə yenə də nağıllardır. Nağıllar uşaqların təfəkküründün inkişafına təsir göstərməklə, yaradıcı fantaziyanı inkişaf etdirir. Uşaqlar özlərini nağıl qəhrəmanına bənzədir, yaranan çətinliklərin aradan qaldırılması yollarını fikirləşir və öz planlarını söyləməklə yaradıcılıqlarını inkişaf etdirmiş olurlar. Eyni zamanda nağıllardakı seirlər maraqla oxunur, şagirdlərdə bədii, estetik zövq, obrazlı nitq inkişaf edir, onların nağıl kitablarını oxumaq arzusu güclənir.

İbtidai sinif şagirdlərinin oxusunda nağıllar xüsusi əhəmiyyət daşıyır. İbtidai siniflərdə şagirdlərə müxtəlif xarakterli nağıllar təqdim edilir ki, bura yazıçıların yazdığı nağıllar da daxildir. İbtidai sinif dərsliklərində bu janra daha çox yer ayrılmışdır.

Nağıllar, əsasən, təhkiyə kimi qurulur[3, s. 312-315].

Nağılların özünəməxsus quruluşu var: başlanğıc (biri vardı, …) və sonluq (göydən 3 alma düşdü …). Spesifik formalı janr olan nağıllar uşaqların həyatında, təlim-tərbiyəsində xüsusi əhəmiyyət daşıyır. I sinifdən başlayaraq şagirdlərin oxu vərdişlərinin inkişaf etdirilməsi baxımından nağılların rolu çox əhəmiyyətlidir. Nağılların uşaqların ruhuna yaxın olması, maraqlı olması və s. cəhətlər onun oxunması üçün stimul yaradır. Ən mühüm məsələ odur ki, nağılların oxusu zamanı şagirdlər həmçinin müsbət mənəvi-əxlaqi keyfiyyətlər qazanırlar.

İbtidai siniflərdə nağılların oxusundan sonra nağıl elementlərindən istifadə etməklə nağıl yaratmaq uşaqların ən çox sevdiyi tapşırıqlardan biridir. Ona görə ki, onlar öz kiçik qəlblərinin arzusunu belə "nağıllarda" asanlıqla ifadə edə bilirlər.

Nağıllar şagirdlərin şifahi nitqinin formalaşmasında çox müsbət rol oynayır ki, bunu başqa cür əvəz etmək olmaz. Nağıletmə, nağılları söyləmə şagirdlərin ən çox sevdiyi təlim növüdür. Müəllim nağılların söylənməsində şagirdlərə müstəqillik verməlidir. Çünki bizə nağılın "nöqtə, vergülünə qədər" olduğu kimi söylənməsi yox, bu şəraitdə şagirdin təfəkkür və nitqinin, üstəlik təxəyyül və fantaziyasının inkişafı önəmlidir. Belə yanaşmada şagirdlər daha çox iradi-əxlaqi keyfiyyətlər qazanır, təcrübi olaraq ədəbi dil normalarına yiyələnirlər[3, s. 314-320].

Nağıllar tədris və tərbiyə əhəmiyyəti daşımaqla, oxu bacarıqlarının, oxu vərdişlərinin yardılmasında da müstəsna pol oynayır. Elə düşünmək olmaz ki, bunlar elə nağılın oxunması ilə həll olunan məsələlərdir, əksinə nağılların oxusu çox diqqət tələb edir. Belə ki: nağıl şifahi nitqlə söylənir; nağıletmə üçün nəzərdə tutulmuşdur; spesifik dili vardır; imkan daxilində səhnələşdirmə aparılmalıdır; ifadəli oxu əsas şərtdir; nağıletmə və oxuda dinləyicinin ünsiyyəti mütləqdir; nağılın keyfiyyətli oxusu oxu vərdişlərinin açarıdır. Nağılların tədrisində aşağıdakılara əməl olunmalıdır:

- Nağılların tədrisində fəal təlim metodlarından istifadə edilməklə, hekayənin tədrisi kimi iş təşkil edilməlidir.
- Şagirdlərə çatdırılmalıdır ki, nağıllarda insanlar öz arzularını əks etdirirlər.
- Hadisələrin heyvan və quşların dilindən verilməsi, div, əjdaha kimi miflər nağılın maraqlı olması üçün verilir.

[71] 10.24412/2218-7588-2025-2-248-251

Nağılların zaman-zaman reallığa çevrilməsi, radio, televizor, təyyarələrin sehirli aləmdən günümüzə gəldiyi şagirdlərə izah edilməlidir[4, s. 105-113].

Ümumiyyətlə, nağıllarda qəhrəmanların xarakteristikasını müəyyənləşdirmək üçün açıq suallar verilməlidir. Belə suallar müxtəlif fərziyyələrin yaranmasına səbəb olur ku, bu da şagirdlərin fəallığını və müstəqilliyini təmin edir. II sinif dərsiliyində verilmiş nağılla bağlı aşağıdakı sualları vermək olar [8, s. 156-157]:

-Balaca Əhməd doğma kəndini düşməndən qorumaq üçün nə etdi?
-Kənd camaatının fikri nə idi?
-Padşah kəndə girə bilmək üçün nə fikirləşdi?
-Düşmənə güc göstərməklə, yoxsa, ağılla qalib gəlmək olar?
-Balaca Əhməd necə oğlandır?
Yaxud:
-Ögey ana göyçək Fatmaya nə üçün zülm edirdi?
Şagirdlərin fərziyyələri dinlənilir:
-Ögey anadır, Fatmanın xoşbəxtliyini istəmir.
- Paxıldır.
- Fatmanın pis günə düşməsini istəyir.
-Fatma gözəldir ona görə gözü götürmür.
-Öz qızı kifirdir, paxıllıqdan partlayır.

Şagirdlər nağılda mənfi və müsbət obrazları çox yaxşı dəyərləndirə bilirlər. Nağıllarda öyrədicilik, nəsihətvermə edlementləri çoxdur, bu da nağılların didaktik təsir gücünü göstərir. Nağıllar insan xarakterini, qarşılıqlı münasibətləri çox gözəl şəkildə açmağa müvəffəq olur. Nağıllar nağıl etmək üçün yaranmışdır. Bu, onların xarakter cəhətidir.

Nağılların məzmunu, dili mətnə yaxın şəkildə nağıletməni təmin edir. Müəllim və ya yoldaşlarının oxusunda nağılın fonoxrestomatiyası güclü təsirə malik olur. Şəkillər üzrə nağılın danışılması, səhnələşdirmə, rollu oyun, nağıla aid şəkil çəkmə və s. şagirdlərin yaradıcılıq qabiliyyətini və nitq bacarıqlarının inkişafını təmin edir.

Nağılın ardıcıllığını gözləmək üçün ibtidai siniflərdə planın tərtibi faydalıdır. Qrup işlərində şagirdlərə nağıla aid şəkillərin çəkilməsini də tapşırmaq olar. Nağıl üzrə işin səmərəli təşkili üçün personajların (simurq quşu, əjdaha, uçan xalça ...) təsviri, çizgi filmlərinin nümayişi və s. istifadə edilir. Nağıllar şagirdin danışığı-nitqi üçün əvəzsiz rol oynayır. İfadəli oxu nağılın məzmununu canlı çatırmaqda mühüm əhəmiyyət kısb edir.

Nağıllar şagirdin oxusunu mükəmməlləşdirir. Səs tonundan, vürğudan, fasilədən istifadənin oxuya təsirini anlayan şagird nağılın oxusunda daha diqqətli olur. Müxtəlif hadisələrdən bəhs edən nağılların oxusu şagirddən daha dinamik və çevik fəaliyyət göstərməyi tələb edir. Sözlərin avazlı səslənməsi, vurğunun müxtəlif növlərinin istifadəsi, səs tonunun idarə edilməsi intonasiyanı dəyişir, sehirli nağılların oxusunu səciyyələndirir.

Nağıllar tədris edilərkən şagirdlərin reaksiyası, gözlərinin, sifət mimikasının dəyişməsi, səsin çalarlarına həssaslığın artması və s. nəzərə alınmalıdır. Nağılların tədrisinə həsr edilmiş oxu dərslərində fəal təlim üsullarından istifadə edilməsi effektlidir.

Fəal təlimlə qurulmuş dərsdə aşağıdakı mərhələlər vardır: Motivasiya, problemin qoyuluşu (Tədqiqat sualı); Tədqiqatın aparılması; İnformasiya mübadiləsi; İnformasiyanın müzakirəsi; Ümumiləşdirmə və nəticə çıxarma; Yaradıcı tətbiqetmə və ya ev tapşırığı; Qiymətləndirmə və ya refleksiya

İndi fəal (interaktiv) təlimlə bir nağılın öyrənilməsinə nəzər salaq:

Mövzu: Yalançı çoban (1-ci saat)[8, s. 174-175].

Gözlənilən təlim nəticəsi			**Məzmun standartı**
1.Nağıletmədə uyğun jestlərdən, mimikadan istifadə edir. 2. Nağılı düzgün tələffüzlə oxuyur. 3. Nağılın məzmununu nağıl edir.			1.2.3; 2.2.1; 2.2.4
İş forması	**Üsullar**	**Resurslar**	**İnteqrasiya**
böyük qruplarla iş	beyin həmləsi, müzakirə, suallar	Şəkillər, iş vərəqləri, flamaster, marker, qələm, pozan və s.	H-b.:3.2.1

Dərsin gedişi

Motivasiya, problemin qoyuluşu. Yalançılığın axırı necə ola bilər? (müxtəlif fərziyyələr dinlənilir).

Dərslik üzərində iş: Mətnin oxusu üzərində işin təşkili [8, 174-175].

I: Bir kənddə çoban yaşayırdı. Çoban səhərlər camaatın qoyun-quzusunu otarmağa aparar, gününü otlaqda keçirərdi.

M: - Çobanın işi nədir? O nə ilə məşğul olur?

II: Bir gün yenə çoban sürünü otlağa apardı. O, çox darıxırdı. Ətrafda danışmağa kimsə yox idi, qoyunlar sakitcə otlayırdılar. Çoban fikirləşdi, neyləsin ki, darıxmasın? Belə qərar verdi ki, kəndlilərlə zarafata "girişsin". Çoban təpəyə çıxdı, uca səslə camaatı çağırdı: Mənə kömək edin, canavar sürüyə hücum edib!

M:-Çobanın qərarı nə oldu? O, kənd camaatını niyə aldatdı?

III: Kəndlilərdən kimisi yaba, kimisi balta alıb çoban olan təpəyə tərəf yollandı. Onlar təpəyə çatanda çoban əlində çomaq oynaya-oynaya "sizi aldatdım" deyir.

M: - Kənd camaatı nə etdi? Çoban necə hərəkət etdi?

IV: Kəndlilər narazı halda başlarını tərpədib geri döndülər. Beləcə, bir neçə vaxt keçəndən sonra axşamüstü çoban təpədən qışqırmağa başladı:

-Köməyə yetişin! Qoyuna canavar daraşıb!
V: Kəndlilərdən hərə bir alət alıb təpəyə qalxdı. Bu dəfə çoban onları gülər üzlə qaşılayıb, inandıqlarına görə onlara lağ etdi.
M:- Hadisə nə zaman baş verdi? Həmin gün çoban hansı hərəkəti etdi?
VI: Aradan xeyli keçdi. Bir gün qoyunlar sakitcə otlayan zaman meşədən çıxan üç canavar sürüyə soxuldu. Qoyunları parçalayan canavarlarla bacarmayan coban var gücü ilə qışqırmağa başladı: Ehey, köməyə gəlin! Canavarlar qoyunlara daraşıb! Suru qırıldı!!!
M: - Yenə çoban nə etdi? Bu da zarafat idi?
VII: Öz təsərrüfatlarında iş görən adamlar başlarını səs gələn tərəfə çevirdilər, lakin laqeyd halda dönüb yenə öz işləri ilə məşğul oldular. Çobanın yenə də zarafat etdiyini düşündülər.Çoban adamlarda inamsızlıq yaratmışdı. Odur ki, heç kəs köməyə getmədi.
Beləcə, sürüyə daraşan canavarlar xeyli ziyan vurdu.
M: - Camaat niyə köməyə gəlmədi? Səbəb nə idi? Onlar çobana inanmadılar, niyə?
Yalançılığın axırı necə oldu?
Nəticə: Yalançının evi yandı, heç kim ona inanmadı.
Ev tapşırığı: Mətndən cəmlik bildirən sözləri seçib yazın.
Qiymətləndirmə: oxunun düzgünlüyünə və müzakirədə iştiraka görə aparıldı.

Həmin nağılın tədrisinə dair ikinci dərsə nəzər yetirək:

Mövzu:Yalançı çoban (2-ci saat)

Gözlənilən təlim nəticələri			**Məzmun standartı**
1.Nağılın məzmununu real həyatla əlaqəli danışır. 2. Nağılda rast gəldiyi yeni sözlərin mənasını izah edir. 3. Mətni nağıl edir.			1.2.1; 2.1.1; 2.2.4.
İş forması	**Üsullar**	**Resurslar**	**İnteqrasiya**
Kiçik qruplar	beyin həmləsi, şaxələndirmə, debat	şəkillər, işçi vərəqlər, rəngli flamasterlər, qara marker, qələm, yapışqan, qayçı.	H-b.: 3.2.1

Dərsin gedişi
Motivasiya, problemin qoyuluşu. … söz üz qızardar. Buraxılmış sözün tapılması və suallarla dərsə başlanılır.
Yalanın üstü açılanda hansı hisslər keçirərsiniz?
Tədqiqat sualı: Yalançı olmaq, yalan danışmaq nə üçün pisdir?
Tədqiqatın aparılması: Qruplar yaradılır, hər qrupa iş vərəqi təqdim edilir.
Qrup 1
1.Nağılın məzmununu danışın.
2. Nağılın məzmununa uyğun atalar sözünü seçin.
Yalan ayaq tutar, yeriməz.
Yalançını evinə qədər qovarlar.
Yalançının evi yandı, heç kəs ona inanmadı.
Qrup 2
1.Çoban niyə yalan danışırdı?
2.Nəticədə nə baş verdi?
Qrup 3
1.Yalançılığın nəticəsi nələrə səbəb olar?
2. Yalançılıq necə yaranır? Nə vaxtsa, yalan danışmısınız? Yalan danışdığınızı başa düşüblər?
Qrup 4
1. Nağılı öz sözlərinizlə (cümlələrinizlə) danışın.
2. Niyə insanların bəziləri yalan danıışmağı xoşlayırlar? Yalan danışmaq və ya bir hadisəni şişirdib danışmaq bir-birinə oxşayırmı?
İnformasiya mübadiləsi və müzakirəsi. Hər qrup öz işini təqdim edir. Onlar bir-birinə nöqsanlarını söyləyir, düzəliş edirlər.
Nəticələrin çıxarılması: Həqiqət acı olsa da, şirin yalandan yaxşıdır.
Tətbiqetmə: Dərslik, tapşırıq: 3-4 [8, s.174-175].
Qiymətləndirmə: Təqdimata əsasən aparılır.

Nağıllar uşaqların təfəkkürünün inkişafina təsir göstərir, fantaziyalarını inkişaf etdirir. Uşaqlar özlərini nağıl qəhrəmanına bənzədir, yaranan çətinliklərin aradan qaldırılması yollarını fikirləşir və öz planlarını söyləməklə yaradıcılıqlarını inkişaf etdirmiş olurlar.

İstifadə edilmş ədəbiyyat

1. Abdullayev A.S. İbtidai məktəbdə Azərbaycan dilinin tədrisinin metodikası. Bakı: Maarif, 1962, 165 s.
2. Azərbaycan nağılları: 5 cilddə. V cild./Xalq variantı əsasında çapa hazırlayanlar: A.Nəbiyev, O.Hüseynli. Bakı: Turan evi, 2006, 272 s.
3. Cəfərova N. İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası. I hissə. Bakı: ADPU, 2020, 404 s.
4. Cəfərova N. Oxu təliminin metodikası.Bakı-2023, ADPU-nəş. 308 s.
5. Çəmənzəminli Y.V. Əsərləri: 3 cilddə. III c. Bakı: Avrasiya Press, 2005, 439 s.
6. Əfəndiyeva T. Azərbaycan dilinin leksik üslubiyyatı. Bakı: Elm, 1980, 251 s.
7. Həsənli B, Abdullazadə N. İfadəli oxu. Bakı: Müəllim, 2015, 304 s.
8. İsmayılov R., Orucova G., Cəfərova D., Xəlilov Z. Azərbaycan dili (3-ci sinif üçün dərslik). Bakı: Altun Kitab, 2010, 207 s.
9. Nəbiyev A.M. Azərbaycan xalq ədəbiyyatı. II hissə. Bakı: Elm, 2006, 648 s.
10. Nəbiyev A.M. Sehrdən yaranan qüdrət// Azərbaycan nağılları: 5 cilddə. II cild. Bakı: Turan, 2001, 320 s.
11. Tağıyev B. Oxu təlimi. Bakı: ADPU, 2006, 315 s.
12. http://www.dissercat.com/content/rol-epiteta-v-razvitii-obraznoi-rechi-mladshikh-shkolnikov-na-materiale-vtorogo-klassa
13. http://psixologiya.net/referat_diplom/228-kurs-i351i.html

Организационная технология работы над сказками на уроках чтения

Резюме

Сказки регулируют развитие учащихся, помогают им мыслить, проводить сравнения с жизненными событиями, выявлять различия и сходства. Развитие речи и приобретение речевой культуры у детей раннего возраста должно заставить каждого задуматься. Сказки, посвящённые детям взрослыми, имеют большое воспитательное значение, мотивируя детей к чтению и формируя эстетическое влечение. Поэтому сказки попрежнему являются действенной силой, способной оказывать столь же сильное воздействие на психологическую природу, настроение и маленький мир учащихся, как и сказки. Сказки влияют на развитие мышления детей и развивают творческое воображение. Дети сравнивают себя с героями сказок, придумывают способы преодоления трудностей и развивают творческие способности, рассказывая собственные планы. При этом стихотворения в сказках читаются с интересом, у учащихся развивается художественно-эстетический вкус, образная речь, усиливается желание читать сказки. Особое значение в чтении учащихся начальной школы имеют сказки. В начальных классах учащимся знакомят с разнообразными сказками, в том числе и написанными писателями. Этому жанру отведено больше места в учебниках начальной школы.

Ключевые слова: уроки чтения, сказки, технология обучения, развитие, мышление

Organizational technology of working on fairy tales in reading lessons

Summary

Fairy tales regulate the development of students, help them think, make comparisons with life events, identify differences and similarities. The development of speech and the acquisition of speech culture in young children should make everyone think. Fairy tales dedicated to children by adults have great educational value, motivating children to read and forming an aesthetic attraction. Therefore, fairy tales are still an effective force capable of exerting the same strong influence on the psychological nature, mood and small world of students, as fairy tales. Fairy tales influence the development of children's thinking and develop creative imagination. Children compare themselves with fairy tale characters, come up with ways to overcome difficulties and develop creative abilities by telling their own plans. At the same time, poems in fairy tales are read with interest, students develop artistic and aesthetic taste, figurative speech, and the desire to read fairy tales increases. Fairy tales are of particular importance in reading for primary school students. In elementary grades, students are introduced to a variety of fairy tales, including those written by writers. This genre is given more space in primary school textbooks.

Key words: reading lessons, fairy tales, teaching technology, development

RƏYÇİ: dos. S.Abbasova

Bəhri Nailə Bədəl[72]

ÜNSİYYƏTİN AÇAR SÖZLƏRİ: DİL, NİTQ VƏ TƏFƏKKÜR

Qloballaşan dünyada cəmiyyətin digər sahələrində olduğu kimi, mədəniyyət və dil, xüsusən də, kommunikasiya platformalarında innovativ istiqamətlər daha çox diqqəti cəlb edir. Məlumdur ki, ictimai vəzifə daşıyan dil öz inkişafını fərdi funksional-səciyyəyə malik nitq prosesində tapır. Odur ki, dil və nitq anlayışlarının müqayisəli səciyyələndirilməsi qarşıya qoyduğumuz məqsədə çatmaq üçün əlverişli metod hesab edilə bilər. Çünki ictimai hadisə olan dil öz inkişafını nitq vasitəsilə təzahür etdirir. Dilin linqvistik sahələri müasir dinamik vəziyyətini sosial sferalar əsasında inikas etdirir.

"Cəmiyyətin müxtəlif aspektlərində təzahür edən orijinal inkişaf istiqamətləri kommunikativ müstəviyə də nüfuz etməkdədir. Gerçək fəaliyyət olan ünsiyyət insan amili ilə bağlıdır və onun əsas göstəricisi, mühüm vasitəsi nitqdir. İnsan fenomeni olan kommunikasiya (ünsiyyət) mahiyyətini iki anlayış üzərindən ifadə edir: dil və nitq."[5,s.98] Bu iki anlayış aşağıdakı ümumi və fərqli xüsusiyyətlərə malikdir.

1. Ümumi cəhətlər:
2. Həm dil, həm nitq – hər ikisi ictimai-sosial xarakter daşıyır;
3. Hər ikisi kommunikativ vəzifəyə malikdir. Yəni dil də, nitq də insanlar arasında ünsiyyətə xidmət edir;
4. Ədəbi dilin normaları hər ikisi üçün ən vacib şərtlərdəndir.
5. Hər ikisi təfəkkürlə əlaqədardır.
6. Dil və nitq müxtəlif ictimai hadisələr deyil, bir ictimai hadisənin müxtəlif tərəfləridir. Bu tərəflərin hər ikisi üçün əsas vahid linqvistik ünsürlərdir.
7. Ənənəvi dilçilikdə bu terminlərin bəzən düzgün olmayaraq sinonim kimi işlənməsinə rast gəlmək olur. Bu səbəbdən həmin anlayışların öyrənilməsində ciddi anlaşılmazlıqlar yaranır. Bunlar müstəqil termin kimi ayrı-ayrı linqvistik aspektlərin ifadəsini yerinə yetirir. Bu anlaşılmazlığın aradan qaldırılması üçün dil və nitq terminlərinə aid xüsusiyyətləri dəqiqləşdirmək və onların sərhədlərini müəyyən etmək zəruri probelmlərdəndir.

B)Fərqli cəhətlər:

1. Dil həcmi və kəmiyyəti etibarilə nitqdən genişdir;
2. Dil təhlil, nitq qavrama və anlama yolu ilə dərk edili;
3. Nitqi dildən fərqləndirən başlıca əlamətlərdən biri odur ki, nitq şəxslər arasında baş verir. Şəxssiz nitq mümkün deyildir;
4. Dil öz varlığını nitqdə, nitq aktında tapsa da, lakin müəyyən nitq və nitq aktı dili bütövlükdə əks etdirə bilmir;
5. Nitq fərdi xarakter daşıyır, dil isə ictimai hadisə olduğu üçün ümumi səciyyəyə malikdir;
6. Dil ünsiyyət vasitəsi, nitq ünsiyyət prosesidir;
7. Dil əsas, nitq isə ondan törəmədir;
8. Dil tarixən çox az dəyişikliyə uğrayır, nitq isə ona nisbətən dəyişkəndir;
9. Nitq prosesində əşyalar, hal-hərəkət, vəziyyət, şərait, zaman və s. konkret şəkildə adlandırılır.

Hər iki kateqoriya ilə bağlı ortaq və səciyyəvi cəhətləri əyaniləşdirəsi olsaq, aşağıdakı simvolik qrafik alına bilər:

"Dil öz xarakterinə görə və təbiəti baxımından işarələrdən ibarətdir. bu işarələrin – sözlərin əsasını zəngin və rəngarəng mənalar təşkil edir. Dil işarələri zəncirvari, möhkəm vəhdət yaradaraq mürəkkəb sistemlərdən ibarətdir. Dil kollektivin məhsuludur. Onun rolu varlıqdakı əşyaları, mücərrəd anlayışları və s. əks etdirməkdən ibarətdir. Bu əksetdirmə nə qədər zəngin olsa, dil üçün bir o qədər xarakterik müsbət cəhətdir" [1, s. 48]

Hər bir milli dil onun sahibi olan cəmiyyətin şüurunda lüğət kimi mövcuddur. Dil daşıyıcısının istənilən nümayəndəsi lüğətdəki sözləri eyni dərəcədə dərk edir və yaddaşında qoruyub saxlayır. Lakin bu sözlərdən nitq prosesində hər kəs öz bacarığına müvafiq istifadə edir. Bu proses isə nitq hesab edilir.

Belə fərqli xüsusiyyətlərinə baxmayaraq dil və nitq eyni ictimai hadisənin ayrı-ayrı vahidləridir. Nitq prosesi olmasa dil, dil olmasa nitq prosesi təzahür edə bilməz. Bu, təbii bir hadisədir. Çünki dil öz təzahürünü nitqdə tapır, nitq isə dili inkişaf etdirib formalaşdırır (Həsənzadə N., Pənahova G., Abbasov G. Azərbaycan dili və nitq mədəniyyəti.[2, s. 37]

Ünsiyyət prosesinin səmərəli və uğurlu olması işində dil və nitq anlayışlarının dərki mühüm şərtdir. Bu terminlər əslində kommunikasiyanın "açar sözləri"dir. Nitq anlayışını funksional kommunikasiya aspektindən tam mənimsəmək üçün onu "rəvan nitq", "aydın nitq", "axıcı nitq", "bayağı nitq", "yazılı nitq", "şifahi nitq", "poetik nitq", "obrazlı nitq", "nitq mədəniyyəti" və s. anlayışları kontekstindən öyrənmək daha məqsədəuyğun sayılır.

"Ünsiyyət kommunikasiyadan daha geniş anlayışdır. Bura məişət ünsiyyəti və s. də daxildir. Kommunikasiya nitq fəaliyyətinin informativ və kommunikativ yükünü daşıyırsa, nitq ünsiyyəti insanlar arasında dil vasitəsilə yaranan münasibəti qoruyub saxlamaq üçündür. Lakin bəzən "ünsiyyət" termini "kommunikasiya" termini ilə eyniləşdirilir. "İnformatika terminlərinin izahlı lüğəti"ndə ünsiyyət sözü belə xarakterizə edilir: Ünsiyyət – informatikada hər iki iştirakçı üçün aydın olan informasiyanın iştirakçılardan bir-birinə qarşılıqlı ötürülməsi prosesi" (Ağayeva A. Azərbaycan dilində işgüzar və akademik kommunikasiya".[3, s. 38]

Ünsiyyətin təzahür və ifadə formalarının – dil və nitqin "istehsal bazası" təfəkkürdür. XX əsrin 40-cı illərindən etibarən dil, nitq və təfəkkür problemləri dilçiliyin tədqiqat hədəfinə çevirmişdir. XX əsrin 50-60-cı illərində isə bu

[72] 10.24412/2218-7588-2025-2-252-254

araşdırma daha intensiv xarakter almağa başladı. Müasir dilçilikdə digər aktual problemlərlə yanaşı, "dil və təfəkkür" məsələləri də orijinal istiqamətdə tədqiq edilməkdə davam edir.

Dilçilikdə bu problem "dil və təfəkkür" kontekstindən daha geniş müstəvidə - "dil və düşüncə" aspektində araşdırılır. "Dil və düşüncə" müxtəlif kateqoriyaların mürəkkəb kompleksindən ibarətdir. "Dil və düşüncə" problemini daha təfsilatı şəkildə öyrənmək üçün dilin, düşüncənin və onun komponenti hesab edilən təfəkkürün mahiyyətini müəyyən etmək vacib şərtlərdəndir.

Dillə təfəkkür daim dialektik vəhdətdədir. odur ki, dilsiz təfəkkür olmadığı kimi, təfəkkürsüz də dil mövcud deyil. Lakin bu iki anlayışın arasında bərabərlik (=) işarəsi qoyaraq onları eyniləşdirmək mümkün deyil. Təfəkkürün (düşüncənin) quruluşu bütün dünya insanları üçün eyni olsa da, hər bir dilin (nitqin) quruluşu milli səciyyə daşıyır. Təfəkkür isə ümumbəşəri xarakterə malikdir. Hər hansı bir məfhum, anlayış bir neçə xalq üçün eyni cür anlaşıla bilər (ata, ana, bacı, yemək, içmək), lakin həmin məfhumlar hər xalqın özünəməxsus leksik vahidi ilə (sözlə) ifadə edilir. "İnsan düşünərkən də sözlərsiz və cümlələrsiz düşünə bilməz. Bu baxımdan nitq (dil) təfəkkürün təzahür forması sayılır. Problemə məhz bu baxımdan yanaşdıqda daxili nitqin (insanın fikirləşmə dilinin) də təməlində təfəkkürün dayandığı qənaətinə gəlirik" [4, s. 77]

Ədəbiyyat

1. Qurbanov A. Ümumi dilçilik, II cild, Elm, Bakı – 2011, - 582 s.
2. Həsənzadə N., Pənahova G., Abbasov Ə. Azərbaycan dili və nitq mədəniyyəti. Ecoprin. Bakı, 2016, 256 s.
3.Ağayeva A. Azərbaycan dilində işgüzar və akademik kommunikasiya. Müəllim, - Bakı, - 2023, - 362 s.
4. Həsənzadə N., Abbasov Ə., Zeynalova A. Azərbaycan dilində işgüzar və akademik kommunikasiya. MAA-nın mətbəəsi, - Bakı, - 2024, - 308 s.
5. Məmmədli N. Azərbaycan dilində işgüzar və akademik kommunikasiya. Elm və təhsil, - 2021, 512 s.
6.Xəlilov B. Azərbaycan dilində işgüzar və akademik kommunikasiya. Adiloğlu, Bakı, - 2021, 472 s.

Ключевые слова коммуникации: язык, речь и мышление

Резюме

В современном мире, как и в других сферах жизни общества, растет интерес к исследованиям культуры и языка, особенно в аспекте коммуникации. Язык, несущий социальную функцию, находит свое развитие в речевом процессе, имеющем индивидуально-функциональный характер. Поэтому сравнительную характеристику понятий языка и речи можно считать подходящим методом для достижения поставленной цели.

Первоначальные аспекты, проявляющиеся в различных аспектах жизни общества, проникают и на коммуникативный уровень. Основным показателем и выражением коммуникации, связанной с человеческими явлениями, является речь. Суть общения, представляющего собой реальную деятельность, выражается посредством двух понятий. «Речь есть форма проявления языка. Поэтому мы не должны говорить обо всем, что касается слова речь, а только о вопросах, связанных с речью, которая является творцом общения в этом понятии. Речь проявляется только в конкретизации организации общения. Это называется речевым процессом.

Существует три основных элемента речевого процесса: а) говорить;

б) слышать; в) понимать.

Существует также общее представление о языке как о средстве, состоящем из системы знаков, которые служат человеческому общению, мышлению и самовыражению. Это продукт языкового коллектива. Его роль — представлять существующие объекты, абстрактные концепции и т. д. Он заключается в отражении.

Обработка коммуникации происходит в мышлении. Мысль и язык (речь) находятся в диалектическом единстве. Как нет мысли без языка, так нет и языка без мысли. Хотя структура мышления универсальна, структура каждого языка имеет национальный характер.

Ключевые слова: Коммуникационная платформа, образная речь, коммуникативный уровень, язык и мышление, язык и речь, диалектическое единство, языковые знаки, социальная сфера

Keywords of communication: language, speech and thinking

SUMMARY

In the modern world, as in other areas of society, interest in research on culture and language, especially in the aspect of communication, has increased. Language, which carries a public function, finds its development in the process of speech with an individual functional character. Therefore, the comparative characterization of the concepts of language and speech can be considered a convenient method for achieving the set goal.

The original aspects that manifest themselves in various directions of society also penetrate the communicative level. The main indicator and expression of communication related to the human phenomenon is speech.

The essence of communication, which is a real activity, is expressed through two concepts. "Speech is a form of manifestation of language. Therefore, not everything related to the word speech should be discussed, but only issues related to speech, which is the creator of communication in this concept. Speech manifests itself only in the concretization of the organization of communication. This is called the speech process.

There are three main elements of the speech process:

a) speaking;

b) hearing;
c) understanding.

A general idea is also put forward about language that language is a means of human communication, consisting of a system of signs that serve as a means of thinking and its expression. Language is a product of the collective. Its role is to reflect objects in existence, abstract concepts, etc.

Communication is processed in thinking (thought). Thinking and language (speech) are in dialectical unity. Just as there is no thinking without language, there is no language without thinking. Although the structure of thinking has a universal character, the structure of each language has a national character.

Keywords: Communication platform, figurative speech, communicative level, language and thinking, language and speech, dialectical unity, language signs, social sphere.

RƏYÇİ:dos. N.Əfəndiyeva

Sərdar Zeynalov[73]

"MÜRƏKKƏB CÜMLƏ" İ. HƏSƏNOV VƏ A.ŞƏRİFOVUN "QRAMER" VƏ Z.TAĞIZADƏNİN "MÜASİR AZƏRBAYCAN DİLİ" KİTABLARINDA

Azərbaycan dilinin qrammatikasının digər bölmələrinə nisbətən ən az tədqiq olunan sahəsi "Sintaksis" bölməsidir. Sintaksislə bağlı elə məsələlər vardır ki, həmin məsələlərin hərtərəfli tədqiqinə bu gün də ehtiyac duyulur. Belə demək mümkünsə, ümumiyyətlə, dünya dilçiliyində bu bölmənin tədqiqi və bu sahə ilə bağlı yazılan elmi əsərlər digər bölmələrlə bağlı yazılan elmi əsərlərlə müqayisədə kasıb görünür.

Sosial şəbəkədə bu bölmə ilə bağlı oxuyuruq: "Dilçilik tarixində sintaksisə aid ilk məlumatlara Qədim Hind dilçiliyində rast gəlmək olar. Hind qrammatikalarında sintaksisə müəyyən yer verilmişdir... Antik dilçiliyin ikinci qolunu təşkil edən İskəndəriyyə qrammatikası məktəbinin nümayəndələri sintaksis məsələləri ilə məşğul olmuşlar. Frakiyalı Dionisin cümləyə verdiyi tərif 2000 ildən artıqdır ki, kiçik dəyişikliklərlə normativ qrammatikalarda yaşamaqdadır" (wikimedia.az-az.nina.az).

Dilçiliyin bu sahəsinə XVII-XVIII əsrlərdə diqqət yetirilsə də, bütün məsələlər ətraflı öyrənilməmiş və bu gün də həmin məsələlərə yenidən diqqət yetirmək məsələsi qarşıda durur. Vikipediyada (https://az.vikipediya.org) oxuyuruq: "Dilçilik elmində sintaksis məsələlərinə ilk dəfə XVII-XVIII əsrlərdə Fransada formalaşmış Por-Royal qrammatika məktəbi nümayəndələri toxunmuşlar".

18 iyun 2024-cü ildə həmin saytda verilən digər bir məlumatda "1871-1888-ci illərdə Gənc qrammatiklər məktəbinin nümayəndəsi Bertold Delbryuk və F.Vindşin birlikdə yazdığı beşcildlik "Sintaktik tədqiqatlar" əsərindən söhbət açılır. Azərbaycan dilçiliyində isə qrammatikanın bu bölməsi ilk dəfə hələ XX əsrin birinci yarısında nəşr olunan "Qramer" və Z.X.Tağızadənin müəllifliyi ilə nəşr edilən "Müasir Azərbaycan dilinin sintaksisi" adlı tələbələr üçün tədris vəsaitində öz əksini tapmışdır.

Azərbaycan dilinin "Sintaksis" bölməsinə aid yazılan ilk dərslik kimi ADU-nun Elmi Şurasının qərarı ilə 1959-cu ildə nəşr olunan "Müasir Azərbaycan dili" (sintaksis) dərsliyi bu bölməyə aid yazılıb nəşr olunan ilk dərslik kimi çox qiymətlidir. Dərslikdə öz əksini tapan bölmələr "Ümumi dilçilik" kafedrasının üzvləri tərəfindən çapa hazırlanmışdır (Orada, səh.5).

Dərsliyin elmi redaktoru M.Ş.Şirəliyev tərəfindən kitaba "Bir neçə söz" adı altında yazılan ön sözdə dərsliyin Azərbaycan dilinin sintaksisinə aid yazılan ilk dərslik olduğu qeyd edilir və bu məsələ ilə bağlı yazılır: "Bir neçə ildir ki, S.M.Kirov adına ADU-nun (indiki BDU-nun) "Ümumi dilçilik" kafedrasının üzvlərini Azərbaycan dilçiliyinin üzvlərini Azərbaycan dilçiliyinin müxtəlif sahələrinə aid dərslik yaratmaq fikri düşündürür... Bu məqsədlə də ümumi dilçilik kafedrasının üzvləri Azərbaycan dilinin sintaksisinə (I hissə) aid materialları çapa hazırlamışlar" (Yenə orada, səh.5).

Əsərin "Təyini söz birləşmələri" bölməsinin M.Hüseynzadə, "Sadə cümlədə sözlərin sırası" bölməsinin S.Cəfərov , "Cümlənin baş üzvləri", "Mübtəda", "Xəbər" bölmələrinin İ.Hacıyev, "Təyin", "Cümlənin xüsusiləşmiş üzvləri", "Əlavələr" bölmələrinin Ə.Z.Abdullayev, "Cümlənin ikinci dərəcəli üzvləri", "Tamamlıq", "Zərflik", "Cümlənin həmcins üzvləri" bölməsinin A.Q.Həsənov, "Sintaktik əlaqələr", "Qrammatik cəhətdən cümlə üzvləri ilə əlaqədar olmayan sözlər", "Xitab", "Ara sözlər" və "Ara cümlələr" bölmələrinin Y.Seyidov tərəfindən yazıldığı qeyd olunur.

Dərslik altı müəllifin yaradıcılığının məhsulu olsa da, bu dərslikdə sintaksisin geniş bir bölməsini təşkil edən "Mürəkkəb cümlə" haqqında qısaca olsa da, məlumat verilməmişdir. Bu dərslikdən bir il sonra yazılıb nəşr olunan "Müasir Azərbaycan dilinin sintaksisi" adlı pedaqoji institutların tələbələri üçün nəzərdə tutulmuş tədris vəsaiti əhatə dairəsi ilə özündən əvvəl nəşr olunan dərslikdən tamamilə fərqlənir. Məsələn, ADU-nun nəşr etdirdiyi dərslikdə mürəkkəb cümlə haqqında heç bir məlumat verilməsə də, son dərslikdə bu mövzu geniş şəkildə işıqlandırılmışdır.

Tədris vəsaiti Z.X.Tağızadə tərəfindən yazılmış və 1960-cı ildə V.İ.Lenin adına APİ-nin (indiki ADPU-nun) nəşriyyatında çap olunmuşdur. Tədris vəsaiti yığcamlığı ilə seçilsə də, sintaksisə aid yazılan ilk dərslik kimi diqqət çəkəndir.

Əsərin müəllifi Zeynal Xuduş oğlu Tağızadə 1905-ci ildə ermənilərin gözünə ox kimi sancılan Şuşa şəhərində anadan olub. Şuşa Real Məktəbində oxuyub 1925-ci ildə Şuşa Müəllimlər Seminariyasını bitirmişdir. 1928-ci ildə V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutunun aspiranturasına daxil olmuş, "XIX – XX əsrlərdə Azərbaycan nəsrində tabeli mürəkkəb cümlənin inkişafi" mövzusunda namizədlik (1949), 1968-ci ildə "Müasir Azərbaycan ədəbi dilində mürəkkəb cümlə" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. Bir-birinin ardınca "Müasir Azərbaycan dilinin sintaksisi" (1960), "Müasir Azərbaycan dilində mürəkkəb cümlə" (1961), "Müasir Azərbaycan dilində feilin quruluşu" (1962) adlı kitabları nəşr olunmuşdur. 1975-ci ildə Bakı şəhərində vəfat etmişdir. Alimin diqqət çəkən əsərlərindən ən sanballısı, yuxarıda qeyd etdiyimiz kimi, 1960-cı ildə nəşr etdirdiyi "Müasir Azərbaycan dilinin sintaksisi" adlı tədris vəsaiti hesab olunur. Kitab müəllif tərəfindən yazılan "Bir neçə söz" adlı bir səhifəlik ön sözdən, "Sintaktik əlaqələr", "Söz birləşmələri", "Cümlə", "Cümlənin həmcins üzvləri", "Sintaktik cəhətdən cümlə üzvü olmayan söz və söz birləşmələri", "Xitab", "Ara sözlər", "Ara cümlələr", "Cümlənin quruluşca növləri", "Təktərkibli cümlənin növləri", "Mürəkkəb cümlə" və "Vasitəsiz və vasitəli nitq bölmələri" də daxil olmaqla 154 səhifədən ibarətdir.

[73]10.24412/2218-7588-2025-2-255-258

Sintaksisin digər bölmələrinin geniş və hərtərəfli şəkildə tədqiq olunduğunu nəzərə alaraq bu yazıda biz yalnız mürəkkəb cümlə ilə bağlı məsələləri diqqət mərkəzində saxlayacağıq. Çünki sintaksisin bu bölməsinə aid məsələlərin daha çox tədqiqə ehtiyacı olduğu göz qabağındadır. Müəllifin özü də də vəsaitə yazdığı ön sözdə sintaksisin tədqiqat obyekti olan mürəkkəb cümlənin əsas məsələlərinin izahında qaranlıq tərəflərin olduğunu qeyd edir və göstərir ki, "*...müasir Azərbaycan dili proqramı əsasında bütün kursu əhatə edəcək bir dərsliyin olmaması tədris işini çətinləşdirir. Bu nəzərə alınaraq Müasir Azərbaycan ədəbi dlinin sintaksisi üzrə həmin tədris vəsaiti tərtib edilmişdir. Dərs vəsaiti tərtib edilərkən Azərbaycan dilinin sintaksisinə aid çap edilmiş bütün əsərlər....nəzərə alınmışdır*" (Z.Tağızadə, Müasir Azərbaycan dilinin sintaksisi, Bakı, 1960, səh.3).

Hər kəsə məlumdur ki, bu dərs vəsaiti nəşr olunmazdan bir il əvvəl, 1959-cu ildə ADU nəşriyyatında "Müasir Azərbaycan dili (Sintaksis)" adlı bir əsər də nəşr olunmuşdur. I hissə kimi təqdim olunan bu kitabda mürəkkəb cümlə ilə bağlı elə bir məlumat verilməmişdir.

Biz bu yazıda mürəkkəb cümlənin keçdiyi tarixi yola nəzər salmaq üçün 30 il ərzində nəşr olunmuş ilk iki kitabda bu bölmə ilə bağlı verilən materialları bir-biri ilə müqayisə edib oxşar və fərqli xüsusiyyətləri ortaya çıxarmağa çalışacağıq.

Bunun üçün 1934-cü ildə orta məktəblər üçün dosent İ.Həsənovun A.Şərifovla birlikdə yazıb nəşr etdirdikləri "Qramer" (orta məktəblər üçün II hissə, 6-cı tədris ili) və 1960-cı ildə Z.Tağızadənın yazıb nəşr etdirdiyi"Müasir Azərbaycan dili sintaksisi" (Bakı, 1960) dərsliklərini tədqiqata cəlb etmişik.

Tədqiqata cəlb etdiyimiz "Qramer" dərsliyi orta məktəblər üçün nəzərdə tutulsa da, burada mürəkkəb cümləyə aid verilən məlumatın o dövr üçün ilk və geniş olduğunu, eyni zamanda həmin dövrdə ali məktəblərdə sintaksislə bağlı digər dərslik və elmi kitabların olmadığını nəzərə alıb həmin dərsliyi ilk elmi əsər kimi tədqiqata cəlb etmişik. 52 səhifəlik "Qramer" dərsliyinin 16 səhifəsi yalnız mürəkkəb cümləyə ayrılmışdır. Ümumilikdə bölmə "Mürəkkəb cümlə" adlandırılsa da, burada mürəkkəb cümlənin özünün nə olduğu ilə bağlı ayrılıqda heç bir məlumat verilməmişdir. II bölmə adlandırılan "Mürəkkəb cümlə"nin ilk mövzusu "Mürəkkəb cümlənin növləri" (səh. 32) adlandırılır. Bu başlıq altında mürəkkəb cümlə ilə qovuşuq cümlələr (həmcins üzvlü cümlələr S.Z.) nümunələr əsasında müqayisə edilir. Sonra isə bu gün tabesiz və tabeli mürəkkəb cümlə adlandırılan mürəkkəb cümlələrin bu gün tabesiz və tabeli mürəkkəb cümlə adı altında iki növə ayrıldığı qeyd edilir. Mövzu ilə bağlı "*Mən səni köməyə çağırdım, ancaq sən gəlmədin*" və "*Bəşir rayondan qayıtsa, mən gedərəm*" cümlələri nümunə verilərək tabeli mürəkkəb cümlə ilə tabesiz mürəkkəb cümlənin fərqli xüsusiyyətləri göstərilir və tabeli mürəkkəb cümlə ilə bağlı yazılır: "*Mürəkkəb cümləni təşkil edən sadə cümlələrin arasındakı bu cür rabitəyə tabelilik deyilir. O biri cümlənin üzvlərindən birini izah edən sadə cümləyə – budaq cümlə, üzvlərindən biri başqa cümlə ilə izah olunan sadə cümləyə isə – baş cümlə deyilir. Sadə cümlələrdən tabelilik üsulu ilə qurulan mürəkkəb cümlə mürəkkəb tabeli cümlə adlanır*" (Orada, səh.38).

Bunun ardınca "Bağlayıcılı mürəkkəb mütətabe (tabesiz mürəkkəb cümlələr S.Z.)" və "Bağlayıcısız mürəkkəb mütətabe cümlələr" (səh.40) izah edilir. § 28-də mürəkkəb tabeli cümlələrə aid verilən mətn öz əksini tapır. Mətnin əvvəlində mürəkkəb cümlələrin tərəflərini bir-birinə bağlayan vasitələr haqqında yazılır: "Mürəkkəb tabeli cümlələri təşkil edən cümlələr bir-birinə həm bağlayıcı vasitəsilə, həm də bağlayıcısız bağlanır. Budaq cümlə baş cümlədən əvvəldə gələ bilər, sonra da" (səh.41). Ümumi məlumat veriləndən sonra tabeli mürəkkəb cümlələrə aid üç nümunə verilmişdir. Bunlardan yalnız birincisinin baş cümləsi əvvəl budaq cümləsi sonra gələrək çünki bağlayıcısı ilə bağlanan mürəkkəb cümlədir. Tabeli mürəkkəb cümləyə nümunə verilmiş, digər cümlələrdən biri sadə cümlə, digəri isə aydınlaşdırma əlaqəli tabesiz mürəkkəb cümləyə aid olan nümunədir.

§ 29-da (səh.41) "Bağlayıcılı mürəkkəb tabeli cümlələr" adlı bir ümumi sərlövhə və onun ardınca "Səbəb budaq cümlələri" başlıqlı bir mətn verilmişdir. Müəllif səbəb budaq cümlələrinin baş cümləyə *çünki, üçün, ona görə ki, ondan ötrü ki* bağlayıcısı və tərkiblər, habelə *-dan, -dən* şəkilçilər vasitəsilə bağlandığını qeyd edir. Lakin hər kəsə məlumdur ki, bugünkü dərsliklərimizin heç birində üçün qoşması və -dan, -dən şəkilçiləri vasitəsilə budaq cümləsi baş cümləyə bağlanan tabeli mürəkkəb cümləyə rast gəlmək qeyri-mümkündür. Müəllifin üçün qoşması ilə baş cümləsi budaq cümləyə bağlanan "Gözlüyüm itdiyi üçün, heç bir şey görməyirəm" və -dan şəkilçisi ilə budaq cümləsi baş cümləyə bağlandığı qeyd edilən "*Müəllim xəstə olduğundan, bu gün riyaziyyat dərsi olmadı*" cümlələri sadə cümlədən başqa bir şey deyildir.

Bu cümlələrin birincisində cümlənin əvvəlində gələn "üçün" qoşması ilə işlənən feili sifət tərkibi, ikincisidə isə yenə də budaq cümləsi əvvəldə gələn tabeli mürəkkəb cümlənin budaq cümlə hesab edilən "*Müəllim xəstə olduğundan*" hissəsi ismin çıxışlıq hal şəkilçisini qəbul etmiş cümlənin səbəb zərfliyi vəzifəsində çıxış edən feili sifət tərkibidir.

Dərslikdə tabeli mürəkkəb cümlənin növlərindən biri "Məkan budaq cümlələri" adlanır. Bu növlə bağlı dərslikdə yazılır: "Məkan budaq cümlələri yer ifadə edir. Bunların xəbərləri feli sifət (təyin) şəkilçisidir və ya ancaq...vasitəsilə və yer sözünün ismin 4-cü halında işlənməsilə əmələ gəlir"; məs:

- *Məktəbə getdiyim yerdə, birisi məni arxadan çağırdı.*
- *Həsən yatdığı yerdə, yoldaşı onu durqızdu* (səh.42).

Bu misallarda müəllif *birisi məni arxadan çağırdı* və *yoldaşı onu durqızdu* hissələr baş cümlələr, digər hissələr isə ayrı-ayrılıqda budaq cümlələr hesab olunur.

Nümunələrdən mürəkkəb cümlə kimi bəhs edən müəlliflərin cümlələrə yanaşmasına bugünkü qrammatik normalar gözü ilə baxdıqda bu cümlələrin hər ikisinin sadə cümlə olduğu aydın olur. Professor Q.Kazımov isə öz

dərsliyində (Müasir Azərbaycan dili, sintaksis, ali məktəblər üçün dərslik, "Elm və təhsil", Bakı, 2010, səh. 374) yer (məkan) budaq cümləsi ilə bağlı yazır: "*Yer budaq cümləsi baş cümlədəki hərəkət və ya əlamətin yerini bildirir*". Ya baş cümlədə yer zərfliyi qəlib söz olur və budaq cümlə vasitəsilə izah edilir, dəqiqləşdirilir, yaxud da budaq cümlə vasitəsilə feil və ya ismi xəbərinə aid olur, hərəkət və əlamətin yerini bildirir.

O yerdə ki qoyunnan quzunun qədri adamdan artıq tutulur, orada adamlar ruhdan düşür. Hara buyursalar, Qulu təpəsi üstə gedir (Yenə orada, səh.374).

Dosent İ.Həsənov və A.Şərifovun müəllifliyi ilə nəşr olunan "Qramer" dərsliyində tabeli mürəkkəb cümlənin səkkiz növünün olduğu qeyd edilir: Səbəb budaq cümlələri; Məkan budaq cümlələri; Zaman budaq cümlələri; Tərzi-hərəkət budaq cümlələri; Tamamlıq budaq cümlələri; Məqsəd budaq cümlələri; Şərt budaq cümlələri; Güzəşt budaq cümlələri.

Bu dərslikdə eyni zamanda ardıcıl olaraq "*Bağlayıcısız mürəkkəb tabeli cümlələr*" (səh.47), bir neçə budaqlı mürəkkəb tabeli cümlələr (Yenə orada) haqqında yığcam məlumat verilmişdir.

Qəbul edilmiş faktdır ki, budaq cümlələr ya baş cümlədə əvəzlik qəliblə ifadə olunmuş üzvün mənasını aydınlaşdırır, ya da buraxılmış üzvün yerində işlənir. Lakin bu dərslikdə budaq cümlələrin növünə yanaşmaq tamamilə özünü fərqli şəkildə göstərir. Budaq cümlənin əsas vəzifəsi baş cümlədə buraxılmış, yaxud, dediyimiz kimi, əvəzlik qəliblə ifadə olunmuş üzvün yerində işlənməsidir.

"Qramer" dərsliyində cümlənin beş üzvünün olduğu (Mübtəda, xəbər, təyin, tamamlıq və zərf (zərflik – S. Z.) qeyd edilsə də, bu cümlə üzvlərinin yalnız birinin – tamamlığın adı ilə bağlı budaq cümlənin olduğu qeyd edilir. Budaq cümlənin növlərinin çoxluğunu göstərən zərfliyin (zərfin) mənaca növlərinin adı ilə bağlı adlandırılan budaq cümlələrdir.

Zeynal Tağızadənin müəllifi olduğu "Müasir Azərbaycan dilinin sintaksisi" tədris vəsaitində isə tabeli mürəkkəb cümlə, eyni zamanda budaq cümlələrin növləri ilə bağlı xeyli fərqli xüsusiyyətlər qeyd edilmişdir. Bu dərsliyin özündə də "*Mürəkkəb cümlənin ümumi dilçilikdə, xüsusən, türkologiyada, o cümlədən, Azərbaycan dilçiliyində nəzəri cəhətdən hələ əsaslı tədqiq edilmədiyi"* qeyd olunur. Məsələn, özündən əvvəlki dərsliklərdən və son dövrlərdə nəşr olunan dərsliklərdən fərqli olaraq bu tədris vəsaitində mürəkkəb cümlələrin tərəflərini bir-birinə bağlayan vasitələrin dörd yox, beş növü olduğu qeyd edilir: I. Bağlayıcılar; II.Bağlayıcı (və ya nisbi) sözlər; III. Şəkilçilər; IV. İntonasiya və V. Tərkib hissələrinin sırası (səh.125).

Bugünkü dərsliklərdə tabeli mürəkkəb cümlələrin tərkib hissələrini bir-birinə bağlayan vasitələrin – dörd (intonasiya, bağlayıcı, bağlayıcı söz və şəkilçi vasitəsilə) növü qeyd olunsa da, haqqında danışdığımız bu tədris vəsaitində "*Tabeli mürəkkəb cümlənin tərkib hissələrini bir-birinə rəbt edən formal əlamətlərin tabeli bağlayıcılar, bağlayıcı (və nisbi) sözlər və şəkilçilər*" (səh.130) olduğu göstərilir.

Bu kitabda budaq cümlələr bağlayıcı vasitələrin növlərinə görə qruplaşdırılır və tabeli bağlayıcılarla baş cümləyə bağlanan budaq cümlələrin aşağıdakı növləri olduğu qeyd edilir: Mübtəda budaq cümləsi; Xəbər budaq cümləsi; Tamamlıq budaq cümləsi; Zaman budaq cümləsi; Səbəb budaq cümləsi.

II. Bağlayıcı (və nisbi) sözlərlər baş cümləyə bağlanan budaq cümlələrin sırasına aşağıdakılar daxil edilir: Təyin budaq cümləsi; Səbəb-nəticə budaq cümləsi; Tərzi-hərəkət budaq cümləsi; Kəmiyyət budaq cümləsi; Yer budaq cümləsi.

Müəllif budaq cümlələrin üçüncü qrupuna baş cümləsi budaq cümləyə şəkilçi ilə bağlanan tabeli mürəkkəb cümlələri daxil edib ki, həmin budaq cümlələr aşağıdakılardır:

1. Şərt budaq cümləsi "*Kim çox işləyirsə, onu daha çox yükləyirlər*".
2. Qarşılıq (güzəşt) budaq cümləsi "Gəncləşmək mümkün deyildisə, öz övladımı yeni ruhda bəsləmək mümkün idi" (səh.137).
3. Müqayisə budaq cümləsi: "*Şırımla suvarmaq nə qədər xeyirlidirsə, çarpaz becərmə o qədər faydalıdır*".
4. Zərflik budaq cümlələri: Bu növ budaq cümlələri haqqında müəllif yazır: "Zərflik budaq cümlələrinin (xüsusən zaman, səbəb-məqsəd) bir çox feili bağlama şəkilçili sözlərlə ifadə olunur. "Cümlənin genişlənmiş üzvləri" və "Xüsusiləşmə" bəhslərində göstərildiyi kimi, bu cür iki subyektli mürəkkəb cümlələr olur. Belə cümlələrdə feili bağlama şəkilçili sözə aid subyekt mübtəda qəbul edilirsə, onda bunları zərflik budaq cümləsi hesab etmək lazım gəlir. Məsələn: 1. *Günəş üfüqə doğru əyiləndə, bu adam artıq Heybət stansiyasından uzaqda idi*. 2. *Uşaq bu dəmdə var gücüylə qışqırdığından Məşədi arvadının sözlərini aydın eşitmədi*" (səh.138).

Biz bugünkü dərsliklərdəki qrammatik qanunlara uyğun şəkildə bu cümlələrə yanaşdıqda görürük ki, zərflik budaq cümlələrinə nümunə göstərilən bu cümlələrin hər ikisi sadə cümlədir. Birinci cümlədə cümlə hesab edilən hissə feili bağlama tərkibi, ikinci cümlədə cümlə hesabına edilən hissə isə feili sifət tərkibi ilə ifadə olunmuş cümlə üzvüdür.

Biz bir-biri ilə müqayisə etdiyimiz dərsliklərdən biri orta məktəb, digəri isə ali məktəblərdə tədris olunmaq üçün hazırlanmışdır.

Bu dərsliklərin hər ikisində tabeli mürəkkəb cümlələr öz əksini tapsa da, "Qramer" dərsliyindəki bölmə çox dolğun, konkret və sadə şəkildə öz əksini tapmışdır.

Tabeli mürəkkəb cümlələrlə bağlı hazırladığımız bu məqalə qrammatikamızda, təqribən, otuz il bir-birindən fərqlənən (1934-1960) tarixlərdə nəşr olunan dərsliklərdəki materiallar əsasındadır. Biz bu iki dərslikdə verilən materialları bir-biri ilə müqayisə edərək onların keçdiyi tarixi yola nəzər salmaq və orada olan fərqləri göstərməyə çalışmışıq.

Ədəbiyyat

1. HəsənovI., A.Şərifov. Qramer. Orta məktəblər üçün, ikinci hissə, VI tədris ili. 1. Fonetika. 2.Sintaksis. Təshih edilmiş üçüncü çapı,Azərnəşr,Tədris Pedaqoji şöbəsi,Bakı, 1934.
2. Tağızadə Z.X. Müasir Azərbaycan dilinin sintaksisi. Pedaqoji İnstitutların tələbələri üçün tədris vəsaiti. V.İ.Lenin adına APİ-nin Nəşriyyatı, Bakı, 1960.
3. Abdullayev Ə., Seyidov Y., Həsənov A. Müasir Azərbaycan dili. Sintaksis. IV hissə. Ali məktəblər üçün dərlik. "Maarif" nəşriyyatı, Bakı, 1972.
4. Müasir Azərbaycan dili, III cild, sintaksis. "Elm" nəşriyyatı, Bakı, 1981.
5. Müasir Azərbaycan dilinin sintaksisi. ADU-nun nəşriyyatı, Bakı, 1959.
6. Kazımov Q.Ş.. Müasir Azərbaycan dili, sintaksis. Ali məktəblər üçün dərslik (beşinci nəşri), "Elm və təhsil", Bakı, 2010.
7. Xəlilov B. Müasir Azərbaycan dili. Sintaksis. Bakı, 2017.

"Complex proposal" in the books "Grammar" by I. Hasanov and A. Sharifova and " Modern Azerbaijani language" Z. Taghizadeh

SUMMARY

In the article, textbooks on Azerbaijani linguistics, such as "Grammar" by docentI. Gasanova and A. Sharifova, published in the first half of the 20th century, and "Syntax of the modern Azerbaijani language" by Z.Kh. Taghizade, published in 1960. It is noted that the section "Syntax" is studied less than other sections of the Azerbaijani grammar. This section needs serious research. There are questions related to syntax that require careful study even today. The article does not consider the historical path of the complex subordinate clause. Syntax materials presented in both books were compared with each other and similar and different features were identified.

The article about complex sentences is written on the basis of the materials of textbooks on our grammar, published approximately in the thirty years (1934–1960). We compared the materials presented in these two textbooks, considered their historical path and analyzed the differences clearly and in detail.

Key words: grammar, complex sentence, space-branching sentence, sentence clause, communication.

«Сложное предложение» в книгах «Грамматика» И. Гасанова и А. Шарифова и «Современный азербайджанский язык» З. Тагизаде

Резюме

В статье рассматриваются учебные пособия по азербайджанскому языкознанию, такие как «Грамматика» И. Гасанова и А. Шарифова, изданные в первой половине XX века, и «Синтаксис современного азербайджанского языка» З.Х. Тагизаде, изданный в 1960 году. Отмечается, что раздел «Синтаксис» изучен меньше других разделов азербайджанской грамматики. Этот раздел нуждается в серьезном исследовании. Существуют вопросы, связанные с синтаксисом, которые и сегодня требуют тщательного изучения. В статье не рассматривается исторический путь сложноподчиненного предложения. Материалы по синтаксису, представленные в обеих книгах, были сопоставлены между собой и выявлены сходные и различные черты.

Статья о сложных предложениях написана на основе материалов учебников по нашей грамматике, изданных с разницей примерно в тридцать лет (1934–1960). Мы сравнили материалы, представленные в этих двух учебниках, рассмотрели их исторический путь и четко и подробно проанализировали различия.

Ключевые слова: грамматика, сложноподчиненное предложение, предложение с разветвленным пространством, придаточное предложение, коммуникация.

RƏYÇİ: dos. S.Abbasova

Abbasova Sevda İslam qızı[74]

TƏLİM PROSESİNDƏ İNNOVASİYALARIN ƏHƏMİYYƏTİ

İnnovasiyalı təlimin əsasını təşkil edən texnologiyalar kimi inkişafetdirici öyrənmə; problem əsaslı öyrənmə; tənqidi təfəkkürün inkişafı; "Layihə metodu" texnologiyası; öyrənməyə differensial yanaşma; dərsdə uğur situasiyasının yaradılması; informasiya texnologiyasını qeyd edə bilərik. Bu texnologiyaların təlim prosesində istifadəsi böyük üstünlüklərə malikdir. Təlim prosesi şagirdlər üçün o zaman maraqlı olur ki, şagird fəallığını artırır, qarşılıqlı əlaqə və axtarış vasitəsilə bilikləri müstəqil əldə etmək bacarıqlarını inkişaf etdirir. [2, s.7]. Şagirdlərin tədqiqat bacarıqları və vərdişləri inkişaf etdirilir, analitik qabiliyyətləri formalaşır. Tədris prosesi ilə paralel olaraq ünsiyyət bacarıqları da inkişaf etdirilir və fərdin liderlik keyfiyyətləri formalaşır.

Şagirdin yaradıcı potensialını üzə çıxarmaq üçün bir tərəfdən dərsdə əldə edilmiş bilik, bacarıq və vərdişləri möhkəmləndirmək, digər tərəfdən isə uşağa müstəqillik nümayiş etdirməyə, qeyri-standart sualın və ya tapşırığın həllini tapmasına imkan verən qeyri-ənənəvi ev tapşırığı formaları da böyük əhəmiyyət kəsb edir. Ev tapşırığının növləri belə ola bilər: yaradıcı iş; mətnin linqvistik tədqiqi; ədəbi əsərlər üçün illüstrasiyaların hazırlanması; bədii oxu; bədii əsərin səhnələşdirilməsi; əsərlərə tarixi şərh; müxtəlif janrlarda müstəqil ədəbi əsərlərin yaradılması; tamamlanmamış işlərin davam etdirilməsi; lüğət üzrə imlalarının hazırlanması; mövzu ilə bağlı sualların tərtib edilməsi; qeydlərin, istinad cədvəllərinin tərtib edilməsi; təqdimatlar; yaddaşa əsasən məktub yazmaq. Belə ev tapşırığı öyrənmədə monotonluqdan qaçmağa kömək edir. Uşaq özünü müəllif, illüstrator, müəllim və tədqiqatçı kimi hiss edir.Qeyri-adi tapşırıqlar düşüncəni aktivləşdirir, uşağı mövzu üzrə materialı ümumiləşdirməyə və sistemləşdirməyə məcbur edir.

Dərsdə müəllimlə şagirdin qarşılıqlı əlaqəsinin maksimum dərəcədə reallaşması vacibdir. Şagirdlər fəaliyyət göstərməkdə, dərsdə fəal iştirak etməkdə, səhv etməkdə və səhvlərin səbəblərini axtarmaqda, sualları formalaşdırmaqda və sadəcə onlara cavab verməkdə maraqlıdırlar, yəni sinifdə fəal kommunikativ mövqe nümayiş olunur. [2, s.9] Müəllimin vəzifəsi şagirdə dərsdəki rolunu görməyə kömək etmək və şagirdin təhsil fəaliyyətini yaradıcı müstəviyə köçürməkdir. Dərsin müxtəlif mərhələlərində yeni texnologiyalardan istifadə onun səmərəli, şagirdlər üçün biliklərin mənimsənilməsi prosesinin - maraqlı və məhsuldar olmasına kömək edə bilər.

"İnnovativ öyrənmə" nədir? İngilis dilindən innovativ öyrənmə. "innovasiya" - yəni fərdi yanaşma, fundamental təhsil, yaradıcılıq, peşəkarlıq və son texnologiyalardan istifadəni özündə cəmləşdirən öyrənməyə yeni yanaşma deməkdir. İnnovativ təlimin aktuallığı şəxsiyyətyönümlü təlimdən istifadə, eləcə də şagirdin yaradıcı potensialının üzə çıxarılması üçün şərait axtarışındadır.

İnnovativ təlimin əsas məqsədlərini belə qeyd edə bilərik: şagirdlərin intellektual, kommunikativ, linqvistik və yaradıcılıq qabiliyyətlərinin inkişafı; şagirdlərin şəxsi keyfiyyətlərinin inkişafı; təhsil və idrak fəaliyyətinə təsir edən bacarıqların inkişafı; şagirdlərin əsas bacarıqlarının inkişafı. Bu məqsədlər həm də innovativ təlimin təhsil prosesinin optimallaşdırılması; şagird və müəllim arasında əməkdaşlıq mühitinin yaradılması; öyrənmə üçün uzunmüddətli müsbət motivasiyanın inkişafı; materialın diqqətlə seçilməsi və onun təqdim edilməsi üsulları kimi vəzifələri müəyyənləşdirir

İnformasiya texnologiyalarından istifadə zamanı dil müəlliminin qarşısında duran vəzifələr digər fənn müəllimlərinin məqsəd və vəzifələrindən fərqlənir. Bu tapşırıqlar mətnlə, bədii sözlərlə, kitabla işləməyi tələb edir. Azərbaycan dili fənnini tədris edən müəllim güclü orfoqrafiya və durğu işarələri bacarıq və vərdişlərini inkişaf etdirməli, şagirdlərin lüğət ehtiyatını zənginləşdirməli, onlara ədəbi dilin normalarını mənimsəməyi öyrətməli, uşaqlara dil və ədəbi terminlər haqqında biliklər verməlidir. Elektron təhsil resursları bu problemlərin həllində danılmaz köməkçidir. Ümumiyyətlə, ən vacib keyfiyyət insan mənəviyyatının və mədəniyyətinin əsasını təşkil edən uşaq şəxsiyyətinin humanitar tərbiyəsidir. Bu gün elektron təhsil resursları dil müəlliminin yaxın köməkçisinə çevrilmişdir, Bu vasitələr fənnin tədrisi prosesini təkcə maraqlı deyil, həm də daha asan başa düşülən edir. Azərbaycan dili dərslərində elektron tədris resursları şagirdlərin iş və fəaliyyət formalarını şaxələndirməyə, diqqəti aktivləşdirməyə və fərdin yaradıcı potensialını artırmağa imkan verir. Təqdimatların yaradılması vaxta qənaət etməklə materialı estetik cəhətdən daha cəlbedici edir. Krossvordlardan, illüstrasiyalardan, rəsmlərdən, müxtəlif əyləncəli tapşırıqlardan və testlərdən istifadə dərsə marağı artırır.

Təlim prosesində elektron tədris resurslarından istifadə müxtəlif illüstrativ və məlumat materiallarından istifadə etməyə imkan verir. Üstəlik, şagirdlər materialı internetdə və disklərdə tapa bilərlər. Beləliklə, dərs parlaq, yaradıcı və aktiv olur. İnteraktiv testlərdən istifadə müəllimin vaxtına qənaət etməklə yanaşı, həm də şagirdlərə öz bilik və imkanlarını qiymətləndirməyə kömək edir.

Rəqəmsal təhsil resurslarının müxtəlif kolleksiyaları, o cümlədən tematik kolleksiyalar, alətlər və proqram təminatı yaradılmışdır. Onlar Azərbaycan dili dərsinin interaktivliyini artırmağa kömək edir. Bunlardan cizgi təsvirləri və illüstrasiyalar; interaktiv təriflər, qaydalar, cədvəllər, tədris mətnləri; elektron tapşırıqlar, testlər, lüğətlər və məlumat kitabçalarını xüsusi qeyd etmək olar. Dərsdə ən çox istifadə oluna bilən resurslara diqqət yetirək. Daha çox təqdimatlardan istifadə olunması məqsədəuyğundur. Onlar yeni materialı izah edərkən, bilikləri möhkəmləndirərkən, yaradıcı tapşırıqları və bədən tərbiyəsi dəqiqələrini yerinə yetirərkən istifadə edilə bilər. Təqdimata hər şeyi: çertyojlar, diaqramlar, testlər və videolar daxil etmək olar. Digər resurslarla müqayisədə təqdimatı universal hesab etmək olar. Müxtəlif növ təqdimatların istifadəsi aşağıdakı problemləri həll etməyə imkan verir:

[74] 10.24412/2218-7588-2025-2-259-261

1. Mühazirə təqdimatı müəllimin və ya şagirdlərin məruzələrinin və çıxışlarının məzmununu əks etdirən əyani materialdır.

2. Təqdimatlar - "Plakatlar" - illüstrasiyaların, minimum başlıqlı fotoşəkillərin nümayişidir, animasiyadan aktiv istifadəyə imkan verir: hərəkətli şəkillər, firlanan fotoşəkillər və s. mövcudluğun maksimum effektini yaradır.

3. Məşğələlərdə şagirdlərin müstəqil fəaliyyətinin təşkilində "İnteraktiv təqdimatlar" səmərəlidir. Digər məlumat mənbələrinə, o cümlədən İNTERNET-də hiperlinklər uşağa öyrənmək, yeni məlumatları birləşdirmək və ya assimilyasiya nəticələrinə nəzarət etmək üçün zəruri məlumatlardan müstəqil istifadə etməyə imkan verir.

4. Yeni materialı izah edərkən animasiya və illüstrasiyalardan istifadə edilməsi: bu resurslar tədris materialını aydın şəkildə nümayiş etdirir və müxtəlif dil hadisələrini müşahidə etməyə imkan verir. Bu resurslardan yaradıcı işlərin təşkili üçün də istifadə oluna bilər (şəkil əsasında hekayə tərtib etmək).

Cizgi filmlərindən və animasiyadan istifadə dərsləri şaxələndirməyə və şagirdləri aktivləşdirməyə kömək edir. Multimedia proyektorundan istifadə edilən mühazirə sinifdə maraqlı səslənir, mühazirə şagirdlərə rəngarəng diaqramların nümayişi ilə müşayiət edildikdə, izahat üçün müxtəlif səslər və animasiyalardan istifadə olunur, əvvəllər öyrənilmiş materiala sürətli keçidlərdən istifadə olunur.

Cədvəllərin köməyi ilə uşaqlar linqvistik hadisələri təhlil etməyi, nəticə və ümumiləşdirmələr aparmağı, linqvistik materialı sxematik şəkildə təqdim etməyi öyrənirlər. Cədvəllər orfoqrafiya qaydalarını və ya durğu işarələrini yadda saxlamağa kömək edir. Çap cədvəllərindən fərqli olaraq, elektron cədvəllər vizual olaraq daha cəlbedicidir. Eyni cədvəl bir mövzunun öyrənilməsinin bütün dövrü ərzində istifadə edilə bilər, çünki cədvəllər bölmə haqqında tam məlumatı ehtiva edə bilər.

Materialın təkrarlanması və möhkəmləndirilməsi mərhələlərində interaktiv testlərdən istifadə edilməsi uyğundur. Bunlar rəqəmsal təhsil resursları disklərdə olan testlərdir; onlar öyrənilən materialın sistemləşdirilməsinə kömək edir. Elektron testlərin üstünlüyü onların yüksək dərəcədə interaktiv olmasıdır. Bu o deməkdir ki, onlar bilik səviyyəsinə nəzarət edir və lazım gəldikdə qaydanı yadda saxlamağa kömək edir.

Elektron təlim vasitələrinin digər növü elektron tədris vasitələridir: bura simulyatorlar, proqramlar,interaktiv kolleksiyalar, lüğətlər, məlumat kitabçaları; şagirdlərin biliklərinin, elektron kitabxanaların və verilənlər bazalarının resurslarının monitorinqi üçün elektron nəşrlər daxildir. Onlardan sınaqdan keçirilmiş bəzilərini qeyd edək:

İnteraktiv dərslər animasiya əsasında yaradılır və virtual öyrənməni real öyrənməyə mümkün qədər yaxınlaşdırır. Mövzu, bir neçə mövzu, bəzən isə bütün bölmə üzrə məlumatları özündə əks etdirən mürəkkəb strukturlu çoxsəviyyəli interaktiv cədvəllər müəllim tərəfindən əyani və istinad materialı kimi istifadə oluna bilər. Şagird cavabı dəstəkləmək üçün cədvəllərdən istifadə edə bilər. Sual-cavaba əsasən təşkil edilmiş süjet üzrə animasiya səhnələri toplusu şagirdin diqqətini çox vaxt tipik səhvlərlə bağlı olan çətin və ya maraqlı dil hadisələrinə yönəldir.

"Açıq təhsil modul multimedia sistemləri" seriyasının Azərbaycan dili üçün elektron təhsil resursları yeni nəsil elektron təhsil resurslarını təmsil edir. Onlar açıq şəbəkə sistemlərinin və tam hüquqlu multimedia məhsullarının imkanlarını birləşdirərək yüksək interaktiv, multimedia ilə zəngin təlim resurslarına çıxışı təmin edir.

Müəllim və şagird üçün bu tip kompüter proqramlarından istifadənin aktuallığı ondan ibarətdir ki, proqramda təklif olunan tapşırıqlar həm təlim, həm də nəzarət ola bilər; şagirdin fərdi çətinlikləri əsasında müəyyən bölmə üzrə materialı təkrarlamaq və boşluqları aradan qaldırmaq imkanı var; Proqramlar linqvistik fenomeni təsvir edən nümunələrlə tanış olmaq imkanı verir.

Azərbaycan dilinin tədrisində innovasiyalardan istifadə edərkən aşağıdakı üsulların tətbiqi uğurlu ola bilər: assosiativ sıra; dəstək qeydləri; beyin həmləsi; qrup müzakirəsi; sinkveyn; klaster; qarışıq məntiqi zəncirlər; didaktik oyunlar; linqvistik tapşırıqlar; mətn araşdırması; testlərlər; axtarış tapşırıqları; ev tapşırığının qeyri-ənənəvi formaları [2, s. 10].Onlardan yalnız bir neçəsi üzərində dayanaq.

Layihə metodu xüsusilə perspektivlidir, çünki o, tənqidi təfəkkürün inkişafına, auditoriyanın tədqiqat qabiliyyətinə, yaradıcılıq fəaliyyətinin aktivləşdirilməsinə və şagirdlərin media səriştəsinə imkan verir. Təhsil layihələri üçün aşağıdakılar vacibdir:

1) tədqiqat, praktiki və ya yaradıcılıq fəaliyyətinin məqsədini müəyyən etmək;

2) tədqiqat zamanı yaranan problemi müəyyən etmək;

3) problemin həlli yolları ilə bağlı fərziyyə irəli sürmək;

4) layihənin konkret məqsədlərini formalaşdırmaq və layihə üçün zəruri olan məlumatların toplanması və emalı və nəticələrin təhlili mexanizmlərini müəyyən etmək;

5) bu tapşırıqlar əsasında aydın layihə planı tərtib etmək (bu, məsələn, gələcək media mətni üçün ssenari ola bilər);

6) layihə planını praktikada həyata keçirmək;

7) layihənin nəticələri haqqında hesabat hazırlamaq və müzakirə etmək.

Qeyri-ənənəvi dərslər də idrak fəaliyyətinin inkişafına kömək edir ki, bu da şagirdin fənnə və ümumilikdə öyrənməyə marağını artırır. Qeyri-standart dərslərin bəzi təsnifatlarını təqdim edirik: dərs-seminar, dərs-mühazirə, dərs-söhbət, dərs-ekskursiya, dərs-araşdırma, dərs-oyun, dərs-layihə müdafiəsi, dərs-disput, dərs-konfrans, dərs-teatr tamaşası, dərs-səfər, dərs-test. Onların demək olar ki, hamısı problemli suallar verməyə və problemli vəziyyətlər yaratmağa, differensiallaşdırılmış təlim problemlərini həll etməyə, təlim fəaliyyətini aktivləşdirməyə, idrak marağının artırılmasına, tənqidi təfəkkürün inkişafına kömək etməyə imkan verir. Azərbaycan dili və ədəbiyyatının qeyri-

ənənəvi dərsləri linqvistik məlumatların sistemli təhlilini təmin edir və linqvistik müşahidə bacarıqlarını inkişaf etdirir. Ona görə də belə dərslər bu gün daha aktualdır. Belə bir dərsə hazırlaşmaqda işin böyük bir hissəsi müəllimin üzərinə düşür: mövzu seçimi, problemə yanaşma, müzakirə planının tərtib edilməsi, sualların seçilməsi.

Qeyri-ənənəvi dərslərin müxtəlifliyinə və effektivliyinə baxmayaraq, çox vaxt bir sıra səbəblərdən istifadə oluna bilmir. Buna görə də, dərsin qeyri-standart, yaradıcı elementlərinə müraciət etmək olar. Bu, leksik diktə və ya imla-krossvord, sinifdə tapmacalar tərtib etmək, şərh edilmiş məktub və ya xəbərdarlıqlı imla ola bilər.

Digər səmərəli vasitə Azərbaycan dili dərslərinə maraq yarada bilən didaktik oyunlardır. Oyunun məqsədi biliyə, elmə, kitaba və öyrənməyə maraq oyatmaqdır. Oyunlar uşağın inkişafında mühüm yer tutur, təlim fəaliyyətinə marağı artırır, öyrənilən material onlar üçün daha əlçatan olur [4, s. 37]. Əyləncəli təhsil oyunlarının mühüm rolu həm də ondan ibarətdir ki, onlar uşaqlarda stressi aradan qaldırmağa və dərs zamanı müsbət emosional əhval-ruhiyyə yaratmağa kömək edir. Çox sayda didaktik oyunlardan istifadə edilə bilər. Bura məlumatı sintez etmək və dərk etmək bacarığını aşılayan "Lazımsızları aradan qaldırın", "Virtual istinad masası" kimi tapşırıqlar daxildir.

Son illər tənqidi təfəkkürün inkişafı üçün sinkveyndən istifadə olunur. Sinkveyn dərsin müxtəlif mərhələlərində istifadə oluna bilər: tməsələn, təkrarlama mərhələsində – əvvəllər əldə edilmiş biliklərin yenilənməsi və materialın sistemləşdirilməsinin qısaldılmış mesajı; anlama mərhələsində – yeni anlayışlar üzərində düşünülmüş iş; düşünmə mərhələsində mənalı materialın yaradıcı ifadə vasitəsi kimi.

Nəticə olaraq deyə bilərik ki, müasir təhsil şəraitində innovativ texnologiyaların mənimsənilməsi və təlim prosesinə tətbiqi hər bir müəllimin fəaliyyətinin zəruri hissəsinə çevrilmişdir. Bu gün elə bir müəllim tapılmaz ki, özünə belə bir sual verməsin: "Dərsimi necə cəlbedici və yaddaqalan edə bilərəm? Şagirdlərdə tədris etdiyim fənnə marağı necə oyada bilərəm? Sinifdə hər bir şagird üçün uğur situasiyasını necə yaratmaq olar?" Bu heç də təsadüfi deyil. Cəmiyyətin inkişafı, həyata yeni münasibət müasir ümumtəhsil məktəbləri qarşısında da yeni tələblər, vəzifələr qoyur. Bu gün təhsilin əsas məqsədi təkcə şagird tərəfindən müəyyən miqdarda bilik, bacarıq və vərdişlərin toplanması deyil, həm də şagirdin müstəqil təhsil fəaliyyəti subyekti kimi hazırlanmasıdır. Müasir təhsilin əsasını müəllimin idarə etdiyi şagird fəaliyyəti təşkil edir və əsas vəzifələr müstəqil öyrənməyi və təkmilləşdirməyi bacaran yaradıcı, fəal şəxsiyyətin yetişdirilməsinə istiqamətlənmişdir.

Ədəbiyyat

1. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün Azərbaycan dili (dövlət dili kimi) fənni üzrə təhsil proqramı (kurikulumu) (I-XI siniflər). Bakı: 2013, 86 s.
2. Abbasov Ə. Quliyeva K. İnnovativ pedaqoji texnologiyalar. "Kurikulum" jurnalı, 2018, № 4 səh. 5–11
3. Abbasova S. Nitq inkişafı üzrə işin məzmunu və xüsusiyyətləri. Filologiya və Pedaqogika: Elmi araşdırmalar. Bakı, 2024, ADPU, Səh 131-141
4. Balıyev A.H, Balıyev H.B. Azərbaycan dilinin tədrisi metodikası, Bakı: "Elm və təhsil" 2019, 380 s.
5. Hüseynov H. Əyləncəli qrammatik oyunlar. Bakı: 2008, 151 s.
6. Mehrabov A.O., Abbasov Ə.M., Zeynalov Z.Z., Həsənov R.Ə. Pedaqoji texnologiyalar. Bakı, «Mütərcim», 2006.
7. Qurbanov V. Azərbaycan dili təliminin problemlərinə dair (mülahizələr və şərhlər). Bakı, "Müəllim" nəşriyyatı , 2019,204 s

Development of innovative processes

Summary

The basis of modern education is student activity, guided by the teacher. The main task is to cultivate a creative, active personality capable of independent learning and improvement. Innovative learning is a new approach to learning, which combines an individual approach, fundamental education, creativity, professionalism and the use of the latest technologies. The relevance of innovative learning is the disclosure of the creative potential of the student. The basis of innovative learning is the development of students' intellectual, communicative, linguistic and creative abilities. This also determines such tasks as optimizing the educational process; creating a collaborative environment; developing long-term positive motivation for learning; careful selection of material and methods of its presentation.

Keywords: learning process, innovative technologies, unconventional teaching

Значение инноваций в образовательном процессе

Резюме

Основой современного образования является деятельность учащихся под руководством учителя. Основная задача — воспитать творческую, активную личность, способную к самостоятельному обучению и совершенствованию. Инновационное обучение — это новый подход к обучению, сочетающий в себе индивидуальный подход, фундаментальное образование, креативность, профессионализм и использование новейших технологий. Актуальность инновационного обучения заключается в раскрытии творческого потенциала учащегося. Основой инновационного обучения является развитие интеллектуальных, коммуникативных, языковых и творческих способностей учащихся. Это также включает оптимизацию образовательного процесса; создание среды для совместной работы; развитие долговременной положительной мотивации к обучению; Он определяет такие задачи, как тщательный отбор материала и методы его подачи.

Ключевые слова: процесс обучения, инновационные технологии, нетрадиционный урок.

RƏYÇİ: dos. E.Vəliyeva

Гюльтекин Гарабаглы [75]

ПРИЕМЫ РАБОТЫ НАД РАЗВИТИЕМ СВЯЗНОЙ РЕЧИ

Под термином «связная речь» в методической литературе закрепилось два основных значения. Под связной речью понимается деятельный процесс, заключающийся в последовательном, логически связанном изложении мыслей определенным лицом. Связной речью называется также продукт этой деятельности – высказывание, которое предполагает наличие внутренней т.е. смысловой и внешней языковой конструктивной части отдельных его частей.

Связная речь – совокупность тематически объединенных фрагментов речи, находящихся в тесной взаимосвязи и представляющих собой единое смысловое и структурное целое. Связная речь представляет собой последовательный и логически связанный ряд мыслей, выраженных конкретными и точными словами, соединёнными в грамматически правильные предложения.

Понятие "связная речь" относится как к диалогической, так и к монологической формам речи. По мнению ученых, диалог – первичная форма речи, она возникает при непосредственном общении двух или нескольких собеседников и состоит, в основном, из обмена репликами. Отличительными чертами диалогической речи являются: эмоциональный контакт говорящих, их воздействие друг на друга мимикой, жестами и интонацией.

По сравнению с диалогической, монологическая речь - связная речь одного лица, коммуникативная цель которой - сообщение о каких-либо фактах, явлениях реальной действительности. Она служит для целенаправленной передачи информации. Монолог более сложная форма речи, которая требует тщательного отбора лексических средств. Особенной характеристикой монолога должна служить связность и последовательность изложенной информации. Независимо от формы (монолог, диалог) основным условием коммуникативности речи является ее связность.

Отмечая определенную схожесть и взаимосвязь диалогической и монологической речи, прежде всего, имеется ввиду то, что их объединяет общая система языка. Говорение рассматривается как вид речевой деятельности. Речевая деятельность на родном и чужом языках осуществляется одними и теми же речевыми механизмами, однако их эффективность на иностранном языке ниже, чем на родном. Чтобы речевые механизмы приспособились на должном уровне обеспечивать речевую деятельность средствами неродного языка, нужны определенные усилия и специальные упражнения.

Работа над устной речью начинается с расширения и совершенствования словаря. При этом слово рассматривается не только как лексическая единица языка, но и как грамматическая и синтаксическая единица предложения.

Для овладения речевыми умениями и навыками лексическая работа имеет первостепенное значение. Слова и понятия неразрывны. Слово - основная лексическая единица,выражающая понятие, оно обеспечивает содержание высказывания и речи в целом. Словарь, являясь важнейшим элементом языка, сам по себе языка еще не составляет. Это строительный материал для языка, он приобретает значение лишь при его соединении с грамматическими правилами. Понимание лексического значения слова, противопоставление его другим словам, которые находятся в смысловой зависимости от данного, умение правильно строить из слов предложения отражают уровень языковой способности студента. Это также показатель степени сформированности его логического мышления.

Овладение словарем - процесс сложный и длительный. Без овладения словарем невозможно овладеть речью, тем более связной речью. Слова, сохраненные в памяти студентов, должны включатся в речь и использоваться в речевой практике для обеспечения общения и коммуникации. К сожалению, пассивный запас слов студентов значительно преобладает над активным и переводится в актив крайне медленно. Студенты плохо используют имеющийся у них запас лингвистических единиц, не умеют оперировать ими. Все перечисленное подчеркивает значимость формирования лексических навыков у изучающих язык.

Методисты и преподаватели-практики стараются найти способы повышения языковой компетенции изучающих язык. Однако, несмотря на повышенный интерес к проблеме, уровень речевого развития студентов национального сектора остается недостаточным, они испытывают затруднения при оформлении нужного высказывания, им мешает ограниченный запас слов. Значит, развитие связной речи – важная часть работы в аудитории. Для улучшения связной русской речи в национальной аудитории необходима методически грамотно построенная работа.

Однако нельзя не признать, что формирование навыков связной речи зачастую не имеет систематического подхода, отсутствует система необходимых упражнений и нужных для этой работы пособий. Это привело к тому, что в настоящее время мы сталкивается с проблемой безграмотности, несвязности, бедности русской речи большинства студентов. Студентам не так просто четко сформулировать даже такую элементарную вещь, как цель речевого высказывания, что в практике научного исследования обычно называется функцией речи.

[75]BDU. Rus dili kafedrası. Baş müəllim
10.24412/2218-7588-2025-2-262-264

Как же организовать работу по формированию необходимых умений и навыков, как научить студента полно, грамотно и точно выражать свои мысли? Каковы направления и этапы работы в этом направлении?

В специальной литературе выделяют следующие критерии связности устного сообщения: смысловые связи между частями рассказа, логические и грамматические связи между предложениями, связь между частями (членами) предложения и законченность выражения мысли говорящего, последовательность изложения.

Если исходить из того, что с лингвистической точки зрения между устной и письменной формами речи имеется много общего, в основу работы по развитию устной речи можно положить умения, которые являются общими для устной и письменной связной речи. Умения эти следует конкретизировать применительно к устной речи, к специфическим задачам по развитию связной правильной и точной устной речи.

Развивая связную речь студентов, мы прививаем ряд конкретных умений:
во-первых, осмысливать тему, умение делить материал на составные части; во-вторых, определять главную мысль рассказа, умение отбирать из рассказа важное и отбрасывать второстепенное, дополнительное; в-третьих, умение располагать разрозненный материал в нужной последовательности, строить рассказ по плану; в-четвёртых, умение пользоваться средствами языка в соответствии с литературными нормами и целями высказывания.

Учить содержательной, логичной, ясной и правильной речи надо на каждом уроке. Работа по развитию речи требует разнообразных приёмов и средств. В процессе занятий многократно меняется учебная ситуация и мотивы речи. Конкретные задания лучше сочетать с творческими, требующими свободных высказываний.

В зависимости от поставленной цели существуют различные типы упражнений. Из них можно выделить две группы.

1. Подготовительные или тренировочные упражнения. Их основная задача доведение речи до автоматизмов.
2. Коммуникативно-речевые упражнения. К ним относятся вопросно-ответные, ситуативные упражнения, а также пересказ.

На начальном этапе предполагаются небольшие по объему тексты, содержащие знакомую лексику и грамматику. Далее тексты усложняются и увеличиваются в объеме.

Для развития коммуникативной компетентности предлагаются упражнения на восстановление целого текста из разрозненных фраз. При этом надо обратить внимание студентов на использование необходимых лексических и синтаксических средств, обеспечивающих связность текста. С той же целью предлагаются задания на восстановление недостающих реплик учебного диалога.

Выполняя эти упражнения под руководством преподавателя, студенты учатся излагать мысли последовательно, в определенном порядке. Последовательность – важная характеристика изложения. Нарушение последовательности всегда негативно отражается на связности сообщения.

Более сложным видом упражнений в связной речи являются устные рассказы. Устному рассказу лучше обучать включая задания по пересказу отдельных фрагментов рассказа (начало, середина или конец), а также пересказ услышанного с опорой на вопросы. Такая работа поможет студентам передавать содержание рассказа логично и последовательно, правильно строить предложения.

Следующим этап работы над связной речью – обучение выборочному пересказу. Этот вид работы требует умения обобщать и выбирать самое главное из всего текста. Наиболее сложным для учащихся является творческий пересказ- составление самостоятельных рассказов по собственным наблюдениям и впечатлениям.

Обобщая сказанное, приведем примеры некоторых заданий, способствующих развитию связной русской речи:

1) Устные ответы на вопросы, ответы обязательно должны быть полными.
2) Постановка студентами вопросов к данным предложениям.
3) Распространение предложений с помощью вопросов и без вопросов.
4) Составление разного рода словосочетаний и их использование в предложениях.
5) Составление предложений, объединенных общей темой (о семье, о родном городе, о друге и т.д.)
6) Соединение двух простых предложений в одно сложное.
7) Изменение данных предложений с заменой одного слова другим, заменой одних грамматических форм на другие (категории лица или времени).
8) Восстановление деформированного предложения.
9) Составление плана для пересказа.
10) Устные рассказы по аналогии с прочитанным.

Вот примеры практические заданий и упражнений:

1. Укажите в тексте предложение, логически не связанное с другими.

а) Мой брат очень любит музыку. Он учится в музыкальной школе. Завтра будет хорошая погода. Брат хорошо играет на таре и хочет поступить в консерваторию.

б) Вчера наша группа ездила на экскурсию в Сураханы. Экскурсия была очень интересная. Моя сестра учится в 9 классе. Мы очень устали, но мы узнали много нового.

2. Распространите предложения. – Журнал в портфеле. Студенты в аудитории.

Цветы растут в парке.

3. Добавьте к предложениям слова, отвечающие на вопросы

а) «где?» и «когда?» - 1. Дети играют. 2. Идет снег. 3. Я слушаю новости. 4.

б) «когда?» и куда?» - 1. Мальчик идет. 2. Мы поедем. 3. Птицы улетают.

3. Составь рассказ о своем друге (брате, сестре), отвечая на вопросы:

Как зовут твоего друга (брата/сестру)? Сколько ему (ей) лет? Он (она) старше/младше тебя? Как вы познакомились? Он/она работает или учится? Какой у него (нее) характер? Чем ты ему (ей) помогаешь? За что ты его (ее) уважаешь /любишь?

4. Повторите предложение и добавьте одно логически связанное с ним.

Я пришел в магазин. *(В магазине я купил тетрадь и ручку.)*

Наступила осень. *(Идет дождь и дует ветер.)*

5. Повторите предложение и добавьте к нему 2 логически связанных.

1.Завтра праздник. *(Я не пойду в университет. Мы с другом пойдем гулять.)* 2. Сегодня очень холодно. 3. Баку – наша столица.

6. Составьте предложения из слов. – Площадь, было, много, на, людей.

Стать, брат, с, мечтал, детства, футболистом.

Развитие связной речи студентов - длительный и сложный процесс. Он предполагает рассмотрение основных требований к работе над словом, разнообразных словарно-семантических упражнений, каждодневной практики. Умения, обеспечивающие соблюдения норм связной речи, требуют кропотливой работы студентов и преподавателей. Систематическая работа в этом направлении скажется на знаниях студентов и приведет к успеху.

Литература

1.Гордилова В.И., Кудрявцева М.З. Чтение и письмо: обучение, развитие и исправление недостатков. – С.Пб: Дельта, 1997
2.Жинкин Н.И. Речь как проводник информации- М.: Просвещение, 1982
3.Конаваленко В.В., Конаваленко С.В. Формирование связной речи- М.; Изд. «Гном и Д», 2001
Bu məqalə ingilis dənizçilərinin istifadə etdiyi slənqlərin maraqlı dünyasına nəzər salır və göstərir ki, dənizçilərin gündəlik danışıq dili müasir ingilis dilinə necə təsir edib. Məqalədə vurğulanır ki, dil təkcə ünsiyyət vasitəsi deyil, eyni zamanda mədəniyyətimizi, tariximizi və cəmiyyət həyatımızı əks etdirir. Əvvəllər əsasən dənizçilər və donanma zabitləri tərəfindən istifadə olunan dəniz slənqləri zamanla ümumi danışıq dilinə daxil olmuşdur. Məsələn, "feeling blue" və ya "cat's out of the bag" kimi ifadələr dəniz mənşəlidir, lakin artıq gündəlik dildə tam fərqli mənalarda işlənir. Məqalədə dənizçilərin müxtəlif slənq növləri – hərbi dəniz, balıqçılar və s. – və onların gündəlik həyatdakı rolu araşdırılır. Həmçinin, Rick Jolly kimi şəxslərin dəniz slənqlərini toplaması və araşdırmasının əhəmiyyəti vurğulanır. Ümumilikdə, bu tədqiqat göstərir ki, dəniz slənqlərini öyrənmək yalnız maraqlı deyil, həm də sözlərin tarixini anlamağa, dənizçilik ənənələrinə daha yaxından bağlanmağa kömək edir.

Summary

This article dives into the fascinating world of English nautical slang, showing how sailors' everyday language has shaped and colored modern English. It explains that language is more than just a way to communicate – it reflects our culture, history, and social life. Nautical slang, once used mainly by sailors and naval officers, has gradually found its way into common speech. Phrases like "feeling blue" or "cat's out of the bag" actually have maritime origins and now carry entirely new meanings for most people. The article explores the different types of slang used by sailors – from the navy to fishermen – and how many of these expressions were born out of daily life at sea. It also highlights the unique contributions of people like Rick Jolly, who spent decades collecting sailor slang. Overall, the study shows that learning this kind of language isn't just fun – it helps us understand the history behind the words we use and brings us closer to the rich traditions of seafaring life.

Важность изучения английского морского сленга в социолингвистическом контексте

Резюме

В этой статье рассматривается интересный мир английских морских сленгов и показывается, как речь моряков повлияла на современный английский язык. В статье подчеркивается, что язык — это не просто средство общения, но и отражение нашей культуры, истории и общественной жизни. Морские сленги, которые изначально использовались только моряками и офицерами флота, со временем вошли в повседневный разговорный язык. Например, выражения «feeling blue» или «cat's out of the bag» имеют морское происхождение, но сейчас употребляются в совсем другом значении. В статье исследуются разные виды морского сленга — военный, рыбацкий и другие — и их роль в повседневной жизни. Также подчеркивается важность работы таких людей, как Рик Джолли, который собирал и изучал морской сленг. В целом, это исследование показывает, что изучение морского сленга не только интересно, но и помогает лучше понять историю слов и глубже связаться с морскими традициями.

RƏYÇİ: dos. L.Ələkbərova

İsmayılova Məşmə Əliyulla qızı[79]

DIALOQLAR ZAMANI KÖMƏKÇİ FEİLLƏRİN ROLU

Dialoji nitqdə feillər xüsusi rol oynayır. Bu, hər şeydən əvvəl, ondan irəli gəlir ki, cümlədə xəbərin formalaşması üçün istifadə olunan əsas vasitə feillərdir. Dialoqlarda cümlələr çox zaman sadə olur və onlar sayca da çoxluq təşkil edirlər. Nəticədə dialoqlarda feillər tez-tez işlənir. Feillərin dialoji nitqdə işlənməsinin başqa bir xüsusi cəhəti onların bəzi formalarının, bəzi leksik-semantik qruplara aid olanlarının məhsuldarlığıdır. Qeyd edilənlər həm Azərbaycan, həm də ingilis dilində dialoji nitqə aiddir. Bununla belə, ingilis dilində dialoqlarda bir sıra feillərin məhsuldarlığı özünü daha aşkar şəkildə göstərir. Bu cəhət dissertasiya işi üçün bir qədər bəsit görünsə də, ingilis dilinin bəzi fellərinin işlənmə məqamları, formaları və müəyyən konstruksiyalardakı semantikalarını şərh etməyi, onların Azərbaycan dilində qarşılıqlarının təyin edilməsini aktuallaşdırır.

İngilis dilində cümlədə vəzifəsinə və mənasına görə feillər əsas məna daşıyan, köməkçi, bağlayıcı və modal feillər qruplarına bölünür.

Əsas məna daşıyan feillər müstəqil mənaya malik olur (the National Verbs). Bu feillər cümlədə xəbər funksiyasını yerinə yetirir.İngilis dilində ən yüksək tezliklə işlənən feil *to be* felidir. *To b*e əsas məna daşıyan feil olmaqla yanaşı, köməkçi və modal feillər qrupuna da daxildir.

To be feilin şəxsli növüdür, şəxsə və kəmiyyətə görə dəyişir.

To be feilinin şəxsə görə formaları Azərbaycan dilinin xəbərlik kateqo-riyasının şəxs formaları ilə eyni funksiyanı daşıyır. Məsələn, I am strong - Mən güclüyəm. You are strong - Sən güclüsən və s.*To b*e feilli inkar cümlələrində işləndikdə əlavə *not* hissəciyindən istifadə olunur. İnkar sözü *to be* feilinin müvafiq şəxs formasından sonra gəlir. I am not faint -Mən zəif deyiləm. Qeyd etmək lazımdır ki, danışıq dilində qısa inkar şəklindən geniş istifadə olunur. Məsələn, I amn't faint. She isn't faint. They aren't faint.*To be* feilinin keçmiş zaman formaları şəxslər üzrə dəyişir. *To be* feilli keçmiş zamanlı cümlələrin xəbəri Azərbaycan dilində tərkibində *idi* hissəciyi olan ismi xəbərlə ifadə olunur. Məsələn, I was striong. - Mən güclü idim. To be feilli gələcək zamanlı təsdiq cümlələri birinci şəxsin təki və cəmində shall və ya will, digər şəxslərdə will forması işlənir.Gələcək zamanda *to be* feili Azərbaycan dilində olmaq feilinin gələcək zaman formasının müvafiq şəxs şəkilçisi ilə birləşməsi ilə düzəlir.*To be* feili "olmaq" anlamında işlənir. Əmr cümlələrində *be* istifadə edilir:Be quick!- Cəld ol!

To have feili. Əsas mənalı feil kimi "malik olmaq" mənasını verir. İndiki qeyri-müəyyən zamanda to have feli üçüncü şəxsdə has formasında işlənir:I have a house - Mənim evim var.İnkar cümlələrində *have* sözündən sonra *not* hissəciyi artırılır. *Have* və *not* qısaldılmış şəkildə də işlədilir: haven't. Dialoji nitqdə bu forma məhsuldardır.

Mürəkkəb fel formaları əmələ gətirən fellər köməkçi fellər adlanır. Köməkçi fellərin müstəqil leksik mənası olmur. Onlar zaman, növ, şəkil, bəzi hallarda isə mənalı felin şəxs və kəmiyyət göstəricisi kimi istifadə olunur.İngilis dilində aşağıdakı fellər köməkçi fel funksiyalarını yerinə yetirir: *to be, to have, to do, shall, should, will, would.* Bu fellər *to do* istisna olmaqla hamısı modal fel kimi işlənir. Qeyd olunduğu kimi, *to be, to have, to do* felləri həm də əsas məna daşıyan fellərdir.

To be köməkçi feili Continous və Perfect Continous zamanlarının məlum növünün düzəlməsində iştirak edir. Davamedici zamanı ifadə edən mürəkkəb feil forması *to be* feili ilə mənalı feilin Particible I forması ilə birgə işlənir.İndiki da-vamedici zaman forması danışıq müddətində davam etməkdə olan hərəkəti bildirir. Ona görə də bu zaman forması ilə çox zaman indiki vaxtı göstərən *now*"indi", *at the present moment*"bu anda" zərfləri işlənir. Bununla belə, davamedici zaman forması qeyd edilən zərflər işlənmədən də hərəkətin danışıq anında baş verdiyini ifadə edir. İngilis dilinin bu feili xəbər forması olan cümlələrin Azərbaycan dilinə tərcüməsi zamanı *indi* sözündən istifadə etmək mümkündür:We are looking -Biz indi baxı-rıq!We look -Biz baxırıq.

Göründüyü kimi, ingilis dilində indiki qeyri-müəyyən zaman forması ilə indiki davamedici zaman forması Azərbaycan dilinə eyni cür tərcümə olunur. Lakin ingilis dilində hər bir formanın yerində düzgün işlədilməsi vacibdir. Azərbaycan dilində *indi, bu anda, bu dəqiqə, hazırda* və s. zərflərinin işləndiyi cümlələrin ingilis dilində indiki davamedici zamanla verilməsi lazımdır:Mən indi dostumla danışıram- Now I am talking with my friend.

To be feili əsas məna daşıyan feilin Participle II ilə birləşərək məchul növün bütün zamanlarının düzəlməsində istifadə olunur.Energy is measured in the same units as a work- Enerji işlə eyni vahidlərlə ölçülür.Keçmiş davamedici zaman *to be* felinin keçmiş zaman şəxs formaları ilə Participle I feli sifəti ilə düzəlir:I was calling-Mən çağırırdım.

To be feili başqa feilin məsdəri ilə işləndikdə modal məna daşıyır. Mürəkkəb feili forma hərəkətin nəzərdə tutulmuş plana, əldə edilmiş razılığa uyğun şəkildə baş verəcəyini ifadə edir:*We are to finish with the experiments in two months at the most*- Biz sınaqları ən geci iki aya tamamlamalıyıq.

To be feilinin keçmiş zaman forması ilə Perfect İnfinitive birləşməsi baş verməli olan hərəkətin baş vermədiyini göstərir. He was to have made a report on physical properties of solids –O, bərk cisimlərin fiziki xassələri haqqında məruzə etməli idi.Köməkçi ***to have*** feili mürəkkəb Perfect qrupu feillərinin düzəlməsində əsas məna

[79]ADPU, Xarici Dillər Mərkəzinin baş müəllimi

10.24412/2218-7588-2025-2-274-276

daşıyan feilin Participle II feili sifəti ilə birləşmədə iştirak edir.*To have* feili frazeoloji birləşmələrdə müstəqil məna daşımır. Məsələn, *to have a talk*-danışmaq, *to have a swim*- üzmək, *to have a smoke*- çəkmək (siqaret) və s.*Did you have a talk with our dean yesterday?- Dünən dekanımızla danışdınızmı? Did you have a pleasant time yesterday?- Siz dünən vaxtınızı yaxşı keçirtdinizmi?*

To have feili əsas məna daşıyan feil funksiyasını da yerinə yetirir. Danışıq dilində bu feil Azərbaycan dilinin *var, vardır* formalarına uyğun gəlir: *She has a radio set- Onun radiosu var.*

Haven't, hasn't, hadn't inkar formalırından sonra gələn isimlərdən əvvəl mütləq ya əvəzlik, ya da artikl işlənməlidir:*A liquid hasn`t any shape of its own.- Mayenin xüsusi forması yoxdur.*Danışıq dilində, dialoqlarda I have, he has və s. əvəzinə I`ve got (I have got), He`s got (he has got), keçmiş zamanda I`d got (I had got)və s. istifadə edilir.

To have feilindən sonra məsdər işləndikdə vacib şəklin mənası alınır. Bu, *must* modal feilini keçmiş və gələcək zamanda əvəzetmək məqsədilə istifadə olunur.*You see, there are a number of experiments that have to be done*- Görürsünüz, çoxlu sınaqlar vardır ki, yerinə yetirilməlidir.*They had to carry the wonded from the ambulances to the hospital*- Onlar yaralıları sanitar maşınlarında xəstəxanaya daşımalı idilər.*To have* feilinin belə mövqedə işlənməsi *must* modal feilindən bir qədər fərqli məcburiyyət mənası yaradır.*You will have to make numerous computations* – Siz çoxlu sayda hesablamalar yerinə yetirməli olacaqsınız.*To do* köməkçi feili əmr şəklinin inkarının düzəldilməsində istifadə edilir.Dont go away!- Get-məyin!Təsdiq və əmr cümlələrində feillə ifadə olunmuş hərəkəti xüsusi qeyd etmək məqsədilə *to do* feilinin müvafiq formasından (do, does, did) istifadə edilir. Bu forma əsas məna daşıyan feldən əvvəl artırılır. Belə feil tərkibli cümlələrdə vurğu "to do" feili üzərinə düşür:*George asked me İf I remember our first trip…I answered that I did remember it*.- Corc məndən ilk ekskursiyamızı xatırladığımı soruşdu. …Mən cavab verdim ki, bunu yaxşı xatırlayıram.

To do köməkçi feili əsas məna daşıyan feili əvəz edir. Bu təkrarın aradan qaldırılması məqsədini daşıyır. Əgər əvvəlki cümlədə işlənmiş feilin sonrakı cümlədə istifadə edilməsi lazım gəlirsə, onda təkrar alınmasın deyə həmin feil *to do* feili ilə əvəz olunur:*My father heard it all as plainly as I did*- Mənim atam bütün bunları mənim kimi aydın eşitdi.

Dialoqlarda qısa cavablarda indiki və keçmiş qeyri-müəyyən zamanda olan xəbərdəki feili əvəz etmək üçün to do istifadə olunur:*Who took the dictionary?-I did.*Lüğəti kim götürdü?- Mən götürdüm.*Do you like new play?-Yes, I do.*Yeni pyes xoşunuza gəlir?- Bəli gəlir.

To do feli əsas məna daşıyan feil funksiyasında işlənir. Onun Azərbaycan dilindəki qarşılığı *etmək, eləmək* feilləridir:*Is there anythings I can do for you?*- Mən sizin üçün nə edə bilərəm?

Shall II və III şəxsin tək və cəmində təsdiq və inkar cümlələrində gələcəyə münasibətdə əmr, vacib, vəd, hədə-qorxu, ehtiyatlılıq mənalarını ifadə etmək üçün modal feil kimi istifadə olunur:*It is a law…that the homeless shall not sleep by night in the parks*.- Qanuna görə evsizlərə gecələr parkda yatmaq qadağandır.

Dialoji nitqdə shall I və III şəxsin təki və cəmində sual cümlələrində sualın ünvanladığı şəxsdən göstəriş və razılıq tələb olunanda işlənir:*Shall we read*?- Oxu-yaq?*Shall I translate*?- Tərcümə edim?*Should* köməkçi feili əsas məna daşıyan feillə I şəxsin cəm və təkində Future in the Past formasının lazım şəklini düzəltmək üçün istifadə edilir.Bu, modal feil kimi hərəkətin görülməsinin vacibliyini, mənəvi zəruriliyini ifadə edir.*You should help him* –Siz gərək ona kömək edəydiniz. *Should* köməkçi feili İndefinite infinitive ilə birlikdə indiki və ya gələcək zamana münasibətdə işlənir:*Live it all in my hands…and all will go as it should*- Bunları öhdəmə buraxın, hamısı necə lazımdırsa istifadə olunacaq.*Should* feili hiss bildirən şəxssiz ifadələrlə işlənərək hərəkətin əhəmiyyətini gücləndirir:*It is a pity that he should not come*- Təəssüf ki, o gəlmədi.*It is strange that you should say that* – Sizin bunu deməyiniz qəribədir.

Köməkçi feillər frazeoloji birləşmələrin tərkibində işlənir. Bu zaman onlar müxtəlif mənaları ifadə edir. Məsələn:Be as it may – nə olur olsun.Have been and gone and done it – iş çıxarmaq.Bəzi feillərin əlavə söz və başqa feillə əmələ gətirdiyi formaları ingilis dilində xüsusən dialoji nitqdə hazır qəlib kimi çox işlənir. Məsələn: To be+going+məsdər. Tərkibində göstərilən feili tərkib olan cümlələr hərəkətin, işin yerinə yetirilməsi niyyətini, arzusunu ifadə edir:*He is going to enter the institute*- O, instituta daxil olmağa hazırlaşır:*To be* +about+məsdər.Bu feili forma hərəkətin yaxın vaxtlarda başlanacağını bildirir:*He is about to begin the work*- O, indii işə başlayacaq.*He is about to leave* - O, getməyə hazırlaşır.

İngilis dilində bəzi konstruksiyalar formalaşmış kommunikativ funksiyasını yerinə yetirir. Onlar dildə, xüsusən də dialoji nitqdə geniş istifadə olunurlar. Təsadüfi deyil ki, bu formalar danışıq dilinin öyrədilməsi zamanı ayrıca birləşmələr kimi tədris olunur.

There is və *there are* ifadələri olan cümlələr.Bu ifadələr Azərbaycan dilində "var" və "vardır" sözlərinə uyğun gəlir:*There is* əşya, predmet tək olduqda işlənir:*There is a table in the room*- Otaqda stul vardır.*There are five tables in hte room*- Otaqda beş stul vardır.*Have got* ifadəsi: *I have got lots of friends*- Mənim çoxlu dostlarım vardır.*Have you got a car?*- Sizin maşınınız varmı?

Have+məsdər.Bu tip feili birləşmə felin vacib şəklindən düzəlmiş xəbəri ifadə edir:*I have to speak to your father*- Mən atanızla danışmalıyam.*I had to finish the work*- Mən işi bitirməli idim.

Have+isim+Participle II:*I have my car repaired* –Mənim maşınımı təmir etmişlər.*Why do not you have your hair cut* - Niyə sən başını qırxdırmamısan?

Had better+ əsas fel.Bu tip feili birləşmə kiminsə nəyisə etməsinin yaxşı olacağını bildirir.*I had better wait a little*- Mən bir az gözləsəm yaxşıdır.*He had better stay here*- O burada qalsa yaxşıdır.

Qeyd olunanlar sübut edir ki,fellərin istənilən növü şifahi nitqin, xüsusən də dialoqların qurulmasında və istifadəsində böyük rol oynayır.Bir çox alimlər dilçilikdə köməkşi fellərin işlədilməsi və əhənmiyyəti haqqında tədqiqatlar aparır və zaman keçdikcə bu prosessdə olan dəyişiklikləri şifahi nitqimizin inkişafında təsirini vurğulayırlar.

İstifadə edilmiş ədəbiyyat

1. Axund**o**v A. Ümumi dilçilik. Bakı, "Maarif", 1979, 301 s.
2.Bağırov A.M. Türk dillərində yarımçıq feillər (oğuz qrupu türk dillərinin materialları) nam. diss. avtoreferatı, AMEA Nəsimi adına Dilçilik İnstitutu, Bakı, 1987, 26 s.
3.Викторова Е.Ю. Коммуникатив well и его роль в речевом общении// Проблемы речевой коммуникации. Саратов, Изд-во СГУ, 2000, с.85-91.
4.Михальская А.К. Основы риторики. Мысль и слово. Москва, Просвещение, 1996, 416 с.
5.Смирницкий А.И. Синтаксис английского языка. Москва, Изд-во, Ин. Яз., 1957, 257 с.
6.Carter R. and M. McCarthy. Grammar and the spoken language. Applied Linguistics 16(2)? 1995, p. 141-158.
7. Leech G. English grammar in conversation. //*Language Learning and Computers: Proceedings of the Chemnitz Symposium 20-21 February 1998.* p. 1-10.

Роль вспомогательных глаголов во время диалогов

Резюме

Вспомогательные глаголы играют важную роль в общении на английском языке. К вспомогательным глаголам относятся глаголы do, be и have, will, shall и т. д. Наряду со вспомогательными глаголами их также называют модальными глаголами. Эти типы глаголов играют важную роль в повседневном общении и в более продвинутом использовании английского языка. Модальные глаголы, такие как can, should и would, также являются вспомогательными глаголами. Иногда при использовании этих типов глаголов также используются их эквиваленты из-за разнообразия выполняемых действий.Когда они используются в предложении, они используются по своим собственным правилам и указывают на то, что действие возможно или допустимо.Мы используем их, чтобы сделать наш язык более конкретным и осмысленным. Использование вспомогательных глаголов более активно в устной речи, особенно во время диалогов. В некоторых случаях вспомогательные глаголы используются в разных значениях, местах и обстоятельствах из-за их разнообразия значений. В этой статье также обсуждается важность использования вспомогательных глаголов.

Ключевые слова: диалог, вспомогательные глаголы, модальные глаголы, классификация, устная речь, эквивалент, коммуникативное, фразеологическое выражение, исследование, определение.

The role of auxılıary verbs durıng dıalogues

Summary

Auxiliary verbs play an important role in English communication.Auxiliary verbs include do, be and have, will, shall, etc.Along with auxiliary verbs, they are also called modal verbs.These types of verbs play a big role in everyday communication as well as in more advanced use of the English language.Modal verbs such as can, should and would are also auxiliary verbs.Sometimes when using these types of verbs, their equivalents are also used due to the variety of actions performed.When they are used in a sentence, they are used according to their own rules and indicate that the action is possible or permissible.We use them to make our language more concrete and meaningful.The use of auxiliary verbs is more active in spoken language, especially during dialogues.In some cases, auxiliary verbs have different meanings depending on their place and situation.This article discusses the importance of using auxiliary verbs.

Key words: dialogue, auxiliary verbs, modal verbs, classification, oral speech, equivalent, communicative, phraseological expression, exploring, definition.

RƏYÇİ: dos. S.Abbasova

Mobil Aslanlı Huntürk [80]

NƏSIMININ FIZIKI MƏDƏNIYYƏT DÜNYASI

Dahi Azərbaycan şairi İmadəddin Nəsimi xalqımızın orta əsrlərdə dünya ədəbiyyatına bəxş etdiyi ən nadir simalardan biridir. Azman şair, böyük mütəfəkkir, hürufiliyin əsasını qoymuş, «Cavidnamə», «Məhəbbətnamə», «Novnamə» kimi mənəvi sərvətlərlə ədəbiyyat tariximizi zənginləşdirən Fəzlullah Nəiminin ideyalarının alovlu və ardıcıl təbliğatçısı olmuş Nəsimi, doğma dilində şeirin ilk nümunələrini yaradan, öz mütərəqqi fikirlərini yüksək bədii dillə ifadə etməyi bacaran qüdrətli bir sənətkar kimi tanınır. Hürufiliyin banisi məslək, amal və əqidəsinə pərəstiş etdiyi ustadı Nəiminin görüşlərini mənimsəyərək həmişə təriqətin fikirlərini təbliğ və təşviq edən şeirlər yazmağa başlamış və bu vaxtdan etibarən Nəiminin təxəllüsü ilə həmahəng səsləşən Nəsimi ləqəbini özünə seçir. Hürufilik fikirlərini yaydığı üçün «kafir», «dinsiz» elan edilərək həbs olunub dəfələrlə zindanlara salınan Nəsimi, çox mürəkkəb, ağır və ziddiyyətli bir həyat yaşamışdır. Nəsimi dövründə hürufilik bir məslək, əqidə, dünyagörüşü kimi yayılmışdı. İnsana yeni münasibət, yeni insan anlayışı onun əsasında dururdu. Öz kökü ilə xalqa bağlı olan bu təriqət xalqın ruhunu, ictimai-siyasi görüşlərini, həyat münasibətini əks etdirirdi.

Yaradıcılığında və şəxsi həyatında cismani sağlamlığa, sağlam yaşam tərzinin əhəmiyyətinə, mənalı və uzunömürlülüyün gerçəkləşməsinə böyük şairimiz qədərincə diqqət yetirmişdir.

Bu inkaredilməz həqiqətdir ki, həyatında səyahət və gəzintilərə bu qədər geniş yer ayıran, sağlam, gümrah bədən sahibi olan sevimli şairimiz bu gün müasir idmanda turizm və alpinizm növlərində yüksək rekord nəticələr göstərmiş hər hansı bir atletin fiziki ustalığı, pəhləvanlıq məharəti ilə müqayisə edilə bilər.

Qeyd etməliyik ki, şairin fiziki tərbiyə məşğələlərinə, habelə cismani gümrahlığa və uzunömürlülüyə başlıca amil olan sağlam yaşam tərzinə ciddi aludəliyi və yüksək fiziki hazırlığı şairə əsl turist tək gəzinti, ekskursiya şəklində çox uzaq məsafələrə səyahətləri qət etməsinə imkan vermişdir. İran, İraq, Türkiyə, Suriya, Səudiyyə Ərəbistanı, Misir, Mərakeş, İordaniya, Yaxın və Orta Şərqin çox-çox məmləkətlərini gəzib dolaşan şair, həmçinin Qafqazın da gözəl diyarlarına baş çəkmişdir.

Professor Nurəddin Kərəmov şairin irimiqyaslı səyahətlərini təhlil edərək onun bəzi şeirlərində sətiraltı mənada daha çox ölkələrdə olduğu fikrini açıqlayır: «Nəsimi bəzi şeirlərində «Yeddi iqlim»in adını çəkir. O, gəzdiyi yerlərin adını göstərsə də konkret olaraq hansı iqlimdə olduğunu qeyd etmir. Şairin olduğu ölkələri nəzərə alsaq onun ancaq üçüncü, dördüncü və beşinci iqlim zonalarının bir hissəsində yerləşən ölkələri gəzdiyini göstərmək olar. Ömrünün qırx ilini Asiya, Afrika ölkələrini gəzib-öyrənməyə sərf etmiş Azərbaycanın məşhur səyyah-çoğrafiyaşünası H.Z.Şirvani üçüncü iqlim zonası haqqında yazır ki, bu iqlim Şərqdə Çin və Hind-Çindən başlayıb, Hindistanın ortasından, Türkiyənin cənubundan, Kabil, Mərkan, Sistan, Fars, Korman, Xuzistan vilayətlərindən, həmçinin Diyarbəkirin cənubundan və İraqdan keçib Suriyaya daxil olur. Sonra Misirdən və Afrikanın şimalından keçib okeanla birləşir… Z.Şirvaniyə görə dördüncü iqlim şərqdə Çindən, Tibet dağlarından, Kəşmir, Bədəxşan və Əfqanıstanın bəzi şəhərlərindən, Türküstan, Turan, Xorasan, Kirman, İraqi-Əcəm, Darülmərəz (Rəşt), Azərbaycan (İran Azərbaycanı), Ermənistan, Türkiyədən, Aralıq dənizindən, Kipr adasından, Tripolidən, Əlcəzairin qərbindən keçərək okeanda qurtarır… Beşinci iqlim isə Qafqazı tam əhatə edir (Azərbaycan tamamilə bu iqlim daxilində qalır), qərbdə və şərqdə onunla bir paraleldə yerləşən ölkələri əhatə edir.

Mətin iradə, dönməz əqidə, məslək və amal sahibi Nəsiminin mənsub olduğu hürufi təriqəti zülm, mövhumat və xurafatla barışmayanların təriqəti idi. Məhz belə mənəvi qəhrəmanlığına görə alovlu şair mənalı ömrünün sonuna kimi hürufi olaraq qaldı. Sarsılmaz hünərilə bütün Yaxın Şərq folklorunda, ədəbiyyatında cəsarət, qorxmazlıq və fədakarlıq rəmzinə çevrilən Nəsimi həm öz təbiətinə sadiq qalaraq mənsub olduğu təriqətin tələbinə uyğun hərəkət edərək şeirlərində mərdliyi, kişiliyi təbliğ edir, mütiliyi, acizliyi, cılızlığı isə mənfur əlamətlər kimi lənətləyirdi. Böyük sənətkarımız Eynəlqüzzat Miyanəçi, Şihabəddin Sührəverdi, Şəms Təbrizi, Şah Qasim Ənvar kimi sələflərinin, habelə müəllimi Fəzlullah Nəiminin əsərlərində də ən çox bu cəhətləri axtarmış, habelə onların ideya məzmunundan və poetik xüsusiyyətlərindən bəhrələnirdi.

Bu bir həqiqətdir ki, Nəsimi Həllac Mənsur islam dininin bir sıra eybəcər prinsiplərinə çox tənqidi yanaşmış, müxtəlif dini etiqadlara inanan insanlar arasında ayrı-seçkilik salmağın qəti əleyhinə çıxmış, müsəlman olmayan xalqlara da dərin rəğbət bəsləmiş və dini qanunların formalizminə, əsarətinə qarşı etiraz səsi ucaltmışdır. Dönməz məslək, amal mücəssəməsi, qorxmaz qəlb sahibi islam dininin və feodal zülmünün hökmranlığı şəraitində öz tərəqqipərvər görüşlərini, panteist ideyalarını misilsiz bir cəsarətlə, son nəfəsinə qədər müdafiə etmiş, hətta ən böyük işgəncə, əzabdan, hətta dar ağacından asıldığı zamanda belə öz etiqadından dönməmişdir. Akademik M.Quluzadə onun ideya davamçılarından biri olan Nəsimi məğrurluğu barədə yazırdı: «… Həllac Mənsur bütün Yaxın Şərq ədəbiyyatında əsrlər boyu mərdlik, rəşadət, qorxmazlıq və fədailiyi tərənnüm edən şeirləri Nəsiminin ruhuna, zövqünə çox uyğun gəlmişdi».

Söz və qılınc bahadırı Şah İsmayıl Xətai Nəsimi yenilməzliyi, Nəsimi şücaəti, onun qeyrət və məsləki qarşısında baş əyir, səcdə qılırdı. Şah İsmayıl bu inadkar, qətiyyətli böyük mütəfəkkirin şeir kahkaşanında at oynatması, parlaq təfəkkürü, iti hafizəsi, güclü fəhm və fərasəti, hazırcavablılığına heyrəti gizlədə bilmir. Millətinin Nəsimi tək türk oğlu olduğundan fəxarət duyur, dərin qürur hissi keçirir və özünə mürşüd saydığı azadlıq carçısının, sevimli ustadının

[80] **Pedaqogika üzrə elmlər doktoru "Dədə Qorqud" ETL-nın baş elmi işçisi**

10.24412/2218-7588-2025-2-277-280

qəhrəman ruhuna, sarsılmaz iradəsinə sonsuz məhəbbətilə poeziyasında xüsusi yer ayırır:

Mehrü vəfa biri-birindən azdı,
Bəhlul beyquşleyin viranda gəzdi.
Seyyid Nəsimini zahidlər üzdi,
İnciməsi həqdən gələn cəfayə.

Şah İsmayıl Xətai şeirlərinin biri də Nəsimini məslək və amal uğrunda dönmədən ardıcıl mübarizə aparan, bu yolda böyük fədakarlıq göstərən və ölümdən zərrə qədər qorxmayan Həllac Mənsurla da müqayisə edir:

Şah Xətayi didarə bax,
Mənsur ipin boynuma tax.
Nəsimi oldu haqla-haq,
O üzülən dərisidir.

Nəsiminin adı Yaxın Şərq folklorunda, ədəbiyyat tarixində qorxmazlıq, fədakarlıq, cəsarət və sədaqət rəmzinə çevrilmişdir. Təzkirə müəllifləri şairi gözəl, zərif, şirin, olduqca dərrakə sahibi olan incə sözləri anlayan bir insan kimi tərifləmiş, şeirlərindən məhəbbətlə söz açmışdır. XIV əsr türk təzkirəçisi Lətifi isə, Nəsiminin «eşq meydanının sərbazi-bibimi (qorxusuz əsgəri) və məhəbbət Kəbəsini fədayiyi-əzimi» (böyük fədaisi) adlandırmışdır.

XIV-XV əsrlərdə hürufilər Anadoluda, Orta və Kiçik Asiyada xüsusilə çox təqib olunurdu. Fəzlullah Nəimi müridlərinə məsləhət görürürdü ki, bu ölkələrdən heç birinə getməsinlər, bacarsalar Gilana, Mazandarana getsinlər. Hələbə isə heç bir zaman addım basmasınlar, kim Hələbə getsə, şübhəsiz ki, onu ölüm gözləyir.

Şair Şərqin görkəmli sufi mütəfəkkirlərindən Həllac Mənsura daha çox üstünlük verir, onu zəmanəsinin ən cəsur, müdrik, fədakar və vətənpərvər bir alimi adlandırır. Əqidəsi, amal və məsləki yolunda sabitliyinə görə ona meyl göstərir, «ənəlhəqq» ideyasına tərəfdar çıxır, cəhalətə, nadanlığa qarşı Həllac Mənsurun mübarizəsini ürəkdən bəyənir, onun yolu ilə getdiyinə dərin iftixar hissi keçirir, şərəf duyur və bununla öyünür:

Daim ənəlhəqq söylərəm, həmqən çü Mənsur olmuşam,
Kimdir məni bərdar edən, bu şəhrə məşhur olmuşam.

Nəsiminin özü də Şərq bədii-ictimai fikri tarixində ikinci Həllac Mənsur idi. «Ənəlhəqq» ideyası bütün yaradıcılığı boyu, Nəimidən hürufiliyi qəbul edəndən sonra da Nəsimini düşündürmüşdür. Şair özü bunu belə mənalandırırdı:

Əzəldən iɜmiєəm cami-səfa mən
Onunçun söylərəm hər dəm ənəlhəqq.

Böyük şairin müqtədir araşdırıcıları olan akademik Həmid Araslı da bahadır ürəkli, pəhləvan şücaətli, cahangir xislətli türkün bu cavanşir övladının misilsiz cürət və fitirətini paralel şəkildə götürərək onu zəka və ərdəmliliyin müstəvisində verir. Tədqiqatçı bütün əsrlər boyu bənzəri olmayan türkün «cəsarət simvolu» olan cahanşümul oğulları arasında Nəsimi təxəyyülü, Nəsimi qəhrəmanlığının ilahi vergisi kontekstində real gerçəkliyini təqdim edir. «Beş əsrdən artıqdır ki… Nəsiminin şərəfli adı Yaxın Şərqdə mərdlik, fədakarlıq və iradə rəmzi kimi hörmətlə çəkilir… məsləki uğrunda dara çəkilib dərisi soyulan, son nəfəsində belə sözündən dönməyən bu mərd insanın faciəli ölümü şairlərin şeirlərində, aşıqların sazında tərənnüm edilir… Zindanda qaldığı müddətdə Nəsimi qazi və ruhaniləri, müftiləri ifşa edən kəskin şeirlər yazır, ölümdən qorxmadığını, məsləki uğrunda hər cür əziyyətə dözməyə hazır olduğunu ifadə edən hərarətli əsərlər yaradır».[81]

Bu bir danılmaz həqiqətdir ki, Nəsimi hakim təbəqənin zülm və özbaşınalığını, ədalətsizliyinə qarşı cəsarətlə mübarizəyə qalxır, bivec adamların mənsəb başına keçdiyi, hünər sahiblərinin isə ehtiyac və səfalət pəncəsində çapalanması, elmə, istedada məhəl qoyulmayan feodal dünyasının haqsızlığına əzmlə sinə gərərək üsyan edirdi.

Şairin dözülməz müsibətlərlə, ağır məşəqqətlərlə dolu keşməkeşli həyatı, onun ölümünə fətva verilərkən belə vüqarını əyməmiş, hətta zindana salınarkən şəstlə addımlamış, qürurunu, qəddini əyməmiş, onun mərdanə davranışı, məntiqi mühakimələri, sərrast cavabları neçə əsrdir ki, əfsanələrə, rəvayətlərə, nağıllara, zərb məsəli və aforizmlərə çevrilmişdir.

Sarsılmaz iradəyə, mətin xarakterə malik, gümrah, qıvraq vücudunda bələnmiş cismani sağlamlıq, ruhundakı saflıq, səbatlılıq, parlaq təfəkkür, iti fəhm-fərasət şairin fiziki və mənəvi cəhətdən yetkin bir şəxsiyyət olduğunu şərtləndirən başlıca amil idi. Heç şübhəsiz ki, zəmanəsinin mənəvi eybəcərliyindən gələn bir ictimai bəla idi ki, şairin düçar olduğu nadanlıq və cəhalətin bürüdüyü bir məmləkətdə elə dözülməz ağır işgəncələrə tab gətirmək Nəsimi kimi böyük tarixi şəxsiyyətdən həm də yüksək iradi və fiziki möhkəmlik tələb edirdi.

Dahi şairimizin əfsanəvi şücaəti, parlaq təfəkkürü, onun bənzərsiz ideya mücahidi kimi fədakarlığı Osmanlı mənbələrində də geniş təqdim edilir. Nəsimi ilə şəxsən görüşən türk şairi Rəfii «Bəşarətnamə» adlı poemasında böyük Azərbaycan şairinə dərin məhəbbətini bildirərək Nəsimi ilə tanış olmaq, şeirlərini oxumaq sayəsində yaradıcılığın işıqlı yollarına çıxmasından, mənəvi cəhətdən ucalmasından danışır. Nəsiminin insanları doğru yola çağıran, onların yüksəliş, kamal yolu göstərən, aylar, illərlə zindanlarda yatan, bəladan qorxmayan, İsa kimi səyahət edən, hər yerdə həqiqəti söyləyən, cəsur, mərd, fədakar bir qəhrəman kimi tərif edir, ona öz pərəstişkarlığını bildirirdi.

Altıncı yüz illiyə qədərdir ki, adı dünya ədəbiyyatında ölçüyə gəlməz faciəli ölümü ilə qürurluq, fədakarlıq və iradə rəmzi kimi qərarlaşan Nəsimi özünə ədalətli bir mərdlik, igidlik abidəsi qoymuş. Ləyaqətli ömrünə, şərəfli ölümünə sayagəlməz ibarəli sözlər, tutarlı məqalələr və sanballı əsərlər yazılmış şairin işgəncə, züml, qədərsiz əziyyət

[81]Nəsimi İ. Seçilmiş əsərləri (Ön söz H.Araslı). Bakı: Azərnəşr, 1973, səh. 5-7.

və əzablarla dolu edam çağında belə bir dəfə də uf(!) deməyən Nəsimi həyatı, Nəsimi ömrü, şair Əli Kərimin təbiricə desək, «Ölümün Nəsimi zirvəsi» deyən əmsalsız söz bahadırının, fikir cahangirinin sanki ideya davamçılarını axtarır. Nəsimi öz şeirlərini sakit, rahat və asudə həyat şəraitində yaratmamışdır. O, qüvvətli ideya düşmənlərinin əhatəsində mərd, qorxmaz bir sənətkar kimi yaşayıb-yaratmış, ölkələr gəzərək öz şeirlərini xalq kütləri içərisində misilsiz bir cəsarətlə təbliğ etmişdir.

Millətin gənc nəslini möhkəmbədənli, iri cüssəli, sağlam vücudlu və dəyanətli görmək istəyən Nəsimi, onları həm də zəmanəsinin ictimai ədalətsizliyə, özbaşınalığına və hərcmərcliyə qarşı mübariz, inadkar və qətiyyətli igidlər kimi tərbiyə olunmasını da ön plana çəkir:

Eşq ilə meydanə möhkəm ər gərəkdir kim girə,
Hər hünərsiz hümmətisüstün yeri meydan degil.

Böyük Nizami milli düşüncələrimizi əqidə və qeyrət cahangiri «kamillik»də, cismani möhkəmliyə, ruhi sağlamlığa, fiziki yetkinliyin yüksəlişinə xüsusi yer ayıraraq, «misilsiz hünər, əzəmətli şücaət» göstərməyənləri istər elmə, tərbiyəyə, istərsə də eşqə, dostluğa, bir sözlə, bütövlüyə layiq olmayan kəslər hesab edir. O, fiziki inkişafı, sağlamlığı idrakın, əqlin, əməyin, xüsusilə də igidlik və fədakarlığın əsas şərti kimi dəyərləndirirdi. Nəsimiyə görə, yüksək fiziki hazırlıq, fiziki təkmilləşmə döyüş meydanlarında rəşadət göstərməyin əsas meyarı kimi qiymətləndirilməlidir.

Şair nəfsə, tamaha, bir sözlə, əxlaqi qüsura, mənəvi cılızlığa son qoymaq, onlarla mübarizədə qalib çıxmağı ağlın hislər üzərində qələbəsi kimi dəyərləndirirdi. Onun fikrincə, nəfsin boğulması insanın mənəvi paklığına, əxlaqi saflığın, sağlam ruhun tərbiyəsinə dəlalət edir. Belə ki, lazım gələn yerdə özünü pis əməldən çəkindirməyi bacarmaq, ən zəruri belə şəxsi maraq, mənafe naminə addım atılan anda özünü dayandırmaq insandan güclü xarakter, mətin iradə və sarsılmaz dəyanət tələb edir. Bu kimi iradi-mənəvi əlamətlər fiziki keyfiyyətlərin, fiziki inkişafın nəticəsi kimi şərtləndirilməlidir. Nəsimi nəfsini gizlədən, tamahını boğan adamı şücaətli, davamlı bahadırla, yenilməz cəngavərlə müqayisə edir:

Nəfsini öldürməyən gər Bijənü Söhrab isə,
Pəhləvan olmaz adı, həm Rüstəmi-dəstan degil.

Hürufiliyin alovlu təbliğatçısı, mübariz, prinsipial üsyankar şair bütün bu nümunəvi fikirləri ilə bir daha sübut edir ki, o, özünün iradi-əxlaqi və fiziki-cismani cəhətdən nə qədər yetkin olduğunu bir daha təsdiq edir:

Pəhləvan ol kimdir, kim nəfsin qətl eylər.

Nəsimi dövrünün həm də mahir təbabət bilicisi və gözəl bir loğmanı kimi fiziki tərbiyə və sağlam həyat tərzi problemi ilə bağlı irəli sürdüyü mülahizələrində, ardıcıl surətdə insana öz səhhətini qorumaqda daxili üzvlərin və orqanların mərəzə düçar olunmasına qətiyyən yol verilməməsini israr edir. Onun fikrincə, «şəmsü-xurşidi-təban» ürəyi, «zöhrə» adlandırdığı böyrəkləri, dalağı, ödü, bağırsaqları, boyu, sümüyü, dişləri, sinirləri və s. qorumaq, onları xəstələndirməmək lazımdır. Çünki bu orqan üzvləri həm sağlamlıq, həm nəfəs, həm inkişaf, həm də fəaliyyət üçün zəruridir:

Ütarid təbimiz böyrək bu Zöhrə,
Ürəkdir şəmsü zurşidi-tabanım.
Dalağ oldu Zühəl, Mərrix həm öd,
Bağırsaq Müştəri, göbək Mizanım.
Boyum – Suü qolum, – Covza bilirmən,
Bu sözdə yoxdur zərrə cümanım.
Sümük-torpaq, diş yeldir, çinir – yer,
Olur od, qanü ət abi-rəvanım.
Vücudda bəlğəmü sevdavü səfra,
Qılır qəlbə olur, sərçeşmə canım…
Əsəd köksümdürür, əmcək Səratan
Bağırsaq Sünbülə, göbək Mizanım.

Şair insan orqanizminin möhkəmlənməsi, habelə sağlamlığın qorunub saxlanılması, onun ahəngdar inkişafı üçün bütün orqanizmin hər bir üzvünün biri digərini təcrid etməmək şərti ilə mühafizəsinə diqqət yetirməyi məsləhət görür, oynaq və əzələlərin mütəhərrikliyi və çevikliyini sağlam və gümrahlığa dəlalət etdiyini bildirir:

Zəkər – Əqrəb, Qövs – bud, Cədi – dizlər,
Aşıqlar Dəlvdir bəllü bəyanım.
Solum Məğrib, sağım Məşriq, yəmən – ön,

Baş üstün, sol yasar üstdən dabanım. Göründüyü kimi Nəsimi insan orqanizminin müxtəlif üzvlərindən bədii vasitə kimi istifadə etməklə, həmin orqanların funksional imkanlarını, sağlam yaşamaqda onların daim mühafizə olunmasının zəruriliyini göstərir.

«Səhhət və Mərəz» əsərinin müəllifi böyük şairimiz Füzuli heç şübhəsiz ki, başdan-başa təbabət elmindən xəbər verən, insanın daxili orqanlarının rolu və əhəmiyyətini göstərərək Nəsimi yaradıcılığına müraciət etmişdir. Şair antik yunan filosofları Hippokrat, Sokrat, Horatsi, Platon, eləcə də azman şairimiz Xaqanidən «öd, şirə, qan, bəlğəm» əxz edərək, onlardan «çahar ünsür» şəklində tətbiq etməklə yunan və Azərbaycan klassiklərinin mütərəqqi ənənələrini davam etdirdiyini bildirirdi.

Böyük şairimiz fiziki əmək, fiziki tapşırıqların icrasında insanın yaş xüsusiyyətlərini, habelə orqanizmin potensial

imkanlarına nəzər yetirməklə yanaşı, həm də hər bir şəxsin öz fiziki-cismani vəziyyətini, bədənin imkan səviyyəsinə uyğun məşğul olmasını məsləhət buyururdu. Belə ki, o, insanın yaş dövrlərini ilin «dörd fəslinə» bənzədərək, hər bir fəslin havasına müvafiq ab-havası olduğu kimi, insanın da ayrı-ayrı yaş mərhələlərində müxtəlif vəziyyətlər keçirdiyini də göstərdi:

Könülün qütbidir gərdunda gərdan
Görünər arxadəki kəhkəşanım…
Əl-ayaqdır qamu işlərdə kamil,
Qulaq naib dürür, göz didəbanim…
Təvarix beyyinat gərdiş təvəqqüf
Olur bir nöqtədir, ey nüktədanım.
Qaranqu qayğıdan, şadlıq işıqdan
Olur batin nihan, zahir əyanım.
Yenə dırnağı dişlər oldu mədən,
Sümüklərdə iliklər oldu kanım.
Vücudum dörd fəsil oldu ənasir,
Bulud öfgə, yaşım yağmur yağanım.

- yazan şair yaş səviyyələrinə görə sağlamlıq və səhhəti qorumağı göstərirdi. Təsadüfi deyildir ki, şair «sağlamlığının qeydinə qalmayan» kəsləri «davar» adlandırmış, habelə həmin şəxslərin «həyat şahmatı»nı oynamağa qadir olmayan adamlar hesab edirdi.

Yaradıcılığında şəxsiyyətin əqli, mənəvi və intellektual səviyyəsinə yüksək qiymət verən Nəsimi, eyni zamanda sağlam insanı kamil şəxsiyyət üçün vacib hal sayırdı. Odur ki, mətin, əzmkar və sağlam insanların formalaşmasında fiziki əməyi, bədən tərbiyəsi hərəkətlərini, habelə sağlam yaşamı mühüm vasitə hesab edən Nəsimi, gümrahlığı «xəyalın nəqşi» adlandıraraq daim ona malik olmağı vacib şərt hesab edirdi.

Nəsimi fiziki və əxlaqi saflığı bir-birilə üzvi surətdə əlaqələndirərək biri digərini tamamlayan, onları vəhdətdə təmin olunmasını bir meyar kimi təqdim edir. O, fiziki yetkinliyi, əqli təfəkkürü, əqidə bütövlüyünü, mənəvi kamilliyi, iradi keyfiyyətləri, əməksevərliyi, insanın fiziki inkişafını bilavasitə sağlam yaşam tərzi ilə sıx bağlılığını inandırıcı şəkildə sübut edirdi.

Xülasə

Məqalədə dönməz əqidə və dərin məslək sahibi, bütün mənalı həyatı boyunca böyük amallar uğrunda mübarizə aparan məğrur, yenilməz söz və fikir cahangiri olan böyük şairimiz Nəsiminin obrazı təsvir olunur. O, dövrünün ədalətsizliyinə qarşı mərdliklə çıxmış, haqq uğrunda mübarizədən çəkinməməsində fiziki qüdrətin və fiziki kamilliyin əlahiddə rolu olmuşdur. Onun inadkarlığı, qətiyyəti, təşəbbüskarlığı və təmkinliyi zaman keçsə də, bu gün də xalqımız üçün əvəzsiz örnək olaraq qalır. Nəsiminin irsi və şəxsiyyəti türk övladları üçün hər zaman nümunə olub və bu, onun xalqın yaddaşında silinməz iz qoyduğunun bariz sübutudur.

Açar sözlər: fiziki tərbiyə vasitələri, fiziki keyfiyyətlər, təbii və gigiyenik amillər, iradi-cismani əlamətlər, sağlam həyat tərzi, mənəvi-əxlaqi xüsusiyyətlər

Summary

The article portrays the image of our great poet Nasimi — a person of unwavering beliefs and deep ideals, who devoted his meaningful life to fighting for noble causes, a proud and invincible warrior of word and thought. He bravely stood against the injustices of his time, and his physical strength and perfection played a significant role in this struggle. Despite the passage of time, his perseverance, determination, initiative, and composure remain an invaluable example for our people today. Nasimi's legacy and personality have always served as a model for Turkic descendants, which clearly demonstrates the indelible mark he left in the memory of the nation.

Keywords: means of physical education, physical qualities, natural and hygienic factors, volitional-physical traits, healthy lifestyle, moral and ethical characteristics

RƏYÇİ : dos. S.Abbasova:

Allahverdiyeva Səfurə Bayram qızı [82]

KİTABİ-DƏDƏ QORQUD DASTANLARINDA TƏRBİYƏ MƏSƏLƏLƏRİ

Xalqımızın müdrikliyini əks etdirən "Kitabi-Dədə Qorqud" dastanı dünya miqyasında ən çox tədqiq edilən ədəbi abidələrindən biri olub el-obaya məhəbbət hissini, dogma yurda, xalqa sevgi, övlada qayğı, ağıllı övlad tərbiyəsi, valideynəhörmət, milli ənənələrin və xalqımızın minillik müdrikliyini özündə yaşadan tarixi bir salnamədir. Dastanın boylarında müxtəlif hadisələrdən və ayrı-ayrı oğuz igidlərinin qəhrəmanlığından bəhs etsə də, obraz və qəhrəmanların ümumiliyi fonunda vahid və monolit bir dastan təsiri bağışlayır.

Qəhrəmanlıq ruhu dastanların əsas qayəsini təşkil edir, igidlər yalnız öz şücaətlərilə ad-san qazanır, igidlik və şücaət göstərməyən cavanlara ad verilmir, hörmət olunmur.

Dastanların əsas ideyasını təşkil edən qəhrəmanlıq ruhu el-obaya, vətənə məhəbbət ilə ayrılmaz vəhdətdədir.

Oğuz bəyləri öz doğma yurdlarını qorumaq üçün hər cür fədakarlığa, çətinliyə hazırdılar. Bu igidlər arasında məqsəd birliyi, ümumi mənafe naminə düşmənə qarşı birgə mübarizə ruhu hakimdir.

Dastanlarda oğuz bəylərinin mübarizə apardığı düşmən qəbilələri haqqında da ətraflı məlumat verilmişdir.

Oğuz igidləri bir səbəb olmadan başqa ölkələrə hücum edib, müharibə aparmırlar. Onların özgə torpaqlarında gözü yoxdur. Öz doğma yurdları onlara hər şeydən əzizdir.

"Salur Qazanın evinin yağmalanması boyu"nda yurd sevgisi daha qabarıq tərənnüm edilir.

"Qazan bəy Qonur atını mahmızladı, yola düşdü".

Gəlib yurduna çatdı. Gördü ki, yurdunda bir taze qalıb, quzğun dolaşır. Qazan bəy burda yurdu ilə soraqlaşıb, görək xanım, necə soraqlaşıb, nə demişdir:

Qohum-qəbilələri koman-yurdum,
Qulanlar sığına-keyikə qonşu yurdum.
Səni düşmən hardan talayıb, gözəl yurdum
Uca evimin tikilisi, yurdu qalmış
Qoca anamı oturduğu yer qalmış
Oğlum Uruzun ox atdığı nişan qalmış
Bəylərin at çapdırdığı meydan qalmış
Qara mətbəxin yerində ocaq qalmış.

Bu halı görəndə Qazanın qara qıyıq gözləri qan-yaşla doldu. Qanı damarlarında qaynadı. Qara bağrı sarsıldı. Qonur atını dizləri ilə vurub, kafirin keçdiyi yola düşdü, getdi.

Dastanda ana obrazı vətən rəmzi kimi ümumiləşdirilir, ana haqqı tanrı haqqı kimi qiymətləndirilir.

Əsir düşmüş Burla xatunun "Sənin ətindən, ay oğul, yeyimmi? Yoxsa iyrənc dinli kafirin döşəyinə girimmi?" sualına Uruz belə cavab verir: "Ağzın qurusun, ana. Dilin qurusun, ana. "Ana haqqı – tanrı haqqı" deyilməsəydi, qalxıb yerimdən durardım, yxandan, boğazından tutardım... Qoy ətimdən çəksinlər, qara qovurma edib, qırx bəy qızının önünə aparsınlar. Onlar bir yeyəndə, sən iki ye. Kafirlər duymasınlar, səni tanımasınlar. Təki murdar dinli kafirin döşəyinə düşməyəsən. Atam Qazanın namusunu sındırmayasan".

Salur Qazan da hər şeydən imtina edir, anasından başqa, "Qaraca Çoban, qoy anamı kafirdən istəyim, at ayağı altında qalmasın" – deyir, sonra kafirə üz tutur.

Qoca anamı gətirmişəm, ay kafir,
Anamı ver mənə
Savaşmadan, vuruşmadan qayıdım geri,
Dönüb gedim.

Nə ananı, nə də vətəni heç kəsə vermək olmaz. Onun yolunda ölmək olar. Bu ölüm şərəflidir, igidlikdir.

Qazan xan döyüş meydanında mərddir, məğrurdur, "qaçanı qovmur", "aman diləyəni öldürmür", ər kişilərdəndir, əhv etməyi bacarır.

Doğma yurda bağlılıq yağının dişini qarnına töküb. Vətən məhəbbəti düşməni yerlə yeksan edib. Yurdsevərlik açalıqdan, evdən çıxıb, el-el, oba-oba yayılıb, bir yurdun içindən, çölündən keçərək dönməzliyə çevrilib.

Azərbaycan bədii təfəkküründün abidəsi olan "Kitabi-Dədə Qorqud" dastanlarında diqqəti cəlb edən məsələlərdən biri də ölkənin müdafiə olunması üçün əhalinin say artımıdır.

Övladın dünyaya gəlməsi hər bir ailənin müqəddəs vəzifəsi sayılır. Oğuz elinin böyütdüyü Bayandır. Xan bunu dərindən duyur. Oğuz elinin qorunması və möhkəmlənməsini ailəyə oğul və qız övladının gətirilməsində görür. Övlad ata-ananın, vətənin qoruyucusudur.

Bu gün düşmən ayaqları altında qalan torpaqlarımızı 44 günlük müharibədə azan edən, qələbə qazanan mərd oğulları dünyaya gətirən tərbiyə verən Burla xatun kimi mərd, dözümlü, dəyanətli, ləyaqətli, qeyrətli analarımız var. Bu analar bu gün hər birimizə örnəkdir.

Ədəbiyyat

1. Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu. https://edu.gov.az/az/esas-senedler/tehsil-haqqinda-azerbaycan-respublikasinin-qanunu

[82] **Əməkdar müəllim, Pedaqogika kafedrasının dosenti, pedaqogika üzrə fəlsəfə doktoru**
10.24412/2218-7588-2025-2-281-282

2. L.Qasımova, R.Mahmudova. Pedaqogika. Bakı, 2023
3. Kitabi-Dədə Qorqud dastanı. https://az.wikipedia.org/wiki/Kitabi-D%C9%99d%C9%99_Qorqud

Kitabi-Dədə Qorqud dastanlarında tərbiyə məsələləri

XÜLASƏ

Məqalədə xalqımızın müdrikliyini əks etdirən "Kitabi-Dədə Qorqud" dastanı, onun əsas qayəsi, el-obaya məhəbbət hissini, doğma yurda, xalqa sevgi, övlada tərbiyəsi, milli-mənəvi dəyərlərimizi özündə yaşadan bir abidə kimi təhlil olunur.

Вопросы воспитания в дастанах Книги Деде Коргута

РЕЗЮМЕ

В статье анализируется эпос «Книга Деде Коркута», отражающий мудрость нашего народа, его основную идею, любовь к племени и общине, привязанность к родной земле и народу, воспитание детей, а также рассматривается как памятник, в котором живут наши национально-нравственные ценности.

Matters of Upbringing in the Dede Korkut Epics

SUMMARY

The article analyzes the epic "The Book of Dede Korkut," which reflects the wisdom of our people, its main theme, love for the tribe and community, affection for the homeland and nation, the upbringing of children, and is regarded as a monument embodying our national and spiritual values.

RƏYÇİ: dos. E.Vəliyeva

Nigar Valiyeva [83]

ARTIFICIAL INTELLIGENCE: FROM THEORY TO PRACTICE

In modern society intercultural dialogue is not a conversation between two cultures, but a close interaction of them. Globalization is developing rapidly during intercultural dialogue. The process of globalization, covering various spheres of life, is universal, as for thousands of years separated, remote to some extent, differential events – national or regional peculiarities, habits, complexes strongly influenced by modern technologies, approaching each other with incredible speed and combine as a result of multifaceted economic, socio-political, moral and ideological ties, limiting the kind of peculiarities, lead to the events and processes happening in the world [Valiyeva: 2013, p.1].During intercultural communication, "business relationships arise when communication becomes relevant in mutual situations and social relationships. ....The main purpose of communication is not only to transmit or receive information, but also to support it, to be able to bring mutual understanding between people to a higher level and to build it. This is also achieved through the cultural factor"[Mammadli: 2023, 19-21].

Recently, the issue of researching artificial intelligence has become widespread all over the world, including in Azerbaijan. Artificial intelligence (AI) in a broad sense is the intelligence displayed by machines, especially computer systems.It is a field of computer science that develops and studies methods and software that allow machines to understand their environment and use learning and intelligence to perform actions that maximize their chances of achieving their goals. Such machines are called artificial intelligence.The point is that there is a lot of material about artificial intelligence in English and Russian. However, considering that not everyone knows foreign languages perfectly; let's answer the question "what is artificial intelligence?' for the Azerbaijani-speaking audience. Artificial intelligence (AI) is a field of computer science that develops programs that can perform intelligent tasks that require human thinking, such as speech recognition, data analysis, and decision-making.In simpler terms, artificial intelligence (AI) is the desire to create machines that can think and act like humans. AI aims to replicate human-like cognitive processes such as learning, problem-solving, decision-making, perception, and recognition.For example, automation of intelligent tasks: AI allows tasks that typically require human intelligence to be automated, such as language translation, image recognition, and robot control. Or it is used in the use of algorithms and data: AI relies on algorithms (rules and instructions) and data (large amounts of information) to learn and make decisions.

Təqlid etmək fiziki və ya hərəki nümayişdir, hərəkət fellərini öyrədərkən çox effektivdir. Təqlid zamanı yeni söz müxtəlif hərəkətlərlə təsvir olunur və şagird bu sözü tapır. Şagirdlər üçün əyləncəli və yadda qalan bir üsuldur. Lakin bu üsul daha çox tədrisin aşağı mərhələsində effektlidir. Nobel mükafatçısı alman fiziki Maks Plankın araşdırmalarına əsasən yeni söz öyrədərkən müxtəlif hərəkət və jestlərdən istifadə etmək çox təsirlidir. Plankın fikrincə, təqlidlə lüğət öyrənmək oxumaq və ya dinləməkdən daha effektivdir. Lüğət öyrədərkən və söz ehtiyatını zənginləşdirərkən sinonim və antonimlərdən istifadə etmək ideal üsullardan biridir. Sinonimlərdən istifadə edərkən şagirdlərdən sözün mənasını dəyişdirmədən başqa bir sözlə əvəz etməsini istəmək lazımdır. Əgər şagird sözə əks mənalı sözü bilirsə bu zaman antonimlərdən tapşırıqlarda istifadə etmək olar. Metodist– alim T. Əhmədova sözün izahına xüsusi əhəmiyyət verərək aşağıdakı bölgünü əsas götürmüşdür: "1. Sözün mənasının açılması yolları; 2. Lüğətin izahı; 3. Lüğətin möhkəmləndirilməsi." Daha sonra o yazır ki, sözün mənasının açılması lüğət təlimində əsas məsələdir "Bu yoldan istifadə etməyin bir sıra imkanları vardır. Belə imkanlardan biri söz mənasının sinonim və antonim vasitəsilə açılmasıdır." Müəllim yeni sözün tərifini verməklə onu təqdim edə bilər.

Kontekst (mühit): «Bu üsulla yeni sözü bir çox nümunələrlə cümlələr şəklində kontekstdə təqdim etmək olar. Müəllim bu üsullardan istifadə etməklə lüğət öyrətməyin daha effektiv və yaddaqalan olduğunu bilməlidir. Dil öyrənənləri motivasiya etmək üçün onlara xüsusi olaraq cədvəllər hazırlamaq olar. Mətndən öyrəndikləri yeni sözlərin mənasını bu üsulla daha yaxşı yadda saxlayacaqlar. Bu usul həmçinin onların məsuliyyətini də artırır. Xarici dili öyrənənlər yeni sözlərlə ünsiyyət zamanı, dərsliklərdə və digər materiallarda qarşılaşa bilərlər. Buna görə də müəllim yeni sözləri onlara izah etməli və öyrətməlidir. Bunun üçün bir çox üsullar vardır.

1.Fiziki təqlid - buna müxtəlif jest və hərəkətlərlə yeni sözləri izah

etmək aiddir. 2. Müxtəlif situasiyalardan məsələn, hansısa qorxulu filmə baxarkən keçirdiyi hiss-dən çıxış edərək sözü izah etmək. 3.Sinonim mənanı tam öyrənmək üçün yaxşı vasitədir. 4.Tərcümə etmək. 5.Şagirdlərə sözləri lüğətdən təkrarlamaq tapşırığı vermək. 6. Sözlə bağlı sadə şəkillər çəkmək.» (4,68-69)

Lüğəti təqdim etməyin prinsipləri:1.Müəllim sadə və aydin izahla yeni sözü təqdim etməlidir.

2.Müəllim eyni zamanda bir neçə yoldan istifadə edərək sözü öyrədə bilər məsələn, sözü lövhəyə yazaraq, həm də onu izah edərək.

3.Müəllim yeni sözləri seçərkən öyrənilmiş sözlərə antonim və sinonim olanları seçə bilər. Hər müəllimin özünün yeni sözləri öyrətmə üsulları vardır. Lakin aşağıdakı faktorlar daha yaxşı nəticə əldə etmək üçün yardımçı ola bilər:

1.Müəllim öncədən yeni sözü izah etmək üçün bir üsul seçməlidir. Məsələn bu konkret sözdürsə, müəyyən şəkillər hazırlamalıdır.2. Müəllim sözü onunla bağlı müxtəlif sözlərlə öyrətməlidir məsələn, sinonim və antonimlərdən istifadə edərək. Dinləyicilər nümunə olaraq göstərilən sözləri əvvəlcədən bilmiş ola bilərlər.

3. Müəllim uşaqların yeni sözləri necə başa düşdüyünü yoxlamalıdır. 4. Müəllim sözləri real həyatla əlaqələndirməlidir. Yeni sözləri həyatdakı hər hansı bir situasiyayla bağlı cumlədə işlətmək lazımdır.

5. Müəllim müxtəlif oyunlarla uşaqlara yeni öyrəndikləri sözləri təkrarlada bilər. Bu üsul eyni zamanda şagirdlərin motivasiyasını artırır. 6.Müəllim dinləyicilərə filmə baxaraq, mahnıya qulaq asaraq yeni sözləri qeyd etmək kimi tapşırıqlar verə bilər. Bu lüğəti sərbəst öyrənə bilmələri üçün yaxşı yoldur. 7.Lüğəti onunla əlaqələndirilmiş mənalarla öyrətmək yaxşı ideyadır. 8.Müəllim dil öyrənmək istəyənləri lüğətdən istifadə etmək üçün ruhlandırmalıdır. 9. Əgər tələbə bilmədiyi bir sözü soruşursa, müəllim sözü onun özünün araşdırıb tapmasına çalışmalıdır.

10. Müəllim sözləri öyrədərkən çoxlu nümunələrdən istifadə edə bilər. Dil öyrənənlər yeni sözləri cümlələrdə nə qədər işlədərlərsə o qədər yaxşı mənimsəyərlər. Buna görə də onlara nümünə olaraq cümlələr vermək vacibdir.

Yeni leksik materialların tətbiqi: «Dil bilmək onun qrammatikasına və leksikasına yaxşı bələd olmaq deməkdir. Beləliklə dilin təhsil müəssəsində tədris olunan aspektlərindən biri də leksikadır. Proqramın nəzərdə tutduğu sözlərin tədrisinə leksikanın tədrisi deyilir. Söz dilin bazasıdır, fikrin ifadə vasitəsidir, söz vasitəsilə qrammatikanın qanunları yerinə yetirilir, tələffüz və oxu vərdişləri aşılanır. Leksik materialların dinləyicilərə intensiv öyrədilməsi və optimal dil materiallarının verilməsi üçün üsullar axtarılmalıdır. Leksikanın tədrisi mürəkkəb bir prosesdir. Metodislər bu sahədə bəzi işlər görmələrinə baxmayaraq, onların fikrində müxtəliflik vardır. Bir qrup metodist sübut etməyə çalışır ki, dil öyrənənlərə yalnız şifahi danışıq nitqi öyrədilməlidir» (5, 74)

Məlum olduğu kimi, lüğət söz və onların mənaları ilə bağlı biliklərin toplusudur. Söz ehtiyatı artdıqca dinləyicilər sözlərin mənasını daha yaxşı anlayır və onlardan daha səmərəli şəkildə istifadə edirlər. Lüğət və qrammatika dilin əsasını təşkil edir .Dili öyrənərkən qrammatika və lüğət paralel şəkildə öyrənilir. Çox sayda söz və onların cümlədə necə işləndiyini və cümlə strukturunu bilmək vacibdir.

Lakin lüğət bu izahdan daha mürəkkəbdir. Sözlər iki formada: olur şifahi və yazılı.

Şifahi lüğətə danışarkən və dinləyərkən istifadə etdiyimiz və anladığımız sözlər aiddir. Yazılı lüğətə isə yazarkən və oxuyarkən istifadə etdiyimiz sözlər aiddir. Sözlər iki üsulla qəbul edilir: reseptiv və produktiv. Reseptiv lüğətə görüb və eşitdiyimiz zaman anladığımız sözlər aiddir. Produktiv lüğətə isə yazarkən və danışarkən istifadə etdiyimiz sözlər aiddir. Reseptiv lüğət produktiv lüğətdən daha genişdir və eyni zamanda danışıqda və yazıda mənalarını tam olaraq bilmədiyimiz sözləri də əhatə edir. Lüğəti seçərkən ən çox işlənən və tələbələrin bilməli olduğu sözlər əsas götürülür. Əgər dinləyici hər hansı bir materialı oxumaq, dinləmək, başa düşmək istəyirsə onun kifayət qədər söz biliyi olmalıdır. Ümumiyyətlə, tələbələrin söz ehtiyatının zənginləşdirilməsi işinə aşağıdakılar daxildir:

«Yeni sözlərin mənaları üzərində iş; Dinləyicilərin dilin lüğət ehtiyatına yiyələnmələri; Tanış sözün mənasının dəqiqləşdirilməsi üzərində iş; Lüğətin fəallaşdırılması üzərində iş; Dinləyicilərin gündəlik nitqində sözün funksiyasından düzgün istifadə etmə vərdişinin inkişafı üzrə iş; Lüğəvi səhvləri üzərində iş.» (6,37)

Lüğət öyrədərkən əsas şərt sözün mənasını öyrənciyə aydın şəkildə çatdırmaqdır. Eyni zamanda sözləri real həyatla bağlamaq və cümlələrdə işlətmək lazımdır.

American dilçisi Robert Ladonun lügət öyrədərkən ortaya çıxa bilən çətinliklər barədə maraqlı fikirləri vardır. O qeyd etmişdir ki, "…lüğət öyrədərkən sözlərin üç önəmli aspekti nəzərə alınmalıdır – onların forması, mənası və bölgüsü. Robert Ladonun fikrincə sözlərin forması məna bölgüsü və təsnifatı hər dildə fərqlidir. Bu fərqlər də lüğət öyrənərkən bəzi problemlərə səbəb ola bilər.

Lüğət bilmək deyəndə sözlərin mənasını bilmək və onları lazım olan kontekslərdə işlətmək nəzərdə tutulur. Sözləri sadəcə vərəqdə yazılmış şəkildə əzbərləmək deyil, kontekstdə öyrənmək lazımdır. Hər hansı bir dilin lüğətini tam olaraq öyrənmək çox çətindir. Lüğəti yaxşı bilmək üçün həyat boyu onun üzərində işləmək və inkişaf etdirmək lazımdır. Yeni sözləri öyrənərkən əsas şərt sözü lüğətdə tapıb əzbərləmək deyil onu cümlələrdə işlədərək öyrənmək lazımdır. Amerikan lüğət araşdırmaçısı Maykl Qreyvsin dörd komponentdən ibarət effektiv lüğət proqramı vardır: söz biliklərini artırmaq üçün çoxlu oxu materialları; mətndə olan sözləri daha ətraflı anlamaq üçün təlimat; sözü özü öyrənə bilməsi üçün təlimat; motivasiya etmək üçün sözlə bağlı oyunlar.

Bir qrup metodist (V.S. Setlin, M.E. Breyqman, Q. M. Uayzer və b.) aktiv sözlərin şagirdlər yaxşı öyrədilməsini tələb edirlər. Onlar göstərirlər ki, şagirdlər fəal sözləri öyrəndikdən sonra onu öz nitqlərində asan işlədirlər. Başqa bir qrup metodist (V.A Buxbinder, T. R. Əhmədova, İ. M. Berman və b.) isə leksik minimumu şagirdlərə geniş izahlı açılışlarla verməyi tələb edirlər. Metodistlərin bir qrupu da şagirdlərə struktur və model cümlələri öyrətməyi tələb edirlər. Bu yolla onlar asanlıqla danışırlar. Belə ki, onlar həmin yolla istənilən qədər cümlə qura bilirlər. Lüğətin aydın təlimatı olması hər zaman çox effektivdir. Dil öyrənənlərin lüğəti həvəsli şəkildə inkişaf etdirmələri üçün onlara həm xüsusi sözləri həm də söz öyrənmək strategiyalarını aydın şəkildə öyrətmək lazımdır. Dinləyicilərin bildiyi sözlərin mənasını möhkəmləndirmək üçün söz təlimatı güclü olmalıdır.

Lüğət öyrədərkən tələbələrə yeni sözlərin işləndiyi xüsusi mətnlər vermək, yeni sözü dəfələrlə təkrarlatmaqdan daha effektivdir. Geniş təlimat verildikdə sözün tərifi verilmir və bu da öyrənciyə aktiv şəkildə sözün mənası və işlənməsi haqqında düşünməyə və sözlər arasında bağlılıq yaratmağa şərait yaradır.

Gəldiyimiz nəticəyə əsasən, sözü öyrənmiş dinləyici aşağıdakıları bacarmalıdır:

a)yeni sözü artıq bildiyi bir şeylə əlaqələndirməyi bacarmalı b)yeni sözün bir neçə kontekstdə necə istifadə edildiyini müəyyənləşdirməli c)yeni sözün strukturunu kök və şəkilçiklərini müəyyən etməlidir. Tədqiqata əsasən

təcrübəli bir dil müəllimi seçilmiş lüğətlərdən və müxtəlif dil öyrətmə üsullarından istifadə edə bilər. Bütün bunlar dil öyrənənlərin səviyyəsindən asılıdır.Tez bir zamanda söz ehtiyatının möhkəmləndirilməsi və ya artırılması üçün heç bir vasitə və ya üsul yoxdur. Yeni sözləri dinləyicilərə mənimsətmək zaman və səbr tələb edən bir prosessdir.Dil öyrənənin söz bazası tədricən zənginləşdirilə bilər və hər zaman onlarda yeni sözləri tapmağa, öyrənməyə və anlamağa maraq oyadılmalıdır. Məlum olduğu kimi, dinləyicilərin söz ehtıyatı nə qədər geniş olarsa, ünsiyyətləri bir o qədər uğurlu olacaqdır. Yazı, oxu, dinləmə və danışıq- lüğəti möhkəmləndirən əsas vasitələrdir. Buna görə də hər bir dil müəllimi və təlimatçısı dinləyicinin lüğət tərkibini zənginləşdirmək üçün, qeyd etdiyimiz bütün bacarıq və üsullardan istifadə edərək uğurlu nəticə əldə edə bilsinlər.

İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI

1.Azərbaycan Təhsil Nazirliyi Azərbaycan Müəllimlər İnstitutu Şəki Filialı, İngilis dilinin tədrisində aktiv və interaktiv təlim metodlarından istifadə qaydaları, Metodiki tövsiyyə, 2008

2. Qurbanov A., Müasir Azərbaycan dilinin lüğət tərkibi, Bakı 2000.

3. Michele L. Simpson. Testing a student's full grasp of a concept requires some different vocabulary tests. Journal of Reading (31: 1, October 2007)

4. Coady, J. (1997). L2 acquisition through extensive reading. In J. Coady and T. Huckin, (eds.). Secondary language vocabulary acquisition. New York: CambridgeUniversity Press.

5. Joseph M., Effective Vocabulary Teaching Strategies for the English for Academic Purposes Esl Classroom. MA TESOL Collection, 2011

6. İnternational Journal of English Language, Department of Education, 2015

7.Teaching and Learning Vocabulary: Bringing Research to Practice. Elfrieda H. Hiebert & Michael L. Kamil (Eds.), 2005

Açar sözləri: lüğət, tədris, leksikaloqiya, tədqiqat, motivasiya, təlim, produktiv, strategiya, bacariqlar, dinləmə,

Ключевые слова:словарь, обучение, лексикологический, исследование, образование, мотивация, продуктивный, прослушивание, стратегия, способность,

Keywords: teaching, strategy, motivation, listening, skills, education, productive, vocabulary, research, lexicology, speech

Summary

The aim of the article is to enrich and to improve students` vocabulary, to define difficulties while studying the new words and to solve them. Teaching and developing of vocabulary system in effective ways and methods is the main idea of the article. The factors that being researched in the article contain either theoretical or practical importance. «The theoretical importance is writing lesson materials and resources which can be used as a source on studying English. The practicable importance of the research is using the results as a practical method in English classes.» (7, 45)

Резюме

Главная цель статьи увеличение и укрепление словарного состава студентов и исключение трудностей во время изучения новых слов. В статье подробно рассмотрены так же расширение и обогощение словарного запаса и определения методов обучения словарья. Расмотренные факторы имеют практические и теоритические значении. Теоритическим значением этой статьи является подготовление учебных пособий и учебников английского языка. Практическим значением является употребление этих заключений в практических занятиях. В статье подробно рассмотрены основные концепции аудирования, факторы, влияющие на процесс аудирования, упражнения, применяемые при аудировании, уроки обучения иностранным языкам, а также ключевые идеи запланированной деятельности аудирования. В данной статье также говорится о роли иностранных языков в жизни современной молодежи, значении и навыках аудирования в их повседневной деятельности.

Rəyçi :f.f.d. M.P. Əhmədli

Gülnar Nağıyeva, İradə Tahirova[88]

İNGİLİSDİLİ DƏRSLƏRİNDƏ EFFEKTİVMETODVƏ YANAŞMALARDAN İSTİFADƏ

Tədrisin yeni forma və metodlarının axtarışı, daim dəyişən dünyada yaşamaq və işləmək bacarığı olan çoxşaxəli bir şəxsiyyətin formalaşmasına yönəldilmiş uğurlu müasir təhsil üçün vacib şərtlərdən biridir. Məhz bu səbəbdən xarici dillərin tədrisində müxtəlif metod və formaların axtarılmasına xüsusi diqqət yetirilir və onların köməyi ilə şagird və tələbələrin təhsil fəaliyyətinin yüksək səviyyəli fəaliyyəti əldə edilir. Təcrübədə ənənəvi iş üsullarından və for malarından istifadə edərək (məşğələ və ya dərs zamanı) nitqin qarşılıqlı əlaqəsini təşkil etmək hər zaman mümkün deyil. Qeyd etməliyik ki, daha məhsuldar texnologiyalar və öyrənmə modelləri mövcuddur. Ölkəmizdə dövrümüzdəki əsas metodoloji yeniliklər birbaşa xarici dil tədrisi üçün interaktiv metodların, texnika və texnologiyaların istifadəsi ilə sıx bağlıdır. "İnteraktiv metod" öz növbəsində şagird və tələbələrin kimsə ilə söhbət və ya dialoq vəziyyətində olduqda qarşılıqlı əlaqə deməkdir . "İnteraktiv metodlar" tələbələrin bir-biri ilə bərabər şəraitdə qarşılıqlı əlaqə qurduqları bu cür tədris metodla rını bildirir. Bu metodlar tələbələrin həm müəl limlə, həm də bir-biri ilə daha geniş qarşılıqlı fəa liyyətinə, tədris prosesində tələbələrin fəaliyyətinin üstünlük təşkil etməsinə istiqamətlənmişdir. Müəyyən metodların istifadəsi müxtəlif səbəb lərdən asılıdır: dərsin məqsədi, iştirakçıların və müəllimin təcrübəsi, tələbələrin maraq dairəsi və s.

İnteraktiv təlim tədris prosesinin həmişə kindən fərqli bir məntiqi nəzərdə tutur: nəzəriyyədən praktikaya deyil, tətbiqetmə yolu ilə yeni təcrübənin formalaşmasından nəzəriyyənin dərk olunmasına doğru isiqamətlənir. İnteraktiv metodlar təhsil prosesindəki bütün iştirakçıların qarşılıqlı fəaliyyətinə əsaslanır. Yalnız müəllim şagirdləri cəlb etmir, həm dəşagird və tələbələrin bir-biri ilə qarşılıqlı əlaqəsi oyunda müzakirə olunur, bununla da ünsiyyət yolu ilə bilik motivasiyası artırılır. Bütün interaktiv tədris metodlarının məqsədləri eynidir: – məlumatları müstəqil şəkildə axtarmağı, təhlil etməyi, müəyyən bir vəziyyət üçün düzgün həll yollarını seçməyi öyrətmək (məsələn: şablonlara / suallara cavab kliklərinə); – komandada işləməyi öyrətmək: yolda larınıza hörmətli olmaq, bir-birinin fikirlərinə hörmət etmək, fərqli baxışlara dözümlü olmaq; – müəyyən faktlara əsaslanaraq öz fikirl rini formalaşdırmağı öyrətmək.

Bütün interaktiv metodlar bu və ya digər dərəcədə qrupda işləməyə yönəldildiyi üçündərsdəki cüt və qrup iş formaları ənənəvi frontal öyrənmə ilə müqayisədə üstünlüktəşkil edir, ümumdünya təhsil fəaliyyətlərinin formalaşma sına kömək edir. Öz növbəsində interaktiv metodlar auditoriyada interaktiv texnologiyalar sistemi kimi tətbiq oluna bilər. İnteraktiv təlim texnologiyası dedikdə pedaqoji cəhətdən səmərəli idrak ünsiyyətinə zəmanət verən müəllimlə tələbələrin qarşılıqlı fəaliyyətini tədris oyunları şəklində təşkil etmək məqsədilə metodlar sistemi nəzərdə tutulur.

İnteraktiv sözünün mənası qarşılıqlı əlaqə, fəaliyyət göstərmək kimi mənaları əhatə edir. **Kublaşdırma** - tədqiqat metodlarından biri olub mövzunun hərtərəfli öyrənilməsinə şərait yaradır. Kublaşdırma vasitəsilə şagird mövzunu təsvir və müqayisə etməyə, əlaqələndirməyə, təhlilə, tətbiq və mübahisəyə yönəldir. Bu zaman şagirdin tənqidi və məntiqi təfəkkürü inkişaf edir, mövzuya hərtərəfli baxışı, qiymətləndirmə bacarığı, əməkdaşlıq vərdişləri formalaşır.

Bu metod müəllimə mövzunu, vəziyyəti ətraflı tədqiq etməyə, şagirdlərin mürəkkəb və inteqrativ yanaşmalarına şərait yaratmağa imkan verir.

Kublaşdırma metodu necə tətbiq edilir?

1.Kub düzəldilir.
2.Kubun hər üzünə verilən altı göstərişdən biri yazılır
3.Müzakirə olunacaq mövzu müəyyən edilir.
4.Sini və ya auditoriya 6 qrupa bölünür və hər qrupa mövzu üzrə bir göstəriş verilir.
5.Şagirdlər və tələbələr təlimatlandırılır.
6.Şagirdlər və tələbələr təsvir, müqayisə, əlaqələndirmə, təhlil, tətbiq, mübahisə edirlər.
7.Təqdimat
8.Nəticə çıxarılaraq ümumiləşdirmə aparırlar.
9.Yekun lövhədən asılır.

Təqdimat - Fəal təlim metodları ilə aparılan dərslərin mühüm elementləeindən biri olan təqdimat şagirdin və ya tələbənin tədqiqat fəaliyyətinin göstəricisi sayılmalıdır. Bu metod şagirdlərə imkan verir ki, o, tədqiqatın nəticəsini müxtəlif yollarla təqdim edə bilsin, öz fikirlərinidəqiq ifadə etmək, mükəmməl nəticə çıxarmaq bacarığına yiyələnsin. Təqdimata hazırlaşan şagird və ya tələbə qrup halında işləyəndə ünsiyyət mədəniyyətinə yiyələnir, fikir bölüşməyi bacarır.

Beyin həmləsi - Dərsdə 5-10 dəqiqə ərzində şagird və tələbələrin öyrənilən mövzu, problemin həlli yolları üzrə müxtəlif ideyaları irəli sürməsi vasitəsi kimi istifadə olunur. Bu metodun tətbiqi şagirdləri fəallaşdırır, verilən suala tez və düzgün cavab tapmağa, müxtəlif ideyalar irəli sürməyə həvəs yaradır. Əqli hücum tətbiq edilərkən müəllim həll olunmalı problemi elan edir. Sual lövhəyə yazılır və ya şifahi şəkildə verilir. Əqli hücum zamanı yeni mövzu ilə əlaqədar hər hansı bir fikrin, ifadənin tamamlanması üçün mümkün variantları müəyyənləşdirmək tapşırığı vermək də məqsədəuyğundar.

[88]**Heydər Əliyev adına Hərbi İnstitut.** nagiyevagulnar@gmail.com
10.24412/2218-7588-2025-2-305-308

Yeni təlim metodlarının tətbiqi, informasiya-kommunikasiya texnologiyalarının təlim prosesində səmərəli istifadəsi prosesi bu gün uğurla həyata keçirilir.

Elektron resurslar təlim prosesini interaktivləsdirir. Hər bir elektron resurs, ilk növbədə, təlimin əyanilik, sistemlilik, elmlik və ardıcıllıq prinsiplərinə əsaslanaraq qurulur. Hamıya məlumdur ki, müasir dərsdə ənənəvi təlim metodlarına əsaslanmış sablon tipli dərsi təqdim etmək məqsədəuyğun deyil. Belə ki, bu tip dərslərdə şagird-müəllim münasibətləri yalnız birtərəfli istiqamətdə formalaşır və müəllim verdiyi biliyi yetərincə mənimsədə bilmədiyindən istədiyi nəticəni ala bilmir. Bu baxımdan, elektron resursların və müvafiq metodların işlənib hazırlanması mühüm əhəmiyyət kəsb edir. Elektron resurslar nəinki təlim prosesini interaktivləşdirməkdə, eyni zamanda dərsdə və dərsdən sonra əldə edilmiş bilik və bacarıqları təkmilləşdirməkdə, tətbiq etməkdə böyük rol oynayır.

Azərbaycan Respublikası Təhsil Nazirliyinin kollegiya iclasənənən materiallarında gıstərilir: "Fasiləsiz təhsil konteksində ɛəxsiyyətin, kamil insanən hazərləpə ьzrə dьnya təcrьbəsinə inteqrasiya prinsipi zəruri faktor kimi qəbul edilməli, həmin istiqamətdə konkret fəaliyyət həyata keɜirilməlidir". Bu ɛagirdləri mьəyyən qədər fəallaıodəran, təlimdə mьvəffəqiyyət qazanmapa imkan verən ənənəvi təlim metodlarəndan bьtıvlьkdə imtina etmək demək deyildir. Ənənəvi metodlarən mьsbət cəhətlərindən istifadə edərək yeni yanaıomanən, yeni təlim texnologiyalarənən, innovasiyalarən pedaqoji, psixoloji əsaslarənə iıoləmək və nəticəyıɲьmlь, ɛagirdə isti qamətlənmiɛ təlim-tərbiyə prosesinin elmi əsaslarənən mьasir tələblərə uypun araıodərmalarən aparəlmasə təhsil sisteminin qarıoəsənda duran ən aktual problem kimi qiymətləndirilir.

Təlim metodları dedikdə, məqsədə nail olmaq, təhsil vəzifələrini həll etmək yollarının məcmusu başa düşülür. Pedaqoji ədəbiyyatda metod anlayışı müəllimin və ya şagirdlərin fəaliyyətinə aid edilir. Müəllimin fəaliyyəti ilə bağlı olan metodlar tədris metodları, şagirdlərin fəaliyyəti ilə bağlı olan metodlar isə öyrənmə metodları adlanır. Müəllim və şagirdlərin birgə fəaliyyəti ilə bağlı olan metodları təlim metodları kimi işlətmək lazımdır. Təlim metodları strukturunda priyomları (tərzləri) da fərqləndirmək la zımdır. Priyom metodun elementidir, onun tərkib hissəsidir, metodun tətbiqində ayrıca addımdır. Təlim metodu mürəkkəb, çoxparametrli bir anlayış olmaqla təlimin məqsədini, məzmununu, qanunauyğunluqlarını, prinsiplərini səmərəli həyata keçirmək üçün istifadə olunur. Təlimin məqsədinin, məzmununun keyfiyyətlə icrası seçilmiş metodların praktik imkanlarından asılıdır. Bu imkanları məhz metodlar təmin edir və didaktik sistemin inkişaf sürətinə təkan verir. Təlimdə tətbiq edilən metodlar inkişafa nə qədər çox şərait yaradarsa, təlimin səmərəsi də bir o qədər yüksək olarTəlim prosesini aktivləşdirmək üçün düşünmə qabiliyyətini inkişaf etdirmək, yaradıcılığa həvəsləndirmək və öyrənməyə maraq yaratmaq məqsədini güdən müəllim, şagirdi təlimə cəlb edəcək müəyyən metod, texnika və proseduralardan istifadə etməlidir. Şagird təliminin fəal iştirakçısı olmaq üçün hazırlanmalıdır. Müəllim şagirdə dünyanı başa düşməkdə və qazandığı bilikləri real həyat şəraitinə tətbiq etməkdə yardım göstərməlidir. Yeni texnologiyalar tədris strategiyasının yerinə yetirilməsinə istiqamətləndirildiyindən, onlar nəzərdə tutulmuş təlim məqsədlərinə nail olmaqda əsas alət rolu oynayır.

Yeni texnologiyalar bir sıra xüsusiyyətləri ilə ənənəvi təlim metodlarından fərqlənir: şagirdlərin tədqiqat fəaliyyətinə cəlb edilmələri, müəllim tərəfindən problemli şəraitin yaradılması, biliklərin şagirdlər tərəfindən müstəqil əldə edilməsi və s. Qeyd edilən xüsusiyyətlər bəzi ənənəvi təlim metodlarında da olmuşdur, lakin yeni təlim metodları bütövlükdə göstərilən xüsusiyyətlərə əsaslanır. Araşdırmalar göstərir ki, yeni təlim texnologiyaları aşağıdakı prinsiplərə əsaslandıqda şagirdlərin yaradıcılıq qabiliyyətini inkişaf etdirməyə imkan verir: təfəkkürün inkişafına səbəb olacaq konstruktivizmə; şagirdlərin sosial inkişafına səbəb olacaq kooperativ təlimə; biliklərin müstəqil əldə edilməsi üçün şəraitin yaradılmasına; bilik və bacarıqların müstəqil şəkildə əldə edilməsinə; müəllimin təşkilatçı, koordinator, bəzi hallarda arbitr rolunda çıxış etməsinə.D.Kappana görə, **konstruktivizm** – öyrənənlərin biliklərə özlərində əvvəllər mövcud olan və təcrübələrdən əldə etdikləri yeni ideya və ya nəzəriyyələrlə əlaqələndirməklə yiyələnməsi prosesidir. Konstruktivizm bəzən yaradıcılıq kimi də səciyyələndirilir. Konstruktivizm belə bir ideyaya əsaslanır ki, bilik qurulur, kəşf edilir, yaradılır. Bilik passiv şəkildə alına bilməz, bilik fəal öyrənmə prosesində əldə edilə bilər. Konstruktivizm nəzəriyyəsinin həyata keçirilməsi üç şeyi tələb edir: fəal şagird, sosial şagird və yaradıcı şagird.Yaradıcı (konstruktiv) mühitin təmin edilməsi üçün müəllim aşağıdakılara əməl etməlidir: - bilik vermək yox, biliyi əldə etməyə həvəs yaratmalı; - hazır cavablı suallar yox, problemli suallar verməli; - öyrənənin gələcək inkişafını təmin etməli ; - informasiya verməkdənsə, öyrənəni biliklərin əldə edilməsi prosesinə cəlb etməli; - öyrənmə prosesini düzgün planlaşdırmalı. Kooperativ təlim zamanı şagirdlər yalnız birgə fəaliyyət göstərdikləri digər şagirdlərlə eyni vaxtda öz məqsədlərinə çata bilərlər. Kooperativ əsaslı öyrənmə təlim tapşırığının elə təşkilini tələb edir ki, şagirdlər dərsin məqsədinə özünün və kiçik qruplardakı yoldaşlarının səyləri nəticəsində nail olsunlar. Kooperativ təlimə aid öyrənmə modeli D.Conson və R.Conson tərəfindən yaradılmışdır. Onlar kooperativ öyrənməyə daxil edilməli beş komponent müəyyən etmişlər: müsbət qarşılıqlı asılılıq (şagirdlər səmərəli nəticələrə nail olmaqla digər qrup üzvlərindən eyni dərəcədə, qarşılıqlı şəkildə asılı olduqlarını bilməli və buraya məqsəd, tapşırıq, ehtiyat (material, məlumat), rol, mükafat, qarşılıqlı asılılıqlar daxil edilməlidir); şagirdlərin üz-üzə qarşılıqlı fəaliyyəti; fərdi məsuliyyət (hər qrup üzvü məsuliyyət barədə aydın təsəvvürə malik olmalıdır); şagirdlərin müvafiq şəxsiyyətlərarası və kiçik qrup bacarıqları ilə təlimatlandırılması (qrupdaxili davranış qaydaları); qrupun fəaliyyəti (şagirdlərin qrupun necə işləməsini qiymətləndirmək, üzvlərin işlərinin faydalı olub-olmamasını müzakirə etmək üçün vaxtı olmalıdır). Təlim prosesi mürəkkəb prosesdir. Onun məqsədəuyğun şəkildə təşkili vacibdir. Təlimin məqsədəuyğun təşkilində prinsiplər mühüm rol oynayır.

Didaktika təlim nəzəriyyəsi olmaqla təlimin obyektiv qanunlarını, qanunauyğunluqlarını aşkara çıxarır, onlardan istifadə yollarını müəyyənləşdirir. Təlim prinsipləri təlim qanunlarından irəli gəlir. Prinsip didaktikanın qanun-

larına uyğun təlim fəaliyyətini təşkil etmək üçün qəbul edilmiş ideyalar toplusudur. Prinsip dedikdə həmçinin didaktikada mövcud olan qanunlardan istifadə etmək, fəaliyyəti həmin qanunların tələblərinə uyğun şəkildə təşkil etməkdir. Təlim prinsipləri didaktikanın mühüm vəzifələrinin həyata keçirilməsinə xidmət edir. Prinsiplər müəllimin qarşısına elə vəzifələr qoyur ki, o bunlara əməl etməklə şagirdlərin yüksək tədris uğuruna nail olur. Təlimdə müvəffəqiyyət qazanmağa imkan verən mexanizm təlim prinsipləridir. Təlim metodları və ya texnologiyaları dəyişsə də bunlara uyğun prinsiplər həmişə olacaqdır. Yeni təlim texnologiyaları əsasında həyata keçirilən təlim prosesinin də özünə məxsus prinsipləri vardır. Bu prinsipləri iki yerə qruplaşdırmaq olar: a) Şagirdi rəqabətəqabil , sosial, hərtərəfli inkişaf etdirməyə xidmət edən təlim tərbiyə prinsiplərinə; b) İnteraktiv təlim zamanı rəhbər ideyalar kimi qəbul edilməli prinsiplərə. Şagirdi rəqabətəqabil, sosial, hərtərəfli inkişaf etdirməyə xidmət edən təlim tərbiyə prinsipləri "Azərbaycan Respublikasında Təhsil İslahatı Proqramı"nda öz əksini tapmışdır. Bunlar aşağıdakılardır.

1 Demokratikləşdirmə - təhsil prosesinin demokratikləşdirilməsində maraqlı olan bütün tərəfləri, dövlət strukturları və ictimaiyyət nümayəndələrini (müəllimləri, şagirdləri, valideynləri) təhsil prosesinə fəal iştirak etməyə cəlb etmə deməkdir; tədris müəssisəsinin "şəffaflığı" prinsipinin həyata keçirilməsidir.

2. Humanistləşdirmə – təhsilinhumanistləşdirilməsi şagirdə münasibətin dəyişilməsini nəzərdə tutur, o cümlədən yaradıcı inkişaf qabiliyyətli və humanist yönümlü şəxsiyyətin formalaşdırılması; əqli və fiziki imkanlarından, öyrənmə qabiliyyətindən asılı olmayaraq şagirdin şəxsiyyətinə hörmətlə yanaşma; şagirdin qabiliyyət və təmayüllərinin aşkar edilməsi və onların inkişafı üçün şəraitlərin yara dılması.

3.Diferensiallaşdırma – təlimin diferensiallaşdırılması şagirdlərin imkanlarınınnəzərə alınması ilə qurulur.

4. Fərdiləşdirmə – təhsilin fərdiləşdirilməsi şagirdlərin fərdi maraq və tələbatlarının nəzərə alınmasıdır.

5. İnteqrasiya – təhsilin inteqrasiyası fənlərin öyrənilməsi zamanı fənlərarası əlaqələrin aşkar edilməsi əsasında qlobal təfəkkürün formalaşdırılmasının vəcibliyini nəzərdə tutur.

6. Humanitarlaşdırma – təhsilin humanitarlaşdırılması şəxsiyyətin yaradıcı inkişaf prosesinin şərti kimi çıxış edir və təhsilin məzmununun formalaşmasına yeni yanaşmanı nəzərdə tutur**.** Pedaqoji tədqiqatlardan məlum olmuşdur ki, təlim prosesinə metodik yanaşmanın əsas üç növü vardır:

1) Passiv ənənəvi təlim;

2) Müasir fəal təlim;

3) Yeni İnteraktiv təlim. Ənənəvi təlim metodunda (buna ənənəvi təlim də deyilir) müəllim əsas sima olub yalnız şagirdlərə diktə edir, öyrədir. Buna ənənəvi təlim prosesi deyilir ki, uzun illər belə təlim prosesi mövcud olmuş və bu gün də yeniliyə can ataraq yaşamaqdadır. Ənənəvi təlim prosesində müəllim fəaldır, şagirdlər isə passiv dinləyicidirlər. Müəllim deyir, şagirdlər eşidir. Belə dərs prosesində qarşılıqlı əlaqə, əks əlaqə yoxdur. Şagird bu prosesdə yalnız bir obyektdir. Müəllimin şagirdlərlə əlaqəsi yalnız suallara verilən cavablar, yazı işləri vasitəsilə həyata keçirilir. Şagirdlərə çatdırılan biliyin mənimsənilməsi baxımından belə metod səmərəsizdir. Lakin, belə ənənəvi dərsin də müəyyən müsbət cəhətləri vardır. Belə ki, müəyyən vaxt çərçivəsində şagirdlərə müəyyən bilik və məlumatlar verilir. Şagirdlərin bilik dairəsi genişlənir, məlumatları artır. Bu prosesdə təlim şagirdləri inkişaf etdirir. Amma buna inkişafetdirici təlim deyə bilmərik. Bu prosesdə yalnız biliklər, məlumatlar genişlndirilir, inkişaf etdirilir. Buna inkişafetdirici təlim yox, təlim inkişaf etdirir deyə bilərik. Şagirdin belə fəaliyyəti produktiv deyil, reproduktiv təlim adlanır. Reproduktiv təlim onunla xaraktrerizə edilir ki, şagird yalnız yazır, informasiyanı, bilikləri alır, onu qəbul edir, başa düşür, yadda saxlayır və təcrübədə tətbiq. Belə fəaliyyətin əsas məqsədi məktəblidə bilik, bacarıq və vərdişlərin formalaşdırılması, diqqət və yaddaşın inkişaf etdiirlməsidir. Təlimdə ənənəvi metodların aşağıdakı səciyyəvi cəhətləri vardır:

1.Bir qayda olaraq ənənəvi dərslərdə əsas diqqət şagirdlərdə bacarıqların formalaşmasına deyil, biliklərin mexaniki mənimsənilməsinə yönəldilir.

2. Ənənəvi təlimdə hazır informasiyanın çatdırılması ilə onun mənimsənilməsi üçün şərait yaradılması müəllimin başlıca funksiyasını təşkil edir. **Ənənəvi təlim - MÜƏLLİM** İnformasiyanı ötürən **-ŞAGİRD** İnformasiyanı qəbul edən

Fəal təlim metodu elə təlim metodudur ki, dərs prosesində mьəllimlə ıoagird arasənda qarıoələqlə əlaqə, mьnasibət, ьnsiyyət, mьəllim-єagird əməkdaıoləpə vardər. ЮOagirdlər passiv dinləyici deyillər. Onlar dərsin fəal iєtirakzələrədər, mьəllimin yaxən kцmək3isidirlər. Əgər passiv təlim metodunda mьəllim əsas fiqur, əsas sima idisə, indi mьəllim və єagird birlikdə dərsin əsas qurucusu, təıokilatzələrədər. Fəal təlimdə mьəllim və єagird eyni səviyyədə, eyni dərəcədədirlər.

Fəal təlimin prinsiplrini aıoapədakə kimi qruplaıodərmaq olar:

1.Єəxsiyyətə yцnəlmiє təlim prinsipi

2. Fəal idraki prinsip

3. Ənkiıoafetdirici təlim prinsipi

4 "Qabaqlayəcə təlim" prinsipi

5. Təlim-tərbiyənin 3evikliyi prinsipi

6.Əməkdaıoləq prinsipi

7. Dioloji təlim prinsipi

Nəzəri biliyin (anlayзıo və qanunlarən) mənimsədilməsi metodlarə.

Bu metodlar єagirdlərin юьurunda dьzgьn elmi anlayэюlarэn yaradэlmasэ və qanunlarэn dərk edilməsi məqsədi gьdьr. Bu qrup metodlara mьəllimin єərhi, mьsahibə, diskussiya, məntiqi metodlar, kitab ьzərində iю metodlarэ, problem-axtarэю metodlarэ daxildir.

Mьəllimin єərhi metodu mьəyyən faktэ, hadisəni, anlayэю və qanunauyрunluрu юifahi юəkildə єagirdlərə zatdэrmaq metodudur. Bu metod az vaxtda daha зox informasiya verməyə imkan yaradэr.

Mьsahibə metodunun tətbiqində mьəyyən qayдanэ gцzləmək lazэmdэr: sual tək-tək єagirdə yox, sinfə verilir və istənilən єagirddən soruєulur. Cavab səhv və ya qeyri-dəqiq olarsa, səhv cavab єagirdin цzьnə, ehtiyac olduqda digər єagirdlərə ypnləndirilir, cavab yenə təminedici olmasa, mьəllim цzь izah edir.

Mьsahibənin bir formasэ da diskussiyadэr.-*Diskussiya metodu* elmi mьbahisə deməkdir. Bu metod єagirdləri fəallaюdэrэr, təlimə maraq yaradэr, biliklərin єьurlu mənimsənilməsinə imkan verir. Diskussiya zamanэ mьəyyən problem ьzrə mьxtəlif baxэюlar, mцvqelər irəli sыrьlьr, hər kəs цz mцvqeyinə haqq qazandэrmapa, digər mцvqeyi təkzib etməyə зalэюэr.*Təlimin məntiqi metodlar*ə nəzəri biliyin - anlayэю və qanunlarэn dərk edilməsi, ьmumiləєdirmə aparэlmasэ məqsədi gьdən təfəkkьr metodlarэdэr. Bu metodlara analitik-sintetik və induktiv-deduktiv metodlar daxildir.

Analitik metodlar mьəyyən obyekti fikrən tərkib hissələrinə və ya əlamətlərinə ayэrmaq məqsədi gьdьr. Bu metodlara mьqayisə (oxюarlэq və fərqi mьəyyənləєdirmək), təsnifetmə (əєya və faktlarэ əsas əlamətlərinə gцrə ayэrmaq), analogiya (bir obyektlə baplэ biliyi digər obyektə keзirmək) və b. daxildir.

Sintetik metodlar obyektin ayrэ-ayrэ hissə və əlamətlərini fikrən bir tam halэnda birləєdirmək məqsədi gьdьr.

Эstifadə edilən ədəbiyyat

1.D.Эsmayэlova "Эngilis dilinin tədrisi metodikasэ" ,Bakэ, 2021
2.Сабирова, Р. И. Современные методы преподавания английского языка.М.2019
3.Гальскова Н. Д., Гез Н. И. Теория обучения иностранным языкам. М., 2004. 4.Ефременко В. А. Применение информационных технологий на уроках иностранного языка ,М.2023
5.Полат Е. С. Интернет на уроках иностранного языка.М.2023

Azar sцzlər: metodika ьsul lьрət tədris цyrətmək
Ключевые слова методика способ словарь обучение учить
Key words: method process vocabulary education teach

Summary

Teaching a foreign language can be a challenging but rewarding job that opens up entirely new paths of communication to students. It's beneficial for teachers to have knowledge of the many different language learning techniques including ESL teaching methods so they can be flexible in their instruction methods, adapting them when needed. The method focuses on content more than language itself. In fact, language is seen as an enabler that allows students to use target structures within a given context.This type of methodology is perfect for schools where teachers teach subjects in English.The language needed to comprehend the materials is integrated into the content, so teachers don't have to cover grammar and vocabulary extensively.

Резюме

Существуют различные подходы к преподаванию английского языка, главное, выбрать методы, которые подходили нашим ученикам. Каждый преподаватель выбирает свой метод преподавания английского языка. Коммуникативный метод: Для создания коммуникативной обстановки на уроке важно поддерживать высокую активность каждого обучающегося. Проектный метод: Одним из способов активизации учащихся в процессе обучения иностранным языкам является метод проектов. Учебный проект — это комплекс поисковых, исследовательских, графических и других видов работ, выполняемых обучающимися самостоятельно с целью практического или теоретического решения какой-либо проблемы.

Rəyзi: f.f.d Əhmədli M.P

Əliyeva Tərlan Əliş qızı[89]

KİTABİ-DƏDƏ QORQUD DASTANINDA VALİDEYİN- ÖVLAD MÜNASİBƏTLƏRİNİN MÜASİR DÖVRLƏ ƏLAQƏLƏNDİRİLMƏSİ

"Kitabi-Dədə Qorqud" dastanı, Azərbaycan xalqının əsrlər boyu yaratdığı zəngin folklor xəzinəsinin ən qiymətli incilərindən biridir. Bu dastan xalqımızın qədim tarixi keçmişini, adət-ənənələrini, mənəvi dəyərlərini və dünya görüşünü əks etdirən mühüm ədəbi-tarixi abidədir. Dastanda toxunulan geniş spektrli mövzular arasında ailə münasibətləri xüsusi yer tutur. Ailə, cəmiyyətin təməl özəyi kimi, dastan boyu müxtəlif aspektlərdən təsvir olunur. Bu münasibətlərin ən önəmli tərkib hissələrindən biri isə valideyin və övlad arasındakı bağdır.

Valideyin və övlad münasibətləri, hər bir cəmiyyətdə olduğu kimi, qədim türk dünyasında da mühüm sosial-mədəni əhəmiyyətə malik olmuşdur. "Kitabi-Dədə Qorqud" dastanında bu münasibətlər, sevgi, qayğı, hörmət, itaət, dəstək və məsuliyyət kimi dəyərlər üzərində qurulmuş ideal bir model kimi təqdim edilir. Ananın övladına olan sonsuz məhəbbəti, atanın övladının tərbiyəsindəki rolu, övladların valideyinlərinə olan hörməti və sədaqəti dastan boyu canlı səhnələrlə canlandırılır.

Müasir dövrdə qloballaşma, texnoloji inkişaf və sosial dəyişikliklər ailə institutuna müəyyən təsirlər göstərmişdir. Buna baxmayaraq, "Kitabi-Dədə Qorqud" dastanında əks olunan əsas ailə dəyərləri və valideyin-övlad münasibətlərinin prinsipləri öz aktuallığını qorumaqdadır. Bu baxımdan, dastandakı bu münasibətlərin təhlili, həm milli mədəni irsimizin öyrənilməsi, həm də müasir ailə dəyərlərinin anlaşılması və təbliği baxımından böyük əhəmiyyət kəsb edir.

"Kitabi-Dədə Qorqud" dastanı, türk dünyasının ortaq mədəni irsinin ən dəyərli nümunələrindən biri olmaqla yanaşı, Azərbaycan xalqının milli kimliyinin, adət-ənənələrinin, mənəvi dəyərlərinin və dünya görüşünün mühüm mənbəyidir. Bu dastanda əks olunan ailə münasibətləri, xüsusilə valideyin və övlad arasındakı bağ, cəmiyyətin təməlini təşkil edən ən mühüm sosial institutlardan birinin ədəbi-bədii təzahürüdür.[2.94]

Mədəni İrsin Qorunması və Öyrənilməsi: "Kitabi-Dədə Qorqud" dastanındakı ailə dəyərlərinin və münasibət modellərinin öyrənilməsi, milli kimliyin qorunması, gələcək nəsillərə ötürülməsi və zəngin mədəni irsimizin təbliği baxımından böyük əhəmiyyət kəsb edir."Kitabi-Dədə Qorqud" dastanı müxtəlif aspektlərdən tədqiq olunmuş olsa da, valideyin və övlad münasibətlərinin sistemli və müasir dövrlə əlaqəli şəkildə təhlili hələ də kifayət qədər araşdırılmamış bir sahədir. Bu mövzunun dərinləməsinə öyrənilməsi, folklorşünaslıq, ədəbiyyatşünaslıq, sosiologiya və pedaqogika elmlərinə dəyərli töhfələr verə bilər.Dastandakı ideal valideyin və övlad obrazları, onların qarşılıqlı hörmət, sevgi və məsuliyyət prinsiplərinə əsaslanan münasibətləri, gənc nəslin tərbiyəsində mənəvi bir nümunə kimi istifadə oluna bilər. Bu, müasir təhsil sistemində milli dəyərlərin aşılanması baxımından dəyərlidir.

Dastandakı ailə münasibətlərinin digər türk xalqlarının eposları və dünya ədəbiyyatındakı ailəvi dəyərlərlə müqayisəli təhlili, ortaq və fərqli cəhətləri üzə çıxarmağa imkan yaradır.

"Kitabi-Dədə Qorqud"dastanında təsvir olunan valideyin və övlad münasibətlərinin mahiyyətini, xüsusiyyətlərini və inkişaf dinamikasını hərtərəfli şəkildə araşdırarkən bir çox məqamlar üzə çıxır.Həmin məqamlar bunlardır:

Dastanda ailə institutunun rolunu və əhəmiyyətini müəyyənləşdirmək;

Dastanın müxtəlif boylarında valideyin və övlad obrazlarını və onların qarşılıqlı münasibətlərini təhlil etmək;

Dastandakı valideyin sevgisi, övlad qayğısı, hörmət, itaət, dəstək və digər əlaqədar motivləri üzə çıxarmaq;

Dastandakı ideal və problemli valideyin-övlad münasibətlərini müəyyənləşdirmək və onların səbəblərini araşdırmaq;

"Kitabi-Dədə Qorqud" dastanındakı valideyin və övlad münasibətlərinin müasir dövrdəki ailə dəyərləri və sosial-mədəni reallıqlarla oxşar və fərqli cəhətlərini müqayisəli şəkildə təhlil etmək.

"Kitabi-Ddə Qorqud" dastanı, şübhəsiz ki, Azərbaycan folklorunun ən dəyərli abidələrindən biridir. Bu dəyər bir çox amillərlə şərtlənir:

1. Qədim tarixi köklərə malik olmaqvə zəngin məzmun:

Dastan, ehtimal ki, XI-XII əsrlərdə formalaşmağa başlamış və XV-XVI əsrlərdə yazıya alınmışdır. Bu, onların Azərbaycan xalqının qədim tarixi keçmişi, həyat tərzi, düşüncə tərzi və mənəvi dəyərləri haqqında unikal məlumatlar verməsinə imkan yaradır.

Dastanın məzmunu geniş və əhatəlidir. Burada igidlik, məhəbbət, dostluq, sədaqət, qonaqpərvərlik, ədalət kimi ümumbəşəri mövzularla yanaşı, o dövrün sosial-siyasi həyatı, müharibələri, qəbilə quruluşu, adət-ənənələri, inanc və etiqadları da öz əksini tapır.

2. Milli kimliyin və mənəvi dəyərlərin daşıyıcısı:

"Kitabi-Dədə Qorqud" dastanı, Azərbaycan xalqının özünəməxsus milli kimliyinin formalaşmasında mühüm rol oynamışdır. Dastandakı qəhrəmanların obrazları, onların davranışları, danışıq tərzi və dəyərləri, zaman keçdikcə xalqın idealına çevrilmişdir.

Dastan Azərbaycan xalqının mənəvi dəyərlərinin, o cümlədən insansevərlik, vətənpərvərlik, böyüklərə hörmət, kiçiklərə qayğı, sözə sadiq qalmaq kimi əxlaqi prinsiplərin təcəssümüdür.[7.67]

3. Dilin zənginliyi və bədii özəllikləri:

[89]**b/m.ADPU-nun Ağcabədi filialı.tarlanaliyeva65@gmail.com0009-0009-1484-1031**

10.24412/2218-7588-2025-2-309-313

Dastanın dili, qədim Azətürkcəsinin zənginliyini və ifadə nümayiş etdirir. Burada arxaik sözlər, ifadələr, atalar sözləri, zərb məsəlləri və bədii təsvir vasitələri geniş istifadə olunmuşdur.Dastan özünəməxsus poetik strukturaya, ritmə və üsluba malikdir. Şeir və nəsr hissələrinin növbələşməsi, canlı dialoqlar, təkrirlər və digər bədii üsullar dastanlara xüsusi bir dinamizm və emosionallıq verir.

4. Tarixi faktların və etnoqrafik məlumatların mənbəyi:

Dastanda təsvir olunan bəzi hadisələr və coğrafi adlar, tarixi reallıqlarla səsləşir. Bu, dastanın həm də tarixi məlumatların öyrənilməsi üçün əhəmiyyətli bir mənbə olduğunu göstərir.Dastan o dövrün Azərbaycan xalqının həyat tərzi, məişəti, geyimi, silahları, musiqi alətləri, toy və yas mərasimləri kimi etnoqrafik məlumatlar baxımından da dəyərlidir.

5. Türk dünyası üçün ortak dəyər:

"Kitabi-Dədə Qorqud" dastanı, yalnız Azərbaycan xalqı üçün deyil, bütün türk dünyası üçün ortaq bir mədəni irsdir. Dastanın müxtəlif variantları digər türk xalqları arasında da yayılmışdır ki, bu da onların ümumtürk mədəniyyətindəki əhəmiyyətini təsdiqləyir.

6. Müasir dövr üçün aktual mesajlar:

Dastanda qaldırılan insanı dəyərlər, ədalət, qəhrəmanlıq, vəfa, sevgi kimi mövzular bu gün də öz aktuallığını qoruyur. Dastan, müasir insanlara mənəvi güc verir, onları yüksək əxlaqi prinsiplərə səsləyir.

1. Dirsə xan oğlu Buğac xan boyu: Bu boyda ana obrazı, Dirsə xanın həyat yoldaşı, Buğacın anasıdır. O, uzun müddət övlad həsrəti çəkmiş və nəhayət oğul sahibi olduqdan sonra ona böyük sevgi və qayğı göstərmişdir. Dirsə xanın övladı olmadığı üçün yaşadığı kədər təsvir olunur, lakin Buğac dünyaya gəldikdən sonra ana böyük sevinc yaşayır. Bu, analıq hissinin gücünü və övladın ailə üçün nə qədər dəyərli olduğunu göstərir. Buğac böyüdükcə anası onun tərbiyəsinə xüsusi diqqət yetirir. Oğlunun igidliyi və gücü ilə fəxr edir.Bir gün Buğacın atası ilə ovdan qayıtmadığını görür, Dirsə xan nə qədər təskinlik versə də ana dözmür. Qırx incə qızı özü ilə götürüb oğlunu axtarmağa gedir və Buğacı bir dərənin içində yaralı tapır. Oğlunu atasından gizlədir. Buğacı həkimlərə tapşırır və 40 gün içərisində sağalır, yenidən qılınc qurşanır.Ananın oğluna olan fədakarlığı və onun üçün narahatlığı bu boyda aydın şəkildə nəzərə çarpır. Buğac da anasına böyük hörmət bəsləyir. Yaralandıqdan sonra anasının ona olan qayğısını görür və onun sevgisinə minnətdar olur. Oğulun anasına olan emosional bağlılığı və onun rifahını düşünməsi təsvir olunur.

2. Salur Qazanın evinin yağmalandığı boy:Bu boyda Salur Qazanın həyat yoldaşı,oğlunun anası əsas ana obrazıdır. Qəfil düşmən hücumu və evin yağmalanmasıdan yaranan təhlükəli vəziyyət nəticəsində ananın oğluna olan dərin narahatlığını və sevgisini aydın şəkildə görə bilirik.Evin yağmalanması və oğlunun Şöklü Məlik Qazan xandan heyif almaq istəyi ilə Burla xatuna şərab paylatmaq istəyir. Bunun alınmadığını görəndə isə oğlu ilə sınağa çəkilir. Burla xatun bunu duyur. Burla xatun fəşvişə düşür. Burada ananın fəryadları və yalvarışları analıq instinktinin gücünü göstərir. Burla xatun Uruzun yanına gizlin gələrək onların istəyini qəbul etmək istədiyini göstərir. Uruz isə anasına olan hörmətindən onu ayağının altına almadığını və onun ətindən bir yox beş yeməli olduğunu deyir. Burada ana öz həyatını təhlükəyə ataraq belə, oğlunu qorumağa çalışır. Onun bu hərəkətləri ananın övladına olan sarsılmaz sevgisinin təzahürüdür.Boyda birbaşa oğulun anasına dəstəyi təsvir olunmasa da, oğulun sağ qalması və atasının qayıtması ananın ümidini və mübarizə əzmini gücləndirir.

3. Baybörənin oğlu Bamsı Beyrək boyu:

Bu boyda Bamsı Beyrəyin anası, oğlunun başına gələn müsibətlər zamanı böyük əzab çəkir.Bamsı Beyrəyin yaralanıb əsir düşməsi xəbəri ananı dərin kədərə qərq edir. Bamsı Beyrək 16 il yad eldə əsir qalır. Ananın günlərlə oğlunun geri qayıtması üçün ağlaması ananın övladına olan güclü bağlılığının ifadəsidir. Bütün bu çətinliklərə baxmayaraq, ana oğlunundan ümidini itirmir. Onun duaları və inancı, bəlkə də, Bamsı Beyrəyin geri qaytımasında mühüm rol oynayır. Bamsı Beyrək yurduna gəldikdən sonra, şübhəsiz ki, anasının ona olan qayğısını və çəkdiyi əziyyəti dərk edir və ona minnətdar olur. Həmçinin ananın göz yaşları dinir, övlad həsrəti başa çatır.

"Kitabi-Dədə Qorqud" dastanındakı valideyin və övlad münasibətlərinin müasir dövrlə əlaqələndirilməsi, əsrlər boyu dəyişməz qalan ümumbəşəri dəyərləri və zamanın təsiri ilə transformasiyaya uğrayan aspektləri anlamaq üçün mühüm bir tədqiqat sahəsidir. Dastanda təsvir olunan ideal ailə modeli, valideyinlərin övladlarına olan sonsuz sevgisi, qayğısı, onların tərbiyəsindəki rolu, övladların valideyinlərinə hörməti və itaəti kimi fundamental prinsiplər, müasir ailə münasibətləri üçün də aktual və dəyərlidir.Lakin müasir dövrün sosial-iqtisadi şərtləri, qloballaşma, texnoloji inkişaf kimi amillər ailə institutunda müəyyən dəyişikliklərə səbəb olmuşdur. Nəsil arasındakı münasibətlərdə yaranan fərqliliklər, tərbiyə metodlarındakı yeniliklər, ailə üzvlərinin sosial rollarındakı dəyişikliklər dastan dövründəki münasibətlərdən müəyyən qədər fərqlənə bilər.[6.123]Bu əlaqələndirmə prosesi, dastandakı dəyərlərin müasir dövrdə nə dərəcədə qorunub saxlandığını, hansı aspektlərin zamanın tələblərinə uyğun olaraq dəyişdiyini və hansı yeni problemlərin ortaya çıxdığını təhlil etməyi nəzərdə tutur. Bu təhlil, həm milli-mənəvi dəyərlərimizin davamlılığını anlamağa, həm də müasir ailə münasibətlərinin möhkəmləndirilməsi üçün dəyərli nəticələr əldə etməyə imkan yaradır. Dastandakı ana sevgisi və qayğısının müasir dövr analar ilə səsləşməsi.Dastandakı ana sevgisi və qayğısının müasir dövr anaları ilə səsləşməsi."Kitabi-Dədə Qorqud" dastanında ana obrazı, övladına olan sonsuz məhəbbəti, fədakarlığı və qayğısı ilə seçilir. Bu keyfiyyətlər, əsrlər ötsə də, müasir dövr analarının da ən səciyyəvi xüsusiyyətləri olaraq qalmaqdadır.

1. Dirsə xan oğlu Buğac xan boyu:

Dastanda Dirsə xanın həyat yoldaşı, uzun müddət övlad həsrəti çəkdikdən sonra Buğacın doğulması ilə böyük

sevinc yaşayır. Bu həsrəti çəkərək gecə-gündüz dua edir, övladının olması üçün hər cür yaxşılığı edib, könüllər sevindirir. Övlad isə böyükdükcə başına hər cür müsibətlər gəlməyə başlayır. Burada Buğac yaralandıqda ananın oğlunun sağalması üçün göstərdiyi səylər, gecə-gündüz onun yanında olması, yaralarını sarıması və ona dərman verməsi təsvir olunur. Ananın oğluna olan şəfqəti və onu hər cür təhlükədən qorumaq istəyi aydın şəkildə görünür.

Bu səhnələr, müasir dövrdə də övladının xəstəliyi və ya hər hansı bir problemi ilə üzləşən anaların hissləri ilə tamamilə səsləşir. Bu gün də analar, övladlarının sağlığı üçün hər cür fədakarlığa hazırdırlar. Gecələr oyaq qalmaq, həkimlərə müraciət etmək, dərmanlarını vaxtında vermək və onlara emosional dəstək olmaq müasir anaların da gündəlik həyatının bir parçasıdır. Buğacın anasının ümidini itirmədən oğlunun yanında olması, müasir anaların da övladlarının ən çətin anlarında belə onlara inam göstərməsi ilə eynidir.

2. Qazan bəyin oğlu Uruz bəyin dustaq olduğu boy:

Ana oğlunun ilk ovu olduğu üçün şadlıq edir. Və ovdan qayıdıb gəlmə xəbərini gözləyir. Lakin Qazan xan tək gəldikdə anan bağrı yarılır. Oğlunu tapıb gətirməsini istəyir.Onun yoxluğu ananın həyatında böyük bir boşluq yaradır. Qazan xanı gəlib çıxmadığını görür səbr edə bilmir oğlunu o da axtarmağa gedir. Və oğlunun əsir düşməsi xəbəri ananı dərin kədərə və həsrətə salır. Ana, oğlunun sağ-salamat xilas edilməsində canı bahasına vuruşur.

Bu hisslər, müasir dövrdə də müharibələr, təbii fəlakətlər və ya digər səbəblərdən övladlarından ayrı düşən anaların yaşadığı dərin kədər və həsrətlə eynidir. Övladı üçün canını fəda etməyə hazır olan, onların yoxluğunda kədərdən çıxmayan analar. Müasir dövrümüzdə də oğlunu vətən üçün yola salıb, əsir kimi görən, qara bağrı yarılan analarımız var. Hər iki əsrdə belə övladının təhlükəsizliyi üçün narahat olmaq, onun geri qayıdacağını ümidlə gözləmək bütün zamanların analarının ortaq hissidir [1.98]

3. Baybörənin oğlu Bamsı Beyrək boyu:

Bamsı Beyrəyin yaralanıb uzun müddət huşsuz qalması anasını dərin kədərə qərq edir. Onun günlərlə oğlunun sağalması üçün ağlaması, ümidini itirməməsi və Allaha dua etməsi təsvir olunur. Oğlunu atasından qorumaq üçün gizlətməsi, özünü xəbərsiz aparıb yalan söyləməsi ananın oğluna qayğısıdır. Ananın bu sarsılmaz ümidi və inancı, oğluna olan dərin sevgisinin və bağlılığının göstəricisidir.

Bu səhnələr, müasir dövrdə də ağır xəstəliklərlə mübarizə aparan övladlarının yanında olan anaların hissləri ilə tamamilə eynidir. Onlar övladlarını atalarından qorumalı olsa belə etdikləri səhvləri bəzən demir, gizlədirlər. Övladlarına zərər gəlməsin, adi halda belə danlanıb könülləri qırılmasın deyə çalışırlar. Yəni analar övladlarının sağalması üçün günlərlə, hətta aylarla gözləyir, ümidlərini itirmir və onlara həm fiziki, həm də emosional dəstək olurlar. Ananın inancı və mübarizəsi, övladının sağalma prosesində çox zaman mühüm rol oynayır.

Ata və oğul münasibətlərinin müasir dövrlə səsləşməsi.

Dastandakı ata və oğul münasibətlərinin müasir dövrə səsləşməsi."Kitabi-Dədə Qorqud" dastanında ata obrazı, oğlunun tərbiyəsində, onun cəmiyyətdə layiqli yer tutmasında mühüm rol oynayan, oğluna yol göstərən, dəstək olan və onunla qürur duyan bir fiqur kimi təsvir edilir. Bu münasibətlərdəki bəzi əsas xüsusiyyətlər müasir dövrdə də öz əhəmiyyətini qoruyur.[5.143]

1. Dirsə xan oğlu Buğac xan boyu: Dirsə xan, uzun müddət övladı olmadığı üçün narahatlıq yaşayır və duasının qəbul olması üçün bütün könülləri şad edir, acları doyurur. Lakin Buğac doğulduqdan sonra ona böyük ümidlər bəsləyir. Buğacın gücü və igidliyi ilə fəxr edir. Lakin onu bu qədər çox sevməsi qırx igidi ilə arasına qırğınlıq salır. Nəticədə ata və oğul arasında anlaşılmazlıq yaranır. Dirsə xan məcbur qalıb oğlunu ox ilə vur. Buna baxmayaraq, hər gün oğul həsrətində qalır. Öldüyün zənn edirdi amma Dirsə xanı qırx igidin əlindən almağa gəldiyini görəndən sonra aralarındakı incikliyi aradan qaldırırlar.

Müasir dövrdə bu boy, övlad sahibi olmaq istəyən və övladlarının uğurları ilə qürur duyan müasir ataların hissləri ilə səsləşir. Ata və oğul arasında bəzən fikir ayrılıqları və anlaşılmazlıqlar yaşansa da, müasir atalar da övladlarının rifahını düşünür və onlarla münasibətlərini düzəltməyə çalışırlar. Atanın oğluna olan ümidləri və onun uğurunu görmək istəyi bu gün də aktualdır.

2. Salur Qazanın evinin yağmalandığı boy:

Dastanda Salur Qazan yurdunu oğluna güvənərək əmanət edir. Lakin düşmən hücumu zamanı evin yağmalanması zamanı oğlunun təhlükəsizliyindən böyük narahatlıq keçirir. Onun əsas məqsədi öz ailəsini, o cümlədən oğlunu qorumaqdır. Onu qorumaq üçün də canını ortaya qoyur.[3.89]

Müasir dövrdə bu, müasir ataların da öz ailələrini, xüsusən övladlarını hər cür təhlükədən qorumaq instinkti ilə eynidir. Atalar, övladlarının təhlükəsizliyi üçün maddi və mənəvi hər cür səyi göstərməyə hazırdırlar.

3. Baybörənin oğlu Bamsı Beyrək boyu:

Baybörə, oğlunun başına gələn müsibətlər zamanı böyük kədər yaşayır. Oğluna olan sevgisi yad eldə əsir düşəndə aydın görünür, çünki atanın ağlamaqdan gözləri kor olur. Hətta Bamsı geri qayıdarkən onun gəldiyinə inanması üçün oğlunun qanından kor olan gözəllərinin açılacağına inanırdı və gözləri açıldı. Bu boy, övladının xəstəliyi və ya çətin vəziyyəti ilə üzləşən müasir ataların hissləri ilə səsləşir[2.86]. Atalar da övladlarının həsrətini çəkirlər. Bunu nə qədər də analar qədər bildirməsələr də içləri kədərlə dağlanır. Oğullarına hər zaman dəstək verir və ümidlərini itirmirlər.

4. Qazan bəyin oğlu Uruz bəyin dustaq olduğu boy:

Dastanda Qazan bəy oğlunu fərasətli görmək istəyir. Buna görə də onula igidlik etdiyi yerlərə gedir. Düşmənin qəfil hücumunu görüb oğlu üçün narahat qalıb, onun meydanı tərk etməsini istəyir. Oğul isə sözünü iki etmir. Çünki ata sözünü çöndərmək hörmətsizlik hesab olunurdu. Uruz atasını meydanda tək qoymağa razı olmur və döyüşür. Sonra əsir düşür. Döyüş bitdikdən sonra Qazan bəy oğlunun onun üzünü qara çıxardığını düşünür və yurduna geri

qayıdıb anasından xəbər alır. Qazan bəy, oğlunun əsir düşməsi xəbərini böyük bir sarsıntı ilə qarşılayır. Onun əsas məqsədi oğlunu xilas etməkdir və bu yolda mübarizə aparır.

Bu, müasir ataların da övladlarının başına gələn bədbəxt hadisələr zamanı onların köməyinə tələsməsi və onları qorumaq üçün hər cür riski gözə alması ilə eynidir. Həmçinin hər bir ata yurduna fərli oğul qoyub getmək istəyir. Atalar, övladlarının çətin anlarında onların yanında olmaq və onlara dəstək vermək üçün əzmkarlıq göstərirlər.

5. Qanlı Qoca oğlu Qanturalı boyu:Dastanda Qanlı Qoca, oğlunun evlilik seçimində ona dəstək olur və onun uğur qazanması üçün nəsihətlər verir. Atanın oğluna yol göstərməsi və onun xoşbəxtliyini istəməsi aydın şəkildə görünür.Müasir dövrdə bu, müasir ataların da övladlarının həyat yoldaşı seçimində onlara hörmət etməsi, onların qərarlarını dəstəkləməsi və həyat yolunda onlara məsləhətlər verməsi ilə səsləşir. Atalar, övladlarının müstəqil və xoşbəxt olmasını arzulayırlar.

6.Salur Qazanın dustaq olduğu və oğlu Uruzun onu xilas etdiyi boy:Salur Qazanın əsir düşməsi, oğlu Uruzun atasını xilas etmək üçün hərəkətə keçməsinə səbəb olur. Uruzun fədakarlığı və atasını xilas etmək üçün göstərdiyi cəhd, oğulun atasına olan dərin hörmətini və bağlılığını göstərir.Bu boy, müasir dövrdə də övladların öz valideynlərinə olan hörmətini və onların çətin anlarında onlara kömək etmək istəyini əks etdirir. Oğullar, atalarının rifahını düşünür və onların problemlərini həll etmək üçün səy göstərirlər.

7. İç Oğuza Daş Oğuzun dönük çıxması və Beyrəyin öldüyü boy:Beyrəyin ölümü, atasının dərin kədərinə səbəb olur. Ata, oğlunun itkisi ilə barışmaqda çətinlik çəkir.Bu, müasir dövrdə də övlad itkisi ilə üzləşən ataların yaşadığı dərin sarsıntı ilə eynidir. Övlad itkisi, bütün zamanların ataları üçün ən böyük ağrılardan biridir.

Göründüyü kimi, "Kitabi-Dədə Qorqud" dastanlarındakı ata və oğul münasibətlərində əks olunan dəyərlər, müasir dövrdə də öz aktuallığını qoruyur[5.89]. Ataların övladlarına olan ümidləri, onların tərbiyəsindəki rolları, onlara dəstək olmaları və onlarla qürur duymaları, həmçinin oğulların atalarına olan hörməti və bağlılığı zamanın sınağından çıxmış ümumbəşəri dəyərlərdir.

"Kitabi-Dədə Qorqud" dastanındakı valideyin və övlad münasibətlərinin tərbiyəvi əhəmiyyəti, əsrlər boyu nəsildən-nəslə ötürülən dəyərləri özündə ehtiva etməsi ilə müəyyən edilir. Bu dastanlar, gənc nəslin formalaşmasında mühüm rol oynayan əxlaqi prinsipləri, ailə dəyərlərini və sosial davranış qaydalarını canlı obrazlar və hadisələr vasitəsilə təqdim edir.

Dastanlarda valideyinlər, xüsusən analar, övladlarına sonsuz sevgi, qayğı və şəfqət göstərən, onların tərbiyəsi üçün hər cür fədakarlığa hazır olan nümunəvi obrazlardır. Ananın övladının dərdinə şərik olması, onun sağlığı üçün mübarizə aparması, ona mənəvi dəstək verməsi kimi davranışlar, gənc nəslə sevgi, mərhəmət və fədakarlıq kimi yüksək insani keyfiyyətləri aşılamaq üçün güclü bir təsirə malikdir. Atalar isə, oğullarının cəsur, igid, sözünün sahibi, ədalətli və qonaqpərvər böyüməsi üçün nümunə göstərirlər. Onların nəsihətləri, övladlarına həyat yolunda doğru istiqamət verməkdə mühüm rol oynayır.

Dastanlarda övladlar, valideyinlərinə dərin hörmət və ehtiram bəsləyən, onların sözünə qulaq asan və onların rifahını düşünən obrazlar kimi təsvir olunur. Oğulların atalarının yolunu davam etdirmək, onların adını ucaltmaq istəyi, valideyinlərə olan sarsılmaz bağlılıqlarının göstəricisidir. Bu, gənc nəslə böyüklərə hörmət etmək, onların təcrübələrindən yararlanmaq və ailə bağlarını qorumaq kimi vacib dəyərləri öyrədir.

Dastanda ailə üzvləri arasındakı güclü bağlar və həmrəylik, çətin anlarda bir-birinə dəstək olmaq, sevinci və kədəri bölüşmək kimi dəyərlər xüsusi vurğulanır. Oğulun atasını xilas etmək üçün göstərdiyi fədakarlıq, ananın oğlunun sağalması üçün səbirli olması kimi hadisələr, ailənin birliyi və həmrəyliyinin nə qədər mühüm olduğunu göstərir. Bu, gənc nəslə ailə dəyərlərini qorumaq, yaxınları ilə sıx əlaqələr qurmaq və onlara dəstək olmaq kimi davranışları təlqin edir.Dastanda əks olunan ədalət, dürüstlük, mərdlik,qonaqpərvərlik, vəfa kimi yüksək əxlaqi dəyərlər, valideyin-övlad münasibətləri kontekstində daha da canlanır. Valideyinlərin öz davranışları ilə övladlarına nümunə olması, onlara doğru və yanlışı ayırmağı, ədalətli olmağı və insanlara yaxşı münasibət göstərməyi öyrədir. Övladların bu dəyərləri mənimsəməsi, onların cəmiyyətdə layiqli bir fərd kimi formalaşmasına kömək edir.

"Kitabi-Dədə Qorqud" dastandakı valideyin və övlad münasibətlərinin tərbiyəvi əhəmiyyəti müasir dövrdə də öz aktuallığını qoruyur. Bu dastan ailədə sevgi, hörmət və qarşılıqlı anlayışın əsas olduğunu, valideyinlərin övladlarının tərbiyəsində mühüm rol oynadıqlarını və övladların da valideyinlərinə sayğı göstərməli olduğunu xatırladır. Dastandakı ideal münasibət nümunələri, müasir ailələr üçün də bir örnək ola bilər, gənc nəslin mənəvi inkişafına müsbət təsir göstərə bilər.Beləliklə, "Kitabi-Dədə Qorqud" dastanındakı valideyin və övlad münasibətləri, sadəcə ədəbi təsvirlər deyil, həm də gənc nəslin tərbiyəsi üçün dəyərli öyüd-nəsihətlər mənbəyidir. Bu dastanlar, ailə dəyərlərinin qorunması, əxlaqi prinsiplərin aşılanması və sağlam nəsil yetişdirilməsi baxımından böyük əhəmiyyətə malikdir.

Ədəbiyyat siyahısı:

1. "Kitabi-Dədə Qorqud " ensiklopediyası. I cild. Bakı, 2000.
2. E.M. Əlibəyzadə. Azərbaycan dilinin tarixi. I cild. Bakı, 2007.
3. "Kitabi-Dədə Qorqud" dastanının biblioqrafiyası. Bakı 2015.
4. Y. İsmayılova. "Dədə Qorqud kitabı" və müasir Azərbaycan ədəbi düşüncəsi. Bakı, 2011.
5. İ. Həbibbəyli. Azərbaycan milli elmlər akademiyası. "Kitabi-Dədə Qorqud"; yazılı epos və epopeyası. Bakı, 2020.
6. A.Səfərova. AMEA folklor instutu. "Kitabi-Dədə Qorqud" dastanında oğuzların həyat tərzi və ailə münasibətləri. Bakı, 2021.
7. Google Scholar (https://scholar.google.com/) akademik axtarış sistemlərində elmi məqalələr.

Xülasə:

"Kitabi-Dədə Qorqud" dastanında valideyin və övlad münasibətləri necə əks olunduğu və münasibətlərin həm fərdi inkişafı, həm də cəmiyyətin sosial strukturu üzərində necə təsir göstərdiyini gördük. Valideyinlər və övladlar

arasındakı əlaqələrin zaman və mədəniyyətin təsiri ilə necə formalaşdığını analiz etdik. Dastanda ata-oğul münasibətlərinin analizində həmçinin anların övladlarına olan dərin sevgisinin və onlardan gözləntiləri oğuz ailə modelini aydın şəkildə əks olunur. Bu münasibətlərdə hörmət, vəfa, sədaqət və şərəf kimi ali dəyərlər ön plandadır. Yəni bunlar müxtəlif boylarda fərqli çalarlarla təzahür etsə də ümumilikdə valideyin və övlad arasında güclü emosional bağ və qarşılıqlı dəyər vermə ideyası özünün qabarıq şəkildə əksini tapır. Müasir dövrdə ailə dəyərlərində müəyyən dəyişikliklər olsa da bu fundamental dəyərlər özünü saxlamaqdadır. Bu münasibətdəki çəkdiyimiz nümunələr nəsillər arasında mənəvi körpü rolunu oynayaraq, gənc nəslin tərbiyəsində müsbət təsir göstərə bilir. Dastan mənəvi irsi, ailə dəyərlərinin qorunması və möhkəmləndirilməsi baxımından bu gün də böyük əhəmiyyətə malikdir. Beləliklə, dastanda əks olunan bu münasibətlər sadəcə keçmişin yadigarı deyil, həm də müasir dövr ailələr üçün dəyərli bir örnəkdir.

Açar sözlər: Kitabi-Dədə Qorqud, qiymətliincilər, övlad, valideyin, boylar, folklor xəzinəsi.

Summary:

We have seen how the relationship between parents and children is reflected in the epic "Kitabi-Dede Gorgud" and how these relationships affect both individual development and the social structure of society. We have analyzed how the relationship between parents and children is shaped by the influence of time and culture. The analysis of the father-son relationship in the epic also clearly reflects the deep love of the fathers for their children and the expectations they have from them, which is the Oghuz family model. In these relationships, such supreme values as respect, loyalty, devotion and honor are at the forefront. In other words, although these are manifested in different shades in different stories, in general, the idea of a strong emotional bond and mutual valuing between parents and children is clearly reflected.Although there have been certain changes in family values in modern times, these fundamental values are still preserved. The examples we have drawn in this relationship can play the role of a spiritual bridge between generations and have a positive impact on the upbringing of the younger generation. The epic is still of great importance today in terms of the protection and strengthening of the spiritual heritage and family values. Thus, these relationships reflected in the epic are not only a relic of the past, but also a valuable example for modern families.

Keywords: Kitabi-Dade Gorgud, precious pearls, child, parent, tribes, folklore treasury.

Резюме:

Мы увидели, как отношения между родителями и детьми отражены в эпосе «Китаби-Деде Горгуд» и как эти отношения влияют как на индивидуальное развитие, так и на социальную структуру общества. Мы проанализировали, как отношения между родителями и детьми формируются под влиянием времени и культуры. Анализ отношений между отцом и сыном в эпосе также ясно отражает глубокую любовь отцов к своим детям и ожидания, которые они имеют от них, что является моделью семьи огузов. В этих отношениях на первый план выходят такие высшие ценности, как уважение, верность, преданность и честь. Другими словами, хотя они проявляются в разных оттенках в разных историях, в целом четко отражена идея сильной эмоциональной связи и взаимной оценки между родителями и детьми. Хотя в современности произошли определенные изменения в семейных ценностях, эти основополагающие ценности все еще сохраняются. Приведенные нами примеры в этой взаимосвязи могут сыграть роль духовного моста между поколениями и оказать положительное влияние на воспитание подрастающего поколения. Эпос и сегодня имеет большое значение с точки зрения защиты и укрепления духовного наследия и семейных ценностей. Таким образом, эти взаимоотношения, отраженные в эпосе, являются не только пережитком прошлого, но и ценным примером для современных семей.

Ключевые слова: Китаби-Деде Горгуд, драгоценные жемчужины, ребенок, родитель, племена, фольклорная сокровищница.

Вефа Акиф гызы Керимова

[90]МЕТОДИКА ПРЕПОДАВАНИЯ РУССКОГО ЯЗЫКА В АЗЕРБАЙДЖАНСКОМ СЕКТОРЕ ВЫСШИХ УЧЕБНЫХ ЗАВЕДЕНИЙ

Введение. Русский язык в Азербайджане занимает особое положение: он продолжает функционировать как язык межнационального общения, важный инструмент в профессиональной, научной и культурной среде. Несмотря на то, что основным языком преподавания в большинстве вузов является азербайджанский, русский язык остаётся обязательной дисциплиной или предлагается как факультативный курс. Это определяет необходимость разработки современной, адаптированной к местным условиям методики преподавания, учитывающей как языковую, так и культурную специфику студентов.

В данной статье рассматриваются актуальные подходы к обучению русскому языку в азербайджанском секторе высших учебных заведений, трудности, возникающие в процессе преподавания, а также предлагаются пути их решения.

Особенности обучающей среды

Преподавание русского языка в азербайджанском секторе вузов характеризуется рядом факторов, которые напрямую влияют на выбор методов и приёмов обучения:

• Неоднородный уровень языковой подготовки студентов. Среди учащихся встречаются как почти свободно владеющие русским языком, так и те, кто начинает его изучать практически с нуля.

• Разнообразие мотивации. Для одних студентов русский язык необходим для профессиональной деятельности, научной работы или будущей карьеры, для других — это лишь обязательный предмет.

• Функциональность русского языка. Он используется в деловой переписке, чтении научной литературы, а также в межкультурном общении, особенно в многонациональных коллективах.

Также необходимо учитывать различия в языковых системах: флективная структура русского языка резко отличается от агглютинативного строя азербайджанского. Это создаёт определённые трудности при освоении грамматики, словообразования и синтаксиса.

Современные методические подходы

1. Коммуникативный метод.Коммуникативный подход остаётся одним из самых эффективных в обучении РКИ (русскому как иностранному), особенно в неязыковом секторе. Его суть заключается в формировании умений использовать язык в реальных ситуациях общения. Обучение строится не вокруг грамматических правил, а вокруг речевых задач. Такой подход развивает навыки диалога, умение выражать своё мнение, аргументировать и вести беседу.

Практическое применение метода включает:

- Ролевые и ситуационные игры;
- Работа в парах и малых группах;
- Интерактивные упражнения;
- Проектная деятельность.

Коммуникативная методика предполагает отказ от традиционного перевода и заучивания и опирается на интуитивное восприятие языка в контексте.

2. Предметно-языковая интеграция (CLIL) метод.МетодCLIL (Content and Language Integrated Learning) позволяет совмещать изучение русского языка с профессиональной подготовкой. Например, будущие врачи изучают медицинскую терминологию на русском, а студенты экономического факультета — лексику финансовой сферы. Это не только повышает мотивацию, но и делает процесс обучения более осмысленным и целенаправленным.

CLIL особенно эффективен в вузах, где часть профессиональной литературы и документации представлена на русском языке. В таком контексте изучение языка становится не самоцелью, а инструментом для овладения профессией.

3. Межкультурный компонент.Неотъемлемой частью преподавания русского языка как неродного является формирование межкультурной компетенции. Как отмечает В.Г. Костомаров: “Знание языка без понимания культурного контекста — это лишь частичное овладение коммуникацией” [2, с.37].

В преподавании можно использовать:

• Материалы о культуре, традициях и нормах общения в русскоязычной среде;

• Сравнение речевых актов в азербайджанской и русской культурах;

• Анализ культурных стереотипов и форм вежливости.

Развитие межкультурной компетенции помогает студентам избежать коммуникативных ошибок и формирует уважение к языковому разнообразию.

4.Цифровые технологии в обучении.Современные образовательные платформы (Moodle, Zoom, GoogleClassroom и др.) позволяют выстраивать гибкую, интерактивную модель обучения. Цифровые ресур-

[90]Преподаватель русского языка и литературы Азербайджанского Государственного Педагогического Колледжа при АГПУva.karimova@adpk.edu.azORCIDiD: 0009-0003-5422-0121

10.24412/2218-7588-2025-314-316

сы (видеоуроки, подкасты, интерактивные тренажёры) делают занятия более интересными и адаптированными под индивидуальные потребности студентов.

Также активно используется:

• Электронная почта и чаты для переписки на русском;

• Онлайн-тесты и проверка лексико-грамматических навыков;

• Видеопрактикумы и разбор актуальных новостей на русском языке.

Проблемы и пути их решения

1.Проблема:

Недостаточная мотивация студентов

Возможное решение:

Введение профессионально-ориентированных тем, проектная работа, связь языка с будущей специальностью

2.Проблема: Слабая языковая практика вне занятий

Возможное решение:Организация языковых клубов, парная работа с русскоязычными студентами, участие в онлайн-форумах

3. Проблема:Дефицит адаптированных учебников

Возможное решение:Использование аутентичных текстов, адаптацияроссийских пособий, создание собственных методических материалов

4. Проблема: Трудности в восприятии русской грамматики

Возможное решение: Сравнительный подход, визуализация схем и таблиц, постепенное усложнение материала

Заключение. Методика преподавания русского языка в азербайджанском секторе высших учебных заведений должна учитывать как языковые, так и социокультурные особенности студентов. Применение коммуникативного метода, интеграция языка с профессиональной подготовкой, использование цифровых технологий и развитие межкультурной компетенции — всё это делает обучение эффективным, актуальным и ориентированным на практический результат.

Только комплексный, гибкий подход к преподаванию может обеспечить качественное усвоение языка и сформировать устойчивые навыки коммуникации на русском языке, востребованные в современном многоязычном обществе.

Список литературы

1.Гальскова Н.Д. Современная методика обучения иностранным языкам. – Москва: АРКТИ, 2003, 192 с.
2. Верещагин Е.М., Костомаров В.Г. Язык и культура. – Москва: Русский язык, 1999, 246 с.
3. Зимняя И.А. Психология обучения иностранным языкам. – Москва: Просвещение, 1991, 222 с.
4.Министерство образования Азербайджанской Республики. Стандарты преподавания русского языка в неязыковых вузах, 2021.
5. Пассов Е.И. Коммуникативный метод обучения иностранным языкам. – Москва: Просвещение, 1985, 208 с.
6. Шахнарович А.М. Психолингвистика и методика обучения языкам. – Москва: Логос, 2008.
7. Marsh D., Coyle D. Content and Language Integrated Learning. – Cambridge: CUP, 2010.

Açar sözlər: Rus dili, Azərbaycan dili, tədris metodikası
Ключевые слова: русский язык, азербайджанский язык, методика преподавания
Key words: Russian language, Azerbaijani language, teaching methods

Ali təhsil müəssisələrinin Azərbaycan sektorunda rus dilinin tədrisi metodikası

Xülasə

Məqalədə ali təhsil müəssisələrinin Azərbaycan sektorunda rus dilinin tədrisi metodikasının aktual aspektləri araşdırılır. Müəllif rus dilinin ana dili olmayan tələbələrin mədəni, linqvistik və təhsil xüsusiyyətlərinin nəzərə alınmasının vacibliyini vurğulayır.

Tədrisə müasir yanaşmalar təsvir edilmişdir: kommunikativ metod, dilin peşəkar fənlərlə inteqrasiyası (CLIL), mədəniyyətlər arası komponent və rəqəmsal texnologiyaların tətbiqi. Bu üsulların hər biri davamlı dil bacarıqlarının, peşəkar lüğətin və mədəniyyətlər arası ünsiyyət bacarığının inkişafına kömək edir.

Müəllim və tələbələrin üzləşdiyi problemlərin təhlilinə xüsusi diqqət yetirilir: motivasiyanın aşağı olması, sinifdən kənar dil təcrübəsinin zəif olması, uyğunlaşdırılmış dərsliklərin çatışmazlığı, qrammatik strukturların mənimsənilməsində çətinliklər. Layihə işindən və dil klublarından tutmuş orijinal materiallardan və vizual diaqramlardan istifadəyə qədər xüsusi həllər təklif olunur.

Yekun olaraq iki dilli və multikultural mühitdə xüsusilə aktual olan metodoloji ənənələri innovativ tədris vasitələri ilə birləşdirən tədrisə kompleks və çevik yanaşmanın zəruriliyi haqqında nəticə çıxarılır.

Резюме

В статье рассматриваются актуальные аспекты методики преподавания русского языка в азербайджанском секторе высших учебных заведений. Автор подчёркивает важность учета культурных, языковых и образовательных особенностей студентов, для которых русский язык является неродным.

Описаны современные подходы к обучению: коммуникативный метод, интеграция языка с профессиональными дисциплинами (CLIL), межкультурный компонент, а также внедрение цифровых технологий. Каждый из этих методов способствует формированию устойчивых языковых навыков, профессиональной

лексики и способности к межкультурной коммуникации.

Особое внимание уделено анализу проблем, с которыми сталкиваются преподаватели и студенты: низкая мотивация, слабая языковая практика вне аудитории, дефицит адаптированных учебников, трудности в освоении грамматических структур. Предложены конкретные пути решения — от проектной работы и языковых клубов до использования аутентичных материалов и визуальных схем.

В заключение делается вывод о необходимости комплексного и гибкого подхода к преподаванию, сочетающего методические традиции с инновационными средствами обучения, что особенно актуально в условиях билингвальной и мультикультурной среды.

Methods of teaching Russian in the Azerbaijani sector of higher education institutions

Summary

The article discusses current aspects of the methodology of teaching Russian in the Azerbaijani sector of higher education institutions. The author emphasizes the importance of taking into account the cultural, linguistic and educational characteristics of students for whom Russian is not their native language.

Modern approaches to teaching are described: the communicative method, the integration of language with professional disciplines (CLIL), the intercultural component, and the introduction of digital technologies. Each of these methods contributes to the formation of sustainable language skills, professional vocabulary and the ability to communicate interculturally.

Particular attention is paid to the analysis of the problems faced by teachers and students: low motivation, poor language practice outside the classroom, a shortage of adapted textbooks, difficulties in mastering grammatical structures. Specific solutions are proposed - from project work and language clubs to the use of authentic materials and visual diagrams.

In conclusion, a conclusion is made about the need for a comprehensive and flexible approach to teaching, combining methodological traditions with innovative teaching tools, which is especially important in a bilingual and multicultural environment.

RƏYÇİ: dos. S.Abbasova

Mirvari Arif qızı Qəhrəmanova [91]

İNGİLİS DİLİ TƏDRİSİNDƏ SÜNİ İNTELLEKT ALƏTLƏRİNİN İNTEQRASİYASI: İMKANLAR VƏ ÇƏTİNLİKLƏR

Son illərdə süni intellekt (Aİ) texnologiyalarının təhsildə tətbiqi qlobal miqyasda nəzərəçarpacaq dərəcədə genişlənmişdir. Təhsil sahəsindəki bu rəqəmsal transformasiya ənənəvi öyrənmə və tədris üsullarını yenidən formalaşdırmaqla yanaşı, müəllim və tələbə münasibətlərini də yenidən qurmaqdadır.

Xüsusilə, xarici dillərin tədrisi — bu kontekstdə isə ingilis dili — süni intellektin imkanlarından daha aktiv şəkildə yararlanan istiqamətlərdən birinə çevrilmişdir. Bu alətlər interaktiv öyrənmə mühitləri yaratmaq, şagirdlərin fərdi ehtiyaclarına uyğun dərs resursları təqdim etmək və müəllimlərin dərs planlaşdırma prosesini optimallaşdırmaq baxımından əhəmiyyətli rol oynayır [6].

Məqalədə süni intellekt alətlərinin ingilis dili tədrisində konkret tətbiq sahələri, onların yaratdığı imkanlar və qarşıya çıxan çətinliklər geniş şəkildə təhlil olunacaqdır. Eyni zamanda, bu texnologiyaların Azərbaycan təhsil sisteminə inteqrasiyasının hazırkı vəziyyəti, mövcud infrastruktur və insan resurslarının hazırlıq səviyyəsi kontekstində qiymətləndiriləcəkdir. Şəxsi pedaqoji təcrübə əsasında aparılan müşahidələr və praktiki yanaşmalar da araşdırmaya daxil ediləcək, bu da məqaləyə real konteks və yerli xüsusiyyətlər baxımından əlavə dəyər qatacaq. Azərbaycan reallığında, rəqəmsal texnologiyaların təhsilə inteqrasiyası, xüsusilə bölgələrdə bərabər şəkildə yayılmaması və müəllimlərin bu texnologiyalarla işləmək üçün yetərli təlim almaması kimi problemlər bu sahədə

SI alətlərinin potensialından tam istifadə edilməsinə əngəl yaradır. Buna baxmayaraq, SI-nin təqdim etdiyi imkanlar gələcəkdə daha effektiv, fərdiləşdirilmiş və interaktiv tədris modellərinin inkişafına yol açа bilər. Məqalənin məqsədi həm nəzəri, həm də praktik yanaşma ilə süni intellektin təhsildə – xüsusilə ingilis dili öyrənmə və tədrisində – rolunu dəyərləndirmək, bu istiqamətdə yaranan problemləri müəyyən etmək və onların həlli yollarını göstərməkdir. Süni intellekt alətlərinin tədrisdə imkanları SI alətləri, fərdi öyrənmə təcrübələri yaratmaq, dərs planlaşdırmasını asanlaşdırmaq və tələbələrin performansını izləmək kimi müxtəlif sahələrdə müəllimlərə dəstək olur. Məsələn, Grammarly kimi alətlər tələbələrin yazılarını avtomatik olaraq yoxlayaraq, qrammatik səhvləri düzəldir və təkliflər verir [6].

Duolingo isə interaktiv məşqlər və oyunlaşdırma vasitəsilə tələbələrin motivasiyasını artırır [5]. Şəxsi təcrübəmə əsaslanaraq deyə bilərəm ki, ChatGPT kimi SI alətləri dərs planlarının hazırlanmasında və tələbələrin suallarına sürətli cavablar verməkdə çox faydalıdır. Bu alətlər, müəllimlərin vaxtını effektiv istifadə etməsinə kömək edir və dərs keyfiyyətini artırır. Azərbaycan reallığında SI alətlərinin tətbiqi Azərbaycanda SI texnologiyalarının təhsildə tətbiqi hələ ilkin mərhələdədir. Bəzi özəl məktəblər və universitetlər bu texnologiyaları sınaqdan keçirir, lakin ümumilikdə geniş yayılmamışdır

. Məsələn, Bakı şəhərində yerləşən bəzi özəl məktəblərdə Duolingo və Grammarly kimi alətlərdən istifadə olunur, lakin bu, ümumi təhsil sistemində geniş tətbiq olunmur. Statistik məlumatlara əsasən, 2024-cü ildə Azərbaycanda internetə çıxışı olan əhalinin 80%-i mobil cihazlar vasitəsilə internetə daxil olur [7].

Bu, SI alətlərinin mobil tətbiqlər vasitəsilə təhsildə istifadəsi üçün potensial yaradır. Lakin, müəllimlərin və tələbələrin bu texnologiyalar haqqında məlumatlılığı və texniki bacarıqları hələ də məhduddur. SI alətlərinin tədrisdə çətinlikləri SI alətlərinin təhsildə istifadəsi bəzi çətinliklərlə müşayiət olunur.

Ən əsas çətinliklərdən biri, bu alətlərin bəzən qeyri-dəqiq və ya uyğun olmayan cavablar verməsidir. Məsələn, Duolingo istifadəçiləri bəzi dillərdə tərcümə səhvləri və tələffüz problemləri ilə qarşılaşdıqlarını bildirirlər [5]. Bundan əlavə, müəllimlərin SI alətlərindən effektiv istifadə edə bilməsi üçün xüsusi təlimlərə ehtiyacı var.

Azərbaycanda bu sahədə təlim proqramları və resurslar məhduddur, bu da texnologiyanın geniş tətbiqini çətinləşdirir. Şəxsi təcrübə və təhlil Müəllim olaraq,

SI alətlərinin tədrisdə istifadəsinin həm üstünlüklərini, həm də məhdudiyyətlərini müşahidə etmişəm. Məsələn, ChatGPT dərs planlarının hazırlanmasında və tələbələrin suallarına cavab verməkdə çox faydalıdır. Lakin, bəzi hallarda bu alətlərin verdiyi cavablar qeyri-dəqiq və ya uyğun olmaya bilər, bu da əlavə yoxlama və düzəliş tələb edir. Azərbaycan reallığında, SI texnologiyalarının təhsildə effektiv istifadəsi üçün müəllimlərin bu sahədə təlim alması və texniki bacarıqlarının artırılması vacibdir.

Həmçinin, təhsil müəssisələrinin texniki infrastrukturunun gücləndirilməsi və SI alətlərinin istifadəsi üçün uyğun şəraitin yaradılması zəruridir. SI alətləri ingilis dili tədrisində müəllimlərə və tələbələrə yeni imkanlar təqdim edir. Lakin, bu texnologiyaların effektiv istifadəsi üçün müəllimlərin təlim alması, texniki infrastrukturun gücləndirilməsi və uyğun tədris materiallarının hazırlanması vacibdir.

Azərbaycanda SI texnologiyalarının təhsildə geniş tətbiqi üçün dövlət və özəl sektorun əməkdaşlığı və investisiyaları zəruridir.

Ədəbiyyat

1. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. İnformasiya və Kommunikasiya Texnologiyaları üzrə göstəricilər. URL: https://www.stat.gov.az/source/information. 2024.
2. Duolingo. Duolingo Research Reports: Language learning through gamification. URL: https://research.duolingo.com. 2024.
3. Holmes, W. Artificial intelligence and personalized learning in higher education: A critical review. – British Journal of Educational Technology, – 2022. 53(1), – p. 5-20. https://doi.org/10.1111/bjet.13174

[91] **Bakı Dövlət Universiteti, İngilis dili (təbiət fakültələri üzrə) kafedrasının müəllimi, mirvarigahramanova@gmail.com, +994 55 582 37 47**
10.24412/2218-7588-2025-2-317-319

4. Holmes, W., Bialik, M., & Fadel, C. Artificial intelligence in education: Promises and implications for teaching and learning. Center for Curriculum Redesign. URL: https://curriculumredesign.org/wp-content/uploads/AI-inEducation.pdf. 2019.
5. Kwon, D. How AI is changing teaching. – Nature, – 2020. 578(7796), – p. 20- 23. https://doi.org/10.1038/d41586-020-00279-3
6. Lu, X., Zheng, Y., & Wang, Y. Exploring the effectiveness of AI-powered writing assistants in ESL learning. – Computer Assisted Language Learning, – 2022. 35(3), – p. 276-295. https://doi.org/10.1080/09588221.2020.1839105
7. Pearson. (). AI in education: How tools like Grammarly and ChatGPT are transforming learning. Pearson Education Insights. URL: https://www.pearson.com/en-us/news-and-research/insights/ai-ineducation.html. 2023.
8. Selwyn, N. Should robots replace teachers? AI and the future of education. – Polity Press. – 2021.
9. Tegmark, M. Life 3.0: Being human in the age of artificial intelligence. – New York: Alfred A. Knopf. – 2017. 10.UNESCO. AI and education: Guidance for policy-makers. United Nations Educational, Scientific and Cultural Organization. URL: https://unesdoc.unesco.org/ark:/48223/pf0000376709. 2021

. XÜLASƏ

Son illərdə süni intellekt (SI) texnologiyalarının təhsildə tətbiqi dünya miqyasında sürətlə artmaqda və ənənəvi tədris metodlarını kökündən dəyişdirməkdədir. SI-nin gətirdiyi rəqəmsal transformasiya, müəllimlərə və tələbələrə daha fərdiləşdirilmiş, interaktiv və effektiv öyrənmə imkanları təqdim etməklə yanaşı, təhsil prosesinin keyfiyyətini yüksəldir. Xüsusilə ingilis dili tədrisində SI alətləri — məsələn, Grammarly, Duolingo və ChatGPT kimi platformalar — dərslərin planlaşdırılması, yazıların avtomatik yoxlanması, interaktiv məşqlərin təşkili və tələbələrin fərdi ehtiyaclarına uyğun dərs resurslarının yaradılmasında mühüm rol oynayır [2; 7]. Azərbaycanda isə bu texnologiyaların təhsildə tətbiqi hələ ilkin mərhələdədir. Böyük şəhərlərdə müəyyən özəl məktəblər və universitetlərdə SI alətlərindən istifadə olunsa da, bölgələrdə rəqəmsal infrastrukturun zəifliyi və müəllimlərin lazımi təlimlərə malik olmaması bu texnologiyaların geniş yayılmasının qarşısını alır [1]. Şəxsi təcrübəmə əsasən, ChatGPT və digər SI vasitələri dərs planlarının hazırlanması və tələbələrin suallarının cavablandırılmasında effektiv dəstək təmin edir, lakin cavabların keyfiyyətinin müəllim tərəfindən yoxlanması zəruridir. Nəticə olaraq, Azərbaycanın təhsil sistemində süni intellektin daha effektiv inteqrasiyası üçün müəllimlərin peşəkar hazırlığının artırılması, texnoloji infrastrukturun müasirləşdirilməsi və innovativ tədris metodlarının tətbiqi vacibdir. Dövlət və özəl sektorun əməkdaşlığı ilə SI texnologiyalarının təhsildə istifadəsi daha geniş vüsət ala bilər. Açar sözlər: süni intellekt texnologiyaları, təhsildə rəqəmsal transformasiya, ingilis dili öyrənilməsi, fərdiləşdirilmiş təhsil, Azərbaycan təhsil sistemi МирвариА. Гахраманова

ИНТЕГРАЦИЯ ИНСТРУМЕНТОВ ИСКУССТВЕННОГО ИНТЕЛЛЕКТА В ПРЕПОДАВАНИИ АНГЛИЙСКОГО ЯЗЫКА: ВОЗМОЖНОСТИ И ТРУДНОСТИ

РЕЗЮМЕ

В последние годы применение технологий искусственного интеллекта (ИИ) в образовании стремительно растет по всему миру, коренным образом меняя традиционные методы преподавания. Цифровая трансформация, обеспечиваемая ИИ, предоставляет учителям и учащимся более персонализированные, интерактивные и эффективные возможности обучения, одновременно повышая качество образовательного процесса. Особенно в преподавании английского языка инструменты ИИ — такие как Grammarly, Duolingo и платформы типа ChatGPT — играют важную роль в планировании уроков, автоматической проверке письменных работ, организации интерактивных упражнений и создании учебных материалов, адаптированных под индивидуальные потребности студентов [2; 7]. В Азербайджане внедрение этих технологий в образование находится пока на начальном этапе. В крупных городах определённые частные школы и университеты используют инструменты ИИ, однако в регионах слабое цифровое оснащение и недостаточная подготовка преподавателей препятствуют широкому распространению этих технологий [1]. Согласно моему личному опыту, ChatGPT и другие инструменты искусственного интеллекта эффективно поддерживают процесс подготовки учебных планов и отвечают на вопросы студентов. Однако необходимо, чтобы преподаватели проверяли точность и качество предоставляемых ответов. В заключение, для более эффективной интеграции искусственного интеллекта в систему образования Азербайджана важно повысить профессиональную подготовку педагогов, модернизировать технологическую инфраструктуру и внедрять инновационные методы обучения. Сотрудничество государственного и частного секторов может способствовать более широкому распространению технологий ИИ в образовательной сфере. Ключевые слова: технологии искусственного интеллекта, цифровая трансформация в образовании, изучение английского языка, персонализированное обучение, система образования Азербайджана. Mirvari A. Gahramanova

INTEGRATION OF ARTIFICIAL INTELLIGENCE TOOLS IN ENGLISH LANGUAGE TEACHING: OPPORTUNITIES AND CHALLENGES

SUMMARY

In recent years, the application of artificial intelligence (AI) technologies in education has rapidly expanded worldwide, fundamentally transforming traditional teaching methods. The digital transformation brought by AI offers teachers and students more personalized, interactive, and effective learning opportunities, while simultaneously enhancing the overall quality of the educational process. In particular, AI tools in English language teaching — such as platforms like Grammarly, Duolingo, and ChatGPT — play a significant role in lesson planning, automatic writing assessment, organizing interactive exercises, and creating learning resources tailored to individual student needs [2; 7]. In Azerbaijan, however, the integration of these technologies in education is still at an early stage. While some private schools and universities in major cities utilize AI tools, the weak digital infrastructure and lack of adequate teacher

training in regional areas hinder the widespread adoption of these technologies [1]. Based on my personal experience, ChatGPT and other AI tools provide effective support in lesson planning and responding to students' questions; however, it is essential that teachers verify the accuracy and quality of the responses.In conclusion, for a more effective integration of artificial intelligence in Azerbaijan's education system, it is crucial to enhance teachers' professional development, modernize technological infrastructure, and implement innovative teaching methodologies. Collaboration between the public and private sectors can further promote the broader use of AI technologies in education.
Keywords: artificial intelligence technologies, digital transformation in education, English language learning, personalized education, Azerbaijani education system.

RƏYÇİ: dos. L.Ələkbərova

Gülsüm Rauf qızı Şərifova [92]

GƏNCLƏRİN MİLLİ-MƏNƏVİ RUHDA TƏRBİYƏSİ MƏSƏLƏLƏRİ

Giriş. Xalqımızın özünəməxsus zəngin tarixi keçmişi, milli-mənəvi dəyərləri, adət-ənənələri vardır. Bu zəngin tarixi keçmişi doğru-düzgün araşdırmaq, milli-mənəvi dəyərlərimizə hörmət və məhəbbətlə yanaşmaq, gənclərdə milli vətəndaşlıq hissini daha da artırır. Milli qeyrət, milli ləyaqət rəmzinə daima hörmətlə yanaşan Ulu öndər Heydər Əliyev deyirdi: "Əgər biz Azərbaycanı müstəqil bir dövlət kimi dünyaya yaxşı tanıtmaq istəyiriksə, Azərbaycanın qədim tarixini, əsrlər boyu keçdiyi yolu gərək həm öz vətəndaşlarımıza, həm də bütün ölkələrdə olan elm adamlarına, respublikamıza maraq göstərən adamlara tanıdaq" [3, s. 34]. Milli-mənəvi dəyərlərin, milli adət və ənənələrin yaradıcısı xalqdır. Milli-mənəvi dəyərlər, adət və ənənələr həyatdan və onun ehtiyaclarından doğulur, insanların mənəviyyatı, əxlaqi normaları ilə bağlı olub yaşayır. Hər yeni nəsil əvvəlki nəslin simasını əks etdirən milli-mənəvi dəyərləri, adət və ənənələri min illər boyu nəsildən-nəslə ötürmək, qorumaqla yanaşı, həm də yaşadığı dövrün, şəraitin, quruluşun təsiri ilə dəyişərək yeniləşir.

Bu gün ölkəmizə milli-mənəvi dəyərləri sevən, onlara məhəbbət göstərən vətənpərvər gənclər daha çox lazımdır. Gəncləri milli-mənəvi dəyərlərə məhəbbət ruhunda tərbiyə etməyin bir çox təsirli formaları, yol və vasitələri yaranmış və inkişaf etmişdir. Müasir, milli tərbiyənin qarşısında duran mühüm vəzifələrdən biri hazırkı yeniyetmə və gəncliyi milli ruhda, milli vətənpərvərlik ruhunda, vətəndaşlıq ruhunda yetişdirməkdən, onlarda soykökümüzdəki, milli mədəniyyətimizdəki, adət-ənənələrimizdəki, milli-mənəvi varlığımızdakı müsbət və mütərəqqi cəhətləri formalaşdırmaqdan ibarətdir. Milli-mənəvi dəyərlər konkret cəmiyyətdə formalaşaraq inkişafa kömək edən davranış qaydalarıdır. Milli mənəvi dəyərlərə torpaq, dil, ocaq, əcdad, övlad və qadınla bağlı şərəf, ləyaqət və namus ənənələri daxildir.

Əsas hissə. Mədəni irsisimiz sahəsində qazanılmış təcrübə sübut edir ki, insanların mənəviyyatı, əxlaqi normaları və baxışlarına bağlı olan milli-mənəvi dəyərlərin yaradıcısı, sözün həqiqi mənasında, xalqdır [2, s. 107]. Xalqın mövcudluğunun əsas göstəricisi olan milli-mənəvi dəyərlər onun ən qiymətli sərvətidir. Hər bir xalq (böyüklüyündən və kiçikliyindən asılı olmayaraq) mənəvi dəyərlər sisteminə malikdir. Bu milli-mənəvi dəyərlər xalqımızın dili, adət-ənənələri, milli mentaliteti, mədəniyyəti, ədəbiyyat və incəsənətidir. Tarix boyu milli-mənəvi dəyərlərimizin öyrənilməsi, dərk edilməsi, qorunub saxlanılması və inkişaf etdirilməsi əsas vəzifələrdən biri kimi qarşıya qoyulub. Bunlarsız millətin millət kimi mövcudluğu mümkün deyildir. Bu müqəddəs sərvətləri qoruyub saxlamağı xalq, həmişə müstəqillik yolu ilə getmək, müstəqilliyini qorumaq əzmi kimi nümayiş etdirmişdir. Milli-mənəvi dəyərləri qoruyub saxlamaq bütünlükdə insanlığın müqəddəs borcudur. Milli-mənəvi dəyərləri olmayan millət həqiqi millət, həqiqi xalq ola bilməz. Hər bir yeniyetmə, hər bir gənc milli-mənəvi dəyərlərimizlə fəxr etməlidir.

Ulu öndər Heydər Əliyev gənclərə müraciətində deyirdi: «Azərbaycanlı hər yerdə yaşaya bilər, ancaq azərbaycanlılığını, öz dinini, milli ənənələrini unutmamalıdır [7, s. 6]. Onun qəlbi daim doğma Azərbaycanla bir vurmalıdır. Bizim vətəndaşlıq borcumuz milli-mənəvi dəyərlərimizə, doğma torpağımıza, doğma ana dilimizə, böyük və zəngin tariximizə, millətimizə sadiq olmaqdan ibarətdir» Azərbaycan xalqına məxsus elə mənəvi dəyərlər vardır ki, onlar həm də ümumbəşəri xarakter daşıyırlar. Bu mənəvi dəyərlər (əxlaqilik, islamçılıq, türkçülük, vətənpərvərlik, qəhrəmanlıq, igidlik-humanizm və s.) həm ümumbəşəri, həm də milli-mənəvi dəyərlərdir [5, s. 4].

Əxlaq (ər. — xasiyyət, təbiət sözünün cəmi) — İnsanın mənəvi keyfiyyətini, əhvali-ruhiyyəsini müəyyən edən etik normalar; mənəviyyat. İctimai şüur formalarından biri; ictimai həyatın bütün sahələrində (məişət, ailə, əmək prosesi, elm və siyasət) insanların davranışını tənzim edən sosial institut. Əxlaq insanların öz davranışlarında rəhbər tutduqları prinsip, norma və qaydaların məcmusu, onların həyatda bir-birinə, ailəyə, işlədiyi kollektivə, millətə, bütövlükdə cəmiyyətə olan münasibətinin ifadəsidir [1, s. 310].

"İslamçılıq" sözü, əsasən, İslam dininə əsaslanan və ya İslam dəyərlərini ön plana çəkən siyasi, sosial və ya ideoloji bir hərəkatı ifadə edir. Bu termin, İslamın prinsipləri və təlimlərinə uyğun olaraq cəmiyyətin təşkili və idarə edilməsini müdafiə edən hərəkatlar üçün işlədilir.

Türkçülük — bütün türk xalqlarının müstəqil olub birgə dövlət qurmasını məqsəd görən siyasi düşüncədir. Türkçülük türk millətini yüksəltmək deməkdir.

Qəhrəmanlıq, bir insanın hər hansı bir çətin və ya təhlükəli vəziyyətdə cəsarət, iradə və fədakarlıq göstərərək, öz mənafeyindən üstün tutaraq başqalarına kömək etməsi və ya mühüm bir məqsədə nail olmasıdır.

Qəhrəmanlıq, adətən, böyük risklər və ya çətinliklər qarşısında göstərilən cəsarət və fədakarlıqla xarakterizə olunur. Bu, yalnız fiziki güclə deyil, həm də mənəvi güclə, məsələn, düzgünlük, vicdanlılıq və mərhəmət hissi ilə də bağlıdır. Qəhrəmanlıq hərəkətləri müxtəlif formalarda ola bilər:

Fiziki qəhrəmanlıq: Təhlükəli vəziyyətlərdə başqalarını xilas etmək, döyüşlərdə igidlik göstərmək.

Mənəvi qəhrəmanlıq: Haqsızlıqla mübarizə aparmaq, öz inanc və prinsiplərini müdafiə etmək, çətin şəraitdə doğru yolu seçmək.

Sosial qəhrəmanlıq: İnsanlara kömək etmək, cəmiyyətin inkişafı üçün çalışmaq, ədalətsizliyə qarşı mübarizə aparmaq.

Qəhrəmanlıq hər zaman böyük hadisələrlə bağlı olmaya bilər. Bəzən adi bir insan öz davranışları ilə

[92] Pedaqogika üzrə fəlsəfə doktoru. Bakı Dövlət Universitetinin müəllimi gülya_aze@mail.ru
ORCID ID: 0009-0008-5717-6118
10.24412/2218-7588-2025-2-320-323

qəhrəmanlıq nümunəsi göstərə bilər. Məsələn, zəif və ya çətin vəziyyətdə olan bir insana kömək etmək, başqasının hüquqlarını müdafiə etmək, düzgünlüyü və ədaləti təbliğ etmək də bir növ qəhrəmanlıqdır.

Qəhrəmanlıq, həm fərdi, həm də sosial həyatda dəyərli bir keyfiyyətdir. O, insanları daha yaxşıya doğru dəyişməyə, cəmiyyətləri inkişaf etdirməyə və gələcək nəsillər üçün nümunə olmağa təşviq edir.

İgidlik - sözü Azərbaycan dilində cəsurluq, qəhrəmanlıq, igid davranış, yəni qorxmadan, cəsarətlə, mərdliklə hərəkət etmək mənasında işlədilir. İgidlik bir şəxsin təhlükə qarşısında qorxmaması, doğru bildiyi yoldan dönməməsi, haqqı qorumaq üçün canından keçməyə hazır olması, zəifin köməyinə çatması, vətəni, ailəni, xalqı qorumaq üçün döyüşməsi kimi keyfiyyətlərini əhatə edir.

İgidlik nümunələri:

Tarixi qəhrəmanlar: Babək, Koroğlu, Cavanşir kimi şəxsiyyətlər Azərbaycan xalqının igdlik simvolları kimi tanınır [4, s. 280].

Müasir dövrdə: Müharibədə döyüşən əsgərlər, xilasedicilər, şəhidlər və igidlik nümunəsi sayılır.

Humanizm — (lat. humanitas — "insanlıq", humanus — "insani", homo — "insan") — insanın öz həyatının məzmununu və formasını müəyyən etmək hüququna və öhdəliyinə malik olduğunu iddia edən demoktarik və etik həyat mövqeyidir. Humanizm insanın bilik və bacarıqlarından istifadə etməklə insani və digər ali dəyərlərə söykənən etika əsasında daha humanist cəmiyyətin yaradılmasına səsləyir. Humanistik cərəyanı həm də eksiztensial cərəyanı(yəni mövcud olmaq) kimi tanınır. Humanizm teizm elementlərini özündə ehtiva etmir və dini dünyagörüşünü inkar edir. Biheviorizm və freydizm cərəyanlarına reaksiya kimi meydana gəlmişdir. Humanistik psixologiya- insanı hisslərlə yaşayan varlıq kimi götürür. Cərəyanın yaradıcıları K.Rocers, Q.Olport və A.Maslou olmuşdur. Bu cərəyanın tərəfdarları qeyd edirlər ki, insana öz imkanlarını həyata keçirmək üçün kömək etmək lazımdır [6, s. 15].

Humanizm insani məsələlərdə təbiətüstü inancların hakimiyyətini tamamilə rədd edir, amma bununla yanaşı inancların özünü hədəf olaraq seçmir. Ümumi mənada ateizm və aqnostizmlə bütünləşir, amma humanist anlayış bunlara daxil deyil. Humanizm bu cür təbiətüstü güclərin varlığı ilə bir növ maraqlanmayan etik yanaşmadır. Humanizmin əsas məqsədi hər cür avtoritarlıqdan insanı azad etməkdir. Humanizmə görə həqiqəti tapmaq insanın haqqıdır. Amma həqiqəti tapmaq yolunda mistisizm, inanclar və bu kimi məntiqlə tamamlanmayan üsullar doğru deyil. Həqiqətə edilən bu arzu gözübağlı mütləq həqiqət olaraq qəbul etmək deyil, elmi şübhəçilik və elmi üsullarla öz cavabını tapmalıdır. Avtoritarlığı və eyni zamanda həddən artıq şübhəçiliyi də rədd edərkən, taleyin hadisələr uzərindəki təsirini qəbul etmir. Doğrunun və yanlışın olmasına şəxsi və ortaq elmin mənimsənilməsilə çatılabiləcəyini müdafiə edir. Bununla yanaşı humanizm insanın bütün digər canlı növlərindən daha fərqli olduğu düşüncəsini inkar edir. Humanist filosof Piter Singer "Bir çox istisna olmasına baxmayaraq humanistlərin çoxu özlərini böyük bir doqmadan azad edə bilmir. Humanistlər digər canlı növlərinə qarşı düşüncəsiz istismara qarşı çıxmalıdır" deyərək humanizmin təbiiliyi və həyatsevərliyini göstərir.

Humanizm insanın bacarıqlarına müsbət yanaşır, bununla yanaşı insan təbiətinin bütünlüklə yaxşı və bütün insanların humanizmin müdafiə etdiyi mənəvi dəyərlərə çatabiləcəyini müdafiə etmir. Bunun üçün əzm və başqalarının köməyi də lazımdır. Humanizmin əsas hədəfi insanın inkişafı və bütün insanlar üçün həyatı yaxşılaşdırmaqdır. Humanizm gözəl işlər görməyə, indi və burada yaxşı yaşamağa və gələcəyə daha yaxşı bir dünya qoyub getməyə çalışır, sonrakı həyatda mükafatlandırılmaq üçün həyat boyu əzab çəkmək lazım deyil.

Hal-hazırda gənclərimizin mənəviyyatına təsir göstərən amillərdən biridə vətənpərvərlikdir. Biz bunu 44 günlük müharibə zamanı torpaqlarımızın azadlığı ugrunda canından keçən, vətən yolunda şəhidlik zirvəsinə ucalan gənclərimizin qəhrəmanlıqlarında gördük.

Vətənpərvərlik – xalqımızın tarix boyu nəsillərdən nəsillərə mənəvi miras kimi ötürdüyü yüksək əxlaqi töhfələrdəndir [11, s. 15]. Bu, insanın yurduna, torpağına, ocağına, doğma dilinə, adət-ənənələrinə məhəbbət və sədaqətin ifadəsi kimi meydana gəlmişdir. Vətənpərvərlik ən dərin, ən müqəddəs, ən ülvi hisslərdən, duyğulardan biridir. Hər bir insanın tarixi qiyməti onun Vətənə, millətə xidməti ilə, əsil vətəndaşlıq ləyaqəti və insanpərvərlik hissi ilə ölçülür. Öz vətənini sevmək, onun milli-mənəvi dəyərlərini, milli şərəfini qorumaq, torpağın müdafiəsinə hazır olmaq, yeniyetmələrdə vətənpərvərlik hissini formalaşdırır. «Vətən daşı olmayandan, olmaz ölkə vətəndaşı» deyən vətəndaş şairimiz Məmməd Araz vətəndaşlıq zirvəsinə ucalmağın və orada ədəbi qərarlaşmanın çox gözəl təsvirini vermişdir. Vətənpərvərlik, insanın öz vətəninə olan dərin bağlılığı, sevgisi, fədakarlığı və onun rifahı üçün göstərdiyi səylər məcmusudur. Lakin bu tərif, vətənpərvərliyin müxtəlif təzahürlərini və fəlsəfi əsaslarını tam olaraq əhatə etmir. Müasir dövrdə qloballaşma, milli kimliklərin transformasiyası və siyasi ideologiyaların müxtəlifliyi vətənpərvərlik anlayışına yeni çalarlar qazandırmışdır. Bu məqalənin məqsədi, vətənpərvərliyin fəlsəfi köklərini, müxtəlif interpretasiyalarını, etik dilemmalarını və müasir dünyadakı rolunu tədqiq etməkdir. Vətənpərvərlik ideyası qədim dövrlərdən bəri fəlsəfi düşüncənin mərkəzində olmuşdur.

Vətənpərvərlik fenomeni, insan cəmiyyətlərinin yaranışından bəri mövcud olmuş, lakin zaman və məkan kontekstində daim dəyişən və yenidən şəkillənən mürəkkəb bir anlayışdır. Bu məqalədə vətənpərvərliyin ontoloji, epistemoloji və etik aspektlərini təhlil etməyə, onun müasir dünyadakı təzahürlərini və qarşılaşdığı çağırışları araşdırmağa çalışacağıq.

Ontoloji perspektivdə vətənpərvərlik

Vətənpərvərliyin ontoloji əsaslarını araşdırdığımızda, ilk növbədə "vətən" anlayışının özünü dekonstruksiya etmək zərurəti yaranır. Vətən, sadəcə coğrafi bir məkan deyil, həm də tarixi yaddaşın, mədəni irsin, dilin, dəyərlərin

və birgə yaşayış təcrübəsinin məcmusudur. Vətənpərvərlik, bu kompleks varlığa qarşı duyulan emosional bağlılıqdan daha dərindir; bu, həm də intellektual qavrayışı, etik öhdəliyi və praktik fəaliyyəti əhatə edən çoxölçülü bir münasibətdir.

Ontoloji baxımdan, vətənpərvərlik fərdin özünü müəyyən bir kollektivə aid hiss etməsi, öz kimliyini bu kollektivin tarixi və taleyi ilə əlaqələndirməsi prosesi ilə sıx bağlıdır. Bu aidiyyət hissi, fərdin sosial varlıq kimi formalaşmasında mühüm rol oynayır və onun dəyərlər sisteminə, davranışlarına və dünyagörüşünə təsir göstərir.

Epistemoloji çərçivədə vətənpərvərlik

Vətənpərvərliyin epistemoloji aspektləri, bu anlayışın necə bilindiyi, qəbul edildiyi və ötürüldüyü məsələləri ilə əlaqədardır. Vətənpərvərlik, ilk növbədə, təcrübə yolu ilə qazanılan bir bilik formasıdır. Fərd, öz vətəninin tarixi ilə tanış olmaq, onun mədəniyyətini yaşamaq, ictimai həyatında iştirak etmək və digər vətəndaşlarla ünsiyyət qurmaq vasitəsilə vətənpərvərlik hissini inkişaf etdirir.

Bundan əlavə, vətənpərvərlik, dil, təhsil, media və ictimai diskurs vasitəsilə ötürülən sosial konstruksiya xarakteri daşıyır. Milli mifologiyalar, tarixi rəvayətlər və qəhrəmanlıq dastanları, vətənpərvərlik ideologiyasının formalaşmasında mühüm rol oynayır. Lakin bu cür konstruksiyaların tənqidi təhlili, onların ideoloji məqsədlərə xidmət edə biləcəyini və bəzən də tarixi həqiqətləri təhrif edə biləcəyini göstərir.

Etik imperativ kimi vətənpərvərlik

Vətənpərvərlik, bir çox etik nəzəriyyədə mühüm bir dəyər kimi qəbul edilir. Kommunitarizm fəlsəfəsi, fərdin mənəvi inkişafı və rifahı üçün cəmiyyətə bağlılığın və ictimai öhdəliklərin vacibliyini vurğulayır. Bu baxımdan, vətənpərvərlik, fərdin öz cəmiyyətinə qarşı olan etik məsuliyyətinin bir təzahürü kimi qiymətləndirilir.

Lakin, vətənpərvərliyin etik imperativ kimi qəbul edilməsi, bir sıra mühüm suallar doğurur. Milli sədaqət, universal etik prinsiplərlə necə uzlaşdırılmalıdır? Öz ölkəsinin maraqlarını hər şeydən üstün tutmaq, digər millətlərə qarşı ədalətsizlik yaratmırmı? Etik baxımdan məqbul olan vətənpərvərlik formaları hansılardır?

Bu suallara cavab axtararkən, "məhdud vətənpərvərlik" (moderate patriotism) konsepsiyası diqqətəlayiqdir. Bu yanaşma, fərdin öz ölkəsinə olan bağlılığını qəbul edir, lakin bu bağlılığın digər millətlərə hörmət, ədalət və beynəlxalq əməkdaşlıq prinsipləri ilə məhdudlaşdırılmasının vacibliyini vurğulayır.

Müasir dünyada vətənpərvərliyin çağırışları

Qloballaşma, miqrasiya, texnoloji inkişaf və informasiya axınının intensivləşdiyi müasir dünyada vətənpərvərlik anlayışı yeni çağırışlarla üzləşir. Milli kimliklərin heterogenləşməsi, transmillətlərarası əlaqələrin artması və suverenlik anlayışının dəyişməsi, ənənəvi vətənpərvərlik formalarının yenidən düşünülməsini zəruri edir.

Müasir dövrdə, inklüziv vətənpərvərlik ideyası xüsusi əhəmiyyət kəsb edir. Bu yanaşma, milli birliyi etnik, dini və mədəni müxtəlifliyə hörmət əsasında qurmağı, bütün vətəndaşların bərabər hüquqlarını və iştirakını təmin etməyi nəzərdə tutur.

Bundan əlavə, ekoloji problemlər, insan hüquqlarının qlobal səviyyədə müdafiəsi və sülhün təşviqi kimi ümumbəşəri məsələlər, vətənpərvərliyin hüdudlarını aşan qlobal məsuliyyət hissini önə çıxarır. Bu kontekstdə, "kosmopolit vətənpərvərlik" (cosmopolitan patriotism) konsepsiyası, fərdin həm öz milli kimliyinə bağlılığını, həm də bütün bəşəriyyətə qarşı olan öhdəliklərini bir araya gətirməyə çalışan bir yanaşma kimi dəyərləndirilə bilər.

Nəticə. Vətəndaşlıq, vətənə məhəbbət hissinin tərbiyəsi gənclərin normal xarakterdə yetişməsində önəmli yer tutur. Milli maraqlarımızın, xalqımıza məxsus olanların qorunması, suverenliyimizin, müstəqilliyimizin, ərazi bütövlüyümüzün müdafiəsi hər bir azərbaycanlının vətəndaşlıq borcudur və azərbaycançılıq ideyasının qayəsini təşkil edir. Sözsüz ki, azərbaycançılıq ideyası hər bir gəncimiz üçün əsas ideya olaraq aşılanmalıdır. Vətəni sevmək, vətənə sədaqətli olmaq, vətən uğrunda bacardığını əsirgəməmək əsl vətəndaş olmaq deməkdir və bütün bunlar azərbaycançılıq ideyasının əsası olaraq qəbul edilməkdədir, hansıki hər bir azərbaycanlı gənc məhz bu ruhda yetişməlidir. Bu ruhda yetişməlidir ki, suverenliyimiz, müstəqilliyimiz, ərazi bütövlüyümüz etibarlı əllərdə olsun. Heç şübhəsiz ki, Müzəffər Ali Bas Komandanın, cənab Prezident İlham Əliyevin rəhbərliyi, siyasi iradəsi, qətiyyəti, xalqımızın birliyi, Azərbaycan Ordusunun şücaəti, rəşadəti ilə əldə etdiyimiz qələbə, qazandığımız Zəfər də məhz bunun sayəsində, vətəndaşlarımızın vətəni sevməsi, vətən uğrunda canını, qanını belə əsirgəməməsi, Azərbaycanımız uğrunda birləşməsi, birliyi, həmrəyliyi, azərbaycançılıq ideyasının olması ilə reallaşdı. 44 günlük müharibənin məntiqi nəticəsi, əldə etdiyimiz Zəfər bizim gəncliyimizin necə vətənpərvər olduğunu dünyaya göstərdi və eləcə də Azərbaycan xalqı, ölkəmizin gəncləri vətəni necə sevmək lazım olduğu barədə düşmənə də bir dərs vermiş oldu. Hər kəs gördü və əmin oldu ki, Azərbaycanın oğul və qızları vətənə məhəbbət ruhundadır və etiraf etmək lazımdır ki, bu ruh uşaq və gənclərin düzgün tərbiyə almasından qaynaqlanır. Təsadüfi deyil ki, cənab Prezident İlham Əliyev gənc nəslin vətənpərvərlik ruhunda, milli-mənəvi dəyərlərə hörmət ruhunda yetişməsinin, ali dəyərlərimizin keşiyində olmasının vacibliyi barədə dəfələrlə qeyd edib və hazırda bu, prioritet məsələ olaraq qəbul olunmaqdadır. Prioritet olaraq qəbul olunmaqdadır ki, müstəqilliyimizin, suverenliyimizin, ərazi bütövlüyümüzün, ölkəmizin təhlükəsizliyinin təmin olunmasının etibarlı əllərdə olacağına əmin olaq.

İstifadə edilmiş ədəbiyyat

4. Abbasov A.N. Milli əxlaq və ailə etikası. Bakı: Mütərcim, 2010.
5. Allahverdiyeva S.B. Bədii ədəbiyyatın tələbə gənclərin ləyaqət tərbiyəsinə təsiri. Bakı: BDU, 2004.
6. Baxşəliyev F. Heydər Əliyev və hərbi-vətənpərvərlik tərbiyəsi. Bakı: ADPU, 2003.
7. Əfəndiyev P. Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı: Elm və təhsil, 2013.
8. Əliyev M. Heydər Əliyev elm təhsil və mədəniyyətin himayədarı. Bakı, Xalq qəzeti, – 2010, 16 may, – s. 4.
9. İsmixanov M. Pedaqogikanın əsasları. Bakı, 2013.
10. Xudiyev N. Heydər Əliyev və Azərbaycan dili. Bakı, 1997.

11. Mərdanov M. Heydər Əliyevin həyat dərsləri. Bakı, 2012.
12. Mirzəzadə R. Azərbaycanı dünyaya saydıran insan. Bakı, 1998.
13. Qaralov Z. Heydər Əliyevin elmi irsi. Bakı: Şərq-Qərb, 2013, 304 s.
14. Qasımova L. Məktəblilərin milli mənəvi dəyərlər əsasında tərbiyəsi təcrübəsindən. Bakı, 2004.

Key words. National and spiritual values, heroism, courage, Islamism, Turkism, morality, patriotism.
Ключевые слова: Национальные и духовные ценности, героизм, мужество, исламизм, тюркизм, нравственность, патриотизм.

Questions of education of youth in the national-moral spirit

Summary

At present, the legal, democratic state that emerged in Azerbaijan has strengthened and is developing. In such a period, it is more important than ever to arm the younger generation with a system of knowledge and to form a scientific worldview in them, to educate morally pure, spiritually perfect, faithful to their roots, national customs and traditions, mature individuals in order to strengthen the foundation of our society. Our National Leader, who values national and spiritual values as the very existence of the people, said: "We are proud of our national and spiritual values, our customs and traditions. The most sacred duty of each of us is to collect, protect and pass on to future generations our national and spiritual values. Over the centuries, our national and spiritual values have been formed in the activities of our people. The existence, survival and future of a nation that does not have national and spiritual values depend on the preservation and enrichment of its historically established national and spiritual values, customs and traditions." The Azerbaijani state has always approached the education of the young generation, which is our future, with great responsibility, in the spirit of love for the Motherland, respect for its people, loyalty to its roots and the traditions of its ancestors, and considered this an important issue of life. It is known that patriotism forms in a person a sense of selflessness, heroism and invincibility, strengthens in him a sense of confidence in the struggle he is waging. Patriotism is a factor that lays the foundation for heroism. Our people have always been proud of their glorious history and legendary heroes. The Azerbaijani people are a heroic people. This people has raised steadfast youth, ready to defend their homeland like the apple of their eye. The exemplary lives and personal examples of our heroes who died in a life-and-death struggle with the Armenian invaders play an important role in military-patriotic education.

Вопросы воспитания молодежи в национально-нравственном духе

Резюме

В настоящее время правовое, демократическое государство, возникшее в Азербайджане, укрепилось и развивается. В такой период как нельзя более важно вооружить подрастающее поколение системой знаний и сформировать у него научное мировоззрение, воспитать нравственно чистых, духовно совершенных, верных своим корням, национальным обычаям и традициям, зрелых личностей, чтобы укрепить фундамент нашего общества. Наш Национальный Лидер, который ценит национальные и духовные ценности как само существование народа, сказал: «Мы гордимся нашими национальными и духовными ценностями, нашими обычаями и традициями. Самая священная обязанность каждого из нас - собирать, защищать и передавать будущим поколениям наши национальные и духовные ценности.На протяжении веков наши национальные и духовные ценности формировались в деятельности нашего народа. Существование, выживание и будущее нации, не имеющей национальных и духовных ценностей, зависят от сохранения и обогащения ее исторически сложившихся национальных и духовных ценностей, обычаев и традиций».Азербайджанское государство всегда с большой ответственностью подходило к воспитанию молодого поколения, которое является нашим будущим, в духе любви к Родине, уважения к своему народу, верности своим корням и традициям предков и считало это важным вопросом жизни. Известно, что патриотизм формирует в человеке чувство самоотверженности, героизма и непобедимости, укрепляет в нем чувство уверенности в борьбе, которую он ведет. Патриотизм является фактором, закладывающим основу героизма. Наш народ всегда гордился своей славной историей и легендарными героями. Азербайджанский народ – героический народ. Этот народ воспитал стойкую молодежь, готовую защищать свою Родину как зеницу ока. Образцовая жизнь и личные примеры наших героев, погибших в борьбе не на жизнь, а на смерть с армянскими захватчиками, играют важную роль в деле военно-патриотического воспитания.

RƏYÇİ: dos. E. Vəliyeva

Əsli Azər qızı İsrafilova [93]

XARİCİ DİLİN TƏDRİSİNDƏ İNTERNET RESURSLARINDAN İSTİFADƏ ÜSULLARI

Müasir dövrdə informasiya-kommunikasiya texnologiyalarının sürətli inkişafı təhsil sistemində fundamental dəyişikliklərə səbəb olmuşdur. Xüsusilə xarici dillərin öyrənilməsi sahəsində bu dəyişikliklər özünü daha qabarıq şəkildə göstərir. Ənənəvi sinif mühitindən fərqli olaraq, müasir texnologiyaların, xüsusən də internet resurslarının tətbiqi dil öyrənməyə yeni dinamika qazandırmışdır. Bu gün artıq bir çox təhsil müəssisələri və pedaqoqlar tədris prosesini rəqəmsal vasitələrlə zənginləşdirməyə, dərs materiallarını interaktiv hala gətirməyə və tələbələrin dil bacarıqlarını inkişaf etdirmək üçün müasir metodlardan istifadə etməyə üstünlük verirlər.

Xarici dilin öyrənilməsi kompleks bir proses olmaqla yanaşı, həm də davamlı ünsiyyət və təcrübə tələb edir. Bu baxımdan, internet resursları — dil platformaları, onlayn kurslar, interaktiv oyunlar, video və podkast mənbələri, onlayn lüğətlər və kommunikativ forumlar — öyrənənlərə istənilən vaxt və məkanda dil bacarıqlarını təkmilləşdirmək imkanı yaradır. Bu vasitələr öyrənənin yaşına, dil səviyyəsinə və öyrənmə məqsədinə uyğun olaraq fərdiləşdirilə bilər ki, bu da tədrisin keyfiyyətini artıran əsas amillərdən biridir.

Xüsusilə son illərdə — COVID-19 pandemiyası dövründə məsafədən təhsilin zərurətə çevrildiyi bir şəraitdə — internet resurslarının əhəmiyyəti daha da artmışdır. Müəllimlər və tələbələr dərs prosesini onlayn platformalara keçirməklə yanaşı, dilin öyrənilməsində yeni strategiyalar formalaşdırmış və bu resursların praktik dəyərini təcrübədə sınaqdan keçirmişlər. Artıq internet yalnız əlavə vəsait deyil, tədris prosesinin mərkəzi komponentlərindən biri kimi çıxış edir.

Bununla belə, internet resurslarının effektiv istifadəsi yalnız texniki təminatla məhdudlaşmır. Burada metodoloji yanaşmalar, müəllimin rəqəmsal kompetensiyası, öyrənənin motivasiyası və seçilən materialların uyğunluğu mühüm rol oynayır. Elmi ədəbiyyat və praktik təcrübələr göstərir ki, düzgün seçilmiş və məqsədyönlü şəkildə tətbiq olunan internet resursları öyrənənin dil bacarıqlarını inkişaf etdirməklə yanaşı, onların mədəniyyətlərarası ünsiyyət qabiliyyətini də artırır.

Bu məqalənin əsas məqsədi xarici dilin tədrisində istifadə olunan əsas internet resurslarını və onların tətbiq üsullarını sistemli şəkildə təhlil etməkdir. Burada həm nəzəri çərçivə əsasında texnologiyaların təhsil prosesinə təsiri araşdırılacaq, həm də real dərs nümunələri və tədris təcrübələri üzərində təhlil aparılacaq. Məqalədə aparılan araşdırmalar əsasında müəllimlər və tələbələr üçün praktiki tövsiyələr də irəli sürüləcək. İstinadlar əsasən son illərə aid elmi məqalələrə, beynəlxalq təcrübələrə və açıq tədris resurslarına əsaslanacaqdır.

Xarici dil öyrənməsi daim dəyişən bir sahə olmaqla, təhsil texnologiyalarındakı yeniliklərlə birlikdə metodoloji baxımdan da davamlı transformasiyaya məruz qalır. Ənənəvi metodlar — qrammatika-tərcümə (grammar-translation method), audiolingval yanaşma və kommunikativ tədris üsulu — hələ də müxtəlif dərəcədə istifadə olunsa da, XXI əsrdə bu metodlar yeni pedaqoji yanaşmalarla birləşdirilərək daha çevik və fərdiləşdirilmiş modellərə çevrilmişdir.

1. Kommunikativ və funksional yanaşma: Dil öyrənmə məqsədi artıq yalnız qrammatika qaydalarının və lüğət ehtiyatının mənimsənilməsi ilə məhdudlaşmır. Kommunikativ yanaşma tələbənin dildə real ünsiyyət qurmaq bacarığını inkişaf etdirməyə yönəlmişdir. Funksional tədris isə dildən istifadə sahəsinə əsaslanır və öyrənənlərə konkret situasiyalarda ("sorğu vermək", "özünü təqdim etmək", "müraciət yazmaq" və s.) necə danışmalı olduqlarını öyrədir. Bu baxımdan, müasir dövrdə onlayn platformaların interaktiv təbiəti bu yanaşmalara dəstək verir.

2. Konstruktivist yanaşma və fərdiləşdirilmiş öyrənmə: Konstruktivist pedaqoji modelə əsasən, öyrənənlər biliyi passiv şəkildə qəbul edən deyil, aktiv şəkildə yaradan subyektlərdir. İnternet resursları bu yanaşmanı reallaşdırmaq üçün əlverişli şərait yaradır. Tələbə öz maraq və öyrənmə tərzinə uyğun resursları seçə, bilikləri tətbiq edə və öz inkişaf tempini özü müəyyən edə bilir. Bu isə təhsildə fərdiləşdirmə prinsipini reallaşdırır.

3. Multimodal və interaktiv tədris: Müasir tədris yalnız yazılı və şifahi mətnlərlə məhdudlaşmır. Audio, video, şəkil və qrafik materialların istifadəsi — multimodal yanaşma — öyrənmə prosesini zənginləşdirir. TED Talks videoları, YouTube kanalları, BBC Learning English kimi resurslar real dildən istifadəni nümayiş etdirir və tələbəyə müxtəlif kontekstlərdə danışıq nümunələri təqdim edir. Həmçinin Quizlet, Kahoot kimi interaktiv platformalar oyunlaşdırma elementi ilə təlimi maraqlı və motivasiyaedici edir.

Beləliklə, müasir yanaşmalar öyrənənin mərkəzdə olduğu, texnologiya dəstəkli, fərdiləşdirilmiş və kommunikativ prosesin formalaşmasına yönəlmişdir. Bu yanaşmaların əsas xüsusiyyəti odur ki, öyrənmə artıq sadəcə bilik ötürülməsi deyil, dinamik və qarşılıqlı prosesə çevrilmişdir. Məqalənin növbəti hissəsində bu yanaşmaların internet resursları vasitəsilə necə reallaşdırıldığını konkret alətlər üzərindən təhlil edəcəyik.

Xarici dilin tədrisində internet resurslarının istifadəsi bu sahəyə yeni nəfəs gətirmiş və ənənəvi metodların imkanlarını genişləndirmişdir. Bu resurslar müxtəlif texnoloji platformalar və vasitələr əsasında qruplaşdırıla bilər. Aşağıda onların əsas kateqoriyaları və praktik istifadəsi izah olunur:

1. Elektron lüğətlər və tərcümə vasitələri - bu kateqoriyaya Cambridge Dictionary, Oxford Learner's Dictionary, Merriam-Webster, WordReference, Linguee, Reverso kimi onlayn lüğətlər və tərcümə platformaları daxildir. Bu resurslar tələbəyə sözlərin tələffüzünü, semantik mənalarını, müxtəlif kontekstlərdə istifadəsini və hətta kollokasiyalarını təqdim edir. Nümunə: Tələbə "commit a crime" ifadəsini axtardıqda, Oxford Learner's Dictionary

[93] Azərbaycan Dövlət Neft və Sənaye Universiteti.Xarici dillər kafedrası, müəllimasli.israfilova@asoiu.edu.az. ORCİD ID: 0009-0003-5805-305X
10.24412/2218-7588-2025-2-324-327

ona bu birləşmənin kollokasiyalı struktur olduğunu və rəsmi üslubda istifadə olunduğunu göstərə bilər. İstifadə üsulu: Müəllim dərs zamanı yeni sözləri bu platformalardan birbaşa sinifdə açа bilər. Tələbələrə ev tapşırığı olaraq müəyyən sayda sözləri bu lüğətlərdə araşdırmaq tapşırıla bilər.

2. Dinləmə və izah video resursları - video əsaslı öyrənmə resursları həm qavramanı artırır, həm də autentik nitqə çıxışı təmin edir. Bu sahədə ən geniş istifadə olunan platformalar BBC Learning English, Voice of America (Learning English), TED-Ed, YouTube kanalları (məsələn, EnglishClass101, Speak English with Emma) və EngViddir. Nümunə: BBC Learning English platformasında "The English We Speak" rubrikasında "spill the beans" ifadəsi izahlı şəkildə təqdim olunur və real həyat nümunəsi ilə işlənir. İstifadə üsulu: Dərsdə dinləmə bacarıqlarının inkişafı üçün müəllim tələbələrə əvvəlcə videonu izlədib, sonra mətn üzrə suallar verə bilər. Eyni zamanda, tələbələr videoya əsaslanaraq şifahi və ya yazılı cavablar hazırlaya bilərlər.

3. İnteraktiv təlim tətbiqləri və platformalar - interaktivlik öyrənməni stimullaşdırır və öyrənənləri prosesə aktiv şəkildə cəlb edir. Bu məqsədlə Quizlet, Kahoot, Wordwall, Baamboozle, Blooket, Duolingo, Memrise və LearnEnglish Kids/Teens/Adults (British Council) kimi platformalar istifadə olunur. Nümunə: Quizlet üzərində müəllim "Phrasal Verbs" mövzusunda kart hazırlayıb tələbələrlə paylaşa bilər. Hər tələbə fərdi şəkildə və ya yarış formasında bu kartlarla təcrübə edə bilər. İstifadə üsulu: Hər mövzunun sonunda tələbələrə mövzunu təkrarlamaq üçün Kahoot testləri tətbiq oluna bilər. Beləliklə, həm motivasiya artır, həm də dərs rəqabətli və əyləncəli hala gəlir.

Bu müxtəliflik internet resurslarının həm dil biliklərini, həm də dil bacarıqlarını — dinləmə, oxuma, yazma, danışma — inkişaf etdirmək baxımından çoxşaxəli və funksional olduğunu sübut edir. Növbəti bölmədə isə bu resurslardan istifadə zamanı əldə olunan praktik nəticələr və onların təsiri haqqında danışacağıq.

İnternet resurslarının xarici dilin tədrisinə inteqrasiyası sadəcə texnoloji yenilik deyil, həm də pedaqoji çevikliyə və tədris keyfiyyətinin yüksəldilməsinə yönəlmiş strateji addımdır. Bu yanaşmanın effektivliyi çoxsaylı tədqiqatlar və praktik tətbiqlərlə sübuta yetirilmişdir. Bu bölmədə həmin təsirlər və nəticələr bir neçə istiqamət üzrə təhlil olunur:

1. Dil bacarıqlarının inkişafına təsiri: İnternet əsaslı resurslardan istifadə dilin dörd əsas bacarığının – dinləmə, oxuma, yazma və danışmanın – sistemli şəkildə inkişafına imkan yaradır. Xüsusilə video materiallar və interaktiv oyunlar tələbələrin dinləmə və danışıq bacarıqlarını artırır, eyni zamanda yazı tapşırıqları və müzakirə forumları yazılı ifadə bacarığını stimullaşdırır. Tədqiqat nümunəsi: Kessler və Bikowski (2010) göstərmişlər ki, tələbələr blog əsaslı yazı tapşırıqlarını yerinə yetirdikdə daha geniş leksikadan istifadə edirlər və qrammatik səhvləri zamanla azalır. Bu da internet resurslarının yazı bacarığına müsbət təsirini sübut edir.

2. Motivasiya və özünütəhsil bacarıqlarının formalaşması: Ənənəvi metodlarla müqayisədə rəqəmsal resurslar daha interaktiv və tələbəyə uyğunlaşdırıla bilən tədris imkanları təqdim etdiyi üçün öyrənənlərin motivasiyası artır. Tələbə müstəqil şəkildə resursları araşdırmaqla metakoqnitiv bacarıqlar qazanır. Nümunə: Tələbə öz maraq dairəsinə uyğun olaraq BBC Learning English platformasında "Business English", "Everyday English" və ya "Exam Skills" bölmələrini sərbəst şəkildə araşdıra və fərdi təhsil trayektoriyası yarada bilər. Akademik əsas: Deci və Ryan (2000) tərəfindən irəli sürülən özünü təyin etmə nəzəriyyəsi (Self-Determination Theory) göstərir ki, insan davranışlarında muxtariyyət və məqsəd yönümlülük varsa, daha yüksək motivasiya yaranır. İnternet resursları bu şərtləri təmin edir.

3. Adaptiv tədris və fərdiləşdirmə imkanı: İnternet resurslarının bir üstünlüyü də tələbələrin fərdi təhsil ehtiyaclarına cavab verə bilməsidir. Bəzi tələbə qrammatikanı daha çox praktika ilə öyrənməyi, digəri isə danışıq yolu ilə inkişaf etməyi üstün tutar. İnteraktiv platformalar bu müxtəlifikləri nəzərə alaraq adaptiv təhsil mühiti yaradır. Məsələn: Duolingo və Memrise kimi tətbiqlər tələbənin cavablarını və uğurlarını analiz edərək növbəti dərsləri fərdi şəkildə təqdim edir. Bu isə effektiv öyrənmə mühiti formalaşdırır.

4. Əlavə tədris materiallarına sərbəst çıxış: Ənənəvi dərsliklərlə məhdudlaşmayan tələbələr dünya üzrə müxtəlif mənbələrlə – akademik məqalələr, xəbərlər, interaktiv kurslar, leksik resurslar – tanış olur və bu, onların dilə yanaşmasını genişləndirir. Bu proses multimodal öyrənmə anlayışı ilə əlaqələndirilir. Tədqiqat əsası: Mayer (2009) göstərir ki, şagirdlər eyni materialı eyni anda həm vizual, həm də audial şəkildə qəbul etdikdə öyrənmə səviyyəsi artır. Bu, internet resurslarının multimodal imkanlarını əsaslandırır.

5. Real ünsiyyət və beynəlxalq təcrübəyə çıxış: İnternet resursları vasitəsilə tələbələr müxtəlif ölkələrdən olan şəxslərlə real ünsiyyət quraraq dil bacarıqlarını praktikada tətbiq edə bilirlər. Bu isə sosial öyrənmə nəzəriyyəsinə əsaslanan yanaşmadır. Nümunə: Tələbə Tandem platformasında İspaniyadan olan ingilisdilli bir istifadəçi ilə tanış olub gündəlik yazışmalar aparır, danışıq aparır və səhvlərini qarşı tərəfin geribildirməsi ilə düzəldir.

6. Qiymətləndirmə və geribildirim sisteminin çevikliyi: Ənənəvi testlərdən fərqli olaraq, internet resurslarında tələbənin cavabları dərhal qiymətləndirilir və izahlı geribildirim verilir. Bu isə tələbənin öyrəndiklərini dərhal təhlil etməsinə və təkmilləşməsinə imkan verir. Məsələn: Grammarly tətbiqi yazılı mətndəki qrammatik səhvləri qeyd edir, alternativ ifadələr təklif edir və yazının tonunu qiymətləndirir. Bu isə şagirdin yazı bacarığını daim inkişaf etdirməyə imkan yaradır.

Bu təhlillərdən də göründüyü kimi, internet resurslarının xarici dilin tədrisinə inteqrasiyası həm müəllimlər, həm də tələbələr üçün geniş imkanlar yaradır. Bu imkanların davamlı və məqsədyönlü şəkildə istifadəsi təhsil keyfiyyətinin yüksəlməsinə, XXI əsr bacarıqlarının formalaşmasına xidmət edir.

İnternet resurslarının xarici dil tədrisində istifadəsi ilə bağlı müasir tədqiqatlar bu istiqamətdə elmi əsaslandırmanı gücləndirir və yeni tədris yanaşmalarının formalaşmasına səbəb olur. Son illərdə aparılmış araşdırmaların nəticələrinə nəzər salaq:

1. Stockwell (2013) qeyd edir ki, mobil texnologiyaların (smartfon, planşet və s.) tətbiqi sayəsində tələbələr dərs saatlarından kənar zamanlarda da dil bacarıqlarını inkişaf etdirə bilirlər. Beləliklə, öyrənmə prosesinin formal və informal mühitlərə yayılması təmin olunur.
2. Godwin-Jones (2018) vurğulayır ki, "özünə uyğunlaşdırılmış təlim" (personalized learning) internet resurslarının imkanları ilə daha əlçatan olur. O qeyd edir ki, dil öyrənənlərin ehtiyacları və maraqları əsasında qurulan rəqəmsal platformalar, ənənəvi sinif metodlarına nisbətən daha effektlidir.
3. Reinders & Benson (2017) isə tələbələrin avtonom öyrənmə bacarıqlarının inkişafi üçün açıq təhsil resurslarının (OER – Open Educational Resources) əhəmiyyətini qeyd edir. Bu yanaşma, xüsusilə inkişaf etməkdə olan ölkələrdə dil öyrənənlərin imkanlarını genişləndirir.

Xarici dilin tədrisində internet resurslarından istifadə müasir təhsil sisteminin ayrılmaz tərkib hissəsinə çevrilmişdir. İnformasiya-kommunikasiya texnologiyalarının inkişafi və rəqəmsallaşma prosesi, dil öyrənmə sahəsində metodoloji yanaşmaları da dəyişmiş, tədris prosesinin fərdiləşdirilməsinə, adaptivliyinə və interaktivliyinə şərait yaratmışdır.

Yuxarıda təqdim olunan elmi-nəzəri əsaslandırmalar və praktiki nümunələr göstərir ki, internet resursları yalnız əlavə vasitə kimi deyil, həm də tədrisin əsas struktur elementi kimi çıxış edə bilər. Belə ki: onlayn platformalar və mobil tətbiqlər vasitəsilə tələbələr öz sürətinə uyğun öyrənə bilir; müəllimlər tədris prosesini daha çevik və motivasiyaedici şəkildə təşkil edə bilir; əldə olunan məlumatların müntəzəm monitorinqi və qiymətləndirilməsi daha şəffaf və operativ aparılır; fərdi və qrup şəklində tapşırıqlar vasitəsilə əməkdaşlıq və ünsiyyət bacarıqları inkişaf etdirilir.

Lakin bu imkanlardan tam şəkildə faydalanmaq üçün bir sıra şərtlərə əməl edilməlidir. Tədris iştirakçılarının rəqəmsal savadlılıq səviyyəsinin artırılması, uyğun pedaqoji strategiyaların seçilməsi, texniki və metodiki dəstəyin təmin edilməsi vacibdir.

Nəticə etibarilə, xarici dilin öyrədilməsində internet resurslarının istifadəsi artıq seçim deyil, zərurət kimi qiymətləndirilməlidir. Gələcəkdə bu resursların tədris proqramlarına daha sistemli şəkildə inteqrasiyası, müəllim hazırlığı proqramlarında geniş yer alması və müvafiq milli strategiyalarla dəstəklənməsi tədrisin keyfiyyətini əhəmiyyətli dərəcədə yüksəldəcəkdir.

İstifadə edilmiş ədəbiyyat

1. Godwin-Jones, R. (2018). Using mobile technology to develop language skills and cultural understanding. Language Learning & Technology, 22 (3), 1-17. https://doi.org/10.1016/j.system.2018.03.004
2. Reinders, H., & Benson, P. (2017). Research agenda: Language learning beyond the classroom. Language Teaching, 50 (4), 561-578. https://doi.org/10.1017/S0261444817000120
3. Stockwell, G. (2013). Mobile learning and learning theories: Bridging the divide (25-47). Routledge.
4. Kessler, G., & Bikowski, D. (2010). Developing collaborative autonomous learning abilities in computer mediated language learning: Attention to meaning among students in wiki space. Computer Assisted Language Learning, 23 (1), 41–58. https://doi.org/10.1080/09588220903467335
5. Deci, E. L., & Ryan, R. M. (2000). The "what" and "why" of goal pursuits: Human needs and the self-determination of behavior. Psychological Inquiry, 11 (4), 227–268. https://doi.org/10.1207/S15327965PLI1104_01
6. Mayer, R. E. (2009). Multimedia learning (2nd ed. pp. 3-12). Cambridge University Press.

Açar sözlər: internet resursları, xarici dil tədrisi, rəqəmsal təhsil, fərdiləşdirilmiş öyrənmə, interaktiv metodlar;
Keywords: internet resources, foreign language teaching, digital education, personalized learning, interactive methods;
Ключевое слово: интернет-ресурсы, преподавание иностранных языков, цифровое образование, персонализированное обучение, интерактивные методы;

Summary

The use of Internet resources in foreign language teaching has become an integral part of the modern education system. The advancement of information and communication technologies and the digitalization process have significantly transformed methodological approaches in language learning, enabling personalized, adaptive, and interactive instruction.

The theoretical foundations and practical examples presented in this article demonstrate that internet resources are not merely supplementary tools, but can serve as core components of the teaching process. They allow learners to progress at their own pace, enable teachers to organize engaging and flexible lessons, facilitate continuous monitoring and evaluation, and enhance collaboration and communication skills through both individual and group tasks.

However, to fully benefit from these opportunities, it is essential to improve digital literacy among all participants in the educational process, select appropriate pedagogical strategies, and ensure both technical and methodological support.

In conclusion, the use of internet resources in foreign language education should no longer be viewed as an option but as a necessity. Their systematic integration into curricula, inclusion in teacher training programs, and support by national educational strategies will significantly enhance the quality of teaching.

Резюме

Использование интернет-ресурсов в преподавании иностранных языков стало неотъемлемой частью современной системы образования. Развитие информационно-коммуникационных технологий и процессы цифровизации значительно трансформировали методологические подходы к изучению языков, способствуя персонализированному, адаптивному и интерактивному обучению.

Представленные в статье теоретические основы и практические примеры доказывают, что интернет-ресурсы являются не просто дополнительными средствами, а ключевыми компонентами учебного процесса.

Они позволяют учащимся учиться в индивидуальном темпе, помогают преподавателям организовывать гибкие и интересные занятия, обеспечивают непрерывный мониторинг и оценку, а также развивают навыки сотрудничества и коммуникации.

Однако для полного использования этих возможностей необходимо повышение цифровой грамотности всех участников образовательного процесса, выбор соответствующих педагогических стратегий и обеспечение технической и методической поддержки.

Таким образом, использование интернет-ресурсов в обучении иностранным языкам следует рассматривать не как альтернативу, а как необходимость. Их системная интеграция в учебные программы, включение в подготовку преподавателей и поддержка на государственном уровне существенно повысят качество образования.

RƏRÇİ: dos. S.Abbasova

Mənzurə İsgəndər qızı Musaveva [94]

MULTİKULTURALİZMİN AZƏRBAYCAN MODELİ: ÇOXKONFESSİYALI VƏ POLİETNİK CƏMİYYƏT

Müasir dövrdə multikulturalizm siyasəti mövcud milli, etnik və mədəni ziddiyyətlərin aradan qaldırılması cəhdidir. Qloballaşma prosesləri ilə yanaşı, "üçüncü dünya" ölkələrdən kütləvi immiqrasiya, münaqişə zonalarından yüz minlərlə qaçqının Qərbi Avropaya, ABŞ-yə, Kanadaya və Avstraliyaya axını həmin ölkələrdə milli kimliyin qorunması məsələsini xüsusilə aktual edir.

Kanada multikulturalizm siyasətini formalaşdıran və tətbiq edən ilk ölkələrdən biridir. Üstəlik, Şimali Amerika və Qərbi Avropanın bütün ölkələrindən fərqli olaraq multikulturalizm qanunvericilik səviyyəsində yalnız Kanadada təsbit edilmişdir. Bunun əsas səbəblərdən biri azsaylı yerli əhalidən əlavə iki böyük - ingilis və fransızdilli qrupun olmasıdır. 1960-70-ci illərə qədər Kanadada müxtəlif azlıqların, etnik qrupların, mədəniyyətlərin vahid xalqa assimilyasiyasını nəzərdə tutan və multikulturalizm prinsiplərinə tamamilə zidd olan "əridən qazan" siyasətini tətbiq etməyə cəhd edilirdi. Lakin fransız və ingilis əsilli kanadalılar öz unikallığını qoruyub saxlayan dominant etnik qruplar olduğundan və ölkə ikidilli olmaqda davam etdiyindən, müxtəlif qrupların və azlıqların bir millətə çevrilməsi konsepsiyası Kanada üçün uyğun olmadı. Buna görə də 1970-ci illərdən etibarən bu ölkədə "etnik mozaika" siyasəti tətbiq olunmağa başladı. Bu konsepsiya, ümumi kanadalı vətəndaşı kimliyinin formalaşmasında hər bir etnik qrupun və mədəniyyətin unikallığını vurğulayırdı.

ABŞ-də də 1970-ci illərə qədər Kanadada olduğu kimi "əridən qazan" siyasətini yürüdürdü. Nəzərdə tutulurdu ki, başqa ölkələrdən gələn mühacirlər Amerika mədəniyyətini qəbul etməli və ona inteqrasiya etməlidilər, əks halda onlar ayrıseçkiliyə məruz qalırdılar. Bu dalğada afroamerikalıların mövqelərini müdafiə edən bir çox gənclər təşkilatları meydana çıxdı. İğtişaşların artmasından ehtiyat edən hökumət Amerikada yaşayan digər xalqların hüquqlarını tanımaq və multikulturalizm siyasətini yürütmək məcburiyyətində qaldı.

İkinci Dünya Müharibəsinin sonuna qədər Avstraliyaya yalnız avropalıların, əsasən də ingilislərin gəlməsinə icazə verilirdi. 1960-cı illərdə işçi çatışmazlığı səbəbindən immiqrasiya nəzarəti zəiflədi və Asiya əsilli mühacirlər ölkəyə gəlməyə başladı. Yarana biləcək irqi və milli qarşıdurmaların qarşısını almaq üçün Avstraliya hökuməti ayrıseçkiliyə qarşı çox saylı tədbirlər gördü [4].

Bu gün ABŞ-dan sonra Almaniya immiqrantların ən çox getdiyi ikinci ölkədir. Burada ilk böyük miqrant axınının səbəbi İkinci Dünya Müharibəsindən sonra yaranan işçi çatışmazlığı oldu. İkincu böyük axın - münaqişə zonalarının artması şəraitində qaçqınların kütləvi olaraq gəlməsidir. Fransa və Böyük Britaniyada mühacirlər əsasən keçmiş müstəmləkələrinin sakinləri idilər. Faktlar onu göstərir ki, son dövrdə Avropada multikulturalizm birgə yaşam tərzi anlayışından çıxmış və sırf siyasi əhəmiyyət daşımağa başlamışdır. Multikulturalizm siyasətinin uğursuzluğu Hollandiyada Azadlıq Partiyası, Fransada Milli Cəbhə kimi sağçı təşkilatların və partiyaların populyarlaşmasına, Almaniyada minlərlə nasistin qeydə alınmasına gətirib çıxardı. Hazırda bütün Avropa dövlətlərinin siyasəti multikulturalizm deyil, daha çox "vətəndaş inteqrasiyası" prioritetinə yönəlmişdir. Belə siyasi şəraitdə ölkənin hökuməti mühacir axınına və fəaliyyətinə nəzarəti itirirsə, dövlətdə iqtisadi və sosial problemlər müşahidə olunur, dini və etnik iğtişaslar yaranır.

Azərbaycan multikulturalizmi yuxarıda sadalanan ölkələrdən tamamilə fərqli və dünyada analoqu olmayan mədəni fenomeni olmaqla, özündə tolerantlığın ən düşünülmüş formasını ifadə edir. Heç bir zaman, nə aşkar, nə də gizli şəkildə Azərbaycan adlanan məkanda təmsil olunan digər xalqların, etnik qrupların və dini konfessiyaların assimilyasiyasını nəzərdə tutan tədbirlər həyata keçirilməmişdir. Azərbaycanda multikulturalizmin, dini və mədəni tolerantlığın dövlət siyasəti səviyyəsində inkişafının əsasları ölkənin qədim dövlətçilik tarixi və bu ənənələrinə söykənir. Azərbaycan dövlətinin başçısı İlham Əliyev XXI əsrdə multikulturalizmin alternativinin olmadığını bildirərək vurğulayıb: "Bəzən eşidirik ki, multikulturalizmin gələcəyi yoxdur. Hesab edirəm ki, biz bu məsələdə dünyaya müsbət təcrübə göstərməliyik. Azərbaycanda bu sahədə toplanmış təcrübə müsbət təcrübədir" [1].

Azərbaycan Respublikası çoxkonfessiyalı polietnik dövlətdir. Xalq, dövləti təşkil edən etnosdan-Azərbaycan türklərindən və bir sıra milli azlıqlardan: udinlər, ingiloylar, qrızlar, xınalıqlar, buduqlar, tatlar, talışlar, ləzgilər, saxurlar və digərlərindən təşkil olunmuşdur. Bu millətlərin çoxnun tarixən Azərbaycandan başqa vətənləri olmamış və buna görə də vahid polietnik Azərbaycan vətəndaşları hesab olunurlar. Bu millətlərdən başqa respublikamızda onu öz tarixi vətənləri sayan ruslar, ukraynalılar, belaruslar, kürdlər, yəhudilər, yunanlar, almanlar və tatarlar yaşayırlar. Dahi Heydər Əliyev ölkəmiz üçün azərbaycançılıq konsepsiyasını hazırlayanda məhz Azərbaycan cəmiyyətinin bu tarixi xüsusiyyətinə, xalqımıza xas olan dəyərlərə söykənib. Ulu Öndər vurğulayıb: "Azərbaycan əhalisinin çoxmilli tərkibi bizim sərvətimizdir, üstünlüyümüzdür. Biz bunu qiymətləndiririk və qoruyub saxlayacağıq". 1930-40-cı illərdə çoxsaylı etnik və dini qrupların məskunlaşdığı Azərbaycanda qeyri-azərbaycanlı millətlər əhalinin 40%-ni təşkil edirdisə [7], 1990-cı illərin əvvəllərində rus, erməni və yəhudi icmalarının [2,6] əsas hissəsinin ölkəni tərk etməsi bu göstəricini əhəmiyyətli dərəcədə (10%-ə qədər) aşağı endirdi [8]. Bununla belə, Azərbaycan hələ də müxtəlif dil ailələrinin (altay, qafqaz, hind-iran, slavyan), müxtəlif dini icmaların (müsəlman, xristian, yəhudi və hətta bəhai) nümayəndələrinin birgə yaşadığı, mövcud olduğu, sünni və şiə bölgüsünün mövcud olduğu, lakin birbaşa hiss

[94]Milli Aviasiya Akademiyasının "Peşəkar ingilis dili" kafedrasının dosenti, filologiya üzrə fəlsəfə doktoru

10.24412/2218-7588-22025-2-328-330

olunmadığı ölkədir.

Azərbaycan multikulturalizmi əksər ölkələrdə mövcud olan və əsas etnosun digər xalqlar üzərində etnik-siyasi qüdrətinə, onun titullaşmasına əsaslanan prinsipləri rəhbər tutmur. Ona görə də bu məkanda yaşayan istənilən etnik-mədəni özəllik ilk növbədə azərbaycanlıdır, yalnız bundan sonra etnik fərddir. Ölkəmizin iqtisadi, siyasi və mədəni həyatında, "Vahid Azərbaycan millətini" təşkil edən bütün müxtəlif etnik qruplara bərabər imkanlar, hüquq və azadlıqlar verilir, onların layiqli varlığı və inkişafı üçün mütəşəkkil real şəraitlər yaradılır.

Bununla belə, Azərbaycanda yaşayan əhalinin böyük bir hissəsini Azərbaycan türkləri təşkil etdiyindən titul xalq əlamətini də məhz onlar daşıyır. Azərbaycan türkləri ən qədim dövrlərdən bəri böyük bir ərazidə təmsil olunan türk etnosunun qərb qolunun Qafqaz etnik faktoru ilə tarixən yaranmış sintezinin nəticəsidir. Ona Azərbaycan dövlətinin siyasi quruluşunu təşkil etmək, onun müstəqilliyini və müdafiə qabiliyyətini təmin etmək, digər etnik qrupları vahid Azərbaycan ailəsinə birləşdirmək vəzifəsi həvalə edilmişdir.

Azərbaycan ailəsinə daxil olan ləzgilər, avarlar, saxurlar və bütün digər Qafqaz etnik qrupları qədim Qafqaz xalqları kimi, əsrlər boyu Şimali Qafqaz linqvistik və etnik-mədəni məkanından daha çox Ümumazərbaycan məkanına qovuşmuşlar və onlar digər müxtəlif Cənubi Qafqaz, türk və İran etnik qruplarla ortaq tarixi yaddaş və eyni tale birləşdirir. Azərbaycanda yaşayan, burada çoxəsrlik tarixi olan etnik azlıqların demək olar ki, heç birinin digər xalqlarla mütləq əlaqəsi yoxdur və onlar Azərbaycan ailəsinə təbii şəkildə, azərbaycanlı olaraq bağlıdırlar.

Müasir dövrdə Azərbaycan hökuməti ölkədə yaşayan müxtəlif etnik və dini qrupların nümayəndələrinə hərtərəfli qayğı göstərmək, onların etnik-mədəni və konfessiya problemlərinin həllini özünün prioritet istiqamətlərindən biri kimi qəbul edir. Linqvistik azlıqlar öz dillərindən sərbəst istifadə etmək, onu öyrətmək və bir sıra rəsmi sənədləri öz dillərində əldə etmək hüququna malikdirlər. Nümunə kimi həftədə bir neçə dəfə Azərbaycan Milli Radiosunda talış, ləzgi, kürd və hətta erməni dillərində xəbərlərin yayımlanmasını göstərmək olar. Ölkənin şimal bölgələrində ləzgi dilinin tədris olunduğu 100-ə yaxın məktəb mövcddur. Udinlərin yaşadığı Nicdə Alban Udi Ocağı fəaliyyət göstərir, məktəblərdə udi dili tədris olunur [9].

Azərbaycanın ən fəal və nüfuzlu dini icmalarından biri olan yəhudilərin tarixi təxminən iki min il əvvələ gedib çıxır. Yəhudilər əsasən Bakı, Sumqayıt, Quba və Oğuz şəhərlərində məskunlaşaraq 3 icma ilə - dağ, Gürcüstan və aşkenazi yəhudiləri icmaları ilə təmsil olunurlar. Hazırda Azərbaycanda 11 sinaqoq fəaliyyət göstərir. Sinaqoqların ikisi Bakıda, yeddisi Qubada, ikisi isə Oğuzda yerləşir. Avropanın ən böyük sinaqoqu 2003-cü ildə Bakıda açılıb. Azərbaycanda yəhudi irsinin qorunub saxlanması məqsədilə bir sıra müştərək təşkilatlar yaradılıb, bir sıra qəzetlər, yəhudi ədəbiyyatı nəşr olunur. Heydər Əliyev Fondunun "Azərbaycan – tolerantlığın ünvanı" layihəsi çərçivəsində Bakıda yaşayan yəhudi uşaqlar üçün "Khabad-Or-Avner" təhsil mərkəzi tikilib. 450 tələbəsi olan mərkəzdə yəhudi mədəniyyətinin əsasları tədris olunur.

Talış dilində qəzetlər, jurnal çap edilir, talışların kompakt yaşadıqları rayonlarda I-IV siniflər üzrə talış dilində məktəblər açılmışdır, talış dilində sadəcə dövlət tərəfindən "Əlifba" və "Talış dili" dərslikləri çap edilib, talış məktəblilərinin istifadəsinə verilmişdir.

Ruslar, ukraynalılar və beloruslar Azərbaycan etnik-mədəni arealına son bir neçə əsr ərzində nüfuz etmişlər. XIX əsrdə Rusiyanın mərkəzi bölgələrindən Cənubi Qafqaza rus bidətçilərinin (molokan, subbotnik, anabaptist və s.) köçürülməsi tarixinə nəzər saldıqda, Rusiya imperiyasının simasında çar mütləqiyyət rejiminin qeyri-tolerantlıq siyasətinin ifadəsini və son nəticəsini görürük. Çar hökuməti bidətçi rusları Volqaboyundan, Krımdan, Ukraynadan Azərbaycana köçürməklə bir tərəfdən imperiyanın mərkəzi rayonlarını bidətçilərdən və potensial üsyançılardan təmizləmək, digər tərəfdən Cənubi Qafqazda xristian əhalinin sayını süni şəkildə artırmaq kimi məqsəd güdürdü. Rus imperiyasında bidətçi ruslar hər zaman ümumi ənənələrə tabe olmayan "özgə etnik ünsür" kimi qiymətləndirilmişlər. Azərbaycan etnik-siyasi birliyinin simasında isə onlar əsl doğma mühit qazanmış, öz dini əqidələrini tam qoruyub saxlamışlar.

XIX əsrin əvvəllərində Azərbaycanda 194 alman miqrant ailəsinin yerləşdirilməsindən sonra burada çoxlu kolonivalar yaradıldı: məsələn, "Annenfeld", "Helenendorf", "Georgsfeld", "Orünfeld", "Avxenfeld" və "Traubenfeld". 1918-ci ilə qədər bütün Azərbaycan ərazisindəki almanların ümumi sayı 6 min nəfər idi. Azərbaycanda yaşayan almanlar dini baxımdan protestantlığa etiqad edir və çox rahat şəkildə dini ibadətlərini həyata keçirə bilirdilər. Azərbaycanda yaşayan almanlara təkcə din, məişət azadlığı yox, həmçinin öz dillərində qəzet buraxmaq kimi imkanlar da yaradılmışdı. Misal olaraq, 1924-cü ildə Bakıda çap olunan "Bauer und Arbeit" adlı qəzetin adını çəkmək olar.

Sadalanan faktlar minilliklər boyu bəşəriyyətin inkişafının ən təbii yolu kimi birgəyaşayış mühitində Azərbaycan ərazisində dini və etnik tolerantlığın sərbəst və qarşılıqlı təsir hesabına zəngin mədəni mühit formalaşmaşmışdır. Azərbaycanda multikulturalizmin uğurunun əsas şərtləri ümümbəşəri və milli ideyaların bir yerdə mövcud olmasından, həmçinin multikultural dəyərlər sisteminin təsir sahəsində xalqların milli kimliyinin qorunmasından ibarətdir. Başqa mədəniyyətlərə, dinlərə və tarixə hörmət isə əlbəttə ki, şəxsi dəyərlərə hörmətdən başlayır.

Azərbaycanda aparılan uğurlu multikulturalizm və dini müxtəlifliyin qorunması siyasəti həm ölkədə yaşayan xalqların dini və etnik ənənələrinə hörmətlə yanaşmaqla yanaşı dövlət siyasətində də öz əksini tapır. Demokratik çoxkonfessiyalı və çoxmillətli dövlət quruculuğu, insan hüquqlarının müdafiəsi multikulturalizm ideologiyası ilə müşayiət olunur. Azərbaycan Konstitusiyasında multikulturalizm və dini müxtəliflik üçün geniş üfüqlər açılmışdır. Dövlət institutları multikulturalizmi dəstəkləyən, dövlətlə dini konfessiyalar arasında münasibətləri

tənzimləyən qurumlar qismində çıxış edir. Çoxkonfessiyalı və çoxmillətli Azərbaycan xalqı hökumətin hərtərəfli dəstəyi ilə multikulturalizm və tolerantlıq ideyalarının daşıyıcısı kimi günü-gündən inkişaf edir və güclənir [3].

Beləliklə, multikulturalizm və dini müxtəlifliyin Azərbaycan modeli özünü doğrultmuşdur və o, nümunəvi yeni model olaraq yüksək tolerantlıq nümayiş etdirir və sübut edir ki, müxtəlif millətlərin, etnik azlıqların və dini konfessiyaların nümayəndələri öz kimliklərini qoruyub saxlamaqla və bir-birlərinə hörmətlə yanaşmaqla davamlı inkişaf edə bilirlər.

Şovinizm, ksenofobiya, dözümsüzlük kimi radikal fikirlər Azərbaycana tamamilə yaddır. Burada hər kəsə, ilk növbədə, insan olduğuna görə dəyər verilir və başqalarına etnik, dini və sosial əlamətlərinə görə, özgə kimi, ayrı-seçkilik prinsipləri mövqeyindən baxılmır. Azərbaycanın səhih şüuru və təhtəlşüuru millətçilik, etnik eqoizm ünsürlərindən tamamilə azaddır. O, hər bir azərbaycanlının müsbət dünyagörüşünü tərənnüm edən müasir görüşlü şəxsiyyət kimi uğurlu taleyini, xoşbəxt gələcəyini vahid, yenilməz və multikultural Azərbaycanda görür. Bu ideya naminə o, bütün qüvvələrini səfərbər etməyə, ötən əsrlərin müqəddəs irsi olan multikultural, tolerant dəyərləri möhkəm qorumağa hazırdır.

II Qarabağ müharibəsi zamanı Azərbaycan cəmiyyətində multikultural və tolerant dəyərlər həmişə və əbədi olaraq həyat tərzi olacağının sübutunun şahidi olduq. Müxtəlif millətlərdən olan azərbaycanlılar: Azərbaycan türkləri, talışlar, ləzgilər, tatlar, ingiloylar, ruslar və digərləri qanları və canları bahasına vətənləri uğrunda çiyin-çiyinə mübarizəyə qalxdılar, dəmir yumruq kimi birləşərək milliyətindən və dinindən asılı olmayaraq düşmən üzərində əzmli qələbə çaldılar. Həmin dövrdə isə ikili standartlarla yaşayan Qərb mediası və siyasətçiləri ərazi bütövlüyümüz uğrunda gedən Vətən müharibəsini dinlərarası qarşıdurma kimi qələmə verirdilər. Burada təsir dairəsini artıran Şərq müsəlman dünyası timsalında "barbar" Azərbaycan, Qərb xristian dünyası timsalında isə "sivil" Ermənistan çıxış edirdi. Əslində isə vəziyyət tam əksinə idi, məzhəbçi, monoetnik və təkdinli xristian Ermənistanla müqayisədə müsəlman Azərbaycan daha dünyəvi və multikultural ölkədir[5].

Cənab İlham Əliyevin göstərdiyi kimi, "İslam sülh dinidir. Bizim milli və dini dəyərlərimiz bütün məsələlərin həllinə məhz bu cür sülh yolu ilə yanaşma tələb edir" [10]. Aydındır ki, Vətən uğrunda mübarizəmizi islam terrorizmi adlandırmaq, ordumuzun sıralarında Suriya yaxud digər müsəlman ölkələrindən gələn terrorçu qruplaşmalarının muzdlu döyüşçülərinin iştirakı haqqında yalan məlumatlar vermək bu xəbərləri yayan erməni diasporunun, Rusiya və Qərb mediasının maraqlarında idi. Bütün bu cəhdlərə baxmayaraq müharibə dövründə ermənilərin ölkəmizdə separatçılığı təşviq edərək bizi daxildən parçalamaq xülyaları nəticəsiz qalaraq boşa çıxdı. Vətən müharibəsi bir daha göstərdi ki, Azərbaycanda dini və milli müxtəlifliklər nəzərə almadanbütün xalqlar dostluq, qardaşlıq, həmrəylik şəraitində yaşayır və ölkəmizdə milli birlik, milli həmrəylik var və həmişə olacaqdır.

İstifadə edilmiş ədəbiyyat

1. Bayramlı N. Azərbaycançılıq milli gücün ideoloji əsaslarını təşkil edən mütərəqqi dəyərlər sistemidir. Xalqımızın zəngin dövlətçilik ənənələrinin möhkəmləndirilməsində vahid milli məfkurə olan azərbaycançılıq ideologiyasının müstəsna rolu var. Yeni Azərbaycan.11mart 2021.No45.S.8
2. BlackGarden: Armenia and Azerbaijan through Peace and War, NY University press, 2003, 133.
3. Əliyev İ. Multikulturalizmin Azərbaycan nümunəsi. Xalq qəzeti. No 127. 20 iyun 2021. S. 1-2
4. http://az.azvision.az/news.php?id=82130
5. http://multikulturalizm.gov.az/post/1720/azerbaycanda-yasayan-xalqlarin-numayendelerinden.html/
6. http://www.demoscope.ru/weekly/ssp/sng_nac_39.php ; http://www.demoscope.ru/weekly/ssp/sng_nac_89.php/
7. http://www.demoscope.ru/weekly/ssp/sng_nac_39.php?reg=5/[42]
8. https://minorityrights.org/country/azerbaijan/#:~:text=Azerbaijan%20has%20a%20large%20number,Udins%20(0.04%20per%20cent)%20and/
9. https://multiculturalism.preslib.az/en_others-hpt5PRUsV3.html/
10. Quliyeva A. Multikulturalizm və dini müxtəliflik. Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Jurnalı. Dövlət və Din. No 01 (72)

Açarsözlər: multikulturalizm, tolerantlıq, mədəniidentiklik,polietnikdövlət, mədənimüxtəliflik, dinidözümlülük

Ключевые слова: мультикультурализм, толерантность, культурная идентичность, полиэтническое государство, культурная разнородность, религиозная терпимость,

Keywords: multiculturalism, tolerance, cultural identity, polyethnic state, cultural heterogeneity, religious tolerance

Xülasə

Məqalədə dünyada və Azərbaycanda multikulturalizm siyasətinin problemləri, xalqımızın zəngin dövlətçilik ənənələrinin möhkəmləndirilməsində çoxkonfessiyalı və polietnik cəmiyyətin vahid milli ideologiyanın yaradılmasında müstəsna rolu haqqında bəhs edilir.

The Azerbaijani model of multiculturalism: a multi-confessional and multi-ethnic society

Summary

The article deals with the problems of multiculturalism policy in the world and Azerbaijan, the exceptional role of a multi-confessional and multinational society in creating a unified national ideology and strengthening the rich traditions of statehood of our people.

Азербайджанская модель мультикультурализма:многоконфессиональное и многоэтническое общество

Резюме

В статье рассказывается о проблемах политики мультикультурализма в мире и Азербайджане, об исключительной роли многоконфессионального и полиэтнического общества в создании единой национальной идеологии в укреплении богатых традиций государственности нашего народа**.**

RƏYÇİ: Dos. T.Əliyev

Günay Şirin qızı Səlimova [95]

XÜSUSİ QAYĞIYA EHTİYACI OLAN ŞAGİRDLƏRLƏ İŞ: PEDAQOJİ YANAŞMALAR VƏ TƏCRÜBƏLƏR

Giriş. Dünya təhsil sistemində son onilliklərdə xüsusi qayğıya ehtiyacı olan uşaqların inklüziv təhsili prioritet sahəyə çevrilmişdir. BMT-nin "Əlilliyi olan şəxslərin hüquqları haqqında Konvensiyası" inklüziv təhsilin hamı üçün əlçatan olmasını önə çəkmişdir. Azərbaycanda da inklüziv təhsil təşəbbüsləri son illərdə güclənmişdir. Müəllim olaraq gündəlik təcrübəmizdə müxtəlif fərdi xüsusiyyətlərə malik uşaqlarla qarşılaşırıq. Bəzən bu uşaqların davranışlarını, ünsiyyət çətinliklərini və ya öyrənmədə gecikmələrini görür, səbəbini ilk baxışdan anlamırıq. Zaman keçdikcə onların sadəcə fərqli öyrənmə ehtiyacları olduğunu dərk edir və daha fərdi yanaşmalar axtarırıq.

Bu məqalə xüsusi qayğıya ehtiyacı olan şagirdlərlə iş zamanı müşahidə etdiyimiz reallıqlar, tədqiqatlara əsaslanan metodlar və uğurlu nümunələrə söykənərək qələmə alınmışdır.

1. Xüsusi qayğiya ehtiyacin mahiyyəti və kateqoriyalari

Xüsusi qayğıya ehtiyac dedikdə yalnız fiziki məhdudiyyətlər deyil, həm də görünməyən, psixoloji, intellektual və davranış sahəsindəki fərqliliklər də nəzərdə tutulur. Bu fərqləri görmək və onları qəbul etmək, müəllimin həm elmi hazırlığına, həm də empatiya qabiliyyətinə bağlıdır.

Təcrübə göstərir ki, XQE olan uşaqlar əsasən aşağıdakı qruplara bölünür:

1. ***Autizm spektr pozuntusu (ASP):*** Bu uşaqlar tez-tez səssiz qalır, sosial qaydaları anlamır və rutini pozulduqda narahatlıq hissi keçirirlər.
2. ***Diqqət çatışmazlığı və hiperaktivlik (DÇH):*** Hərəkətli, impulsiv və diqqəti dağınıq olan şagirdlər üçün öyrənmə daha çətin olur.
3. ***Görmə və eşitmə məhdudiyyətləri:*** Bu uşaqlar üçün vizual və audiotədris vasitələrinin istifadə edilməsi çox önəmlidir.
4. ***Nitq və dil pozuntuları:*** Ünsiyyətdə ləngimələr və çətinliklər müşahidə olunur.
5. ***Sosial-emosional inkişaf pozuntuları:*** Bu şagirdlər münasibət qurmaqda və emosiyaların idarəsində çətinlik yaşayırlar.
6. ***Öyrənmə pozuntuları:*** Disleksiya, diskalkuliya, disgrafiya kimi çətinliklər şagirdin öyrənmə prosesinə maneə törədir.
7. ***Emosional çətinliklər:*** Bəzi uşaqlar özünü ifadə etməkdə çətinlik çəkir və ya aqressiv davranışlar sərgiləyirlər.

2. Müəllimin rolu və effektiv yanaşmalar

1. Müasir inklüziv təhsil mühiti müəllimlərdən yalnız akademik bilik deyil, eyni zamanda fərdi yanaşma, çevik planlaşdırma və həmkarlar arasında əməkdaşlıq bacarığı tələb edir. Qlobal təcrübələr göstərir ki, müəllimlərin fərdi təlim planlarına əsaslanan differensiallaşdırılmış yanaşmaları, texnoloji vasitələrlə dəstəklənən təlim modelləri və bərabərhüquqlu şagird əməkdaşlığı inklüziv təhsilin əsas uğur faktorları sırasındadır. "*Müəllimlərin fərdi yanaşmalarla hər şagirdin dünyasına daxil olması inklüziv təhsilin əsas uğur amilidir*" (4, s. 518). Bir müəllim üçün ən çətin, eyni zamanda ən zəruri bacarıqlardan biri dəyişkən tədris metodları ilə hər bir uşağın dünyasına daxil olmaqdır. Xüsusi qayğıya ehtiyacı olan şagirdlərə standart yanaşma ilə uğur qazanmaq mümkün deyil. Onlar üçün fərdi yanaşma sadəcə seçim yox, zərurətdir. Təlimdə iştirak imkanlarının artırılması, tədris proqramlarının dəyişdirilməsi və şagirdlərin fərdi xüsusiyyətlərinin nəzərə alınması inklüziv təhsil yanaşmasının əsas elementlərindəndir.

   Fərdi müşahidələrim və təcrübəm əsasında, bu cür şagirdlərlə iş zamanı aşağıdakı metodlar ən təsirli olmuşdur:
2. ***Fərdi tədris planı (FTP):*** Şagirdin güclü və zəif tərəfləri üzərində qurulan bir plan daha məqsədyönlü nəticələrə gətirib çıxarır.
3. ***Vizual dəstək:*** ASP-li və diqqət problemi olan uşaqlar üçün şəkillərlə göstərişlər və vizual tapşırıqlar daha yaxşı nəticə verir.
4. ***Rahat mühitin yaradılması:*** Fiziki oturacaq yerindən işıqlanma səviyyəsinə qədər, hər bir detal uşaqların öyrənmə qabiliyyətinə təsir edə bilər.
5. ***Pozitiv münasibət:*** Səbr, anlayış və səmimi münasibət şagirdin emosional dünyasında mühüm dəyişikliklərə səbəb ola bilir.
6. ***Universal dizayn prinsipləri:*** Tədris metodlarının və materialların hər şagird üçün əlçatan olması vacibdir.
7. ***Texnologiyadan istifadə:*** Vizual və interaktiv vasitələrlə tədrisin dəstəklənməsi həm şagirdlərə, həm də müəllimlərə tədris prosesini asanlaşdırır.

[95] Heydər Əliyev adına Müasir Təhsil Kompleksi
Gunaysalim8@yahoo.com
ORCID ID: 0009-0005-7439-5919
10.24412/2218-7588-2025-2-207-210

Bəzən bir şagirdin sinifə uyğunlaşması aylar çəkə bilər. Lakin bu prosesi müşahidə etmək və onu dəstəkləmək müəllim üçün ən böyük qürur mənbəyidir.

3. Məktəb, valideyn və cəmiyyətin rolu

Xüsusi qayğıya ehtiyacı olan (XQE) şagirdlərin uğurlu təhsili yalnız müəllimin səyləri ilə məhdudlaşmır. Bu, kompleks və çoxşaxəli əməkdaşlıq tələb edən bir prosesdir. Müəllim, valideyn, məktəb rəhbərliyi və cəmiyyət bu prosesin əsas iştirakçılarıdır və onların birgə əməkdaşlığı şagirdin inkişafında həlledici rol oynayır. Təcrübələr göstərir ki, valideynlərin prosesə fəal və müsbət yanaşması, uşağın inkişaf tempini əhəmiyyətli dərəcədə artırır. Əksinə, ailənin laqeyd və ya inkaredici münasibəti uşağın adaptasiya və təhsilində ləngimələrə səbəb ola bilər.

Valideynlərlə açıq və davamlı ünsiyyət xüsusilə önəmlidir. Müəllimlər gündəlik və ya həftəlik yazılı və şifahi geribildirimlərlə valideynləri məlumatlandırmalı, onların övladının inkişaf dinamikası barədə xəbərdar olmasını təmin etməlidirlər. Bu proses valideynlə müəllim arasında qarşılıqlı inamı gücləndirir və təhsil prosesindəki ardıcıllığı təmin edir.

İnklüziv təhsil sağlamlıq imkanları məhdud uşaqların sosial mühitə inteqrasiyası və bərabər təhsil imkanlarına çıxışı üçün əsas mexanizmdir. Bu təhsil modelində uşaqlar yalnız məktəbdə deyil, eyni zamanda cəmiyyətdə aktiv iştirak etmək üçün də dəstəklənməlidirlər. Müəllimlərin peşəkarlığı və valideynlərin bu prosesə cəlb olunması təlimin effektivliyini əhəmiyyətli dərəcədə artırır.

Məktəb rəhbərliyinin dəstəyi olmadan inklüziv yanaşmanın uğurla həyata keçirilməsi çətinləşir. Məktəb rəhbərliyi inklüziv təhsilin tətbiqi üçün lazımi infrastrukturun – resurs otaqları, köməkçi müəllim heyəti, psixoloji dəstək xidmətləri – təşkilinə önəm verməli, həssas qərarları müəllimlərlə birlikdə qəbul etməlidir. Bu cür strukturlaşdırılmış dəstək həm müəllimin işini yüngülləşdirir, həm də şagirdin ehtiyaclarının daha dolğun qarşılanmasına şərait yaradır. Müasir inklüziv təhsil modellərində uğur yalnız müəllimin fərdi yanaşma bacarığı ilə deyil, həm də tədris mühitinin texnoloji vasitələrlə təchiz olunması, təlim proqramlarının fərqli ehtiyaclara uyğunlaşdırılması və məktəb mühitində həm pedaqoji, həm də inzibati dəstək imkanlarının artırılması ilə sıx bağlıdır.

Cəmiyyətin rolu isə bu prosesin dayanıqlılığını təmin edən üçüncü mühüm sütundur. Təəssüf ki, hələ də bəzi valideyn və ictimaiyyət üzvləri XQE olan uşaqları sinfə uyğun hesab etməyərək, onların digər şagirdlərə "maneə" olduğunu düşünürlər. Bu cür yanlış yanaşmalar, uşaqların sosial inteqrasiyasına ciddi mənfi təsir göstərir. Ona görə də cəmiyyətdə empatiyanın artırılması, inklüzivliyin faydaları və insan hüquqları ilə bağlı maarifləndirmə işləri aparılmalıdır.

İnklüziv tədbirlər və maarifləndirici fəaliyyətlər: Məktəblərdə və icmalarda mütəmadi olaraq inklüzivlik mövzusunda seminarlar, tədbirlər, valideyn görüşləri və ictimai müzakirələr təşkil olunmalıdır. Bu tədbirlər XQE olan uşaqların yalnız təhsilə deyil, cəmiyyətə də uğurla inteqrasiyasına yardım edir. Uşaqların birgə fəaliyyətlərdə iştirak etməsi – bədii-mədəni layihələr, idman tədbirləri və sosial aksiyalar – onların həmyaşıdları ilə qarşılıqlı anlayış və dostluq münasibətlərini möhkəmləndirir.

Cəmiyyət stereotiplərin qırılması istiqamətində maarifləndirilməlidir: Xüsusi qayğıya ehtiyacı olan uşaqlara qarşı cəmiyyətdə formalaşmış mənfi təsəvvürlər və etiketləyici baxışlar dəyişdirilməlidir. Bu məqsədlə kütləvi informasiya vasitələrində pozitiv təbliğat aparılmalı, fərqli bacarıqlara sahib insanların da cəmiyyətin bir üzvü kimi qəbul edildiyi mesajı verilməlidir. Stereotiplərin qırılması həm şagirdlərin təhsilinə, həm də onların gələcəkdə əmək bazarına və sosial həyata inteqrasiyasına müsbət təsir göstərəcəkdir.

Nəticə etibarilə, məktəb, ailə və cəmiyyət üçbucağı daxilində səmərəli əməkdaşlıq olmadan inklüziv təhsil tam mənada həyata keçirilə bilməz. Bu üç qüvvənin birgə fəaliyyəti sayəsində xüsusi qayğıya ehtiyacı olan şagirdlərin potensialı üzə çıxarılaraq onların cəmiyyətə faydalı fərdlər kimi yetişmələri mümkün olacaqdır.

4. İnklüziv təhsilin tətbiqində yaranan çətinliklər

"*Xüsusi qayğıya ehtiyacı olan (XQE) uşaqlarla işləmək yalnız metodoloji hazırlıq tələb etmir, eyni zamanda müəllimdən yüksək psixoloji davamlılıq və emosional dayanıqlılıq da tələb edir*" (5, s. 30). Bu proses, təhsil sistemindəki struktur problemlər, ictimai yanaşmalar və resurs çatışmazlığı ilə çulğalaşaraq, müəllimlər üçün ciddi çətinliklər yaradır. Aşağıda bu reallıqların bir neçəsi ətraflı izah olunur:

- ***Bütün sinfə bərabər diqqət ayırmaq çətinləşir.*** Xüsusi qayğıya ehtiyacı olan şagirdlər daha çox diqqət və fərdi yanaşma tələb etdiyindən, müəllimlər bəzən digər şagirdlərin ehtiyaclarını tam qarşılayacaq qədər vaxt və enerji tapa bilmirlər. Bu isə ümumi sinif mühitində balansın pozulmasına səbəb ola bilər.
- ***Xüsusi qayğıya ehtiyacı olan şagirdlərlə işləmək yalnız fərdi yanaşmalarla məhdudlaşmır, həm də müvafiq resursların olmaması, mütəxəssis çatışmazlığı ilə əlaqədar olaraq ciddi çətinliklər yaradır.*** Bir çox məktəbdə XQE şagirdlərin inkişafı üçün zəruri olan xüsusi tədris materialları, uyğun texniki vasitələr və təlim keçmiş kadrlar mövcud deyil. Bu isə həm tədrisin keyfiyyətini aşağı salır, həm də müəllimin üzərinə düşən yükü artırır.

- ***Digər şagirdlərin anlayışsız davranışı sosial inteqrasiyaya mane olur.*** Sinifdə olan uşaqlar, xüsusən də aşağı yaş qruplarında, fərqlilikləri qəbul etməkdə çətinlik çəkə bilirlər. Bu, XQE olan şagirdin özünü təcrid olunmuş hiss etməsinə və sosiallaşma prosesinin ləngiməsinə səbəb ola bilər.
- ***Valideynlərin inkar edici və ya passiv mövqeyi təhsildə geriləməyə gətirib çıxarır.*** Bəzi valideynlər övladlarının xüsusi ehtiyaclarını qəbul etməkdə çətinlik çəkir və ya bu reallığı tamamilə inkar edir. Bu da məktəb və müəllim tərəfindən tətbiq edilən tədbirlərin effektivliyini azaldır.
- ***Müəllimlərdə emosional tükənmə və psixoloji yanma (burnout) halları müşahidə olunur.*** Xüsusi ehtiyaclı şagirdlərlə işləmək davamlı emosional enerji, yüksək səbir və mütəmadi adaptasiya tələb edir. Dəstək sisteminin zəif olması hallarında, müəllimlərdə motivasiya itkisi və peşəkar performansın azalması qaçılmaz olur.
- ***Cəmiyyət və bəzən ailələrin anlayışsız münasibəti təhsilin keyfiyyətinə mənfi təsir göstərir.*** Xüsusi qayğıya ehtiyacı olan uşaqlara qarşı bəzi stereotiplər və qərəzli yanaşmalar hələ də cəmiyyətdə geniş yayılmışdır. Bu, inklüzivliyin sosial müstəvidə tam həyata keçirilməsinə əngəl yaradır və müəllimlərin işini daha da mürəkkəbləşdirir.

Bütün bu çətinliklərə baxmayaraq, bir uşağın irəliləyişini görmək, onun özünü ifadə etməyə başlaması, ilk dəfə yazmağa cəhd etməsi və ya bir dost qazanması müəllim üçün böyük bir motivasiya mənbəyidir. Bu anlar bütün əziyyətləri unudacaq qədər dəyərli olur və təhsildəki missiyanın nə qədər mənalı olduğunu bir daha xatırladır.

5. Təcrübələrə əsaslanan uğurlu yanaşmalar

Aşağıdakı metodların həm şəxsi təcrübəmdə, həm də digər müəllimlərin tətbiq etdiyi işlərdə müsbət nəticələr verdiyini müşahidə etmişəm:

1. ***Köməkçi müəllim:*** Bir şagird üçün əlavə müşayiətçi müəllim (valideyn və ya könüllü də ola bilər) dəstəyi çox faydalı olur.
2. ***Sadə və ardıcıl təlim:*** Bir çox tapşırıqdan yox, sadə və ardıcıl tapşırıqlar üzərində çalışmaq daha effektivdir.
3. ***Yumşaq keçidlər və çevik gündəliklər:*** Dəyişikliklərə qarşı həssas olan uşaqlar üçün əvvəlcədən xəbərdarlıq etmək və çevik planlaşdırma vacibdir.
4. ***Emosional dəstək söhbətləri:*** Hərdən bir uşağın "necə hiss edirsən?" sualı verilərək onun duyğuları ilə əlaqə qurulması çox əhəmiyyətlidir.
5. ***Müsbət gücləndirmə:*** Uşaqların uğurlarını qeyd etmək və onları dəstəkləmək özünə inamı artırır.
6. ***Xüsusi ehtiyaclı şagirdlər üçün texnoloji dəstək vasitələri:*** İnteraktiv tətbiqlər və xüsusi proqramlar şagirdlərin öyrənmə prosesini asanlaşdırır.

Nəticə. Məqalə, xüsusi qayğıya ehtiyacı olan şagirdlərlə effektiv şəkildə işləmək üçün tətbiq olunan müasir pedaqoji yanaşmaları və təcrübələri ətraflı şəkildə araşdırır. Müəllimlər üçün fərdi yanaşmaların, empatiyanın və diqqətəlayiq tədris metodlarının vacibliyi vurğulanır. İnklüziv təhsil yalnız akademik müvəffəqiyyətlə məhdudlaşmamalı, həm də şagirdin sosial və emosional inkişafına dəstək olmalıdır.

Təcrübələr göstərir ki, şagirdlərə fərdi dəstək, uyğunlaşdırılmış tədris planları və müsbət münasibət onların inkişafını sürətləndirir və özünə inamlarını artırır. Diferensial təlimin tətbiqi, senzitiv dövrlərə uyğunlaşdırılmış öyrənmə mühiti və sosial-emosional dəstək mexanizmləri bu prosesdə mühüm yer tutur. Həmçinin, pedaqoqların valideynlərlə sistemli əməkdaşlığı, ailə dəstəyinin tədrisə inteqrasiyası, təlimdə müşahidə və müsbət gücləndirmə texnikalarının tətbiqi bu uşaqların adaptasiyasını və təhsil nəticələrini əhəmiyyətli dərəcədə yaxşılaşdırır.

Bundan əlavə, məktəb, valideyn və cəmiyyət arasında sıx əməkdaşlıq inklüziv təhsilin uğurla həyata keçirilməsi üçün vacibdir. Araşdırmalar sübut edir ki, cəmiyyətin maariflənməsi, stereotiplərin aradan qaldırılması və hüquqi dəstəyin gücləndirilməsi bu prosesi dəstəkləyən mühüm amillərdəndir.

Xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsilindəki çətinliklərə baxmayaraq, bu uşaqların potensialını üzə çıxarmaq və onları cəmiyyətə faydalı fərdlər kimi yetişdirmək mümkündür. Bu məqsədə çatmaq üçün pedaqoji hazırlıq, metodik resurslar və inklüziv təhsil siyasətlərinin davamlı inkişafı vacibdir.

Nəticə olaraq, "*inklüziv təhsil yalnız məktəbdə deyil, həm də cəmiyyətin inkişafına, tolerantlıq və bərabər imkanların təşviqinə töhfə verən mühüm bir modeldir*" (3, s. 125).

İstifadə edilmiş ədəbiyyat

1. Dutta, J., & Khan, M. (2023). Inclusive education: A review of current practices and promising approaches. *International Journal of Special Education*, 16(3), s. 425-442.
2. Mammadov, S. (2019). Xüsusi ehtiyacları olan uşaqların təhsilində qarşılaşılan problemlər və həlli yolları. *Pedaqoji Araşdırmalar Jurnalı*, 4(1), s. 45–60.
3. Mikayilova, U., Orujova, L., & Babayeva, U. (2023). Status of inclusive education in Azerbaijan. In *International Perspectives on Inclusive Education* (Vol. 21, s. 121–137). Emerald Publishing.
4. Oswal, N., Al-Kilani, M. H., Faisal, R., & Fteiha, M. (2025). A systematic review of inclusive education strategies for students of determination in higher education institutions: Current challenges and future directions. *Education Sciences*, 15(5), Article 518.
5. Rüstəmova, S. (2021). Azərbaycanda inklüziv təhsil: xüsusi təhsil ehtiyacları olan şagirdlərin inklüziv təhsil müəssisələrindəki təcrübələri. *Azərbaycan Məktəbi*, (3), s. 29–40.
6. Schaffner, S. (2016). Strategies for teaching students with special needs. *Journal of Special Education*, 48(2), s. 57–67.
7. Təhsil Nazirliyi. (2018). *İnklüziv siniflərdə təlimin təşkili*. Bakı: Oxu materialı, s. 2–30.

8. Tomlinson, C. A. (2005). *The differentiated classroom: Responding to the needs of all learners*. ASCD, s. 7–12; 45–79.
9. Xudaverdiyeva, T. (2021). İnklüziv təhsildə təlimin təşkili prinsipləri: perspektivlər və nəticələr. *Azərbaycan Məktəbi*, (3), s. 49–58.

Açar sözlər: xüsusi qayğı, inklüzivlik, müəllim yanaşması, fərdi dəstək, məktəb–valideyn əməkdaşlığı, inkişaf planı
Keywords: special care, inclusivity, teacher approach, individual support, school-parent cooperation, development plan
Ключевые слова: особая забота, инклюзивность, педагогический подход, индивидуальная поддержка, сотрудничество школы и родителей, план развития

Xülasə

Məqalədə xüsusi qayğıya ehtiyacı olan (XQE olan) şagirdlərlə işləmək üçün tətbiq olunan müasir pedaqoji yanaşmalar, bu sahədəki real təcrübələr, müşahidələr və çətinliklər araşdırılır. Məqalə müəllim olaraq bu sahədəki şəxsi təcrübə və müşahidələrə əsaslanaraq yazılmış, XQE olan şagirdlərlə uğurlu işin əsas prinsiplərinə və inklüziv təhsilin məktəb həyatındakı yerinə işıq salır.

Special needs students: pedagogical approaches and practices

Summary

This article explores modern pedagogical approaches applied to working with students with special educational needs (SEN), examines real-life practices, observations, and challenges in this field. The article, based on personal experience and observations as a teacher, presents the key principles of effective work with SEN students and the role of inclusive education in school life.

Работа с учениками, имеющими особые образовательные потребности: педагогические подходы и практика

Резюме

Статья исследует современные педагогические подходы, применяемые в работе с учениками, имеющими особые образовательные потребности (ООП), рассматривает реальные практики, наблюдения и проблемы в этой области. Статья написана на основе личного опыта и наблюдений преподавателя и освещает ключевые принципы успешной работы с учениками ООП и роль инклюзивного образования в школьной жизни.

Sahibə Hidayət qızı Əliyeva [96]

ELMİ KİTABXANALARDA KİTABXANA-İNFORMASİYA XİDMƏTLƏRİ

Kitabxanalar elmi infrastrukturun mühüm tərkib hissəsidir və elmi tədqiqatların dinamikasını və onun qloballaşmasını sürətləndirən "bilik cəmiyyəti" konsepsiyası kontekstində onların əhəmiyyəti durmadan artır. Əsas vəzifənin (elmi fəaliyyətin dəstəklənməsi) ən səmərəli şəkildə həyata keçirilməsi üçün elmi kitabxanalar daim yalnız ehtiyaclara deyil, həm də alimlərin gözləntilərinə uyğunluğunu təmin etməli, kitabxana fondunun formalaşdırılmasına və xidmətlər sisteminin inkişafına çevik yanaşmalıdır.

"Kitabxana xidməti" anlayışı kitabxanaşünaslıqda müfəssəl işlənib hazırlanmışdır,lakin ümumilikdə "kitabxana"dan danışmaq mümkün olmadığı kimi, kitabxana-informasiya xidmətindən də ümumiləşdirilmiş şəkildə danışmaq olmaz. Aydındır ki, xidmətlər toplusu, onların məzmunu və təqdimat formaları ən əhəmiyyətli şəkildə fərqlənir, məsələn, uşaq və elmi kitabxanalarda bu, xüsusilə fərqlidir.

Standartlara görə, kitabxana xidməti "kitabxana istifadəçisinin xüsusi tələbatını ödəyən kitabxana xidmətinin konkret nəticəsidir (sənədlərin verilməsi və qeydiyyatı, yeni qəbzlər haqqında məlumatların verilməsi, arayışlar, sərgilər, məsləhətləşmələr və s.)"

Kitabxanalarda göstərilən xidmətlər müxtəlif əsaslara görə və müxtəlif təfərrüat dərəcələrinə görə təsnif edilir. Əsas kitabxana xidmətlərinin şərti siyahısı aşagıdakı kimi müəyyənləşdirilə bilər:

– sənədli, kommunikativ, kitabxana xidmətləri;

- sənədin tam mətninin verilməsi, biblioqrafik məlumatların verilməsi, faktiki məlumatların verilməsi, analitik məlumatların verilməsi, informasiyanın müstəqil axtarışı üzrə məsləhətlərin verilməsi;

– sənədli, arayış, xəbərlər, istiqamətləndirmə (təlim və konsaltinq), tədqiqat, təşkilati və dəstək, kompleks xidmətlər.

Nümunə olaraq tanınmış rus kitabxanaşunas alimi M.Dvorkinanın yanaşmasından istifadə edərək, bu xidmətlərin məzmununu və onların təqdim edilməsi formalarını nəzərdən keçirək. Sənəd xidmətləri sənədlərə baxılması, müvəqqəti və daimi istifadə üçün veriliş təmin edir. Bunlara ilkin sənədlərin, sənədlər haqqında məlumatların verilməsi, biblioqrafik arayışların verilməsi, yeni daxil olanlar haqqında qrup və kütləvi məlumatlandırma, ədəbiyyatın qrup və kütləvi təbliğatının təşkili, istifadəçilərə, o cümlədən maşınla oxuna bilən məlumat və biblioqrafik aparatlarla təmin edilməsi, verilənlər bazası, sənədlərdən məlumatların verilməsi və s. daxildir. Sənədli xidmətlərə kitabxanaçılıq obyekti kimi sənədlə çox formal əlaqəsi olan, tamamilə fərqli profilli qurumlar tərəfindən təmin edilən və kitabxanalar üçün istifadəyə bağlı olan mətnlərin tərcüməsi və ya xülasələndirilməsi, nəşrlərin təmiri və cildlənməsi daxildir. Bu kimi fəaliyyət oxucu sorgularının təmin edilməsi prosesinə, kitabxananın üzərinə düşən tapşırıqlarının icrasına təsir göstərmir.

M.Y. Dvorkinanın fikrincə, kitabxanaçı xidmət prosesində istinad xidmətləri, istifadəçilərə biblioqrafik, faktoqrafik və digər məlumat bazalarına və məlumat banklarına çıxışı təmin edir və biblioqrafik və faktoqrafik sorğulara (istinad şəklində) cavab verir. Məlumdur ki, biblioqrafik məlumatların sorğusu birbaşa sənədin əldə edilməsi zərurəti ilə bağlıdır və bu mövqelərdən istifadəçi üçün hər hansı biblioqrafik məlumat əldə etmək mümkündür və bu da öz növbəsində sənədli xidmətin əldə edilməsi mərhələlərindən biridir.

Faktiki sorğu informasiyaya olan tələbatdır ki, bu da kitabxana xidməti baxımından sənəddə öz əksini tapır. Buna görə də, bu şərhdə istinad xidmətləri ya aralıq mərhələdir, ya da sənədli xidmətin xüsusi halıdır. İnformasiya xidmətləri cari hadisələr və mövzular haqqında məlumat təklif edir (tanıtım məhsulları, xəbərlər, ETİ-lər, dissertasiya işləri, yeni ədəbiyyatın sərgisi, yeni ədəbiyyatın siyahısı və s.). İnformasiya xidmətlərinin sadalanan formalarını nəzərə alsaq, onların əhəmiyyətli fərqlərini görürük.

Reklam məhsulları, xidmətlərə aid olmayan marketinq fəaliyyətləri sisteminə daxil edilir, çünki onlar istehlakçıya xidmət etməyə deyil, onu kitabxanaya cəlb etməyə yönəldilmişdir, yəni, tamamilə fərqli funksiyanı yerinə yetirir. Öz növbəsində, elmi-tədqiqat işləri, dissertasiyalar, yeni ədəbiyyatın sərgiləri qrup məlumatı baxımından kitabxananın sənəd xidmətinin formalarıdır.

Xidmət zamanı İstiqamətləndirmə (təlim və konsaltinq) xidmətləri istifadəçini məlumat əldə etmək imkanlarına yönəldir və məsləhətlər, seminarlar, mühazirələr, ekskursiyalar şəklində özünü ifadə edir və ya təqdim olunur.

Aydındır ki, bu xidmətlər qrupu daha çox təhsil müəssisələri üçün xarakterikdir və kitabxana tərəfindən əsas fəaliyyətinə münasibətdə fakultativ (bir müəssisə kimi fəaliyyətinə təsir göstərməyən) kimi göstərilir. Beləliklə, bizim kitabxana xidmətlərini onun sosial məqsədinin həyata keçirilməsinə uyğun olan əsas (vacib) - sənədlərdən ictimai istifadənin təşkili və fakultativ olaraq bölmək üçün bütün əsaslarımız var. Əlavə xüsusiyyətlər müvəqqəti və ya daimi ola bilər. Hesab etmək olar ki, kitabxanaların tipologiyasını (uşaq kitabxanalarında xüsusi tədbirlər, təhsil kitabxanalarında biblioqrafik dərslər və s.) daha çox müəyyən edən məktəbdənkənar xidmətlərdir. Məsələn, kitabxana üçün məcburi olmayan və daimi olmayan tədqiqat xidmətləri analitik məlumatların verilməsi, analitik icmal, reytinq məlumatı və s. formada həyata keçirilir.

Elmi kitabxanalarda və elmi-texniki informasiya şöbələrində bu xidmətlər elmi fəaliyyətin qiymətləndirilməsinə rəsmi yanaşmalarla əlaqədar böyük əhəmiyyət kəsb edir və bibliometrik və elmmetrik

[96]**Fəlsəfə üzrə fəlsəfə doktoru sahiba.aliyeva. 71@mail.ru**

10.24412/2218-7588-2025-2-332-334

metodlardan istifadə etməklə həyata keçirilir. Rus kitabxanaşunas alimi E.Y. Elisinaya görə, "bibliometrik təhlil bir neçə xidmətin kollektiv konsepsiyasıdır, o cümlədən müəllifin sitat indeksinin müəyyən edilməsi, illər ərzində onun əsərlərinə edilmiş istinadların sayı, h-indeksinin (H-indeksinin) müəyyən edilməsi və s. nəşrlərinin sayına və bu nəşrlərə istinadların sayına görə alimin məhsuldarlığının xarakterik xüsusiyyətləri, o cümlədən bir sıra digər göstəricilər və nəticələrin öyrənilməsi və xidmətə verilməsi daxildir".

Kitabxana-informasiya xidmətləri qrupuna əsas və daimi fakultativ xidmətlər daxildir ki, burada müasir kitabxana informasiya xidmətinin son nəticəsi nəzərdə tutulur. Kitabxanaların nizamnaməsi və ya digər normativ sənədlərlə nəzərdə tutulmuş informasiya fəaliyyəti, istifadəçiyə onun sorğusuna və ya gözləntisinə uyğun olaraq xidmətlər təklif olunur.

Kitabxana xidmətlərə dedikdə M.Y. Dvorkina istifadəçilərə hazırlanmış sənədləri (referatlar, kurs işləri, tezislər və digər işlər) çap etmək və istifadəyə vermək imkanı verən xidmətlər aiddir; tərcümələr, kurs və diplom işləri üçün siyahının, biblioqrafik vəsaitlərin; ilkin sənədlər; kitabların evə çatdırılması; kitablardan telefonla istifadə müddətinin uzadılması və istifadəçinin ona lazım olan kitabı saxlayanlarla vaxtından artıq birbaşa əlaqə saxlaması və s. xidmət formaları daxil ola bilər. Elektron mühitlə bağlı xidmətlər sahəsində E.Y. Elisinaya görə Elektron kataloqun xidmət imkanlarına yalnız sənədin elektron sifarişi deyil, həm də istifadəçinin sifarişinin icrasının sürətini izləmək, sənədin yerinə nəzarət etmək, bir sıra saytların xəbər lentinə abunə olmaq imkanı daxildir. Nəticədə, elektron nəşrlər, jurnalların açıq əlçatarlıgı, istifadəçilərdə ənənəvi abunə ehtiyacından azad edir. Digər ekspertlərin fikrincə, xidmətlər dedikdə, müəyyən iş sahələrində stasionar, qeyri-stasionar, ayrı-ayrı qruplar şəklində kitabxana xidmətinin təşkili nəzərdə tutulur. Bütövlükdə isə kitabxanaçılıq fəaliyyətini bütünlükdə xidmət fəaliyyətinə aid edən anlayışlar da mövcuddur.

Alimlərin real və spesifik sorgu ehtiyaclarını təmin edən elmi kitabxanalar üçün serviz xidmətlərinin dəyəri xüsusilə böyükdür. Tədqiqatçı Levçenkonun haqlı olaraq qeyd etdiyi kimi, "tədqiqat institutlarının kitabxanasında alimlərə xidmət göstərməyin optimal modeli ona əsaslanmalıdır ki, istifadəçi əsas prosesdən - elmi tədqiqatdan yayınmadan, zəruri resursların axtarışına mümkün qədər az vaxt sərf etsin və onun gözləri qarşısında profil üzrə təşkil olunmuş vahid sənəd-informasiya məkanı formalaşdırılsın. Alim üçün,özünəxidmət üçün hər cür şərait yaradılmalıdır. KAA-nin inkişafı, istifadəçinin ona uyğunlaşması üçün mövcud ehtiyacdan fərqli olaraq, informasiya-kitabxana mühitini istifadəçiyə yaxınlaşdırmağa yönəldilməlidir. Hesab edilir ki, indi servis xidmətləri kimi təsnif edilən xidmətlər iki qrupa bölünür: texniki imkanların təmin edilməsi və konkret kitabxana-informasiya xidmətinə rahatlıq əlavə edilməsi. Servis xidmətləri daimi deyil (vacib xidmətlərdən fərqli olaraq), dəyişkəndir, müəyyən bir kitabxananın maddi-texniki bazasından maksimum dərəcədə asılıdır (yəni çox situasiyalıdır).

Bir vaxtlar Kitabxana-informasiya müəssisələri mütəxəssislərə xidmət siyahısına kitabxanada internetlə təmin etmək, məlumatı disketə və ya hər hansı bir daşıyıcıya köçürmək və s. işlər daxil edirdi. Texniki (kitabxanadan kənar) xidmətlər kimi kitabxananın ərazisində ofis ləvazimatlarının satışı, fərdi istifadə üçün kompüter vaxtının verilməsi və digər ofis avadanlıqlarının istismarı kimi xidmətlər də göstərmişdir.

İnformasiya xidməti "məhsulun informasiya tələbatının ödənilməsi prosesində təkrar istifadəsinə imkan verən sənədləşdirilmiş formada informasiyanın yaradılması və ya semantik emalının nəticəsi" kimi başa düşülməlidir və "informasiya məhsulu" anlayışı ilə sıx bağlıdır ki, bu əlaqə İ.S.Pilkonun əsas konsepsiya olaraq "İnformasiya məhsulları və xidmətləri (ISP)" əsərində aydın şəkildə göstərilir.

Bundan əlavə, o, informasiya xidmətini "istifadəçiyə sorğuya və ya müəyyən edilmiş ehtiyaca uyğun olaraq informasiya məhsullarının təqdim edilməsi" kimi müəyyən edir. İnformasiya məhsulu əsasən aşagıda qeyd olunan şəraitdə yaradılır:

- müəyyən bir xidmətin ən yaxşı şəkildə həyata keçirilməsinə dair kitabxanaçının qərarlarına əsaslanan ilkin kataloq (kitabların verilməsini asanlaşdırmaq üçün yaradılmışdır);
- istifadəçinin istəyi ilə (istinadların tematik siyahısı);
– qrup məlumat ehtiyaclarına (biblioqrafik nəşrlər) əsaslanır.

Bu halda bizim üçün vacibdir ki, kitabxana məhsulunun özü həm serviz xidməti kimi (əgər o, konkret sorğuya cavab olaraq yaradılıbsa), həm də resurs kimi kitabxana-informasiya xidmətləri göstərilir. Kitabxana bir xidmət kimi istifadəçiyə təkcə məhsulun (özünün və ya alınmış) istifadəsini deyil, həm də işçilərin intellektual əməyinin istifadəsini də (kömək, məsləhət) verə bilər.

Kitabxanaşünas alimlərin fikirlərinin təhlilini yekunlaşdıraraq belə qənaətə gəlmək olar ki, xidmətlərin müəyyənləşdirilməsi üçün müasir yanaşma yetərli deyil. Xidmətlərə bu və ya digər kitabxana növünə aid edilmədən baxılır, xidmətlərin təsnifatı və onların göstərilməsi formaları sadalamaya əsaslanır, xidmətin özünün daxili strukturuna malik bir fenomen kimi daha dərindən dərk edilmədən həyata keçirilir. Alimlərə lazım olan kitabxana-informasiya xidmətlərinin siyahısını, məzmununu, göstərilməsi formalarını müəyyən etmək üçün xidmətə məhz bu nöqteyi-nəzərindən baxması məqsədəuygun hesab edilə bilər.Ali məktəblərdə kitabxana-informasiya xidməti prosesində aşagıdakı komponentlərin tətbiqi vacibdir:

Birincisi- zəruri və əlavə kitabxana və informasiya xidmətlərini ayırmaq lazımdır. Əsas xidmətlər bütün bu fəaliyyət növləri üzrə istifadəçilərə sənədlərin təqdim edilməsi ilə bağlıdır. Bu sənədli xidmət müxtəlif formalarda həyata keçirilir (sərgilər, kitab verilişi, surətlərin çıxarılması, KAA tərəfindən təminat, uzaqdan elektron resurslara çıxış və s.). Əlavə xidmətlər kitabxananın fəaliyyəti üçün böyük əhəmiyyət kəsb edə bilər və əsasən onun tipoloji

xüsusiyyətlərini müəyyən edə bilərik. Elmi kitabxanalar üçün bu cür xidmətlər əsasən elmi dəstəkdir (bibliometrik və elmimetrik).

İkincisi-Kitabxana-informasiya xidmətlərini maddi və texniki təminatdan asılı olaraq ikiyə bölmək lazımdır. Məzmun xidmətləri ümumiləşdirilmiş mənada "kitabxana və informasiya" adlanır və informasiya məhsulunun istehsalı ilə sıx əlaqədə təqdim edilə bilər.

Üçüncüsü-istənilən kitabxana-informasiya xidməti təkcə müxtəlif formalarda deyil, həm də müxtəlif rejimlərdə təqdim olunur. Xidmətlərin göstərilməsi rejimi altında istifadəçiyə xidmətlərin göstərilməsini müəyyən edən müvəqqəti, uzaq və digər amillərin məcmusunu nəzərə almaq təklif olunur. Məsələn, müvəqqəti istifadə üçün sənədin verilməsi (sənəd xidməti) açıq girişdən kitabın verilməsi formasında, öz-özünə verilmə, bu zaman xidmət, oxu zalında deyil, iş yerində oxumaq xidməti (müvəqqəti istifadə) seçimi edilir.

Xidmətlərin göstərilməsi və alınması rejimi birbaşa və ya uzaq ola bilər. Bu kontekstdə "uzaqdan istifadəçi", "uzaqdan texniki xidmət", "uzaqdan giriş" kimi formalaşmış anlayışlara qayıtmaq lazımdır. İnsan ya kitabxananın istifadəçisidir, ya da deyil. İstifadəçi kimi o, rabitə vasitələrindən istifadə etməklə birbaşa (ziyarət zamanı) və ya uzaqdan onun xidmətlərinə və resurslarına daxil olmaq hüququna malikdir. Bu vəzifədə yeni bir şey yoxdur, çünki uzaq rejimə nümunə sertifikatların yazılı və ya telefonla verilməsidir. Hazırda elektron kataloq və digər elektron resurslar uzaqdan giriş rejimində təmin edilir. Yenilik ondan ibarətdir ki, elektron mühit vasitəsilə istifadəçi bu xidmətləri özünəxidmət rejimində alır ki, bu da öz növbəsində elmi kitabxanalar üçün istifadəçilər tərəfindən hansı xidmətlərə ehtiyac duyulacağını və tələb olunacağını əvvəlcədən görmək zərurəti deməkdir.

Xidmət rejimi xidmətin çatdırılması kanalları kimi bir konsepsiya ilə sıx bağlıdır, yənə, istifadəçiyə xidmətin göstərilməsinin texniki və texnoloji imkanları nəzərdə tutulur.

Dördüncüsü-yuxarıda qeyd edildiyi kimi, xidmət variantları istənilən informasiya-kitabxana xidmətinə əlavə edilə bilər, yəni, kitabxananın bu xidməti maksimum dərəcədə göstərmək imkanı oxucu üçün rahat olan, istifadəçi işinin bir hissəsini yerinə yetirən, əsasən fərdi üstünlüklərə diqqət yetirən formada həyata keçirilir. Alimlər tərəfindən konkret elmi problemlərin həllinə mümkün qədər yaxın olan elmi-tədqiqat institutlarının kitabxanaları üçün xidmət variantları xüsusilə vacibdir.

Beləliklə, kitabxana-informasiya xidmətlərinin təsnifatını onun ən mühüm xüsusiyyətlərini özündə birləşdirən klaster əsasında qurmağı təklif edilir: məzmun, təminat formaları, çatdırılma və qəbul rejimləri, çatdırılma kanalları və xidmət variantları.

ƏDƏBİYYAT SİYAHISI:

1.Xələfov A.A.Müasir kitabxanaların sosial funksiyaları.//Məqalələr toplusu (1990-2011-ci iilər).Bakı.-BUN,2011.-s.59-81.
2.Xələfov A.A.İnformasiya cəmiyyəti və kitabxana işi.//Məqalələr toplusu (1990-2011-ci illər)Bakı.-BUN,2011.s.193-201.
3.Xələfov A.A.İnformasiya xidməti.//Məqalələr toplusu (1990-2011-ci illər)Bakı.BUN,2011.s.249-258.
4.Линден И. Л. Новый инструмент оценки качества библиотечного обслуживания – SERVQUAL/LibQUAL // Научные и технические библиотеки. 2008. № 4. С. 45–54.
5.Макеева О. В. Возможности метода LibQUAL. Новая программа для увеличения эффективности работы // Библиотека. 2010. № 6.

Açarsözlər:
Elmiinfrastruktur,biliklərcəmiyyətikonsepsiyası,təlim və konsaltinq,kitabxanalararası abonement(KAA)
Key words: Scientific Infrastructure,Knowledge Society Consept,Traininq and Consaltinq Interlibrary Subscription (ISL)
Ключевые слова: Научная инфрастуруктура, консепсия общества знании, обучение и консалтинг.межбиблиотечный абонент (МБА)

Xülasə:

Məqalədə "biliklər cəmiyyəti" konsepsiyası konteksində Elmi kitabxanaların qarşısında duran vəzifələr açıqlanır.Elmi kitabxanalarda kitabxana-informasiya xidmətinin növləri,müasir təkmilləşmə metodlarının tətbiqi,elmi fəaliyyətin dəstəklənməsinin forma və üsulları kimi metodların tətbiqi açıqlanır.Elmi kitabxanalarda kitabxana-informasiya xidmətinin tətbiqində Rus kitabxanaşünaslığının nəzəriyyə və praktik təcrübə metodlarından istifadə olunmuşdur.Müasir Azərbaycan kitabxanaşünaslığında Ali məktəblər qarşısında duran vəzifələrin konseptual həlli öz istiqamətini tapmışdır.

Library and İnformation Services in Scientific Libraries

Summary:

The article explains the tasks focinq scientific libraries in the context of the ''Knowledge society '' concept.The types of library and information sevices in scientific libraries, the application of modern improvement methods are explained.The theoretical and practical methods of Russion**.**

Библиотечно-информационные услуги в научных библиотек

Аннотация:

В статье раскрываются задачии стоящие перед научными библиотеками в контексте концепции «общества знании»Разьясняются виды библиотечно-информационные услуги в научных библиотек.Концептуальное решение залач, стоящих перед вузами современного Азербайджанского библтотековедения нашло свое направление.

DİL

VƏ

ƏDƏBİYYAT

LANGUAGE AND LİTERATURE **ЯЗЫК И ЛИТЕРАТУРА**

Beynəlxalq elmi-nəzəri jurnal

Elektron versiyası **Электронная версия**

2(128)

Nəşriyyat direktoru: Elnarə Abbasova
Texniki redaktor: Asim Səfərov
Dizayner: İradə Əhmədova
Operator: Leyla Məmmədli, Ömər Qasımlı

Yığılmağa verilmişdir: 25.03.25
Çapa imzalanmışdır: 07.04.25
Şəhadətnamə № 27
Lisenziya: Seriya AB № 022471.
Kağız formatı: 64x80 1/8, ş.ç.v. 75,25 ç.v.
Sifariş: 128;
Tirajı 1000. Qiyməti pulsuz.
"Füyuzat" nəşriyyatında çap edilmişdir.
Ünvan: Bakı şəh., Z.Xəlilov küç., 26
e-mail: fuyuzat2020@gmail.com
Tel.: 055 850-98-69